Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# *2019-cu il üçün Əlamətdar və tarixi günlər təqvimi*

**Bakı – 2019**

## Tərtibçidən

Ötən əsrin yetmişinci illərində F.Köçərli adına Respublika Uşaq Kitabxanasında elmi-metodik fəaliyyəti kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə zəngin metodik nəşrlər fondu yaradılıb. Fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik-təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanılıb. Hazırda buradan yalnız kitabxananın öz işçiləri deyil, həmçinin respublikada fəaliyyət göstərən uşaq kitabxanalarının əməkdaşları da geniş istifadə edirlər. Elmi-metodika şöbəsinin tərtib etdiyi metodik məktub və tövsiyələrdən respublikamızın uşaq kitabxanaları və uşaq mütaliəsinə rəhbərlik edənlər bəhrələnirlər.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası bir çox dünya kitabxanaları ilə əlaqə yaradıb və onların iş təcrübələrindən istifadə etməklə, bu sahədə ən müasir metod və formaları tətbiq edib.

Elmi-metodika şöbəsi son illər metodiki vəsaitlərlə yanaşı, əlamətdar və tarixi günlər təqvimi də hazırlayır. İllər ötdükcə təqvim daha da təkmilləşir, həcmi genişlənir, mövzu üzrə bölmələrinin sayı artır və geniş məlumat mənbəyi kimi formalaşır. Təqvim mədəniyyət işçiləri, müəllimlər, kütləvi informasiya vasitələri və daha çox kitabxana işçiləri üçün nəzərdə tutulub. Təqvimi hazırlamaqda əsas məqsəd geniş oxucu kütləsinə və mütəxəssislərə respublikamızın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, kitabxana işi haqqında və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Təqvimə milli və dünya ədəbiyyatı, incəsənət, elm, texnika və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, eləcə də tarixi hadisələr haqqında məlumatlar daxil edilir. Ümid edirik ki, yubilyarlar, əlamətdar və tarixi günlər haqqında təqvimdə verilən materiallar kütləvi tədbirlərin keçirilməsində kitabxanaçılar üçün gərəkli olacaq. İstifadəçilərdən xahiş edirik ki, təqvimlə bağlı rəy və təkliflərini kitabxanamızın elmi-metodika şöbəsinə çatdırsınlar.

**Ünvan:** Bakı şəhəri, S.Vurğun küçəsi 88
**E-mail:** rukelmimetodika@gmail.com

## Yanvar

### Əlamətdar və tarixi günlər
1 Yanvar – Yeni il
15 Yanvar – Vikipediya gününün yaranması, (1999)
16 Yanvar – Ümumdünya Bitlz Günü, (2001)
17 Yanvar – Ümumdünya Uşaq İxtirası Günü
20 Yanvar – Ümumxalq Hüzn Günü, (1990)
21 Yanvar – Beynəlxalq Qucaqlaşma Günü, (1986)
23 Yanvar – Əl Yazısı (xətt) Günü
29 Yanvar – Gömrük İşçiləri Günü, (1992)
Yanvar ayının bazar günlərindən birində – Ümumdünya Qar Günü. Beynəlxalq Qış İdman Növləri Günü, (2012)

### Azərbaycanın görkəmli şəxsiyyətləri
Hərbi xadim, tam süvari qoşunu generalı İsmayıl Xan Naxçıvanskinin 200 illiyi, (05.01.1819-10.02.1909)
Filologiya elmləri doktoru, Əməkdar elm xadimi Afad Qurbanovun 90 illiyi, (10.01.1929-26.09.2009)
Azərbaycan Demokratik Respublikasının banisi M. Ə. Rəsulzadənin 135 illiyi, (31.01.1884-06.03.1955)
Şair, nasir və teatr xadimi Səməd Kazımzadənin (Səməd Mənsur) 140 illiyi, (31.01.1879-03.01.1927)

### Yubilyar yazıçı və şairlər
Məhəmməd Füzulinin 525 illiyi, (1494-1556)
Ədəbiyyatşünas Vaqif Vəliyevin 95 illiyi, (01.01.1924-24.05.1998)
Şair Rövzət Dəmirçizadənin 80 illiyi, (03.01.1939-15.04.2010)
Yazıçı, publisist Rövşən Vəliyevin (Novruzoğlunun) 65 illiyi, (06.01.1954)
Yazıçı Rafiq Səməndərin 70 illiyi, (10.01.1949)
Yazıçı, şair Baba Vəziroğlunun 65 illiyi, (10.01.1954)
Yazıçı Ənvər Yusifoğlunun 105 illiyi, (15.01.1914-04.03.1989)
Şair Vaqif Nəsibin 80 illiyi, (16.01.1939)
Ədəbiyyatşünas Aydın Məmmədovun 75 illiyi, (16.01.1944-19.04.1991)
Şair Azad Talışoğlunun 95 illiyi, (21.01.1924-16.05.2008)
Şair Əli Tudənin 95 illiyi, (31.01.1924-26.02.1996)

### Folklor
Əməkdar incəsənət xadimi, saz ifaçısı Ədalət Nəsibovun 80 illiyi, (27.01.1939-14.09.2017)

**Xarici ədəbiyyat**
Alman dramaturqu Lessinqin 290 illiyi, (Qothold Efraim) (22.01.1729-15.02.1781)
Şotlandiya şairi Berns Robertin 260 illiyi, (25.01.1759-21.07.1796)
Gürcüstanın Xalq şairi Leonidze Georgi Nikolayeviçin 120 illiyi, (28.01.1899-09.08.1966)

**İncəsənət**
Bəstəkar Şəfiqə Axundovanın 95 illiyi, (21.01.1924-26.07.2013)
Xalq artisti, dirijor Əşrəf Həsənovun 110 illiyi, (24.01.1909-09.08.1983)
Xalq artisti, aktyor İlham Əhmədovun 70 illiyi, (09.01.1949)
Xalq artisti, aktyor Hacı İsmayılovun 75 illiyi, (22.01.1944)

**Milli Qəhrəmanlar Zirvəsi**
Azərbaycanın Milli Qəhrəmanı Quliyev Mətləb Kamran oğlunun 60 illiyi, (09.01.1959-31.08.1992)
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Rövşən Əbdülhüseyn oğlunun 50 illiyi (16.01.1969-13.09.1992)
Azərbaycanın Milli Qəhrəmanı Hikmət Oqtay oğlu Muradovun 50 illiyi, (23.01.1969-29.10.1991)

**Yanvar**
**Əlamətdar  və tarixi günlər**
**1 Yanvar – Yeni il**

*Yeni ildə sizə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram. Mən arzulayıram ki, yeni ildə bizim bütün balalarımız yaxşı oxusunlar, təhsillərini davam etdirsinlər, savadlı olsunlar, müxtəlif biliklərə yiyələnsinlər. Çünki hər bir insanın gələcəyini, gələcək taleyini onun biliyi, savadı, təhsili təmin edir. Ona görə, əziz uşaqlar, sizin bugünkü vəzifəniz məhz yaxşı oxumaq, bilikli olmaqdır. Mən arzu edirəm ki, bizim bütün balalarımız Azərbaycana, Vətənə bağlı olsunlar, Vətəni sevsinlər, vətənpərvər böyüsünlər. Azərbaycan kimi ölkədə yaşamaq böyük xoşbəxtlikdir. Azərbaycanın təkrarolunmaz təbiəti, qədim və zəngin mədəniyyəti, istedadlı xalqı vardır.*

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*



Yeni il Yer kürəsinin bütün guşələrində, dini etiqadlarından asılı olmayaraq, müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan bayramlardandır. Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar bu günü İsa peyğəmbərin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Verilən mənbələrə görə bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır. Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olub. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçilərin fikrincə, məhz həmin dövrdə ərazilərdə bu bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi yüksələndə əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmişdir. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli küknar ağacsız təsəvvür etmək çətindir. Əlbəttə, bu, təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq naminə süni küknarla da keçinmək olar.

İnternetdə: www.books.google.com

## 15 Yanvar – Vikipediya gününün yaranması, (1999)

Vikipediya – İnternetdə azad şəkildə yayımlanan, dünyanın bir çox dillərində viki texnologiyasının tətbiqi ilə könüllü istifadəçilər tərəfindən yaradılan ensiklopediyadır. Yarandığı dövrdən, yəni 2001-ci ilin əvvəllərindən İnternetdə Viki texnologiyası ilə işləyən ən nəhəng layihə Vikipediya (Wikipedia) – azad onlayn ensiklopediyasıdır.

Layihənin tarixi 1999-cu ildən başlayır. Layihənin baş redaktoru, təşkilatçısı Larri Senqer və Bomis kompaniyasının icraçı direktoru, layihəni maliyyələşdirən Cimmi Uels Viki texnologiyası əsasında onlayn ensiklopediya yaratmaq qərarına gələrək onu Nupediya (NuPedia.com) adlandırdılar. Nupediya virtual ensiklopediyası, 2000-ci ilin mart ayından fəaliyyətə başladı. İngilis dilində yaradılmış bu ensiklopediyanı viki-sayt hesab etmək olmazdı. Onun əsasını alim və mütəxəssislər tərəfindən məqalələrin dəqiq yoxlanması təşkil edirdi. Nupediyada məqalələrin daxil olunması prosesi çox ləng getdiyindən onun bağlanması haqqında qərar qəbul edildi və 2003-cü ilin sentyabr ayında bağlandı. Nupediya ensiklopediyası bağlanarkən orada 24 tamamlanmış, 74 yoxlama prosesində olan məqalə var idi. Nupediya ensiklopediyası əsasında yaradılmış Vikipediya açıq ensiklopediyası 2001-ci ilin 15 yanvar tarixində İnternetdə fəaliyyət göstərməyə başlayır. Nupediyadan fərqli olaraq Vikipediyada məqalələr könüllü İnternet istifadəçiləri tərəfindən yoxlanılır ki, bu da ensiklopediyanın çox sürətlə zənginləşməsinə səbəb olmuşdur. Ensiklopediyanın adı ingilis texniki termini olan "wiki" (saytın fəaliyyətinin əsasını təşkil edən texnologiya; söz özü havay dilində "tez" deməkdir) və "encyclopedia" (ensiklopediya) sözlərindən yaranıb. Vikipediyanın yaradıcıları – Cimmi Ueyls və Larri Senger tamamilə ayrı fəlsəfəyə əsaslanan, biliklərini paylaşmaq istəyən insanların birgə təşəbbüsü ilə dünyanın ən dolğun İnternet ensiklopediyasını yaratmaq qərarına gəlmişlər. Bu təşəbbüs özünü doğrultmuş və Vikipediya qısa zamanda dünyanın ən məşhur 25 internet saytı sırasına daxil olmuşdur. 2009-cu ildə aparılan araşdırmalara görə, ingilis dilində olan Vikipediya dünyanın ən çox oxunan və internet istifadəçilərinin tez-tez müraciət etdikləri saytlar arasında 1-ci yeri tutmuşdur. Vikipediyanı Britannika kimi digər internet ensiklopediyalardan fərqləndirən əsas cəhət onun açıq olması, yəni istənilən internet istifadəçisinin onu redaktə edə bilməsidir.

İnternetdə: www.books.google.com

## 16 Yanvar – Ümumdünya Bitlz Günü (The Beatles), (2001)




2001-ci ildən YUNESKO-nun qərarı ilə hər il yanvarın 16-sı Ümumdünya Bitlz Günü kimi qeyd olunur. Bu tarix təsadüfi olaraq seçilməyib. 1957-ci il yanvarın 16-da Böyük Britaniyanın Liverpul şəhərində "The Cavern" klubu açılıb. Məhz bu klubda hələ o zaman heç kəsin tanımadığı gənc musiqiçilər – Con Lennon, Pol Makkartni və Corc Harrison şöhrətə doğru ilk addımlarını atıblar. Bir neçə il sonra Rinqo Star da onlara qoşulub.

İnternetdə: www.books.google.com

## 17 Yanvar – Ümumdünya Uşaq İxtirası Günü




Hər il 17 yanvar dünyada Uşaq İxtirası Günü kimi qeyd edilir. Maraqlıdır ki, bu tarix məşhur amerikalı siyasətçi Benjamin Franklinin doğum günü tarixi ilə eyni gündə təyin edilmişdir. 1718-ci ildə 12 yaşlı Benjamin balıq üzgəclərini xatırladan iki qəribə əşya ilə çimərlikdə peyda olur. Ətrafdakıların istehzalı gülüşlərinə baxmayaraq, Benjamin o gün hamıdan daha sürətlə üzür. Beləliklə, üzgüçülük üçün ilk lazımı əşya yaranmış olur. Franklin 15 yaşında olarkən dünyaya növbəti bir yenilik – yellənən kürsünü bəxş edib.




1824-cü ildə isə fransız çəkməçinin 15 yaşlı oğlu Lui Brayl görmə qabiliyyəti olmayan insanlar üçün xüsusi şrift yaradıb və bu hərflər onun şərəfinə Brayl şrifti adlandırılıb. Qeyd edək ki, Lui atasının emalatxanasında çəkməçi bıçağına ilişərək yıxılmış və 5 yaşında görmə qabiliyyətini itirmişdir. Lakin Lui öz ixtirasının köməkliyi ilə oxumağı öyrənmişdi. Dünya hələ də bu ixtiradan istifadə edir.

Amerikalı Frenk Epperson isə qışda küçədə qalmış 1 stəkan limonadın onu milyonçuya çevirəcəyini ağlına belə gətirməmişdi. Səhər limonad soyuqdan buza çevrilmiş, bununla da 11 yaşlı Epperson "meyvəli buzu" ixtira etmişdir. O, ilk vaxtlarda öz ixtirasını kütləvi istehsalata çevirməyi düşünmürdü və onu yalnız 18 ildən sonra, yəni 1923-cü ildə donmuş limonad istehsalı ilə məşğul olan zavodu yaratdıqda xatırlayırdı. 1928-ci ildə isə patenti satmış və mütəmadi olaraq yaxşı gəlir əldə etmişdir.




İnternetdə: www.books.google.com

**20 Yanvar – Ümumxalq Hüzn Günü, (1990)**

***Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*




20 Yanvar faciəsi 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktıdır. Yanvarın 19-dan 20-nə keçən gecə, əvvəlcədən fövqəladə vəziyyət elan edilmədən, sovet ordusu Azərbaycana qarşı hərbi əməliyyatlara başlayıb. Faciə zamanı 137 insan öldürülüb, 744 nəfər ağır xəsarət alıb, 841 nəfər isə qanunsuz həbs edilib. 17 yanvar 1992-ci ildə Ali Sovetin Milli Şurası (1991-1992-ci illərdə qanunverici orqan funksiyasını yerinə yetirən orqan) "20 Yanvarın Şəhidlər Günü elan olunması haqqında" qanun qəbul edib. Qanuna əsasən yanvarın 20-si ölkə ərazisində qeyri-iş günü elan olunub. 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilib, faciənin günahkarlarının adları açıqlanıb. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, küçələrə və meydanlara çıxaraq qəti etirazını bildirən xalq kütlələrinə qarşı Azərbaycan ərazisinə ordu hissələrinin yeridilməsi 1990-cı ilin 20 yanvarında misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucaldılar.

**Kitablar:** R.Səməndər "Şəhidlər" (1990), V.Babanlı "Hoydu, dəlilərim, hoydu!" (1993), M.Ələkbərli "Ağlama şəhidlərə" (2002), Hidayət "Azərbaycan harayı" (2002), N.Kəsəmənli "20 Yanvar ; Qar yağır Şəhidlər xiyabanına" (2002), Qabil "Çalsın Azərbaycan haray zəngini" (2002), B.Vahabzadə "Şəhidlər" (2002), B.Eyyubova "20 Yanvar" (2003), A.Kamal "Şəhidlər xiyabanı" (2003), N.Əyyub "Qanlı Yanvar" (2004), M.Gülgün "Şəhid balaları", O.Hacıyeva "Şəhidliyə qovuşaq" (2004), Y.Hüseyn "Şəhidlər" (2004), İ.Allahverdiyev "Şəhidlər xiyabanı" (2005), M.Aslan "Ağla, qərənfil, ağla" (2006), Aslan M. "Məzarsız şəhidə ağı" (2006), R.Buzovnalı "Şəhidlər" (2007), Z.Dəmirçi "20 Yanvar" (2008) və s.
**Filmoqrafiya:** "Azadlığa gedən yollar" (1990), "20 yanvar" (1990), "Matəm" (1990) və s. İnternetdə: www.az.wikipedia.orq; www.books.google.com

**21 Yanvar – Beynəlxalq Qucaqlaşma Günü, (1986)**

  

Yanvarın 21-də bütün dünyada ən qeyri-adi bayramlardan biri – Beynəlxalq Qucaqlaşma Günü qeyd olunur (İnternational Hug Day). Bu bayramın əsası 1986-cı ildə ABŞ-da qoyulmuş, sonradan bütün dünyada yayılmışdır. Bayramın ənənəsinə görə həmin gün hətta tanımadığın insanlarla belə dostcasına qucaqlaşa bilərsən.

Bu bayramın çox gənc olmasına baxmayaraq, onun müəllifinin kimliyi və nə üçün məhz bu günü seçməsi müəyyənləşdirilməyib. Belə hesab olunur ki, bayramın təşəbbüskarı tələbələr olmuşlar.

Son illərdə gənclər bu bayramı geniş qeyd edirlər. Bayramın tərəfdarları hesab edirlər ki, insanlar qucaqlaşan zaman bir-birlərinə müsbət enerjilərini, qəlblərindən gələn istiliyi ötürürlər.

Psixoloqlar belə hesab edirlər ki, sizi qucaqlamaq istəyən insanlar təhlükəsizlik, komfort və sevgi hisslərini yaşamaq istəyirlər. Qucaqlaşma bizi bütün ömrümüz boyu müşayiət edir. Biz görüşdüyümüz zaman və ya uzun ayrılıqdan sonra doğmalarımızı və dostlarımızı qucaqlayırıq, öz sevincimizi və minnətdarlığımızı bildirmək istəyərkən də qucaqlaşırıq. Bu bayram heç bir maddi xərcə səbəb olmur. Siz sevdiklərinizi yalnız qəlbinizin hərarəti ilə, ürəkdən qucaqlaşaraq, sevginizi ifadə edərək təbrik edirsiniz, mükafatlandırırsınız.

İnternetdə: www.books.google.com

## 23 Yanvar – Əl Yazısı (xətt) Günü



Dövrümüzdə kompüterlərin, elektron poçtların, elektron bloknotların, SMS-lərin və digər sürətli ünsiyyət vasitələrinin ildən-ilə populyarlıq qazanması müasir insanı öz fikirlərini əli ilə yazaraq ifadə etməkdən uzaqlaşdırır. Bəlkə də, yaxın gələcəkdə əl ilə yazılmış məktub və ya açıqca arzu olunan hədiyyə olacaq.

Hər il yanvarın 23-ü Xətt Günü və ya daha gözəl deyimlə, Əl Yazısı Günü (National Handwriting Day) qeyd olunur. Bu günün qeyd olunmasında əsas məqsəd insanlara əl yazısının unikallığını, hər bir insanın əl yazısının özünəməxsusluğunu, əl ilə yazı yazmağın vacibliyini xatırlatmaqdır.

Bu bayramın qeyd olunması ABŞ-ın WIMA təşkilatı tərəfindən təklif olunub. WIMA ABŞ-ın yazı ləvazimatları istehsalçılarının assosiasiyasıdır. Təşkilatın məqsədi əl yazısının dəyərini xatırlatmaq və onun populyarlığını artırmaq olmuşdur. Bu məqsədlə qeyd olunacaq bayramın tarixi ABŞ-ın məşhur dövlət xadimi Con Xenkokun anadan olduğu gün seçilmişdir. C.Xenkok ABŞ-ın Müstəqillik Bəyannaməsinə ilk imza atan şəxs olmuşdur.

Çində, Yaponiyada və bir çox digər Asiya ölkələrində gözəl yazmaq bacarığı incəsənət hesab olunur və bu gün hətta kalliqrafiya ustaları çox yüksək qiymətləndirilir. Başqa ölkələrdə gözəl əl yazısı çox yüksək qiymətləndirilməsə də, yaxşı xətt, gözəl əl yazısı hər yerdə hörmətə layiq görülür. Odur ki, belə bir bayramın qeyd olunması çox mənalıdır.

İnternetdə: www.books.google.com

## 29 Yanvar – Gömrük İşçiləri Günü, (1992)

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən az sonra – 1992-ci il yanvarın 29-da müstəqil gömrük sisteminin əsası qoyuldu. Gömrük dövlət xəzinəsini gəlirlə təmin edən ən mühüm dövlət atributlarından biridir. Bu sistemi həm də ölkəyə qeyri-qanuni yolla müxtəlif malların gətirilməsinin, habelə ölkənin ən mühüm strateji sərvətlərinin aparılmasının qarşısını alır. Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur.

Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi. Aprel işğalı, digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi.

SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 29 yanvar gömrük işçilərinin peşə bayramı günü elan olunmuşdur.

İnternetdə: www.books.google.com

**Ümumdünya Qar Günü, yaxud Beynəlxalq Qış İdman Növləri Günü, (2012)**





2012-ci ildə dünyada daha bir müsbət ənənə yaranmışdır. Həmin ilin qışından başlayaraq Beynəlxalq Xizək İdmanı Federasiyasının (FIS) təşəbbüsü ilə bu bayram – Ümumdünya Qar Günü (World Snow Day) adlanmışdır. Onun başqa adı isə – Beynəlxalq Qış İdman Oyunları Günüdür. Bayram hər il yanvar ayının bazar günlərindən birində qeyd olunur.

Bayramın məqsədi qış idman oyunlarına marağı artırmaq və gəncləri fəal həyat tərzinə cəlb etməkdir. FIS-in fikrinə görə, həmin gün "qar festivalları" keçirilməlidir və burada həm uşaqlar, həm də böyüklər xizək və konki yarışlarında iştirak etməlidirlər.

İnternetdə : www.books.google.com

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

**5 Yanvar – Hərbi xadim, tam süvari qoşunu generalı İsmayıl Xan Naxçıvanskinin 200 illiyi, (05.01.1819-10.02.1909)**



İsmayıl Xan Naxçıvanski sonuncu Naxçıvan xanı Ehsan Xan Kəngərlinin oğlu, Kəlbəli Xan Naxçıvanskinin qardaşıdır. Naxçıvanski İsmayıl xan Ehsan xan oğlu Tiflis hərbi gimnaziyasını bitirmiş (1839), bir il sonra poruçik rütbəsi almışdır. Uzun müddət Qafqaz Əlahiddə Ordusunda xidmət edən Naxçıvanskiyə 1844-cü ildə ştabs-kapitan, 1860-cı ildə isə alay komandiri kimi polkovnik rütbəsi verilmişdir. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə isə o, general-mayoru rütbəsinə layiq görülmüşdür.

Ordudan tam süvari qoşunu generalı rütbəsi ilə tərxis olunan Naxçıvanski vətənində abadlıq işləri ilə məşğul olmuş, Naxçıvana su çəkdirmiş, kəhrizlər qazdırmış və tarixi abidə kimi bugünədək qorunan künbəzli hamam tikdirmişdir. Xurşud Banu Natəvanın qızı Xanbikə xanımı oğlu Əman xana alıb, Qarabağ xanlığı ilə qohum olmuşdur. Birinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav", üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunmuşdur. Naxçıvanskinin adı Sovet Hərbi Ensiklopediyasının birinci cildində də çəkilir, "Bəyazid" şəhəri rus qoşunları tərəfindən mühasirəyə alınarkən gedən ağır döyüşlərə polkovnik Naxçıvanskinin rəhbərlik etdiyi göstərilir. Bəzi tədqiqatlarda Naxçıvanski İsmayıl xan onun qardaşı oğlu olan Hüseyn Xan Naxçıvanski ilə qarışıq salınmışdır.

İnternetdə: http://www.azerbaijans.com/content_1655_az.html

**10 Yanvar – Filologiya elmləri doktoru, akademik Afad Qurbanovun 90 illiyi, (10.01.1929-26.09.2009)**



Afad Qurbanov 1929-cu ildə yanvarın 10-da Borçalının Qızıl Şəfəq kəndində anadan olmuşdur. 1950-ci illərdən etibarən isə Azərbaycan Dövlət Pedaqoji Universitetində Filologiya fakültəsinin dekan müavini, dekanı, Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifəsində çalışıb. 1981-1989-cu illərdə APİ-nin rektoru olub. 1990-1994-cü illərdə isə Milli Məclisin üzvü olmuş A. Qurbanov əlifba islahatının təşkilatçılarındandır. Aspirantlıqdan Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvülyünə qədər şərəfli bir tədqiqatçı yolu keçən A.Qurbanov 1962-ci ildə professor Əbdüləzəl Dəmirçizadənin rəhbərliyi ilə "Səməd Vurğunun "Vaqif pyesinin dili və üslubu" mövzusunda namizədlik, 1968-ci ildə isə "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun onomalogiyaya dair 100-ə qədər məqaləsi "Azərbaycan onomastikası" (1986), "Azərbaycan onomalogiyası məsələləri" (1986), "Poetik onomastika" (1988), "Azərbaycan dilinin onomalogiyası" (1988) kimi sanballı monoqrafiyaları çap olunmuşdur. Bu əsərlərdə onomastik vahidlərin tədqiqi tarixi, onomastik mənbələr, onomalogiyanın elmi-nəzəri məsələləri kompleks və sistemli şəkildə tədqiq edilmişdir. Elmi yaradıcılığa "Şagirdlərin yazılı və şifahi nitqlərindəki yerli şivə və qalıqlarına qarşı mübarizə" (1956) adlı məqalə ilə başlayan yorulmaz tədqiqatçı Azərbaycanda və bütün türk dünyasında "Dilçiliyin sistemi" (1976), "Dilçiliyin tarixi" (1976), "Müasir Azərbaycan ədəbi dili" (1967, 1985), "Bədii mətnin linqvistik təhlili" (1986), "Azərbaycan onomastikası" (1986), "Azərbaycan dilinin onomalogiyası" (1988), "Ümumi dilçilik", I-II cildlər (1989-1993), "Dünyanın dil ailələri" (1994) və s. kimi sanballı əsərləri ilə məşhurdur. Azərbaycan ədəbi dilinin fonetika, qrafika, leksikologiya, semasiologiya, frazeologiya və digər sahələri A.Qurbanovun 1967-ci ildə çap etdirdiyi "Müasir Azərbaycan ədəbi dili" kitabında sistemli şəkildə, həm də sinxronik prizmadan tədqiq edilmişdir. Görkəmli dilçi son 50 ildə dünyanın bir sıra böyük şəhərlərində dilçiliyə, xüsusilə türkologiyaya aid keçirilən konfransların əksəriyyətində aktual və orijinal məruzələrlə çıxış edib. Görkəmli alim Azərbaycan elmindəki rolu və nüfuzu sayəsində 1981-1983-cü illərdə APİ-də (ADPU-da) filologiya və pedaqogika elmləri üzrə müdafiə şurasının sədri olmuşdur. Afad Qurbanov 26 sentyabr 2009-cu ildə vəfat edib.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S. 34.

**31 Yanvar – Azərbaycan Demokratik Respublikasının banisi M. Ə. Rəsulzadənin 135 illiyi, (31.01.1884-06.03.1955)**



Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Din xadimi olan atası oğlunu məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci "Rus-müsəlman" məktəbinə qoymuş, buranı bitirdikdən sonra M.Ə.Rəsulzadə öz təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirmişdir. 1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman Gənclik Təşkilatı"nı yaratmışdır. Onun "Bir kərə yüksələn bayraq, bir daha enməz!" ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının devizi olmuşdur. Siyasi fəaliyyəti ilə yanaşı ədəbi yaradıcılığını da davam etdirən Məhəmməd Əmin Rəsulzadənin “Müxəmməs” adlı ilk əsəri “Şərqi Rus” qəzetində çap olunmuşdur. Məhəmməd Əmin Rəsulzadənin redaktor olduğu “Füyuzat”, həmçinin Əhməd bəy Ağayevin redaktorluğu ilə çıxan "İrşad" və "Tərəqqi" qəzetlərində müxtəlif mövzularda məqalələri və şeirləri çap olunmuşdur. 1908-ci il dekabrın 5-də Məhəmməd Əminin "Qaranlıqda işıqlar" pyesi tamaşaya qoyuldu. Pyesin ana xəttini milli oyanış və istiqlal hərəkatının təbliği təşkil edirdi. M.Ə.Rəsulzadə 1928-ci ildə İstanbulda "İnqilabçı Sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və Bolşevizm" və "Qafqasya türkləri" kimi əsərlərini çap etdirmişdir. Həmin ildə onun redaktorluğu ilə "Azəri türkü" (1928-1931), sonra isə "Odlu yurd" (1929-1930) jurnalları və həftəlik "Bildiriş" (1929-1931) qəzeti də nəşr edilməkdə idi. 1930-cu ildə M.Ə.Rəsulzadənin Parisdə fransız dilində "Azərbaycan və istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları çap olundu. 1931-ci ildən M.Ə.Rəsulzadənin mühacirət dövrü Avropa ölkələrində davam edirdi. Onun redaktorluğu ilə Berlində ayda üç dəfə nəşr edilən "İstiqlal" (1932-1934) qəzeti və "Qurtuluş" (1934-1938) jurnalı çap edilirdi. 1947-ci ildən Ankaraya köçən M.Ə.Rəsulzadənin 1949-cu ildə "Azərbaycanın kültür kələnkləri" adlı kitabı işıq üzü görmüşdür. Onun "Çağdaş Azərbaycan ədəbiyyatı" (1950-ci il) və "Çağdaş Azərbaycan tarixi" (1951-ci il) kitabları həmin illərdə M.Ə.Rəsulzadənin məhsuldar işlədiyini göstərir. O, 1951-ci ildə Ankarada "Azərbaycan şairi Nizami" adlı sanballı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına bir çox yeniliklər gətirmişdir.

İnternetdə: http://qadin.net

**31 Yanvar – Şair, nasir və teatr xadimi Səməd Kazımzadənin (Səməd Mənsur) 140 illiyi, (31.01.1879-03.01.1927)**



Səməd Mənsur Kazımov 1879-cu ildə Bakıda anadan olmuş, ilk təhsilini rus-müsəlman məktəbində almış, sonralar davamlı mütaliə ilə biliyini artırmışdır. O, 1907-ci ildə Bakıda düzələn "Səfa" cəmiyyətinin üzvü olmuş, teatr işlərində fəal iştirak etmişdir. Səməd Mənsur 1905-ci ildən sonra şeirləri ilə mətbuatda çıxış etmiş, 1918-ci ildə "Şeypur" jurnalında baş mühərrir olmuş, "Molla Nəsrəddin"də ədəbi parçalar, "Bəsirət" və "Tuti"də şeirlər çap etdirmiş, xırda pyeslər yazmışdır. Şəmsəddin Sami bəyin "Gavəyi-Ahəngər" əsərini təbdil etmişdir. Bu əsər uzun illər səhnədən düşməmişdir. Səməd Mənsur ömrünün axırlarında Xalq Komissarları Sovetində ümumi idarə müdiri vəzifəsində çalışmışdır.

Səməd Mənsurun şairlik fəaliyyəti iki xətt ilə davam etmişdir. Birincisi satira, ikincisi romantika. Satirik şeirlərində şair Sabir yolunu tutaraq ictimai xəstəlikləri, köhnə münasibətləri qamçılamağa çalışmışdır. "İçkilər, oflar", "Ey həkim", "Qarabağlı", "Qələmim" belə şeirlərdəndir. Səməd Mənsur satiralarında klassik şeirin təsvir vasitələrindən məharətlə istifadə etmişdir. Qəzəl ədəbiyyatında zəriflik, incəlik üçün işlədilən təşbih və sifətləri həcv şeirinə salmaqla satiranın məlahətini bir qədər də artırmışdır. Səməd Mənsurun bu şeirləri gündəlik felyeton ruhu daşısa da, ictimai cəhətdən faydalı parçalardır. Bu parçaların "Molla Nəsrəddin" səhifələrində çap olunması da təsadüfı deyildir. Bunlar üslubca aydın, mövzuca zəruri, bədii ifadəcə maraqlı və şirin yazılmış həcvlərdir. Ancaq bu şeirlər, ümumiyyətlə, Səməd Mənsur yaradıcılığı üçün səciyyəvi deyildir. S. Mənsur ciddi, lirik şeirlərində daha hərarətli, daha rəvan təbli şairdir. Səməd Mənsurun ən məşhur şeiri "Rəngdir" şeiridir. Bu şeir şairin yaradıcılığında xüsusi yer tutur. Şair əslində varlıq aləmini yoxluqla müqayisə edərək fəlsəfi anlamda hər şeyin rəngdən ibarət olduğunu yazıb. Səməd Mənsur 1927-ci il yanvar ayının 3- də Bakıda vəfat etmişdir.

**Şeirləri: “**Ey həkim”, “Rəngdir”, “Bizdə də var, sizdə də var”, “Gülməlidir”, “Səni mən sevməyirəm, sevməyirəm”, “Naz et”, “İki aşığın deyişməsi”, “Bacıoğlunun dayıya ərizəsi”, “Dayının bacıoğluya cavabı”, “Oğlum Əhməd Tofiqə vəsiyyətim”.

İnternetdə: www.medeniyyet.az

**Yubilyar yazıçı və şairlər**
**Məhəmməd Füzulinin 525 illiyi, (1494-1556)**



Azərbaycanın məşhur Bayat tayfasından olduğu söylənilən Məhəmməd Füzuli divan janrının ən möhtəşəm nümayəndələrindən biri kimi tanınır. Deyilənlərə görə, Məhəmmədin atası Süleyman kişi İraqa Azərbaycanın Ərəş mahalından köçüb gəlib. Kərbəlada doğulan Məhəmməd orada da vəfat edib. Füzuli oxumuş adam idi, kamil təhsil görmüşdü. Orta əsr elmlərindən olan tibb, məntiq, riyaziyyat, nücum və bir sıra humanitar elmlərlə, dini-fəlsəfi cərəyanlarla tanış idi. Klassik türk, fars, ərəb, hind ədəbiyyatını öyrənmişdi. Buna görə də tədqiqatçılar belə hesab edirlər ki, Süleyman kişi oğlunu oxutdura biləcək qədər varlı adam olub. Füzuli Şah İsmayıl Xətaiyə, Şah Təhmasibə və onun sərkərdələrinə əsərlər ithaf edib, onların şəninə qəsidələr yazıb, amma heç vaxt saraya meyil göstərməyib. Bir neçə qəsidəsini Sultan Süleymana təqdim edən Füzuli sultan ordusu ilə Bağdada gələn türk şairləri ilə görüşüb. Deyilənə görə, özünün ən məşhur əsəri olan "Leyli və Məcnun" poemasını onların xahişi ilə yazıb. Füzuli əsərlərini üç dildə - Türk (Azərbaycan), ərəb və fars dillərində qələmə almışdı. Həmin dillərdə divanlar tərtib etmiş, qəsidələrini kitab şəklinə salmışdı. O, Nəsimidən sonra ana dilimizdə Azərbaycan şeirinin ən gözəl nümunələrini yaratmışdı. Leyli və Məcnun əfsanəsinə istinadla çox əsərlər yazılıb. Yazılı ədəbiyyata ilk dəfə Nizami Gəncəvi tərəfindən gətirilən "Leyli və Məcnun" mövzusuna Füzuliyə qədər bir çox türk, fars, tacik, ərəb, hind şairləri müraciət etsələr də, Füzulinin "Leyli və Məcnun"u onların hamısını üstələyib zirvəyə qalxdı. Beş yüz ilə yaxındır ki, həmin zirvədə qərar tutub. Böyük bəstəkarımız Üzeyir Hacıbəyli həmin poema əsasında Şərq aləmində ilk poema yazıb və bu opera da poema kimi böyük şöhrət qazanıb. Bəstəkar Cahangir Cahangirovun "Məni candan usandırdı" qəzəlinə yazdığı "Füzuli kantatası" da Azərbaycan musiqisinin inciləri sırasındadır. Füzulinin ən məşhur əsərləri bunlardır: "Şikayətnamə", "Səhhət və mərəz", "Rindü zahid". Ən məşhur qəzəllərinin sırasında isə "Məni candan usandırdı", "Söz", "Can vermə qəmi-eşqə...", "Ey həkim", "Heyrət ey büt" və digər onlarla qəzəlin adını çəkmək olar.

**Kitabları:** "Leyli və Məcnun" (1958), Məhəmməd Füzuli Əsərləri. Altı cilddə. (1996); Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. (2005).

**Filmoqrafiya:** "Məhəmməd Füzuli" (film, 1958), "Leyli və Məcnun" (film, 1961), "Məhəmməd Füzuli" (film, 1989), "Şəbi-hicran" (film, 1993), "Söhbətül-əsmar" (film, 1994).

İnternetdə:https://az.wikipedia.org/wiki

**1 Yanvar – Ədəbiyyatşünas Vaqif Vəliyevin 95 illiyi, (01.01.1924-24.05.1998)**



Vaqif Vəliyev 1924-cü il yanvarın 1-də Qazax rayonunun Pirili kəndində doğulmuşdur. Qazax şəhər 1 saylı orta məktəbində təhsil almışdır (1932-1941). Əmək fəaliyyətinə Azərbaycan KP MK Qazax rayon Partiya Komitəsində texniki katib kimi başlamışdır (1941). Sovet Ordusu sıralarında xidmət etmişdir (1943-1949), ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1949-1954). Orada aspiranturaya daxil olmuş, "Səməd Vurğunun poemaları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş (1957), Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir (1958-ci ildən). "Azərbaycan folkloru janrları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş (1972), 1976-cı ildən həmin kafedranın professoru kimi fəaliyyət göstərmişdir. Dövri mətbuatda şifahi xalq ədəbiyyatı problemlərinə dair vaxtaşırı məqalələri çıxmışdır. "Ayrım bəzəmələri" (1983) və "Bayatılar" (1985) kitablarını toplayıb tərtib etmişdir. Vaqif Vəliyev 1998-ci il sentyabrın 19-da vəfat etmişdir.

**Kitabları:** “Azərbaycan xalq dastanları” (1968), “Azərbaycan şifahi xalq ədəbiyyatı” (1970), “Azərbaycan qəhrəmanlıq dastanları” (1970), “Qaynar söz çeşməsi” (1981), “Azərbaycan folkloru” (1985) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S. 90.

**3 Yanvar – Şair Rövzət Dəmirçizadənin 80 illiyi, (1939-2010)**



Dəmirçizadə Rövzət Qafar oğlu 1939-cu il yanvarın 3-də Azərbaycanın Şəki şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun fizika – riyaziyyat fakültəsinin fizika şöbəsinə daxil olmuşdur (1956). İxtisasını dəyişib APİ-nin dil və ədəbiyyat fakültəsində qiyabi təhsil almışdır (1960-1965). 1980-cı ildən isə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdir. 2010-cu ildə Bakıda vəfat etmişdir. Şəkidə nəşr olunan "Şəki fəhləsi", "İpəkçi" və "Şəkinin səsi" qəzetlərində müxtəlif vaxtlarda Rövzətin onlarla şeiri dərc edilib. İlk şeirləri "Baharın nəfəsi" kitabı 1968-ci ildə, səkkizinci və sonuncu kitabı isə 2008-ci ildə nəşr olunub.

**Kitabları**: "Qatarda" (1968), "Tut ağacım" (1971), "Səhər duyğuları" (1974), "Səslər" (1978), "Çörək ətri" (1981), "Ürəyimdə yaşayanlar" (1986), "Arzu gülü" (1990), "Dünyaya və özümə bir baxış" (2008).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S.744.

**10 Yanvar – Yazıçı Rafiq Səməndərin 70 illiyi, (1949)**



Rafiq Səməndər 1949-ci ilin 10 yanvarında Qubada doğulub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil alsa da, birinci kursda Azərbaycan Dövlət Radiosunda, sonra isə Azərbaycan Dövlət Televiziyasında baş redaktor, Birlik rəhbəri kimi fəaliyyət göstərib. 1993-cü ildə Dövlət Televiziya Şirkətindən uzaqlaşdırılıb. "BMTİ" Telekanalında baş redaktor, "Yurd" jurnalında redaktorlar şöbəsinin müdiri işləyib. 2000-ci ildən 2002-ci ilə qədər "Lider" televiziyasında qrup rəhbəri işləyib. 2005-ci ildən İctimai Televiziya və Radio Yayımları Şirkətində "Ədəbiyyat və İncəsənət" departamentinin direktoru, "Xüsusi layihələr üzrə departament"in direktoru və "Carçı" film yaradıcılıq birliyinin baş redaktoru işləyib. Hal-hazırda İctimai Televiziya və Radio Yayımları Şirkətində böyük redaktor kimi çalışır. Eyni zamanda, Azərbaycan Beynəlxalq Universitetində baş müəllim vəzifəsində çalışıb. 20 bədii əsərin və 25 pyesin müəllifidir. 20 yanvar şəhidlərinə həsr edilmiş 150 min tirajla çap olunan "Şəhidlər" kitabının müəllifidir. Qarabağ hadisələrindən bəhs edən ikinci kitabı "Girovlar" adlanır.

"Yuxu" və "Sonqulunun sərgüzəştləri" filmlərinin ssenari müəlliflərindən biridir.

**Kitabları:** "Fidan fəvvarələri" (1972), "Ağappaq yollar" (1981), "Gözəl, Gülər və güllər" (1984), "Qara qar" (1986), "Şəhidlər" (1990) və. s

**Filmoqrafiya:** "Çətin məsələ" (film, 1988), "Qonşu qonşu olsa..." (film, 1989), "Ekskursiya" (film, 1991), "Su bulandıranlar" (film, 1991), "Mənim ağ şəhərim" (film, 1994), "Yaşar Nuri olduğu kimi..." (film, 2001), "Dədə Şəmşir" (film, 2002), "Babadağ" (film, 2006), "Cavad xan. Filmin filmi" (film, 2007), "Sonuncu dərviş" (film, 2009), "Döngələr" (teleserial, 2012), "Dalan" (film, 2012), "Azərbaycan mayakları" (film, 2015).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S. 712.

**10 Yanvar – Yazıçı, şair Baba Vəziroğlunun 65 illiyi, (1954)**



Baba Vəziroğlu 1954-cü il yanvarın 10-da İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olmuşdur. Həmin rayonun Hacatamlı kənd orta məktəbini bitirdikdən sonra "Pravda" kolxozunda işləmiş, oradan ADU-nun hazırlıq fakültəsinə göndərilmişdir (1971-1972). Universitetin jurnalistika fakültəsində təhsil almışdır (1972-1977). Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda təlimatçı (1979) olmuş, Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi işləmişdir (1979-1991). "Molla Nəsrəddin" jurnalının baş redaktoru olmuşdur (1989). Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü seçilmişdir (1991). Ədəbi fəaliyyətə "Ulduz" jurnalında (1976, №8) çap etdirdiyi "Bir yaz axşamı", "Mağazinçi Dadaş" hekayələri ilə başlamışdır. Həmin vaxtdan dövri mətbuatda şeir və nəsr əsərləri ilə fəal çıxış edir. Klassik rus şairlərindən tərcümələr etmişdir. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Uzun illər teleşirkətdə aparıcı olmuşdur. "Mir" Dövlətlərarası Teleradio Şirkətində redaktor (1997-1998), Azərbaycan Kinematoqrafçılar İttifaqında baş redaktor (1998-2002) olmuşdur. Mindən artıq şeirinə mahnı bəstələnmişdir. "Həsən Seyidbəyli", "Yeri boş qalan adam" (Rəşid Behbudov), "Sənsiz və ya ömrün son axşamı" (Həsən Turabov), "Haradan başlanır vətən", "Elegiya" (Zərifə Əliyeva), "Beş nəğməlik ömür" (Oqtay Kazımov) və s. sənədli filmlərin ssenari müəllifidir. İ. Karacalenin "İtirilmiş məktub" dram əsərini Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə etdiyinə görə SSRİ Mədəniyyət Nazirliyi və Ümumrusiya Teatr Cəmiyyətinin diplomuna layiq görülmüşdür (1983). Azərbaycan Yazıçılar İttifaqında gənc nasirlər birliyinin rəhbəri olmuşdur. M. Qorki adına Ədəbiyyat İnstitutunun nəsr şöbəsini qiyabi bitirmişdir (1985). Gənc yazıçıların Moskvada keçirilən VIII Ümumittifaq müşavirəsində nümayəndə kimi iştirak etmişdir (1984). "Humay" mükafatı laureatıdır (2000). Respublikanın Əməkdar incəsənət xadimidir. **Kitabları**: "Səhər qatarı (hekayələr)" (1980), "Yaddan çıxan görüş" (povest və hekayələr). (1985), "Ocaq" (povestlər). (1989), "Yol" (povestlər və hekayələr). (1992), "Dünya dəyməz göz yaşına" (1998).

Filmoqrafiya: "Nəsrulla Nəsrullayev" (film, 1999), "Kinorejissor Həsən Seyidbəyli" (film, 2002), "Bahar oğlu" (film, 2004), "Qonşular" (film, 2006).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.108.

## 15 Yanvar – Yazıçı Ənvər Yusifoğlunun 105 illiyi, (15.01.1914-04.03.1989)



Ənvər Yusifoğlu (soyadı Qasımov) 15 yanvar 1914-cü ildə Yevlaxda anadan olmuşdur. Əslən Ordubaddandır. Ənvər Yusifoğlu Tiflis pedaqoji texnikumunda oxumuşdur. "Yeni kənd" (Tiflis), "Kommunist" (Bakı) qəzetlərində ədəbi işçi, Azərbaycan İncəsənət Muzeyində elmi işçi işləmişdir. Ənvər Yusifoğlu 1937-ci ildə həbs edilmiş, altı ay Hüseyn Cavidlə bir kamerada qalmışdır. 9 aydan sonra buraxılsa da, 1938-ci ildə yenidən həbs olunaraq, 10 il müddətinə Sibirə sürgün edilmişdir. Ənvər Yusifoğlu sürgündən qayıtdıqdan sonra Balakən taxta emalı zavodunda fəhlə (1950-1956), "Ədəbiyyat və incəsənət" (indiki "Ədəbiyyat") qəzetində, "Azərbaycan" jurnalında ədəbi işçi (1957-1965) vəzifələrində çalışmışdır. Ənvər Yusifoğlu ədəbi yaradıcılığa 30-cu illərin əvvəllərində başlamışdır. "Cərrahlar" (1967), "Gənclik illərinə sayahət" (1976) povestlərinin, "Düşmənimin düşməni" (1978) romanının, hekayə toplularının müəllifidir. Sənətşünaslığa dair "Maral Rəhmanzadə" (Bakı, 1968) adlı kitabın müəllifidir. Ənvər Yusifoğlu 4 mart 1989-cu ildə Bakıda vəfat etmişdir.

**Kitabları:** “Hekayələr” (1966), “Cərrahlar”, “Maral Rəhmanzadə” (monoqrafiya) (1968), “Gənclik illərinə səyahət” (1976), “Düşmənimin düşməni” (1978), “Göyərçin qanadları” (1979) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.288.

## 16 Yanvar – Şair Vaqif  Nəsibin 80 illiyi, (16.01.1939)



Vaqif Nəsib 1939-cu il yanvarın 16-da Qazax şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirib ADU-nun filologiya fakültəsində təhsil almışdır (1957-1962). Əmək fəaliyyətinə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır (1962-1965). "Na boyevom postu" ("Mübariz keşikdə") qəzeti redaksiyasında məsul katib (1965-1966), "Azərbaycan pioneri" qəzeti redaksiyasında şöbə müdiri (1966-1968), "Azərbaycan Sovet Ensiklopediyası" baş redaksiyasında böyük elmi redaktor (1968-1969), "Qobustan" jurnalı redaksiyasında məsul katib (1969-1975), "Gənclik" nəşriyyatında baş redaktorun müavini (1975-1983), "Azərbaycan" jurnalında publisistika şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Bədii yaradıcılığa 1957-ci ildə dərc etdirdiyi şeirləri ilə başlamışdır. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

**Kitabları:** "Çəpiş" (1962), "Görüş" (1964), "Durna günü" (1970), "Salam, Əskipara yolu" (1974), "Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev" (1975), "Bağçadanməktəbə" (1977), "Ömürdəngündən" (1979), "Uzundərə" (1981), "Dağ havası" (1983), "Ceyrançöllü Qoç Kərəməli" (1986) və s.

**Tərcümələri:** Nazim Hikmət "Radi Fiş" (1985), V.Brestov "Oxumağa gedirəm" (1987), S.Marşak "Həzin nağıllar".

**Filmoqrafiya:** "Maqarıç" (film, 1973), "Adsız su" (film, 1985).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.900.

**16 Yanvar – Ədəbiyyatşünas Aydın Məmmədovun 75 illiyi, (1944-1991)**



Aydın Məmmədov 1944-cü ildə Şəkidə anadan olmuşdur. Bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi, mədəni və siyasi dirçəlişinə həsr etmişdir. Orta məktəbdə müəllim fəaliyyətinə qoşulan A.Məmmədov elmi işçi kimi böyüdü, ictimai xadim kimi ərsəyə çatdı, görkəmli siyasət adamı kimi həyatdan getdi. Azərbaycan türklərinin bu torpaqda eramızdan çox öncə yaşaması fikrini elmi gerçəkliyə çevirməyi bacaran alim Aydın bəy istər "Sovetskaya turkologiya" jurnalının redaktor müavini, istərsə də Bədii Tərcümə Mərkəzinin rəhbəri kimi SSRİ-nin və bütövlükdə bütün dünya türklərinin bir-birini daha yaxından tanıması, onların doğmalaşması üçün ölçüyəgəlməz işlər görmüşdür. Ömrünün təxminən son onilliyini bütünlüklə ictimai-siyasi hadisələrə həsr edən A.Məmmədov 1988-ci ilin fevralından başlayan Azərbaycan Xalq hərəkatının ön sıralarında ilk günlərdən dayanmışdır. Onu həmişə tətil edən fəhlələrin, yerli ağalara etiraz edən kəndlilərin, tələbələrin, ziyalıların içərisində, özü də ən narahat, ən ağrılı anlarda görmək mümkün idi. Ayıq siyasətçi və ardıcıl demokrat olan Aydın bəyin hadisələrə öz şəxsi münasibəti və onları öz şəxsi yozum üslubu vardı. Güclü məntiqə malik, alovlu natiq Aydın bəy on minlərcə insanı arxasınca aparmağı bacarırdı. Xalqın sevgisini qazanmış A.Məmmədov millət vəkili seçilmişdi. Bu vəzifədə o, milli birlik yaratmaq, azadlıq və demokratiya uğrunda hərəkatımızı düz yolla aparmaq üçün ciddi işlər görürdü. Respublika Ali Sovetinin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri idi. Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini olmuşdur. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə seçilmişdir. 1991-ci il aprel ayının 19-da avtomobil qəzasında faciəli şəkildə həlak olmuşdur. Öz doğma Kiş kəndində dəfn olunmuşdur.

**Kitabları:** “Bugünkü nəsrimizin poetik mənzərəsi” (1979) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.91.

**21 Yanvar – Şair Azad Talışoğlunun 95 illiyi, (21.01.1924-16.05.2008)**



Quliyev Azad Əkbər oğlu 1923-cü ildə Masallı rayonunun Qodman kəndində dünyaya göz açmışdır. 18 yaşında müharibəyə getmiş, cəbhədə alman faşistlərinə qarşı vuruşmuş, 1943-cü ildə ağır yaralanmışdır. 1945-ci ildən daxili işlər orqanlarında sıravi milis kimi işə başlamışdır. Sonralar milis polkovniki rütbəsinə qədər yüksəlmişdir. ADU-nun tarix fakültəsini bitirəndən sonra DİN-də bir çox məsul vəzifələrdə çalışmışdır. Bakı Şəhər Daxili İşlər İdarəsinin, DİN-in pasport qeydiyyatı şöbəsinin rəisi işləmişdir. Gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuşdur. 50-ci illərdən başlayaraq dövri mətbuatda lirik şeirləri dərc edilmişdir. "Talış dağları" (1962), "Çiçəkli diyar" (1964), "Ana məhəbbəti" (1967), "Vətən eşqi" (1973) və başqa kitablarında (şairin 8 şeirlər kitabı işıq üzü görmüşdü) xalqa, vətənə, anaya, həmçinin çiyin-çiyinə çalışdığı asayiş keşikçilərinə həsr etdiyi şeirlər yer almışdır. Ədəbiyyatşünas Rüstəm Rüstəmzadə 26 avqust 1974-cü ildə "Vətən naminə" ("Kirovabad kommunisti") məqaləsində Azad Talışoğlunun yaradıcılığının əsasını "vətənpərvərlik, beynəlmiləlçilik, humanist ruhlu" şeirlərin təşkil etdiyini yazmışdır. Azad Talışoğlunun qələmə aldığı son kitablarından biri müğənni Ruzə İbişovanın həyat və yaradıcılığına həsr olunmuşdur ("Sən oxuyanda". Bakı: 2004). 2005-ci ilin yanvarında nəfis şəkildə tərtib olunmuş bu kitabın "Vahid" Poeziya Evində təqdimat mərasimi keçirilmişdir. Azad Talışoğlu 2008-ci ildə vəfat etmişdir.

**Kitabları:** “Talış dağları” (1962), “Çiçəkli diyar” (1964), “Ana məhəbbəti” (1967), “Könül nəğmələri” (1969), “Səni unutmadım” (1970), “Vətən eşqi” (1973), “Mavi ulduzlar” (1976), “Gəldim görüşünə” (1979), “Şəlalə” (1980,) “Salam, ana yurdum” (1986), “Hünər” (1987), “Bizim ellər” (1987) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.102.

**31 Yanvar – Şair Əli Tudənin 95 illiyi, (31.01.1924-26.02.1996)**



Əslən Ərdəbilin Çanaxbulaq kəndindən olan atası Qulu və anası Şahbəyim Şimali Azərbaycana köçmüş və Əli 1924-cü il yanvarın 31-də Bakıda anadan olmuşdur. 1938-ci ildə həmin ədəbiyyat dərnəyinin nəşr etdiyi almanaxda da şeirləri çap olunub. 1938-ci il repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilib. Təhsili yarımçıq qalmışdır. Əli Tudə 1940-cı illərdə Cənubi Azərbaycanda başlanan azadlıq hərəkatına qoşulub silahı və qələmi ilə mübarizə aparmışdır. Milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırırdı. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunub. Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945-1946) işləyib. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayıb. Sonra isə İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli filarmoniya yaradır, onun ilk və son müdiri olmuşdur. Mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb etmişdir. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən Əliyə Təbrizin şairlər məclisində müdriklər tərəfindən Tudə, yəni Xalq təxəllüsü verilmişdir. Milli hökumət onu ali mükafat "21 Azər" medalıyla təltif etmişdir. O vaxt şairin cəmi 22 yaşı var idi və ilk şeirlər kitabı da çap ərəfəsində idi. Lakin tale burda da öz qəddar hökmünü verdi. Bu xoş günlər, azadlıq və səadət uzun çəkmədi. Min bir əzabla, qanlar bahasına qurulmuş Milli hökuməti İran dövləti beşikdəcə boğdu. Şairin üsyankar ruhlu şeirlər kitabı mətbəədəcə yandırıldı. Tutulduğu anda məhkəməsiz qətlə yetirilməsi barədə şahın fərmanı verildi. Milli demokratik hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya mühacirət zamanı "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi vəzifəsində işlədi. Ona ali təhsil almaq imkanı yarandı. BDU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1947-1952). 50 poemanın, 40-a yaxın kitabın müəllifidir. Əsərləri özbək, qırğız, hind, ukrayna, rus, ingilis və s. dillərə tərcümə olunmuşdur. 1996-cı il fevralın 26-da Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Kitabları:** "Cənub nəğmələri" (1950), "Bakının işıqları" (1950), "Vətən sevgisi" (1951), "Məhbusların son sözü" (1952), "Şimal həsrəti" (1953), "Arazın o tayında" (1954), "Şairin düşüncələri" (1956), "Qartal" (1959), "Qəzəb" (1960), "Buludlar" (1964), "Yanıqlı tütək" (1966), "Sevinc" (1973), "Şəlalə" (1974), "Gecikmiş vüsal" (1988) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.260.

**Folklor**

**27 Yanvar – Əməkdar incəsənət xadimi, saz ifaçısı Ədalət Nəsibovun 80 illiyi, (27.01.1939-14.09.2017)**



Ədalət Məhəmmədəli oğlu Nəsibov 27 yanvar 1939-cu ildə anadan olub. Saz çalmağı atasından öyrənmişdir. Gənc yaşlarından fitri istedadı üzə çıxmış, məclislərə dəvət almışdır. Xalq şairi Səməd Vurğun onun çalğısının vurğunu olmuşdur. Türk yazıçısı Əziz Nesin onun haqqında söyləmişdir: "Ədalətin ifası təkrarsız həyat kimidir. Onun üzü daim təzəliyədir, sonu gülüstanlara çıxan dağ çayına bənzəyir. Ələsgər aşiq, söz sənətində kimdirsə, Ədalət də saz sənətində odur".

O, "Qaytarma", "Baş sarıtel", "Ruhani", "Yanıq Kərəm" və başqa saz havalarının bənzərsiz ifaçısıdır. 14 sentyabr 2017-ci ildə 78 yaşında uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat etmişdir. 15 sentyabrda Qazax rayonunun Ağköynək qəbiristanlığında dəfn olunmuşdur.

**Filmoqrafiya:** "Yeddi oğul istərəm..." (film, 1970), "Aşıq Ələsgər" (film, 1972), "Ədalət" (film, 1971), "Prima" (film, 1992), "Tanrı payım, telli sazım" (film, 2007).

İnternetdə: https://az.wikipedia.org/wiki

## Xarici ədəbiyyat

## 22 Yanvar – Alman dramaturqu Lessinqin 290 illiyi, (Qothold Efraim) (22.01.1729-15.02.1781)



Qothold Efraim Lessinq – alman şairi, dramaturqu, mütəfəkkiridir. Lessinq yeni alman ədəbiyyatına keçidin möhtəşəm əsasını qoymuşdur. Alman klassik ədəbiyyatının banisidir. 1929-cu ildə Almaniyada, Kamenç şəhərində kasıb pastor ailəsində doğulmuşdur. Lessinq ilk təhsilini Maysendə knyaz məktəbində almışdır. 1748-ci ildə o, Berlinə gəlib və jurnalistika ilə məşğul olub. Burada "Ədəbi Məktublar" adı ilə tanınmış "Ən yeni ədəbiyyat haqda yazılar" jurnalını nəşr etdirib. Bu jurnal yeni alman ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Almaniyada yeddiillik müharibə ilə əlaqədar Lessinq "Minna fon Barnhelm" yaxud "Əsgər səadəti" komediyasını yazıb. 1966-cı ildə isə o, özünün "Laokoon" nəzəri traktatını bitirib. 1767-1769-cu illərdə Lessinq Hamburq milli teatrında çalışmış və bu dövr onun yaradıcılığında mühüm rol oynamışdır. O, bir sıra teatrla bağlı məqalələr yazmış və özünün "Hamburq dramaturgiyası" adlı monumental nəzəri əsərini yaratmışdır. 1772-ci ildə Lessinq özünün məşhur "Emiliya Qalotti" faciəsini yazdı. O, mübariz ruhlu "Ahti-Qets" pamfletini (1778), "Müdrik Natan" (1779) mənzum dramını, "İnsan nəslinin tərbiyəsi" (1780) traktatını və digər əsərlərini yazıb. Lessinq bundan əvvəl də yazdığı bir pərdəli pyesləri olan "Gənc alim" (1747), "Azad fikirli" (1749), "Zuhudlar" (1749), "Samuel Qenç" pyeslərini də çox kəskin formada ictimai və dini məsələlərə toxunub, insan azadlığı uğrunda mübarizə aparmışdı. Lessinq 1759-cu ildə "Filotos" qəhrəmanlıq faciəsini yazdı. 1759-cu ildə Lessinqin "Təmsilləri" nəşr olunub. Bu əsər dövrün ictimai münasibətlərini kəskin tənqid edən təmsillərdən ibarətdir. Humanizm və dini etiqadlara ehtiram hissi ilə yazılmış "Müdrik Natan" mənzum dram Lessinqin ən mürəkkəb süjetli fəlsəfi əsərlərindəndir. Oriqinaldan Azərbaycan dilinə Həmid Arzulu tərəfindən tərcümə edilmiş əsər Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2010-cu ilin repertuarına salınaraq tamaşaya qoyulmuşdur.

**Azərbaycan dilinə tərcümə edilmiş əsərləri:** "Minna fon Barnhelm" - komediyası.Teatr repertuarındadır; "Emiliya Qalotti" -faciə pyes. //"Alman ədəbiyyatı antologiyası; "Müdrik Natan" -mənzum dram.. Tərcümə edən Həmid Arzulu.

**Kitabları:** "Gənc alim" pyes (1747), "Azad fikirli" pyes (1749), "Zuhudlar" pyes (1749), "Samuel Qenç" pyes (1749), "Filotos" faciə (1759), "Miss Sara Sampson" faciə (1759), "Təmsillər" (1759), "İnsan nəslinin tərbiyəsi" traktat (1780) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Qothold_Efraim_Lessinq

**25 Yanvar – Şotlandiya şairi Berns Robertin 260 illiyi, (25.01.1759-21.07.1796)**



Robert Berns 15 yanvar 1759-cu ildə Şotlandiyada Allouey kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Berns öz yaradıcılığına təxminən 14-15 yaşlarından başlamışdır. Rəvayətə görə, Berns çox zaman öz şeirlərini tarlada iş vaxtında yazarmış. Berns şeir yazarkən Şotlandiya xalq yaradıcılığı ənənələrini, qədim xalq mahnılarındakı motivləri əsas götürürdü, bu isə onun şeirlərinin xalq arasında sürətlə yayılmasına səbəb olurdu. Bernsin şeirləri o qədər ahəngdar və xalq ruhuna yaxın idi ki, onlar çox asanlıqla mahnıya çevrilirdi. O, bir şeirində açıq yazmışdı ki, "mən Şotlandiya yoxsullarına fayda verməyə hazıram, mənim mahnılarım onlar üçündür". Şotlandiya kəndlilərinin zadəganlara və varlılara nifrətini, azadlığa məhəbbətini Berns məşhur "Namuslu yoxsulluq", "Azadlıq ağacı" şeirlərində ifadə etmişdir. Şairin yaratdığı əsərlər arasında onun mifik şeirləri xüsusi yer tutur. Bunlardan "Con Anderson", "Məhəbbət qızılgül kimidir...", "Busə" və başqa şeirləri göstərmək olar. Xəlqilik, sadəlik, emosionallıq, daxili dramatizm Berns şeirinin səciyyəvi xüsusiyyətləridir. Robert Berns 21 iyul 1796-cı ildə Damfris şəhərində vəfat edib.

İnternetdə: https://az.wikipedia.org/wiki/Robert_Berns

## 28 Yanvar – Gürcüstanın Xalq şairi Leonidze Georgi Nikolayeviçin 120 illiyi, (28.01.1899-09.08.1966)



Gürcüstanın Xalq şairi Georgi Nikolayeviç Leonidze 1899-cu il yanvar ayının 28-də Saqareco rayonunun Patardzueli kəndində anadan olub. Şeirlərində vətənpərvərlik motivləri güclüdür. Böyük Vətən müharibəsi illərində yazdığı şeirlərində qəhrəmanlıq, vətənə məhəbbət tərənnüm edilir. 1950-ci ildə "Samqori", 1951-ci ildə "Portoxala" tarixi poemaları, 1962-ci ildə isə "Sehrli ağac" adlı hekayələr toplusu nəşr olunub. 1957-1966 illərdə Gürcüstan Elmlər Akademiyası Ş.Rustaveli adına Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışıb. Onun "Berşoula" adlı poeması (Əhməd Cəmil), "Azərbaycan şairlərinə", "Vətəni vəsf edirəm" (Əflatun Saraclı), "Bulaq" (Rəfiq Zəka), "Vətən nəğməsi" (Məmməd Araz), "Vəsf edirəm" (Əli Kərim), "Vətən haqqında nəğmə" (Tofiq Bayram), "Tar haqqında mahnı" (Əlixan Binnətoğlu) şeirləri Azərbaycan dilinə tərcümə edilib. Georgi Nikolayeviç Leonidze 1966-cı il avqust ayının 9-da dünyasını dəyişib.

**Kitabları:** "Samqori" (1950), "Portoxala" (1951), "Sehrli ağac" (1962) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Georgi_Leonidze

**İncəsənət**

**21 Yanvar – Bəstəkar Şəfiqə Axundovanın 95 illiyi, (1924-2013)**



Şəfiqə Axundova 1924-cü ildə Şəki şəhərində anadan olub. 1943-1944-cü illərdə A.Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən Üzeyir Hacıbəyovdan dərs alıb. 1956-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq ixtisası üzrə B. Zeydmanın sinfini bitirib. 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülüb. 2004-cü ildə isə "Şöhrət" ordeni ilə təltif edilib. O, 1972-ci ildə "Gəlin qayası" operasını yazmaqla Şərqin ilk opera yazan qadın bəstəkarı olmuşdur. Şəfiqə xanım həm də bir sıra gözəl mahnaların ("Leyla", "Bəxtiyar ellər" və s.), "Ev bizim, sirr bizim" operettasının (1965), simli kvartet üçün pyeslərin, dramatik teatr üçün "Aydın", "Əlvida Hindistan!", "Nə üçün yaşayırsan?" və s. tamaşaların, "Təlxəyin nağılı", "Dovşanın ad günü" və s. kimi uşaq tamaşalarının musiqisinin müəllifidir. Onun Azərbaycan şairlərinin şeirlərinə bəstələdiyi gözəl lirik mahnıları və romansları xalq arasında çox məşhurdur. Bəstəkar mahnı yazmaq ilə kifayətlənməyib mürəkkəb, eləcə də çətin bir janra müraciət edib və Şərqdə ilk opera yazan qadın kimi tarixə düşüb.

1971-ci ildə "Gəlin qayası" operası ilə musiqisevərləri valeh edib. Şəfiqə Axundova geniş yaradıcılıq diapazonuna malik bəstəkardır. Onun sənəti yeni nəslin təlim və tərbiyəsində də mühüm rol oynamışdır. Şəfiqə xanım 1956-cı ildən 1982-ci ilə kimi Azərbaycan Dövlət İncəsənət İnstitutunda müəllim kimi fəaliyyət göstərmişdir. Bu böyük əməyi ona bir çox mükafatlar qazandırmış, o, "Əməkdar incəsənət xadimi" fəxri adını almış və 1998-ci ildə "Azərbaycan Respublikasının Xalq artist"i adına layiq görülmüşdür. Bu yorulmaz bəstəkarın həyat və yaradıcılığı haqqında çoxsaylı kitablar yazılmışdır. Şəfiqə xanım Şərqdə ilk opera yazan qadın bəstəkardır. Şəfiqə Axundova 26 iyul 2013-cü ildə vəfat etmişdir.

**Əsərləri:** "Gəlin qayası" operası; "Ev bizim, sirr bizim" operettası; BSO üçün süitalar; Xor üçün silsilələr; 300-ə yaxın mahnı və romans.

**Filmoqrafiya: "**Azərbaycan elləri" (film, 1976), "Mənim atam Əliövsət Sadıqov" (film, 2007), "Bəstəkar Şəfiqə Axundova" (film, 2012).

İnternetdə: https://az.wikipedia.org/wiki_Axundova

**24 Yanvar – Xalq artisti, dirijor Əşrəf Həsənovun 110 illiyi, (1909-1983)**



Əşrəf Həsənov 24 yanvar 1909-cu ildə Xankəndinin Daşkənd qəsəbəsində anadan olmuşdur. Professional təhsil almış ilk azərbaycanlı dirijorlardandır. Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan və Qərbi Avropa bəstəkarlarının opera və baletlərinə ("Leyli və Məcnun", "Koroğlu" (Ü.Hacıbəyov), "Traviata", "Aida" (C.Verdi), "Karmen" (C.Bize) və s.) dirijorluq etmişdir. Azərbaycan radio komitəsi nəzdindəki simfonik orkestrə rəhbərlik etmişdir. Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Bolqarıstan, Almaniya, Çexiya və digər ölkələrdə qastrol səfərləri olmuşdur. 1959-cu ildə Azərbaycanın Xalq artisti fəxri adına, 23.01.1979-cu ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür. Əşrəf Həsənv 9 avqust 1983-cü ildə vəfat etmişdir.

İnternetdə:https://az.wikipedia.org

**9 Yanvar – Xalq artisti, aktyor İlham Əhmədovun 70 illiyi, (09.01.1949)**



İlham Namiq Kamal oğlu Əhmədov əslən Şamaxıdandır. 9 yanvar 1949-cu ildə Bakıda doğulub. Buradakı 31 saylı orta məktəbi 1966-cı ildə bitirərək Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə vaxtı fransız ədibi Jan-Batist Molyerin "Jorj Danden" satirik komediyasının tamaşasında baş qəhrəman rolunu uğurla oynayıb. Onu institutun tədris teatrının aktyor truppasına qəbul ediblər (16 dekabr, 1968). Bu kollektivdə Mirzə Cavad ("Aydın", Cəfər Cabbarlı), Şvester ("Meteor" Fridrix Dürrenmatt), Lomov ("Elçilik", Anton Çexov), Rekrutçu ("Sahildə Bir Ev", Stefan Sveyq), Baş katib ("Sehirli Kreslo", Friteş Korinti), Molla Səbzəli ("Üləma Məclisi" Mirzə Ələkbər Sabirin şeirləri əsasında) rollarını oynayıb. O, 1971-ci il noyabrın 25-dən 1972-ci il fevral ayının 2-dək Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyor truppasında olub. Fevral ayının 3-dən Akademik Milli Dram Teatrında aktyor işləyib. 20 mart 1989-cu ildə istedadlı gənc rejissor Hüseynağa Atakişiyevin təşkil etdiyi Gənclər Teatrında aktyorluğa başlayıb. Bu kollektiv 26 yanvar 1993-cü ildən Azərbaycan Dövlət Gənclər Teatrı kimi fəaliyyət göstərir. İlham Namiq Kamal bu gənc kollektivin səhnəsində dörd il çalışıb. Dövlət Gənclər Teatrında işləməklə yanaşı, eyni zamanda 1989-1991-ci illərdə paralel olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyorluq edib. 1993-cü il iyun ayının 14-də bu truppadan çıxıb və özünün "İlham" Miniatür Teatrını yaradıb. Hazırda direktor və bədii rəhbər olduğu bu teatrda həm quruluşçu rejissor, həm də aktyor kimi çalışır. Teatrda hazırlanan bütün tamaşalara quruluş verir və onların əksəriyyətində baş rollarda oynayır. 1995-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyir, "Estrada sənəti" kafedrasının müdiridir. 25 iyun 2013-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.10 mart 2014-cü il Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" ordeninə layiq görülüb.

**Filmoqrafiya:** "Xatirələr sahili" (film, 1972), "Qızıl qaz" (film, 1972), "Fəallıq" (film, 1975), "Bağçada Rahat Yer" (1978), "Qayınana" (film, 1978), "Mehmanxana sahibəsi" (film, 1978), "Üzeyir ömrü" (film, 1981), "Evləri köndələn yar" (film, 1982), "Kişilər" (film, 1979), "Göz həkimi" (film), "Bəyin oğurlanması" (film, 1985), "Fədailər" (film, 1986), "Qəm pəncərəsi" (film, 1986), "Evləri göydələn yar" (film, 2010) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki lham_Namiq_Kamal

**22 Yanvar – Xalq artisti, aktyor Hacı İsmayılovun 75 illiyi, (22.01.1944)**



Hacı İsmayılov 22 yanvar 1944-cü ildə Bakıda doğulub. 190 nömrəli orta məktəbdə təhsil alıb. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sumqayıt Dövlət Dram Teatrına aktyor işləməyə dəvət alıb və 1968-ci il sentyabr ayının 2-də gənc truppada fəaliyyətə başlayıb. Bu teatrda M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında dərviş Məstəli şah rolunu ifa edib. Bundan sonra C. Patrikin "Qəribə missis Səvic" dramında Ceffi, A.Papayanın "Bəli, dünya dəyişib" komediyasında Səməndər, C.Cabbarlının "Sevil" pyesinin tamaşasında Məmmədəli bəy rolunda çıxış edib. 1970-ci il fevral ayının 16-dan Akademik Milli Dram Teatrında çalışır. Elə ilk gündən H.Cavidin "Xəyyam" faciəsindəki İkinci Qulam rolunu alıb. "Azərbaycanfilm" kinostudiyasında ilk dəfə "Ad günü" filmində Mustafa rolunda çəkilib, bu rolla böyük uğur qazanıb və Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülüb (1980). 17 may 1989-cu ildə Azərbaycan SSR-nin Əməkdar artisti, 18 dekabr 2000-ci ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adları ilə təltif olunub. Prezident təqaüdçüsüdür. Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi “Sənətkar” ordeninə layiq görülüb. Yaradıcılığının xarakterik sənətkarlıq xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə daha uyğundur. Akademik teatrda oynadığı əllidən çox rolun böyük bir qismi məhz həmin üslubun estetik səciyyələrinə uyğundur. 2014-cü ildən Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavinidir.

**Filmoqrafiya:** “Ağasadıq Gəraybəyli” (film, 1974), “Ad günü” (film, 1977), “Atayevlər ailəsi” (film, 1978), “Yol əhvalatı” (film, 1980), “Atamın sənəti” (film, 1980), “Babamızın babasının babası” (film, 1981), “Bağlı qapı” (film, 1981), “Bəyin oğurlanması” (film, 1985), “Qonşu qonşu olsa...” (film, 1989), “Qəzəlxan” (film, 1991), “Fəryad” (film, 1993), “Həm ziyarət, həm ticarət...” (film, 1995), “Ağ atlı oğlan” (film, 1995), "Qayınana" əməliyyatı (film, 1999), “Yaşıl eynəkli adam” (film, 1987), “Yaşıl eynəkli adam-2” (film, 1999), “Yaşıl eynəkli adam-3” (film, 2002), “Yumurta” (film, 2003), “Bizim qəribə taleyimiz” (film, 2005) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki

**Milli Qəhrəmanlar Zirvəsi**

**9 Yanvar – Azərbaycanın Milli Qəhrəmanı Quliyev Mətləb Kamran oğlunun 60 illiyi, (09.01.1959-31.08.1992)**



Quliyev Mətləb Kamran oğlu 9 yanvar 1959-cu ildə Beyləqan rayonunda doğulmuşdur. İbtidai təhsilini 3 saylı orta məktəbdə almışdır. Daha sonra o, C.Naxçıvanski adına hərbi məktəbə daxil olmuş, hərbi xidmətini isə Ukraynada keçirmişdir. Mətləb Azərbaycan Pedaqoji İnstitunun məzunudur. Mətləb 1985-ci ildə leytenant rütbəsi ilə təhsilini başa vuraraq Sumqayıt şəhərində 3 saylı məktəbdə hərbi hazırlıq müəllimi kimi çalışmağa başlamışdır. 1992-ci ildən DİN-ə işə düzəlmişdir.

Döyüşlərdə iştirakı:

Mətləb Quliyev tez-tez cəbhəyə gedir, torpaqlarımızın azad edilməsi uğrunda var gücü ilə çalışırdı. 1992-ci il 31 avqust Ağdam bölgəsində ağır döyüşlər gedirdi. Mənfur erməni quldurları yüksəklikləri ələ keçirmişdilər. Mətləb pulemyotla düşmənin üzərinə yeriyirdi, onlarla erməni yaraqlısını məhv edən Mətləbin mərmisinin bitdiyini görən vəhşi azğınlaşmış ermənilər onu hər tərəfdən mühasirəyə alaraq atəş açmağa başladılar o, bu döyüşdə qəhrəmancasına həlak oldu. Ailəli idi, iki övladı yadigar qalıb. Bakı şəhərinin “Şəhidlər xiyabanında” dəfn edilmişdir. Sumqayıt şəhər 3 saylı məktəb qəhrəmanımızın adını daşıyır, məktəbin önündə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub, adına bulaq var.

**Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: www.milliqahraman.az

**16 Yanvar – Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Rövşən Əbdülhüseyn oğlunun 50 illiyi (16.01.1969-13.09.1992)**



Rövşən Əbdülhüseyn oğlu Abdullayev 1969-cu il 16 yanvarda Lerik rayonunda doğulmuşdur. Orta təhsilini Astara şəhər 1 saylı orta məktəbdə başa vurduqdan sonra ailəsi ilə birlikdə Lənkərana köçmüşdür. Rövşən 1987-ci ildə Sankt-Peterburq Ali Hərbi-Siyasi məktəbinə daxil olub. 1991-ci ildə ali məktəbi əla qiymətlərlə bitirən gənc leytenantın təyinatını Rostov şəhər Daxili İşlər Şöbəsinə veriblər. O, Azərbaycana qayıdan kimi DİN-in əməkdaşı olaraq daxili qoşunların tərkibinə qatılıb. Gənc zabit bir müddət sonra Zəngilana göndərilmişdir. Rövşən 70 nəfərdən ibarət tağımın komandiri təyin edilib. Onun başçılıq etdiyi tağım göstərdiyi şücaətə görə cəbhədə ad çıxarmışdı. Subay idi. Lənkəran şəhər qəbiristanlığında dəfn edilmişdir. Lənkəran şəhərində abidəsi qoyulmuşdur. Adına Lerikdə mədəniyyət evi və küçə var.

Döyüşlərdə iştirakı:

Rövşəninköməkliyi ilə düşmənin Qafan rayonunda yerləşən obyektləri məhv edildi. 13 sentyabr 1993-cü il Rövşənin son döyüşü oldu. Erməni faşistləri Zəngilan rayonunun Qazançı kəndinə hücum etmişdi. O, döyüş yoldaşları ilə "QAZ-66" markalı avtomobilə əyləşib Qazançıya yollanır, onlar kəndin yaxınlığında düşmənin PDM-i və piyadaları ilə üzbəüz çıxdılar, güclü atəşə məruz qalan vətənimizin igid oğulları ölüm dirim savaşına girdilər. Rövşən yoldaşlarına meşəyə çəkilməyə əmr etdi özü isə ağır yaralansada silahı yerə qoymurdu. Yoldaşları onu xəstəxanaya çatdırsalarda artıq gec idi...

**Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə Rövşən Əbdülhüseyn oğlu Abdullayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: www.milliqahraman.az

**23 Yanvar – Azərbaycanın Milli Qəhrəmanı Hikmət Oqtay oğlu Muradovun 50 illiyi, (23.01.1969-29.10.1991)**



Hikmət Oqtay oğlu Muradov 23 yanvar 1969-cu ildə Bakı şəhərində doğulmuşdur. 1976-1986-cı illərdə 190 saylı orta məktəbdə təhsil almışdır. Həmin il Krasnokustk Mülki Aviasiya Məktəbinə daxil olub. 1991-ci ildə buranı fərqlənmə diplomu ilə bitirmişdir. Daha sonra Hikmət Yevlax hava yollarında ikinci pilot kimi fəaliyyətə başlayıb. Bakı şəhərinin "Şəhidlər xiyabanı"nda dəfn edilib. Vaxtilə oxuduğu 190 saylı məktəbdə qəhrəmanımızın barelyefi vurulub.

Döyüşlərdə iştirakı:

Hikmət AN-2 təyyarəsi ilə dəfələrlə müharibə gedən əraziyə uçuşlar etmişdi. O, döyüşçülərimizə ərzaq, silah-sursat daşınmasında misilsiz işlər görmüşdü. Cəsur pilot əfsanəvi uçuşlarla hamını heyran qoyurdu… 1991-ci il 29 oktyabr Xocalı rayonunun Xanabad kəndi ərazisində onun idarə etdiyi AN-2 təyyarəsi ermənilər tərəfindən güclü raket atəşinə məruz qalır, Hikmət heyətlə həlak olur. Subay idi.

**Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə Muradov Hikmət Oqtay oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

**Fevral**

**Əlamətdar və tarixi günlər**

2 Fevral – Ümumrespublika Gənclər Günü, (1997)
4 Fevral – Ümumdünya Xərçənglə Mübarizə Günü, (2005)
7 Fevral – Beynəlxalq Təhlükəsiz İnternet Günü, (2004)
8 Fevral – Beynəlxalq Nənələr və Babalar Günü, (2008)
14 Fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü, (1992)
14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü, (2012)
17 Fevral – Təmənnasız Xeyirxahlıq İfadəsi Günü
21 Fevral – Beynəlxalq Ana Dili Günü, (1999)
27 Fevral – Beynəlxalq Qütb Ayısı Günü

**Bu tarixi unutmayaq**

26 fevral – Xocalı faciəsi, (1992)

**Görkəmli şəxsiyyətlər**

İtaliya alimi Qalileo Qalileyin 455 illiyi, (15.02.1564-1642)
Ədəbiyyatşünas, folklorçu Həmid Araslının 110 illiyi, (23.02.1909 – 1983)
Publisist, tənqidçi, şair Əlibəy Hüseynzadənin 155 illiyi, (24.02.1864-1940).

**Yubilyar yazıçı və şairlər**

Yazıçı Cavad Zeynalın 75 illiyi, (07.02.1944)
Tərcüməçi Hüseyn Şərifin 110 illiyi, (09.02.1909-1989)
Şair Qasım bəy Zakirin 235 illiyi, (11.02.1784-1857)
Ədəbiyyatşünas, tənqidçi Fəridə Vəzirovanın 95 illiyi, (15.02.1924-1986)
Şair Oqtay Şamilin 75 illiyi, (17.02.1944)
Yazıçı Cəlil Məmmədquluzadənin 150 illiyi, (10.(22).02.1869-04.01.1932)
Yazıçı, şair Yusif Əhmədovun 80 illiyi, (22.02.1939)

**Xarici ədəbiyyat**

Rus şairi, təmsilçi İvan Krılovun 250 illiyi, (13.02.1769-1844)
Rus uşaq yazıçısı Arkadi Qaydarın 115 illiyi, (22.02.1904-1944)

**İncəsənət**

Xalq artisti Firəngiz Şərifovanın 95 illiyi, (06.02.1924)
Xalq artisti, rejissor Tofiq Tağızadənin 100 illiyi, (07.02.1919-1998)
Bəstəkar, xalq artisti Süleyman Ələsgərovun 95 illiyi, (22.02.1924-1999)
Xalq artisti Mustafa Mərdanovun 125 illiyi, (28.02.1894 -1968)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Tağıyev Şahin Talıb oğlunun 70 illiyi, (03.02.1949)
Azərbaycanın Milli Qəhrəmanı Ağayev Bəylər Tapdıq oğlunun 50 illiyi, (03.02.1969-06.08.1992)
Azərbaycanın Milli Qəhrəmanı Xəlilbəyli Təbriz Xəlil Rza oğlunun 55 illiyi, (12.02.1964-31.01.1992)

**Əlamətdar və tarixi günlər**
**2 Fevral – Ümumrespublika Gənclər Günü, (1997)**

***Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir.***

**Heydər Əliyev,**
*Ümummilli lider*



***Gənclik, əlbəttə, başqa nemətdir,***
***Unudulmaz böyük səadətdir...***

**Hüseyn Cavid**

1 fevral 1997-ci ildə Respublika Gənclər Forumunun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "2 fevral – Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd olunur. Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti mövcuddur və indi həmin siyasət daha qətiyyətlə həyata keçirilir. Bu gün ölkəmizin hər yerində Azərbaycan gəncləri öz bayramlarını uğurlarla qeyd edirlər. Ulu öndərin gəncliyə və gənclərə etimadı indi öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. İndi ölkəmizdə dövlət qeydiyyatından keçən 170-dən çox gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin gördüyü işlər də diqqəti xüsusilə cəlb edir. Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilirlər. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

İnternetdə: www.books.google.com

## 4 Fevral – Ümumdünya Xərçənglə Mübarizə Günü, (2005)




Ümumdünya Xərçənglə Mübarizə Günü 2005-ci ildə Xərçəng Əleyhinə Beynəlxalq İttifaq (UİCC) tərəfindən təsis edilmişdir. Əsas məqsəd dünya ölkələrinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu və mübarizənin yalnız birlikdə aparıldıqda səmərə verdiyini bir daha dünya ictimaiyyətinə xatırlatmaqdır. Əsas məqsəd ayrı-ayrı fərdlərin, təşkilat və hökümətlərin birgə fəaliyyəti ilə 2025-ci ilə qədər xərçəng və digər qeyri-infeksion xəstəliklər nəticəsində vaxtından əvvəl ölüm hallarının sayını 25% azaltmağın mümkünlüyünü göstərməkdir. Dünyada xərçəng xəstəliyindən hər il 7 milyondan çox insan həyatını itirir. Hazırda bu diaqnozla 20 milyon insan yaşayır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə 2030-cu ildə onkoloji xəstələrin sayı iki dəfə artacaq.

İnternetdə: www.books.google.com

## 7 Fevral – Beynəlxalq Təhlükəsiz İnternet Günü, (2004)



Beynəlxalq Təhlükəsiz İnternet Günü (İnternational Safer Internet Day) Avropa Komissiyasının qərarı ilə 2004-cü ildə təsis edilib. Bu əlamətdar hadisə dünyanın 60-dan çox ölkəsində müxtəlif şüarlar altında (“İnternet və uşaqlar”, “Qlobal şəbəkədə kibercinayət: qanunsuz kontentlərdən müdafiə”, “İnternet adi bir oyun vasitəsi deyil, İnternet bizim həyatımızdır” və s.) qeyd olunur. Tədbirlər qeyri-hökümət təşkilatı olan INSAFE (European Safer Internet Network – Avropa Təhlükəsiz İnternet Şəbəkəsi) tərəfindən koordinasiya edilir. INSAFE – Avropa Komissiyasının iştirakı ilə yaradılan milli təşkilatlar şəbəkəsidir. Təşkilatın əsas missiyası təhlükəsiz interneti təbliğ etmək, xüsusən də gələcək nəsilləri qlobal şəbəkədəki mövcud təhdidlərlə bağlı məlumatlandırmaq, maarifləndirmə işləri aparmaqdır. Ənənəvi olaraq hər il fevral ayının ikinci həftəsinin çərşənbə axşamı günündə təşkil edilən və bu il “Təhlükəsiz rəqəmsal texnologiyalar dünyasını birlikdə kəşf edin” şüarı ilə keçirilən müxtəlif səpkili tədbirlərdə – “Təhlükəsiz internet-mədəniyyət: uşaq və yeniyetmələr üçün pozitiv və təhlükəsiz İnternet”, “Təhsil və informasiya təhlükəsizliyi”, “Təhlükəsiz internetin yaradılmasında peşəkar cəmiyyətlərin rolu”, “İnternetdə neqativ kontentdən texniki müdafiə metodları”, “İnternet məhdud fiziki imkanlı insanlar üçün”, “İnternet nəsilləri birləşdirir və insanları maarifləndirir” və s. mövzularda məruzələr dinlənilir, müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilərək təklif və tövsiyələr verilir. İnternetdə: www.books.google.com

**8 Fevral – Beynəlxalq Nənələr və Babalar Günü, (2008)**



Bir çox Avropa ölkələrində "Nənələr və babalar" günü qeyd olunur. Fransada martın ilk bazar günü, İtaliyada oktyabrın ilk bazar günü, Estoniyada sentyabrın ikinci bazar günü, Polşada isə ayrıca nənələr günü (21 yanvar) və babalar günü (22 yanvar) qeyd olunur. 2008-ci ildən 8 fevral günü Beynəlxalq nənələr və babalar günü kimi qəbul olunub və bu təşəbbüsü həm YUNESKO, həm də Avropa Birliyinin mədəniyyət üzrə komissiyaları dəstəkləyib. Həmin gün yaşından asılı olmayaraq nənə və babası olan hər kəs onların ziyarətinə gedir.

Azərbaycanın Ahıl Ziyalılara Qayğı İctimai Birliyinin rəhbəri Nəsrulla Nurullayev isə bildirib ki, Azərbaycan xalqının mentalitetinə uyğun olaraq yaşlı insanlara qayğı göstərməyi cavan nəsil hər zaman özünə borc bilir və "Nənələr və babalar" gününün təsis olunması bunun bir daha sübutu ola bilər. Onun sözlərinə görə, bütün dünyada olduğu kimi, Azərbaycanda da oktyabrın 1-i Beynəlxalq ahıllar günü kimi qeyd olunur, lakin nənə və baba olan insanlar üçün ayrıca bir gün qeyd etmək cavan nəslin onlara qarşı münasibətini daha da yaxşılaşdıracaq.

İnternetdə: www.books.google.com

## 14 Fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü, (1992)



Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, Birinci Dünya Müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib və indiki Belarus ərazisində gedən döyüşlərdən birində həlak olub. 1992-ci ildən Azərbaycanda Hərbi Hava Qüvvələri ilə (HHQ ilə) bağlı islahatlar dövrü başlanıb. Həmin il bu qurumun strukturu milliləşdirilib. General-mayor Rail Rzayev HHQ-nin komandanı təyin edilib. Bir qədər sonra Hərbi Hava Qüvvələri Hava Hücumundan Müdafiə Qoşunları ilə birləşdirilib. General-leytenant rütbəsi alan Rail Rzayev Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ və HHMQ) komandanı kimi fəaliyyətini davam etdirib. Atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda başlanan hərbi islahatlar prosesinin özəyini məhz HHQ və HHMQ təşkil edib. Səbəb aydındır – işğal altında olan Azərbaycan əraziləri yüksək relyefə malikdir və bu əraziləri işğaldan qurtarmaq işində qırıcıların, hərbi təyyarələrin və hava hədəflərini vuracaq texnikaların əvəzi yoxdur. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb. Beləliklə, 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ və HHMQ-nin dirçəldilməsinə sərf edilib.

Xatırladaq ki, Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (İPAP) çərçivəsində H. Z. Tağıyev qəsəbəsindəki hərbi aerodrom modernləşdirilib. Eyni zamanda hərbi aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib və təmir edilib, aerodromun texniki təminatı, paraşüt-desant xidməti və əyləc paraşütlərinin yığılması binalarının inşasına başlanılıb.

Hazırda Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuş keçirmiş pilotlar sayılır. Pilotlarımız, əsasən, Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrin müvafiq ixtisasartırma kurslarında və təlimlərdə iştirak edirlər.

1992-ci ilin sentyabrında verilən fərmana əsasən 14 fevral – Azərbaycan Hərbi Hava Qüvvələri Günü kimi qeyd olunur.

İnternetdə: www.books.google.com

## 14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü, (2012)




14 Fevral – Beynəlxalq Kitab Bağışlama Günü (International Book Giving Day) – təqvimdə ən gənc bayramlardandır. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir.

Bu bayram 2012-ci ildə özünün meydana gəlməsində ABŞ-da məşhur Delightful Children's Books uşaq kitabı saytının yaradıcısı Emmi Brodmura borcludur. Bu ideyanı ona balaca oğlu vermişdir. O, anasından soruşmuşdur ki, niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün yoxdur.

Öncə Emmi Brodmur internet şəbəkəsində müxtəlif insanlara bu təşəbbüsə qoşulmağı təklif etmişdir. İki il ərzində bu təşəbbüs dünyada dəstək qazanmış və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir.

Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynamışdır. Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola salınır və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır.

İnternetdə: www.books.google.com

## 17 Fevral – Təmənnasız Xeyirxahlıq İfadəsi Günü



Hər il fevralın 17-də bütün dünyada qeyd olunan Təmənnasız Xeyirxahlıq İfadəsi Günü (Random Acts of Kindness Day) beynəlxalq xeyriyyə təşkilatlarının təşəbbüsü ilə təsis olunmuşdur. Bu bayram ABŞ-da yaransa da, lakin bu gün artıq ümumdünya əhəmiyyətli bayrama çevrilmişdir və vətəndaşlıqdan, milliyyətdən və dini inanclardan asılı olmayaraq qeyd olunur.

Bu bayram daha çox Qərbi Avropa və ABŞ-da məşhurdur. Həmin gün bir çox şəhərlərdə ənənəvi olaraq məşhur aktyorların, ictimai və siyasi xadimlərin iştirakı ilə xeyriyyə tədbirləri və marafonları keçirilir.

Əgər insan öz yaxşılığı müqabilində təşəkkür gözləyirsə, bu həqiqi yaxşılıq, xeyirxahlıq hesab olunmur. Siz xeyirxahlıq etdiyiniz insanların sevincini görməyi və tərifini eşitməyi gözləməməlisiniz. Xeyirxah əməllər özlüyündə sizə zövq verməlidir, buna görə tərif gözləməməlisiniz. Əsl xeyirxahlıq budur!

İnternetdə: www.books.google.com

## 21 Fevral – Beynəlxalq Ana Dili Günü, (1999)

*Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük sərvətidir.*

**Heydər Əliyev,**
*Ümummilli lider*

***Ey türk oğulları, vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilimizin bir sözünü ləl cavahirata dəyişməyin.***

**Şah İsmayıl Xətai**




Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu il noyabr tarixində keçirilən Baş konfransının 30-cu sessiyasında təsis edilib və 21 fevral 2000-ci ildən dünyada dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilir.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Çünki Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Dünyada məhv olmaq təklükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Dil ünsiyyət vasitəsidir, millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik, tarixin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir.

İnternetdə: www.books.google.com

## 27 Fevral – Beynəlxalq Qütb Ayısı Günü



Hər il fevralın 27-də dünyada Beynəlxalq Qütb Ayısı Günü (International Polar Bear Day) qeyd olunur. Bu günün qeyd olunmasının əsas məqsədi ictimaiyyətin onlar haqqında məlumatını artırmaq və bu heyvanların qorunmasının vacibliyini vurğulamaqdır. Həmin gün ənənəvi olaraq təbiətin müdafiəsi ilə məşğul olan ekologiya təşkilatları tərəfindən müxtəlif aksiyalar və maarifləndirici tədbirlər həyata keçirilir.

Qütb ayılarının yoxolma təhlükəsinin əsas səbəblərindən biri olan qütb buzlaqlarının ərinməsidir. Ağ ayıların məhv olmasının daha bir səbəbi ətraf mühiti çirkləndirən neft quyularının işlənməsidir.

Son illərdə əldə olunmuş məlumatlar sübut edir ki, Qütb ayısı təqribən 5 milyon il əvvəl təkamülə başlamışdır. Onun əcdadı qonur ayı olmuşdur. Lakin ağ ayı, qonur ayıdan fərqli olaraq, uzaq Şimalda, dəniz buzları arasında yaşamağa uyğunlaşmışdır.

İnternetdə: www.books.google.com

**Bu tarixi unutmayaq**
**26 Fevral – Xocalı faciəsi, (1992)**







Xocalı soyqırımı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri, Rusiyanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə, Xocalı şəhərini işğal edərkən, azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğındır. Bu faciə xalqımıza qarşı dəhşətli soyqırımıdır. Hücumdan əvvəl, yəni fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutulmuşdur. Nəticədə, fevralın 26-sı səhər saat 5 radələrində Xocalı tam alova bürünmüşdür. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etmişdir. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən sakinlərdən 613-ü düşmən gülləsinə tuş gələrək qətliamın qurbanı olmuşdur. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 nəfər Xocalı sakini qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq olmuşdur. 1275 xocalılı əsir, 150 insan itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.

1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün ardıcıl tədbirlər görmüşdür. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi, siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur.

İnternetdə: www.books.google.com

**Görkəmli şəxsiyyətlər**

**15 Fevral – İtaliya alimi Qalileo Qalileyin 455 illiyi, (15.02.1564-08.01.1642)**



1564-cü ildə İtaliyanın Murdara şəhərində anadan olub. Dövrünün tanınmış musiqiçilərindən Vincenzo Qalileyin oğlu olan Qalileo, ilk təhsilini Florensiyada Vallombroza monastrında alıb. 1581-ci ildə Pizan Universitetində tibb təhsili almağa başlayıb. Tibb elmi ilə yanaşı, həndəsə ilə yaxından maraqlanıb. Astronomik problemlərə dair Kopernikin təlimini mənimsəyib. Pizan Universitetində 3 ilə yaxın oxuduqdan sonra atasının müflis olması səbəbindən universiteti tərk edib. 1590-cı ildə özünün məşhur "Hərəkət haqqında" traktatını yazıb. Mexaniki rəqqasın, üzən cisimlərin və hərəkətin Aristotel fizikasından fərqli bir düşüncə ilə riyazi olaraq ələ alınmasını təklif edib. Qalileo Piza qülləsindən ağırlıq daşı sallayaraq Aristotelin nəzəriyyəsinə ciddi dəyişiklik etdi. Onun fikrincə, bütün şərtlər bərabər olduqda hər cismin düşmə sürəti, ağırlığından asılıdır. Bu təklifi yaşlı professorlarla münaqişəyə səbəb olub. 1592-ci ildə Pizan Universitetini tərk edərək, Venesiyanın Padua Universitetində riyaziyyat kafedrasında işləməyə başlayıb, eyni zamanda astronomiyadan da dərs deyib. Bu illərdə daha bir məşhur əsəri "Mexanika" traktatı işıq üzü gördü. 1600-cü ildə primitiv bir termometr, insanın ürək döyüntüsünün ölçülməsi üçün "rəqqas" və 1604-cü ildə sərbəst düşmənin riyazi qanunlarını kəşf edib. Öz əlləri ilə teleskop quraşdıran Qaliley aydakı dağları, Süd Yolu qalaktikasının ulduzlardan təşkil olunduğunu və 1610-cu ildə Yupiterin 4 peykini kəşf edib. Məşhurluğu və maddi vəsaitə olan ehtiyacı ona Florensiyaya getməsinə səbəb olmuşdur. Bundan başqa Qaliley Yupiterin ətrafında fırlanan dörd peyki kəşf edib, Veneranın fazalarını, Ağ yolun ulduzlardan ibarət olduğunu müəyyənləşdirdi. Gündüz isə Qaliley hislə qaraldılmış şüşə vasitəsilə Günəşə baxaraq Günəşdə ləkələr olduğunu və ləkələrin hərəkətinə görə Günəş diskinin fırlandığını müəyyən etmişdir. Bu kəşflərinə görə bəzi professorların və kilsə xadimlərinin qəzəbinə tuş gəlmişdir. 1611-ci ildə Papanı Kopernik təliminin katolik təlimi ilə zidd olmamasına inandırmaq üçün Romaya gedib. Papa V Pavel tərəfindən xoş qarşılanan Qaliley Roma Elmlər Akademiyasına üzv seçilib. Elmin korifeyi olan Qaliley klassik fizikanın əsas banilərindən biri, astronom, riyaziyyatçı, Nikolay Kopernikin dünya sistemini müdafiə edərək inkişaf etdirən, Ptolomeyin yanlış geosentrik sistemini ifşa edən, materiya və hərəkətin əbədiliyini əsaslandıran, Aristotel fizikasının səhvlərini aşkar edən, böyük alim, mütəfəkkir və ədibdir. O, təcrübi fizikanın əsasını qoymuş, elmdə eksperimental tədqiqat üsulu tətbiq etmişdir. Qaliley 1642-ci il yanvarın 8-də 78 yaşında vəfat etmişdir.

İnternetdə: http://portal.azertag.az/az/node/1915

**23 Fevral – Ədəbiyyatşünas Həmid Araslının 110 illiyi, (23.02.1909 - 1983)**



Həmid Araslı 1909-cu ildə fevral ayının 23-də Gəncədə dünyaya göz açmışdır. 1922-ci ildə Gəncə Darülmüəllimi Seminariyasında təhsil almışdır. 1926-cı ildə seminariyanı bitirib Nəbiağalı kənd məktəbində əvvəlcə müəllim, sonra isə direktor vəzifəsində işləyib. 1929-cu ildə Bakıya gəlib Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olub. İnstitutu vaxtından əvvəl bitirib 1931-ci ildə Gəncəyə qayıdaraq maarif şöbəsində müdir müavini vəzifəsinə təyin olunub. 1932-ci ildə Bakıya gəlib aspiranturada təhsil almaqla yanaşı, keçmiş SSRİ EA-nın Azərbaycan filialının nəzdində təşkil olunmuş kitabxananın şərq şöbəsində müdir işləyib. 1935-ci ildən elmi yaradıcılığa başlayıb. Bir il sonra (1936) Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib. 1938-ci ildə fondda saxlanılan əlyazmalar içərisində sovet ideologiyasına uyğun olmayan nümunələr aşkar edib onu işdən azad etdilər. 1938-1939-cu illərdə “Azərnəşr”in Bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsinə qəbul olunmuşdur. 1944-cü ildə Azərbaycan Dövlət Universitetində Yaxın Şərq ədəbiyyatı kafedrasının müdiri vəzifəsinə təyin olundu. 1954-cü ildə "XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bir il sonra ona professor adı verilmişdir. H.Araslı 1958-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilib. 1968-ci ildə Özbəkistanın, 1979-cu ildə Azərbaycanın Əməkdar elm xadimi adına layiq görülüb. Onun Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı mühüm xidmətlərindən biri də 1960-cı ildə nəşr olunan üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabıdır. Şairin həyat və yaradıcılığının müxtəlif problemlərinə həsr etdiyi 20-dən artıq məqaləsi və çoxillik araşdırmalarının yekunu – rus və Azərbaycan dillərində nəşr edilən "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası vardır. H.Araslı tərəfindən nəşr olunan beş cildlik füzulişünaslığın inkişafında mühüm əhəmiyyət daşımışdır, dünya füzulişünas alimlərinin bu gün də müraciət etdikləri mötəbər mənbədir. Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan "İmadəddin Nəsimi" kitabçasında şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır.

**Kitabları:** “Ələkbər Sabir Tahirzadə” (1936), “Mirzə Fətəli Axundov” (1938), “Füzuli” (1939), “Şairin həyatı” (1940), “Nizaminin lirikası” (1940), “Vətənpərvər qadınlar” (1942), “Xalqın qəhrəman oğlu Koroğlu” (1942), “Azərbaycan ədəbiyyatı tarixi” (1943), “Nəsimi” (1972) və s.

**Filmoqrafiya:** “Dədə Qorqud” (film, 1975) “Söz körpüsü... Akademik Həmid Araslı” (film, 2010). İnternetdə: www.books.google.com

**24 Fevral – İctimai xadim Əli bəy Hüseynzadənin 155 illiyi, (24.02.1864-1940)**



Əlibəy Hüseynzadə1864-cü il 24 fevralda Salyanda anadan olmuşdur. Tiflis gimnaziyasını bitirmiş (1875-1885), uşaqlıq və tələbəlik illərində türk, fars, ərəb, alman və rus dillərini öyrənmişdi. Ə.Hüseynzadə 1885-ci ildə Sankt-Peterburq Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş, həm də şərq fakültəsində görkəmli professorların mühazirələrini dinləmişdi. Rusiya imperiyasının paytaxtındakı ictimai-siyasi təlatümlərlə əlaqədar olaraq Ə.Hüseynzadə İstanbula gəlmiş və burada darülfünunda əsgəri-tibbiyyə fakültəsində tədris almaqla dermatoveneroloq ixtisası və yüzbaşı hərbi rütbəsi qazanmışdır. 1897-ci ildə o, Qırmızı Aypara Cəmiyyəti heyətinin tərkibində İtaliyaya gedib. Üç ildən sonra geri qayıdaraq müsabiqə yolu ilə İstanbul Darülfünunda əsgəri-tibb fakültəsində professor köməkçisi vəzifəsinə təyin edilib. Uzun müddət alim, həkim, rəssam, şair, tənqidçi, tərcüməçi, müəllim, jurnalist kimi fəaliyyət göstərmiş, bu sahələrin hər birində özünəməxsus iz qoymuşdur. XX əsrin əvvəllərində ictimai-siyasi fikrin təşkili və tənzimlənməsində, informasiya mühitinin formalaşmasında milli mətbuat nümunələri əhəmiyyətli rol oynayıb. 1906-cı ildən “Füyuzat” jurnalına redaktorluq etmişdir. Jurnalistikanın ictimai fikir tribunasına çevrilməsi də həmin tarixi mərhələnin məhsuludur. "Füyuzat" jurnalı və onun redaksiya heyətinin xidmətləri bu mənada diqqətəlayiqdir. Çünki onlar yalnız bir jurnal nümunəsi nəşr etməklə məhdudlaşmadılar, füyuzatçılıq xətti-hərəkatını, "Füyuzat" jurnalistikası məktəbini yaratmaqla tarix səhifələrinə öz imzalarını həkk etdilər. "Füyuzat"da Əli bəy Hüseynzadə məqalələrinin birində yazırdı: "Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!" Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və "Tazə həyat", "İrşad", "Yeni füyuzat", "Həqiqət", "Tərəqqi", "İqbal", "Sədayi-həqq", "Şəlalə", "Açıq söz", "Bəsirət", "Qurtuluş", "Dirilik", "Azərbaycan", "Övraqi-nəfisə" mətbuat orqanları tərəfindən "Türkləşmək, islamlaşmaq, müasirləşmək" – azərbaycançılıq şəklində formulə edilərək təbliğ olundu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərləri Əli bəy Hüseynzadənin həmin tezisi və füyuzatçıların tarixi xidmətləri ilə bağlıdır. Ə.Hüseynzadə həmçinin Sankt-Peterburq İmperator Rəssamlıq Akademiyasında təhsil almışdır və bir sıra portret və mənzərələrin müəllifidir. Əli bəy Hüseynzadə 1940-cı ildə İstanbulda vəfat edib.

Kitabları: “Qərbin iki dastanında türk” (1926), “Seçilmiş əsərləri” (2007) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki

## Yubilyar yazıçı və şairlər

## 7 Fevral – yazıçı Cavad Zeynalın 75 illiyi, (07.02.1944)



Zeynalov Cavad Behbud oğlu 1944-cü il fevralın 7 - də Azərbaycanın Füzuli rayonunun Gorazlı kəndində kolxozçu ailəsində anadan olmuşdur. Burada Natəvan adına orta məktəbi bitirdikdən sonra Bakıya gəlmiş (1963), inşaat idarəsində, evtikmə kombinatında və "Avtodetal" zavodunda rəngsaz işləmişdir (1964-1967). Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır (1969-1975). Cavad Zeynal eyni zamanda Azərnəşrdə korrektor, kiçik redaktor, redaktor, "Yazıçı" nəşriyyatında böyük redaktor kimi çalışmışdır (1978-ci ildən). Ədəbi fəaliyyətə 1964-cü ildən şeirlə başlasa da, sonradan bütün qüvvəsini nəsr yaradıcılığına həsr etmişdir. Dövri mətbuatda hekayələri, povestləri vaxtaşırı dərc olunur.

**Əsərləri:** "İkinci and" (1980), "Suya söylənən yuxu" (1983), "Şəhərə qar yağırdı" (1988) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.149.

**9 Fevral – Tərcüməçi Hüseyn Şərifin 110 illiyi, (09.02.1909-1989)**



Şərifov Hüseyn Qasım oğlu 1909-cu ildə Tiflisdə anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1924-1929-cu illərdə Tiflis Pedaqoji Texnikumunda oxumuşdur. Tiflis azərbaycanlılarının ədəbi orqanlarından biri olan "Dan ulduzu" jurnalında Hüseyn Şərifin "Şükufə" adlı ilk hekayəsi dərc olunmuşdu. 1934-cü ilin sonundan başlayaraq Hüseyn Şərifin ömür yolu Bakıyla bağlıdır. Bakıya köçən yazıçı burada müxtəlif məsul vəzifələrdə çalışıb. Bu vəzifələr isə onu ədəbiyyata, xüsusən də tərcüməçilik sənətinə daha möhkəm bağlayıb. O, Azərbaycan SSR Baş mətbuat İdarəsində siyasi redaktor (1934-1935), "Azərnəşr"də tərcüməçi, redaktor, bədii ədəbiyyat şöbəsinin müdiri (1938-1940) işləyəndə də, Azərbaycan Baş mətbuat idarəsinin rəisi olanda da, Azərbaycan KP MK mədəniyyət şöbəsinin müdiri, Respublika Radio Komitəsinin sədri (1942-1944) kimi məsul vəzifələri aparanda da işi ədəbi mühitlə sıx bağlı idi. Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Mikayıl Müşfiq, Məmməd Səid Ordubadi, Süleyman Rəhimov, Mehdi Hüseyn, Cəfər Xəndan, Rəsul Rzayla dostluqları sonralar onun "Xatirələr" kitabında öz əksini tapmışdır. Yazıçının ömrünün son ilində, 1989-cu ildə nəşr olunan bu kitabda yuxarıda adları çəkilən sənətkarların həyatlarının gələcək nəsillərə örnək ola biləcək məqamları açıqlanır. Hüseyn Şərif A.N.Radişevin "Peterburqdan Moskvaya səyahət", V.T.Korolenkonun "Yurdsuz uşaqlar", İ.A.Qonçarovun "Oblomov", K.Markovun "Ata və oğul", V.A.Aksyonovun "Həmkarlar", L.Qrosmanın "Dostoyevski", A.Buninin "Povest və hekayələri"ni, İ.Yefremovun "Dumanlı Andromeda", A.Rıbakovun "Sürücülər", F.Dostoyevskinin "İdiot" və s. dilimizə tərcümə etmişdir. H.Şərif eyni zamanda tərcüməçilik sənəti ilə bağlı bir sıra nəzəri məqalələrin də müəllifidir. Bu qəbildən onun "M.Arifin tərcümə etdiyi L.Tolstoyun "Hərb və sülh" əsərinin tərcüməsi haqqında" ("Kommunist", 1948, 17 iyul), "Moskvadan uzaqlarda" romanının tərcüməsi haqqında" ("Ədəbiyyat qəzeti", 1952, 25 iyun), "Bədii tərcümə" ("Ədəbiyyat və incəsənət", 1954, 3 aprel), "Bədii tərcümə ancaq yaradıcı olmalıdır" ("Ədəbiyyat və incəsənət", 1967, 18 mart), "Bədii nəsr və tərcümə" ("Azərbaycan", 1967, №7), "M.Şoloxovun tərcümə təcrübəsindən" ("Ədəbiyyat və incəsənət", 1975, 24 may) və s. məqalələrini nümunə göstərmək olar.

**Kitabları:** "Qızılgüllü xalça" (1958), "Xatirələr" (1989).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.393.

**11 Fevral – Şair Qasım bəy Zakirin 235 illiyi, (11.02.1784-1857)**



Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur. Onun əsli Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənah xanın doğma qardaşıdır. Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars, dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərləri ilə tanış olmaq imkanı vermişdir. Zakir mollaxanada oxuduğu illərdə adları çəkilən sənətkarların bədii irsini oxuyub öyrənmişdir. Zakir müasirləri arasında da dərin hörmət və böyük nüfuz qazanmışdır. Azərbaycanın Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qurtqaşılı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, habelə gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakin onun məktublaşdığı, əlaqə saxladığı məşhur şəxsiyyətlər idi. Zakirin satiraları əsas etibarilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Zakirin müxtəlif mövzularda yazılan "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazı", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələri vardır. Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir. Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş "Əsərləri"ndə: "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsili çap olunmuşdur. Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də istifadə etmişdir. Zakir təmsillərini yeni tarixi şəraitə, müasir həyatın tələblərinə uyğun olaraq yazmışdır. Qasım bəy Zakir ömrünün sonlarını maddi ehtiyac və çətinliklər içərisində başa vurmuşdur. O, 1857-ci ildə Şuşada vəfat etmiş və şəhərin Mirzə Həsən qəbiristanlığında dəfn edilmişdir.

**Əsərləri:** "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsil və s.

İnternetdə: https://az.wikipedia.org/wiki

**15 Fevral – Ədəbiyyatşünas Fəridə Vəzirovanın 95 illiyi, (15.02.1924-1986)**



Fəridə Şamil qızı Vəzirova 15 fevral 1924-ci ildə Qaryagin rayonunun Sərdarlı kəndində anadan olmuşdur. O, Bakı şəhərindəki 171 saylı orta məktəbi bitirdikdən sonra, 1940-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdu, 1942-ci ildə komsomolun çağırışı ilə könüllü olaraq orduya getmişdir, orduda sıravi döyüşçü, rabitəçi kimi fəaliyyət göstərmişdi. 1945-ci ilin oktyabrında ordudan təxris olunduqdan sonra təhsilini davam etdirmiş, Stalin təqaüdü almış, universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Fəridə Vəzirova 1948-1949-ci illərdə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında ədəbi işçi kimi işləmişdi, 1949-1952-ci illərdə ADU-nun aspiranturasında oxumuşdu, bu vaxta qədər dövri mətbuatda çıxış etməsinə baxmayaraq, onun ilk ədəbi tənqidi məqaləsi Mədinə Gülgünün "Təbrizin baharı" kitabına yazdığı eyni adlı məqaləsi olmuşdur. O, "Azərbaycan" jurnalında tənqid şöbəsinin müdiri işləmiş, (1952-1953) illərdə universitetin filololgiya fakültəsində Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim, dosent, sonra isə professor olmuşdur. Əmək və müharibə cəbhəsində fəaliyyətinə görə 8 medalla təltif edilmişdir. Fəridə Vəzirova 1986-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:** "C. Cabbarlı yaradıcılığında sosializm realizmi" (1960), "Məmməd Səid Ordubadi" (1970), "Ədəbi qeydlər, tənqidlər" (1985).

İnternetdə: https://az.wikipedia.org/wiki

## 17 Fevral – Şair Oqtay Şamilin 75 illiyi, (17.02.1944)



Oktay Şamil 1944-cü il fevralın 17-də Ağsu rayonunun Bico kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1950-1960). ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1962-1967). Əmək fəaliyyətinə Şamaxı rayonu Həmyə kənd səkkizillik məktəbində müəllim kimi başlamışdır (1967-1968). "Yeni Şirvan" rayon qəzeti redaksiyası nəzdində yerli radio verilişləri şöbəsində təşkilatçı müxbir (1968), Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında incəsənət şöbəsinin əməkdaşı kimi çalışmışdır (1969-1970). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Uşaq" və "Gənclik" redaksiyalarında şöbə müdiri və baş redaktor müavini işləmişdir. İctimai məzmunlu ilk ciddi yazısı "Şamaxı" adlanır (1963). Ədəbi aləmə 1965-ci ildən dövri mətbuatda çap etdirdiyi şeirlərlə daxil olmuşdur. Əsərləri "İstoki" almanaxında, "Molodaya poeziya Azerbaydjana" antologiyasında işıq üzü görmüşdür. "İstək" adlı ilk kitabçası 1970-ci ildə çap olunmuşdur. Türkiyədə Diyanət Vaqfının ilk dəfə təşkil etdiyi micat yarışında xüsusi mükafata layiq görülmüşdür (1991). İran, Türkiyə, Bolqarıstan, Suriya mətbuatında şeirləri dərc olunmuşdur. Oktay Şamil 1988-ci ildən SSRİ Yazıçılar İttifaqının (indiki Azərbaycan Yazıçılar Birliyi) üzvüdür. Yazıçılar Birliyində 2 il Şirvan bölgəsinə rəhbərlik etmişdir (2003-2004). Bir il Yazıçılar Birliyi bədii tərcümə mərkəzində tərcüməçi işləmişdir (2005). Oktay Şamilin sözlərinə bəstəkarlardan Elza İbrahimova, Eldar Mansurov, Tofiq Babayev, Ruhəngiz Qasımova mahnılar bəstələmişlər ("Sevgimiz elə bu qədərmiş", "Qayıt ana", "Yox, mən səni görməmişəm", "Bağışla", "Narıncı dünya", "Suraxanı", "Sevgi nədir bilərsən", "Bəyaz gecələr" və s.). Bu mahnıları Xalq artistləri Flora Kərimova, İlhamə Quliyeva, Yalçın Rzazadə, Azər Zeynalov, "Qaya" vokal kvarteti, Səməd Səmədov, Türkiyəli müğənni Hayfı, bolqar müğənnisi Lili İvanova və başqaları ifa etmişlər. Oktay Şamilin mahnıları, eləcə də şeirlərindən ibarət poeziya buketi Azərbaycan radiosunun qızıl fondunda saxlanılır. "Sevgimiz elə bu qədərmiş" mahnısı Flora Kərimovanın ifasında qramofon valına yazılmışdır (1984). Oktay Şamil 5 şeir kitabının və 1 seçilmiş əsərlər toplusunun müəllifidir.

**Əsərləri:** “İstək” (1970), “Girdmandan gələn səs” (1984), “Tut ağacı” (1985), “Sözün gerçəkliyi” (1989) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.696.

**22 Fevral – Yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin 150 illiyi, (22.02.1869-04.01.1932)**



Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini əvvəlcə mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almışdır. 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, İrəvan quberniyasının Uluxanlı, Naxçıvan mahalının Baş Noraşen, Nehrəm kəndlərində müəllimlik etmişdir. 1889-cu ildə yazdığı "Çay dəstgahı" alleqorik mənzum dramı onun ilk əsərlərindəndir. Bir sıra kiçik hekayələrini, "Kişmiş oyunu" komediyasını və "Danabaş kəndinin əhvalatları" povestini də bu dövrdə yazmışdır. 1903-cü ildən Tbilisidə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında işləmişdir. Məmmədquluzadənin yazıçı və jurnalist kimi formalaşmasında "Şərqi-Rus" qəzeti və onun redaktoru Məhəmməd ağa Şahtaxtinskinin mühüm rolu olmuşdur. "Poçt qutusu" adlı ilk mətbu əsəri, "Kişmiş oyunu", Lev Tolstoydan tərcümə etdiyi "Zəhmət, ölüm və naxoşluq" hekayələri ilk dəfə bu qəzetdə dərc edilmişdir. İlk nömrəsi 1906-cı il aprelin 7-də çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla o, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. 1920-ci ilin iyun ayında C.Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş və 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini çap etmişdir. C.Məmmədquluzadənin əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərbaycan Respublikasında bir sıra küçə və mədəni-maarifə Cəlil Məmmədquluzadənin adı verilmişdir. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır.

**Əsərləri:** “Poçt qutusu” (1958), “Ölülər” (1963), “Yuxu” (1965), “İki alma” (1967), “Felyetonlar” (1961), “Qurbanəli bəy” (1962), “Danabaş kəndinin əhvalatları” (1968), “Bəlkə də qaytardılar” (1970), “Usta Zeynal” (1977), “İki alma” (1978), “Əsərləri” (altı cilddə) , “Hekayələr” (2009), “Seçilmiş əsərləri” (2012).
**Əsərləri üzrə çəkilən filmlər:** “Poçt qutusu” (film, 1967), “Quzu” (film, 1967), “Qəm pəncərəsi” (film, 1986), “Pirverdinin xoruzu” (film, 1987), “Qurbanəli bəy” (film, 1989), “O dünyadan salam” (film, 1991), “Anamın kitabı” (film, 1994), “Nigarançılıq” (film, 1998), “Lal” (film, 2003), “Oyun” (film, 2003), “Sirkə” (film, 2003), “Kefsiz” (film, 2004).
**Haqqında çəkilən filmlər:** “Cəlil Məmmədquluzadə” (film,1966).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.159.

**22 Fevral – Yazıçı, şair Yusif Əhmədovun 80 illiyi, (22.02.1939-27.03.2012)**



Əhmədov Yusif 1939-cu ildə fevralın 22-də Füzuli rayonunda anadan olub. 1963-cü ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirib. İlk hekayələri dövri mətbuatda 60-cı illərin ortalarından çap olunmuşdur. "Səninlə sənsiz", "Ürək bağışlamır", "Qara yelkənli qırmızı gəmilər" kitablarının müəllifidir. "Ruhların qayıtması" romanı oxuculara saf insan duyğusu aşılayır. Tanınmış nasir Yusif Əhmədov ötən əsrin 60-cı illərində ədəbiyyata gələn yazıçılardandır. İlk kitabı "Əfqan hekayələri" adı ilə 1965-ci ildə Tacikistanın Düşənbə şəhərində çap olunub. "Ələkeçməzlər" sayca müəllifin 20-ci kitabıdır. Kitabdakı eyniadlı roman öz janrına görə müəllifin başqa əsərlərindən fərqlənir. Azərbaycanın ilk milli detektiv romanı olan "Ələkeçməzlər" kitabındakı hadisələr 1992-2006-cı illər ərzində Bakı şəhərində və əyalətlərdə baş verən müxtəlif kriminal hadisələrdən bəhs edir. İlk kitabı 1965-ci ildə "Əfqan hekayələri" adı ilə Düşənbə şəhərində fars dilində çap olunub. Yaradıcılığı gənclik illərindən başlasa da, böyük ədəbiyyata 60-cı illərin ortalarında gəlib. Tələbəlik illərindən başlayaraq kiçik hekayələrlə, şeirlərlə, publisistik məqalələrlə müntəzəm olaraq dövri mətbuatda çap olunub. Müxtəlif illərdə "Kommunist", "Ülfət", "Həqiqətlər və faktlar" qəzetində ədəbi işçi, müxbir və baş redaktor işləyib. 20-yə yaxın kitabın müəllifidir. "Qara yelkənli qırmızı gəmilər", "Dnepr üzərində şəfəq", "Ruhların qayıtması", "Məxmər yuxuların mahnısı", "Əzablı yollarla", "Torpağa tökülən qan", "Topxana meşəsində görüş", "Zülmətdən işığa doğru" və onlarla roman, povest və hekayələri geniş oxucu kütləsi və dövri mətbuatda tənqidçilər tərəfindən müsbət qarşılanmışdır. Yusif Əhmədovun qələmindən çıxan hər bir əsər çağdaş milli ədəbiyyatımızın zənginləşməsinə xidmət edir. Yazıçı bir çox fəxri diplomların və fəxri adların sahibidir. Əsərləri bir neçə dilə tərcümə edilmişdir. Yazıçı Yusif Əhmədov "Qızıl qələm" mükafatı və medalı ilə təltif edilmişdir. "Ustad sənətkar" Ali Jurnalistika diplomu, "Araz", "Müşfiq" ədəbi mükafatları və diplomları ilə, "Torpağa tökülən qan" romanına görə Azərbaycan Yazıçılar birliyinin "Yaddaş" milli mükafatına layiq görülmüşdür. "Yeni Carçı" qəzetinin baş redaktoru olub. Yusif Əhmədov 22 martda Bakıda vəfat edib.

**Əsərləri:** "Qara yelkənli qırmızı gəmilər" (1990), "Səninlə-sənsiz" (1992), "Ruhların qayıtması" (1995), "Ürək bağışlamır" (1998), "Əzablı yollarla" (2000), "Ölümlə həyat arasında" (2001), "Bəxtiyar" (2001), "Zülmətdən işığa doğru" (2002), "Torpağa tökülən qan" ( 2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.932.

**Xarici ədəbiyyat**
**13 Fevral – Rus şairi, təmsilçi İvan Krılovun 250 illiyi, (13.02.1769-1844)**



İvan Andreyeviç Krılov fevralın 13-də (2-də) Moskva şəhərində anadan olmuşdur. O, sistemli təhsil almış, müstəqil olaraq ədəbiyyatı, riyaziyyatı, fransız və italyan dillərini öyrənmişdir. 1782-ci ildə 14 yaşında əyalət mülkədarlarının adətlərini təsvir edən "Qəhvədan" adlı komik operasını yazmışdır. İvan Andreyeviç Krılov 1786-1788-ci illərdə "Quduz ailə", "Yazıçı dəhlizdə", "Dəcəllər" adlı komediyalarını yazmışdır. Jurnalistlik fəaliyyətinə 1792-ci ildə yazdığı "Qaib" povesti ilə başlamışdır. Krılovun satiraları II Yekaterinanın narazılığına səbəb olduğundan o, bir müddət ədəbi fəaliyyətdən əl çəkmiş və əyalətdə gizlənmişdi. 1799-1800-ci illərdə Krılovun hökumət əleyhinə yazdığı "Trumf" məzhəkə faciəsi əlyazma şəklində geniş yayılmışdır. Onun 1807-ci ildə yazdığı "Moda dükanı", "Qızlara nəsihət" komediyaları, "İlya Muromets" komik operası şöhrət qazanmışdır. 1809-cu ildə Krılovun təmsillərdən ibarət ilk kitabı nəşr olunmuşdur. Krılov yaradıcılığı rus təmsilinin zirvəsi səviyyəsinə yüksəlmişdir. O, atalar sözü, nağıl və məsəllərdən məharətlə faydalanmış, rus ədəbi dilinin inkişafında mühüm rol oynamışdır. Əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Təmsilləri XIX əsrin 30-cu illərindən Azərbaycanda da geniş yayılmışdır. "Eşşək və bülbül" təmsilini A.A. Bakıxanov Azərbaycan dilinə tərcümə etmişdir. İvan Krılov 1844-cü il noyabrın 21-də Peterburqda vəfat etmişdir.

**Komediyaları:** “Quduz ailə”, “Yazıçı dəhlizdə”, “Dəcəllər”, “Qaib” povesti və s.

İnternetdə: https://az.wikipedia.org/wiki

**22 Fevral – Rus uşaq yazıçısı Arkadi Qaydarın 115 illiyi, (22.02.1904-1944)**



Arkadi Petroviç Qaydar 1904-cü il fevralın 22-də Kursk vilayətinin Lvov şəhərində anadan olmuşdur. On üç yaşlı Arkadi realnı məktəbinin üçüncü sinfində oxuyanda 1917-ci ilin fevral inqilabı baş verdi. O, 14 yaşından könüllü olaraq Qızıl ordu sıralarına daxil olmuş, Kiyevdə komandirlər kursunu bitirdikdən sonra on altı yaşında onu alay komandiri təyin ediblər. Qaydar altı il Qızıl ordu sıralarında xidmət etmişdir. 1923-cü ildə isə bərk xəstələndiyinə görə onu ordudan tərxis ediblər. Ordu sıralarında hərbi xidmətini başa vurduqdan sonra o, ədəbi fəaliyyətlə məşğul olmuşdur. 1925-ci ildə "Kovş" adlı Leninqrad almanaxında ilk povesti – "Məğlubiyyət və qələbə günlərində" çapdan çıxdı. 1930-cu ildə gənc nəsil üçün yazdığı "Məktəb" povesti dərhal uşaq və məktəb kitabxanalarında əl-əl gəzir, oxucuların ən sevimli kitablarından birinə çevrilmişdir. "Məktəb" povestinin əsas qəhrəmanı, birinci şəxsin dilindən danışan əsgər oğlu Boris Qolikov surətində Arkadi Qaydar məhz özünü təsvir etmişdir. "Timur və onun komandası" (1940) povesti ona böyük şöhrət qazandırmışdır. Cəsur, həssas, qətiyyətli, xeyirxah Timur surəti indi də uşaqların ən sevimli qəhrəmanlarından biri olaraq qalır. Yazıçı böyüməkdə olan nəslin ən yaxşı cizgilərini böyük vətənpərvərlik ideyası ilə qələmə alaraq bu obrazda ifadə etməyə müvəffəq olmuşdur. Qaydar uşaqlarla hər bir dildə danışmağı bacarırdı. Onun bütün əsərlərində ürəkləri isidən səmimilik, düzgünlük hiss olunurdu. Yazıçının "Təbilçinin taleyi" (1939), "Cuk və Gek" (1939), "Hərbi sirr" (1940) və s. əsərlərində Böyük Vətən müharibəsinin çətin günlərində var qüvvələri ilə xalqın əzəmətli mübarizəsinə kömək edən gənc vətənpərvərlərin şücaətindən söhbət açılır. 1941-ci il oktyabrın 26-da Qaydar dörd nəfər partizanın müşaiəti ilə kəşfiyyata yollanmış və faşist gülləsinin qurbanı olmuşdur. Qaydar yaradıcılığı, onun qəhrəman həyatı, əməlləri, bədii yaradıcılığa həsr edilmiş ömrü indi də onu sevənlər üçün örnəkdir.

**Əsərləri:** “Məğlubiyyət və qələbə günlərim” (1925), “Məktəb” (1930), “Təbilçinin taleyi” (1939), “Cuk və Gek” (1939), “Timur və onun komandası” (1940) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Arkadi_Qaydar

## İncəsənət

## 6 Fevral – Xalq artisti Firəngiz Şərifovanın 95 illiyi, (06.02.1924-20.02.2014)



Firəngiz Abbasmirzə qızı Şərifova 6 fevral 1924-cü ildə Bakıda doğulub. Atası görkəmli Azərbaycan aktyoru, teatr və kino rejissoru, Xalq artisti Abbas Mirzə Şərifzadədir. 1937-ci ildə şəxsiyyətə pərəstiş dövründə haqsız yerə tutulub və "xalq düşməni" kimi 16 noyabr 1938-ci ildə güllələnib. 1956-cı ildə ölümündən sonra ona bəraət verilib. Anası Mərziyyə Davudova (1901-1961). Bugünkü Akademik Milli Dram Teatrının kollektivinə 1919-cu ildən daxil olub. Sovet Dövlətinin teatr sahəsində ən böyük fəxri titulu olan SSRİ Xalq artisti (1948) adına layiq görülüb. Dramaturq Cəfər Cabbarlının təkidi və atası Abbasmirzənin razılığı ilə səhnədə səkkiz yaşında "Oqtay Eloğlu"nda Sevər və bir az sonra "Sevil"də Gündüz rollarında çıxış edib. Firəngiz xanım 1947-ci ilin əvvəllərində Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına qəbul olunub. Tezliklə teatrın repertuar ağırlığını çəkən əsas aktyorlardan biri olub. Firəngiz Şərifova 1960-cı il may ayının 5-də Akademik Milli Dram Teatrına işə götürülüb. O, bu sənət ocağında 1965-ci il aprel ayının 1-nə qədər işləyib və qısa müddət ərzində parlaq sənət hadisəsinə çevrilən obrazlar yarada bilib. Firəngiz xanım milli səhnə mədəniyyətimizin inkişafında göstərdiyi böyük xidmətlərə, qazandığı sənət qələbələrinə görə 24 may 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 25 dekabr 1969-cu ildə Xalq artisti fəxri adlarına layiq görülüb. Aktisanın zəngin və əlvan, müxtəlif janrlı və ən fərqli üslublu obrazlar qalereyası vardır. Bu səhnə surətlərinin adisi də var, maraq doğuranı da və ən əsası, aktrisanın həyatında sənət hadisəsinə çevriləni də. Firəngiz Şərifova gənc yaşlarından başlayaraq "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Qaraca qız" (Yasəmən), "Bir ailəlik bağ evi" (Ana), "Bayquş gələndə" (Nənə), "Qərib cinlər ölkəsində (Tükəz), "Qətl günü" (Nənə) kino lentlərində müxtəlif rollara çəkilib. "Qum üzərindəki bağ evi" filmindəki Ana rolu əsas surətdir və psixoloji dərinliyinə, emosional sənətkarlıq xüsusiyyətlərinə görə aktrisanın parlaq ekran obrazıdır. Firəngiz Şərifovanın yaradıcılığının ifadə çalarları çoxdur və hərəsinin də öz təravəti ilə qoruyan qəhrəman obrazlarını xüsusi məharətlə oynayıb. Həmin səpkili rolların hərəsi ayrılıqda fərdi keyfiyyətlərə məxsus olsa da, üslub baxımından məziyyətləri ilə doğmadırlar. 20 fevral 2014-cü il tarixdə Bakıda vəfat etmişdir.

**Filmoqrafiya:** “Qaraca qız” (film, 1966) (film, kinoalmanax), “Tülkü həccə gedir” (film, 1971), “Qərib cinlər diyarında” (film, 1977), “Mən mahnı qoşuram” (film, 1979), “Üzeyir ömrü” (film, 1981), “Gümüşgöl əfsanəsi” (film, 1984), “Qonşu qonşu olsa...” (film, 1989), “Qətl günü” (film, 1990), “Ömürdən uzun gecə” (film, 1996).

İnternetdə:https://az.wikipedia.org

**7 Fevral – Xalq artisti, rejissor Tofiq Tağızadənin 100 illiyi, (07.02.1919-1998)**



Tofiq Mehdiqulu oğlu Tağızadə 7 fevral 1919-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1953-cü ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsini bitirdikdən sonra "Azərbaycanfilm" kinostudiyasında fəaliyyətə başlamışdır. Bir çox filmlərin quruluşçu rejissoru olmuşdur. Azərbaycanın Xalq artisti fəxri adına layiq görülmüşdür. Tofiq Tağızadə 50-ci illərdə çəkdiyi üç filmlə milli kinomuza yeni üslub gətirdi. "Görüş", "Uzaq sahillərdə", "Əsl dost" filmləri milli kinomuza yeni nəfəs gəldiyindən xəbər verirdi. Kino tariximizdə Tofiq Tağızadənin məxsusi yeri var. O, çəkdiyi filmlərdə professional kimi özünü təsdiq etdi. Bu filmlərdə Azərbaycanın tarixi də, mədəniyyəti də, məişəti də çox sənətkarcasına öz həllini tapıb. Və bu gün bu filmlər əsl məktəbdir, onlardan çox şey öyrənmək, əxz etmək mümkündür. Tofiq Tağızadə zamanın problemlərini ekrana gətirir və insanları bu problemlər ətrafında düşünməyə sövq edirdi. O, tamaşaçı ilə açıq mükaliməyə girir, onun daxili "mən"ini özü ilə üzbəüz qoyurdu. Tofiq müəllim vətənini, xalqını sevən sənətkar idi. Filmlərindəki ən kiçik detallarda belə milli-mənəvi dəyərlərimizin görüntüləri var. Tofiq Tağızadə o sənətkarlardandır ki, onun yaradıcılığı xalqımızın taleyi ilə sıx surətdə bağlıdır. O, "Dədə Qorqud" dastanının motivlərini kinoya gətirən ilk kinorejissordur. Bu filmin yarandığı vaxtdan 40 ilə yaxın bir dövr keçməsinə baxmayaraq, yenə də ona tamaşaçı marağı səngiməmişdir. "Dədə Qorqud" Vətən, millət, bəşəri dəyərlər haqqında filmdir. Tofiq müəllimin xidmətləri ondan ibarətdir ki, o, bu hissləri, bu bəşəri duyğuları bizə olduqca real şəkildə çatdıra bilib. "Mən ki gözəl deyildim" filmi isə müharibə haqqında düşüncələrdir. Tofiq Tağızadə bir müddət "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasının bədii rəhbəri olmuşdur. T.Tağızadə Ü.Hacıbəyovun eyniadlı musiqili komediyası əsasında 1965-ci ildə çəkilmiş genişformatlı, rəngli "Arşın mal alan" bədii filminin quruluşçu rejissorudur. "O dünyadan salam" filmi də onun son vaxtlar lentə aldığı əsərlərindəndir. Əsasında böyük Mirzə Cəlilin "Ölülər" tragikomediyası dayanan bu kinolent bizə tanış mövzudur.

**Filmoqrafiya:** “Uzaq sahillərdə” (film, 1958), “Arşın mal alan” (film, 1965), “Mən ki gözəl deyildim” (film, 1968), “Yeddi oğul istərəm...” (film, 1970), “Dədə Qorqud” (film, 1975), “Babamızın babasının babası” (film, 1981), “Bəxt üzüyü” (film, 1991), “Ac hariflər” (film, 1993)

İnternetdə: https://az.wikipedia.org/wiki

**22 Fevral – Bəstəkar, xalq artisti Süleyman Ələsgərovun 95 illiyi, (1924-1999)**



Süleyman Ələsgərov 22 fevral 1924-cü ildə musiqi və mədəniyyət beşiyi olan Şuşada anadan olub. İlk təhsilini musiqi texnikumunun tar sinifində alıb. Yaradıcılıq ruhunu Şuşanın ecazkar təbiətindən alan gənc Süleyman ali təhsil almaq üçün Bakıya üz tutub. Konservatoriyanın bəstəkarlıq fakültəsini bitirən Süleyman Ələsgərov qısa müddət ərzində müsiqi ictimaiyyətində tanınmağa başlanıb. Gənc bəstəkar 1943-cü ildə Ü.Hacıbəylinin zəmanəti ilə Bəstəkarlar İttifaqına qəbul olunub. Süleyman Ələsgərovun yaradıcılıq uğurlarında 1942-ci ildə bəstələdiyi “Gözlə məni” mahnısı böyük rol oynayıb. Tükənməz yaradıcılıq imkanlarına malik olmuş Süleyman Ələsgərov on bir operettanın, o cümlədən “Ulduz”, “Özümüz bilərik”, “Milyonçunun dilənçi oğlu”, “Sevindik qız axtarır”, “Həmişəxanım”, “Hərənin öz ulduzu” musiqili komediyaların, “Bahadur və Sona”, “Solğun çiçəklər” operalarının, “Bayatı-Şiraz” simfonik muğamının, bir çox simfoniya və kantataların, tar ilə xalq çalğı orkestri üçün konsertlərin, “Vətənimdir”, “Yada düşdü”, “Sərvi xuramanım mənim” kimi sevilən romansların, iki yüzdən artıq nəğmənin müəllifi olub. Süleyman Ələsgərov səmərəli yaradıcılığı ilə yanaşı, həm də fəal ictimaiyyətci olub. O, müxtəlif illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin direktoru, Radio və Televiziya xalq çalğı alətləri orkestrinin dirijoru, Musiqili Komediya Teatrının direktoru, baş dirijoru, Mədəniyyət Nazirliyinin İncəsənət idarəsinin rəisi, Bakı Musiqi Akademiyasında xalq çalğı alətləri kafedrasının müdiri vəzifələrində işləyib. O, bütün varlığı ilə Qarabağa, doğulub boya-başa çatdığı Şuşaya bağlı idi. Qarabağda baş verən hadisələri bəstəkar öz fikirini bəstələrində ifadə edib. “Yürüş mahnısı”, “Gənclik marşı”, Aslan Aslanovun sözlərinə “Bu torpağa bağlıyıq”, “Haradasan, igid oğlan”, Qurban Musayevin sözlərinə “Biz qələbə çalmalıyıq”, Bəşir Nəzərlinin sözlərinə “Bura vətəndir” mahnıları, Bəhlul Orucoğlunun sözlərinə “Əsgər marşı”, Qüdrət Əzizin sözlərinə “Güllələnən abidələr” balladası, “Azərbaycan polisi”, “Bakı-Ankara” əsərləri, orkestr üçün çoxlu sayda hərbi marşlar Süleyman Ələsgərov yaradıcılığında Vətən harayı, düşmənə qisas çağırışı olub. Bəstəkarın yaradıcılığında operetta janrı əsas yer tuturdu. Süleyman Ələsgərov 1999-cu il yanvarın 21-də 74 yaşında vəfat edib.

**Filmoqrafiya:** "Ulduz" (1948), "Özümüz bilərik" (1962), "Olmadı elə, oldu belə" (1964), "Milyonçunun dilənçi oğlu" (1966), "Hardasan ay subaylıq" (1968), "Sevindik qız axtarır" (1970), "Həmişəxanım" (1971), "Məhəbbət gülü", "Subaylardan görəsiz", "Gurultulu məhəbbət", "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, bir neçə kantata, "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, 3 tar konserti, 200-ə qədər mahnı.

İnternetdə: https://az.wikipedia.org/wiki

**28 Fevral – Xalq artisti Mustafa Mərdanovun 125 illiyi, (1894 -1968)**



Mustafa Mərdanov 28 fevral 1894-cü ildə Mərənddə anadan olub. O hələ uşaqkən ailələri Tiflisə köçmüş və 1924-cü ilə qədər burada yaşamışdılar. Atası Həşim kişi oğlunu ali təhsilli ziyalı kimi görmək istəyirdi. Bu arzu ilə də onu Tiflis gimnaziyasına təhsil almağa göndərdi. Amma Mustafa teatra daha böyük maraq göstərirdi. 1917-ci ildə gimnaziyanı bitirən Mustafa Mərdanov Rostova gedərək oradakı Tibb Universitetinə daxil oldu, eyni zamanda da dram studiyasında çalışırdı. Lakin Rostov mühitinə alışa bilməyərək 1918-ci ildə yenidən Tiflisə qayıtmışdır. Ali təhsil almaq arzusu ilə Moskvaya gedən gənc aktyor orada Dövlət Teatr Sənəti İnstitutuna daxil olub, məşhur sənətkarlardan bu peşənin incəliklərini öyrənmişdi. Mustafa Mərdanov 1921-1922-ci illərdə Tiflis Azərbaycan Dövlət Teatrının direktoru vəzifəsində çalışmışdı. 1924-cü ildə Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirərək Bakıya gəlib və burada Azərbaycan Dövlət Dram Teatrında öz fəaliyyətini davam etdirmişdir. Yüksək aktyorluq texnikası, obrazı özününküləşdirmək bacarığı, yumşaq yumor onun sənəti üçün çox xarakterik olan cizgilər idi. 1924-cü ildə Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirərək Bakıya gəlib, ömrünün sonunadək Azərbaycan Dövlət Dram Teatrında çalışıb. "Hacı Qara"da Kərəməli, "Yağışdan çıxdıq yağmura düşdük"də Qəmbər, "Nadir Şah"da Ədhəm kimi rolları Tiflis teatrında yaradan aktyor, Bakı teatrında daha ciddi rollar oynamalı oldu. 1929-cu ildə çəkilən "Sevil" filmində aktyor Atakişinin rolunu ifa etdi. Mustafa Mərdanov, demək olar ki, hər il filmə çəkilirdi. "Kəndlilər"dən sonra 1940-cı ildə "Yeni horizont" (trest müdiri), 1941-ci ildə "Səbuhi" (akademiya rəisi) filmlərində çəkilib. Bu rolları kiçik olsa belə tamaşaçı diqqətindən yayınmırdı. Mustafa Mərdanov 1943-cü ildə Azərbaycanın SSR-in Xalq artisti adına layiq görülmüşdür. O, yenidən 1955-ci ildə "Görüş" filmində çəkildi. Burada adi kolxozçu rolunu ifa edən aktyor, bir il sonra "Qara daşlar"da Dəmirov kimi çox ciddi rolda görsəndi. Onun ən uğurlu rollarında biri "O olmasın, bu olsun" filmindəki "intellegent" Həsən bəy oldu. Bu obraz Mustafa Mərdanovun yeni aktyorluq keyfiyyətlərini üzə çıxardı. O, filmdəki çox güclü aktyor ansamblı içərisində öz məxsusi ifa tərzi ilə seçilə bilirdi. "Əhməd haradadır?" filmində Məhəmməd kişi rolu aktyorun yaradıcılığında xüsusi əhəmiyyət daşıyırdı. Bundan sonra o, 1968-ci ildə "Qanun naminə" filminə çəkilmişdir. Murtuzov rolu ilə aktyor ömrünün son akkordlarını vurdu. Mustafa Mərdanovun "50 il Azərbaycan səhnəsində xatirələrim" kitabı 1959-cu ildə çap edilmişdir. Ölümündən sonra 1973-cü ildə "Mənim müasirlərim" xatirə kitabı nəşr edilib oxuculara çatdırılmışdır. 12 dekabr 1968-ci ildə Mustafa Mərdanov Bakıda vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki

**Milli Qəhrəmanlar Zirvəsi**

**3 Fevral – Azərbaycanın Milli Qəhrəmanı Tağıyev Şahin Talıb oğlunun 70 illiyi, (03.02.1949)**



Şahin Tağıyev 3 fevral 1949-cu il Tərtər rayonunda doğulmuşdur. Bakı şəhərinin Bülbülə qəsəbəsindəki 208 saylı məktəbə getmiş və beşinci sinfə qədər burada təhsil almışdır. Yarımçıq qalmış təhsilini 12 saylı internat məktəbində davam etdirmişdir. Daha sonra Energetika texnikumuna daxil olub.

1969-cu ildə texnikumu bitirib və təyinatla Udmurt vilayətinə göndərilib. Ermənilər torpaqlarımıza hücum edəndə Şahin silaha sarıldı. Onun şərəfli döyüş yolu Tərtər, Seysulan, Yarımca bölgələrindən keçirdi. “Qurtuluş” batalyonunda vuruşan cəsur döyüşçü neçə-neçə erməni quldurunu məhv etmişdi. Bir müddət sonra bu batalyonun komandiri də təyin edilmişdir. Polkovnik-leytenant Şahin Tağıyev torpaqlarımızın azad olunmasında böyük şücaət göstərmişdi. Hazırda Qarabağ Azadlıq Təşkilatının sədr müavini kimi fəaliyyət göstərir. Ailəlidir, iki övladı var.

**Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə Tağıyev Şahin Talıb oğlu “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wiki

**3 Fevral – Azərbaycanın Milli Qəhrəmanı Ağayev Bəylər Tapdıq oğlunun 50 illiyi, (03.02.1969-06.08.1992)**



Bəylər Ağayev 3 fevral 1969-cu ildə Qubadlı rayonunun Qaraağac kəndində doğulmuşdur. O hərbi xidmətini Almaniya Demokratik Respublikasında başa çatdıraraq doğma kəndinə qayıtmışdır. 1990-ci ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutuna daxil olub. 1992-ci ildə təhsilini yarımçıq qoyan Bəylər könüllü olaraq Milli Ordu sıralarına yazıldı. Bəylər Ağayevin yüksək bacarığı ilk günlərdən diqqəti cəlb edirdi və o bölmə komandiri təyin edilmişdir. Bəylər Ağayev Laçın rayonu uğrunda gedən döyüşlərdə fəal iştirak edirdi. O, Səfiyan, Yuxarı Fərəcan və Aşağı Fərəcan, Mazutlu, Türklər və Suarası kəndlərində düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir.

1992-ci il... Avqustun 6-sı... Erməni irqçi vəhşilərinin növbəti hücumu. Bəylər yoldaşları ilə mühasirəyə düşdü. Məğrur komandirimiz üzünü yoldaşlarına tutub son olaraq bu sözləri söyləyib: "Biz vətən uğrunda ölümə gedirik, ola bilsin bu döyüş son döyüşümüz olsun" və hücuma keçirlər onlar erməni faşistlərinin xeyli hissəsini məhv etsələr də özləri ən uca zirvə - şəhidlik zirvəsinə ucalırlar. Bəylər Ağayev Qubadlı rayonunun Qaraağac kəndində dəfn edilmişdir, subay idi. Qaraağac kənd tam orta məktəbi onun adını daşıyır.

**Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Bəylər Tapdıq oğlu Ağayevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə: https://az.wikipedia.org/wiki

**12 Fevral – Azərbaycanın Milli Qəhrəmanı Xəlilbəyli Təbriz Xəlil Rza oğlunun 55 illiyi, (12.02.1964-31.01.1992)**



Xəlilbəyli Təbriz Xəlil Rza oğlu 1964-cü il fevralın 12-də Bakı şəhərində – Xalq şairi Xəlil Rza Ulutürkün ailəsində dünyaya göz açıb. 1981-ci ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirib. 1982-ci ildə o, Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub. Təhsilini Kütləvi tamaşalar üzrə rejissor fakültəsində qiyabi yolla davam etdirməklə o, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında işıqçı işləyib. Ermənilərin Azərbaycana təcavüzü və torpaq iddiaları Təbrizi gecə-gündüz rahat buraxmırdı. O, bütün varlığı ilə cəbhəyə getməyə can atır. Dağlıq Qarabağı işğalçılardan təmizlənməsində iştirak etmək istəyirdi.

1991-ci ilin sonlarında o, könüllü olaraq cəbhəyə yola düşdü. Təbriz qısa döyüş yolu keçsə də, yoldaşları arasında böyük nüfuz və hörmət qazanmışdı. Onu cəsur bir döyüşçü kimi tanıyırdılar. Xromort və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə o, dəfələrlə qəhrəmanlıq nümunəsi göstərmişdi. Təbriz Xəlilbəyli neçə-neçə yaralı əsgəri atəş altından çıxarmış, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi. Döyüş şücaətlərinə görə o, DİN-nin "Boz qurd" mükafatına layiq görülmüşdü. Təbriz Xəlilbəyli 1992-ci il yanvar 31-də baş verən döyüşdə qəhrəmancasına həlak olmuş, Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı evin qarşısına Xatirə lövhəsi vurulub.

**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Xəlilbəyli Təbriz Rza oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə:http://veten-ugrunda.az/milliqehremanlar/303-xlilbyli-tbriz

## Mart

### Əlamətdar və tarixi günlər

2 Mart – Azərbaycan Respublikasının BMT-nin Üzvlüyünə Qəbul Olunduğu Gün, (1992)

2 Mart – Ümumdünya Ucadan Oxu Günü

3 Mart – Ümumdünya Yazıçı Günü, (1921)

3 Mart – Ümumdünya Vəhşi Təbiət Günü, (1973)

5 Mart – Bədən Tərbiyəsi və İdman Günü, (2005)

8 Mart – Beynəlxalq Qadınlar Günü, (1910)

9 Mart – Barbi Gəlinciyinin Yaranma Günü

10 Mart – Milli Teatr Günü, (1873)

12 Mart – Daxili Qoşunlar Günü, (1995)

14 Mart – Ümumdünya Yuxu Günü, (2008)

20-25 Mart – Novruz bayramı

20 Mart – Beynəlxalq Xoşbəxtlik Günü, (2012)

21 Mart – Beynəlxalq Meşə Günü, (2013)

21 Mart – Beynəlxalq Poeziya Günü, (1999)

21 Mart – İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü, (1966)

21 Mart – Beynəlxalq Kuklaçı Günü, (2000)

22 Mart – Ümumdünya Su Ehtiyatları Günü, (1992)

23 Mart – Ümumdünya Meteorologiya Günü, (1950)

25 Mart – "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının təsis edildiyi gün, (1992)

27 Mart – Beynəlxalq Teatr Günü, (1962)

31 Mart – Yer Saatı Günü

### Bu tarixi unutmayaq

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü, (1918)

### Azərbaycanın görkəmli şəxsiyyətləri

Azərbaycanın ilk təyyarəçi qadınlarından biri Züleyxa Seyidməmmədovanın 100 illiyi, (22.03.1919-1999)

### Yubilyar yazıçı və şairlər

Şair Ənvər Rzanın 80 illiyi, (03.03.1939 -1987)

Yazıçı, ədəbiyyatşünas Həmid Məmmədzadənin 95 illiyi, (18.03.1924-2000**)**

Şair Dəmir Gədəbəylinin 80 illiyi, (19.03.1939)

Yazıçı, dramaturq Cəfər Cabbarlının 120 illiyi, (20.03.1899-1934)

Şair, publisist Nemət Bəsirin 130 illiyi, (20.03.1889-1943)
Ədəbiyyatşünas, tənqidçi Murtuz Sadıxlının 90 illiyi, (21.03.1929-1997)
Yazıçı, dramaturq Mehdi Hüseynin 110 illiyi, (22.03.1909-1965)
Yazıçı İsmayıl Şıxlının 100 illiyi, (22.03.1919-1995)
Tənqidçi, tərcüməçi Azər Mustafazadənin 80 illiyi, (27.03.1939)
Şair Teymur Elçinin 95 illiyi, (28.03.1924-1992)

**Xarici ədəbiyyat**

Özbək şairi Həmzə Həkimzadə Niyazinin 130 illiyi, (06.03.1889-1929)
Türkmən yazıçısı Berdi Kerbabayevin 125 illiyi, (15.03.1894-1974)
Rus yazıçısı Nikolay Qoqolun 210 illiyi, (20.03.1809-1852)
Türk yazıçısı Yaqub Qədri Qaraosmanoğlunun 120 illiyi, (27.03.1889-1974)

**İncəsənət**

Xalq artisti Məmmədəli Vəlixanlının 120 illiyi, (13.03.1899-1969)
Aktyor Hüseynqulu Sarabskinin 140 illiyi, (20.03.1879-1945)
Xalq artisti Lütvəli Abdullayevin 105 illiyi, (22.03.1914-1973)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Təhməzov Paşa Qurban oğlunun 70 illiyi (23.03.1949-24.08.1993)
Azərbaycanın Milli Qəhrəmanı İsmayılov Etibar Bəylər oğlunun 55 illiyi, (29.03.1964-04.01.1994)
Azərbaycanın Milli Qəhrəmanı İsmayılov İlqar Sədi oğlunun 60 illiyi,
(29.03.1959 – 01.10.1992)
Azərbaycanın Milli Qəhrəmanı Qəhrəmanov Fariz Çoban oğlunun 45 illiyi, (29.03.1974)

## Mart

## Əlamətdar və tarixi günlər

### 2 Mart – Azərbaycan Respublikasının BMT Üzvlüyünə Qəbul Olunduğu Gün, (1992)




***Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir.***

**Ümummilli lider Heydər Əliyev**

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Bu dövrdə yeni formalaşmağa başlayan Azərbaycanın müstəqil xarici siyasəti, ilk növbədə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, yeni dünya nizamı çərçivəsində regional və qlobal proseslərdə ölkənin fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Avropa və Trans-Atlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdi. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Əsas prioritet istiqamət isə hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkənin təhlükəsizlik mühitinin əsas təyinedici amili oldu və bu da, öz növbəsində, Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynadı.

İnternetdə: www.books.google.com

## 2 Mart – Ümumdünya Ucadan Oxu Günü






Ümumdünya Ucadan Oxu Günü Söz, Kitab, Mütaliə bayramıdır. Bu gün LitWorld şirkətinin təşəbbüsü ilə hər il mart ayının birinci həftəsinin çərşənbə günü qeyd olunur. Bu günü qeyd etmənin məqsədi mütaliəni ətraf dünya ilə qarşılıqlı təsir üsulu və öz emosiyalarını başqa insanlara səslənən söz vasitəsilə çatdırmaq imkanı kimi göstərməkdir. Bu aksiyada iştirak etməklə, insanlar dünyadakı bütün uşaqların savad alması hüququnu dəstəkləyirlər.

Son illər Ümumdünya Ucadan Oxu Günü 80-dən çox ölkədə, bir milyondan çox insan tərəfindən qeyd olunur.

İnternetdə: www.books.google.com

### 3 Mart – Ümumdünya Yazıçı Günü, (1921)



Maraqlı tarixi olan bu bayram 1921-ci ildən PEN klub tərəfindən (bu ad ingiliscə üç sözün poets (şair), essayists (oçerkçi) və nvelists (novella, roman müəllifi) – ilk hərflərindən yaranan qısaltmadır) qeyd olunmağa başlayıb. PEN klubun ilk beynəlxalq konqresi isə 1923-cü ildə Londonda keçirilib. 1986-cı il yanvarın 12-dən 18-dək PEN klubun sayca 48-ci beynəlxalq konqresi baş tutub. Məhz həmin tədbirin iştirakçıları mart ayının 3-nü "Yazıçı"nın "Ümumdünya Sülh Günü" elan edilməsi barədə qərar qəbul ediblər. Həmin vaxtadək artıq dünyanın yüzdən çox ölkəsində PEN mərkəzləri fəaliyyət göstərirdi. Bir sıra ölkələrdə bu bayram sadəcə "Yazıçı Günü" adlanır və bir növ daha çox fərqlənmiş ədibləri təbrik etmək və mükafatlandırmaq üçün münasib gün kimi qeyd olunur.

Bayramı keçirməkdə məqsəd "Dördüncü hakimiyyət"in – demokratik mətbuatın mənfi aspektlərinə qarşı çıxmağa, yalan yazılara, məqsədli təhriflərə, faktların bilərəkdən saxtalaşdırılmasına, yaxud siyasi, qrup və şəxsi maraqlar naminə gerçəyin vicdansızcasına yozulmasına yol verməməyə çağıran peşə bayramıdır. Qeyd edək ki, eyniadlı təşkilat – PEN klub bizim ölkəmizdə də yaradılıb. Üzvləri də kifayət qədər tanınmış adamlardır. Bu təşkilat ölkəmizdə 2011- ci ildə yaradılıb və prezidenti postuna yazıçı Çingiz Abdullayev seçilib. Bütün dünyada fəaliyyət göstərən PEN klubun məqsəd və vəzifələri bizdə də hədəf götürülüb. Ölkəmizdə PEN klubun digər məqsədi Azərbaycan yazıçılarını dünya ölkələrində tanıtmaqdır. Bu da təbii ki, tərcümə vasitəsilə mümkündür. Klubun üzvləri ən istedadlı, görkəmli və fəal yazıçılardır.

İnternetdə: www.books.google.com

## 3 Mart – Ümumdünya Vəhşi Təbiət Günü, (1973)




20 dekabr 2013-cü ildə BMT-nin Baş Assambleyası vəhşi flora və fauna məsələləri ilə bağlı geniş ictimaiyyətin məlumatlılığını artırmaq məqsədi ilə martın üçünü Vəhşi Təbiət Günü ( World Wildlife Day) elan etmişdir (A/RES/68/205 saylı qətnamə ilə). Həmin il təbii müxtəlifliyin qorunması sahəsində digər bir mühüm sənədin qəbul edilməsinin 40 illiyi qeyd olunmuşdur. Həmin sənəd "Məhv olmaq təhlükəsi qarşısında qalan vəhşi fauna və flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya adlanırdı. Sənəd 3 mart 1973-cü ildə qəbul olunmuşdur.

Bu bayramın BMT-də qəbulundan öncə 2013-cü ilin yazında Tailandda keçirilən SİTES Tərəfdarları Konfransı iştirakçılarının bu haqda təşəbbüsü olmuşdur. Məhz bu konfransda martın 3-nü Vəhşi Təbiət Günü kimi qeyd etmək təklif olunmuşdur. Konfrans iştirakçıları bu təkliflə bağlı BMT-yə müraciət etmişlər. 180 ölkə Konvensiyaya qoşulmuşdur. Bu bayramın yaranması Yer üzündəki bioloji müxtəlifliyin mühafizəsinin zəruriliyini göstərir.

İnternetdə: www.books.google.com

## 5 Mart – Bədən Tərbiyəsi və İdman Günü, (2005)

***İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır.***

**Ümummilli lider Heydər Əliyev**



Bu tarix Azərbaycan Prezidenti İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd olunur. Ölkəmizdə idmanın inkişafı isə ildən-ilə geniş vüsət alır. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. Prezident İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbər seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə tezliklə öz müsbət nəticəsini verdi. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya oyunlarında Azərbaycan idmançılarının qazandığı qələbəni xüsusilə qeyd etmək lazımdır. Bu yarışlarda Azərbaycan idmançıları 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi. Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülməsi, Olimpiya oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal böyük tarixi nailiyyətdir.

Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın ölkəmizdə idmana qayğısı da bu sahənin inkişafına böyük töhfələr verir və Azərbaycan idmanı əsl yüksəliş dövrünü yaşayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə idmanın və bədən tərbiyəsinin inkişafı sahəsində ardıcıl olaraq görülən tədbirlər Azərbaycanı həm də idman dövləti kimi tanıdır. "Sağlam bədəndə sağlam ruh olar" pirinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir.

İnternetdə: www.books.google.com

## 8 Mart – Beynəlxalq Qadınlar Günü, (1910)

***Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*




Qadınların kişilərlə bərabərhüquqlu olmaq uğrunda apardığı mübarizə başlanğıc kimi 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində, geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil etməsi qəbul edilir. 1908-ci ildə Nyu-Yorkda 15000 qadın, daha qısa çalışma saatı, daha yaxşı gəlir və səsvermə hüququ üçün nümayiş keçirdi. Nümayişdə ilk dəfə olaraq dekret icazəsi istəyən qadınların şüarı "Çörək və Gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha yaxşı həyat tərzini ifadə edirdi. 1909-cu ildə isə Avropadaki qadınlar fevral ayının son bazar gününü (fevralın 28-ni) ilk qadın günü olaraq qeyd etmişlər. 1910-cu ildə (1857-ci il hadisələrdən 52 il sonra) Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasionalının qurultayında Klara Setkin adlı bir alman sosialist qadını 1857-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq, Amerikada 8 martda yandırılaraq öldürülən 129 qadın işçinin xatirəsinə hər il 8 mart gününü Beynəlxalq Qadınlar Günü olmasını təklif etdi və bu təklifi qəbul edildi. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də, buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib. 1998-ci ildə Azərbaycanda Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub. Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, onların bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

İnternetdə: www.books.google.com

## 9 Mart – Barbi Gəlinciyinin Yaranması Günü



Dünyada ən məşhur olan gəlincik Barbinin anası və onun əsas yaradıcısı Rut Hendler hesab olunurdu. Rut Elliot düşündü və qərara gəldi ki, nəyə görə istifadə etdikləri ağac parçalarının qırıntılarını atsınlar? Çünki belə qırıntılardan da gəlir əldə etmək olardı. Rut irəli bir təklif sürdü və bildirdi ki, həmin ağac parçalarından gəlinciklər üçün mebel hazırlansın. 1956-cı ildə Rut Hendler İsveçrəyə istirahət məqsədi ilə getmişdi. Orada o, çox qəribə bir gəlincik gördü və hamı bu gəlinciyi Lilli adlandırırdı. Bu gəlincik özündən çox əmin görünürdü, həmçinin açıq sarı rəngində saçları və çox gözəl formada olan paltarları var idi. Rut bu gəlinciyə baxdıqdan sonra özlüyündə düşündü ki, bəlkə də artıq uşaqlar "ana – qız" formasında evcik qurub oynamaqdan beziblər. Rut buna əsasən uşaqlar üçün tamamilə böyüklərin həyatına bənzər bir yeni gəlincik yaratmaq qərarına gəldi. Bu düşüncələr içində yanan Rut Lilli gəlinciyinin bütün səlahiyyətlərini öz əli altına aldı və tamamilə yeni texnika ilə işləməyə başladı. İş prosesində onun yoldaşının firması Mattelin çox saylı mühəndisləri və rəssamları da iştirak edirdi. Rut Lilli gəlinciyini bütün hissələrinə qədər ən gözəl formaya salmaq istəyirdi. Barbini yaradaraq Rut sosial sorğu keçirdi. Bütün qız uşaqları bir ağızdan məhz belə gəlincik istədiklərini bildirdilər. Nəticədə Rut uşaqların sözünə qulaq asmaq qərarına gəldi, çünki "uşaqlar həmişə sözün düzünü deyirlər". Barbi üçün ilk paltarlar tanınmış modelyer olan Jivanşi və Dioradan sifariş edilmişdi. 1958-ci ildə Hendler rəsmi yollarla bu gəlinciyin bütün patentlərini öz üzərinə aldı. Gəlincik bütün dünyada hazırlanmış heç bir oyuncağa bənzəmirdi. Gəlincik hazırlayan şəxslərin qızının adı olan Barbaranın şərəfinə Barbi adlandırıldı və beləcə Barbi dünyaya gəldi. Hazırda bu gəlinciklər dünyanın 150 müxtəlif ölkəsində bir dənəsi 25-70 dollara satılır. Tədqiqatçıların fikrincə, dünyada daha çox tələbat yaradan 20 mal içərisində bu gəlincik də yer alır. Hazırda amerikan ailələrin çoxunun evində ən azı 10 ədəd Barbi gəlinciyinə rast gəlmək mümkündür. Bu vəziyyət İtaliya, Fransa ailələrində də belədir, üstəlik İngiltərədə bu say orta hesaba görə 5 gəlincikdən ibarətdir. Havay adalarında Barbi muzeyi yaradılmışdır. İngilətərədə Mançester adını daşıyan qəsəbədə "Barbisayağı" adını daşıyan evlərdən ibarət olan küçə hazırlanmışdır. Hazırda bütün dünya Mattel kompaniyasını Disney kimi nəhəng formada tanıyır. Mattek firması ekskuliziv icazəyə sahibdir, yəni öz oyuncaqlarını Disneyləndə satır, həm də məşhur fiqurlar olan Tom və Cerrini də hazırlayıb buraxır.

İnternetdə: www.books.google.com

**10 Mart – Milli Teatr Günü, (1873)**

***Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir.***

**Ümummilli lider Heydər Əliyev**



XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı Realnı Məktəbinin teatr həvəskarları truppası tərəfindən Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti - vəziri - xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov mühüm rol oynamışlar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyulmuşdur. Qeyd edək ki, Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdı. Hələ XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən, burada ona üç hissəli bir tamaşa göstərmişlər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı. Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H. Z. Tağıyevin böyük xidməti olmuşdur. O, Bakı şəhərində ilk teatr binası inşa etdirmişdir. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseynqulu Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov və başqaları kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində də canlanma yaratmışdır. Cümhuriyyət hökümətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili olmuşdur.

Bu, Azərbaycan professional teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N. Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açılmışdır. Sovet hakimiyyəti illərində Azərbaycanda teatr sənəti daha da inkişaf etmişdir. Məhz martın 10-nu Azərbaycan milli teatrının əsası qoyulan günü teatrsevərlər Milli Teatr Günü kimi qeyd edirlər.

İnternetdə: www.books.google.com

**12 Mart – Daxili Qoşunlar Günü, (1995)**



Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycanda Daxili Qoşunların hərbi hissələrinin yaradılması zərurəti meydana çıxdı. Bir tərəfdən Ermənistan ordusunun Qarabağa və sərhəd bölgələrimizə təcavüzünün getdikcə geniş miqyas alması, digər tərəfdən ölkə daxilində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələrin fəallaşması bunu tələb edirdi.Ona görə də 1992-ci il mart ayının 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrinin yaradılmasına başlandı. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə bu hərbi hissələr yüksək döyüş qabiliyyəti nümayiş etdirdilər və möhkəmləndilər. Daxili Qoşunların 1738 nəfər döyüşçüsü göstərdikləri döyüş şü- caətlərinə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuşlar. Sonrakı dövrlərdə Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasında Daxili Qoşunların böyük rolu olmuşdur. 1991-ci ilin dekabrında sabiq SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakı şəhərində yerləşən 5-ci diviziyası buraxılmış və heyəti 2 min 500 nəfərdən ibarət olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilmişdir. Həmin vaxtdan Azərbaycan Daxili Qoşunları Biləcəri qəsəbəsində yerləşən hərbi hissənin əsasında yaradılmağa başlamışdır. Daxili Qoşunların Azərbaycan Daxili İşlər Nazirliyinin müstəqil strukturu kimi yaranması və formalaşması ölkəmizin çox çətin bir dövrünə təsadüf etmişdir. 1995-ci il martın 9-da ümummilli lider Heydər Əliyevin imzaladığı müvafiq Fərmanla Azərbaycan Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - yəni 12 mart Daxili Qoşunlar günü elan olunmuşdur. Daxili Qoşunların inkişafına, möhkəmlənməsinə ulu öndər Heydər Əliyev daim diqqət yetirmiş, onun formalaşmasında da ümummilli liderimizin misilsiz tarixi xidmətləri olmuşdur. Daxili işlər orqanlarının ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunlar ötən illərdə şərəfli yol keçmiş, ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxaraq inkişaf etmişdir. 2003-cü ildən Daxili Qoşunların inkişafında yeni bir mərhələ başlamışdır. Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ölkənin daxili işlər orqanlarının ayrılmaz hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi, peşəkar hazırlığının yüksəldilməsi üçün daim diqqət və qayğı göstərir. Məhz bu diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycanın Daxili Qoşunları döyüş hazırlığına və maddi-texniki bazasına görə MDB məkanında ön sıradadır.

İnternetdə: https://azertag.az/xeber/12_MART___DAXILI_QOSUNLAR_GUNUDUR

**14 Mart – Ümumdünya Yuxu Günü, (2008)**



İlk dəfə Ümumdünya Yuxu Günü 2008-ci il martın 14-də qeyd edilib. Həmin ildən başlayaraq Beynəlxalq Səhiyyə Təşkilatının yuxu və sağlamlıq problemləri üzrə layihəsi çərçivəsində hər il mart ayının ikinci həftəsinin cümə günü qeyd olunur. Bu gün çərçivəsində tədbirlər hər il müəyyən mövzuya həsr edilir.

Yuxu orqanizmin sağlamlığı üçün çox vacibdir. Düzgün yuxu zamanı orqanizm gündüz sərf etdiyi qüvvəsini bərpa edir. Buna görə də sağlam insan gümrah və enerjili şəkildə yuxudan oyanır.

Ümumdünya Yuxu Günündə sosial reklamlar fəallaşır, yuxu və onun pozulmasının insan sağlamlığına və bütövlükdə cəmiyyətə təsirləri problemlərinə həsr olunmuş simpoziumlar təşkil olunur.

İnsan həyatının üçdə birini yuxuda keçirir. Sübut olunub ki, uzun müddətli yuxusuzluq insanın həyat fəaliyyətinə çox mənfi təsir göstərir. Yuxunun cəmi 4 saat itirilməsi insan reaksiyasını 45% aşağı salır. Yaddaş pisləşir, insanda müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaranır. Lakin çox yatmaq da yuxusuzluq qədər zərərlidir. Həkimlər belə hesab edirklər ki, böyüklər üçün ideal yuxu müddəti gündə 7-8 saatdır. Bəzi mütəxəssislər belə hesab edirlər ki, qadınlara bir saat artıq yuxu lazımdır, çünki onlar daha emosionaldırlar. Uşaqlar isə gündə 10 saatdan az yatmamalıdırlar.

Qoy bu bayram öz yuxumuza, yəni həm də sağlamlığımıza daha da diqqətli olmağımıza əlavə bir səbəb olsun.

İnternetdə: www.books.google.com

## 20-25 Mart – Novruz bayramı

***Novruz bayramı xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomendir. Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir.***

**Ümummilli lider Heydər Əliyev**



Novruz bayramı Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20-si, 21-i və ya 22-sində) keçirilir. Bir sıra xalqlar ta qədimdən yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan başlayaraq Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda və bir çox Şərq ölkələrində baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. 2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i Beynəlxalq Novruz Günü elan edilmişdir. Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Müasir dövrümüz üçün bu bir milli bayramdır. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır. "Novruz" – hərfi mənada "yeni gün" deməkdir. Amma ifadə etdiyi mərasim semantikasına görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Novruz haqqında məlumatlara Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və b. əsərlərində rast gəlirik. Qədim dövrlərdə Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda, dövlət bayramı kimi qeyd olunmuşdur. Tarixi məlumatlara görə, Novruz bayramı bir ay davam edirdi. Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. İnternetdə: www.books.google.com

## 20 Mart – Beynəlxalq Xoşbəxtlik Günü, (2012)



BMT 2012-ci ildə martın 20-ni Beynəlxalq Xoşbəxtlik Günü (International Day of Happiness) elan etmişdir. Burada məqsəd xoşbəxtliyə can atmağın planetimizdəki bütün insanların ortaq hissi olması haqqında ideyanı dəstəkləməkdir.

Beynəlxalq Xoşbəxtlik Gününün təsisçilərinin fikrincə, bu bayram xoşbəxtliyin bəşəriyyətin əsas məqsədlərindən biri olduğunu göstərmək və xatırlatmaq üçün təsis olunub. Bununla əlaqədar təsisçilər bütün ölkələri öz səylərini hər bir insanın rifahına yönəltməyə çağırırlar. BMT hər bir üzv dövlətə, beynəlxalq və regional təşkilatlara, həmçinin mülki şəxslər və qeyri-hökumət təşkilatları da daxil olmaqla, vətəndaş cəmiyyətinə Beynəlxalq Xoşbəxtlik Gününü, maarifləndirmə tədbirləri də daxil olmaqla, lazımı qaydada qeyd etməyə çağırır.

İnternetdə: www.books.google.com

## 21 Mart – Beynəlxalq Meşə Günü, (2013)




Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qərarı ilə martın 21-i Beynəlxalq Meşə Günü elan edilmişdir və 1971-ci ildən qeyd olunur. BMT Baş Məclisinin 6 yanvar 2013-cü il qərarı ilə həmin ildən etibarən hər il martın 21-i qeyd edilir. Beynəlxalq Meşə Günü meşələrin və meşə sahələrinin Yer kürəsində davamlı inkişaf və təhlükəsizlik üçün böyük əhəmiyyət daşımasına diqqəti cəlb etmək məqsədi güdür. BMT Baş Məclisin bu qərarını Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı alqışlamış və üzv dövlətləri həmin gün xüsusi tədbirlər, o cümlədən ağacəkmə kampaniyaları keçirilməsini dəstəkləməyə çağırmışdır.

Yer kürəsi ərazisinin quru hissəsinin 31 faizi meşələrlə örtülmüşdür. Haqlı olaraq meşələri planetimizin ağciyərləri adlandırırlar. Yerin ekoloji sistemləri və atmosfer arasında karbon qazı mübadiləsi prosesində meşələr mühüm yer tutur. Dünyadakı meşələrin 13 faizi xüsusi qorunan təbii ərazilərə aiddir. Son illərdə meşələrin qırılması, deqradasiya və yanğınlar nəticəsində Yer kürəsində meşələrin təhlükəli dərəcədə azalması meyilləri bütün beynəlxalq birliyi ciddi narahat edir.

İnternetdə: www.books.google.com

## 21 Mart – Beynəlxalq Poeziya Günü, (1999)

***İnsanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, insanların mənəviyyatına, əxlaqına, tərbiyyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.***

**Ümummilli lider Heydər Əliyev**



1999-cu ildə YUNESKO-nun baş konfransının 33-cü sessiyasında hər il martın 21-də Ümumdünya Poeziya Gününü (World Poetry Day) qeyd etmək qərara alınmışdır. İlk Ümümdünya Poeziya Günü, YUNESKO-nun mənzil-qərargahının yerləşdiyi Parisdə keçirilmişdir. YUNESKO-nun qərarında deyilir: "Poeziya müasir insanın ən dərin və kəskin mənəvi suallarına cavab ola bilər, lakin bunun üçün ona daha çox ictimai diqqəti cəlb etmək zəruridir". Bundan başqa, Ümumdünya Poeziya Günü kiçik nəşriyyatlara özlərini göstərmək imkanı verir, çünki məhz onların səyi ilə müasir şairlərin əsərləri oxuculara çatır. Bu bayram canlı poetik söz ənənələrini dirildən poeziya klubları üçün də bir imkandır. YUNESKO hesab edir ki, bu gün kütləvi informasiya vasitələrində poeziyanın insanlara açıq, əsl müasir sənət nümunəsi kimi pozitiv obrazının yaradılmasına xidmət edir. Belə hesab olunur ki, ən qədim şeir-himnlər e.ə. XXIII əsrdə yaranmışdır. Şeirlərin müəllifi şairə En-hedu-ana olmuşdur. O, akkad çarı Sarqonun qızı olmuşdur. En-hedu-ana Ay tanrısı Nann və səhər ulduzu tanrıçası İnann haqqında yazmışdır. Bu günlə əlaqədar təhsil, mədəniyyət müəssisələrində, yaradıcı kollektivlərdə müxtəlif tədbirlər keçirilir. Bu ocağın neçə-neçə unudulmaz söz sahiblərindən biri olan sevimli Şəhriyar qəlbini, ruhunu şeirə, sözə, poeziyaya bağışlayaraq deyib:

*Şeir mədəniyyət, incəsənətdir,*
*İncə ruh, incə zövq, incə sənətdir.*
*O da musiqi tək qəlbin səsidir,*
*Həyatın ən böyük möcüzəsidir.*

Fransız yazıçısı Anatol Frans haqlı olaraq qeyd edib ki, şeirlə insan ruhu arasında qədim bir ünsiyyət var. Buna görə də insanın sevincli və kədərli anlarında şeir həmişə onunladır. Bu məqamlarda Livan yazıçısı və rəssamı Xəlil Cübranın sözləri yada düşür: "Şeir qanı axan yaranın və ya gülümsəyən dodaqların nəğməsidir". Rus şairi, Nobel mükafatı laureatı İosif Brodski isə bildirib ki, poeziya ən yaxşı sözlərin ən yaxşı düzümü deyil, poeziya dilin adi mövcudluq formasıdır.

İnternetdə: www.books.google.com

**21 Mart – İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü, (1966)**



İrqi Ayrı-Seçkiliyin Ləğv Olunması Uğrunda Beynəlxalq Mübarizə Günü (İnternational Day for the Racial Discrimination) BMT-nin Baş Assambleyasının 1966-cı il 26 oktyabr tarixində keçirilən XXI sessiyasının qərarı hər il martın 21-də keçirilir. 1960-cı ilin həmin günü polis Şarpevildə (Cənubi Afrika) aparteid rejiminin Cənubi Afrika Respublikasında afrikalıların məcburi pasportlaşdırılması haqqında qanunun əleyhinə dinc nümayiş zamanı atəş açmış və 69 nəfəri öldürmüşdür. BMT-nin Baş Assambleyası bu günü elan edərək beynəlxalq birliyi, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üçün səylərini birləşdirməyə çağırmışdır. Bununla BMT təsdiq etmişdir ki, irqi ayrı-seçkiliyi insan hüquqlarının, əsas azadlıqların və ədalətin inkarı hesab etmək olar və o, insan ləyaqətinə qarşı cinayətdir. BMT ayrı-seçkiliyin sosial və iqtisadi inkişafa, həmçinin beynəlxalq əməkdaşlığa və sülhə maneə olduğunu da qəbul edir.

İnternetdə: www.books.google.com

## 21 Mart – Beynəlxalq Kuklaçı Günü, (2000)



21 Mart Beynəlxalq Kuklaçılar Gününün (İnternational Day of Puppetry) qeyd olunması ideyası məşhur İran kukla teatrı xadimi Civad Zülfaqarihoya məxsusdur. 2000-ci ildə Maqdeburqda, Beynəlxalq Kukla Teatrı Xadimləri İttifaqının XVIII Konqresində o, bu məsələni müzakirəyə çıxarmışdır. İki ildən sonra UNİMA-nın Beynəlxalq Şurasının iclasında bayramın tarixi müəyyən olunmuşdur. Bütün dünyadan olan kuklaçıların bayramı ənənəsi 2000-ci ilin 21 martında yaranmışdır. Məhz həmin gündən başlayaraq kukla teatrlarının bütün peşəkarları və pərəstişkarları tərəfindən Beynəlxalq Kuklaçı Günü qeyd olunur. Ənənəyə görə, həmin gün kukla teatrı və yaradıcı qruplarının əməkdaşları maraqlı kukla tamaşaları, görüşlər, konsertlər təşkil edirlər.

Ölkəmizdə də kuklaların, kukla tamaşalarının yaranmasının öz tarixi vardır. Kuklalar səhnədə görünəndə həmişə bayram olur. Kukla tamaşaları uşaqlara xeyirxahlığı, yaxşıları dəyərləndirməyi və sevməyi öyrədir. Əgər kuklalar balacalar üçün bir oyun, əyləncədirsə, böyüklər üçün bir eyham, bir mesajdır. Oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən tərbiyəvi və çox təsirli vasitə kimi önəm daşıyar. Kukla oyunlarını üç tipə bölmək olar: kilimarası; kukla oyunu; kölgə oyunu. Kukla oyunu tamaşalarının eyni kökdən olan bir neçə forması var. Bunlardan ən geniş yayılanı “Bəbək”, “Keçəl pəhləvan”, “Maral oyunu”, “Kilimarası” qədim kukla oyunlarındandır. İllər ötdükcə mədəniyyətin hər bir sahəsi kimi kukla teatrı da inkişaf etmişdir. Xalqımız ta qədimdən, təbii vasitələrdən istifadə olunmaqla, kuklalar düzəltmiş, xalq oyunları təşkil etmişdir. Min illər boyu azərbaycanlıların yaşadıqları geniş ərazidə kukla oyunları da yayılmışdır. Bu oyunlar üçün kukla düzəldənləri oyuqçular adlandırıblar.

Azərbaycanda körpə balaların kuklalarla əsas görüş ünvanı Abdulla Şaiq adına Kukla Teatrıdır. Kukla Teatrında həm milli, həm də dünya xalqlarının nağıl qəhrəmanlarının iştirakı ilə “Turpun nağılı”, “Qoçaq Əhməd”, “Cik-Cik xanım”, “Ələddin”, “Cırtdan”, “Quşcuğaz”, “Göyçək Fatma”, “Qırmızı Papaq”, “Məlikməmməd” və başqa tamaşalar nümayiş olunur.

İnternetdə: www.books.google.com

**22 Mart – Ümumdünya Su Ehtiyatları Günü, (1992)**



Ümumdünya Su Ehtiyatları Gününün keçirilməsi ideyası ilk dəfə BMT-nin Ətraf mühitin qorunması və inkişafı üzrə 1992-ci ildə Rio-de-Janeyroda təşkil olunan konfransında səslənmişdir.

Su bəşəriyyət üçün zəruridir. Su damlası çox böyük gücə malikdir, su damlası hamıya lazımdır. Yer səthinin 70%-i su ilə örtülsə də, onun 97,5%-i duzlu sudur. Yerdə qalan 2,5% şirin suyun 68,7%-i buzlaqların donmuş suyudur. Planetin su ehtiyatının ümumi həcminin cəmi 1 faizi insanlar tərəfindən istifadə üçün əlçatandır. XX əsrdə suyun istifadəsi 6 dəfə artmış, əhalinin artım tempini 2 dəfə üstələmişdir. İnkişaf etmiş ölkələrdə şirin su ehtiyatlarının 30%-ə qədər sızma nəticəsində itirilir, bəzi böyük şəhərlərdə isə bu itki 70%-ə qədər artır. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü il 22 fevral tarixli 47/193 saylı qətnaməsini qəbul edərək martın 22-ni Ümumdünya Su Ehtiyatları Günü elan etmişdir. Bu əlamətdar gün 1993-cü ildən qeyd olunur.

İnternetdə: www.books.google.com

## 23 Mart – Ümumdünya Meteorologiya Günü, (1950)



Ümumdünya Meteorologiya Günü 1950-ci ildən, yəni bu təşkilatın yaradılması barədə konvensiya qüvvəyə minəndən bəri ənənəvi olaraq hər il bir deviz altında keçirilir. Azərbaycan 1993-cü il sentyabrın 3-dən Ümumdünya Meteorologiya Təşkilatının üzvüdür. 1873-cü ilin sentyabrında Vyana şəhərində yaradılmış Ümumdünya Meteorologiya Təşkilatı ən qədim beynəlxalq təşkilatlardan biri olan Beynəlxalq Meteorologiya Təşkilatının sələfidir. 1951-ci ildən isə Birləşmiş Millətlər Təşkilatının Xüsusi Agentliyidir. Artıq Ümumdünya Meteorologiya Gününün hər il bir deviz altında keçirilməsi ənənəyə çevrilib. 2012-ci ilin mövzusu olan "Hava, iqlim və su gələcəyimizin aparıcı quvvəsidir" devizi isə hava, iqlim və su ilə əlaqədar təqdim olunan məlumatların sosial-iqtisadi sektorlar üçün müstəsna rolunu göstərmək üçün seçilmişdir. "Hava, iqlim və su gələcəyimizin aparıcı quvvəsidir" devizi Ümumdünya Meteorologiya Təşkilatının 16-cı Konqresində 2012-ci ildən başlayaraq İqlim Xidmətlərinin Qlobal Çərçivə Sisteminin (İXQÇS) yaradılmasına dair qəbul edilmiş qərarın icrası ilə bağlıdır. Bu Konqresdə İqlim Xidmətlərinin Qlobal Çərçivə Sisteminin 4 prioritet istiqaməti müəyyən edilmişdir: təbii fəlakət təsirlərinin minimuma endirilməsi, su resursları, səhiyyə və qida təhlükəsizliyi. Operativ və rejim xarakterli hidrometeoroloji məlumatlardan, proqnoz və xəbərdarlıqlardan iqtisadiyyatın ayrı-ayrı sahələrində, kənd təsərrüfatı, tikinti, aviasiya, gəmiçilik, energetika və s. sahələrdə istifadə edilməsi böyük səmərə verməklə, dayanıqlı inkişafı təmin edən amillərdəndir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti tərəfindən müşahidə şəbəkələri yeni cihaz və avadanlıqlarla, o cümlədən avtomat meteoroloji stansiyalarla təmin olunur. Bu da müşahidələrin keyfiyyət göstəriciləri ilə bərabər onların operativ ötürülməsini və istifadəsini təmin edir. Hava şəraitini idarə etmək mümkün olmasa da, mütəmadi olaraq müşahidələrin aparılması və daha yüksək dəqiqliklə qabaqcadan verilən proqnoz və xəbərdarlıqlar nisbətən əlverişli və təhlükəsiz həyat üçün zəmin yarada bilir. Bununla da təbii fəlakətlərin təsirlərinin nisbətən yumşaldılması məqsədilə iqtisadiyyatın bütün sahələrində keyfiyyətli hidrometeoroloji xidmətə təlabatın artması müşahidə olunur. Bu baxımdan da hidrometeorologiya xidmətlərinin rolu əvəzsizdir.

İnternetdə: http://news.milli.az

**25 Mart – "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının təsis edildiyi gün, (1992)**

***Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.***

**Ümummilli lider Heydər Əliyev**






Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi olan "Azərbaycanın Milli Qəhrəmanı" adı "Azərbaycanın Milli Qəhrəmanı adının müəyyən olunması haqqında" Azərbaycan Respublikasının 25 mart 1992-ci il tarixli, 331-XII nömrəli Qanunu ilə müəyyən olunmuşdur.

"Azərbaycanın Milli Qəhrəmanı" adı Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir. "Azərbaycanın Milli Qəhrəmanı" adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir. "Azərbaycanın Milli Qəhrəmanı" adı eyni şəxsə bir dəfə verilir. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı – "Ay-Ulduz" medalı "Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında" Azərbaycan Respublikasının 7 iyul 1992-ci il tarixli, 201 nömrəli Qanunu ilə təsis edilmişdir. "Ay-Ulduz" medalı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli Qanununa əsasən "Qızıl Ulduz" medalı ilə əvəz edilmişdir.

İnternetdə: www.books.google.com

**27 Mart – Beynəlxalq Teatr Günü, (1962)**



Bu günün hər il dünyada keçirilməsi ilə bağlı qərar YUNESKO yanında Beynəlxalq Teatr İnstitutunun 1962-ci ildə Vyanada keçirilən konqresində qəbul olunub. Hər il Beynəlxalq Teatr Günü münasibəti ilə nüfuzlu incəsənət xadimləri dünya ictimaiyyətinə müraciət edirlər. Bu ənənənin əsasını qoyan və ilk dəfə dünya ictimaiyyətinə Teatr Günü münasibətilə mesaj göndərən fransalı yazıçı Jan Kokto (1962-ci il) olub. Ölkəmizin rəhbərliyi bütün sahələrdə olduğu kimi, teatr sənətinin də inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Teatr binalarının əsaslı təmiri, incəsənət ustalarının sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramı bu gün uğurla həyata keçirilir. Proqrama uyğun olaraq Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, Dövlət Rus Dram, Dövlət Gənc Tamaşaçılar, Dövlət Akademik Milli Dram teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılmışdır. Hazırda bu istiqamətdə işlər uğurla davam etdirilir. Ötən illər ərzində respublika teatrları dünyanın 20-dən artıq ölkəsində, o cümlədən Almaniya, Türkiyə, Rusiya, Belarus, Gürcüstan, Fransa, Mərakeş, Finlandiya, İran, Misir, Hollandiya, Estoniya, Bolqarıstan, Ukrayna və İsveçrədə keçirilən beynəlxalq tədbirlərdə ölkəmizi ləyaqətlə təmsil ediblər. Eyni zamanda, xarici dövlətlərdən tanınmış rejissorlar, baletmeysterlər, xoreoqraflar, teatr rəssamları tamaşa hazırlamaq üçün Azərbaycana dəvət olunublar. Hər il Beynəlxalq Teatr Günü ilə əlaqədar ölkə teatrlarında müxtəlif tədbirlər keçirilir, tamaşalar göstərilir.

İnternetdə: www.books.google.com

## 31 Mart – Yer Saatı Günü



Yer saatı (ing. Earth Hour) – Ümumdünya vəhşi təbiət fondu tərəfindən hər il keçirilən beynəlxalq tədbir. Hər ilin mart ayının axırıncı şənbə günü keçirilir və hər kəsi, dövlət və kommersiya təşkilatlarını həyati əhəmiyyət daşımayan bütün elektrik cihazlarını bir saatlığa keçirməyə çağırır. Bununla da dünyada iqlimin dəyişməsinə diqqət ayırmağa çalışır. İlk dəfə bu tədbir (WWF) tərəfindən The Sydney Morning Herald qəzeti ilə birgə 2007-ci ildə Avstraliyada keçirilib. Artıq gələn il dünyada tərəfdarları tapıldı, 2009-cu ildə isə geniş hərəkata çevrildi. WWF-nin məlumatına görə onu hər il 1 milyard əhali keçirir.

Azərbaycan rəsmi olaraq 2011-ci ildən "Yer saatı" kampaniyasına qoşulub. Elə həmin il keçirilən ilk tədbirdə Bakıda Qız Qalasının işıqları 1 saat müddətinə söndürülüb. 2012-ci ildə 31 Mart tarixində Azərbaycan ikinci dəfə kampaniyada iştirakı edib. 2013-cü ildə "Yer saatı" kampaniyası Bakı şəhəri ilə yanaşı, ölkənin regionlarında Gəncə və İsmayıllı şəhərlərində keçirilib.

2014-cü ildə "Yer saatı" kampaniyası "İrəli" İctimai Birliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə həyata keçirilib. "Yer saatı" kampaniyasının Azərbaycanda əsas təşkilatçısı "İrəli" İctimai Birliyidir. Rauf Mərdiyev kampaniyanın ölkə üzrə koordinatorudur.

İnternetdə: www.books.google.com

**Bu tarixi unutmayaq**
**31 Mart – Azərbaycanlıların Soyqırımı Günü, (1918)**




Bu gün 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınlarla bağlıdır. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni işbirliyinin nəticəsi olub. Sovet dönəmində üstündən sükutla keçilən mart qırğınları 1998-cı ildən etibarən ulu öndərimiz Heydər Əliyevin 26 mart tarixli fərmanına əsasən hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Tarixi faktlar göstərir ki, 31 mart əslində, 1918-1920-ci illər ərzində zaman-zaman Azərbaycanın ən müxtəlif bölgələrində həyata keçirilən soyqırımların anım günüdür. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında ermənilərlə ruslar Azərbaycan türkünü qanına-qəltan ediblər. Bundan əvvəl və sonra bu cür soyqırımlar çox törədilsə də, 1918-ci il martın 31-də baş verən qətl öz miqyasına görə bunların hamısından fərqlənir.

Qeyd edək ki, hələ martın 31-nə qədər, daha dəqiqi, martın 18-21-də də Bakıda dəhşətli hadisələr baş vermişdi. Dörd gün ərzində şəhərin müsəlman əhalisi top atəşinə tutulur, güllələnir, diri-diri yandırılırdı. Bəzi məlumatlara görə, həmin günlərdə çox sayda müsəlman qətlə yetirilmişdi. Qırğının törədilməsinin başlıca səbəbi Azərbaycanın müstəqilliyinin qarşısının alınması, Bakının mühüm iqtisadi və siyasi əhəmiyyəti ilə bağlıydı. İngilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel elə qənaətə gəlib ki, 1918-ci ilin martında 8-12 min azərbaycanlı qətlə yetirilib. ABŞ tarixçiləri C. və K. Makkartilər də 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlman öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar.

İnternetdə: www.books.google.com

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

**22 Mart – Azərbaycanın ilk təyyarəçi qadınlarından biri Züleyxa Seyidməmmədovanın 100 illiyi, (22.03.1919-1999)**



Züleyxa Həbib qızı Seyidməmmədova 22 mart 1919-cu ildə Bakı şəhərində anadan olub. 1934-cü ildə orta məktəbi də Bakıda bitirib. Orta məktəbi bitirdikdən sonra Əzizbəyov adına Sənaye institutunda ali təhsil alan Züleyxa 1935-ci ildən də institutun nəzdində Bakı aeroklubunun filialı olaraq fəaliyyət göstərən birinci tələbə aeroklubunun üzvü olub. Elə həmin ildə institutda Azərbaycan qızları arasında paraşütdən tullanmaq üzrə birinci yeri tutub. Bu birincilik onun üçün hər şeyin başlanğıcı idi. Züleyxa artıq öz yolunu seçmişdi. O, səma qəhrəmanı olmalıydı. Züleyxa Seyidməmmədova ilk fərdi uçuşunu tələbə aeroklubuna üzv olduğu illərdə etdi. 1935-ci ildə Moskvada keçirilən uçuş tullantısında iştirak edən Züleyxa sonra Tuşinski aerodromunda qrup halında tullanmaq üzrə Zaqafqaziya komandasında birinci yeri tutdu. Təyyarədən paraşütlə 50 dəfə tullandığına görə isə onu paraşüt idmanı üzrə təlmatçı vəzifəsinə təyin etdilər. 1938-ci ildə Züleyxa Seyidməmmədova imtahan verərək Moskvada Jukovksi adına Hərbi-Hava Akademiyasına qəbul olunan ilk şturman qız olub. Moskvadan qayıtdıqdan sonra Züleyxa Seyidməmmədova təhsilini davam etdirməklə yanaşı həm də Bakı aeroklubunda təlimatçı kimi işləməyə başlayıb. Müharibənin ilk günlərindəcə onların polku paytaxtın müdafiəsinə yollanmışdır. İkinci dünya müharibəsində qırıcı təyyarəçi və qadınlardan ibarət qırıcı aviasiya polkunun komandir müavini olmuş, 500-dən artıq döyüş uçuşu keçirmişdir. Züleyxa Seyidməmmədova müharibədən qəhrəman aviasiya kapitanı kimi dönmüşdür. O dövrdə bir çox jurnallarda, qəzetlərdə mütəmadi olaraq Züleyxa Seyidməmmədovanın qəhrəmanlıqlarını əks etdirən məqalələr, şeirlər dərc olunurdu. Bütün bunlar müğənni Rəşid Behbudovun da nəzərindən yayınmamış və onun müraciətilə görkəmli bəstəkar Tofiq Quliyev Züleyxa haqqında mahnı bəstələmişdir. Rəşid Behbudovun Moskvaya qastrol səfəri ərəfəsində hazır olan mahnı elə müğənninin öz istəyilə rus dilində Tofiq Quliyevin öz müşayiəti ilə lentə alınmışdır. Züleyxa xanım həm də Sosial təminat naziri postunda çalışan ilk qadın nazir olub. 1952-ci ildən 1975-ci ilə qədər fasiləsiz olaraq nazir vəzifəsində çalışan Züleyxa xanım fəaliyyəti dönəmində bacardığı qədər insanlara yardım edib. 1975-ci ildən Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyəti sədrinin müavini işləmişdir. Azərbaycan SSR Ali Sovetinin (2, 6, 7, 8-ci çağırış) deputatı olmuşdur.

**Filmoqrafiya:** "Qanadlara yiyələnərək..." (film, 1974)

İnternetdə:https://az.wikipedia.org/wiki

**Yubilyar yazıçı və şairlər**

**3 Mart – Şair, tərcüməçi Ənvər Rzanın 80 illiyi, (03.03.1939 – 08.06.1987)**



Ənvər Rza 1939-cu il martın 3-də Azərbaycanın Kəlbəcər rayonunun Aşağı Ayrım (Binə) kəndində anadan olmuşdur. Orta məktəbi gümüş medalla bitirmiş, Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsində təhsil almışdır (1957-1962). M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda ingilis dili leksikası kafedrasında müəllim (1962-1967), baş müəllim (1967-1972), kafedra müdiri (1972-1979), Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda ingilis dili leksikası kafedrasında dosent (1979-1987) işləmişdir. "Göz işığı" adlı ilk şeiri "Ədəbiyyat və incəsənət" qəzetinin 10 fevral 1962-ci il tarixli sayında çıxdıqdan sonra bədii yaradıcılığa başlamışdır. Dövri mətbuatda şeirləri və bədii tərcümələri ilə çıxış etmişdir. Bayronun "Şilyon məhbusu", "Mazepa", "Parizina" poemalarını tərcümə etmişdir. "İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ənvər Rza poetik şair və bacarıqlı tərcüməçi idi. V.Şeksprin, G.Bayronun poemalarını ingilis dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Bunlardan başqa, S.Vurğunun "Vaqif" dramını ingilis dilinə, G.Bayronun "Çayıld Haroldun Səyahəti" poemasını Azərbaycan dilinə tərcümə etmişdir. Şairin vaxtsız ölümü səbəbi ilə onun bir sıra tərcümələri yarımçıq qalmışdır. Ənvər Rza 1987-ci ildə vəfat etmiş, vəsiyyətinə görə doğma kəndlərində dəfn edilmişdir.

**Əsərləri:** “Sənsiz” (1969), “Könlümə bahar düşüb ” (1970), “Nə yaxşı görüşdük” (1985), “Bəxtəvər dustaq” (1994) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.287.

**18 Mart – Yazıçı, ədəbiyyatşünas Həmid Məmmədzadənin 95 illiyi, (1924-2000)**



Həmid Rza oğlu Məmmədzadə 1924-cü ildə Şərqin qədim mədəniyyət beşiyi olan Təbriz şəhərində dünyaya göz açıb. İlk təhsilini Təbrizin "Nəcat" və "Pərvəriş" məktəblərində alıb. 1942-ci ildə Təbrizin nüfuzlu təhsil ocaqlarından hesab olunan Darül-müəllimində oxuyub. Ərdəbilin "Səfəvi", "Puranduxt" və "Sənan" adlı məktəblərində pedaqoji fəaliyyəti iki il davam etmişdir. Orta məktəbdə müəllimlik etdiyi illərdə ölkə ictimai və siyasi hadisələrlə zəngin olmuşdur. H.Məmmədzadə ilk məqalələrini 1946-cı ildə Təbrizdə "Azad millət", "Cavanlar" qəzetlərində çap etdirib. 1946-cı ildə 21 Azər hərəkatının xəyanət nəticəsində yatırılmasından sonra Həmid Məmmədzadə də bir çox döyüş və mübarizə dostları kimi Bakıya köç etməli olmuşdur. Düşdüyü yeni mühit onun təhsilini davam etdirmək sahəsində yeni perspektivlər açdı. O, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsilini davam etdirmişdi. Ali məktəbi bitirən Məmmədzadə Azərbaycan Elmlər Akademiyası Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasuna daxil oldu. Burada işlədiyi illərdə "İnqilabçı, junralist, yazıçı Pişəvəri (həyatı, mühiti, yaradıcılığı)" mövzusunda elmi iş yazaraq filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü. İnstitutda baş elmi işçi işlərkən "Axundov və Şərq" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Bundan sonra o, Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyində elmi fondlar şöbəsinin müdiri, Yaxın və Orta Şərq Xalqları İnstitutunun İran filologiyası şöbəsinin böyük elmi işçisi vəzifələrində işləməyə başlamışdır. H. Məmmədzadə bir qələm sahibi kimi publisistik yaradıcılığa qeyd etdiyimiz kimi, 1946-cü ildə Təbrizdə nəşr edilən "Azad millət" və "Cavanlar" qəzetlərində çıxan məqalələri ilə başlamışdır. İlk hekayələri isə "Pioner" və "Azərbaycan" jumallarında dərc olunmuşdur. H.Məmmədzadə M.F.Axundov, Əlişir Nəvai, Hafiz Şirazi, Şəhriyar, Mirzə Ağa Təbrizi, M.Ş.Vazeh və başqalarının ədəbi yaradıcılığına aid çox dəyərli sənədlər, tapıntılar toplayıb nəşr etdirmişdir. Onun M.T.Zehtabi, Rza Qazi, Əbülfəz Hüseyni, Əli Tudə və başqaları ilə yazışmaları var. Ən maraqlı əsərlərindən olan "M.F.Axundov və Şərq", "Məşrutə inqilabi ərəfəsində və dövründə İran ədəbiyyatı", "Bahar Şirvani", "Seyid Cəfər Pişəvəri", "Təbriz xatirələri" və s. əsərləri bu gün də öz aktuallığını saxlayır. Bədii yaradıcılıq nümunələri olan "Fədai" povesti, "Şimal hekayələri", "Oğurlanmış abidə", "Təbriz təbəssümü", "Azadlıq həsrəti" və s. hekayələri də maraqlı mövzulara həsr olunub.

**Əsərləri:** "Hekayələr" (1957), "Futbolçu" (1961), "İlk məhəbbət" (1966), "M. F. Axundov və Şərq" (1971), "Təbriz xatirələri" (1978) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki

**19 Mart – Şair Dəmir Gədəbəylinin 80 illiyi, (19.03.1939)**



Dəmir Gədəbəyli Gədəbəyin Ataxal kəndində anadan olub. 1961-ci ildə ADU-nun filologiya fakültəsini bitirib. 1975-ci ildə namizədlik, 1989-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edib. 1961-1991-ci illərdə AzTV-də müxbir, redaktor və məsul katib işləyib. 1991-1994-cü illərdə "20 yanvar" qəzetinin baş redaktoru olub. Ədəbi aləmə Gədəbəy rayon qəzetində çıxan "Məktəb" şeirilə daxil olmuşdur (1965). "Azərbaycan xalq dastanlarının poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1987). Xarici ölkə xalqları ədəbiyyatından tərcümələr etmişdir. Son dövr hadisələri onun "Bu qəm sənə sığmaz dünya", "Azərbaycan harayı", "Əsgər anası" və s. mahnılarında ifadəsini tapmışdır. Onun üç yüzdən artıq şeirinə mahnı bəstələnmişdir. "Molodaya qvardiya" jurnalında silsilə şeirləri dərc edilmişdir (1974). "Muzıka" nəşriyyatı "Qeyri adi meşə"(1974) kitabını kütləvi tirajla buraxmışdır.

**Əsərləri:** "Sınaqlar" (1966), "Yaşıl obanın nəğmələri" (1971), "Baba ocağı", (1979), "Mahnılar" (1980), "Ayselin nəğmələri" (1987), "Ayrılığın əlində" (1989), "XX əsrin Nyutonu" (1990), "Tuğ harayı" (1992), "Xatirələrdə yaşayan illər" (1993), "Ellərin əziz qızı" (1994), "Xalqın Heydər babası" (2004), "Abdal oğlu" (2004), "Acılı, ağrılı dünya" (2010), "Oyun dünya" (2010), "Ellər vurğunu" (2010) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.173.

**20 Mart – Yazıçı, dramaturq Cəfər Cabbarlının 120 illiyi, (1899-1934)**



Cabbarlı Cəfər Qafar oğlu – azərbaycanlı dramaturq, şair və nasir, teatrşünas, kinoşünas, tərcüməçi, kinossenarist, jurnalist, aktyor, rejissor, Əməkdar incəsənət xadimidir (1932). Cəfər Cabbarlı 1899-cu il martın 20-də Bakının 110 km-də yerləşən Xızı kəndində yoxsul bir kəndli ailəsində anadan olmuşdur. Cəfər Cabbarlı 1915-ci ildən lirik və satirik şeirlər, hekayə və dram əsərləri yazmağa başlamışdır. 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin tarix şöbəsində də təhsilini davam etdirmişdir. Cabbarlının yaradıcılığı 1915-1934-cü illər arasındakı iyirmi illik bir tarixi mərhələni əhatə edir. 1916-cı ildə qələmə aldığı "Nəsrəddin şah" C.Cabbarlının ilk tarixi pyesidir. C.Cabbarlı 1917-ci ildə Osmanlı tarixinə dair "Ulduz və ya Trablis müharibəsi" və "Ədirnə fəthi" pyeslərini yazmışdır. Hər iki əsərin mövzusu türklərin yadellilərə qarşı apardığı rəşadətli mübarizələrdən götürülmüşdür. Cəfər Cabbarlı "Trablis müharibəsi" tarixi faciəsi ilə Nuru Paşanı bədii ədəbiyyata gətirən ilk azərbaycanlı dramaturqdur. Yazıçının "Bakı müharibəsi" əsərində 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaqlarının azərbaycanlılara qarşı etdiyi zülmlər təsvir olunur, başda Nuru Paşa olmaqla qəhrəman xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsindən danışılırdı. C.Cabbarlının 1920-1923-cü illərdəki ədəbi fəaliyyətinin nəticəsi "Aydın" (1919) və "Oqtay Eloğlu" (1921) pyesləri olub. 1923-cü ildən başlayaraq C.Cabbarlı "Qız qalası" adlı əfsanəvi poemasını "Maarif və Mədəniyyət" jurnalında dərc etdirmişdir. "Qız qalası" 1922-1923-cü illərdə yazılmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bir müddət dram yaradıcılığına fasilə verən yazıçı 1927-ci ildə "Sevil" əsərini yazmışdır. Əsər qadın azadlığı mövzusuna həsr olunmuşdur. 1928-ci ildə "Sevil"in tamaşaya qoyulması ilə sanki Şərq qadınlarının azadlığı üçün bir yol açıldı. C.Cabbarlının 1930-cu illər dram yaradıcılığı "Almaz" pyesi ilə başlayıb. 1931-ci ildə C.Cabbarlı "1905-ci ildə" pyesini tamamlayıb teatra vermişdir. Əsər xalqlar dostluğundan bəhs edir. Cəfər Cabbarlı 1934-cü il dekabrın 31-də, səhər saat 4-də vəfat edib.

**Əsərləri:** "1905-ci ildə" (1937), "Qız qalası" (1937), "Almas" (1937), "Firuzə" (1939), "Yaşar" (1950), "Aslan və Fərhad" (1957), "Sevil" (1959), "Gülzar" (1965), "Ölkəm" (1965), "Dilarə" (1970), "Od gəlini" (1971), "Ey dan ulduzu" (1979), "Aslan və Fərhad" (1980), "Gülzar"(1982), "Əsərləri" (1984), "Ədirnə fəthi" (1996) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.152.

**20 Mart – Şair, publisist Nemət Bəsirin 130 illiyi, (20.03.1889-1943)**



Hacıyev Nemət Ağabala oğlu – şair, publisist, 1889-cu il martın 20-də Azərbaycanın Bakı quberniyasının Balaxanı kəndində anadan olmuşdur. İbtidai təhsilini mədrəsədə almışdır. Kiçik yaşlarından bədii ədəbiyyata güclü meyil göstərmişdir. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Nemət Ağabala oğlu Hacıyev Mirzə Ələkbər Sabirlə Balaxanı kənd məktəbində işləməsi və dostluq əlaqəsi onda yazıb-yaratmaq həvəsi oyatmışdır. Şeirlərini "Dəli Nemət", "Əyyar", "Məşəl", "Köhnə Əyyar" gizli imzalar ilə dərc etdirmişdir. Onun şeirlərindən xoşlanan M.Ə.Sabir rəvayətə görə ona "Bəsir" təxəllüsünü vermişdir. İnqilabdan əvvəl dövri mətbuatda müntəzəm çıxış etmiş, bir sıra kitabları nəşr olunmuşdur. Ədəbiyyatşünas professor, Əməkdar elm xadimi Hüseyn Həşimli Nemət Bəsir haqqında geniş tədqiqat aparmış, məqalələr dərc etdirmişdir. Nemət Bəsir 1943-cü ildə Balaxanıda vəfat etmişdir.

**Əsərləri:** “Fəryad” (1910), “Aləmi-nisvan” (1914), “İki nakam” (1916) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.658.

**21 Mart – Ədəbiyyatşünas, tənqidçi Murtuz Sadıxlının 90 illiyi, (1929-1997)**



Sadıxov Murtuz Zeynal oğlu 1929-cu il martın 21-də Azərbaycanda Naxçıvan MR Ordubad rayonunun Nüsnüs kəndində fəhlə ailəsində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin rus bölməsini bitirmişdir. Azərbaycan-rus ədəbi əlaqələrinin bir çox problemlərinin tədqiqi ömrünün son 20 ilini Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) rus ədəbiyyatı kafedrasına başçılıq etmiş bu insanın adı ilə bağlıdır. O, öz elmi məktəbini yaradaraq, bu tədqiqatların təsadüfi deyil, sistemli xarakter daşımasına nail olmuşdur. Arxivlərdə yorulmadan çalışan alim Azərbaycanın Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı və nəhayət, Mirzə Fətəli Axundovun həyat və yaradıcılıq bioqrafiyasını ilk dəfə aşkar etdiyi faktlarla zənginləşdirmişdir. M.Sadıxlının Azərbaycan və rus dillərindən başqa, bəzi Avropa dillərində də çapdan çıxmış “M.F.Axundov və rus ədəbiyyatı” kitabı Rusiya ədəbi ictimaiyyətinin Azərbaycan ədəbiyyatını qiymətləndirməsi və dərk etməsi baxımından sözün əsl mənasında sanballı tədqiqat əsəridir. Professor M.Sadıxlı həm də şair-dekabristlərin, habelə A.Qriboyedov, A.Puşkin, M.Lermontov, Y.Polonski və başqalarının Azərbaycanla əlaqələrinə həsr olunmuş əsərlərin müəllifidir. Bu, həm də onun doktorluq dissertasiyasının mövzusu idi. Alimin rus-Azərbaycan-polyak ədəbi əlaqələri haqqında oçerkləri və bir çox digər məqalələri də elmi ictimaiyyətə yaxşı məlumdur. Onun elmi irsi 7 sanballı monoqrafiya, orta və ali məktəblər üçün bir neçə dərslik və dərs vəsaiti, proqramlar onlarca qəzet və jurnal məqaləsindən ibarətdir... Ötən əsrin mürəkkəb 90-cı illərinin ortalarında, alimin vəfatından bir qədər əvvəl çapdan çıxmış, “Qan yaddaşı” kitabı, Azərbaycan Mədəniyyət Fondu yanında başçılıq etdiyi “Vicdan” Komissiyasının materialları və arxiv sənədləri əsasında hazırladığı “Tarix cavab verəcək..” (1995) toplusu tarixi baxımdan çox dəyərli əsərlərdir. Onun elmi-pedaqoji fəaliyyəti fəxri tərifnamələr, nişanlar və “Əməkdar fərqlənməyə görə” (1982) medalı ilə təqdir edilmişdir. Ümumittifaq səviyyəli konfrans, müşavirə və ədəbi görüşlərdə iştirak etmiş, qarşılıqlı mədəni əlaqələrə həsr edilmiş Fransa (1989) və Polşa simpoziumlarında (1981) nümayəndə heyətinin tərkibində olmuşdur. “Əmək veteranı” və “Əməkdə fərqlənməyə görə” medalları ilə təltif edilmişdir. Murtuz Sadıxlı 1997-ci il aprelin 24-də dünyasını dəyişmişdir.

**Əsərləri:** “Russkaya literatura” (1984), “M.F.Axundov” (1987), “Qan yaddaşı” (1991).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.626.

**22 Mart – Yazıçı, dramaturq Mehdi Hüseynin 110 illiyi, (1909-1965)**



Mehdi Əli oğlu Hüseynov 22 mart 1909-cu ildə, Qazax mahalının Şıxlı kəndində anadan olmuşdur. O, fəaliyyətə hekayə ilə başlamış, ilk hekayəti 1927-ci ildə nəşr edilmişdir. İlk iri həcmli əsərlərinə məhəbbət mövzusunda yazdığı "Kin" povesti və siyasi motivli "Daşqın" romanı aiddir. 1930-cu illərin hadisələrini əks etdirən "Tərlan" romanı da onun qələminin məhsuludur. Müharibə mövzusunda isə "Nişan üzüyü" hekayəsini, "Fəryad" və ürək povestlərini yazmışdır. 1948-ci ildə Bakı neftçilərinin bədii obrazını "Abşeron" romanında əks etdirmişdir. Yazıçının tarixi mövzulu dram əsərlərində: "Cavanşir", "Nizami", "Şamil" görkəmli şəxsiyyətlərin obrazları hazırlanmışdır. M.Hüseyn şəxsiyyətə pərəstiş dövrünün acınacaqlı təsvirini "Yeraltı çaylar dənizə axır" romanında bədii şəkildə, sənətkarlıqla əks etdirə bilmişdir. O, Azərbaycan yazıçısı, dramaturq, tənqidçi, ictimai xadim, Azərbaycan Xalq yazıçısı (1964) və SSRİ Dövlət mükafatı laureatıdır (1950). "Bahar suları" (1930), "Xavər" (1930) kitablarındakı hekayələrdə Azərbaycan kəndində yeni həyat uğrunda mübarizənin səciyyəvi epizodları, dövrün koloriti əksini tapmışdır. "Tunel" (1927), "Qan intiqamı" (1928), "Kin" (1935), "Daşqın" (1933-36) romanında Mehdi Hüseyn fərdi xüsusiyyətləri ilə seçilən sujetlər yaratmışdır. Ən mühüm tarixi əsəri olan "Səhər" (1953), "Tərlan" (1940), "Vətən çiçəkləri" (1942), "Moskva" (1942), "Ürək" (1945), "Fəryad" (1945) əsərlərində vətənpərvərliyin qüdrəti, adamların mərdliyi və qəhrəmanlığı tərənnüm olunur. Neftçilərin həyatından bəhs edən "Abşeron" (1949), müəyyən mənada onun davamı olan "Qara daşlar" (1957-59) və ölməz "Yeraltı çaylar dənizə axır" (1965-1966) romanları ictimai, mənəvi əxlaqi problemlərə cəsarətli müdaxilə baxımından diqqətə layiqdir. M. Hüseyn dramaturq kimi də tanınmışdır. O, dram yaradıcılığına "Şöhrət" (1939) pyesi ilə başlamışdır. "Nizami" (1942) və "Cavanşir" (1957) tarixi dramlarında Azərbaycan xalqının vətənpərvəliyi, qəhrəmanlıq ənənələri əks olunmuşdur. "Alov" (1961), "İntizar" (1944, İ.Əfəndiyevlə birgə), "Şamil" (1940-41) və "Qardaşlar" (1948) pyesləri, habelə xatirələri, yol qeydləri "Bir ay və bir gün" (1963), gündəlikləri var. Onun əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Görkəmli ədib M. Hüseyn 10 mart 1965-ci ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Bahar suları" (1930), "Xavər" 1930, "Vaqif" (1932), "Daşqın" (1934), "Tərlan" (1940), "Odlu qılınc" (1943), "Vətən çiçəkləri" (1943), "Ölkəm" (1947), "Abşeron" (1949), "Yeraltı sular dənizə axır" (1966), "Əsərləri" (1979), "Komissar" (1980), "Hop- hop" (1987), "Ədəbiyyat və həyat" (1989), "Kin" (1988), "Səhər" (1989) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Mehdi_Hüseyn

**22 Mart – Yazıçı, ssenarist İsmayıl Şıxlının 100 illiyi, (1919-1995)**



Şıxlınski İsmayıl Qəhrəman oğlu 1919-cu il martın 22-də Qazaxın İkinci Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Kosalar kəndində ibtidai məktəbi bitirib Qazax pedaqoji məktəbində təhsil almışdır. Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Qazax rayonunun Kosalar kənd orta məktəbində dərs hissə müdiri işləmişdir. İkinci dünya müharibəsi dövründə sovet ordusu tərkibində ön cəbhələrdə (Şimali Qafqaz, Krım, III Belorusiya cəbhəsi və Şərqi Prussiya istiqamətində döyüşən orduda sıravi əsgər) olmuşdur. Tərxis edildikdən sonra altı ay Kosalar kənd məktəbində tədris hissə müdiri işləmişdir. Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsində aspirant (1946-1949), müəllim, baş müəllim olmuş, xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, bir müddət Azərbaycan Yazıçılar İttifaqının katibi (1965-1968) kimi çalışmışdır. "Azərbaycan" jurnalında baş redaktor (1976-1978), Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1981-1987), SSRİ Yazıçılar İttifaqının katibi (1981-1987) olmuşdur. 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqının sədri seçilmişdir. Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri seçilmişdir (1991). İlk mətbu əsəri "Quşlar" şeiri 1938-ci ildə "Ədəbiyyat" qəzetində dərc olunmuşdur. Ədəbi yaradıcılığa 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap etdirdiyi "Həkimin nağılı" hekayəsi ilə başlamışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Xidmətlərinə görə "Qızıl Ulduz" (1945), "Şərəf nişanı" (1971), "Qırmızı əmək bayrağı" (1979), II dərəcəli "Böyük Vətən müharibəsi" (1985) ordenləri və medallarla təltif edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanını (1973) və Azərbaycan Respublikasının "Şöhrət" ordenini almışdır. İsmayıl Şıxlı 1995-ci il iyulun 26-da Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Yetər Aslanova" (1949), "Kerç sularında" (1950), "Dağlar səslənir" (1951), "Daşkəsən" (1953), "Ayrılan yollar" (1957), "Dəli Kür" (1983), "Məni itirməyin" (1984), "Cəbhə yolları" (1985), "Seçilmiş əsərləri" (1986), "Daim axtarışda" (1988), "Namərd gülləsi" (1991), "Ölüləri qəbiristanda basdırın" (1992), "Ölən dünyam" (1995).

**Tərcümələri** (türkcə və ruscadan): "XIX əsr xarici ədəbiyyat tarixi" (1964), Mopassan Gi De. "Hekayələr və novellalar" (1980), (şərikli), Əziz Nesin. "Futbol kralı" (1988) (şərikli).

**Filmoqrafiya:** "Dəli Kür" (film, 1969), "Xalq şairi Səməd Vurğun" (film, 1969), "Nə yaxşı ki, dünyada Səməd Vurğun var" (film, 1976), "İşarəni dənizdən gözləyin" (film, 1986), "Ayrılan yollar" (film, 1997), "Əzizə Cəfərzadə" (film, 1999), "Kürə qovuşan ömür" (film, 2003), "Bizim qəribə taleyimiz" (film, 2005) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki İsmayıl_Şıxlı

**27 Mart – Tənqidçi, tərcüməçi Azər Mustafazadənin 80 illiyi, (27.03.1939)**



Azər Mustafazadə 1939-cu il martın 27-də Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Orta məktəbi doğma Bakıda bitirdikdən sonra həmin il Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olub və 1964-cü ildə oranı müvəffəqiyyətlə bitirib. Həmin ildən də əmək fəaliyyətinə başlayan A.Mustafazadə bir neçə il "Literaturnıy Azerbaydjan" jurnalında şöbə müdiri və məsul katib vəzifəsində işləmişdir. 1968-1971-ci illərdə isə SSRİ Yazıçılar İttifaqının orqanı olan nüfuzlu "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri təyin edilib. O, bu vəzifəsindən istifadə edərək işlədiyi müddətdə Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənəti haqqında dəfələrlə dəyərli yazılar yazaraq qəzetin səhifələrində çıxış edib, Azərbaycanın görkəmli ziyalılarını SSRİ oxucusuna tanıtdırırdı. Azər Mustafazadə 1972-ci ildən 1983-cü ilə qədər Moskvada SSRİ Yazıçılar İttifaqında Azərbaycan Ədəbiyyatı üzrə Şuranın məsul katibi vəzifəsinə irəli çəkilib. Bu vəzifəni şərəflə yerinə yetirən azərbaycanlı ziyalı ədəbi-bədii və tərcüməçilik fəaliyyətindən də qalmır, canla-başla Azərbaycanın ədəbiyyatının təbliğinə xidmət edirdi. Moskvada çalışdığı illərdə o, Mirzə İbrahimovun, Süleyman Rəhimovun, Fərman Kərimzadənin, Sabir Əhmədovun, Kamal Abdullanın və başqalarının əsərlərini rus dilinə çevirərək Moskvanın nüfuzlu nəşriyyatlarında çap etdirirdi. Bundan başqa, paytaxtda mühüm ədəbi-bədii tədbirlərin təşkil edilməsində və keçirilməsində xüsusi fəallıq göstərirdi. Azərbaycan mədəniyyətini, ədəbiyyatını və incəsənətini hər zaman yüksək dəyərləndirən Azərbaycanın böyük oğlu Heydər Əliyev həmin illərdə Azərbaycan KP MK-nın birinci katibi idi. A.Mustafazadənin Moskvadakı fəaliyyəti Heydər Əliyevin diqqətindən yayınmamış, ona dəfələrlə rəsmi təşəkkür etmişdir. Azər müəllimin Moskvadakı fəaliyyəti getdikcə genişlənir, tez-tez mühüm vəzifələrə irəli çəkilirdi. Lakin 1983-cü ildə Vətənə – Azərbaycana dəvət olunub. Əvvəlcə Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti işləri Komitəsində sədr müavini təyin edilib və bundan başqa müxtəlif partiya vəzifələrinə irəli çəkilib. 1990-cı ildə isə Azərbaycan Dövlət Nəşriyyatı "Azərnəşr"ə direktor təyin edilib. 10 aprel 2014-cü ildə Azərbaycanda nəşriyyat işi sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

**Tərcümələri:** Məmməd Cəfər, Cəlil Məmmədquluzadə (1966), Fərman Kərimzadə "Qarlı aşırım " (1974), Sabir Əhmədov "Yamacda nişanə " (1976), Mirzə İbrahimov "Mənim həyatımın kitabı" (1979) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.107.

**28 Mart – Şair Teymur Elçinin 95 illiyi, (1924-1992)**



Əliyev Teymur Süleyman oğlu 1924-cü il martın 28-də Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəliklə Bakıya köçmüşlər. Burada 132 saylı şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1941-1948). Ordu sıralarından tərxis ediləndən sonra APİ-nin komsomol komitəsinin katibi (1945-1946), Azərbaycan LKGİ Bakı şəhər komitəsinin birinci katibi (VI, 1946 – IV, 1948), Azərbaycan LKGİ MK təbliğat və təşviqat şöbəsi müdirinin müavini (1948-1949), Azərbaycan LKGİ Bakı komitəsinin katibi (U, 1949 – IV, 1950), "Azərnəşr"in siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri (1950-1952), Azərbaycan Nazirlər Soveti yanında Radio Məlumat Komitəsi sədrinin müavini (1952-1953), Azərbaycan Nazirlər Soveti nəşriyyat qrupunun rəisi, katibliyin müdiri (1953-1955), Azərbaycan KP MK elm və mədəniyyət şöbəsinin təbliğat və təşviqat şöbəsi müdirinin müavini (1955-1957), Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin (sonra Dövlət komitəsi) sədri (1957-1964), Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri (1964-1975), Azərbaycan mədəniyyət nazirinin müavini (1975-1988) vəzifələrində işləmişdir. Azərbaycan Ali Sovetinin V, VI, VU, VUI çağırış deputatı seçilmişdir. Ədəbi fəaliyyətə kiçik yaşlarından başlamış, ilk şeirlərini məktəb şənliklərində oxumuşdur. Onun ilk mətbu əsəri Bakı Mərkəzi Pionerlər Evinin 1938-ci ildə nəşr etdiyi "Şeirlər məcmuəsi"ndə dərc olunan "Azərbaycan" şeiridir. Onun bir sıra siyasi, lirik, əmək və uşaq şeirlərinə mahnılar bəstələnmişdir. "Qar qız" mənzum pyesi M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur (1983). Əsərləri keçmiş SSRİ, həmçinin xarici ölkə xalqlarının dillərində çap olunmuşdur. Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı ordeni" (1971), "Şərəf nişanı" ordeni (1979), yeddi medal və üç dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

**Əsərləri:** "Qar qız" (1955), "Bip-bip" (1959), "Qulaq asın danışım" (1959), "Qızılduz, Yaşar və Nurnənə" (1962), "Din-dan" (1964), "Bahar, adlar, uşaqlar" (1966), "Sözlər, nəğmələr, nağıllar, laylalar" (1969), "Laylalar" (1971), "Şəkərim, duzum" (1977), "Xoruzbanı gedirəm" (1978), "Torağayın nəğməsi" (1979), "Toğrul babanın nağıl ağacı" (1982), "Balaca Aytən" (1983), "Mənim kiçik ulduzlarım" (1985) və s.

**Uşaq mahnıları:** "Bip-bipin nəğməsi" - musiqi: Fikrət Əmirov, "Bizim həyət" - musiqi: Fikrət Əmirov, "Qış nəğməsi", musiqi: Oqtay Zülfüqarov, "Sərçə" - musiqi: Oqtay Zülfüqarov, "Can nənə" - musiqi: Oqtay Zülfüqarov, "Gəl, bahar" - musiqi: Əfsər Cavanşirov; Filmoqrafiya: "Analar və laylalar" (1992), "Qara leylək" (film, 1985), "Ziyalı ömrü. Teymur Elçin" (film) və s

İnternetdə: https://az.wikipedia.org/wiki/Teymur_Elçin

**Xarici ədəbiyyat**
**6 Mart – Özbək şairi Həmzə Həkimzadə Niyazinin 130 illiyi, (1889-1929)**



Həmzə Həkimzadə Niyazi 1889-cu ildə Kokand şəhərində həkim ailəsində anadan olmuşdur. O, mədrəsədə təhsil alarkən klassik cığatay (özbək) ədəbiyyatını yaxşı öyrənmiş, özü də şeir yazmışdı. 1905-ci ildə yaradıcılığa şeirlə başlayan H.H.Niyazi "Nihan" təxəllüsü ilə çap olunurdu. O, Nəvai, Babur, Bedil, Firqət və digər belə şəxsiyyətlərin yaradıcılığını dərindən öyrənsə də, daha çox iki dahidən – Ə. Nəvai və M. Füzulidən bəhrələnmişdir. "H.H.Niyazi və Azərbaycan ədəbiyyatı" məqaləsində professor Pənah Xəlilov yazırdı ki, "Nihan qəzəllərinin ahəngində, kontrastlar silsiləsində Füzuli qəzəllərinin təsiri dərhal duyulur". Şeir yaradıcılığını ardıcıl olaraq genişləndirən şair 1915-16-cı illərdə dərc olunmuş "Ağ gül", "Sarı gül", "Yaşıl gül", "Qızıl gül" və s. kitablarına həmin dövrəcən olan poeziya nümunələrini daxil etmişdir. H.H.Niyazi ilk özbək dramaturqlarından biri, bəstəkarı və xalq xadimidir. O, yazdığı şeirlərinə özü mahnı bəstələmişdi. Respublikanın Xalq şairi fəxri adına layiq görülmüşdür. Özbək inqilabi-demokratik ədəbiyyatının inkişafında, xüsusən Niyazinin formalaşmasında "Molla Nəsrəddin" jurnalının rolu böyük olmuşdur. H.H.Niyazi M.F.Axundovun əsərlərinə, Azərbaycan teatrının başqa gözəl nümunələrinə yaxından bələd olub. O, cığatay (özbək) dramaturgiyasının əsasını qoyanlardan biri olmuşdur. 40-a yaxın dram əsəri yazmışdır. Niyazinin dramaturji fəaliyyətində 1918-ci ildə qələmə aldığı "Bəy və muzdur" əsəri əsas və başlıca yer tutsa da, o vaxtacan artıq bir neçə pyes müəllifi idi. "Əvvəlki seçkilər", "Pərənci sirlərindən bir lövhə", "Fərqanə faciəsi", "Laşman faciəsi", "Zəhərli həyat və yaxud eşq qurbanları", "Elm hidayəti", "Molla Nurməhəmməd damlənın küfr xətası", "Ölüm faciələri"... Həmzə Həkimzadə Niyazinin dramaturji fəaliyyətində tədqiqatçılar onun "Bəy və muzdur" (1918) dramını, "Maysaranın işi" (1926) komediyasını və "Çadra sirləri" (1927) faciəsini daha yüksək dəyərləndiriblər. Sovet hökuməti şairin "ateizm təbliğatçısı" kimi Şahimərdan kənd əhli tərəfindən daşa basılaraq vəhşicəsinə öldürüldüyünə önəm verərək və insanlara dərs olsun deyə Şahimərdan qışlağını yerlə yeksan edib, yerində "Həmzəabad" adlı yeni bir qəsəbə salmışdı.

**Dram əsərləri:** "Bəy və muzdur", "Zəhərli həyat və yaxud eşq qurbanı", "Fərqanə faciəsi", "Ölüm faciəsi", "Elm hidayəti".

**Əsərləri:** "Ağgül", "Maysara", "Maysaranın işi", "Çadra sirləri", "Kim haqlıdır", "Daşkəndə səyahət", "Qara saç", "Muxtariyyat və ya avtonomiya", "İstibdad qurbanları", "Mart qurbanı Aynisa", "Torpaq islahatı" və s.

İnternetdə:https://az.wikipedia.org/wiki Həmzə_Həkimzadə_Niyazi

**15 Mart – Türkmən yazıçısı Berdi Kerbabayevin 125 illiyi, (1894-1974)**



Berdi Muradoviç Kerbabayev 15 mart 1894-cü ildə Türkmənistanın Təcən rayonunun Qovgözərən kəndində anadan olmuşdur. O, təhsilini əvvəl mollaxanada, sonra mədrəsədə almışdır. Berdi Kerbabayev 1927-ci ildə Leninqrad Şərqşünaslıq İnstitutuna daxil olmuşdur. Lakin Leninqradın iqlimi onun səhhətinə mənfi təsir etdiyi üçün bir ildən sonra Türkmənistana qayıtmağa məcbur olmuşdur. Vətəninə qayıtdıqdan sonra Berdi Kerbabayev müxtəlif idarələrdə, redaksiyalarda işləmişdir. Berdi Kerbabayev ali təhsil ala bilməsə də, öz üzərində çalışmaqla, mütaliə yolu ilə savadını artıra bilmişdir. Berdi Kerbabayevin ilk əsəri 1923-cü ildə çap olunmuşdur. O, "Qızlar dünyası" (1927), "Adət Qurbanı" (1928), "Aylar" (1943), "Sehirli təpə" (1951) adlı poemaların, "Vətən məhəbbəti" (1941), "Qardaşlar" (1943), "Məxtimqulu" (1943) adlı pyeslərin, "Qurban Durdu" (1942), "Aysoltan (1949), "Qəti addım" (1940-1947), "Nebitdağ" (1957), "Qayğısız Atabəy" (1964) adlı povest və romanların müəllifidir. Berdi Kerbabayev 1948, 1954-cü illərdə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. O, 1951-ci ildə Türkmənistan Elmlər Akademiyasının akademiki seçilmiş, 1967-cü ildə Türkmənistanın Xalq yazıçısı fəxri adı verilmişdir. Ona 1969-cu ildə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Berdi Kerbabayev 23 iyul 1974-cü ildə Aşqabadda vəfat etmişdir.

**Əsərləri:** "Aysoltan" (tərcümə edəni: Ş.Abasov). Bakı, 1955; Hekayələr. "Türkmən yazıçılarının hekayələri" kitabında, Bakı, 1959; "Türkmən hekayələri" (tərcümə edəni: N.Nağıyev). Bakı, 1962.

İnternetdə: https://az.wikipedia.org/wiki/Berdi_Kerbabayev

**20 Mart – Rus yazıçısı Nikolay Qoqolun 210 illiyi, (1809-1852)**



Nikolay Vasilyeviç Qoqol 1809-cu ilin mart ayının 20-si Malorusiyanın Poltava quberniyasında, Soroçi qəsəbəsində anadan olmuşdur. Qoqol ilk təhsilini evdə almış, 2 il Poltava qəza məktəbində oxuduqdan sonra təhsilini davam etdirmək məqsədilə Nejinsk ali elmlər gimnaziyasına getmiş və burada ədəbiyyata böyük həvəs göstərmiş, skripkada ifa etməyi, tamaşalarda oynamağı öyrənmişdir. 1828-ci ildə gimnaziyada təhsilini başa vurmuşdur. 1830-cu ildə “Oteçestvennıye zapiski” jurnalında “Basavryuk” adlı ilk povesti işıq üzü görmüşdür. 1831-ci ildə Qoqol Qadın Vətənpərvərlik İnstitutunda müəllim kimi çalışmış, 1834-cü ildə isə Peterburq universitetində tarix kafedrasında kiçik elmi işçi kimi çalışmışdır. Yazıçının Peterburq silsiləsindən olan ən əhəmiyyətli əsəri “Şinel” povestidir. Qoqol Ukraynanı canlandıran “Dikanka axşamları” adlı əsərini ərsəyə gətirəcək hekayələr yazmağa başlayıb. Bu hekayələr 1831-1832-ci illərdə iki cilddə nəşr olunub və çox böyük uğur qazanıb. Hekayələrin təbiiliyi, duyğuları hər kəsə təsir edirdi. 1833-1835-ci illərdə Qoqol sonradan “Mirqorod əhvalatları” adı altında toplayacağı hekayələrini yazıb. Peterburqda yaxından gördüyü pul, mövqe ehtirası, ictimai bərabərsizlik kimi problemlər “Peterburq hekayələri”ndə özünü göstərib. Kitabdakı ilk hekayə “Nevski bulvarı” 1834-cü ildə yazılıb. Topludakı ən gözəl hekayə sayılan “Kaput” 1839-1840-cı illərdə yazılıb. Bu hekayələrlə Qoqol rus ədəbiyyatında yeni bir cığır açıb. Cəmiyyətin aşağı təbəqələrində yaşayan insanlara qarşı dərin sevgi bu cığırın əsas xüsusiyyətidir. 1842-ci ildə çap olunan “Evlənmə” adlı pyesinə 1833-cü ildə başlayıb. 1834-cü ildə “Müfəttiş”i yazmağa başlayıb və 1836-cı ildə bu əsər teatrda oynanmağa başlayıb. 1842-ci ildə Qoqol iki vacib əsəri sayılan “Ölü canlar”ın birinci cildini və “Şinel” povestini bitirərək nəşr etdirib. “Şinel”də sadə insanların yaşadıqları acılar, məruz qaldıqları haqsızlıqlar və yoxsulluq oxucuya dərindən təsir edəcək formada, professionallıqla qələmə alınıb.1836-cı ildə müəllif bu povesti Puşkinə göstərmiş və onun məsləhəti ilə 4 il sonra təkmilləşdirilmiş variantda çap etmişdir. Qoqol dramaturgiya sahəsində də öz gücünü sınamışdır. 1835-ci ildə “Müfəttiş” əsərini yazmış və bir il sonra bu əsər Moskvada tamaşaya qoyulmuşdur. Qoqol 1836-cı ildə “Ölü canlar” əsərini tamamlamışdır. Məşhur rus yazıçısı Nikolay Vasilyeviç Qoqol 1852-ci il fevral ayının 21-də vəfat etmişdir.

**Əsərləri:** “Dikanka kəndi yaxınlığında xutor axşamları” (1831), Soroçin yarmarkası” (1832), “May gecəsi” (1832), “Köhnə dünya mülkədarı”, “Taras Bulba”, “Vıy” (1835), “Müfəttiş” (1835), “Ölü canlar” (1836), və s.

**Filmoqrafiya:** “Dikanka yaxınlığında xutor axşamları” (film, 1961), “Peterburqdan anonim adam” (film, 1977).

İnternetdə: https://kayzen.az/blog/yazar/20298/nikolay-vasilyevic-qoqol.html

**27 Mart – Türk yazıçısı Yaqub Qədri Qaraosmanoğlunun 120 illiyi, (1889-1974)**



Yaqub Qədri Qaraosmanoğlu 27 mart 1889-cu ildə Qahirədə anadan olmuşdur. Atası Manisanın məşhur Qaraosmanoğlu soyuna mənsub Əbdülqadir bəy, anası İqbal xanım idi. Atası 1833-cü ildə Kavalalı İbrahim paşanın Manisanı işğalı sırasında ona yaxınlıq göstərmiş və onun Misirdəki malikanəsinə yerləşmişdi. Əbdülqadir bəyin malikanə yiyələrindən İqbal xanım ilə etdiyi evlilikdən dünyaya gələn ikinci övladı Yaqub Qədri idi. Yaqub Qədrinin ailəsi İbrahim paşanın vəfatından sonra Türkiyəyə dönmüşdür. Yaqub Qədri burada ilk təhsilini almış, 1903-cü ildə İzmir edadiyasına (liseyinə) daxil olmuşdur. Atasının vəfatı səbəbiylə 1905-ci ildə anası ilə bərabər Misirə dönmüşdür. Misirdə Fransız məktəbində orta təhsilini başa vurmuşdur. Yaqub Qədri 1908-ci ildə İstanbula gəlmiş, Balkan savaşına qədər ailəsi ilə burda yaşamışdır. Bu illər ərzində Ziyalı cəmiyyətinə qatılmış, bir çox qəzet və jurnallarda yazılar çap etdirmişdir. 1932-ci ildə Atatürkün istəyi ilə Yaqub Qədri Qaraosmanoğlu, Vedat Nədim Tör və b. ilə birlikdə “Kadro” dərgisini çıxarmağa başlamışdır. Yeni nəşrin əsas məqsədi Atatürk ideyalarının təbliği, kamalizmi ideologiyaya çevirmək idi. Yaqub Qədri jurnalistik fəaliyyətindən tutmuş, demək olar ki, ədəbiyyatın bütün sahələrində əsərlər yazmışdır. O, ictimai-siyasi xadim, Kadro dərgisinin qurucusu, jurnalist, şair və yazıçı olmuşdur. Onun romanları XX türk romanın ən dəyərli töhfələrindəndir. “Kirayə verilən mülk” (1922), “Nur baba” (1928), “Sodom və Qomorra” (1928), “Yad adam” (1932), “Anqara” (1934), “Sürgün” (1937), “Panorama” (c. 1-2, 1953-54) romanlarında, “Könülsüz diplomat” (1955) adlı xatirələrində Türkiyə tarixinin tənzimatdan başlayaraq tərq. yüzillik dövrü əksini tapmışdır. Bəzi hekayələri Azərbaycan dilinə tərcümə edilmişdir. Yaqub Qədri Qaraosmanoğlu 13 dekabr 1974-cü ildə vəfat etmişdir.

**Əsərləri:** “Kirayə verilən mülk” (1922), “Nur Baba” (1922), “Hökm gecəsi” (1927), “Sodom və Gomore” (1928), “Yad adam” (1932), “Anqara” (1934), “Bir Sürgün” (1937), “Panorama I” (1949), “Panorama II” (1952), “Könülsüz diplomat” (1955) və “Həp o şarkı” (1956) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Yaqub_Qədri_Qaraosmanoğlu

**İncəsənət**

**13 Mart – Xalq artisti Məmmədəli Vəlixanlının 120 illiyi, (1899-1969)**



Teatr sənətinə marağı uşaq vaxtlarında gördüyü dini şəbih tamaşalarından, "Qaravəlli", "Kosa-kosa" məzhəkəli xalq oyunlarından oyanan Məmmədəli Hacı Heydər oğlu Heydərzadə (Vəlixanlı) 13 mart 1899-cu ildə Bakının Fatmayı kəndində doğulub. Baqqallıqla məşğul olan atası onu "Səfa" mədəni-maarif cəmiyyəti nəzdindəki məktəbə qoyub. Həmin dövrdə Azərbaycan realist aktyor məktəbinin banisi Cahangir Zeynalov "Səfa"nın teatr truppasında əsas simalardan biri idi. O, 1912-ci ildə quruluş verdiyi Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasının tamaşasında Bədəl rolunu təbiətən çevik və hər şeyə maraq göstərən Məmmədəliyə tapşırıb. Bununla da gələcək aktyorun sənət yolunda ilk addımı atılıb. Məmmədəli Vəlixanlı teatrda işləyə-işləyə Bakı Teatr Texnikumunda təhsilini davam etdirib (1927-1930). Otuzuncu illərin sonlarında realist aktyor məktəbinin duzlu komik aktyoru kimi tanınan Məmmədəli Vəlixanlı Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Mirzə Həbib), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), Sabit Rəhmanın "Xoşbəxtlər", "Əliqulu evlənir" və "Nişanlı qız" (Mirzə Qərənfil, Mindilli, Xəlil), Mirzə İbrahimovun "Həyat" (Pardon Qurbanəli), Nikolay Qoqolun "Müfəttiş" (Osip) komediyalarında öz ifası ilə silinməz izlər qoyub. Faciə və dramatik janrda yazılmış Hüseyn Cavidin "Səyavuş" (Kosa), Vilyam Şekspirin "Qış nağılı" (Avtolik), "On ikinci gecə" (Ser Endri), "Maqbet" (Qapıçı), Mehdi Hüseynin "Cavanşir" (Saran), Konstantin Trenyovun bizdə "Düşmənlər" adıyla oynanmış "Lyubov Yarovaya" (Pikalov), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Robinzon), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Əmrah), Fridrix Şillerin "Qaçaqlar" (Vurm), Səməd Vurğunun "Xanlar" (Araq Şəmistan), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Rosselini), Brandon Tomasın "Tələbələrin kələyi" (Əli), Boris Lavrenyovun "Amerikanın səsi" (Skundirell), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Mürsəl kişi), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Dərviş) pyeslərinin səhnə təfsirlərində son dərəcə şirin, duzlu və koloritli yumoristik və komik-dramatik rollara səhnə ömrü bəxş edib. Teatr sənətimizin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar artisti (4 dekabr 1938) və Xalq artisti (21 iyul 1949) fəxri adlarına layiq görülüb. Məmmədəli Vəlixanlı Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasının premyerasından (9 mart 1961-ci il) az müddət sonra qəfildən iflic xəstəliyinə düçar olub. Altmış iki yaşlı sənətkar bir daha səhnəyə çıxmadan 12 aprel 1969-cu ildə dünyasını dəyişib. Məzarı Bakıda ikinci Fəxri xiyabandadır.

**Filmoqrafiya:** “Görüş” (film, 1955), “Mahnı belə yaranı” (film, 1957).

İnternetdə:https://az.wikipedia.org/wiki/ Məmmədəli_Vəlixanlı

**20 Mart – Aktyor Hüseynqulu Sarabskinin 140 illiyi, (1879-1945)**



Rzayev Hüseynqulu Məlik oğlu 1879-cu ildə Bakıda kasıb bir ailədə anadan olmuşdur. O, 12 yaşı olarkən ilk dəfə teatr tamaşasına baxıb: bu həvəskarların ifasında "Xan Sarabi" adı ilə qoyulmuş Mirzə Fətəli Axundovun "Sərgüzəşti-Vəziri-Xani-Lənkəran" komediyası idi. Əsl soyadı Rzayev olan Hüseynqulunun sonralar götürdüyü səhnə təxəllüsü - Sarabski də bu güclü təəssüratın əks-sədası olur. Hüseynqulu Sarabskinin teatra gəlməsində, aktyorluq sənətini seçməsində, püxtələşməsində teatr xadimlərindən, tanınmış ziyalılardan Nəriman Nərimanovun, Əbdürrəhim bəy Haqverdiyevin, Rəhim bəy Məlikovun, həmkarları – Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun və başqalarının böyük rolu olmuşdur. İlk dəfə 1902-ci ildə Nəriman Nərimanovun "Dilin bəlası" pyesində Rəsul roluna çıxan Hüseynqulu sonralar teatr səhnəsində Mirzə Fətəli Axundovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin dram əsərlərində bir sıra müxtəlif xarakterli rollar oynayıb. O, yalnız milli repertuarda deyil, Azərbaycan dilinə tərcümədə Uilyam Şekspirin, Heynenin, Şillerin, Qoqolun əsərlərində də çıxış edirdi. Məhz Henrix Heynenin "Əlmənsur" pyesində ərəb səyyahının rolunda çıxış edərkən oxuduğu təsiredici "Hicaz" muğamı onun Azərbaycan mədəniyyətinin yeni bir aləminə – musiqili-teatra, operaya gətirir. Bu tamaşa zamanı Sarabski o zamanlar Azərbaycanın və Şərqin ilk operası olan "Leyli və Məcnun" üzərində işləyən Üzeyir Hacıbəyovun diqqətini cəlb etmişdir. Üzeyir Hacıbəyov Hüseynqulu Sarabskinin opera artisti kimi potensialını hiss edərək onu öz operasında baş rola – Məcnun roluna dəvət etmişdir. Bu rol Hüseynqulu Sarabskiyə sözün əsl mənasında ümumxalq məhəbbəti və şöhrət gətirmişdir. Hüseynqulu Sarabski Azərbaycan opera müğənnisi (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadimi, Azərbaycanın Xalq artisti (1932), Azərbaycan professional musiqi teatrının banilərindən biri idi. Hüseynqulu Sarabski 1908-ci ildən "Nicat" cəmiyyəti nəzdində "Müsəlman Opera truppası"nın yaradıcılarından biri və solisti, Məcnun ("Leyli və Məcnun"), Şeyx Sənan ("Şeyx Sənan"), Kərəm ("Əsli və Kərəm"), Sərvər ("O olmasın, bu olsun"), Şah İsmayıl və b. partiyaların ən yaxşı ifaçılarından biri olmuşdur. Hüseynqulu Sarabski milli opera tarixində Üzeyir Hacıbəyovun opera və operettalarında – Kərəm ("Əsli və Kərəm"), Şeyx Sənan ("Şeyx Sənan"), Şah Abbas ("Şah Abbas və Xurşidbanu"), Söhrab ("Rüstəm və Söhrab"), Sərvər ("O olmasın, bu olsun"), Mərcan bəy ("Ər və arvad"), Əsgər ("Arşın mal alan"), Müslüm Maqomayevin "Şah İsmayıl"ında Şah İsmayıl, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib"ində Aşıq Qərib rollarının ilk ifaçısı kimi ad qoydu.

**Filmoqrafiya:** "Arşın mal alan" (film, 1917) - rol: Əsgər; "Səbuhi" (film, 1941) - rol: Aşıq Səttar; "Məhəmməd Füzuli" (film, 1958//rol-Rubabə).

İnternetdə:https://az.wikipedia.org/wiki/Hüseynqulu_Sarabski

**22 Mart – Xalq artisti Lütvəli Abdullayevin 105 illiyi, (1914-1973)**



Lütfəli Abdullayev 1914-cü il 22 martda Nuxa şəhərində doğulub. Oradakı yeddillik məktəbi bitirib. Bir neçə ay Şəki fəhlə gənclər klubunun dram dərnəyində çalışıb. 1928-ci ilin sentyabrında Bakıya gələn Lütfəli Abdullayev Dövlət konservatoriyasının valtorna sinfinin məşğələlərində iştirak etməyə başlamışdır. Tezliklə o, yardımçı aktyor kimi sözsüz və epizod rollarda, qısa vaxtdan sonra "Arşın mal alan" operettasında Vəli rolunda oynayıb. 1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yarananda L. Abdullayev truppaya qəbul edilib. 1949-cu ilin yazında Lütfəli Abdullayev Milli Dram Teatrına keçib. Burada Tulio ("Rəqs müəllimi", Lope de Veqa), Rəşid ("Kimdir müqəssir?", Georgi Mdivani), Tağı ("Köhnə dudman", Əbdürrəhim bəy Haqverdiyev), Oddamdı ("Od gəlini", Cəfər Cabbarlı), Nadir ("Çiçəklənən arzular", Məmmədhüseyin Təhmasib) rollarında çıxış edib. İki ildən sonra o, Azərbaycan Dövlət Filarmoniyasının nəzdində estrada ansamblı kimi çıxış edən muskomediya truppasında işləməyə başlayıb. 1956-cı ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının Azərbaycan və rus bölmələri Şəmsi Bədəlbəylinin bədii rəhbərliyi ilə yenidən fəaliyyətə başlayıb. Lütfəli Abdullayev yaradıcılığını üç bölümə ayırmaq olar: klassik operettalarda oynadığı rollar; tərcümə əsərlərində ifa etdiyi səhnə surətləri; çağdaş bəstəkarların musiqili komediyalarında yaratdığı koloritli personajlar. L.Abdullayevə yaradıcılıq uğurlarına və Musiqili Komediya Teatrının inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 24 may 1960-cı ildə ona Xalq artisti fəxri adı verilib. L.Abdullayev bir çox Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə, 1946-cı ildə SSRİ Dövlət mükafatı ilə təltif edilmişdir. Xalqın bütün zümrələrinin sevimli aktyorlarından olan L.Abdullayev 9 dekabr 1973-cü ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır. Bakıda adına küçə var. 2014-cü ildə L.Abdullayev haqqında "Ürəklərdə yaşayan sənətkar Lütfəli Abdullayev" qısametrajlı səndəli fim çəkilmişdir. Filmin rejissoru Sənan Sultanovdur. Baş rolu Məhəmməd Samiroğlu ifa edir. 13 fevral 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Lütfəli Abdullayevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**Filmoqrafiya:** "Məktuba cavab" (film, 1944), "Arşın mal alan" (film, 1945), "O olmasın, bu olsun" (film, 1956), "Kazbek qutusu" (film, 1958), "Qəribə əhvalat" (film, 1960), "Payız konserti" (film, 1962), "Əhməd haradadır?" (film, 1963), "Ulduz" (film, 1964), "Bəşir Səfəroğlu" (film, 1969), "İmportnı yaxud zırrama" (film, 1972), "Aktrisanın təbəssümü" (film, 1974), "Üzeyir ömrü" (film, 1981), "Böyük ömrün anları" (film, 2006), "Ürəklərdə yaşayan sənətkar. Lütfəli Abdullayev" (film, 2014) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Lütfəli_Abdullayev

**Milli Qəhrəmanlar Zirvəsi**
**23 Mart – Azərbaycanın Milli Qəhrəmanı Təhməzov Paşa Qurban oğlunun 70 illiyi, (23.03.1949-24.08.1993)**



Təhməzov Paşa Qurban oğlu 23 mart 1949-cu il Lənkəran şəhərində doğulmuşdur. 1964-cü ildə burada 6 saylı orta məktəbi bitirmişdir. Əmək fəaliyyətinə Əhaliyə Məişət Xidməti İstehsalat Kombinatında usta köməkçisi kimi başlamışdır. 1993-cü il 23 avqustda Azərbaycanın cənub bölgəsində vəziyyət gərginləşəndə Paşa Təhməzov silaha sarılaraq "Talış Muğan Respublikası" adı ilə baş qaldıran daxili çəkişmələrin qarşısını almağa yollanıb. Paşa Təhməzov dövlətçiliyimizin qorunması uğrunda öz canını əsirgəmirdi. Cinayətkar dəstə ilə baş verən qarşıdurma nəticəsində Paşa Təhməzov qəhrəmancasına həlak olub. Təhməzov Paşa Qurban oğlu Lənkəran şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Lənkəran şəhərindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, "23 Avqust" meydanında büstü qoyulmuşdur. Ailəli idi, üç övladı qalıb.

**Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı fərmanı ilə Təhməzov Paşa Qurban oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə: https://az.wikipedia.org/wiki/Paşa_Təhməzov

**29 Mart – Azərbaycanın Milli Qəhrəmanı İsmayılov Etibar Bəylər oğlunun 55 illiyi, (29.03.1964-04.01.1994)**



İsmayılov Etibar Bəylər oğlu 29 mart 1964-cü ildə Ağcabədi rayonunun Hindarx kəndində anadan olmuşdur. 1981-ci ildə burada məktəbi bitirmişdir. İsmayılov Etibar 1990-cı ildə o erməni vəhşilikərinə tab gətirə bilməyib və könüllü müdafiə batalyonlarından birinə yazılıb. Bir neçə batalyonda vuruşan Etibar Ağdam batalyonuna yazılıb. O, kəşfiyyata gedər mühüm məlumatlar əldə edərdi. 1994-cü il 4 yanvar Etibarın tərkibində olduğu tabor yeni tapşırıq almışdır: Xocavənd rayonunda mövqe tutan erməni qəsbkarlarının arxasına keçmək və məlumat əldə etmək... Bu əməliyyat yerinə yetirilərkən onlar mühasirəyə düşmüşlər, Etibar döyüşçü dostlarını xilas etmək üçün əlindəki sonuncu qumbaranı sinəsinə sıxaraq özünü tankın altına atır erməni faşistlərinin tankı ekipajla birlikdə məhv edilmişdir... Cəsədi döyüş meydanında qalmışdır.

İsmayılov Etibar Bəylər oğlunun bu qəhrəmanlığı dildən-dilə düşmüşdür. Etibar İsmayılovun şəhid olmasından sonra onun qəhrəmanlığına aid çoxlu şeirlər, dastanlar yazılmışdır. Subay idi.

**Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il 86 saylı fərmanı ilə İsmayılov Etibar Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə: https://az.wikipedia.org/wiki/ Etibar_İsmayılov

**29 Mart – Azərbaycanın Milli Qəhrəmanı İsmayılov İlqar Sədi oğlunun 60 illiyi, (29.03.1959 – 01.10.1992)**



İsmayılov İlqar Sədi oğlu 29 mart 1959-cu il Bakı şəhərində doğulmuşdur. 1966-cı ildə Bakı şəhərindəki 45 saylı orta məktəbə getmiş, 1976-cı ildə təhsilini başa vurmuşdur. Daha sonra Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdır. 1981-ci ildə hərbi xidmətə çağırılımış, 1983-cü ildə ordudan tərxis edilmişdir.

İlqar İsmayılov 1991-ci ildən başlayaraq tez-tez döyüş bölgəsinə gedərdi. Onun şücaəti nəticəsində ermənilərlə vuruşan xeyli xarici vətəndaş ələ keçirilmişdir. Onun rəhbərliyi ilə 128 nəfər döyüşçümüz Qızartı yüksəkliyini erməni basqınçılarından azad etmişdir. İgid komandir İsmayılov İlqar Sədi oğlu 1992-ci il 1 oktyabr qəhrəmancasına həlak olmuşdur. Ailəli idi, iki övladı yadigar qalıb. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Bakı küçələrindən biri onun adını daşıyır, 45 saylı orta məktəbin önündə büstü qoyulub.

**Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı fərmanı ilə kapitan İsmayılov İlqar Sədi oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wiki İlqar_İsmayılov

**29 Mart – Azərbaycanın Milli Qəhrəmanı Qəhrəmanov Fariz Çoban oğlunun 45 illiyi, (29.03.1974)**



Qəhrəmanov Fariz Çoban oğlu 29 mart 1974-cü il Bərdə rayonunun Xəsili kəndində anadan olmuşdur. 1991-ci ildə burada məktəbi bitirmişdir. Fariz Qəhrəmanov 1992-ci il iyun ayında hərbi xidmətə çağırılmışdır. "N" saylı hərbi hissənin tərkibində Ağdam, Ağdərə, Füzuli, Kəlbəcər, Tərtər rayonunda gedən döyüşlərdə iştitrak etmişdir. Bu batalyon onlarla erməni yaraqlısını məhv etmişdir. Fariz Qəhrəmanov 1994-cü il Ağdərə rayonunda gedən döyüşlərdə yaralanmış, müalicə olunan kimi yenidən cəbhəyə dönmüşdür. 1995-ci il 13-17 mart hadisələri zamanı silahlı dəstənin zərərsizləşdirilməsində də iştirak etmişdir. 1995-1996-cı illərdə Türkiyə Respublikasında Jandarm və Komanda Məktəbində təhsil almışdır. Hazırda zabitdir.

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Qəhrəmanov Fariz Çoban oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wiki/Fariz_Qəhrəmanov

**Aprel**

**Əlamətdar və tarixi günlər**

1 Aprel – Ümumdünya Gülüş Günü, (1564)
1 Aprel – Beynəlxalq Quşlar Günü, (1894)
2 Aprel – Beynəlxalq Uşaq Kitabı Günü, (1967)
4 Aprel – Ümumdünya İnternet Günü, (1998)
5 Aprel – Qar Qızın Ad Günü, (2009)
6 Aprel – Beynəlxalq Cizgi Filmləri Günü, (2002)
6 Aprel – İlk Olimpiya Oyunlarının Keçirildiyi Gün, (1896)
7 Aprel – Ümumdünya Sağlamlıq Günü, (1950)
12 Aprel – Ümumdünya Aviasiya və Kosmanavtika Günü, (1962)
13 Aprel – Ümumdünya Rok-N-Roll Günü, (1954)
15 Aprel – Beynəlxalq Mədəniyyət Günü, (1935)
17 Aprel – Ümumdünya Hemofiliya Günü, (1964)
18 Aprel – Tarixi Abidələrin Mühafizəsi Günü, (1983)
21 Aprel – Beynəlxalq Sirk Günü
22 Aprel – Ümumdünya Yer Kürəsi Günü, (1970)
23 Aprel – Ümumdünya Kitab və Müəllif Hüquqları Günü, (1995)
23 Aprel – Ümumdünya İngilis Dili Günü, (2010)
24 Aprel – Gənclərin Beynəlxalq Həmrəylik Günü, (1957)
28 Aprel – Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü, (1997)
29 Aprel – Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü, (1962)
29 Aprel – Beynəlxalq Rəqs Günü, (1982)
30 Aprel – Beynəlxalq Caz Günü, (2011)

**Bu tarixi unutmayaq**

3-4 Aprel – Kəlbəcər rayonunun işğalı günü, (1993)

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

Azərbaycanda ilk qadın professorlardan biri Adilə Şahtaxtinskayanın 125 illiyi, (17.04.1894-30.03.1951)

**Yubilyar yazıçı və şairlər**

Ədəbiyyatşünas, dilçi Xudiyev Nizami Manaf oğlunun 70 illiyi, (01.04.1949)
Şair, dramaturq Zeynal Xəlilin 105 illiyi, (01.04.1914-1979)
Yazıçı, kinodramaturq Tofiq İsmayılovun 80 illiyi, (06.04.1939)
Yazıçı, publisist Çingiz Abdullayevin 60 illiyi, (07.04.1959)
Dramaturq, yazıçı Nəcəf bəy Vəzirovun 165 illiyi, (07.04.1854-1926)
Tənqidçi, ədəbiyyatşünas Orucəli Həsənovun 105 illiyi, (08.04.1914-1991)

Yazıçı Qılman İlkinin 105 illiyi, (11.04.1914)
Şair Tofiq Mütəllibovun 90 illiyi, (13.04.1929-1992)
Ədəbiyyatşünas, tənqidçi Əhməd Cəfəroğlunun 120 illiyi, (17.04.1899-1975)
Şair Hüseyn Hatəminin 65 illiyi, (22.04.1954)
Şair Fəxrəddin Əsədin 165 illiyi, (24.04.1954)
Yazıçı Əflatun Nemətzadənin 75 illiyi, (25.04.1944)
Dramaturq Səttar Axundovun 105 illiyi, (28.04.1914-1994)

**Xarici ədəbiyyat**

Rus yazıçısı Fonvizin Denis İvanoviçin 275 illiyi, (14.04.1744-12.12.1792)
İngilis dramaturqu və şairi Şekspir Vilyamın 455 illiyi, (26.04.1564-23.04.1616)

**İncəsənət**

Bəstəkar Asəf Zeynallının 110 illiyi, (05.04.1909-27.10.1932)
Xalq artisti, xanəndə Mustafayev Teymur Ağaxan oğlunun 80 illiyi, (10.04.1939)
Xanəndə, Xalq artisti S. Şuşinskinin 130 illiyi (12.04.1889-1965)
Xalq artisti, bəstəkar Mirişli Ramiz Aqil oğlunun 85 illiyi, (16.04.1934)
Xalq artisti Ağahüseyn Cavadzadənin 125 illiyi, (22.04.1894-1981)
Xalq artisti, kinorejissor Əjdər İbrahimovun 100 illiyi, (29.04.1919 – 20.09.1993)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Həbibov Rəfael Hacı Şərafət oğlunun 55 illiyi, (04.04.1964-07.07.1992)
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Şövqiyar Cəmil oğlunun 50 illiyi, (05.04.1969 – 27.08.1992)
Azərbaycanın Milli Qəhrəmanı Aqarunov Albert Aqarunoviçin 50 illiyi, (25.04.1969-08.05.1992)

## Əlamətdar və tarixi günlər

## 1 Aprel – Ümumdünya Gülüş Günü, (1564)



Hər il aprel ayının 1-də Avropada və bir çox Asiya ölkələrində Gülüş Günü keçirilir. Bu gün rəsmi bayram kimi heç bir ölkənin təqviminə daxil edilməsə də, dünyanın bir çox dövlətlərində qeyd olunur. Həmin günü Böyük Britaniyada "Səfehlər günü", Fransada isə "Aprel balığı günü" adlandırırlar.

Gəlin əvvəla bu günün tarixçəsinə bir nəzər salaq. Bəzi mənbələrə görə 1 aprel zarafatının yaranması belə olub: Təqribən 5 əsrlik tarixi olan Gülüş Günü ilk dəfə Fransada təşəkkül tapıb. 1564-cü ildə Fransa Kralı IX Çarles, il başlanğıcının yanvar ayının birinci günü olması barədə qərar verib. Amma bundan əvvəl də Fransada yeni ili 1 apreldə qeyd ediblər. O zamankı rabitə şərtlərində IX Çarlesin bu qərarı ölkədə çox da yayılmayıb. Məsələdən xəbərdar olanlar isə protest məqsədilə köhnə adətlərinə davam edərək, 1 apreldə şənliklər keçiriblər. Digərləri onları "aprel axmaqları" adlandırıblar. 1 aprelə isə "bütün axmaqların günü" adını veriblər. Uzun illər sonra yanvarın ilk ay olmasına öyrəşiblər və 1 aprel gününü mədəniyyətlərinin bir parçası sayaraq Gülüş Günü kimi qeyd ediblər.

İndi bütün dünyada 1 Aprel Ümumdünya Gülüş Günü kimi qeyd olunur. Başqa rəvayətə görə, qədim Romada 17 fevralı "Avamlar bayramı kimi" keçirirmişlər. Şərqi Hindistanda isə bu bayram martın 31-nə təsadüf edib. Rəvayətə görə, belə qeyri-adi ənənəyə təbiətin özü səbəb olub. Havanın yaz şıltaqlıqlarını əhali gülüş və zarafatlarla qarşılamaq məqsədilə bu günü özlərinə xoş ovqat yaratmaq üçün seçib. Azərbaycanda isə bu gün daha çox insanların bir-birlərini aldatması ilə müşayiət olunur. Hətta həmin gün televiziya kanallarında gedən bəzi xəbərlər, dövri nəşrlərdə dərc olunan informasiyalar da yanlış olur. Özü də bundan heç kəs incimir. Amma hamı çalışır ki, aprelin 1-i aldanmasın.

İnternetdə: www.books.google.com

**1 Aprel – Beynəlxalq Quşlar Günü, (1894)**

 

Hər il bütün planet Beynəlxalq Quşlar Gününü (International Bird Day) – beynəlxalq ekoloji bayram kimi qeyd edir. Bu bayram 1894-cü ildə ABŞ-da meydana gəlmişdir. Kütləvi informasiya vasitələrinin sayəsində populyarlıq qazanan bayram tezliklə bütün ştatlarda qeyd edilməyə başlanıb, sonradan Avropaya keçib. İndi isə YUNESKO-nun "İnsan və biosfer" bioloji proqramı çərçivəsində dünyanın bir çox ölkələrində qeyd olunur.

Hər ilin bu günü təbiətsevərlər quşlar üçün yuvalar düzəldir, suda yaşayan quşların məskunlaşdığı yerləri yaxşılaşdırır və s. tədbirlər görürlər. Quşlarla bağlı daha bir məşhur bayram may ayının ikinci bazar günü keçirilən Ümumdünya Miqrasiya Edən Quşlar Günüdür.

İnternetdə: www.books.google.com

## 2 Aprel – Beynəlxalq Uşaq Kitabı Günü, (1967)



Uşaqların tərbiyəsində kitablar xüsusi yer tutur. Kitab onları zəngin mənəvi zövqə malik bir insan kimi tərbiyə edir, öz xalqının zəngin tarixi keçmişinə dərindən bələd olmasına imkan yaradır. Uşaq Kitabı Gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi vardır. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olmuşdur. Beynəlxalq Uşaq Kitabı Gününün bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif etmişdir. 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən isə Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir. Nağılları 100-dən çox dilə tərcümə edilmişdir. Y.Lepman 1953-cü ildə uşaq ədəbiyyatı üzrə "balaca nobel mükafatı" – H.X.Andersen mükafatının təsis edilməsini də təklif edib. Həmin ildən bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə, dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsm çəkən 17 illüstrasiyaçı-rəssama təqdim olunub. İlk dəfə bu, 1956-cı ildə ingilis nağılçısı E.Fardkona, 1958-ci ildə isə İsveç yazıçısı A.Lindqrene verilib. Sonra E.Keçtner, C.Kryuss, italyan C.Rodari də bu mükafata layiq görülüb. Başqa bir mükafat isə son illər nəşr olunan uşaq kitablarının illüstrasiyası və onların dünyanın müxtəlif dillərdə tərcüməsinə görə təqdim edilən Fəxri Diplomdur. Ümumiyyətlə, uşaq kitablarının tarixi 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsi ilə başlayır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Y.A.Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədilə rəsmlərin yer aldığı kitab nəşr etdirmişdir. D.Defo və C.Sviftin – böyüklər üçün yazılmış – "Robinzon Kruzo" və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olunmuşdur. 1846-cı ildən başlayaraq H.X.Andersenin qələmə aldığı nağılları uşaqlar bu gün də çox sevirlər. Son illər "Dünya uşaq ədəbiyyatı kitabxanasının 50 cildliyi", "Macəra və fantastika kitabxanasının 25 cildliyi" və "Kiçik yaşlı uşaqlar üçün" seriyasından çoxlu kitablar çap edilmişdir. Azərbaycanda uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2012-ci ildən Beynəlxalq Uşaq Kitabı Şurasının üzvüdür. Hazırda Beynəlxalq Uşaq Kitabı Günü ölkəmizdə də özünəməxsus şəkildə qeyd olunur. F.Köçərli adına Respublika Uşaq Kitabxanası hər il Milli Uşaq Kitabı Sərgisi təşkil etməklə, Azərbaycanda çap olunan uşaq ədəbiyyatı nümunələri ilə oxucuları tanış edir, kitabın və kitabxananın imicinin yüksəlməsinə zəmin yaradır. Bu tarix cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etmək üçün təsis olunmuşdur.

İnternetdə: http://www.clb.az

## 4 Aprel – Ümumdünya İnternet Günü, (1998)



Bu bayramın dərin, bir qədər mübahisəli tarixçəsi var. Belə ki, 4 aprel şagirdlərin, tələbələrin himayəçisi olan və tarixdə ilk "Etymologiae" ensiklopediyasının yaradıcısı Sevilyalı müqəddəs İsidorun ölüm günüdür. Məlumat üçün qeyd edək ki, katolik kilsəsi 1998-ci ildə ümumdünya internet şəbəkəsini insan bilikləri xəzinəsi adlandırıb. Uzun müddət namizədlər arasında seçim edən Vatikan 2000-ci ildə belə qərara gəlib ki, internetin ən yaxşı himayəçisi müqəddəs İsidor ola bilər. Öz qərarını şərh edən II İoann Pavel bildirib ki, insan biliklərinin xəzinəsi internetdir, buna görə də o, bu missiyanı müqəddəs İsidora həvalə edib. Qeyd edək ki, internet himayəçisi ilk dəfə olaraq çarpaz istinad sistemindən istifadə edib. Bu sistem qlobal şəbəkədə istifadə edilən hiper istinadları xatırladır.

İnternetdə: www.books.google.com

## 5 Aprel – Qar Qızın Ad Günü, (2009)



Qar qız – Yeni il və nağıl qəhrəmanı, Şaxta babanın nəvəsi, onun daimi yol yoldaşı və köməkçisidir. Bayramlarda uşaqlar və Şaxta baba arasında vasitəçi kimi çıxış edir. Qar qızın yaşı balaca qızcığaz və gənc qız arasında dəyişilir. Ən çox isə gənc qız obrazında təsvir edilir, çünki həm ədəbi obraz kimi, həm də Şaxta babanın müşayiətçisi kimi daha uyğun gəlir. Şaxta babanın və Qar qızın ilk birgə rəsmi çıxışı 1937-ci ildə Moskva İttifaqlar Evində olmuşdur.

Qar qız rus folklorunda qardan düzəldilmiş və canlanmış qız haqqında xalq nağılının personajıdır. Bu süjet 1869-cu ildə A.Afanasyev tərəfindən işlənmiş və "Slavyanların təbiətlə bağlı poetik görüşləri" adlı kitabının ikinci cildində dərc olunmuşdur.

1873-cü ildə A.N.Ostrovski Afanasyevin nağıllarının təsiri ilə "Qar qız" pyesini yazır. Burada Qar qız Şaxta baba və Günəş tanrısı Yarilanın şərəfinə yay ritualı zamanı həlak olan Qırmızı Baharın qızı kimi təqdim olunur. O, gözəl, solğun bənizli, açıq rəngli saçlara malik olub, xəzlə haşiyələnmiş ağ-mavi kürk, papaq və əlcəklər geyinib. Əsər ilk əvvəl uğur qazanmasa da, 1882-ci ildə N.A.Rimski-Korsakov pyes əsasında eyniadlı operanı tamaşaya qoyduqdan sonra böyük şöhrət qazanmışdır.

1968-ci ildə "Qar qız" filminin çəkilişləri zamanı Mera çayının kənarında ağac dekorasiyalarından bütöv kənd yaradılıb. Məhz burada A.N.Ostrovski öz əsərini yazmışdır. Çəkilişlər başa çatdıqdan sonra ağac dekorasiyalar Kostromaya köçürülüb, burada "Berendeyevka" parkı salınıb. 2008-ci ildə Kostromada Qar qızın köşkü tikilmişdir və orada Qar qız ilboyu qonaqlarını qəbul edir. 2009-cu il aprelin 4-də ilk dəfə rəsmi şəkildə Qar qızın ad Günü qeyd olunmuşdur. Həmin vaxtdan Qar qızın ad Günü Kostromada hər il keçirilir.

İnternetdə: www.books.google.com

## 6 Aprel – Beynəlxalq Cizgi Filmləri Günü, (2002)



Dünya Cizgi Filmi günü 2002-ci ildə Beynəlxalq Animasiya Filmləri Dərnəyi tərəfindən təsis edildi. 1906-cı ilin aprelin 6-da Con Stuart Blekton və Albert Smit Amerikanın kinoteatr birliyi ilə Vitage təsisçiləri ilk cizgi filmləri "Gülməli üzlərin gülməli mərhələləri" adlı film çəkmişdir. Bunlar animasiya tarixində ilk cizgi filmləri idi.

Dünya Cizgi Film Gününü qeyd etmək fikri yalnız 2002-ci ildə yaranmışdır və həmin gündən dünyanın bir çox ölkələrində qeyd olunur. Beynəlxalq Cizgi Filmləri Günü öncəsi dünyanın hər yerindən animasiya kinosu peşəkarları və həvəskarları öz filmlərinin proqramlarını bir-birləri ilə bölüşür və bu hadisəni bütün il gözləyən tamaşaçılar üçün əsərlərinin ilk nümayişini göstərirlər. Cizgi filmlərinin belə seansları artıq dünyanın 104 ölkəsində keçirilir.

İnternetdə: www.books.google.com

## 6 Aprel – İlk Olimpiya Oyunlarının Keçirildiyi Gün, (1896)

Qədim Yunanıstanda mövcud olmuş Olimpiya Oyunlarının bərpa olunması təşəbbüsünü XIX əsrin sonlarında fransız ictimai xadimi baron Pyer de Kuberten təklif etmişdir. Onun dövründə Yay Olimpiya Oyunları kimi tanınan bu beynəlxalq tədbir 1896-cı ildən etibarən hər 4 ildən bir keçirilir. (Bura dünya müharibələrinin baş verdiyi illər daxil deyil.) 1924-cü ildə Qış Olimpiya Oyunları təsis edildi. Əvvəllər yay və qış oyunları eyni ildə keçirilirdi, lakin 1994-cü ildə Qış Olimpiya Oyunlarının keçirilməsi yay oyunlarına nəzərən iki il irəli çəkildi. Olimpiya Oyunları dedikdə yalnız idman yarışlarını, idman həyatının insanlara bəxş etdiyi dəyərləri dar mənada yox, geniş, fəlsəfi anlayış kimi qəbul etmək lazımdır. Olimpiya Oyunlarının böyüklüyü idmançıların təkcə yarışlarda göstərdikləri idman nəticələri deyil, bu oyunlarda idmançı mənəviyyatı, onun kamil bir insan kimi formalaşması prosesinin reallaşdırılması, onun müqəddəs ideyalara xidmət etməsindən irəli gəlir. Olimpiya hərəkatı sülh və əmin-amanlıqla daim yanaşı durmuşdur. Qədim Yunanıstanda Olimpiya Oyunlarının yaranmasından söz gedərkən oyunların əsası, bir növ, dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslanırdı. Orada stadion, teatr və məbəd müqəddəs yer sayılmışdır. Burada iki şəhərdə – Olimpiya və Delfidə hər 4 ildən bir xoş məramlı oyunlar keçirilirdi. Bu şəhərlərdə keçirilən oyunlardan əlavə, şeir, mahnı, ədəbiyyat və incəsənət üzrə istedadlı şəxslər bilik, bacarıq və qabiliyyətlərini nümayiş etdirirdilər. Olimpiya oyunlarında fiziki bacarıq mənəviyyatla, incəsənətlə vəhdət təşkil edirdi. Olimpiya antik dövrdən başlayaraq uzun, enişli-yoxuşlu yol keçmiş, zəmanəmizə gəlib çatmış və bu yolda müxtəlif maneələrlə rastlaşsa da, öz əzəli mahiyyətini qoruyub saxlamışdır. Olimpiya Oyunları ümumbəşəri nüfuz sahibi olmaqla, dünya xalqlarının dərin məhəbbətini də qazanmışdır. Müasir Olimpiya oyunlarını bərpa edərkən baron Pyer de Kuberten olimpiya ideyalarını dərisinin rəngindən, sosial, siyasi, dini əqidəsindən və idmana dəxli olmayan digər amillərdən asılı olmayaraq, bütün qitələrin atletləri arasında vicdanlı idman mübarizəsinin simvolu kimi qəbul etmişdir.

İnternetdə: www.books.google.com

**7 Aprel – Ümumdünya Sağlamlıq Günü, (1950 )**

***Sağlam bədəndə sağlam ruh olar.***




1948-ci ildə I Ümumdünya Səhiyyə Assambleyası Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaranmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq Gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etmişdir. 1950-ci ildən başlayaraq Ümumdünya Sağlamlıq Günü hər il 7 aprel tarixində qeyd edilir.

Hər il Ümumdünya Sağlamlıq Gününün mövzusu ÜST üçün prioritet sayılan bir problemi diqqət mərkəzinə gətirir. Ümumdünya Sağlamlıq Günü diqqəti səhiyyə sahəsində beynəlxalq ictimaiyyətə təsir göstərən başlıca problemlərə yönəltmək üçün dünya səviyyəsində bir imkandır. Sağlamlıq ÜST-ün Nizamnaməsində yalnız xəstəliklərin, yaxud fiziki qüsurların olmamağı ilə deyil, tam fiziki, psixi və sosial sağlamlıq vəziyyəti kimi müəyyən edilir. ÜST özünün Ümumdünya Səhiyyə Assambleyası vasitəsi ilə 193 üzv dövlət tərəfindən idarə olunur.

Sağlam yaşlanmaq beynəlxalq ictimai səhiyyə proqramının gündəliyində prioritet məsələyə çevrilir. Bu həyatın ilkin mərhələlərindəki sağlamlıqla əlaqədardır və sağlam yaşlanma bir çox amillərdən asılıdır. Fərdin bioloji sisteminin funksional imkanları ömrün ilk illərində formalaşır, ilkin yetkinlik dövründə ən yüksək səviyyəyə çatır və bundan sonra təbii olaraq zəifləməyə başlayır. Yaşlanma harada yaşamasından, cavan və ya qoca, kişi və ya qadın, zəngin və ya kasıblığından asılı olmayaraq, hər bir insanı düşündürür. İqtisadiyyatın qloballaşdığı, texnologiyanın sürətlə inkişaf etdiyi, urbanizasiyanın artdığı, ailə modellərinin dəyişdiyi XXI əsrdə ən böyük sosial dəyişikliklərdən biri də əhalinin yaşlanması məsələsidir. Tezliklə dünyada həm yaşlı insanların ümumi sayı bütün həyatı boyu davranışları və məruz qaldığı təsirlərlə müəyyən edilir. Buraya onun qidalanması, fiziki aktivlik səviyyəsi və sağlamlıqla bağlı risklərə məruz qalması (məsələn, siqaret çəkmək, spirtli içkilərdən sui-istifadə və ya zəhərli maddələrin təsirinə məruz qalmaq) halları da daxildir.

İnternetdə: www.books.google.com

## 12 Aprel – Beynəlxalq Aviasiya və Kosmonavtika Günü, (1962)



12 aprel 1962-ci il Beynəlxalq Kosmonavtika günü elan olunub. Bu bayram əvvəllər ancaq Rusiyada keçirilirdi. Amma artıq belə deyil. Belə ki, BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında yekdilliklə qəbul edilən qətnaməyə əsasən 12 Aprel Beynəxalq Kosmosa Uçuş Günü (Space Probe Day) kimi bütün dünyada qeyd olunur.

1961-ci il aprelin 12-də SSRİ vətəndaşı Yuri Qaqarin "Vostok" kosmik gəmisində Yer kürəsinin ətrafında orbital uçuş həyata keçirərək, kosmik uçuş dövrünün əsasını qoydu. Cəmi 108 dəqiqə davam edən bu uçuş kosmosun tədqiqinin və mənimsənilməsinin başlanğıcı oldu. Başlanğıcda kosmosun tədqiq edilməsi, ABŞ və SSRİ arasında strateji yarış şəklini alsa da, sonralar bu əməkdaşlığa çevrildi. SSRİ dağıldıqdan sonra bunu Rusiya davam etdirir. Ancaq ABŞ kosmonavtlarının Aya uçmasını çıxmaqla, bütün digər ilk addımlar SSRİ tərəfindən atılıb. Bu günə qədər kosmosa təqribən 517 insan uçub, onlardan 55-i qadındır. Təəssüf ki, indiyədək 22 kosmonavt müxtəlif şəraitdə həyatını itirib. Vətəndaşları kosmosa uçuş keçirən ölkələr SSRİ, Rusiya, ABŞ, Çexoslovakiya, Polşa, Almaniya Demokratik Respublikası, Bolqarıstan, Macarıstan, Vyetnam, Kuba, Monqolustan, Rumıniya, Fransa, Almaniya Federativ Respublikası, Hindistan, Kanada, Səudiyyə Ərəbistanı, Niderland, Meksika, Suriya, Əfqanıstan, Yaponiya, Böyük Britaniya, Avstriya, Qazaxıstan, Belçika, İtaliya, İsveçrə, Ukrayna, İspaniya, Slovakiya, Cənubi Afrika Respublikası, İzrail, Çin, Braziliya, İsveç, Malayziya və Koreya Respublikasıdır.

İnternetdə: www.az.wikipedia.orq

**13 Aprel – Ümumdünya Rok-N-Roll Günü, (1954)**




Əslində bayramın qeyd olunmasına səbəb olan tarixi hadisə aprelin 12-də baş vermişdir. Belə ki, 1954-cü il aprelin 12-də Bill Xeyli adlı musiqiçi bu sahədə yeni istiqamətin başlanğıcını qoyan "Rock Around The Clock" sinqlini yazmışdır. Bu musiqi cəmiyyətə və ənənlərə meydan oxuyaraq ABŞ-ın sərhədlərini aşmış və bütün ölkələrə və qitələrə yayılmışdır. Musiqidə bu istiqamətin yaradıcılarından biri də əfsanəvi Elvis Presli olmuşdur. Onun geyim üslubu, hərəkətləri və davranışları onu yeniyetmə və gənclərin kumirinə çevirmişdir. 1960-cı illərin əvvəllərində rok-n-rollun yeni üslubu – pop-rok meydana gəlmişdir. Onun əsas nümyəndələri "Bitlz" qrpunun üzvləri, Liverpullu dördlük olmuşdur. Ötən illərin geniş yayılan rok musiqisi daha çox texniki, sürətli, güclü səslə müşayiət olunur.

İnternetdə: www.books.google.com

**15 Aprel – Ümumdünya Mədəniyyət Günü, (1935)**




Mədəniyyət dünyasının bütün sferalarının əhəmiyyətini bir daha qeyd etmək üçün xüsusi bayram – Beynəlxalq Mədəniyyət Günü (International Day of Culture) təsis edilmişdir. Hər il dünyanın bir çox ölkələrində 15 Aprel Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur. Bu bayram 1935-ci il aprelin 15-də beynəlxalq hüquq təcrübəsində Rerix Paktı kimi tanınan, "İncəsənət və elm müəssisələrinin və tarixi abidələrin qorunması haqqında" beynəlxalq müqavilənin qəbul olunmasının şərəfinə təsis edilmişdir.

Bu Paktın imzalandığı günün Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunması təşəbbüsü ilə 1998-ci ildə Rerix Beynəlxalq Mərkəzi tərəfindən təsis olunan Beynəlxalq Mədəniyyətin Qorunması Liqası çıxış etmişdir. Bu ictimai təşkilatın fəaliyyəti mədəniyyət, incəsənət, elm və dinin nailiyyətlərinin qorunması və artırılmasına yönəlmişdir. 2008-ci ildə Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilalarının təşəbbüsü ilə 15 aprelin Ümumdünya Mədəniyyət Günü kimi təsdiq edilməsi üçün Beynəlxalq hərəkat yaradılmışdır. Hal-hazırda bu bayram dünyanın müxtəlif ölkələrində qeyd olunur.

İnternetdə: www.books.google.com

## 17 Aprel – Ümumdünya Hemofiliya Günü, (1964)




Dünyanın 102 ölkəsində aprelin 17-si Ümumdünya Hemofiliya Günü kimi qeyd olunur. Təbabətdə bu xəstəliyə kral xəstəliyi deyirlər. Belə ki, Fransada kral Lüdoviklər nəslində əsasən oğlan uşaqları bu xəstəlikdən əziyyət çəkmişlər. Bu gün isə qan çatışmazlığı dünyada bir problem kimi yaşanan hemofiliya xəstəliyinin yaranmasına səbəb olmuşdur. İrsi qan xəstəliyi olan hemofiliya dünyanın bir çox ölkələrində əsasən Asiya və Afrika qitəsində, Aralıq dənizi hövzəsində daha çox yayılmışdır. Xəstəliyin əsas səbəbləri kimi mütəxəssislər yaxın qohumların nigahı, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsirini göstərirlər. İndi dünyada 400 min hemofiliyalı xəstə var. Azərbaycanda Səhiyyə Nazirliyinin qeydiyyatında minə qədər talassemiyalı və hemofiliyalı irsi qan xəstəsi var. Əhalinin hər 12 nəfərindən biri talassemiyanın əlamətlərini özündə daşıyır. Hər il talassemiya xəstəsi olan təqribən 200 uşaq dünyaya gəlir, bu, kiçik bir ölkə üçün böyük göstəricidir. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən “Hemofiliya və talassemiyalı irsi qan xəstəliyinə düçar olmuş şəxslərə dövlət qayğısı” haqqında fərman imzalanmışdır. Bununla əlaqədar 2006-cı ilin yanvarında Nazirlər Kabineti Səhiyyə Nazirliyinin hazırladığı “Hemofiliyalı və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı”nı təsdiq etmişdir. Məqsəd ictimaiyyətin diqqətini hemofiliyalı xəstələrin problemlərinə cəlb etmək və onların həyat tərzlərinin yaxşılaşdırılmasına və ömürlərinin uzadılmasına dəstək olmaqdır. Proqramda hemofiliya və talassemiyanın fəsadlarından əmələ gələn əlilliyin və ölüm hallarının azaldılması, bu fəsadların profilaktikasının təşkili və belə xəstə uşaqların doğulmasının qarşısının alınması sisteminin yaradılması əsas yer almışdır. Nəzərdə tutulan digər tədbirlər hemofiliya və talassemiyalı xəstələrə göstərilən tibbi xidmət strukturunun təkmilləşdirilməsi, bu xəstəliyə düçar olan şəxslərin qeydiyyatının aparılması, xəstələrin müalicəsi və profilaktikası üzrə tibb mütəxəssislərinin hazırlanması, onların ixtisaslarının artırılmasıdır. Dövlət proqramı çərçivəsində xəstələrin dərman preparatları ilə pulsuz təmin olunması nəzərdə tutulmuşdur. Heydər Əliyev Fondu, fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın talassemiyalı uşaqlara diqqət və qayğısı isə həmin insanlar üçün böyük mənəvi dəstəyə çevrilmişdir. Fond 2005-ci ildən “Talassemiyasız həyat naminə” layihəsi çərçivəsində bir sıra mühüm işlər görüb və görməkdədir. Fond tərəfindən talassemiyalı xəstələr üçün paytaxtda beş mərtəbəli Talassemiya Mərkəzi istifadəyə verilmişdir.

İnternetdə: www.books.google.com

## 18 Aprel – Tarixi Abidələrin Mühafizəsi Günü, (1983)



***Biz öz milli mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr etməliyik. Əgər hansısa dağ kəndində tarixi abidə varsa, ona sadəcə qədim tikili kimi yox, milli sərvət kimi yanaşmalıyıq.***

**Ümummilli lider Heydər Əliyev**

Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir. Tarixi abidələr – məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər. Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz – Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində “Avropanın ilk sakinləri” adlı sərgidə nümayiş etdirilmişdi. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış “Mədəni irsin qorunmasına yardım haqqında” sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki Xan sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla, İçərişəhər Dövlət Tarixi-Memarlıq Kompleksi YUNESKO-nun “Dünya mədəniyyəti irsi” siyahısına daxil edilmişdir.

İnternetdə: www.books.google.com

## 21 Aprel – Beynəlxalq Sirk Günü



Sirk (lat. Circus – "çevrə" deməkdir) – bir qrup artist və ya müəssisə tərəfindən akrobatika, kloun, sehrbazlıq, heyvan oyunları kimi müxtəlif səhnələrlə həyata keçirilən sənət növüdür. Sirk peşəsi heyvanlarla işləməklə bərabər müxtəlif akrobatika və gimnastika kimi sahələri də özündə cəmləşdirir. Buraya, həmçinin tamaşaçılar üçün maraqlı olan havada kəndir üzərində yerimək, velosiped sürmək, janqlyorluq etmək və yerdə idman növləri yerinə yetirilir. Kloun daha mürəkkəb sirk janrıdır. O, bir neçə ixtisasa yiyələnmiş olur və başqa "nömrələrdə" onun çıxışı böyük maraq doğurur. Klounun mənası gülməli çıxış deməkdir. Sirkin yaranmasının qədim tarixi vardır. Onun kökü antik Romadan başlayır. Keçən zaman ərəfəsində sirk sənəti də inkişaf etmiş və istər xarici görünüşündə (çevik karvan və teatrsəhnələri), istərsə də atraksiyonların aparılmasında (at teatrı, pantomima) müəyyən dəyişikliklərə məruz qalmışdır. Sirk sənəti adətən ailə sülaləsi şəklində mövcud olmuşdur. Klassik sirkin atası ingilis Filip Astli (1742–1814) sayılır. İllər keçdikcə sirkin inkişafına müxtəllif xalqların təsiri nəticəsində bu və ya digər sahədə öz üstünlüyünə malik milli sirklər yaranmağa başlamışdır. Avropada hələ də közəri halda fəaliyyət gösətərən sirklər mövcud olsa da bir çox Şərq ölkələrində sirk teatrları tikilmiş və burada mütəmadi olaraq öz proqramları ilə çıxış edirlər. Köçəri sirk ustaları avtomobil karvanlarında şəhər-şəhər gəzərək öz sənətləri ilə tamaşaçıları heyran edirlər. Azərbaycanda milli sirk sənətinin tarixi çox qədimdir. Hələ qədim zamanlardan "Kovkan", "Zorxana" kimi milli xalq oyunlarında, cıdır yarışlarında, kəndirbazların və pəhləvanların çıxışlarında bugünkü peşəkar sirkin güc jonqlyorluğu, kəndirbazlıq, akrobatika, cigitlər və digər janrlarının elementləri mövcud olmuşdur. İlk peşəkar sirk – heyvanxana isə Azərbaycanda XIX əsrin 90-cı illərində məşhur Nikitin qardaşları tərəfindən tikilmişdir. Taxtadan tikilmiş həmin sirk binası az sonra yanır. 1905-ci ildə yeni şəhərin başqa ərazisində sirk binası tikilərək istifadəyə verilmişdir. 1945-ci ildə ilk dəfə olaraq Azərbaycanın milli sirk truppası yaradılmışdır. Truppa yalnız sirk nömrələrindən ibarət olmayıb, tərkibinə estrada və balet artistlərinin çıxışları salınmışdı. 1967-ci ildə Bakı Dövlət Sirkinin memarı E.İsmayılov və F.Leontyev olan hazırkı binası istifadəyə verilmişdir. Həmin dövr üçün texniki imkanlarına görə çox müasir sayılan bina memarlıq baxımından bu gün də əksər dünya sirkləri ilə rəqabət aparmağa qadirdir.

İnternetdə: www.books.google.com

## 22 Aprel – Ümumdünya Yer Kürəsi Günü, (1970)

***Təbiət bir ahəngdir, ritmlə döyünən həssas bir ürəkdir.***



Ümumdünya Yer Kürəsi Gününün və ya "Ağac Günü"nün tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. ABŞ-da senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramda məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olunub. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırıb. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətə istiqamətlənib. Məhz XX əsrin 70-ci illərindən etibarən şirkətlər ətraf aləmin mühafizəsinə nə qədər vəsait ayırmaları barədə rəsmi məlumat verməyə başlayıblar.

Son illər Ümumdünya Yer Kürəsi Günü ilə bağlı müxtəlif layihələr və tədbirlər həyata keçirilir. 2003-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan rayonlarını əhatə edən Ağ göl Milli Parkı yaradılmışdır.

İnternetdə: www.books.google.com

**23 Aprel – Ümumdünya Kitab və Müəllif  Hüquqları Günü, (1995)**




1995-ci ilin bu günündə Parisdə YUNESKO-nun Baş konfransı keçirilib. Konfransda nümayəndələr həmin gün kitab və müəlliflərə ehtiram göstərilməsini qərara alaraq, hər kəsi, əsasən də gənc nəsli mütaliədən həzz almağa, eləcə də bəşəriyyətin ictimai və mədəni inkişafında böyük rolu olmuş insanların zəhmətinə hörmət bəsləməyə çağırıblar. Elə həmin konfransda Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü, həmçinin uşaq və yeniyetmə ədəbiyyatında dözümlülük ideallarının təbliğinə görə YUNESKO mükafatı təsis edilib. YUNESKO bu günü dünya şöhrətli dramaturqlar Uilyam Şekspirin, Migel de Servantesin və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanin şərəfinə  müəyyənləşdirib. Bu gün 1616-cı ildə M.Servantes, V.Şekspir və İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Bugünkü tarixdə həmçinin Moris Drüon, X.Laksness, C.Pla və Manuel Mexia Valyexo kimi məşhur müəlliflərin anadan olma və ya həyatdan getmə günləridir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü Azərbaycanda 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilir. Müəlliflik hüququnun kitabla bağlı olması, başqa sözlə, “Yaradıcıdan – Kitaba, Müəllifdən – Müəlliflik Hüququna” yolu heç də təsadüfi deyil. Məşhur Volterin kəlamı ilə desək, “onlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsusdur”.

Azərbaycan müasir müəllif-hüquq sisteminə malikdir. Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan tədbirlərin keçirilməsinin məqsədi kitab və müəlliflik hüququnun mədəni irsimizlə bağlı əhəmiyyətini bir daha açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, yaradıcı şəxslərə öz hörmət və ehtiramlarımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasının vacib olduğunu bir daha təsdiqləməkdir.

İnternetdə: www.books.google.com

**23 Aprel – Ümumdünya İngilis Dili Günü, (2010)**




Ümumdünya İngilis Dili Günü ilk dəfə 2010-cu ildə qeyd olunmuşdur. Belə təkliflə təşkilatın ictimaiyyətlə əlaqələr departamenti çıxış etmişdir. Bayramın məqsədi dünyada çoxdillilik ənənələrini möhkəmləndirməkdir. Birləşmiş Millətlər Təşkilatı təqvimdə altı gün – hər bir rəsmi dil üçün bir gün ayırmışdır. İngilis Dili Gününün qeyd edilməsi böyük ingilis şairi, yazıçısı, dünyanın ən məşhur dramaturqu Vilyam Şekspirin anadan olduğu günlə bağlıdır. Bu gün ingilis dili "dünya dili" hesab olunur, bu dildə dünyanın onlarla ölkəsində bir milyarddan çox insan danışır. Bu dil yalnız ingilislərin deyil, həm də ABŞ, İrlandiya, Kanada, Malta, Avstraliya, Yeni Zelandiya sakinlərinin dilidir. İngilis dili Asiya və Afrikanın bir neçə dövlətinin rəsmi dilidir.

İnternetdə: www.books.google.com

## 24 Aprel – Gənclərin Beynəlxalq Həmrəylik Günü, (1957)



Ümumdünya Demokratik Gənclər Federasiyasının qərarı ilə 1957-ci ildən hər il aprelin 24-də Beynəlxalq Gənclərin Həmrəylik Günü (International Day of Youth Solidarity) qeyd olunur. Bu günün qeyd olunması dövlət orqanlarının, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin diqqətini gənclərin problemlərinə yönəltməyə xidmət edir. Eyni zamanda bu bayrama gənclər birliklərinin, ictimai təşkilatların, geniş əhali kütlələrinin, öz uşaqlarının və nəvələrinin gələcəyinə laqeyd olmayan insanların səylərinin birləşdirilməsi, cəmiyyətin gənclərin hüquqlarına əməl edilməsinə nəzarət etməsinə, cəmiyyətin iqtisadi, sosial, elmi-texniki və mənəvi problemlərinin reallaşdırılmasında gənclərin mütəşəkkilliyinin və yaradıcı fəallığının yüksəldilməsinə, nəsillərin varisliyinə, qanunların və hüquq qaydalarının qorunmasına yardım edir.

1955-ci ildə gənclərin həmrəylik gününün hansı günə təyin olunması ilə bağlı Asiya və Afrika ölkələrinin Bandunq konfransında yekun iclas keçirilib. Beləliklə, Gənclərin Beynəlxalq Həmrəylik Günü ilk dəfə 1957-ci ildə müstəmləkəçilik əleyhinə mübarizədə, sülh şəraitində yanaşı yaşama uğrunda Gənclərin Beynəlxalq Həmrəylik Günü kimi qeyd olunub. Sözügedən tarixdə gənclər üçün konfranslar, konsertlər və bayram tədbirləri təşkil olunur. Lakin Sovet İttifaqı dağıldıqdan sonra beynəlxalq gün öz əsas sponsorunu itirdiyi üçün arabir qeyd edilir.

İnternetdə: www.books.google.com

## 28 Aprel – Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü, (1997)

1918-ci ildə Azərbaycan Xalq Cünhuriyyəti müstəqilliyini bərpa etdikdən sonra 1919-cu il martın 28-də Azərbaycanda ilk milli təhlükəsizlik orqanı yaradıldı. Lakin azadlıq çox çəkmədi və 1920-ci ildə sovet ordusu tərəfindən Azərbaycan yenidən işğal edildi.

Sovet İttifaqı süquta uğrayandan sonra 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yarandı. Prezident Heydər Əliyevin 1997-ci il 23 mart tarixli fərmanı ilə 28 mart – Milli təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan olunub.

İnternetdə: www.books.google.com

## 29 Aprel – Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü, (1962)





Bu gün 1962-ci ildə Beynəlxalq Qardaşlaşmış Şəhərlər Federasiyası tərəfindən təsis olunub və aprel ayının axırıncı  bazar günü qeyd olunur.

Ümumdünya Qardaşlaşmış Şəhərlər Federasiyası beynəlxalq qeyri-hökumət təşkilatı olub, 1957-ci il aprelin 29-də Parisdə yaradılmışdır. Bu təşkilatın əsası Eks-le-Bendə (Fransa) qardaşlaşmış şəhərlərin nümayəndələri tərəfindən  qoyulmuşdur. Onlar 1970-ci ildə Avropa, Asiya, Afrika və Amerikanın 50-dən çox ölkəsinin minə qədər şəhərini birləşdirdilər. Hitlərə qarşı koalisiyanın müttəfiq ölkələrinin şəhərləri arasında dostluq və əməkdaşlıq haqqında ilk saziş hələ 1942-ci ildə müharibə nəticəsində tamamilə dağılmış SSRİ-nin – Stalinqrad və İngiltərənin Koventri şəhərləri arasında imzalanmışdır. Beləliklə, hər il aprelin 29-da, aprel ayının sonuncu bazar günü dünyada, ənənəvi olaraq, Ümumdünya Qardaşlaşmış Şəhərlər Günü keçirilir.

İnternetdə: www.books.google.com

**29 Aprel – Beynəlxalq Rəqs Günü, (1982)**



29 aprel peşəkar və ya həvəskar rəqslə məşğul olan, rəqsi sevən hər kəsin bayramıdır. Beynəlxalq Rəqs Günü 1982-ci ildən bəri YUNESKO-nun qərarı ilə qeyd olunur. Bu tarix Fransız baletmeysteri Jan Jorj Noverin doğum gününə, yəni aprelin 29-na təsadüf edir. Jan Jorj Nover müasir baletin nəzəriyyəçisi hesab olunur. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da Beynəlxalq Rəqs Günü təsis olduğu tarixdən hər il qeyd olunur. Azərbaycanda rəqsin tarixi olduqca zəngin və qədimdir. İncəsənətin bir qolu olan rəqslərimiz ülvilik, gözəllik və birlik rəmzi sayılır. Hələ eramızdan 2-3 min il əvvəl Azərbaycan ərazisində rəqslər insanların həyatında müəyyən yer tutmuşdur. Bu baxımdan Qobustan qayaüstü təsvirləri arasında “Yallı” oynayan insanların təsviri xüsusilə maraq doğurur. Bu təsvirlər Azərbaycan xalqının qədim dövrdən rəqsə olan marağından xəbər verir. Bir-birindən maraqlı, məzmunlu xalq rəqslərimiz nəinki Vətəndə, dünyanın böyük konsert salonlarında da sevilir. Onların simasında Azərbaycan milli xoreoqrafiya sənəti inkişaf yolunu tapmışdır. İncəsənətin ayrılmaz hissəsi olan milli rəqslərimiz gözəlliyi, bədiiliyi və zərifliyi ilə seçilir. Folklor, qədim xalq oyunları, rəqs havaları milli incəsənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. “Tərəkəmə”, “Naz eləmə”, “Turacı”, “Uzundərə”, “Qoçəli”, “Heyvagülü”, “Vağzalı” xalq rəqslərinə tamaşa etmək kifayətdir ki, xalqımızın zəngin musiqiyə, köklü adət-ənənəyə bağlı olduğunu duyasan. Filmlərimizdə də rəqslərdən elementlərə rast gəlmək olar ki, bu da milli rəqs sənətinin inkişafı və təbliğində mühüm rol oynayır.

İnternetdə: [www.books.google.com](www.books.google.com)

## 30 Aprel – Beynəlxalq Caz Günü, (2011)




Birinci Beynəlxalq Caz Günü (International Jazz Day) ilk dəfə 2012-ci ildə keçirilib. Yeni bayramın təqvimə daxil edilməsi və onun 30 aprel tarixində qeyd olunmasını YUNESKO-nun Baş konfransı 2011-ci ilin noyabrında elan etmişdir. Bu bayramın əsas məqsədi kimi onun təsisçiləri “caz haqqında, sülh, birlik, insanlar arasında dialoq və əlaqələrin genişlənməsinə yardım edən qüvvə kimi beynəlxalq ictimaiyyətin məlumatlılıq dərəcəsinin artırılması”nı nəzərdə tutmuşdur. Dünyanın beş qitəsinin musiqiçiləri və caz həvəskarları artıq adət halını alan həmin günü əsl bayram əhvali-ruhiyyəsi ilə qeyd edirlər. Cazın vətəni kimi tanınan Yeni Orleanda isə demək olar ki, hər gün bütün caz həvəskarları müxtəlif musiqilər səsləndirir, insanlara xoş əhvali-ruhiyyə bəxş edirlər. Caz XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikada Afrika və Avropa mədəniyyətlərinin sintezi kimi meydana gəlsə də, musiqi aləmində irqi ayrı-seçkiliyin aradan qalxmasında böyük rol oynamışdır. Hal-hazırda bir çox ictimai təşkilatlar, təhsil müəssisələri və ayrı-ayrı şəxslər, o cümlədən dövlət orqanları cazın inkişafına yardım edirlər.

Azərbaycan cazı dünyada özünəməxsus yeri ilə seçilir. Bunu ölkəmizdə keçirilən Beynəlxalq Caz Festivallarına olan maraq bir daha sübut edir. Amerika cazı və muğam musiqisi üzərində qurulan Azərbaycan cazının bünövrəsi isə 30-cu illərin sonunda Niyazi və Tofiq Quliyevin yaratdığı "Dövlət Cazı" adı ilə tanınan Dövlət estrada Orkestri tərəfindən qoyulub. Azərbaycanda estrada və caz musiqisinin ikinci həyatı Rafiq Babayevin yaratdığı “Qaya” ansamblı ilə başlayır. Bu ansambl keçmiş SSRİ-də böyük şöhrət qazanıb. Vaqif Mustafazadə dövrü isə Azərbaycanda sözün əsl mənasında cazın intibah dövrü hesab edilə bilər. Belə ki, virtouz musiqiçi muğamla cazın sintezini yaradıb. Özündən sonra onun yolunu qızı Əzizə Mustafazədə davam etdirir. Böyük təməllər üzərində qurulan Azərbaycan cazı indi gənc ifaçıların timsalında inkişaf dövrünü yaşayır. Bir sıra tanınmış ifaçılarla yanaşı, Montreyö caz festivalının qalibi İsfar Sarabskinin adını çəkmək yetərlidir ki, Azərbaycanda caz ənənəsinin necə yaşadığının şahidi olasan.

Caz millətləri birləşdirən və insanlar və dövlətlər arasında sərhədləri aşan unikal musiqi sənətidir.

İnternetdə: www.az.wikipedia.orq

**Bu tarixi unutmayaq**

## 3-4 Aprel – Kəlbəcər rayonunun işğalı günü, (1993)



Kəlbəcər şəhəri 1993-cü il aprel ayının 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Rayon mərkəzi olan Kəlbəcər şəhəri respublikanın paytaxtı Bakıdan 458 km aralı, Tərtər çayı dərəsindədir.

Kəlbəcər rayonunun ərazisi 1936 kv.km, əhalisinin sayı işğala kimi 53.962 nəfər idi. Rayonun gözəl və zəngin təbiəti, yeraltı və yerüstü sərvətləri, münbit torpaqları vardır. 1998-ci ildən başlayan elan olunmamış müharibədə Kəlbəcər əhalisi qeyrətlə vuruşaraq təpədən dırnağacan silahlanmış və havadarlarına arxalanan erməniləri torpaqlarına yaxın qoymadılar. Lakin 1992-ci ilin aprelin 8-də Ağdaban kəndi ermənilərin amansız hücumlarına dözə bilməyib, işğal olundu. Düşmən Təkəqaya, Zağalar, Çıraq kəndlərinə də soxulub evləri və dinc əhalini diri-diri yandırdılar. Ən əhəmiyyətli Keçiliqaya yüksəkliyini ələ keçirdilər. Aprelin 2-də Kəlbəcər artıq erməni quldurlarının əlinə keçdi. İşğal nəticəsində Kəlbəcərdə 511 nəfər şəhid oldu, 231 nəfər itkin düşdü, yüzlərlə insan şikəst oldu.

İşğaldan sonra Kəlbəcər şəhərindəki məscid Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb, 900 kv.metr sahəsi və geniş kitabxanası olan, eksponatlarla zəngin Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin bütün maddi və mənəvi sərvəti ermənilər tərəfindən talan edilərək Ermənistana daşınıb.

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 3205 saylı iclasda 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin indiyədək həmin qətnamədən irəli gələn tələblər yerinə yetirilməyib.

İnternetdə: www.books.google.com

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

**17 Aprel – Azərbaycanda ilk qadın Tibb elmləri doktoru və professoru Adilə Şahtaxtinskayanın 125 illiyi, (17.04.1894-30.03.1951)**



Adilə Şahtaxtinskaya 1894-cü il aprelin 17-də Tiflis şəhərində publisist və kollec müşaviri İsa Sultan Şahtaxtinskinin ailəsində anadan olub. Şahtaxtinskaya 1930-cu ildə tibb elmləri doktoru dərəcəsini, 1936-cı ildə isə professor elmi adını qazandı, bununla da tibb elmləri doktoru və professor adını alan ilk azərbaycanlı qadın oldu. 1933-cü ildən Şahtaxtinskaya Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırda Azərbaycan Tibb Universiteti) mamalıq və ginekologiya kafedrasına başçılıq edirdi. Adilə Şahtaxtinskaya Azərbaycanda ilk qadın kafedra müdirlərindən biri olub. Tədqiqatları, əsasən, qadın gigiyenasına, kəsilib götürülmüş uşaqlığın yumurtalıqlara təsirinə, eklampsiyaya həsr olunmuşdur.

Adilə Şahtaxtinskaya 30 mart 1951-ci ildə Tiflisdə vəfat etmişdir. Tiflisin köhnə müsəlman qəbiristanlığında dəfn edilib (indiki botanika bağının ərazisində yerləşən Görkəmli Azərbaycanlılar panteonunda). Onun adı panteonun ərazisində qoyulmuş abidəsində həkk olunub.

İnternetdə: Şahtaxtinskaya Adilə İsasultan qızı // shahtaxti.com.

## Yubilyar yazıçı və şairlər

## 1 Aprel – Ədəbiyyatşünas, professor Xudiyev Nizami Manaf oğlunun 70 illiyi, (01.04.1949)



Nizami Manaf oğlu Xudiyev 1949-cu il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Əməkdar elm xadimi, "Qızıl qələm" mükafatı laureatıdır. 60-dan çox kitabın, 300-dən çox məqalənin müəllifidir. Rus və alman dillərini bilir. Nizami Xudiyev Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının, Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. 1970-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor, həmkarlar ittifaqı komitəsinin sədri, birinci prorektor işləmişdir. 1994-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru olmuşdur. 1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, 2005–2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifələrində çalışmışdır. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür. Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2005-ci il noyabrın 6-da 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür.

Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür. Evlidir, 3 övladı var.

**Əsərləri:** “Azərbaycan ədəbi dilinin sovet dövrü ali məktəblər üçün dərs vəsaiti” (1989), “Azərbaycan ədəbi dili tarixi: ali məktəblər üçün dərslik” (1995), “Azərbaycan ədəbi dili tarixi” (1997), “Xalqın tarixi haqqı: dilimiz, varlığımız” (2003), “Zamanın axarı ilə: Məqalələr, rəylər, müsahibələr, xatirələr, çıxışlar, ssenarilər” (2004), “Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı” (2005).

**Filmoqrafiya:** “Fenomen” (film, 1996), “Heydər Əliyev və Azərbaycan dili” (film, 1997), “Tikdim ki, izim qala” (film, 1997), “Sənsiz” (film, 1998), “Aşıq Veysəl” (film, 2001), “Salur Qazanın evi talandığı boy” (film, 2001), “Məmməd Araz” (film, 2001), “Sabaha inamla” (film, 2001), “Əsrin şahidi” (film, 2002), “Türk dünyası qitədən qitəyə” (film, 2002), “Həsən bəy Zərdabi” (film, 2003), “Xilaskar. I film” (film, 2003), “Xilaskar. II film” (film, 2003), “Məmmədhüseyn Təhmasib” (film, 2003), “Naxçıvanskilər” (film, 2004), “Əbədiyyət elçisi” (film, 2005) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Nizami_Xudiyev

## 1 Aprel – Şair, dramaturq Zeynal Xəlilin 105 illiyi, (1914-1979)



Xəlilov Zeynal Rza oğlu 1914-cü il aprelin 1-də Yelizavetpol quberniyasının Gəncə şəhərində sənətkar ailəsində doğulmuşdur. Yeddiillik şəhər məktəbini bitirib pedaqoji fəhlə fakültəsində təhsil almışdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1932-1936). “Yeni kənd” adlı ilk mətbu şeiri tələbəlik illərində “Hücum”(1932-ci il) jurnalında dərc olunmuşdur. On yeddi yaşında ikən poeziya aləminə gələn Zeynal Xəlil, az bir müddət ərzində özünü tanıtmağa, XX əsrin 30-cu illərində sürətlə irəli çıxan S.Vurğun, M.Müşfiq, R.Rza, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli kimi qüdrətli söz ustaları arasında görünməyə başlayırdı. "İstək" adlı ilk şeirlər kitabı 1936-ci ildə nəşr olunmuşdur. Böyük Vətən müharibəsi illərində döyüşçülərin qəhrəmanlığını tərənnüm edən əsərlər: "Yəhərləyin atları", "416", "Döyüşçünün vəsiyyəti" və s. şeirlər; Zoya Kosmodemyanskayaya həsr olunmuş "Tatyana" poeması, (1942) yazmışdır. "Düşüncələr" (1943), "Etibar" (1947), "Arzular" (1949), "İki dünya" (1952), "Bənövşə" (1956), "Şeirlər" (1963), "Sevdiyim rəng" (1970), "Günəş, dəniz və insan" (1973) və s. şeir kitablarının, "Ulduzlar" (1961) mənzum romanın müəllifidir. "İntiqam" (1941), "Qatır Məmməd" (1945), "Gənc ustalar" (1954), "Ata yolu" (1966) pyesləri var. "Qatır Məmməd"in motivləri əsasında eyniadlı film çəkilmişdir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. P. Antokolski, R. Həmzətov, D.Quramişvili, Ş.Petöfi, Qafur Qulam və b.-dan tərcümələr etmişdir. "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur. Z.Xəlilin ədəbi-bədii yaradıcılığı Azərbaycan milli poeziyasının qırx illik (30-70) inkişaf mərhələlərini öyrənmək, tədqiq etmək baxımından nümunəvi poetik mənbələrdən sayılır. XX əsr Azərbaycan şeirində süjetli lirikanın gözəl nümunələrini yaradanlardan biri də Z.Xəlil olmuşdur. Hadisə, əhvalat və vəziyyətlərin təbii, maraqlı obrazlarla verilməsi, fikrin, mətləbin bədii lövhələrlə çatdırılması Z.Xəlil şeirinə həzn bir romantika, təbii obrazlılıq, estetik, müasir ruh gətirmişdir.

**Əsərləri:** “İstək” (1936), “Qılınc” (1940), “Qatır Məmməd” (1941), “Tatyana” (1942), “Arzular” (1949), “İki dünya” (1952), “Gənc ustalar” (1954), “Lalə” (1955), “Bənövşə” (1956), “Sevdiyim rəng” (1970), “Günəş, dəniz və insan” (1973), “Dünya, ey gözəl dünya” (1975), “Əsrim, taleyim mənim” (1978) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.953.

**6 Aprel – Yazıçı, kinodramaturq Tofiq İsmayılovun 80 illiyi, (1939-2016)**



Tofiq İsmayılov 6 aprel 1939-cu ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 190 saylı Bakı şəhər orta məktəbini bitirmişdir (1958). M.A.Əliyev adına Teatr İnstitutunun Aktyorluq fakültəsində (1958-1962), sonra rejissorluq fakültəsində (1962-1968) təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə orta məktəbdə oxuyarkən Gənc Tamaşaçılar Teatrında aktyorluqdan başlamışdır (1954). Azərbaycan Respublikası Nazirlər Soveti Yanında Radio və Televiziya Verilişləri Komitəsində rejissor köməkçisi (1960-1961), rejissor (1962-1967), "Azərbaycanfilm" studiyasında rejissor köməkçisi, orada bədii təlimlər rejissoru (1967-1968) vəzifələrində çalışmışdır. Moskvada kinorejissor və kinossenaristlərin ikiillik ali kurslarında təhsil almışdır (1968-1970). Sonra "Azərbaycanfilm" studiyasında bədii filmlərin quruluşçu rejissoru vəzifəsində işləmişdir (1969-1988). Tofiq İsmayılov bir müddət "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasının bədii rəhbəri olmuşdur. 1971-ci ildən M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq kafedrasında müəllim kimi çalışmışdır, kafedranın müdiri olmuşdur (1988-1994). 1994-2006-cı illərdə dəvətlə Türkiyənin Memar Sinan adına Gözəl Sənətlər Universitetində professor işləmişdir. İstanbulun Böyük Şəhər Bələdiyyəsində mədəniyyət işləri üzrə müşavir olmuşdur. "Müasir Azərbaycan kinosunda tipik xarakter" mövzusunda namizədlik dissertasiyası üzərində işləmişdir. Son illər "Sənətkarlığımızın portreti" silsilə bədii-sənədli filmləri Tofiq Quliyev, Əminə Dilbazi, Gülxar Həsənova, Xəyyam Mirzəzadə haqqında çəkilmişdir (1992-2011). Uşaqlar üçün pyeslər, hekayələr dərc etdirmişdir. Əsərləri xarici ölkə xalqlarının dilində nəşr olunmuşdur. 100-ə yaxın elmi-publisistik məqaləsi var. İlk hekayəsi – "Ağ dəsmal" 1962-ci ildə "Göyərçin" jurnalında çap edilmişdir. Tofiq İsmayılov uzun sürən xəstəlikdən sonra 25 mart 2016-cı ildə Bakı şəhərində vəfat etmişdir. Məzarı yasamal qəbiristanlığındadır.

**Əsərləri:** "Qonşular" (1978), "Şəkil teatrı" (1978), "Sevinc yuxusu" (1979), "Şəkil kino" (1983), "Diş ağrısı" (1986 ), "Türk dünyası kino sənəti" (2009), "Kinoya gedən pişik" (hekayə və pyeslər), (2011).

**Filmoqrafiya:** "Şəhərimizin daşları" (1968), "İntizar" (1970), "Gilas ağacı" (1972), "Azərbaycanın palçıq vulkanları" (1979), "Çovqan oyunu" (1979), "Mən mahnı qoşuram" (1979), "Ölsəm... bağışla" (1989), "Otel otağı" (1998), "Maestro" (2011) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Tofiq _İsmayılov_(rejissor)

**7 Aprel – Yazıçı, publisist Çingiz Abdullayevin 60 illiyi, (07.04.1959)**



Çingiz Abdullayev 1959-cu il aprelin 7-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Ç.Abdullayev Bakıda 189 saylı şəhər məktəbini bitirmişdir (1976). Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsilini davam etdirmişdir (1976-1981). Əmək fəaliyyətinə Bakı istehsalat birliyində hüquq məsləhətçisi, böyük hüquq məsləhətçisi və şöbə rəisi kimi başlamışdır (1981). Sonra Bakı şəhəri Əzizbəyov rayonu icraiyyə komitəsində şöbə müdiri, KP Qaradağ rayonu komitəsində təşkilat şöbəsinin təlimatçısı, siyasi-maarif kabinetinin müdiri vəzifələrində çalışmışdır. 1989-cu ilin fevralından Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdur. Beynəlxalq təcavüz problemi barədə dissertasiya müdafiə edib hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır (1988). Polşanın Krakov Universitetinin fəxri professorudur (1989). H.Z.Tağıyev adına Xeyriyyə Cəmiyyətinin sədri (1990-cı ildən) və Azərbaycan Yazıçılar Birliyinin katibi (1991-ci ildən) seçilmişdir. Azərbaycan Demokratik Ziyalılar İttifaqı nəzdində olan milli akademiyanın doktorudur (1990). Beynəlxalq cinayət problemi barədə doktorluq dissertasiyası müdafiə etmişdir (1991). Azərbaycan PEN klubunun vitse-prezidentidir (1990). Ədəbi fəaliyyətə tələbəlik dövründən başlamışdır. 1983-cü ildən dövri mətbuatda oçerk, məqalə və detektiv janrda yazdığı hekayələrlə müntəzəm çıxış edir. Rus dilində yazıb-yaradır. İngilis və italyan dillərində sərbəst danışır. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Almaniyada, İrlandiyada, Fransada, Rusiyada kütləvi tirajla buraxılmış, 27 milyon nüsxədə olan 600-dən çox kitabı dünyada yayılmışdır. 194 adda kitabın müəllifidir. Bütün bu kitablar onu siyasi detektiv janrında yazan ən məhsuldar müasir yazıçılardan biri kimi tanıtdırmışdır. Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur. Çingiz Abdullayev 2009-cu il aprel ayının 7-də Azərbaycanın ədəbi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif edilib. 2014-cü ilin noyabr ayından İnterpolun fəxri səfiridir. 30 mart 2015-ci ildən "Neftçi" Futbol Klubunun Müşahidə Şurasının sədridir.

**Əsərləri:** "Mavi mələklər" (1993), "Əclafların qanunu" (1997), "Qanın üç rəngi" (2002), "Unudulmuş Röya" (2006), "Məhəbbət və nifrətin zirvəsi" (2009), "Sonuncu divarın daşları" (2010), "Meymun ili" (2011), "Onun qəlbinin üçdə bir hissəsi" (2010), "İnsan ovu" (2011), "Mənim gözəl alibim" (2012), "Sutenjorun qəlbi" (2012) və s.

**Filmoqrafiya:** "Dronqo" (serial, 2002)(bədii serial)(Rusiya), "Məhkumlar" (film, 2007)(tammetrajlı bədii film), "Tərsinə çevrilən dünya" (film, 2011)(tammetrajlı bədii film), "Xeyirlə şərin rəqsi" (film, 2016)(tammetrajlı bədii film) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Çingiz_Abdullayev

**7 (2) Aprel – Dramaturq, yazıçı Nəcəf bəy Vəzirovun 165 illiyi, (1854-1926)**



Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü ilin aprelində Şuşa şəhərində doğulub. Nəcəf bəy 1868-ci ildə yarımçıq təhsilini davam etdirmək məqsədilə Bakıya gəlib. Burada realnı gimnaziyaya daxil olub. 1874-cü ilin iyun ayında gimnaziyanı gümüş medalla bitirib Peterburq Universitetinə qəbul edilib. Yaradıcılığında nəsr və publisistika ilə məşğul olsa da, ilk növbədə dramaturq kimi ədəbiyyatımızın klassikləri sırasına daxildir. Tələbə vaxtı "Ev tərbiyəsinin bir şəkli" (1875), "Gəmi lövbərsiz olmaz" (1876) komediyalarını yazıb. Meşəbəyi işləyə-işləyə "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonraki peşmançılıq fayda verməz" (1890), "Adı var, özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qəmbər" 1895) komediyalarını, "Müsibəti-Fəxrəddin" (1896) faciəsini və "Pəhlivanani-zəmanə" dramını tamamlayıb. "Müsibəti-Fəxrəddin" ilk Azərbaycan faciəsidir. "Pəhlivanani-zəmanə" isə milli burjuaziyanın həyatından, Bakı neftindən bəhs edən, tacir-burjua obrazı təsvir olunan birinci dram əsəridir. Yaradıcılığının iknci dövrünə "Ağa Kərim xan Ərdəbili" məzhəkəsi ilə 1902-ci ildə başlayıb. Bu məzhəkə əslində fransız dramaturqu Jan Batist Molyerin məşhur "Xəsis" komediyasından iqtibas edilib. Lakin Nəcəf bəy əsərə güclü milli ruh verə, koloritli və tipik bədii obrazlar yarada bilib. Dramaturqun yaradıcılığının ikinci dövrü kimi səciyyələnən mərhələdə Nəcəf bəy Vəzirov "Vay şələküm-məələküm" (1909), "Nə əkərsən, onu biçərsən" (1911), "Keçmişdə qaçaqlar" (1912) səhnə əsərlərini yazıb. Fransız ədəbiyyatından götürülmüş "Vəkil Patelen" vodevilini "Dələduz" adı ilə, məzhəkə janrında iqtibas və təbdil edib. Həmçinin müxtəlif teatr truppalarında coşqunluqla rejissorluq fəaliyyəti göstərib. Bəzən həvəskar aktyor kimi kiçik həcmli rollar da oynayıb. Dramaturq ömrünün ağsaqqal çağında və yaradıcılığının müdriklik mərhələsində "Pul düşkünü Hacı Fərəc" (1912), "Keçmişdə qaçaqlar" (1912), "Təzə əsrin ibtidası" (1920) pyeslərini işləyib. Nəcəf bəy Vəzirov 1926-cı il iyun ayının 9-da Şamaxının Çuxuryurd kəndində ürək xəstəliyindən vəfat edib. Cənazəsi Bakıya gətirilərək burada, hazırda Fəxri xiyaban adlanan qəbiristanlıqda dəfn olunub.

**Əsərləri:** "Daldan atılan daş topuğa dəyər" (1890), "Adı var, özü yox" (1891), "Güzəşt", "Dad yarımçıq əlindən" (1892-1894), "Müsibəti – Fəxrəddin", "Pəhlivanani-zəmanə" (1898-1900), "Yağışdan çıxdıq yağmura düşdük" (1896) komediyası, 1920 – ci ildən sonra "Təzə əsrin ibtidası" , "Pul düşkünü Hacı Fərəc", "Mehdixan Tabasarani" pyeslərini yazmışdır.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.660.

**8 Aprel – Tənqidçi, ədəbiyyatşünas Orucəli Həsənovun 105 illiyi, (1914-1991)**



Həsənov Orucəli Yusif oğlu 1914-cü il aprelin 8-də Bakıda fəhlə ailəsində anadan olmuşdur. Orucəli Həsənov orta və ali təhsil almış, mətbuatda, əsasən, 1934-cü ildən fəaliyyət göstərmişdir. Bədii ədəbiyyata güclü həvəsi olduğuna görə işlədiyi fabrikin kitabxanasının nəzdindəki dərnəyin fəal üzvü olmuş, ilk şeirlərini fabrikin "Gənc işçi" adlı çoxtirajlı qəzetində dərc etdirmişdir. M.Müşfiqin "Cəbi dayı" poemasının təhlilinə həsr etdiyi ilk məqaləsi 1934-cü ildə "Ədəbiyyat"qəzetində çıxmışdır. Həmin vaxtdan dövri mətbuatda tənqidçi və ədəbiyyatşün kimi fəal çıxış etmişdir. "Ədəbiyyat qəzeti", "Maarif işçisi", "İnqilab və mədəniyyət", "Vətən uğrunda" qəzet və jurnallarında, Azərbaycan Dövlət Nəşriyyatında, respublika Nizami muzeyində müxtəlif vəzifələrdə çalışmışdır. Ərəb, fars, osmanlı türkcəsi, rus dilləri və ədəbiyyatlarını dərindən bilmişdir. Çoxlu sayda əsərlərin müəllifidir.
Orucəli Həsənov 1991-ci il martın 6-da Bakıda vəfat etmişdir.
**Əsərləri:** "Ədəbi qeydlər" (1954), "Səməd Vurğun" (1956), "Yaradıcılıq üfüqləri" (1965), "Ədəbiyyat və zaman" (1971), "Həyati axtarışlar" (1979), "Tarixilik və müasirlik" (1985) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.699.

**11 Aprel – Yazıçı Qılman İlkinin 105 illiyi, (1914-2009)**



Musayev Qılman İsabala oğlu (Qılman İlkin) Bakının Mərdəkan kəndində, 1914-cü ilin aprelin 11-də anadan olmuşdur. 1932-ci ildə daxil olduğu indiki Pedaqoji Universitetin dil-ədəbiyyat fakültəsini 1936-cı ildə bitirib, indiki Bakı Dövlət Universitetində baş müəllim işləyib, "Azərbaycan" jurnalının baş redaktoru (1963-1966), "Uşaqgəncnəşr", "Azərbaycan" jurnalında baş redaktor, "Azərnəşr" nəşriyyatlarının direktoru (1966-1971) olub. Ədəbi yaradıcılığa 1943-cü ildə "Yaralı şahin" adlı hekayəsi ilə başlamışdır. N.Vəzirovun uşaqlıq illərinə həsr etdiyi "Həyat yollarında" adlı povesti 1947-ci ildə çapdan çıxmışdır. Son illər "Sən Bakını tanıyırsanmı?", "Bakı və bakılılar", "Tovuz lələyi" kitabları kütləvi tirajla nəşr olunmuş, rəğbətlə qarşılanmışdır (1994-2000). Onun "Qalada üsyan" romanı əsasında "Azərbaycanfilmdə" "Yenilməz batalyon" filmi çəkilmişdir. "Kölgələr sürünür" filminin ssenarisi də onun zəhmətinin bəhrəsidir. @Cərrahlar", "Tayqa nağılı", "Əsgər müharibədən qayıdırdı", "Geriyə yol yoxdur", "Baba və nəvə" televiziya pyesləri uzun müddət mavi ekranda göstərilmişdir. "Təzə şagird" pyesi tamaşaya qoyulmuşdur. Əsərləri SSRİ və xarici ölkə xalqlarının (türk, fransız, İngilis) dillərinə çap edilmişdir. Xidmətlərinə görə "Qırmızı əmək bayrağı" ordeni, iki dəfə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və medallarla təltif olunmuşdur. Qafqaz xalqları Ali Dini Şurasının "Paklıq" mükafatına layiq görülmüşdür. Yazıçı 27.01.2003- cü ildə isə Xalq yazıçısı adını almışdır. Qılman İlkin 6 noyabr 2009-cu ildə Bakı şəhərində vəfat edib və 2-ci Fəxri xiyabanda dəfn olunub.

**Əsərləri:** "Həyat yollarında" (1947), "Hekayələr" (1951), "Yazılı daş" (1956), "Qalada üsyan" (1963), "Şah və qarışqa" (1965), "Şimal küləyi" (1965), "Tapşırıq" (1965), "Hədiyyə" (1969), "Sərvinazım mənim" (1971), "Ömrün oğlan çağları" (1974), "Dağlı məhəlləsi" (1978), "Tayqa nağılı" (1983), "Dəniz Qapısı" (1984), "Körpə siyənək" (1986), "Hərənin öz aləmi, öz taleyi" (1987), "Madam Qədri" (1988), "Seçilmiş əsərləri" (1988-1989).

**Filmoqrafiya:** "Kölgələr sürünür" (film, 1958), "Yenilməz batalyon" (film, 1965), "General" (film, 1970) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.500.

## 13 Aprel – Şair Tofiq Mütəllibovun 90 illiyi, (1929-1992)



Tofiq Mütəllim oğlu Mütəllibov 1929-cu il aprel ayının 13-də Naxçıvan şəhərində anadan olmuşdur. 1958-1963-cü illərdə Azərbaycan Dövlət Universitetində (indiki BDU) təhsil almışdır. Onun 1946-cı ildə "Zəfər" adlı ilk şeiri "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. O, "Pioner" jurnalında məsul katib, Televiziya və Radio Verilişləri Komitəsində redaktor, böyük redaktor, "Azərbaycan pioneri" qəzetində şöbə müdiri vəzifələrində çalışmışdır. Sonra isə "Azərbaycan gəncləri" qəzetində işə başlayan Tofiq Mütəllibov ömrünün sonuna kimi burada işləmişdir. XX əsrin 50-ci illərindən şair kimi diqqət çəkən T.Mütəllibov 30-a yaxın kitabın müəllifidir. "Görüş", "Şeirlər", "Bəxtiyar balalar", "Gözəllikdən doymur ürək", "Sənin xətrinə", "Danışan çiçəklər", "Mənim əzizlərim", "Görüş yerimiz" və başqa kitabları ilə oxucu rəğbəti qazanan Tofiq Mütəllibovun pərəstişkarlarına son töhfəsi ölümündən bir qədər əvvəl çap edilən "Sevənlərin ürəyi" adlanır. Tofiq Mütəllibov bəstəkar Qənbər Hüseynli ilə birlikdə Azərbaycan musiqisinə "Cücələrim" mahnısını bəxş etmişdir. "Cücələrim"in 60-dan çox yaşı var. Mahnının mətni bir çox xalqların dillərinə tərcümə olunaraq ifa edilmişdir. Tofiq Mütəllibov uşaqların psixologiyasını çox yaxşı bildiyinə görə qələmindən çıxan şeirlər dillər əzbərinə çevrilmişdir. Əsərləri bir sıra teatrlarda səhnələşdirilmişdir. 1981-ci ildə Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında "Meşə nağılı" (1982), "Danışan qayalar" pyesləri, 1984-cü ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında isə "Cücələrim" alleqorik pyesi tamaşaya qoyulmuşdur. 1968-1990-cı illərdə SSRİ Yazıçılar İttifaqının Uşaq və Gənclər ədəbiyyatı şurasının üzvü olmuşdur. 1970-ci ildə SSRİ-Çexoslovakiya Dostluğu Cəmiyyəti Azərbaycan şöbəsi İdarə Heyətinin üzvü seçilmişdir. 1955-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqı Təftiş Komissiyasının üzvü seçilmişdir. 1988-ci ildə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü seçilmişdir. 1989-cu ildə Azərbaycan SSR-nin Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, bir neçə dəfə Azərbaycan SSR-nin Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Görkəmli şair Tofiq Mütəllibov 1992-ci il oktyabr ayının 30-da vəfat etmişdir.

**Əsərləri:** "Bəxtəvər uşaqlar" (1953), "İşıq" (1955), "Bağçada yolka" (1957), "Görüş" (1960), "Mehriban baxışlar" (1965), "Kəkliklər oxuyanda" (1965), "Ləpələrin nəğməsi" (1968), "Gözəllikdən doymur ürək" (1973), "Danışan çiçəklər" (1975), "Mənim əzizlərim" (1979), "Vüqarın nəğmələri" (1987), "Qövsi-qüzeh" (1990), "Durnalar qanadında" (1992) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki

**17 Aprel – Ədəbiyyatşünas, tənqidçi Əhməd Cəfəroğlunun 120 illiyi, (17.04.1899-1975)**



Əhməd Cəfəroğlu 1899-cu ildə Gəncədə anadan olub. Üç yaşında atasını itirib. 1905-ci ildə erməni-müsəlman davası qalxanda ailəsi Səmərqəndə köçüb. Əhməd ilk təhsilini orada alıb, sonradan Gəncəyə qayıdıblar. 1909-1916-cı illərdə Gəncə gimnaziyasında təhsil almışdır. Sonra Kiyev Ali Ticarət İnstitutunun iqtisad fakültəsinə daxil olub, üç semestr oxuya bilmişdir. Həmin dövr situasiya ilə bağlı 1918-ci ilin ortalarında yenidən Gəncəyə qayıtmışdır. Ə. Cəfəroğlu Gəncədə istiqlal mübarizəsinə qoşulmuşdu. Nuru Paşanın Qafqaz İslam Ordusuna üzv olub. 1918-ci il sentyabrın 15-də Bakını Azərbaycanın paytaxtı elan edənlərin arasında kiçik topçu zabiti kimi iştirak edib. Əhməd yenicə açılan Bakı Universitetinin (1919) tarix-filologiya fakültəsinin Şərq bölməsinə daxil olub. Bu universitet də yarımçıq qalıb, o Gürcüstana, oradan da Türkiyəyə keçmişdir. İstanbul Universitetinin dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1923-1969-cu illər arasında Əhməd bəyin müxtəlif ölkələrdə və dillərdə 350 əsəri çıxıb. Cəfəroğlu Avropanın aparıcı universitetlərində türk dilinə və türkologiyaya dair mühazirələr oxuyub. Əhməd Cəfəroğlunun "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" kitabı Türk Dil Qurumunun həqiqi üzvü idi. 30-cu illərdə bu qurumun Mustafa Kamal Atatürkün iştirakı ilə keçirilən toplantılarına da qatılıb. 1955-ci ildə o İspaniyanın "De Alfonso el Sabio" ordeninə layiq görülüb. Əhməd Cəfəroğlu bir sıra türk dillərindən başqa, rus, fars, alman, fransız dillərini yaxşı bilirmiş. "Azərbaycan Yurd bilgisi" dərgisinin (1932) yaradıcısı və baş redaktoru idi. "Türk amacı" dərgisinin (1942-1943), "Türk dili və ədəbiyyatı məcmuəsinin" redaktoru olub. Əhməd bəy uzun illər Azərbaycan siyasi mühacirətinin fəallarından olub. Cəfəroğlu bu qədər işin içində imkan tapıb Azərbaycan ədəbiyyatı tarixini, folklorunu da araşdırıb. "Azərbaycan xalq ədəbiyyatında Aşıq Qərib dastanı", "XVII əsr Azəri şairi Məlik bəy Avçı", "Böyük Azəri türkçüsü Mirzə Fətəli" və s. Onun Türk dili tarixi və türk dialektologiyasına dair araşdırmaları təkrar-təkrar çap edilərək, indiyədək dərslik kimi istifadə olunur. Əhməd bəy 76 yaşını tamamlaya bilməyib, 1975-ci il yanvarın 6-da Vətəni görmədən dünyadan köçdü.

**Əsərləri:** “XIX əsr azəri şairi Siraci” (1932), “XVII əsr azəri şairi Məlikbəy Avçı” (1933), “Azərbaycan” (1940), “Mirzə Şəfi haqqında qeydlər” (1928), “Azəri ədəbiyyatına istiqlal mücadiləsi”, “Böyük Azəri alimi Mirzə Kazımbəy”, “Dilimizin dünəni, bu günü və sabahı” (1934), “İlk türk dilçisi Kaşqarlı Mahmud” (1938), “Azərbaycan dil ədəbiyyatından dönüş nöqtələri” (1953), “Müasir Azərbaycan ədəbiyyatına bir baxış” (1954) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki_Əhməd_Cəfəroğlu

**22 Aprel – Şair Hüseyn Hatəminin 65 illiyi, (22.04.1954)**



Hatəmi Hüseyn Babaxan oğlu 1954-cü il aprelin 22-də Gəncə şəhərində fəhlə ailəsində anadan olmuşdur. Burada G.D.Uşinski adına 23 saylı şəhər orta məktəbini bitirmişdir (1960-1971). Gəncə şəhərindəki 3 saylı istixana kombinatında çilingər işləmişdir (1971-1972). H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstititunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1972-1976). Gəncədə 34 saylı şəhər orta məktəbində və sonra AKTİ-də müəllim olmuşdur (1982-1986). Eyni zamanda Gəncə alüminium zavodunun "Metallurq" mehmanxanasında müdir işləmişdir (1978-1980). Ədəbi fəaliyyətə 1966-cı ildən başlamışdır. İlk şeiri 1969-cu ildə çap olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Şeirləri rus, gürcü, Ukrayna və fars dillərində dərc olunmuşdur.

**Əsərləri:** "Qatar yola düşür" (1984), "Təbrizə açılan qollar" (1989) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.386.

**24 Aprel - Şair Fəxrəddin Əsədin 65 illiyi, (1954)**



Əsədov Fəxrəddin Əsəd oğlu aprelin 24-də Azərbaycanda Ağdaş şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir (1974-1976). Bakı dəniz balıqçılıq vətəgəsində - Hövsan qəsəbəsində (1977-1981), Rusiya Federasiyasının Tula şəhərində "Proqress" zavodunda quraşdırıcı (1981-1987) olmuşdur. Bu müddətdə Ümumittifaq Maliyyə -İqtisad İnstitutunun maliyyə kredit fakültəsində qiyabi təhsil alsa da ailə vəziyyətinə görə yarımçıq buraxmışdır. Fəxrəddin Əsəd 1987-ci ildən Ağdaş magistral qaz kəməri idarəsində işləmişdir.

Bədii yaradıcılığa ilk gənclik dövründə başlasa da dövri mətbuatda son illər görünməyə başlamışdır. "Yeni Azərbaycan", "Palitra" və "Ədəbiyyat" qəzetlərində vaxtaşırı çıxış etmişdir.

**Əsərləri:** "Xoşbəxt olmaq istəsəm", "Hələ sevməliyik bir-birimizi" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.313.

**25 Aprel – Yazıçı Əflatun Nemətzadənin 75 illiyi, (25.04.1944)**



Nemətzadə Əflatun Nemət oğlu 1944-cü il aprelin 25-də Azərbaycanda Astara rayonunun Ərcivan kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra M.Əliyev adına Azərbaycan Teatr İnstitutunun musiqili komediya fakültəsində təhsil almışdır (1962-1967). Tələbəlik illərində Musiqili Komediya teatrında aktyor, Teatr muzeyində işləmişdir. Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının opera rejissorluğu fakültəsində təhsilini davam etdirmişdir (1970-1975). Polşada Qratovski və Vayda kimi rejissorların laboratoriyalarında tələbə olmuşdur. Yəmən Xalq Respublikasında Dövlət Musiqili Dram Teatrının qurucusu (1980-1984), Bakıda Opera Teatrında quruluşçu-rejissor olmuşdur (1984-1001). Tbilisidə "Müsbət estetik ideal xarakterlərin səhnə sənətinə uyğunlaşması problemi" mövzusunda namizədlik dissertasiyası  müdafiə etmişdir (1988). Bakı İncəsənət İnstititunda müəllim (1984-1991), Türkiyədə Ankara operasına dəvət olunmuş, Mərsin Operasına Baş rejissor vəzifəsinə təyin edilmişdir (1991). Hazırda Ankara Dövlət Konservatoriyasında müəllimdir (1922-ci ildən). Türkiyə Yüksək Öyrətim Kurumunun qərarı ilə elmlər doktoru fəxri adına layiq görülmüşdür (1993). Bədii yaradıcılığa XX əsrin 60-cı illərindən başlamışdır. İlk mətbu hekayəsi "Şor balıq" 1964-cü ildə "Pioner" qəzetində dərc olunmuşdur. "Ədəbiyyat və incəsənət", "bakı", "Azərbaycan gəncləri", "Hürriyyət" qəzetlərində, "Türkcənin səsi", "Sənət", "Qobustan", "Azərbaycan", "Elm və həyat" jurnallarında məqalə və hekayələri çıxmışdır. Bir sıra operaları, dram əsərləri səhnəyə qoyulmuşdur. Azərbaycan Dövlət Televiziyasında "Opera haqqındasöhbətlər" silsilə verlişlərin aparıcısı olmuşdur. "İsmayıl Dağıstanlı" (1981), "Yəmən düşüncələri" (1990), "İllərdə izlər..." (1991) kitabları "İşıq" nəşriyyatında çap edilmişdir. "Opera rejissorluğu" (2000) kitabı Türkiyədə kütləvi tirajla buraxılmışdır. "Dəmir pərdə" romanını yazmışdır. Əsərləri Yəmən, Türkiyə, Polşa, Rusiya qəzet və jurnallarında dərc olunmuşdur. Fəxri fərmanlara və SSRİ Mədəniyyət Nazirliyinin I dərəcəli diplomuna layiq görülmüşdür.

**Əsərləri:** "İsmayıl Dağıstanlı" (1981), "Yəmən düşüncələri" (1990), "İllərdə izlər...", "Opera rejissorluğu" (2000), "Dəmir pərdə" (2000) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.216.

## 28 Aprel – Dramaturq Səttar Axundovun 105 illiyi, (1914-1994)



Səttar Axundov 1914-cü ilin aprel ayında Qaryagin qəzasının Alxanlı kəndində ruhani ailəsində doğulmuşdur. O, ömrünün 34 ilini yaradıcılığa sərf etmişdir. 1942-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. İndiyədək dramaturqun M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında ("Zərif tellər" 1951), Naxçıvan, Gəncə, Xankəndi ("Dostlar") və başqa dövlət teatrlarında, habelə bir sıra xalq teatrlarında 35 əsəri tamaşaya qoyulmuşdur. Dramaturq Səttar Axundov daim günün hadisələrinə cavab verir, müasir mövzularda yazırdı. Böyük Vətən Müharibəsi illərində onun qələmi cəbhəyə, qələbəyə xidmət etmişdir. 1941-ci ildə yazılmış "Çətin dərə" pyesinin mövzusu sovet adamlarının alman-faşist işğalçılarına qarşı vətənpərvərlik müharibəsindən götürülmüşdür. Əsər 1942-ci ildə tamaşaya qoyulmuş və böykк müvəffəqiyyət qazanmışdır. "Çətin dərə" və "Qayğı" (1944) pyesləri M. Qorki adına Gənc Tamaşaçılar Teatrında oynanılmışdır. S. Axundov bunlardan başqa iyirmidən artıq birpərdəli pyesin müəllifidir. Onun kiçik həcmli pyesləri, əsas etibarilə, kəndlərimizdə gedən geniş quruculuq işlərini əks etdirirdi. Səttar Axundov 1949-cu ildən bəri respublika xalq yaradıcılığı evində folklor şöbəsinin (poeziya bölməsində) baş metodist işləyirdi. Səttar müəllimin bu sahədəki fəaliyyəti də çox səmərəli idi. O, 150 min misra aşıq şeiri, bayatı, atalar sözü, 15 dastan, 100 xalq nağılı və s. toplayıb nəşr etdirmişdir. 12 min misradan ibarət "Aşıqlar", "Dəniz haqqında nəğmə", "Çoban Əfqan", "Aşıq Bilal" və s. kitablarını da S. Axundov tərtib etmişdir. İstedadlı ədib yaradıcılığının hər iki qolunu ömrü boyu davam etdirmişdi. Həm xalq poeziyası nümunələrini toplayır, həm də yeni-yeni dram əsərləri yaratmışdı. Onun yazmış olduğu "Düşərgədə nişan" komediyasını Ağdam Dövlət Dram Teatrı öz repertuarına daxil etmişdi. Böyük sənətkar "Həyasız qonaq" komediyasını yazıb bitirmişdi. Səttar Axundovun "Qaragilə", "Məhəbbət nişanəsi", "Eloğlu Araz" adlı kitabları var. S.Axundovun şəxsi fondundakı materiallar əsasən folklora aiddir. 30 ildən çox çalışdığı bu işdə aşıq yaradıcılığını arayıb-axtarmış, 200-dən çox aşığın yazı nümunələrini toplamışdır.

**Əsərləri:** “Dağlarda” (1956), “Məhəbbət nişanəsi” (1962), “Kənd ulduzları” (1963), “Günlər dayanmışdı” (1969), “Qaragilə”(1981), “El oğlu” (1988).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.796.

## Xarici ədəbiyyat

## 14 aprel – Rus yazıçısı Fonvizin Denis İvanoviçin 275 illiyi, (1744-1792)



Rus ədəbiyyatında maarifçi realizmin görkəmli nümayəndəsi kimi tanınan, milli komediyanın banisi Fonvizin Denis İvanoviç 14 aprel 1744-ci ildə (bəzi mənbələrdə 1745) zadəgan ailəsində anadan olmuşdur. 1755-1762-ci illərdə Moskva Universitetinin nəzdində gimnaziyada oxumuşdur. 1762-ci ildə Peterburq şəhərinə köçmüş, tərcüməçilik ilə məşğul olmuşdur. "Xəzinədar tülkü" (1762) təmsilində və "Nökərlərimə məktublar"ında (1764-1766) təhkimçiliyə tənqidi münasibət öz əksini tapmışdır. Onun "Briqadir" (1768-1769) məişət komediyasında əcnəbi mədəniyyətə sitayiş masqaraya qoyulur. "Nadan övlad" (nəşri 1783, tamaşası 1782) satirik komediyasında təhkimçilik, zadəgan əxlaqı, hakim təbəqələrin kütbeyinliyi ifşa olunur. Fonvizinin publisistik məqalələri, xatirələri var. Yaradıcılığı realist rus ədəbiyyatı və teatrın inkişafına güclü təsir göstərmişdir. Denis Fonvizin 12 dekabr 1792-ci ildə Peterburq şəhərində vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/ Denis_Fonvizin

**26 Aprel – İngilis dramaturqu və şairi Vilyam Şekspirin 455 illiyi, (1564-1616)**



Vilyam Şekspir 1564-cü il aprel ayının 26-da İngiltərənin Stratford şəhərində anadan olmuşdur. Şekspir Stratford "Qrammatika məktəbində təhsil almışdır. 1585-ci ildə Londona köçmüş, rejissor köməkçisi, yazıçı və teatr şirkətinin təsisçilərindən biri kimi fəaliyyət göstərmişdir. 1595-ci ildən Şekspir "Lord Çemberlenin truppası"nın pay sahiblərindən biri olmuş, 1899-cu ildən "Qlobus" teatrının, 1608-ci ildən isə Dominikan teatrının sahiblərindən birinə çevrilmişdir. Şekspir ali təhsil almasa da fransız, italyan, latın dilini, ingiltərənin tarixini yaxşı bilmiş, hüquq, musiqi, botanika, təbabət, hərb və dəniz işini mənimsəmiş, ingilis dilinə 3200 yeni söz bəxş etmişdir. Yunan-roma mifologiyasını, ədəbiyyatı və tarixini öyrənmiş, təkcə tərcümədən deyil, orijinaldan da istifadə etmişdir. Şekspir bədii yaradıcılığa teatrda çalışarkən, 1590-cı ildə başlamışdır. Əsərlərinin əksəriyyətini 1590-1612-ci illər ərzində yazmışdır. O, Həm komediya, həm də faciə janrlarında eyni dərəcəli uğur əldə edə bilən nadir dramaturqlardan sayılır. "Hamlet", "Otello", "Romeo və Cülyetta", "Maqbet", "Kral Lir" kimi əsərləri dünya ədəbiyyatının nadir inciləri sırasındadır. Dünya ədəbiyyatının ən məşhur dramaturqlarından biri olan Şekspir 17 komediyanın, onlarla tarixi pyesin, 11 faciənin və 154 sonetin müəllifi olmuşdur. Şekspirin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş, dram əsərləri dünyanın əksər teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan teatrının inkişafında da Şekspir əsərlərinin tamaşaya qoyulması müstəsna rol oynamışdır. Görkəmli Azərbaycan yazıçı və dramaturqları onun faciə və komediyalarını Azərbaycan türkcəsinə çevirmişlər. Bunların böyük qismi ruscadan, az hissəsi ingiliscədən tərcümə olunmuşdur. Azərbaycan şairləri Şekspirin sonetlərini bir neçə dəfə tərcümə etmişlər. Ən görkəmli rejissorlar və aktyorlar Şekspir əsərlərinin Azərbaycan səhnəsində tamaşaya qoyulmasında iştirak etməyi özlərinə şərəf bilmişlər. Şekspirin aforizmə çevrilmiş fikirləri də olmuşdur: "Kitablarım mənə çatacaq qədər böyük krallıqdır", "Kitab mənim üçün, tacdan qiymətlidir". Vilyam Şekspir 1612-ci ildə doğma şəhəri Stratforda qayıtmış və 1616-cı ildə vəfat etmişdir.
**Filmoqrafiya:** "Otello" (film, 1955), "İnadkarın ram edilməsi" (film, 1967), "Romeo və Cülyetta" (film, 1968), "Kral Lir" (film, 1970).

İnternetdə:www.az.wikipedia.orq/ Vilyam_ Şekspir

## İncəsənət

## 5 Aprel – Bəstəkar Asəf Zeynallının 110 illiyi, (05.04.1909-27.10.1932)



Asəf Zeynallı 1909-cu ildə Dərbənddə anadan olmuşdur. 1923-1926-cı illərdə Bakı musiqi texnikumunda, 1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində, Ü.Hacıbəyovun sinfini bitirmişdi. 1929-1931 illərdə türk (Azərbaycan) fəhlə teatrında musiqi bölməsinin müdiri və Azərbaycan proletar musiqiçiləri birliyinin sədri işləmişdir. Tofiq Quliyev və Qara Qarayev bir müddət onun tələbələri olmuşlar. Azərbaycan musiqi tarixində ilk romanslar Asəf Zeynallının adı ilə bağlıdır. 23 il ömür sürməsinə baxmayaraq milli musiqi sənətində silinməz iz qoymuşdur. Milli romans, piano və simfonik musiqinin banisidir. Onun "Ölkəm", "Sərhədçi", "Çadra", "Sual", "Seyran" romansları milli vokal musiqimizin inciləridir. Piano üçün "Uşaq süitası" silsiləsi, "Çahargah" pyesi, violino və piano üçün "Muğamsayağı", 2 fuqa, simfonik orkestr üçün "Fraqmentlər", teatr tamaşalarına musiqi, xalq mahnıları işləmələrinin müəllifidir. Azərbaycan musiqi folklorunun toplanıb nota köçürülməsi və işlənməsi sahəsində böyük iş aparmışdır. "İbtidai not savadı" adlı dərslik tərtib etmişdir. O, həmçinin türk (Azərbaycan) fəhlə teatrında oynanılan Cəfər Cabbarlının "Sevil", "Qayıdış", X. Nəzirli və S. Rüstəmin "Alov", A. Həmidin "Hind qızı", V. Kirşonun "Küləklər şəhəri" əsərlərinə musiqi bəstələmiş, "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan musiqi tarixində uşaq musiqisi repartuarının əsasını qoymuşdu. Asəf Zeynallı bir neçə Azərbaycan xalq mahnılarını nota almışdır. Cəfər Cabbarlının sözlərinə bəstələdiyi "Ölkəm" romansı ən məşhur əsəri hesab olunur. O, "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan musiqi tarixində uşaq musiqisi repartuarının əsasını qoyur, 70-ə yaxın Azərbaycan xalq mahnılarını nota almışdır. Azərbaycan musiqi folkloru nümunələrinin toplanması üçün Qarabağa səfər edib və orada da ağır xəstələnib. Qarın yatalağına tutulan bəstəkar müalicə almaq üçün Bakıya qayıtmışdır. O, xəstəxanada olarkən otağının divarına son simfoniyasını yazmış və qardaşından əsərinin divardan kağıza köçürülməsini xahiş etmişdir. Təəssüf ki, onun son vəsiyyətini heç kim yerinə yetirmir... Beləcə, Asəf Zeynallı 27 oktyabr 1932-ci ildə yaradıcılığının inkişaf etdiyi bir dövrdə, bu ağır xəstəlikdən vəfat etmişdir. Bakı musiqi kolleci və paytaxtın küçələrindən biri bəstəkarın adını daşıyır. Onun "Ölkəm", "Sərhədçi , "Çadra", "Sual", "Seyran" romansları milli vokal musiqimizin inciləridir.

**Filmoqrafiya:** "Həyat romansı" (film, 1971), "Asəf Zeynallı" (film, 2000).

İnternetdə:https://az.wikipedia.org/wiki/Asəf_Zeynallı

**10 Aprel – Xalq artisti, xanəndə Teymur Mustafayevin 80 illiyi, (1939)**



Teymur Mustafayev 10 aprel 1939-cu ildə Cəlilabad rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Musiqi Məktəbində təhsil almışdır. Sənət müəllimləri Seyid Şuşinski, Əhməd Bakıxanov olmuşdur. Sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsilini davam etdirmişdir. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solistidir. 1978-ci ildən Azərbaycan Dövlət Konsert Birliyində, 1998-ci ildən Muğam Teatrında fəaliyyət göstərir. Teymur Mustafayevin repertuarı muğam və təsniflərdən, xalq və bəstəkar mahnılarından ibarətdir. Onun ifa etdiyi muğam və təsniflər AzTR Fondunda saxlanılır. Bir çox xarici ölkələrdə (Avropa ölkələrində, Ərəb ölkələrində, Rusiyada, Türkiyədə, İranda, Əfqanıstanda) qastrol səfərlərində olmuşdur.

**Filmoqrafiya:** "Teymur Əmi" (film, 2002), "Muğanın Sarvanı" (film, 2002), "Bitməyən ömür" (film, 2013).

İnternetdə:https://az.wikipedia.org/wiki/Teymur_Mustafayev

**12 Aprel – Xanəndə, xalq artisti Seyid Şuşinskinin 130 illiyi, (1889-1965)**



Şuşinski 1889-cu ildə indiki Füzuli rayonunun Horadiz kəndində anadan olmuşdur. Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirlərinə yiyələnmək üçün ən əvvəl iki il Nəvvabın yanında oxumuşdu. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olmuşdu. Seyid Şuşinski ifa üçün mürəkkəb muğam olan "Çahargah"ı xüsusilə böyük məharətlə oxuyardı, özü də həmişə onu "mayə"dən yox, "Mənsuriyyə"dən başlayardı, zildə böyük ustalıqla zəngulələr vuraraq, sonra "mayə"yə enərdi. Maraqlıdır ki, həyatının son illərində, yaşı artıq 74 ötmüş Seyid "Mənsuriyyə"ni eyni şövqlə oxuyurdu. Seyid Şuşinski yaradıcılığında Hafiz Şirazi, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani qəzəlləri ilə yanaşı, Hüseyn Cavidin və Mirzə Ələkbər Sabirin şeirlərinə də müraciət edirdi. Sabirin "Millət necə tarac olur-olsun, nə işim var" şeirini "Müxalif"də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur. "Ayıl ey millət", "Mən bir türkəm", "Millət istərsə" və s. Seyid Şuşinski, Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. “Molla Nəsrəddin”in bir neçə nömrəsinin çıxmağına maddi yardım göstərmişdi. Ümumiyyətlə, Seyid Şuşinski böyük mesenat idi, o dövrün teatr aktyorlarına çox kömək etmişdi, özü də aktyor kimi bir sıra rolları oynamışdı. Seyid Şuşinski "Cahargah"dan başqa "Mahur", "Nəva", "Məsnəvi", "Osmanı", "Arazbarı", "Heyratı" kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib onları yeni variantda oxumuşdur. ("Rast-Humayun", "Qatar-Bayatı", "Şur-Şahnaz") "Rast"da və "Kürdi-Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdi. Seyid Şuşinskinin görkəmli bəstəkarımız Fikrət Əmirovun ilk dəfə yaratdığı və dünyada şöhrət qazandığı "Şur" və "Kürdi-Ovşarı" simfonik muğamlarının yazılmasında məsləhətçi kimi böyük köməyi olmuşdu.

Seyid Şuşinski (1889-1965) – Azərbaycan xanəndəsi, Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi idi. Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı.

**Filmoqrafiya:** “Muğamlar” (film, 1965), “Qarabağa səyahət” (film, 1968), “Məclisi üns” (film, 2006), “Seyid Şuşinski” (film, 2012), “Xurşidbanu Natəvan” (film, 2012).

İnternetdə:https://az.wikipedia.org/wiki/Seyid_Şuşinski

**16 Aprel – Xalq artisti, bəstəkar Ramiz Mirişli 85 illiyi, (1934-2015)**



Ramiz Mirişli 1934-cü il aprelin 16-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan şəhərindəki orta məktəbi bitirdikdən sonra 1952-1954-cü illərdə Asəf Zeynallı adına musiqi məktəbində oxumuşdur. O, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında 1956-1962-ci illərdə bəstəkarlıq ixtisası üzrə ali musiqi təhsili almışdır. Əmək fəaliyyətinə 1954-cü ildən etibarən Azərbaycan Radio-informasiya İdarəsində musiqiçi kimi başlayan Ramiz Mirişli 1962-ci ilədək respublikanın müxtəlif musiqi məktəblərində müəllim işləmişdir. O, 1962-2005-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində musiqi baş redaksiyasında böyük redaktor və baş redaktor vəzifələrində çalışmış, həmçinin 1987-1995-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında mahnı və rəqs ansamblının bədii rəhbəri vəzifəsini tutmuşdur. Ramiz Mirişli 1978-1998-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan şöbəsinə rəhbərlik etmişdir. Yaradıcılığını uzun illər ərzində pedaqoji fəaliyyətlə sıx əlaqələndirən Ramiz Mirişli 1972-ci ildən indiki Bakı Musiqi Akademiyasının müəllimi, dosenti və professoru, 2005-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Konservatoriyasının professoru olaraq yeni musiqiçilər nəslinin yetişdirilməsi üçün zəngin bilik və bacarığını əsirgəməmiş, peşəkar musiqiçi kadrların formalaşdırılması işinə dəyərli töhfələr vermişdir. Geniş yaradıcılıq diapazonuna malik olan Ramiz Mirişli folklor və xalq musiqisindən, milli bəstəkarlıq məktəbi ənənələrindən lazımınca bəhrələnərək Azərbaycanın musiqi mədəniyyəti xəzinəsini öz əsərləri ilə daha da zənginləşdirmişdir. O, ən müxtəlif janrlara müraciət etmiş, simli kvartet, tar və simfonik orkestr üçün konsert, kamera orkestri üçün simfoniya, xalq çalğı alətləri orkestri üçün konsert və süitalar, fortepiano triosu bəstələmişdir. Ramiz Mirişli sənətinin bədii keyfiyyətləri onun, həmçinin teatr tamaşaları və kinofilmlərə bəstələdiyi musiqilərdə xüsusən aydın təzahürünü tapmışdır. Kompozisiya bütövlüyü, dərin lirizm, təbiilik, səmimiyyət və emosional təsir gücü onları səciyyələndirən başlıca cəhətlərdir. Ramiz Mirişlinin mahnıları görkəmli ifaçıların repertuarında özünəməxsus yer tutaraq, Azərbaycanda və onun hüdudlarından kənarda müəllifinə şöhrət gətirmişdir. Bu əsərlər doğma yurda məhəbbət və milli dəyərlərə ehtiram aşılamaqla gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir. Ramiz Mirişli müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir. **Mahnıları:** "Bir könül sındırmışam", "Doğma diyarım", "İlk görüş", "Mavi dünyam", "Yeddi qızdan biri gözəl", "Dalğalar", "Hardasan", "Gəlmədi", "Ya rəbbim", "Gecələr", "Yandım, elə yandım", "Dedi gələcəyəm", "Küsüb məndən", "Süfrə mahnısı", "Günay", "Bir xumar baxışla" və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Ramiz_Mirişli

**22 Aprel - Xalq artisti Ağahüseyn Cavadzadənin 125 illiyi, (22.04.1894-1981)**



Ağahüseyn Xəlil oğlu Cavadov 22 aprel 1894-cü ildə Bakının yaxınlığındakı Xırdalan qəsəbəsində doğulub. Əvvəl mollaxanada təhsil alan Ağahüseyn 1919-cu ildə "Səadət" məktəbini bitirib. Teatr sənətinə tələbəlik illərindən maraq göstərən, bəzi tamaşalarda sözsüz və epizod rollara çıxmış Ağahüseyn Cavadov 1920-ci ilin iyunundan müəyyən fasilələrlə Milli Dram Teatrında işləyib. Ağahüseyn Cavadov Milli Dram Teatrının səhnəsində Məmişov ("Məhəbbət", Mirzə İbrahimov), Dəmirçi Musa, Bərbərzadə, Mirzə Salman ("Toy", "Xoşbəxtlər" və "Nişanlı qız", Sabit Rəhman), Ocaqqulu, Xosməmməd, Həmzə, İmamverdi, Oddamdı ("Almaz", "Dönüş", "Solğun çiçəklər", "1905-ci ildə" və "Od gəlini", Cəfər Cabbarlı), Cəlal, Soraq kişi ("Həyat" və "Yaxşı adam", Mirzə İbrahimov), Qənimət ("Cavanşir", Mehdi Hüseyn), Mürsəl ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Usta Murad ("İldırım", Cabbar Məcnunbəyov), Bəbir Bəbiroviç, Qoşqar baba ("Yadigar" və "Yol ayrıcmda", İslam Səfərli), İmran ("Əcəb işə düşdük", Şıxəli Qurbanov), Savalan ("Dağlar qızı", Adil Babayev), Vasin ("Tanya", Aleksey Arbuzov), Kapitan ("Köç", Cavad Fəhmi Başqut), Luka Lukiç ("Müfəttiş", Nikolay Qoqol), Brabansio, Qoca çoban ("Otello" və "Qış nağılı", Vilyam Şekspir), Petruşin ("Canlı meyit", Lev Tolstoy), Sima Popoviç ("Nazirin xanımı", Bratislav Nuşiç), Houkinis ("Şeytanın şagirdi", Bernard Şou), Platon, Məzarçı ("Şeyx Sənan" və "Xəyyam", Hüseyn Cavid), Qoca ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Maytreya ("Hind gözəli", Yuri Osnos və Vladimir Vinnikov), Almurad ("Mənim günahım", İlyas Əfəndiyev) rollarında çıxış edib. Ağahüseyn Cavadov "Bəxtiyar" (Rza), "Qızmar günəş altında" (Pirioğlu), "Əhməd haradadır?" (Əhməd), "O olmasın, bu olsun" (Bəy), "Bir qalanın sirri" (Rəmmal), "Sehrli xalat" (Vəzir), "Görüş" (Əbülfəz), "Şərikli çörək" (Xırdavatçı) və digər filmlərə çəkilib. Aktyor 1931-ci ildə respublikanın əməkdar artisti, 4 dekabr 1938-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. Ağahüseyn Cavadov 20 iyul 1981-ci ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

**Filmoqrafiya:** Bəxtiyar (film, 1955), Görüş (film, 1955), O olmasın, bu olsun (film, 1956), Qızmar günəş altında (film, 1957), Kölgələr sürünür (film, 1958), Bir qalanın sirri (film, 1959), Əhməd haradadır? (film, 1963), Sehrli xalat (film, 1964), İstintaq davam edir (film, 1966), Mən ki gözəl deyildim (film, 1968), Bizim Cəbiş müəllim (film, 1969), Şərikli çörək (film, 1969), Hörmətli alim yoldaşlar (film, 1971), Ağasadıq Gəraybəyli (film, 1974), Bakıda küləklər əsir (film, 1974), Dörd bazar günü (film, 1975), Qərib cinlər diyarında (film, 1977) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Ağahüseyn_Cavadov

**29 Aprel – Xalq artisti, kinorejissor Əjdər İbrahimovun 100 illiyi, (1919-1993)**



İbrahimov Əjdər Mütəllim oğlu 29 aprel 1919-cu ildə Türkmənistanın Aşqabad şəhərində anadan olmuşdur. 1940-cı ildə Aşqabad Teatr Məktəbini, 1952-ci ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsində təhsil alaraq Sergey Yutkeviç və Mixail Rommun sinfini bitirib. İkinci dünya müharibəsinin iştirakçısı olub. 1952-ci ildə yenidən Aşqabada — "Türkmənfilm"ə qayıdıb. Burada "Firuzə", "Xəzərin şərqində" və s. filmlərə quruluş verib. 1954-1959-cu illərdə Bakı kinostudiyasında işləyib. 1954-cü ildə Lətif Səfərovun quruluş verdiyi "Bəxtiyar" və Tofiq Tağızadənin 1955-ci ildə çəkdiyi "Görüş" filmlərində ikinci rejissor işləyib. Bakı Kinostudiyasında quruluşçu rejissor kimi ilk böyük işini 1957-ci ildə reallaşdırıb və "Mosfilm"lə bu studiyanın birgə ekranlaşdırdığı "Bir məhəlləli iki oğlan" filminə İlya Qurinlə birlikdə quruluş verib. 1958-ci ildə "Onun böyük ürəyi" filmini çəkib. Bu filmin ssenarisini yazıçı İmran Qasımov qələmə almışdı. Film Sumqayıt haqqında, burada gedən nəhəng quruculuq işləri barədə idi. Süjetdə Böyük Vətən müharibəsi, ondan əvvəlki və sonrakı dövrlər əhatə edilirdi. Burada rejissor özü də Rəsulov rolunda çəkilmişdi. Bu filmə tamaşa edən Vyetnam mədəniyyət xadimləri Sovet İttifaqının müvafiq qurumlarına müraciətlərində rejissorun Vyetnam kinematoqrafiyasının formalaşdırılmasına yardım üçün onların ölkəsinə göndərilməsini xahiş ediblər. Beləliklə, 1959-1962-ci illərdə Vyetnam Demokratik Respublikasında ilk milli kino məktəbinin yaradılması, milli aktyor və rejissor kadrlarının hazırlanmasında fəal iştirak etdi. Əjdər İbrahimovun bədii rəhbərliyi ilə "İki əsgər", "Acgöz quş", "Bir payız günündə" filmləri yaradıldı. Ə.İbrahimov sonralar "Mosfilm"də rejissor kimi öz fəaliyyətini davam etdirib. Onun "Ürək əhvalatları", "Məhəbbətim mənim, kədərim mənim" ("Azərbaycanfilm"lə birgə) filmləri rejissorun şöhrətini daha da artırmışdır. Azərbaycanın Xalq atisti fəxri adına və Dövlət Mükafatına layiq görülüb. Əjdər İbrahimov 20 sentyabr 1993-cü ildə Moskvada vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir. Əjdər İbrahimov bir neçə kitabın da müəllifidir: "Vyetnamda gördüklərim" (1964); "Günəş ağlayır" (1971); "Döyüşən Vyetnamın kino sənəti" (1968); "Tai qəbiləsindən olan qız" (1970).

**Filmoqrafiya:** "Firuzə" (1953), "Xəzərin Şərqində" (1953), "Bəxtiyar" (film, 1955), "Görüş" (film, 1955), "Bir məhəllədən iki nəfər" (film, 1957), "Onun böyük ürəyi" (film, 1958), "Ulduzlar sönmür" (film, 1971), "Qayınana" (film, 1978), "Məhəbbətim mənim, kədərim mənim" (film, 1978), "Qəribə adam" (film, 1979), "Narahat adam" (film, 1985).

**Haqqında çəkilən filmlər:** "Narahat adam" (film, 2005)

İnternetdə:https://az.wikipedia.org/wiki / Əjdər_ İbrahimov

**Milli Qəhrəmanlar Zirvəsi**

**4 Aprel – Azərbaycanın Milli Qəhrəmanı Həbibov Rəfael Hacı Şərafət oğlunun 55 illiyi, (4.04.1964-07.07.1992)**



Rəfael Şərafət oğlu Həbibov 1964-cü il aprel ayının 4-də Əli Bayramlı şəhərində anadan olmuşdur. Rəfael təhsil illərində özünü bacarıqlı bir şagird kimi göstərmiş, yoldaşlarının və müəllim kollektivinin dərin hörmətini qazanmışdır. Təhsil illərində idmana və ibtidai hərbi hazırlıq fənninə böyük maraq göstərmişdir. O, hərbi xidmətini Baltik ətrafında keçirmiş, gizir rütbəsinə kimi yüksəlmişdir. Sonra isə Leninqradda (Sankt-Peterburqda) hərbi məktəbi qurtarmış, leytinant rütbəsinə layiq görülmüşdür. O, qardaşı Cəbrayılla Əfqanıstan döyüşlərinin iştirakçısı olubdur. Respublikamızın ərazi bütövlüyünün qorunmasında iştirak etmək məqsədilə 1992-ci ildə Qarabağa göndərilib. İlk günlərdən təcrübəli zabit kimi döyüşlərə atılmışdır. Təzəkənd, Narıncılar, Zodqızıl, Mədəni Ala Qala, Ağdaban, Çörəkdar, Çapar və s. kəndlər uğrunda gedən gərgin döyüşlərdə iştirak etmişdir. Bu kəndlərin çoxu erməni quduzlarından azad edilmişdir. R.Həbibov Kəlbəcər uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdir. Mühasirəyə düşən kəşfiyyatçıları xilas edərkən dümənlə qarşı-qarşıya çıxmış və düşmənin PDM-24 maşınının heyəti ilə birlikdə məhv edib. 1992-ci il iyulun 6-da Çörəkdar və Tozlukörpü istiqamətində cəbhədə həlak olanların cəsədlərini gətirmək üçün yoldaşları ilə yola düşüb. Döyüşdə aldığı yaradan 1992-ci il iyulun 7-də gözlərini əbədi yumdu. Vaxtı ilə oxuduğu 14 saylı orta məktəb indi onun adını daşıyır.

**Azərbaycan Respublikası Prezidentinin 1994-ci il avqustunda verilən fərmanı ilə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında göstərdiyi şəxsi igidlik və şücaətə görə Rəfael Şərafət oğlu Həbibova “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.**

İnternetdə:www.az.wikipedia.orq / Rəfael _Həbibov

**5 Aprel – Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Şövqiyar Cəmil oğlunun 50 illiyi, (5.04.1969 – 27.08.1992)**



Şövqiyar Abdullayev 1969-cu il 5 apreldə Qədim Göyçə mahalı Basarkeçər rayonunun Nərimanlı kəndində dünyaya gəlmişdir. 1986-cı ildə Nərimanlı kəndində orta məktəbi əla qiymətlərlə bitirmiş, Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. Birinci kursu bitirdikdən sonra ordu sıralarına çağrılmışdır. 1989-cu ildə Monqolustanda hərbi xidmətini başa vurub Bakıya qayıtmışdır. 1992-ci ildə Dağlıq Qarabağda döyüşlər başlayanda o, yeni yaradılan Milli Orduya yazılmış, Ağdamda təşkil edilmiş tank briqadasına komandir təyin edilmişdir. Onun tank briqadası Abdal-Gülablı kəndini özünə mövqe seçmiş, Papravənd, Pircamal, Aranzəmin və digər kəndlər uğrunda ağır döyüşlər aparmışdır. 1992-ci il 23 avqustda Gülablı kəndi ətrafındakı strateji əhəmiyyətli yüksəklikdən onun tank briqadası çıxarılaraq müəmmalı şəkildə Ağdərəyə, Drambon kəndinin müdafiəsinə kömək üçün göndərilmişdir. Az vaxt içərisində Drambon kəndi erməni-rus birləşmələrinin müqaviməti qırılaraq azad edilmişdir. Eyni zamanda, mühasirə halqasına düşmüş çox sayda piyada döyüşçülərimiz mühasirədən çıxarılmışdır. Drambon kəndi uğrunda gedən döyüşlərdə təkbaşına qalan Şövqiyar Abdullayevin tankı bir neçə dəfə vurulmuşdur. Hər iki ayağından yaralanan tank komandiri Ağdam hərbi hospitalına göndərilmşdir. Amma sağalmağa doğru gedən Ş.Abdullayev sonrakı müalicədən imtina edərək yenidən cəbhəyə qayıtmışdır. 1992-ci il 27 avqustda çox ağır döyüşdə o, öz yoldaşlarını əsir düşməkdən xilas etmiş, özü isə qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 29 avqust 1992-ci ildə Bakının Şəhidlər xiyabanında dəfn edilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Abdullayev Şövqiyar Cəmil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:www.az.wikipedia.orq / Şövqiyar_ Abdullayev

**25 Aprel – Azərbaycanın Milli Qəhrəmanı Aqarunov Albert Aqarunoviçin 50 illiyi, (25.04.1969-08.05.1992)**



Albert Aqarunoviç Aqarunov 1969-ci il aprelin 25-da Bakının Əmircan qəsəbəsində yəhudi ailəsində anadan olub. Albert Aqarunov çox erkən yaşlarından musiqi ilə maraqlanmış, musiqi məktəbində nəfəs aləti truba sinfini bitirmişdir. Suraxanı rayonundakı 154 saylı məktəbin səkkizinci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik ixtisasına yiyələnmişdir. Albert hərbi xidmətə gedənə qədər işləyib, ailəsinə kömək edirdi. 1987-ci ildə Aqarunov Gürcüstanda hərbi xidmətə çağırılıb və xidməti dövründə tank komandiri olub. 1989-cu ildə ordu sıralarından tərxis olunaraq Bakıya dönərək Suraxanıda Maşınqayırma zavodunda işləyib. Qarabağ müharibəsi başlayarkən, Aqarunovun evə gəlib cəbhəyə könüllü yazılması xəbərini ailəsinə bildirmişdir. Tank komandiri təyin edilən Albert Aqarunov Şuşada Elçin Məmmədovun başçılıq etdiyi 777 nömrəli xüsusi təyinatlı batalyonda döyüşüb. 1992-ci il may ayının 8-i Şuşaya ilk girməyə cəhd edən erməni tankına flaqman tank kimi şəhərə asılmalı olan "fəxri" erməni bayrağı verilmişdi. Bu tankın komandiri erməni tankçısı olan Qaqik Avşaryan idi. Lakin Avşaryanın 442 nömrəli tankı Şuşaya girməyə cəhd elədiyi anda Albert Aqarunovun 533 nömrəli tankı tərəfindən vurulmuşdur. Tankın komandiri Qaqik Avşaryan, sürücü mexanik Aşot Avanesyan, atıcı-artirelist Şahen Sarkisyan elə ilk və son atəşdən maşının kabinəsində məhv edilib. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Ermənilərin Şuşaya hücumu vaxtı Albert Aqarunov düşmənin 9 tank, 7 ZTR və bir çox texnikanı məhv edib. Aqarunov 8 may 1992-cu ildə Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gəlib və döyüş meydanında həlak olub. Komandir Hacı Əzimovun sözlərinə görə, Aqarunov mövqeyini dəyişərkən öz tankının düz önündə qalmış şəhid əsgər yoldaşlarının cəsədini kənara çəkmək üçün hərbi maşından çıxıb. Əvvəlcə tankı düzgün istiqamətə yönəltməsi üçün mexanikinə göstəriş verib. Daha sonra öldürülmüş şəhidlərə tərəf qaçmış və cəsədləri kənara çəkən zaman erməni snayperinin gülləsinə tuş gəlmişdir. Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi. Bakıda vaxtilə təhsil aldığı 154 nömrəli məktəb və Nərimanov rayonunda küçə onun adını daşıyır. Məktəbin önündə büstü qoyulub.

**Filmoqrafiya:** 2017-ci ildə Səadət Şükürova Albert Aqarunov haqqında "Yaşadığım torpaq" sənədli filmini çəkib.

**Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:www.az.wikipedia.orq /Albert_ Aqarunov

**May**

**Əlamətdar və tarixi günlər**

3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü, (1993)
3 May – Türk Dünyasının Həmrəylik Günü, (1944)
3 May – Beynəlxalq Günəş Günü, (1994)
5 May – Əlillərin Hüquqlarının Müdafiəsi Günü, (1992)
8 May – Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü, (1953)
9 May – Faşizm üzərində Qələbə Günü, (1945)
15 May – Beynəlxalq Ailə Günü, (1994)
15 May – Beynəlxalq İqlim Günü, (1992)
18 May – Beynəlxalq Muzeylər Günü, (1977)
20 May – Ümumdünya Metrologiya Günü, (1875)
21 May – Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günü, (2002)
22 May – Beynəlxalq Bioloji Müxtəliflik Günü, (2000)
23 May – Ümumdünya Tısbağa Günü, (2000)
28 May – Respublika Günü, (1918)
31 May – Ümumdünya Tütünlə Mübarizə Günü, (1988)

**Bu tarixi unutmayaq**

8 May – Şuşa şəhərinin işğalı günü, (1992)
17-18 May – Laçın rayonunun işğalı günü, (1992)

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

10 May – Ümummilli lider Heydər Əliyevin 96 illiyi, (10.05.1923 - 12.12.2003)
Coğrafiyaşünas Qafur Rəşad Mirzəzadənin 135 illiyi, (06.05.1884-1943)

**Yubilyar yazıçı və şairlər**

Yazıçı İsi Məlikzadənin 85 illiyi, (01.05.1934-1995)
Şair Mətləb Misirin 80 illiyi, (01.05.1939)
Tənqidçi, ədəbiyyatşünas Yusif Seyidovun 90 illiyi, (02.05.1929)
Əməkdar incəsənət xadimi Elman Həbibin 70 illiyi, (04.05.1949-2009)
Yazıçı, publisist Məmməd Əkbərin 110 illiyi, (05.05.1909-1974)
Tənqidçi, ədəbiyyatşünas Arif Səfiyevin 85 illiyi, (06.05.1934)
Ədəbiyyatşünas, tənqidçi Məmməd Cəfərin 110 illiyi, (09.05.1909-1992)
Şair Məşkur Əkbərin 90 illiyi, (09.05.1929)
Ədəbiyyatşünas, tənqidçi Şamil Qurbanovun 85 illiyi, (10.05.1934-2004)
Şair Hikmət Ziyanın 90 illiyi, (13.05.1929-1995)
Yazıçı Anatoli Zöhrabbəyovun 110 illiyi, (14.05.1909-1946)

Yazıçı, dramaturq Musa Quluzadənin 80 illiyi, (20.05.1939)
Şair, ədəbiyyatşünas Salman Mümtazın 135 illiyi, (20.05.1884-1937)
Yazıçı Hüseyn İbrahimovun 100 illiyi, (23.05.1919-2008)
Şair Abbas Səhhətin 145 illiyi, (24.05.1874-1918)
Şair, yazıçı,dramaturq Məmməd Kazımın 85 illiyi, (25.05.1934)
Ədəbiyyatşünas Vəli Xuluflunun 125 illiyi, (26.05.1894-1938)
Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin 105 illiyi, (26.05.1914-1996)
Şair, tərcüməçi, ədəbiyyatşünas Rəşid Təhməzoğlunun 80 illiyi, (30.05.1939)

**Xarici ədəbiyyat**

İngilis yazıçısı E.Voyniçin 155 illiyi, (11.05.1864-1960)
Fransız yazıçısı Onore de Balzakın 220 illiyi, (20.05.1799-1850)
Dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin 220 illiyi, (26.05.(06.06).1799-1837)
Rus yazıçısı Leonov Leonid Maksimoviçin 120, (31.05.1899-1994)
Dağıstan şairi Süleyman Stalskinin 150 illiyi, (18.05.1869-1937)

**İncəsənət**

Tənqidçi, teatrşünas Cabir Səfərovun 95 illiyi, (01.05.1924-1990)
Xalq artisti Ramiz Zöhrabovun 80 illiyi, (02.05.1939)
Bəstəkar Soltan Hacıbəyovun 100 illiyi, (08.05.1919-1974)
Xalq artisti Rza Əfqanlının 120 illiyi, (15.05.1899-1973)
Xalq artisti Habil Əliyevin anadan olmasının 90 illiyi, (28.05.1929-2015)
Xalq artisti Oqtay Zülfüqarovun 90 illiyi, (31.05.1929)

**Milli Qərəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Cəfərov Faiq Əliqulu oğlunun 45 illiyi, (01.05.1974-19.08 1999)
Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Namiq Vahid oğlunun 45 illiyi, (10.05.1974-09.02.1993)
Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Fikrət Əli oğlunun 55 illiyi, (19.05.1964-05.05.1992)

**Əlamətdar və tarixi günlər**

**3 May – Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü, (1993)**



1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda regional seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərinə mətbuat azadlığının və demokratikliyinin təminatına yardımçı olmağa çağıran Vindhuk Bəyannaməsini qəbul ediblər. Buna görə, BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü elan edib. Söz və mətbuat azadlığı demokratiyanın meyarı olaraq tanınır. Söz azadlığının olmadığı ölkələrdə insan hüquqlarının pozulması hallarına daha çox rast gəlinir. Bu gün bir çox beynəlxalq qurumlar ölkələrdə söz və mətbuat azadlığını diqqət mərkəzində saxlayırlar.

İnternetdə: www.books.google.com

**3 May – Türk Dünyasının Həmrəyliyi Günü, (1944)**

***Türk millətinin bayrağı onun müqəddəslik simvoludur.***



Bu tarixi gün ilk dəfə 1944-ci ilin 3 mayında Topxana hərbi həbsxanasında 10 nəfər məhkum tərəfindən qeyd olunub. Azərbaycanda Türkçülük Günü 1992-ci ilin may ayının 3-dən etibarən qeyd edilir. Türkçülük Günü Türkiyədə daha geniş qeyd olunur. Azərbaycanda isə bu günü əsasən milliyyətçilər qeyd edirlər. Hər bir xalq öz keçmişini, tarixini bilməli, özünü tanımalı və mirası yaşatmalıdır. 3 May tarixinin Türkçülük Günü kimi tarixə yazılmasında, türkçülük uğrunda mübarizə aparan insanlar uzun illər təqiblərə məruz qalmışlar. Türkçülük Günü əslində Türkiyədən qaynaqlanır. Türk dünyası bütün dünyaya ədalət, hürriyyət gətirdi. Sonradan türkü məhv etmək üçün müəyyən qüvvələr hərəkətə gəldi. Türk dövlətləri sıradan çıxarıldı, 1918-ci ildə Birinci Dünya müharibəsi bitənə kimi Osmanlı imperiyasını da çökdürdülər. Bundan sonra meydana Atatürk gəldi və türk millətini, türk milliyyətçilərini qalibiyyətə apardı. Atatürkdən sonra baş verən proseslər yenidən Qərb dünyasının istəyi ilə getməyə başladı. Bu dövrdə milliyətçilər təqiblərə məruz qaldılar və bunun kuliminasiya nöqtəsi isə 3 may 1944-cü ildə baş verdi. İnternetdə: www.books.google.com

## 3 May – Beynəlxalq Günəş Günü, (1994)



Bu gün YUNESKO-nun qərarı ilə təyin olunmuşdur. Yer kürəsinə ən yaxın ulduz Günəşdir. Yaşayışın mənbəyi olan Günəşi nə qədər tanıyırıq? Beynəlxalq Günəş Günü artıq on ildən çoxdur ki, may ayının 3-də qeyd edilir. Günəş Günü Milli Uçuş və Kosmos İdarəsi tərəfindən qeyd edilir. Günəş bitki və heyvanlar aləminə lazım olan istiliyi, işığı verir. Yer Kürəsinin atmosferini formalaşdırır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şairimiz Məmməd Araz hələ 1982-ci ildə maraqlı bir şeir yazmışdır: "Günəş günü". Bu şeir təbiəti, işığı, yerin və göyün gözəlliklərini, eləcə də insanın ruhundakı nuru, xeyirxah əməlləri qorumaq üçün bir çağırış idi:

*Əkinçi, səpinçi gününə yaxın,*
*Dəmirçi, kömürçü gününə yaxın,*
*Bu günü qoparaq il budağından,*
*Elə adisinin, elə bozunun.*
*Süpürüb qarını, silib tozunu*
*Yuyub gözümüzdə, sözümüzdə biz*
*Sərib qurudub da sinəmizdə biz,*
*O günə ad verək, ad – Günəş günü,*
*Əkək ağlımıza, yaddaşımıza.*
*Bir gün salam verək, - İşığın aydın!*
*Töhfəmiz olmasın işıqdan ayrı...*

Bu şeir yazılandan xeyli sonra – 1994-cü ildə beynəlxalq təqvimlərdə əlamətdar günlər sırasına biri də əlavə olundu: Günəş Günü. Beynəlxalq Günəş Enerjisi Cəmiyyətinin Avropa bölməsinin təşəbbüsü ilə insanların diqqətini bərpa olunan enerji mənbələrinə cəlb etmək üçün hər il mayın 3-də dünyada Günəş Günü qeyd olunur. Həmin gündə alimlər, ictimai təşkilatlar və şirkətlər günəş enerjisinin imkanlarını nümayiş etdirmək üçün müxtəlif tədbirlər təşkil edirlər.

İnternetdə: www.books.google.com

## 5 May – Əlillərin Hüquqlarının Müdafiəsi Günü, (1992)



1992-ci ildən BMT Baş Assambleyasının qərarı ilə hər il 5 may Əlillərin Hüquqlarının Müdafiəsi Günü kimi qeyd olunur. Azərbaycanda bu qəbildən olan insanların sayı 450 mindən çoxdur. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı mövcuddur. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Əlillərin sosial müdafiəsi isə ildən-ilə daha da gücləndirilir, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu işlər onların cəmiyyətə inteqrasiyasına xidmət edir. Dövlət hər ay əlillik qruplarına uyğun olaraq, onlara pensiya və sosial müavinətlər verir. Onların sağlamlığının bərpası üçün paytaxtda və bölgələrdə reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar əlilliyin qarşısının alınmasında, əlillərin reabilitasiyasında mühüm rol oynayır.

BMT-nin nüfuzlu strukturlarından biri olan Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyi tərəfindən ölkəmizin Prezidentinə ünvanlanmış 2008-ci il 12 dekabr tarixli müraciətdə "Əlillərin hüquqları haqqında" Konvensiyanın yerli və mərkəzi səviyyədə müxtəlif dövlət qurumları arasında əlaqələndirməni təmin etmək məqsədilə hökumətdə əlaqələndirici şəxsin təyin olunması və əlaqələndirmə mexanizminin yaradılması (maddə 33.1), Konvensiyanın həyata keçirilməsinin təşviqi və monitorinqi (maddə 33.2) məqsədilə Ombudsman Aparatında müvafiq bazanın yaradılması üçün adekvat tədbirlərin görülməsi təklif edilmişdir. Bu UNİCEF-in həmin istiqamətdə hökumətimizə dəstək vermək niyyətində olduğunun ifadəsidir.

İnternetdə: www.books.google.com

**8 May – Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü, (1953)**




Bu gün 1828-ci il may ayının 8-də anadan olmuş İsveçrə vətəndaşı, humanist ictimai xadim, "Nobel" sülh mükafatı laureatı Anri Dünanın şərəfinə təsis edilmişdir və 1953-cü ildən qeyd olunur.

Anri Düna 1859-cu ildə İtaliyanın Solferino əyalətində Avstriya və Fransa orduları arasında baş vermiş döyüşün şahidi olmuş və müharibənin dəhşətlərini öz gözləri ilə gördükdə, yerli əhalini yardım üçün səfərbər etmişdir. 1863-cü ildə Anri Dünanın təşəbbüsü ilə yaralılara yardım göstərən Beynəlxalq Komitə (gələcək Beynəlxalq Qırmızı Xaç Komitəsi) yaradılmışdır. 1864-cü il avqust ayının 22-də İsveçrədə keçirilən Diplomatik Konfransda emblem – ağ fonda qırmızı xaç qəbul olunmuşdur. Belə fərqləndirici nişan, qırmızı fonda ağ xaçı əks etdirən İsveçrə dövlətinin bayrağına olan hörmətin əlamətidir.

1876-cı ildə Osmanlı imperiyası rus-türk müharibəsində iştirak edən tibbi işçilərinin müdafiəsi üçün Qızıl Aypara emblemini təklif etmişdir. O vaxtdan adı çəkilən emblem, ağ fonda qırmızı xaç emblemi ilə yanaşı, bərabər hüquqlu nişan kimi qəbul olunub. Hazırda həmin emblem bir sıra ölkələr tərəfindən istifadə edilir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı tərkibində 183 milli Qızıl Xaç və Qızıl Aypara cəmiyyətlərini, Beynəlxalq Qırmızı Xaç Komitəsini və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasını birləşdirir.

İnternetdə: www.books.google.com

**9 May – Faşizm Üzərində Qələbə Günü, (1945)**

***Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya müharibəsində, Böyük Vətən Müharibəsində Azərbaycan Respublikasının fəaliyyəti, rolu çox böyük olmuşdur.***

**Ümummilli lider Heydər Əliyev**




Müharibədə Azərbaycanın 600 mindən çox oğul və qızının amansız düşmənlə döyüşlərdə göstərdikləri misilsiz şücaət və igidlik, arxa cəbhədə çalışanların isə əmək rəşadəti dillər əzbəridir və bugünki nəsillər üçün daim örnək olaraq qalacaqdır.

Azərbaycan xalqının İkinci Dünya Müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələri haqqında çoxlu sayda şeirlər, kitablar yazılmış, bədii və sənədli filmlər çəkilmiş, qəhrəmanların şərəfinə abidələr ucaldılmış, onların adları əbədiləşdirilmişdir. 9 may – Faşizm Üzərində Qələbə Günü təntənəli surətdə qeyd olunur. Bu qələbə heç də asan başa gəlməyib. Yüzlərlə, minlərlə həmvətənlərimiz bu qələbə naminə canlarından keçiblər. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq və həm də doğma Azərbaycan torpağını qoruyublar. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 130 nəfər həmyerlimizin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna əyani sübutdur. Əgər o vaxt Azərbaycan nefti cəbhəyə göndərilməsəydi, bu müharibə qələbə ilə bitməzdi. Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Qələbənin 50 illiyi ilə bağlı keçirilən təntənəli tədbirdə demişdir: “Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur”. Müharibənin ilk illərində faşist Almaniyası işğal etdiyi Avropa ölkələrinin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirmişdi. Lakin “Hər şey cəbhə üçün, hər şey qələbə üçün” şüarı altında bütün Sovet xalqlarını birləşdirdi. Bununla da düşmənin hücumları, nəinki dayandırıldı, faşistlər Moskva, Stalinqrad, Kursk və başqa döyüşlərdə ən ağır və sarsıdıcı məğlubiyyətə uğradı, 1945-ci ildə isə tamamilə məğlub edildi.

İnternetdə: www.books.google.com

## 15 May – Beynəlxalq Ailə Günü, (1994)

***Ən gözəl təmir olunan uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz.***

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*



Ailə Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəsdir. Dövlətimiz cəmiyyətin əsas atributu olan ailənin rifah halının gündən-günə daha da artmasının qayğısına qalmaqla, onun müqəddəsliyini bir daha təsdiq edir.

BMT Baş Assambleyası 1993-cü ilin sentyabrında 15 may tarixini 1994-cü ildən etibarən hər il Beynəlxalq Ailə Günü kimi qeyd etməyi qərara almışdır. Ailənin cəmiyyətin əsas elementi, kiçik demokratiyanın təməli olduğunu nəzərə alaraq, BMT demokratik ideyaları dəstəkləyən, sülh və demokratik millətlər birliyini qurmağa səy göstərən bütün dünya ailələrini birləşdirməyə çalışır. Azərbaycanda ailə bütün zamanlarda cəmiyyətimizin ən müqəddəs təməl daşı hesab olunub. Ulu öndər Heydər Əliyev Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayırdı. Bu münasibət indi də dövlət başçımız İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün ölkəmizdə ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir və dövlət öz siyasətində ailənin sosial müdafiəsi, gənc ailələrə qayğını əsas tutur. Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayan ulu öndər Heydər Əliyev cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin gerçəkləşdirilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də böyük işlər görmüşdür. 1998-ci il yanvarın 14-də Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu məsələyə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzalamışdır. Hazırda bu komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq mövcud problemlər üzərində işləyir, onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir. Ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban Əliyevanın ailə, qadın və uşaq məsələlərinə, bu sahədə aktual problemlərə həssas münasibəti bunu bir daha təsdiq edir. M. Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi nəhəng proqram və layihələr ailələr üçün, sözün əsl mənasında, böyük dayaqdır. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində görülən işlər də əslində, Azərbaycan ailəsinin rifahına, möhkəmlənməsinə xidmət edir. İnternetdə: www.books.google.com

## 15 May – Beynəlxalq İqlim günü, (1992)



İqlimin qorunması bəşəriyyətin qarşısında duran qlobal problemlərdən biridir. Hər il mayın 15-də dünya Beynəlxalq İqlim Gününü qeyd edir. Bu qeyri-rəsmi bayramın təsis olunması, meteoroloqların iqlimin indiki və gələcək nəsillərin rifahı üçün vacib resurs kimi qorunub saxlanması çağırışına cavab olmuşdur. Qlobal istiləşmə, atmosfer qatında ozonun yüksək səviyyədə olması, planetdə hava şəraitinin dəyişilməsi – Yer kürəsində iqlimin pisləşməsinə səbəb olur və nəticə etibarilə insanların həyat, ərzaq və mülkiyyət təhlükəsizliyinə, təbii ehtiyatların vəziyyətinə və dövlətlərin balanslaşdırılmış inkişafına mənfi təsir göstərir. Müasir elmlər Yer kürəsində temperaturun getdikcə qalxması halında iqlimin fəlakətli dəyişikliyinin vaxtını dəqiq deyə bilmirlər. Lakin ekoloq və meteoroloqların fikrincə, bu dəyişiklikləri təxirə salmaq olar. Geridönməz iqlim dəyişikliklərinə səbəb olan əsas problemlərin sırasına atmosferdə parnik qazlarının toplanmasının çoxalmasıdır. Bu təzahür dünya səviyyəsində ilk dəfə 1992-ci ildə Rio-de-Janeyroda Yer Sammitində müzakirə olunmuşdur. Dünyanın 180-dən çox ölkəsinin nümayəndələri BMT-nin İqlim Dəyişikliyi Haqqında Çərçivə Konvensiyasını imzalamışlar. 1997-ci ildə bu konvensiya tərəfdarlarının Kiotoda (Yaponiya) keçirilən üçüncü konfransında konvensiyaya əlavə kimi məşhur Kioto protokolu qəbul olunmuşdur. 2007-ci ilin dekabrında Balidə (İndoneziya) BMT-nin iqlim dəyişikliyi məsələlərinə həsr olunan başqa bir konfransı keçirilmişdir.

Yer üzündə iqlimin qorunması planetin hər bir sakinindən asılıdır. Bunun üçün avtomobillərdən az istifadə etmək, ağac əkmək, yaşıllıqları qorumaq və s. lazımdır. Bu kiçik işləri hər bir insan həyata keçirsə, əslində çox böyük müsbət nəticələrə səbəb olar.

İnternetdə: www.books.google.com

**18 May – Beynəlxalq Muzeylər Günü, (1977)**

***Muzey maddi - mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsidir.***

**Ümummilli lider Heydər Əliyev**




2000-ci il martın 24-də qüvvəyə minmiş “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir. Ümummilli lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, YUNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Muzeylər dünyada mədəni proseslərin fəal iştirakçısına, eyni zamanda, qloballaşmanın mənfi nəticələrinə qarşı dura bilən mədəniyyət ocaqlarıdır. Hər il mayın 18-i dünyada Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının (İCOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.

Dünyanın 100-dən çox ölkəsində qeyd edilən Beynəlxalq Muzeylər Günü qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda bayram edilir. Ölkəmizdə muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə respublika Mədəniyyət Nazirliyinin Muzeylər İdarəsi, Muzey işi üzrə Elmi-Metodiki Mərkəz, Muzey Ekspozisiyalarının Bədii Tərtibatı Emalatxanası, Muzey Sərvətləri və Xatirə Əşyalarının Bədii Bərpa Mərkəzi təşkil olunmuşdur. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial – xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır. 1994-cü ildə “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində “İstiqlal” Muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında” 2006-cı il 18 dekabr, “Müasir İncəsənət Muzeyinin yaradılması haqqında” 2006-cı il 19 dekabr, “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli sərəncamları, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara

uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı", həmçinin "Azərbaycan Xalça Muzeyinin yeni binasının maddi-texniki təminatı haqqında" 2013-cü il 29 dekabr tarixli sərəncamları bu sahəyə göstərilən qayğıya bariz nümunələrdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq, milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu YUNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır. Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənmiş, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmişdir. Ümummilli liderimizin siyasi irsinin öyrənilməsi, azərbaycançılıq məfkurəsinin formalaşdırılaraq inkişaf etdirilməsi məqsədilə yaradılan Heydər Əliyev muzeyləri isə respublikada muzey şəbəkəsinin genişləndirilməsi sahəsində mühüm hadisə kimi qiymətləndirilməlidir.

İnternetdə: www.books.google.com

## 20 May – Ümumdünya Metrologiya Günü, (1875)



Ümumdünya Metrologiya Gününün tarixi 1875-ci ilin 20 mayından – Parisdə Beynəlxalq Diplomatik Konfransda 17 inkişaf etmiş ölkənin hökumət nümayəndələrinin məşhur Metrik Konvensiyasını imzalamaqla başlayıb. Konvensiyaya uyğun olaraq Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro (BİPM) yaradılıb, ölçmələr üzrə elm sahəsində beynəlxalq əməkdaşlığın əsasları və onun sənayedə, ticarətdə, cəmiyyətin mənafeyi naminə praktiki tətbiqi mexanizmləri işlənib hazırlanıb. Belə ki, məhz bu sənəddən sonra ölçmələrin metrik sistemi və beynəlxalq vahidlər sistemi tətbiq edilib, onun əsasında Beynəlxalq Ölçmələr Sistemi yaradılıb. Metrik Konvensiyanın ən başlıca məqsədi olan ölçmələrin vəhdətinin bütün ölkələrdə təmin edilməsi bu gün də çox vacib məsələdir. Müasir cəmiyyətin bütün həyat və fəaliyyət istiqamətləri – səhiyyə, ekologiya, müdafiə və təhlükəsizlik, ən yeni elm həcmli texnologiyaların inkişafı və tətbiqi, energetika, ticarət və s. ölçmələrin dəqiqliyindən, vəhdətindən və doğruluğundan asılıdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən 13 iyun 2000-ci ildə təsdiq olunmuş "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, daha sonra 13 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş eyni adlı, lakin müasir dövrün tələblərinə uyğun hazırlanmış yeni Qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirib və metrologiyanın inkişafına ciddi təkan olub. Azərbaycanda metrologiya sahəsi üzrə dövlət siyasətini Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirməkdədir. Bu sahənin beynəlxalq tələblər səviyyəsində inkişafına nail olmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2012-ci il tarixli Fərmanı ilə Komitə yanında Dövlət Metrologiya Xidməti yaradılıb. Hazırda Azərbaycanda ölçmələrin vəhdətini və dövlət etalonlarından ötürülməsini təmin etmək məqsədilə milli etalon bazasının təkmilləşdirilməsi üzrə işlər aparılır. Belə ki, Komitənin Milli Etalon Mərkəzində kütlə, təzyiq, sıxlıq və özlülük, temperatur, elektrik, vaxt və tezlik, dozimetriya dövlət etalonları saxlanılır və adıçəkilən sahələr üzrə ölçmələr digər ölçmə vasitələrinə ötürülür.

İnternetdə: www.books.google.com

**21 May – Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günü, (2002)**



Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilmişdir. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilmişdir. Hazırda dünya mədəniyyətini çox müxtəlif amillər təhdid edir – bir halda milli özünəməxsusluğun həddən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, digər halda din mədəniyyətə təzyiq göstərir, üçüncü halda praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər yox olur, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur. Bütün bu faktların nəzərə alınması və onların əhəmiyyətinin dərk edilməsi 2001-ci ildə YUNESKO-nun "Mədəniyyətlərin müxtəlifliyinə dair" bəyannaməsinin qəbul olunmasını zəruri etmişdir. Bu bəyannamənin həyata keçirilməsi üçün iyirmi əsas istiqamətdən ibarət Fəaliyyət Planı qəbul olunmuşdur. Bəyannamədə müxtəliflik, dialoq və inkişaf arasında əlaqənin yeni anlayışı irəli sürülmüşdür. Qeyd etmək lazımdır ki, BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir. Milli-mədəni müxtəliflik mədəni zənginlik deməkdir. Azərbaycan dövləti ölkədəki milli-mədəni müxtəlifliyin qorunub saxlanmasında, inkişafında maraqlıdır və buna dəstək verir.

Dünya cəmiyyəti bununla mədəni müxtəlifliyin inkişafına töhfələr verməklə, mədəni irsin qorunması, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında münasibətlərin qurulması vacibliyini həmişə yadda saxlamalıdır.

İnternetdə: www.books.google.com

## 22 May – Beynəlxalq Bioloji Müxtəliflik Günü, (2000)

***Məşhur bioloq E. Vilson biomüxtəlifliyi – "həyatın məğzi" adlandırmışdır. Biomüxtəliflik Yer üzərində mövcud olan genlərdən ekosistemlərə qədər bütün canlıların əmələ gətirdiyi müxtəlifliyin məcmusu deməkdir.***



Bioloji müxtəliflik bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə və digər su ekosistemləri və ekoloji komplekslər də daxil olmaqla, bütün canlı orqanizmlərin növ müxtəlifliyi deməkdir. 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası 55/201 nömrəli qətnaməsi ilə 22 may tarixini Bioloji müxtəliflik üzrə Konvensiyanın qəbul olunması, həmçinin "Beynəlxalq Bioloji Müxtəliflik Günü" elan etmişdir. Azərbaycanda biomüxtəliflik üzrə Konvensiyaya 2000-ci ildə qoşulmuşdur. Bizim taleyimiz ekosistemin məhsuldarlığından və sağlamlığından asılı olduğundan dünyada biomüxtəlifliyin qorunması, irqindən, dinindən, rəngindən asılı olmayaraq, hər birimizin borcudur. Bu baxımdan təbiətdə canlıların qorunması təbliğinə istiqamətlənmiş 22 May – Beynəlxalq Biomüxtəliflik Gününü Avropanın bir çox ölkələri qeyd edirlər. 1992-ci ildə BMT-nin təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş konfransda qeyd edildiyi kimi, "dünyanın gələcəyi, inkişafı ekoloji problemlərin həll ediləcəyindən asılı olacaqdır".

Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Burada zəngin bitki və heyvan növləri cəmlənmişdir. Müasir Azərbaycan faunası 18.000 canlıdan ibarət olub, məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunmuşdur. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. Azərbaycanın su hövzələrində balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Azərbaycanın həşəratlar aləmi də, son dərəcə zəngin olub, 25 minə yaxın növü əhatə edir. Azərbaycan florasının biomüxtəlifliyinə isə dərman, efiryağlı, dekorativ, meyvə, texniki və digər faydalı bitkilər daxildir.

İnternetdə: www.books.google.com

## 23 May – Ümumdünya Tısbağa Günü, (2000)



Tısbağa müdriklik, sərvət və uzunömürlülük rəmzi daşıyan heyvandır. 23 may bir çox ölkələrdə Ümumdünya Tısbağa Günü (World Turtle Day) qeyd olunur. Bu qeyri-adi bayram 2000-ci ildə Amerika Tısbağaların Qorunması Cəmiyyətinin (American Tortoise Rescue) təşəbbüsü ilə keçirilir. Bu təşkilat 1990-cı ildə Malibuda (ABŞ, Kaliforniya ştatı), şəhərin ətrafında yaşayan tısbağaların populyasiyasının qorunması üçün yaradılmışdır.

Bayramın məqsədi tısbağaların insanlarla qonşuluqda yaşamaları səbəbindən kütləvi şəkildə tələf olmalarına ictimaiyyətin diqqətini cəlb etməkdir. Hər il bu gün tısbağaların məskunlaşdığı bütün ərazilərdə könüllülər miqrasiya və ya digər təhlükəli yerlərdə hərəkətin intensiv olduğu şosselərdə bu heyvanlar üçün keçidlər yaradaraq onları xilas edirlər. Aksiya iştirakçıları, həmçinin dəniz tısbağalarının yumurta qoyduğu dəniz sahillərinə qanunla qorunan ərazilər statusunun verilməsinə nail olurlar.

İnternetdə: www.books.google.com

## 28 May – Respublika Günü (1918)

***Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir.***

**Ümummilli lider Heydər Əliyev**




Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanıb. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Azərbaycanda hökm sürən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünya dövlətləri üçün açıq ölkəyə çevrilib. 28 May – Respublika Günü 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 1990-cı ildən Respublika Günü dövlət bayramı kimi qeyd edilir. 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Çar imperiyası dağıldı. Ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandı. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) yaradıldı. Bu respublika azərbaycanlıların tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. Azərbaycan Xalq Cümhuriyyətini rəsmi surətdə tanıyan ilk dövlət Osmanlı olmuşdur. (4 iyun 1918-ci ildə) 1918-ci ilin 9 noyabrında M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qırmızı rəngdə idi. Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Təəssüf ki, müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalıb devrildi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Amma xalqimizin azadlıq arzusu heç vaxt sönmədi və 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi.

İnternetdə: www.books.google.com

**31 May – Ümumdünya Tütünlə Mübarizə Günü, (1988)**



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Assambleyası 1988-ci ildə 31 may tarixini Ümumdünya Tütünlə Mübarizə Günü elan edib. O vaxtdan etibarən hər il dünyanın müxtəlif ölkələrində insanları tütün məhsullarından istifadədən çəkindirmək məqsədi ilə bu tarixi gün qeyd olunur. Azərbaycan 2005-ci ildə Tütünlə mübarizə haqqında ÜST-ün Çərçivə Konvensiyasını ratifikasiya edib. Bəşəriyyət XXI əsrin əvvəllərindən başlayaraq daha bir problemlə – ağciyərin xroniki xəstəliklərinin kəskin artması ilə üz-üzə qalmışdır. Ekologiyanın pisləşdiyi, qlobal tütün epidemiyasının genişləndiyi bir şəraitdə bu növ xəstəliklər təkcə sürətlə yayılmır, həm də bu səbəbdən ölüm halları kütləvi şəkildə artır.

21 may 2003-cü ildə Ümumdünya Səhiyyə Təşkilatı Assambleyası bütün dünya dövlətlərinin tam hüquqlu nümayəndələrinin işləyib hazırladıqları Tütünə qarşı Mübarizə üzrə Çərçivə Konvensiyasının bitmiş mətnini təsdiq etdi. Konvensiya 2003-cü il iyunun 30-dan 2004-cü il iyunun 29-na qədər BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında bütün dünya dövlətlərinin imzalaması üçün açıq idi. Bu müddətdə sənədi dünyanın 167 dövləti imzaladı. Bu gün onların sayı 192-yə çatır və bu sırada Azərbaycan Respublikası da var. Çərçivə Konvensiyasının iştirakçı dövlətləri, həmçinin Azərbaycan öz üzərinə bir tərəfdən tütün məhsullarına tələbatın və istifadəsinin azalması ilə digər tərəfdən isə tütün məmulatlarının idxalına nəzarətlə bağlı siyasət və qanun işləyib hazırlamaq və qəbul etmək öhdəliyi götürmüşlər.

İnternetdə: www.books.google.com

**Bu tarixi unutmayaq**

**8 May – Şuşa şəhərinin işğalı günü, (1992)**



1992-ci il may ayının 8-nə keçən gecə işğalçı erməni hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının hərbi qulluqçularının və 40 zirehli texnikasının köməyi ilə Şuşa şəhərinə hücuma keçmişlər. Uzun sürən artilleriya atəşindən və qeyri-bərabər qanlı döyüşlərdən sonra şəhər işğal olunmuşdur.

Şuşanın işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilmiş, 165 nəfər yaralanmış, onlardan 150 nəfəri əlil olmuş, 552 körpə valideynlərini itirmiş, 20 mindən artıq əhali isə doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdür. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə bu günədək məlumat yoxdur. Şuşa şəhərində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə düşmən 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Cümə məscidini, Aşağı Gövhər Ağa məscidi, Xurşud Banu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, Şuşa tarix muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişdir. Ermənilər insanlığa sığışmayan vəhşiliyə də əl atmış: Üzeyir Hacıbəyov, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəllərini güllələmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir. İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

İnternetdə:www.google.az

**17-18 May – Laçın rayonunun işğalı günü, (1992)**



Azərbaycanın qala qapısı sayılan Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 25 il keçir. İşğal nəticəsində 1835 kv.kilometrlik ərazi zəbt edilmiş, yüzlərlə maddi mədəniyyət nümunəsi erməni vandalizminə tuş gəlmiş, 65 min laçınlı doğma yurd yerlərindən didərgin düşmüşdür.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri Qarabağın dağlıq hissəsində Azərbaycanın qədim mədəniyyət və musiqi mərkəzi Şuşanı ələ keçirtməklə bütün yuxarı Qarabağı işğal etmişdir. Bundan sonra erməni hərbi birləşmələri qəsb etdikləri torpaqlarda möhkəmlənmək və Qarabağın dağlıq hissəsi ilə Ermənistanı birləşdirmək üçün Laçın rayonuna aramsız hücumlara başlamışdır. Şuşa kimi Laçın da mühüm hərbi-strateji əhəmiyyət kəsb edirdi. Məhz bunu nəzərə alan düşmən mayın 13-ü və 14-də zirehli texnikalar, Mi-24 vertolyotlarının müşayiəti ilə Qayğı qəsəbəsi və Laçın şəhərini bombardman etmişdir. 1992-ci il mayın 16-dan 17-nə keçən gecə Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni silahlı birləşmələri mayın 18-də rayonu işğal etmişdir.

Laçının düşmən əlinə keçməsi müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını, Ermənistanın işğalçılıq niyyətlərinin daha böyük olduğunu göstərdi. Sonralar Laçın dəhlizi ilə Qarabağa gətirilən silah, döyüş sursatı və hərbi qüvvələr erməni təcavüzünün miqyasını daha da genişləndirdi, ətraf rayonların taleyini təhlükə altında qoydu. Azərbaycanın qala qapısı sayılan Laçının süqutu nəticəsində 1835 kvkilometr ərazi işğal olundu. 262 nəfər həlak oldu, 67 nəfər itkin düşdü, 48 sənaye, 63 kənd təsərrüfatı müəssisəsi, 217 mədəniyyət, 103 təhsil, 142 səhiyyə ocağı dağıdıldı, talan edildi. 65 min laçınlı doğma yurdlarından didərgin düşdü. Bu gün respublikamızın 58 şəhər və rayonunda məskunlaşan laçınlılar dövlət qayğısı ilə əhatə olunublar. Ağcabədi rayonunun "Taxtakörpü" ərazisində 552 məcburi köçkün ailəsi üçün yeni salınmış qəsəbə istifadəyə verilib.

İnternetdə:www.google.az

**Azərbaycanın görkəmli şəxsiyyətləri**
**6 May – Coğrafiyaşünas Qafur Rəşad Mirzəzadənin 135 illiyi, (1884-1943)**



Qafur Rəşad Ələkbər oğlu Mirzəzadə 1884-cü ildə indiki İsmayıllı rayonunda anadan olmuşdur. İlk coğrafiya dərsliklərinin yaradıcısı olan Qafur Rəşad "Qafqaz coğrafiyası" (1910), "İbtidai coğrafiya" (1922), "ümumi coğrafiya" (1923), "Coğrafiya terminləri lüğəti" (1923), "SSRİ-nin iqtisadi coğrafiyası" (1941), "Xəritə üzərində əməli iş" (1943) və s. adlar altında 18 dərslik və vəsait yazıb nəşr etdirmişdi. "Rəhbəri-sərf" (Məmmədsadıq Axundovla birgə, 1910), "Rəhbəri-hesab" (Əbdürrəhman Əfəndizadə ilə birgə, 1910) dərslikləri uzun illər məktəblərdə tədris olunmuşdu. Bununla yanaşı, milli uşaq ədəbiyyatının inkişafında da Qafur Rəşadın xidmətləri böyükdür. O, Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının (1911-1920) və uşaqlara məxsus ədəbiyyat nəşr edən eyniadlı birinci mətbəənin təsisçisidir (Əbdürrəhman Tofiq Əfəndizadə ilə birgə). Cümhuriyyət dövründə nəşr olunmuş "Məktəb" jurnalı uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində müsbət rol oynamışdır. O, pedaqoq-yazıçıları jurnalın ətrafına toplamış, orijinal şeir və hekayələrdən, müxtəlif dillərdən edilən tərcümələrdən, elmi-kütləvi məqalələrdən ibarət zəngin uşaq ədəbiyyatı xəzinəsi yaratmış, yeni yazıçı nəslinin yetişməsi işində böyük xidmət göstərmişdir. ADR dönəmində eyni zamanda bir sıra yeni dərsliklər də hazırlandı ki, bu işdə görkəmli maarifçilərdən Səməd bəy Acalov, Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Cəmo bəy Cəbrayılbəyli, Ağa bəy İsrafilbəyov, Abdulla Şaiq, Hüseyn Cavid, Abdulla bəy Əfəndizadə, Qafur Rəşad Mirzəzadə, Axund Yusif Talıbzadə, Firidun bəy Köçərli və başqalarının xidmətləri vardı. Qafur Rəşad Mirzəzadə həm də naşir idi. O, dərs dediyi qızların qiraət kitablarına tələbatını ödəmək, eləcə də Azərbaycan qadınlarını ictimai-mədəni gerilikdən, mənəvi kasıblıqdan qurtarmaq üçün ilk dəfə 1914-cü ildə çap etdirdiyi "Arvad ağısı" kitabını 1918-ci ildə Azqurdan qayıdan kimi yenidən nəşrə vermişdir. Əlavələrlə 32 səhifədən ibarət bu kitab Qafur Rəşad Mirzəzadənin naşirliyi ilə Bakıda "Məktəb" jurnalının elektrik mətbəəsində çapdan çıxmışdır. Qafur Rəşad Mirzəzadə həm də jurnalist idi. Pedaqoji fikir tariximizdə maarif xadimi və müəllim kimi tanınan S.Sani, eləcə də "Məktəb"in redaktor və naşirləri Qafur Rəşad Mirzəzadə və Əbdürrəhman Əfəndizadə yaxşı bilirdilər ki, başqa realist əsərlərdə olduğu kimi, "hər bir nağılda həqiqət ünsürləri vardır". Onlara öz pedaqoji təcrübələrindən məlum idi ki, nağıllar və nağıl səpkisində yazılmış rəngarəng hekayələr uşaqların dünyagörüşlərinin genişlənməsində, əxlaqi və mənəvi inkişafında mühüm rol oynayır. Qafur Rəşad Mirzəzadə1943-cü ildə vəfat edib.

İnternetdə: https://az.wikipedia.org/wiki/Qafur_Rəşad_Mirzəzadə

**10 May – Ümummilli lider Heydər Əliyevin 96 illiyi, (1923-2003)**

***Azərbaycan üçün Heydər Əliyevin varlığı yalnız Tanrı payıdır.***

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*



***Heydər Əliyev – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti (1993-2003), "Ulu öndər" və "Azərbaycan xalqının Ümummilli lideri" titullarının rəsmi daşıyıcısıdır. Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə "Lenin" ordeni, "Qırmızı Ulduz" ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə "Sosialist Əməyi Qəhrəmanı" adını almışdır.***

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. O, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən

Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir. Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda – 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş Günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Ümummilli lider Heydər Əliyev 12 dekabr 2003-cü ildə, 80 yaşında vəfat etmişdir.

İnternetdə: www.az.wikipedia.orq

## Yubilyar yazıçı və şairlər

## 1 May – Yazıçı İsi Məlikzadənin 85 illiyi, (1934-1995)



İsi Məlikzadə 1934-cü il mayın 1-də Azərbaycanın Ağcabədi rayonunda anadan olmuşdur. Burada Xalfərəddin orta məktəbini bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Neft-kimya fakültəsində təhsil almışdır. "Əzizbəyovneft" mədənlər idarəsində operator, yerüstü avadanlıq ustası (1957-1961), Azərbaycan Kommunal Təsərrüfatı Nazirliyi Başqaz idarəsində böyük mühəndis, şöbə rəisinin müavini (1961-1966), "Ulduz" jurnalı redaksiyasında publisistika şöbəsinin müdiri, məsul katib (1966-1973), Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü (1974-1976), "Azərbaycan" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1976-1980), "Ulduz" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1980-1981), "Mozalan" satirik kinojurnalında böyük redaktor (1981-1983), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor vəzifələrində işləmişdir (1983-1985). Sonra bir müddət yaradıcılıqla məşğul olmuşdur. Azərbaycan Dövlət Akademik Dram Teatrında ədəbi hissə müdiri (1988-1990) işləmişdir. Sonra ömrünün sonunadək "Azərbaycan" jurnalında publisistika şöbəsinin müdiri (1994-cü ildən), Azərbaycan Mədəniyyət Fondunun Qarabağ filialının sədri (1990-cı ildən) vəzifələrində çalışmışdır. 1995-ci il dekabrın 5-də vəfat etmişdir.

**Əsərləri:** “Həsrətin sonu” (1964), “Özgə anası” (1969), “Kövrək qanadlar” (1973), “Küçələrə su səpmişəm” (1977), “Yaşıl gecə” (1979), “Günəşli payız” (1982), “Dədə palıd” (1984), “Gümüşgöl əfsanəsi” (1987), “Şehli çəmənlərin işığı” (1991), “Dolaşaların novruz bayramı” (1992) və s.

**Filmoqrafiya:** “İcazə” (film, 1972), “Alma almaya bənzər” (film, 1975) (tammetrajlı bədii film) – redaktor, “Evin kişisi” (film, 1978), “Qatarda” (film, 1981), “Altı duru, üstü quru” (film, 1983), “Dua” (film, 1982), “Evlənmək istəyirəm” (film, 1983), “Harayacan qaçacaqlar” (film, 1983), “Zərbə” (film, 1983), “Gümüşgöl əfsanəsi” (film, 1984), “Qanlı zəmi” (film, 1985), “Kişi sözü” (film, 1987), “Ağ atlı oğlan” (film, 1995) (tammetrajlı bədii film) – ssenarist, “Vətən mənə oğul desə” (film, 1996), “Gəl qohum olaq” (film, 2001), “Güllələnmə təxirə salınır!...” (film, 2002), “Güzgü” (film, 1990)(II), “Hacı Qara” (film, 2002), “Küçələrə su səpmişəm” (film, 2004) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/ İsi_Məlikzadə

**1 May – Şair Mətləb Misirin 80 illiyi, (1939)**



Qasımov Mətləb Misir oğlu 1939-cu il mayın 1-də Azərbaycanın Füzuli rayonundakı Gecəgözlü kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1957-1962-ci illərdə AzərbaycanDövlət Pedoqoji Dillər İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə Füzuli rayonundakı Yuxarı Seyidəhmədli kənd orta məktəbində Azərbaycan və İngilis dili müəllimi kimi başlamışdır(1962). Əsgəri xidmətini yerinə yetirdikdən sonra müəllim, kənd orta məktəbində tərbiyə işləri üzrə direktor müavini işləmişdir. Bədii yaradıcılığa 1965- ci ildən başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. " Ərgünəş" ədəbi almanaxının tərtibçisi və ön sözün Mətləb Misir Qarabağ mövzusunda ilk poemalar müəllifi kimi də tanınır. Onun "Şə hidlər" və "Didərginlər" poemaları doxsanıncı illərdə qələmə alınıb.

**Əsərləri:** "Yaddaşım mənim" (1971), "Ana gözlərilə baxaq dünyaya" (1980), "Qaynar bulaqlar" (1987), "Mən bir ömür yaşamışam" (1991), "Dərd dastanı" (2002) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.589.

## 2 May – Tənqidçi, ədəbiyyatşünas Yusif Seyidovun 90 illiyi, (1929-2013)



Seyidov Yusif Mirəhməd oğlu 1929-cu il mayın 2-də Azərbaycanda Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır (1947-1952). Dilçilik ixtisası üzrə aspiranturada saxlanmışdır (1952-1955). "Müasir Azərbaycan dilində feili bağlama tərkibləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1955). Universitetdə Ümumi dilçilik kafedrasında müəllim, baş müəllim, dosent (1955-1967), professor (1967-ci ildən) işləmişdir. "Müasir Azərbaycan dilində söz birləşmələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1965). Universitetdə Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına əsası qoyulduğu ilk gündən rəhbərlik etmişdir (1965-ci ildən dünyasını dəyişənədək). İlk məqaləsi 1952-ci ildə "Azərbaycan müəllimi" qəzetində dərc olunmuşdur. Rus dilli məktəblər üçün "Azərbaycan dili" dərsliyinin müəllifıdir. Yusif Seyidov bir sıra məqalələrində, "Klassik Azərbaycan şairləri söz haqqında" (1977), "Yazıçı və dil" (1979), "Sözün şöhrəti" (1981), "Sözün qüdrəti" (1988), "Sözün hikməti" (1989) və s. kimi sanballı monoqrafiyaları qələmə almışdır. Yusif Seyidov elmi məzmununa, metodiki mükəmməlliyinə görə qiymətli dərs vəsaitləri və dərsliklərin – "Müasir Azərbaycan dili" - (I h.-1959, II h - 1963); "Müasir Azərbaycan dili. IV hissə. Sintaksis" (1972, 1985, 2009) dərsliklərinin əsas müəlliflərindən biri, bir neçə dəfə nəşr edilmiş "Azərbaycan dili" və "Azərbaycan dilinin qrammatikası. Morfologiya" kimi ali məktəb dərsliklərinin müəllifidir. Böyük dilçi alim Yusif Seyidov Azərbaycan dili tarixinə dair də səmərəli tədqiqatlar aparmışdır: "Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi", "Dastani- Əhməd Hərami" haqqında bəzi qeydlər", "Kitabi- Dədə Qorqud"un dilində sadə cümlə (inkişaf səviyyəsi)", "Kitabi- Dədə Qorqud" dastanlarının dilində tərkib və budaq cümlə paralelizmi", "Dövrün(XII- XIX əsrlər) şeir dilinə ümumi bir nəzər", "Ədəbi şəxsiyyət və dil" və s. məqalələri, habelə "Nəsiminin dili" monoqrafiyası ciddi müşahidə və axtarışların məhsuludur. Y.Seyidov dilçiliyin nəzəri və tətbiqi problemlərinə həsr edilmiş 200-dən çox elmi əsərin, o cümlədən 30-dan çox kitabın (monoqrafiya, dərslik və dərs vəsaitlərinin) müəllifidir. 18 noyabr 2013-cü ildə vəfat edib.

**Əsərləri:** “Azərbaycan ədəbi dilində söz birləşmələri” (1966), “Müasir Azərbaycan dili” (1972), “Klassik Azərbaycan şairləri söz haqqqında” (1977), “Azərbaycan dili” (1978), “Yazıçı və dil” (1979), “Sözün şöhrəti” (1983), “Şairin fikir dünyası” (1985), “Sözün hikməti” (1989) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.937.

## 4 May – Əməkdar incəsənət xadimi Elman Həbibin 70 illiyi, (1949-2009)



Elman Həbib 4 may 1949-cu ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tivi kəndində anadan olmuşdur. 1970-ci ildə indiki Azərbaycan Pedaqoji Universitetini, 1979-cu ildə isə Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildə Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor kimi işə başlamış, burada müxtəlif vəzifələrdə çalışmışdır. 1991-ci ildən 2001-ci ilədək Naxçıvan MR Dövlət Teleradio Verilişləri Komitəsinin sədri olmuşdur. 2001-ci ildən Naxçıvan MR Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə seçilmişdir. 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüş, 2005-ci ildə "Tərəqqi" medalı, 2008-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Birinci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı seçilmişdir. Elman Həbib bədii yaradıcılığa ötən əsrin 80-ci illərində başlamışdır. 1981-ci ildə ilk kitabı – "Günəş qatarı" işıq üzü görmüşdür. Sonralar "Duzlu uşaqlar", "Yoluma çıx", "Nar və gilənar", "Ömrümün göy qurşağı", "Ömrüm-günüm mənim", "Sevən ömrü", "Allah salamı", "Yerlə göy arasında", "Heydərnamə", "Naxçıvannamə", "İlham – xalqın İlhamı", "Həqiqət günəşi", "Sənli, sənsiz günlərim", "Hərənin öz işi", "85 ilin 15 ili", "Bu mən görən şəhər deyil" və s. kitabları oxuculara təqdim edilmişdir. Elman Həbibin yaradıcılığının məhsuldar dövrü 2000-2009-cu illəri əhatə edir. Onun 30-a yaxın şeirlər kitabı çapdan çıxıb. "Sahilsiz çaylar" adlı dram əsəri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuş, "Ağ ölümün ölümü" əsəri əsasında Naxçıvan televiziyasında ikihissəli televiziya tamaşası hazırlanmışdır. Azərbaycan dövlət televiziyası tərəfindən Elman Həbibin yaradıcılığı ilə bağlı 2009-cu ildə "Bir ovuc torpağın poeziyası" adlı film çəkilmişdir. Ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Həqiqət günəşi", "Heydərnamə" şeirlər kitabının əsasında telefilm hazırlanıb. Şairin 100-ə yaxın publisistik yazıları bu və ya digər mətbu orqanlarda dərc olunub. Elman Həbib 18 sentyabr 2009-cu ildə Naxçıvan şəhərində vəfat etmişdir.

**Əsərləri:** “Günəş qatarı” (1981), “Duzlu uşaqlar” (1983), “Yoluma çıx” (1985), “Nar və gilənar” (1988), “Ömrümün göy qurşağı” (1998), “Həqiqət günəşi” (1998), “Ömrüm-günüm mənim” (1999), “Hərənin öz işi” (1999), “Sevən ömrü” (2000), “Nehrəm və nehrəmlilər” (2000), “Sənli sənsiz günlərim” (2001), “Allah salamı” (2002) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.190.

**5 May – Yazıçı, publisist Məmməd Əkbərin 110 illiyi, (1909-1974)**



Əkbərov Məmməd Həmzə oğlu (Məmməd Əkbər) 1909-cu il mayın 5-də Ordubad şəhərində ipəkçi ailəsində anadan olmuşdur. Məmməd Əkbər 1928-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. May ayında isə "Kəndli qəzetəsi"nin baş redaktoru Hüseyn Eldarov məktubla onu Bakıya, işə dəvət edib. O, əvvəlcə ədəbi işçi, sonra kənd təsərrüfatı şöbəsinin müdiri, bir neçə aydan sonra isə "Kommunist" qəzetində oçerkist, şöbə müdiri vəzifələrinə irəli çəkilib. Bakı mühiti gənc jurnalistin həyatında dönüş yaradıb. 1931-ci ildə Məmməd Əkbər Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində təhsilini qiyabi davam etdirib. Məmməd Əkbərin "Şadman" adlı ilk oçerklər və hekayələr kitabı 1932-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunub. 1958-ci ildə Məmməd Əkbər Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib. Elə həmin ildən 1941-ci ilin iyuluna, yəni bağlananadək "Revolyusiya və Kultura" (İnqılab və Mədəniyyət) jurnalında çalışıb. Bundan sonra o, yenidən "Kommunist" qəzetində mətbuat şöbəsinə təyin edilib. 1941-ci ildə Böyük Vətən müharibəsinin qızğın dövründə Məmməd Əkbər yazıçıların bir dəstəsi ilə səfərbərliyə alınıb, sovet ordusunun tərkibində hərbi müxbir kimi İrana göndərilib. Onun Rostov, Donbas, Voroşilovqrad və Lisiçansk ətrafındakı qanlı döyüşləri, əsgərlərimizin rəşadətini, vətəpərvərlik ruhunu, həyata sevgisini əks etdirən silsilə oçerk və hekayələri belə yaranıb. 1942-ci ilin sentyabrından Məmməd Əkbər bir müddət Azərbaycan Radio Komitəsinin siyasi verilişlər şöbəsində redaktor işləyib. Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin təklifi ilə Məmməd Əkbər 1943-cü ildən "Ədəbiyyat" qəzetinin məsul katibi vəzifəsinə dəvət olunub və ömrünün sonunadək (10 dekabr 1974) həmin qəzetdə müxtəlif vaxtlarda məsul katib, tənqid şöbəsinin müdiri, xüsusi müxbir vəzifələrində çalışıb. Məmməd Əkbərin səmərəli ədəbi fəaliyyəti hökumət tərəfindən qiymətləndirilərək, 1930-cu ildə "Kəndli" qəzetəsinin 1000-ci sayının çıxması münasibətilə Bakı Soveti İcraiyyə Komitəsinin fəxri fərmanı, "1945-ci il Qafqazın Müdafiəsi Uğrunda" medalı, "1941-45 illər ikinci dünya müharibəsində əmək rəşadətinə görə" medalı, 1968-cı ildə Azərbaycan SSR Mədəniyyət nazirliyinin fəxri fərmanı, 1970-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunub. Məmməd Əkbər 1948-1952-ci illərdə Bakı şəhər sovetinin deputatı olub. Məmməd Əkbər 1974-cü il dekabrın 10-da 65 yaşında Bakı şəhərində vəfat edib.

**Əsərləri:** "Şadman" (1932), "Kolxoz tarlalarında" (1942), "Qaliblər" (1945), "Surəyya" (1948), "Sumqayıtın gənc iştirakçıları" (1953), "Həyatımızdan səhifələr" (1963), "Dostlar və tanışlar" (1965), "Yeni həyat yaradanlar" (1968), "Hekayələr, oçerklər, xatirələr" (1978) və s. İnternetdə: www.books.google.com

**6 May – Tənqidçi, ədəbiyyatşünas Arif Səfiyevin 85 illiyi, (1934)**



Arif Məhərrəm oğlu 1934-cü ildə Füzuli şəhərində anadan olmuşdur. Şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsinə qəbul olub. 1958-ci ildə universiteti tamamlayıb. Əmək fəaliyyətinə “Avtomobil nəqliyyatçısı” qəzeti redaksiyasında ədəbi işçi kimi başlayıb. 1961-ci ilədək redaksiyada çalışıb. Sonra Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olub. 1964-cü ildə Aspiranturanı tamamladıqdan sonra institutda elmi işçi kimi qalıb. 1969-cu ildən 1973-cü ilədək elmi katib vəzifəsində işləyib. 1973-cü ildən 1990-cı ilədək institutda baş elmi işçi kimi fəaliyyət göstərib. 1990-cı ildən hazırkı dövrədək institutun elmi katibi vəzifəsində çalışıb. Arif müəllim “Sabit Rəhmanın komediyaları” mövzusunda tədqiqat aparmış, filologiya elmlər namizədi elmi adını almışdır. Arif Səfiyev bir neçə kitabın müəllifidir. Onlardan “Sabit Rəhmanın komediyaları” (Bakı-1978), “Komediya və Həyat” (Bakı-1983), “Sabit Rəhman” (Bakı-1987), “Azərbaycan dramaturgiyası müasir mərhələdə” (Bakı-1998) adlı kitabları göstərmək olar. Alim hərtərəfli və dərin elmi araşdırmalardan sonra Sabit Rəhman dramaturgiyasının təkamül prosesini belə müəyyənləşdirir: "Sabit Rəhmanın "Toy" və "Xoşbəxtlər" komediyaları müasir komedioqrafiyamızın sağlam əsası olmuş, "Aşnalar", "Aydınlıq" və "Nişanlı qız" komediyalarında 40-cı və 50-ci illərdə dramaturgiyanın qarşılaşdığı çətinliklər, qazandığı müvəffəqiyyətlər öz ifadəsini tapmış, "Əliqulu evlənir" və "Yalan" komediyaları isə Azərbaycan sovet komediyasını yeni yüksəlişə çatdırmışdır". Sonrakı araşdırmalarında A.Səfiyev özünü yalnız komediya janrının deyil, bütövlükdə Azərbaycan sovet dramaturgiyasının yüksəliş dövrünün tədqiq və təhlilinə səfərbər edir. Onun 1970-80-ci illərdə Nizami adına Ədəbiyyat İnstitutunun çap etdiyi "Ədəbi proses" kitablarında dərc olunan icmallarında elmi təhlilin mərkəzinə həmin dövrün dramaturgiyası gətirilir və tənqidçi bu dramaturgiyanın uğur və qüsurlarını konkret əsərlərin təhlili əsasında əyaniləşdirir. Onun ilk mətbu məqaləsi Mirzə İbrahimovun "Kəndçi qızı" komediyasının təhlilinə həsr olunub. Sonralar dramaturgiyanın müxtəlif janrlarından yazsa da, peşəkarlıq məharətini daha çox komediya janrından bəhs edən məqalə və kitablarında büruzə verib.

**Əsərləri:** “Sabit Rəhmanın komediyaları” (1978), “Komediya və həyat” (1983), “Sabit Rəhman” (1987), “Azərbaycan dramaturgiyası müasir mərhələdə” (1998).

İnternetdə: https://az.wikipedia.org/wiki/Arif_Səfiyev

**9 May – Ədəbiyyatşünas, tənqidçi Məmməd Cəfərin 110 illiyi, (1909-1992)**



Cəfərov Məmməd Zeynalabdin oğlu 1909-cu il mayın 9-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Burada ilk təhsilini aldıqdan sonra Naxçıvan pedaqoji texnikumunu bitirmişdir (1928-1932). APİ-nin dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirməklə yanaşı, "Gənc işçi", "Maarif işçisi" qəzetlərinin redaksiyalarında şöbə müdiri vəzifəsində işləmişdir (1932-1935). Həmin institutun ərəb ədəbiyyatı kafedrasının aspiranturasında təhsil almışdır (1935-1938). Ədəbiyyat fakültəsinin dekanı (1938-1939), Bakı ikiillik Müəllimlər İnstitutunda baş müəllim (1939-1941), ADU-nun rus ədəbiyyatı kafedrasında dosent, həmçinin "Ədəbiyyat qəzeti" redaksiyasında şöbə müdiri (1941-1943), Quba Müəllimlər İnstitutunda elmi işlər üzrə direktor müavini (1943-1945), ADU-nun rus ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Ədəbiyyat qəzeti"nin redaktoru (1945-1949), ADU-nun filologiya fakültəsinin dekanı, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi (1949-1951), ADU-nun rus ədəbiyyatı kafedrasının müdiri (1951-1953), Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda Sovet ədəbiyyatı şöbəsinin (1959-1962), ədəbiyyat nəzəriyyəsi şöbəsinin (1963-1982) müdiri, institutun direktoru (1982-1984) olmuşdur. Azərbaycan EA ictimai elmlər bölməsinin akademik katibi olub (1984-1987). İlk bədii əsəri "Snayper İlyas" (B., Azərnəşr, 1942) oçerklərindən başqa əsərlərini "Zurnaçı", "M.N.", "Dəmdəməki", "Zorən təbib", "M.Zeynaloğlu" imzaları ilə çap etdirmişdir. Aspirant və dissertantlara elmi rəhbərlik etmiş, elmlər namizədi və elmlər doktorları yetişdirmiş, akademik Feyzulla Qasımzadə ilə birlikdə orta məktəb üçün XIX-XX əsrlər ədəbiyyat dərsliyini yaratmışdır. 30 ilə yaxın pedaqoji fəaliyyəti ərzində rus ədəbiyyatı, Qərb ədəbiyyatı, estetika və tənqid tarixi, mətbuat tarixi, Azərbaycan ədəbiyyatı tarixi kurslarını yaratmış və tədris etmişdir. Onun ədəbi-tənqidi və publisist əsərləri keçmiş SSRİ xalqlarının dillərində nəşr olunmuşdur. "Mirzə Ələkbər Sabir" və "Cəlil Məmmədquluzadə" kitabları rus, ingilis, fransız, ərəb, fars, ispan, türk dillərində buraxılmışdır. 1992-ci il mayın 11-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

**Əsərləri:** "Rus ədəbiyyatı tarixi oçerkləri" ( 1939), "Böyük insanpərvər şair" (1947), "Klassiklərimiz haqqında" (1948), "Sidqi Ruhulla" (1949), "M. F. Axundovun ədəbi-tənqidi görüşləri" (1950), "A.İ.Gertsen" (1954), "Ədəbi düşüncələr" (1958), "Füzuli düşünür" (1959), "Hüseyn Cavid" (1960), "Estetik zövq haqqında" (1964), "Rus klassikləri" (1964), "XIX əsr rus ədəbiyyatı tarixi" (1974), "Nizaminin fikir dünyası" (1982) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.563.

**9 May – Şair Məşkur Əkbərin 90 illiyi, (1929-1996)**



Əkbərzadə Məşkur Qurban oğlu 1929-cu il mayın 9-da Ordubad şəhərində sənətkar ailəsində doğulmuşdur. Ordubad şəhər orta məktəbinin səkkizinci sinfini bitirəndə İkinci Dünya müharibəsi başladığına görə kargüzarlıq etməyə və axşam fəhlə-gənclər məktəbində oxumağa məcbur olmuşdur. ADU-nun Filologiya fakültəsində təhsil almışdır(1949-1954). “Gənc alim”, “Namizəd qız”, “Deputat danışır” adlı ilk şeirlərini universitetin təsis etdiyi qəzetdə, “Bağda” adlı şeirini isə “Azərbaycan pioneri” (1950-ci il 31 mart) qəzetində dərc etdirmişdir. Əmək fəaliyyətinə “Şərq qapısı” qəzeti redaksiyasında şöbə müdiri kimi başlamışdır. Sonra Naxçıvan Dövlət Televiziya və Radio Verlişləri Komitəsində redaktor işləmişdir. Bu dövrdə respublika mətbuatında ardıcıl çıxış etmiş, şeirlərini, məqalələrini, səhnəyə qoyulmuş əsərlər haqqında rəylərini çap etdirmişdir. Bakıda “Azərbaycan məktəbi” jurnalı redaksiyasında texniki redaktor, Sumqayıtda Azərbaycan boru-prokat zavodunun yataqxanasında, sonra isə orada 49 saylı texniki – peşə məktəbində tərbiyəçi-müəllim olmuşdur. 1982-ci ilin mayında Naxçıvan şəhərində Azərbaycan Elmlər Akademiyasının Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun materialşünaslıq üzrə xüsusi konstruktor texnoloji bürosunda elmi məlumatçı işləmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir (1962). Məşkur Əkbər 1996-cı il dekabrın 14-də vəfat etmişdir.

**Əsərləri:** “Qaynar bulaqlar” (1964), “Mənim arzum” (1967), “Ömrümüzün baharı” (1989).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.589.

**10 May – Ədəbiyyatşünas, tənqidçi Şamil Qurbanovun 85 illiyi, (1934-2004)**



Şamil Dünyamalı oğlu Qurbanov 1934-cü il may ayının 10-da Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. 1955-ci ildə orta məktəbi bitirmiş və həmin ildə ADU-nun (indiki BDU-nun) jurnalistika şöbəsinə daxil olmuşdur. Universiteti fərqlənmə diplomu ildə bitirmiş və "Azərbaycan məktəbi" jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdır. 1961-ci ildə universitetin jurnalistika fakültəsində baş laborant işləmişdir. 1962-ci ildə Şamil Qurbanov Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə aspiranturaya qəbul olmuş və 1965-ci ildə "Zaqafqaziya rus dilli mətbuatında Azərbaycan ədəbiyyatı (1905-1917)" mövzusunda dissertasiyanı vaxtından əvvəl müdafiə etmiş və filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Müdafiədən sonra o, "Bakı" və "Baku" qəzetlərində ədəbiyyat şöbəsinin müdiri işləmişdir. 1968-ci ildə yenidən universitetə qayıtmış və "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında dosent işləmiş, Azərbaycan dilindən dərs demişdir. 1971-ci ildə Rus ədəbiyyatı tarixi kafedrasına keçmiş və rus ədəbiyyatından mühazirə oxumağa başlamışdır. 1973-cü ildən Türk və Şərqi slavyan xalqları ədəbiyyatı kafedrasına (o zaman "SSRİ xalqları ədəbiyyatı" kafedrası adlanırdı) keçmiş və həmin kafedrada dosent, professor işləmişdir. 1989-cu ildən bu kafedraya rəhbərlik etmişdir. 1975-ci ildə "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. Şamil Qurbanov Azərbaycan ədəbiyyatında yeni səhifələr açmış, indiyə qədər məlum olmayan və ya az məlum olan şəxsiyyətləri üzə çıxarmışdır. Bunlar Hüseyn Minasazov, Rəhimbəy Məlikov, Məmməd Qarayev, Həmzətbəy Qəbulov, Şirvanski, Sona xanım Axundova, Kərim Yaycılı və başqalarıdır. Onun Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, M.Ə.Rəsulzadə haqqında da dərin tədqiqat əsərləri vardır. Onun ən böyük ədəbi xidməti Ömər Faiq Nemanzadə və Şeyx Cəmaləddin Əfqani haqqında tədqiqatlarıdır. Bunların hərəsi haqqında məqalələrdən əlavə 4-5 kitab nəşr etdirmişdir, onların böyük xidmətləri şərh olunmuşdur. 1995-ci və 2000-ci ildə majoritar yolla Bakı şəhərinin Nizami rayonundakı 12 saylı seçki dairəsindən Milli Məclisə deputat seçilmişdir. Şamil Qurbanov 2004-cü ilin yanvar ayında Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:** “Açılmamış səhifələr” ( 1974), “Lermontov və Azərbaycan ədəbiyyatı” (1976), “Ədəbi dostluq” (1980), “Klassik rus poeziyası Azərbaycanda” (1985), “Ömər Faiq Nemanzadə” (1985), “XX əsr rus ədəbiyyatı tarixinə dair oçerklər” (1987), “İki görüş haqqında bir təəssürat” (1993), “Nəriman Nərimanov. Ömrün son günləri” (2003) və s.

İnternetdə https://az.wikipedia.org/wiki/ Şamil_Qurbanov

**13 May – Şair Hikmət Ziyanın 90 illiyi, (1929-1995)**



Hikmət Ziya 1929-cu il mayın 13-də Azərbaycanın Şəki şəhərində anadan olmuşdur. Ağdam şəhərində 1 saylı orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1947-1952). "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri, "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri (1969-1984), məsul katib vəzifələrində işləmişdir (1984). Ədəbi yaradıcılığa 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində çap edilən "Qeqola" adlı ilk şeiri ilə başlamışdır. Sonra dövri mətbuatda vaxtaşırı çıxış edib. İlk satirik şeirləri, eyni zamanda "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış?" (1959), "Milçək ürəyi" (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə çap olunmuşdur. "Sınaq", "Ekiz qardaşlar" pyesləri tamaşaya qoyulmuşdur. Librettolarına ("Nənəmin nağılı", "İkilərin sərgüzəştləri", "Solğun çiçəklər") və şeirlərinə musiqi bəstələnmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. O, özü də bədii tərcüməyə qayğı ilə yanaşmışdır. Ölkənin ayrı-ayrı şəhərlərində keçirilən uşaq və gənclər kitabı həftələrində, eləcə də təşviqat qatarı ilə səfərlərdə, yubiley təntənələrində iştirak etmişdir. "Mozalan" satirik kino-jurnalı bədii şurasının, Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, "Azərbaycan pioneri" və "Literaturnıy Azerbaydjan" jurnalı redaksiya heyətinin üzvüdür. Əfəndiyev Hikmət Ziya oğlu 1995-ci il avqustun 2-də Azərbaycanın Bakı şəhərində dünyasını dəyişmişdir. Onun adına "Hikmət Ziya" ədəbiyyat mükafatı təsis edilmişdir.

**Əsərləri:** "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış?" (1959), "Milçək ürəyi" (1960), "Şeirlər və təmsillər" (1963), "Ulduzların söhbəti" (1964), "Qısa təmsillər" (1965), "Xatirə" (1966), "Tülkü arayışında" (1967), "Buludlar" (1968), "Mənim dovşanım" (1970), "Qısqanc qarışqa" (1971), "Günəş və ləkələr" (1972), "Leylək yuvası" (1973), "Mənim misralarım" (1975), "Qardaşlar ovda" (1978), "Qərib cinlər diyarında" (1980), "Təmsillər" (1982), "İlin balaları" (1983), "Qardaşlığın qüdrəti" (1983), "Təmsillər" (1985), "Ömrümün payı" (1986), "Vətənim mənim" (1988), "Seçilmiş əsərləri" (1992) və s.

**Tərcümələri:** (ruscadan): İ.A.Krılov. Təmsillər. Bakı: Gənclik, 1982, 80 səh.

**Filmoqrafiya:** "Əli Bayramlı" (film, 1971)(I), "Azərbaycan qadını" (film, 1974), "Qərib cinlər diyarında" (film, 1977), "Dəcəl dovşan" (film, 1981).

İnternetdə: https://az.wikipedia.org/wiki/Hikmət_Ziya

**14 May – Yazıçı Anatoli Zöhrabbəyovun 110 illiyi, (1909-1946)**



Zöhrabbəyov Anatoli Həsən oğlu 1909-cu il mayın 14-də Bakıda dəmiryolçu ailəsində doğulmuşdur. Burada orta məktəbi bitirmişdir. APİ-nin kimya fakültəsində təhsil almışdır (1931). Bir neçə il Azərbaycan SSR Neft sənayesi Elmi-Tədqiqat neft-kimya institutunda laborant, kiçik elmi işçi vəzifələrində çalışmışdır (1932-1933).

Ədəbi fəaliyyətə 1940-cı ildən başlamışdır: dövri mətbuatda lirik şerlər, mahnı mətnləri çap etdirmişdir. Poetik yaradıcılığında Nizami Gəncəvidən tərcümələr başlıca yer tutur. Şairin "İsgəndərnamə" mənzum romanından rus dilinə etdiyi tərcümələr rəğbətlə qarşılanmışdır. Əsərlərini rus dilində yazmışdır. "Odlu diyar" tarixi* romanı "Drujba narodov" almanaxında, "Vətən uğrunda" jurnalında, sonra isə ayrıca kitab halında buraxılmışdır (1945). Burada XII əsr Azərbaycan ictimai-siyasi hadisələri, xalq həyatı, onun mübarizəsi maraqlı lövhələrlə təsvir edilmişdir. Vaxtsız ölüm əsərin ikinci cildini başa çatdırmağa imkan verməmişdir. Anatoli Zöhrabbəyov1946-cı ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.67.

**20 May – Yazıçı, dramaturq Musa Quluzadənin 80 illiyi, (1939)**



Quliyev Musa Nizam oğlu 1939-cu il mayın 20-də Azərbaycanda Masallı rayonunun Xıl kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmiş, Lənkəran kənd təsərrüfatı texnikumunda təhsil almışdır (1955-1959). Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsində təhsilini davam etdirmişdir (1960-1971). Mərkəzi Dövlət muzeyində direktorun elmi işlər üzrə müavini vəzifəsində çalışmışdır (1971-1991). Eyni zamanda universitetdə Azərbaycan tarixindən mühazirələr oxumuşdur. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun Azərbaycan tarixi kafedrasının dosenti işləmişdir. Bədii yaradıcılığa universitetdə tələbəlik dövründə başlamışdır. İlk mətbu əsəri (lirik miniatür hekayə) 1967-ci ildə "Sovet ticarəti" qəzetində dərc olunmuşdur. Uşaqlar üçün yazdığı hekayə və nağılları "Azərbaycan pioneri", "Göyərçin" və "Pioner" qəzet və jurnallarında vaxtaşırı çap olunmuşdur. "Uzaqdan gələn səslər" pyesinin tamaşası mavi ekranda nümayiş etdirilmişdir. Xalq teatrı üçün bir neçə pyes "Ulduz" jurnalında çap olunmuşdur (1987). Dövri mətbuatda Azərbaycan tarixinə dair məqalələrlə çıxış etmişdir. Professor Musa Quluzadə hazırda çoxlu bədii kitabların və elmi monoqrafiyaların müəllifidir.

**Əsərləri:** "Püstə" (1974), "Onu hamı görmək istəyirdi" (1980), "Təbliğat vasitələrinin təsir gücü" (1984), "Meşədən səs gəlir" (1985), "Ötən günlərin sorağında" (1989), "Mərhəmətli və şəfqətli qəlb" (1991) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.628

**20 May – Şair, ədəbiyyatşünas Salman Mümtazın 135 illiyi, (1884-1941)**



Salman Məmmədəmin oğlu Əsgərov 20 may 1884-cü ildə Nuxanın Gəncəli məhəlləsində anadan olub. Uşaqlıq illərindən Salman Mümtaz elmə böyük maraq göstərib; fars və ərəb dillərini mükəmməl bilirdi. 3 ay molla yanında dərs keçmiş Salman 22 yaşınadək gecə-gündüz öz üzərində ciddi çalışıb, fars, ərəb, rus, urdu dillərinə yiyələnib, hafizəsi ilə Şərq ədəbiyyatının incilərini mənimsəyib. Salmanın qüvvətli zəkası olduğu üçün, o, bir çox şeirləri əzbərləmişdi. İslam xalqlarının dillərini bilməsi onda Şərq ədəbiyyatına qarşı maraq yaratmışdı. Dayısı Kərbəlayi Mövsümün dəzgahında ticarətlə məşğul olan Salman Mümtaz İmadəddin Nəsimi, Qövsi Təbrizi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh və digər Azərbaycan klassiklərinin əsərlərini nəşrə hazırlamışdı. 1927-28-ci illərdə Azərbaycan aşıq poeziyasının nümunələrini iki cilddə nəşr etdirmişdi. O, həmçinin Xətai, Füzuli və digərlərinin elmi-tənqidi mətnlərini tərtib etmişdi. 1910-cu ildə Mirzə Ələkbər Sabirlə iki həftəlik ikinci görüşü onu ədəbiyyata daha da bağlayıb: Sabirin Mümtazı həvəsləndirilməsindən sonra "Molla Nəsrəddin"də onun "Xortdan bəy" imzası görünməyə başladı. Salman Mümtaz Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra klassik ədəbi irsin toplanması, nəşri və tədqiqi sahəsində fəaliyyət göstərmiş, Azərbaycan şair və aşıqlarının əsərlərinin bir sıra naməlum əlyazma nümunələrini aşkara çıxarmışdır. 1920-ci ildən 1925-ci ilə qədər Mümtaz, Azərbaycan ədəbiyyat və incəsənət nümayəndələrindən təxminən 200 ədəd kitab, məqalə və müxtəlif yazıçıların əlyazmalarını toplamağı bacardı. "Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" başlığı altında Azərbaycan ədəbiyyatına dair məqalələr dərc etdi. Salman Mümtaz Stalin repressiyasının qurbanı olmuş, 1937-ci ilin oktyabrında həbs olunub və 10 il müddətinə azadlıqdan məhrum edilib. 1941-ci ilin 21 dekabrında siyasi dustaqlar barədə SSRİ-nin paytaxtında ölüm hökmü verilmişdi. Əmrin icrasına təcili başlanıldı. Salman Mümtaz qətlə yetirildi. Ələsgərov Salman Mümtaza 1956-cı il noyabrın 16-da SSRİ Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət verildi. 13 sentyabr 1996-cı ildə Azərbaycan ədəbiyyatı qarşısında xidmətlərini nəzərə alaraq Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə Salman Mümtazın adı verilməsi ilə bağlı qərar qəbul edilmişdir.

**Əsərləri:** “Azərbaycan ədəbiyyatının qaynaqları” (1986), “Ağa Məsih Şirvani”, “Molla Pənah Vaqif”, “Nişat Şirvani”, “Qövsi”, “Qasım bəy Zakir”, “Mirzə Şəfi Vazeh”, “Seyid İmadəddin Nəsimi”, “Baba bəy Şakir”, “Aşıq Abdulla”, “Mehdi bəy Şəqaqi” və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Salman_Mumtaz

**23 May – Yazıçı Hüseyn İbrahimovun 100 illiyi, (1919-2008)**



Hüseyn İbrahimov 1919-cu il mayın 23-də Naxçıvan Muxtar Respublikasının indiki Kəngərli rayonunun Şaxtaxtı kəndində anadan olmuşdur. Hüseyn İbrahimov 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1958-ci ildə onun jurnalistika şöbəsini bitirmişdir. Hüseyn İbrahimov 1941-1943-cü illərdə indiki Şərur rayonu komsomol komitəsinin birinci katibi, 1943-1947-ci illərdə Naxçıvan vilayət komsomol komitəsinin katibi, 1947-1949-cu illərdə "Şərq qapısı" qəzetinin redaktor müavini, 1949-1954-cü illərdə isə Naxçıvan Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri işləmişdir. O, 1954-1960-cı illərdə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan filialının sədri, 1960-1961-ci illərdə Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsində mühazirəçilər qrupunun rəhbəri, 1961-1965-ci illərdə "Şərq qapısı" qəzetinin redaktoru olmuş, 1970-1975-ci illərdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri, 1975-1980-ci illərdə "Şərq qapısı" qəzetində şöbə müdiri, 1977-ci ildən isə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi və Naxçıvan Yazıçılar Birliyinin sədri vəzifələrində çalışmışdır. Onun 1950-ci illərdən etibarən qələmə aldığı hekayə, povest, roman və pyeslər müasirlərimizin mənəvi zənginliyini əks etdirən dolğun sənət nümunələridir. Onun yaradıcılığında Azərbaycan mədəniyyətinin görkəmli simalarının işıqlı obrazları parlaq bədii təcəssümünü tapmışdır. Yazıçının xarici dillərə tərcümə olunmuş bir çox əsərləri ölkəmizin hüdudlarından kənarda yayılaraq ədəbiyyatımızın şöhrətini daha da artırmışdır. Onun tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya ədəbi fikrinin bəzi dəyərli nümunələri ilə tanış olmaq imkanı qazanmışdır. Hüseyn İbrahimovun ictimai fəaliyyəti də zəngin olmuşdur. O, üç çağırış Naxçıvan Ali Sovetinin və bir çağırış Naxçıvan Ali Məclisinin deputatı, 1963-cü və 1967-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilmişdir. Hüseyn İbrahimovun Azərbaycan ədəbiyyatının inkişafında göstərdiyi xidmətlər layiqincə qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. Yazıçı 2008-ci il aprel ayının 10-da Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Kamalın ad günü" (1957), "Gülzar" (1958), "Baharın hekayəsi" (1958), "Zərifənin çiçəkləri" (1960), "Şirin xatirə" (1963), "Göyərçinin məhəbbəti" (1964), "Sabahın sorağında" (1966), "Seçilmiş əsərləri" (1974), "Günəş doğan yerdə" (1976), "Nəciblik" (1979), "Bahar yağışı" (1983), "Səhv edəndə" (1985), "Əsrin onda biri" (1987), "Qu quşları öləndə oxuyurlar" (1988), "Böhtan" (1998), "Ata, qız və bostonlu Franklin" (1999) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Hüseyn_İbrahimov

**24 May – Şair Abbas Səhhətin anadan olmasının 145 illiyi, (1874-1918)**



Abbas Səhhət 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlmişdir. Məşhəd və Tehran şəhərlərində tibb təhsili almışdır. 1901-ci ildə Şamaxıya qayıdan Abbas Səhhət tədricən həkimlik sənətindən uzaqlaşaraq məktəblərdə, daha sonra Azərbaycan dilindən dərs deyib. Məhz bu dövrdən etibarən ədəbi fəaliyyətə başlayıb. 1903-cü ildən məqalələri Şərqi-Rus qəzetində çap olundu. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirləri işıq üzü gördü. "Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhət, professor Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulmuşdur (Füyuzat jurnalı, 1906-1907-ci illər). Abbas Səhhət o dövrdə Bakıda nəşr olunan bütün jurnal və qəzetlərdə mütəmadi qaydada çıxış edib. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan yazıçı o dövr Azərbaycan oxucusunu rus (Lermontov, Puşkin, Krılov, Nadson, Maksim Qorki və b.), fransız (Hüqo, Müsse, Sülli-Prüdom və b.), alman şair və yazıçılarının əsərləri ilə tanış edib. 1912-ci ildə şairin öz şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən etdiyi tərcümələrdən ibarət "Qərb günəşi" adlı şeirlər toplusu işıq üzü gördü. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, şeir pərisi və şəhərli" adında romantik poeması nəşr olunub. Abbas Səhhətin yaradıcılığına Şərqin Nizami, Hafiz, Sədi kimi şairlərin böyük təsiri olmuşdur. O, türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanmış, xüsusilə Tofiq Fikrət yaradıcılığına xüsusi diqqət göstərmişdir. Abbas Səhhət Azərbaycanda liberal burjuaziya ideyasını müdafiə etmiş, İslam dəyərlərindən imtinaya qəti etiraz edərək, əsərlərində "ümummüsəlman qərbçiliyi" ideyasını dəstəkləmişdir. 1908-ci ildə baş vermiş İran inqilabına ən gözəl əsərlərini həsr etmişdir. Şair həm də Mirzə Ələkbər Sabir ilə yaxın dost olmuşdur. Hər ikisinin Şamaxıda yaşamağı bu dostluğun güclənməsində böyük rol oynamışdır. Abbas Səhhət kiçik yaşlı uşaqlar üçün yazdığı şeir, təmsil və pyeslərində mənəvi saflıq, vətənpərvərlik duyğularını təbliğ etmişdir. Abbas Səhhət 1918-ci ildə dünyasını dəyişmişdir.

**Əsərləri:** "Məğrib günəşləri", "Volqa səyahəti", "Əli və Ayişə", "Sınıq saz" (1912), "Əsərləri" (1935), "Seçilmiş əsərləri" (iki cilddə; 1975, 1976), "Təmsillər, tərcümələr. Kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün", "Gün dağlara yayıldı" (2002), "Seçilmiş əsərləri" (2006) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Abbas_Səhhət

**25 May – Şair, yazıçı, dramaturq Məmməd Kazımın 85 illiyi, (1934)**



Kazımov Məmməd İsrafil oğlu 1934-cü il mayın 25-də Azərbaycanın dilbər guşələrindən olan Masallı rayonunun Tatyan kəndində anadan olmuşdur. Məmməd Kazım 1962-ci ildə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirib. 1969-cu ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətində redaktor, 1971-83-cü illərdə isə “Hünər” hərbi-vətənpərvərlik redaksiyasının baş redaktoru və aparıcısı kimi fəaliyyət göstərib. Ədəbi-bədii fəaliyyətə gənc yaşlarından şeirlə başlayıb, “Qönçə şeirlər” adlı ilk şeirlər kitabı 1966-cı ildə işıq üzü görüb. İndiyə qədər “Zirvəyə yol axtarıram”, “Xəzər laylası”, “Xatın zəngləri”, “Leytenant Kərimov və dostları”, “Taleyim, qismətim”, “Gələrəm görüşünə”, “Hünər” və sair bu kimi şeir, poema, nəsr, dram kitabları dərc olunub. Məmməd Kazımın Tatarıstanın Xalq şairi Robert Minnullinin şeirlərindən tərcümələri müstəqillik dövrü poetik tərcümə işinə layiqli töhfəsidir. Doğma yurdun təbii gözəllikləri və tarixi keçmişinin, vətəninin qəhrəman oğul və qızlarının tərənnümü, sevginin vəsfi, müharibələrə qarşı kəskin etiraz, sülhə, xoşgörüyə, barışa çağırış, neqativ sosial təzahürlərə qarşı satirik ironiya onun sadə və xəlqi dildə qələmə alınan, janrca zəngin, məzmunca dolğun əsərlərinin ümdə xüsusiyyətləridir. Məmməd Kazımın ədəbiyyat sahəsindəki xidmətlərinin mühüm bir qolunu naşirlik fəaliyyəti təşkil edir. Onun baş redaktoru olduğu “Qala” ədəbi-bədii qəzeti ədəbi prosesin nəinki bölgələrdə, hətta ümumrespublika miqyasında canlandırılması və bir çox gənc istedadların üzə çıxarılması işində böyük rol oynayıb. M. Kazım “Hünər” və digər hərbi-vətənpərvərlik verilişləri ilə insanların dərin hörmətini qazanıb. O, Böyük Vətən Müharibəsində itkin düşmüş minlərlə əsgərlərin yaxınları ilə qovuşmasında vasitəçi olub. Kazımov Məmməd İsrafil oğlu 10 mart 2018-ci ildə dünyasını dəyişmişdir.

**Əsərləri:** “Qönçə” (1966), “Zirvəyə yol axtarıram” (1970), “Xəzər laylası” (1972), “Xatın zəngləri” (1977), “Leytenant Kərimov və dostları” (1980), “Taleyim, qismətim” (1983), “Gələrəm görüşünə” (1988), “Hünər” (1990), “Salam General” (1983), “Mirhəsən xanın övladları”, “Ya Peyğəmbər” (1999), “General Həzi” (2000), “Sahildə ucalan palıd” (2001), “Qarabağım-qara bağrım” (2002) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.569

**26 May – Ədəbiyyatşünas Vəli Xuluflunun 125 illiyi, (1894-1938)**



Vəli Xuluflu 1894-cü il mayın 26-da Yelizavetpol quberniyasının (indiki Şəmkir rayonunun) Xuluflu qəsəbəsində doğulmuşdur. İbtidai təhsilini mollaxanada almışdır (1905-1907). Sonra "Mədrəseyi-Ruhaniyyə"ni bitirmişdir (1912). Həmin məktəbdə müəllim saxlanmışdır (1913). Bu vaxtdan gizli inqilabi işə qoşulmuş, sonra RSDFP sıralarına daxil olmuşdur (1919). Gəncə quberniyasında qəza partiya komitəsinin katibi işləmişdir (1921-1922). Bakıda ADU-nun şərqşünaslıq fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda yeni türk (Azərbaycan) əlifbası komitəsində işləmişdir (1922-1927). "Bakı fəhləsi" kooperativ nəşriyyatında və "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində əməkdaşlıq etmişdir (1927-1929). Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda elmi katib, onun yenidən təşkili vaxtı isə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru olmuşdur (1929-1932). Şifahi xalq ədəbiyyatının toplanmasına və nəşrinə qayğı göstərmişdir. "El aşıqları" (1927) toplusunu tərtib və çap etdirmişdir. İnstitut ləğv ediləndən sonra bir müddət Mərkəzi Arxiv İdarəsində müdir vəzifəsində çalışmışdır (1933). Sonra Azərbaycan SSR Xalq Maarif Komissarlığında universitet və elmi-tədqiqat müəssisələri idarəsinin rəisi və Dövlət Elmi Şurasının sədr müavini, eyni zamanda SSRİ EA Azərbaycan şöbəsinin baş mütəxəssisi olmuşdur (1933-cü ildən).

Yeni türk əlifbası komitəsinin üzvü və yeni əlifbanın digər ölkə xalqları arasında yayılması üzrə təlimatçı kimi onun fəaliyyəti böyükdür. Azərbaycanı Tədqiq və Təbliğ cəmiyyətinin işlərində fəal çalışmışdır (1924-cü ildən). Zaqafqaziya federasiyasının 10 illiyində ictimai-elmi və ədəbi xidmətlərinə görə Fəxri tərifnamə və qızıl saatla təltif olunmuşdur. Vəli Xuluflu 1938-ci ildə cəza tədbirləri dövründə həlak olmuşdur.

**Əsərləri:** "Yeni türk əlifbası ilə yazı qaydaları" (1925), "Koroğlu" (1927), "İmla lüğəti" (1929), "Tapmacalar" (1929), "Din və qadın" (1930), "Səlcuq dövlətinin daxili quruluşuna dair" (1930), "Məhərrəmlik münasibətilə" (1932) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.912

**26 May – Xalq yazıçısı, dramaturq İlyas Əfəndiyevin 105 illiyi, (1914-1996)**



İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 26-də Qaryagində (indiki Füzuli şəhəri) tanınmış və hörmətli tacir ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ.Əfəndiyev 1935-1938-ci illərdə Qaryagin şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, savadsızlığın aradan qaldırılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir. 1934-cü ildə APİ-nin ədəbiyyat şöbəsinə daxil olsa da, onun ali məktəbdə təhsil alması çox uzun sürməyib; elə həmin il institutu tərk edib rayona qayıtmağa məcbur olub. O, 1938-ci ildə APİ-nin coğrafiya fakültəsinin qiyabi şöbəsini qurtarıb rayona qayıdaraq müəllimliyini davam etdirib. Onun bir sıra məqalə, oçerk və hekayələri respublikanın müxtəlif qəzetlərində dərc olunurdu. Yaradıcılıq yollarında inamla addımlayan gənc yazıçı 1941-45-ci illərdə Azərbaycan Radio komitəsində ədəbi verilişlər şöbəsinin müdiri, 1945-ci ildən Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi, daha sonra isə "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışarkən ədəbi ictimaiyyətlə bilavasitə təmasda və əlaqədə işləmiş, həyatı dərindən öyrənmiş, dünyagörüşünü daima artırmışdır. 1945-ci ildə İ.Əfəndiyevin "Aydınlıq gecələr" adlı ikinci kitabı nəşr olunur ki, burada əsasən müharibə illərində yazılmış əsərlər toplanmışdı. Əlinə qələm aldığı ilk gündən müasir mövzulara daha çox müraciət edən dramaturq, 1971-ci ildə mövzusu tarixi keçmişimizdən götürülmüş "Mahnı dağlarda qaldı" pyesini yazıb. Yeni yaradıcılıq uğuru kimi qarşılanmış bu pyesə görə İ.Əfəndiyev 1972-ci ildə Respublika dövlət mükafatına layiq görülüb. Görkəmli ədəbiyyat xadimi, geniş şöhrət qazanmış İ.Əfəndiyev Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin 30 iyul 1979-cu il tarixli fərmanı ilə Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. 1994-cü ildə Xalq yazıçısı İ.Əfəndiyevin anadan olmasının 80 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti yazıçını "Şöhrət" ordeni ilə təltif etdi. Zəngin yaradıcılıq yolu keçmiş, həyatın acılı-şirinli günlərini yaşamış sənətkarımız İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Kənddən məktublar" (1939), "Aydınlıq gecələr" (1945), "Pyeslər" (1949), "Şamama" (1949), "Qoruqlarda" (1950), "Torpağın sahibi" (1952), "Bahar suları" (1955), "Söyüdlü arx" (1959), "Körpü salanlar" (1960), "Dağlar arxasında üç dost" (1964), "Zəmidə bir turac səsləndi" (1967), "Sarıköynəklə Valehin nağılı" (1980), "Qırçı və qırmızı çiçək" (1981), "Geriyə baxma qoca" (1981), "Üçatılan" (1982), "Bizim qəribə taleyimiz" (1989), "Üç roman" (1987), "Ceyran ovu" (1994) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/İlyas_Əfəndiyev

**30 May – Şair, tərcüməçi, ədəbiyyatşünas Rəşid Təhməzoğlunun 80 illiyi, (1939)**



Quliyev Rəşid Təhməz oğlu 1939-cu il mayın 30-da Zəngəzur mahalının Qafan bölgəsindəki Yuxarı Kirətağ kəndində müəllim ailəsində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin axşam şöbəsində təhsil almışdır (1962-1968). Bakı Maarif şöbəsinin Damba qəsəbəsindəki 231 saylı məktəbində Azərbaycan dili və ədəbiyyatdan dərs demişdir (1964-1968). Uzun müddət arxiv sahəsində fəaliyyət göstərmişdir. Azərbaycan Dövlət səsyazmaları arxivində elmi işçi (1968-1969), Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor, Azərbaycan EA “Dostluq sarayı”nda kiçik elmi işçi (1969-1987), Azərbaycan EA Milli Münasibətlər İnstitutunun milli-mədəni və etnodilprosesləri şöbəsinin elmi əməkdaşı (1987-1998), institutun elmi katibi (1998-2000), orada baş elmi işçi (2000-2003) olmuşdur. 1960-cı illərdən dövri mətbuat səhifələrində bədii, elmi və publisistik əsərlərlə çıxış edib. “Azərbaycan arxivi” jurnalı redaksiya heyətinin üzvi olmuş (1983-1988), Azərbaycan EA Milli Münasibətlər İnstitutunun Elmi Şurasının üzvüdür. “Ə.Cəmilin yaradıcılığı” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1996). “Sevdim Azərbaycanı” (1980), “Səhnədə keçən yollar” (1983), “Bakıya gedirəm...”, (Nazim Hikmət və Azərbaycan – 1984) kitablarını tərtib etmişdir.

**Əsərləri:** “Üzeyir Hacıbəyov” (1975), “Ay sevənim, sevənim” (1997), “Dik gedib, dik gəlirsən” (1998), “Dədəm Qorqud” (1999), “Yağmur” (2001), “Körpələrədir sözüm” (2002), “Günəş işığı” (2002), “Başını dik tutsun Çıraqbalımız” (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.741.

**Xarici ədəbiyyat**
**11 May – İngilis yazıçısı E.Voyniçin 155 illiyi, (1864-1960)**



Etel Lilian Voyniç məşhur ingilis yazıçısı və bəstəkarıdır. 1864-cü ildə İrlandiyanın Kork şəhərində anadan olmuş bu xanımın əsil-kökü çox məşhurdur. Atası İngiltərənin məşhur riyaziyyatçı və mütəfəkkiri Corc Buldur. Dünyada ən hündür zirvə Etelin dayısı Corc Everestin adı ilə bağlıdır. İlk dəfə ailə həyatını 1890-cı ildə quran Etelin yoldaşı, ədəbiyyatşünas və bibliofil V.M.Voyniç dünyada məşhur olan "Voyniç əlyazması"nın kəşfi ilə ad qazanıb (bu əlyazmalar Rocer Bekon adlı keşiş tərəfindən XIII əsrdə yazılıb və indiyə kimi hələ heç kəs bu yazıların şifrəsini aça bilməyib). Bir müddət sonra Etel siyasətə qoşulub. Etel İtaliyaya səyahətə çıxmışdır və burada Cüzeppe Qaribaldi və Cüzeppe Madzini kimi italyan inqilabi şəxsiyyətlərinin həyatından qaynaqlanaraq "Ovod" romanında Artur Berton (Ovod) obrazını yaradır. Qeyd etmək lazımdır ki, qədim yunan filosofu Sokratın da ləqəbi Gadfly (yəni, Ovod) olmuşdur. Etel Lilian Voyniç 1960-cı il 28 iyulda Nyu-Yorkda vəfat edib. Vəsiyyətinə görə nəşi yandırılaraq külü Nyu-Yorkun mərkəzi parkına səpilib.

**Əsərləri:** "Ovod" (1891), "Cek Reymond", "Oliviya Letem", "Qırılmış dostluq" (1895), "Rusiya yumoru", "Sən ayaqqabıları çıxar" və s.

İnternetdə: https://**az.wikipedia.org** / Etel_ Lilian_ Voyniç

**20 May – Fransız yazıçısı Onore de Balzakın 220 illiyi, (1799-1850)**



Balzak 1799-cu ildə mayın 20-də Rablenin şən vətəni, bərəkətli əyalət şəhəri Turində anadan olub. Onore de Balzak XIX əsr görkəmli fransız yazıçı-dramaturqudur. Adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib. Qərbi Avropa realizminin zirvəsi Onore de Balzak hesab edilir. Onun ən məşhur əsəri – "Bəşəri komediya" və ya "İnsan komediyası" (La Comédie humaine) adlı epopeyada fransız həyatının bütün sahələri 143 kitabda əks etdirilməli idi. O, bütün gücünü sərf edərək 90 roman və novella yazdı. Yazdığı yüzdən artıq roman və pyesləri birlikdə "İnsan komediyası" (La Comédie humaine) adı altında tanınır. Bu əsərlər toplusu və ya seriyası 1815-ci ildə Napoleon Bonapart Fransasının süqutundan sonrakı dövr fransız cəmiyyətinin, xüsusilə də burjua təbəqəsinin komik-satirik mənzərəsini canlandırıb. İlhamın, istedadın, yaradıcı təxəyyülün qüdrəti etibarilə o, Nizami Gəncəvi, Aligyeri Dante, Uilyam Şekspir, Lev Tolstoy kimi sənətkarlarla bir cərgədə dayanır. Yüz əlli ildən çoxdur ki, onun şəxsiyyəti, zəmanəsi, dünyagörüşü, fövqəladə həcmə və dəyərə malik olan bədii irsi ətrafında gedən mübahisələr səngimək bilmir. Realist sənətin, dünya mədəniyyətinin ən mütərəqqi ənənələrinin varisi olan sosialist bədii fikrinin inkişafını Balzaksız təsəvvür etmək olmaz. Fransız, o cümlədən Avropa tənqidi realizminin ən parlaq dövrünün Balzakın yazıb-yaratdığı, təşəkkül tapdığı 20-40-cı illərə təsadüf etməsi də həmin dayaq, zəminlə bağlıdır. Dahi sənətkar bütün ömrünü həsr etdiyi 97 novelladan, povestdən və romandan ibarət ölməz epopeyası – "Bəşəri komediya" yaratmışdır. "Bəşəri komediya"nın ilk əsərləri 1829-cu ildə, sonuncular isə 1847-ci ildə yazılmışdır. Epopeya üç hissəyə ayrılır: "Əxlaqi tədqiqlər", "Fəlsəfi tədqiqlər", "Analitik tədqiqlər". Onun "Qorio ata" romanı "Bəşəri komediya"nın sütunlarından biridir. Balzak özü "Bəşəri komediya"nı "üç-dörd min iştirakçısı olan dram" adlandırmışdır. Əsəri külliyyat halında oxuyan kəs özünü nəhənglər məmləkətinə düşmüş Qulliver kimi hiss edir. Bu əsərdə yazıçı yoxsul tələbələrin, katorqaçıların, müflisləşmiş burjuaların, pozğun və amansız kübar qadınların, fırıldaqçı tacirlərin dolaşdığı mühitdə "ictimai mühərrik"in doğurduğu münasibətləri, insanlara aşıladığı eybəcər əqidəni, yaratdığı mənəvi uçurumu qüdrətlə əks etdirmişdir. Balzakın “Qobsek” (1830, Balzaka ilk söhrət gətirən əsərlərdən biri), “Qorio Ata”, “Ejen Qrande”, “İtirilmiş xəyallar”, “Kurtizankanın dəbdəbə və səfaləti” və s. kimi dahiyanə əsərləri vardır.

**Əsərləri:** “Bəşəri komediya”, “Şaqren dərisi”, “Ejen Qrande”, “Qorio ata”, “Sezar Biroto”, “İtirilmiş illüziyalar”, “Vadidəki Zambaq”, “Qobsek”.

İnternetdə: https://az.wikipedia.org/wiki/Onore_de_Balzak

## 26 May (6 İyun) – Dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin 220 illiyi, (1799-1837)



Dahi rus şairi, nasir və dramaturq Aleksandr Sergeyeviç Puşkin 26 may (6 iyun) 1799-cu il tarixində Moskvada anadan olmuşdur. Gənc Puşkinin dünyagörüşünün formalaşmasına böyük təsiri nənəsi Mariya Alekseyevna (Hannibal) göstərmişdir. O, hər yayını nənəsinin yaşadığı kənddə keçirərmiş. 1811-ci ildə Aleksandr Puşkin şairlik istedadının əmələ gəlməsinə əsaslı şəkildə təsir göstərmiş Tsarskoselsk liseyinə daxil olub və həyatının 6 ilini burada keçirib. Gənc Puşkinin ədəbi fəaliyyəti məhz həmin illərə təsadüf edib. 1816-cı ildə A.S.Puşkinin poeziyası "böyüyür" və ön plana onun lirikasının elegiya kimi sevimli janrı çıxıb. 1817-ci ildə Puşkin Liseydə təhsilini başa vurmuş və Xarici İşlər Kollegiyasında işləməyə başlamışdır. Dekabristlərlə ünsiyyət şairin yaradıcılığına təsir etməyə bilməzdi. Bir-birinin ardınca yazılan "Çaadayevə", "Sərbəstlik", "Kənd" kimi siyasi şeirlərə görə şair az qala Sibirə sürgün ediləcəkdir. Qlinka, Karamzin, Çaadayev kimi dostlarının himayəsi cəzanı yüngülləşdirir və Aleksandr Puşkin iş yerindən Ekaterinoslav şəhərinə təyinat almışdır. 1823-cü ildə Puşkin "Yevgeni Onegin" romanı üzərində çalışmağa başlayıb. 18 fevral 1831-ci il tarixində Moskvada Aleksandr Puşkinlə Natalya Qonçarovanın nigah mərasimi keçirilib və onlar yaşamaq üçün Tsarskoye selodakı (Çar-kənd) bağ evlərinə yollanıblar. Burada şair "Yevgeni Onegin" romanını nəhayət başa çatdırmışdır. 1834-cü ildə Puşkin istefa haqqında ərizə verib və xahişi qəbul olunub. Şairin bundan sonrakı həyatı dərc etdirdiyi əsərlərdən əldə olunan qeyri-stabil gəlirlərdən asılı idi. Maliyyə problemləri, istedadının sonunu proqnozlaşdıran tənqidçilərin sərt hücumları şairin yaradıcılığında böhrana gətirib çıxartmışdır. 1837-ci ilin qışında A.S.Puşkinlə Jorj Dantes arasında duellə nəticələnən münaqişə baş verib. Ölümcül yaralanan şair iki gündən sonra vəfat etdi. Aleksandr Sergeyeviç Puşkin Mixaylovsk malikanəsinin yaxınlığındakı Svyatoqorsk monastırının divarları önündə dəfn edilib.

**Poemalar:** "Ruslan və Lyudmila", "Qafqaz əsiri", "Baxçasaray fontanı", "Qaraçılar" "Tazit", "Mis atlı", Mənzum roman: "Yevgeni Onegin".

**Dram əsərləri:** "Boris Qodunov", "Xəsis cəngavər", "Mosart və Salyeri", "Daş qonaq", "Vəba zamanı qonaqlıq", "Su pərisi", Nəsr əsərləri: "Böyük Pyotrun ərəbi", "Qaratoxmaq qadın", "Kapitan qızı".

**Nağıllar:** "Çar Saltan, onun oğlu şöhrətli və qüdrətli pəhləvan knyaz Qvidon Saltanoviç və gözəl qu quşu şahzadə qız haqqında nağıl", "Balıqçı və balıq haqqında nağıl", "Ölü şahzadə və yeddi pəhləvan haqqında nağıl", "Qızıl xoruz haqqında nağıl".

İnternetdə: https://az.wikipedia.org/wiki/Aleksandr_Puşkin

**31 May – Rus yazıçısı Leonov Leonid Maksimoviçin 120 illiyi, (1899-1994)**



Leonid Maksimoviç Leonov 31 may 1899-cu ildə Rusiya imperiyasının Moskva şəhərində anadan olmuşdur. Leonid Leonov 1915-ci ildə Arxangelsk şəhərində "Северное утро" adlı qəzetdə çalışmışdır. 1918-ci ildə 3-cü Moskva gimnaziyasını gümüş medalla bitirmişdir. Sonra Moskva Universitetində oxumuşdur. 1920-ci ildə könüllü olaraq orduya yazılmışdır. Leonid Leonov Qızıl Orduda xidmət etdikdən sonra, 1922-ci ildə Moskvada məskunlaşmışdır. Leonid Leonovun ilk əsəri 1969-cu ildə "Adi günlər və bayramlar" adı altında çap edilmişdir. Leonid Maksimoviç Leonov yaradıcılığı ərəfəsində roman, pyes, hekayə janrında əsərlər yaratmışdır.

Leonid Leonov 8 avqust 1994-cü ildə SSRİ-nin Moskva şəhərində vəfat etmişdir. Leonid Maksimoviç Leonov 1967-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Leonid Maksimoviç Leonov yazıçı, dramaturq kimi öz sözünü deyən sənətkarlardandır.

**Əsərləri:** "Porsuqlar", "Rus meşəsi" (romanlar), "Canavar", "Çovğun", "Adi adam" və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/ Leonov_ Leonid

**18 May – Dağıstan şairi Süleyman Stalskinin 150 illiyi, (1869-1937)**



Stal Süleyman sovet ləzgi poeziyasının əsasını qoymuş ləzgi xalqının böyük şairidir. O, 1869-cu ildə Dağıstanın Kürə vilayətinin Aşağı Stal kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Uşaq vaxtı yetim olmuş şair, uzun illər çörək qazanmaq üçün qürbətdə olmuşdur. Bakıda neft mədənlərində, Səmərqənddə dəmir yolunda işləmiş, varlı adamların qapısında nökərlik etmişdir. Stal Süleyman poeziyaya özünəməxsus yenilik gətirmişdir. Şeir yazmağa orta yaşlarında başlamışdır. Süleyman Stalski (əsl soyadı Qasanbekov) XX əsrin ən məşhur Dağıstan şairlərindən biri olaraq əsərlərini ləzgi və Azərbaycan dillərində yazmışdır. İlk dəfə "Bülbül" şeirini 1900-cü ildə yazmışdır. Onun şeirləri qəzetlərdə çap olunmuş, 1927-ci ildə Moskvada nəşr olunan "Ləzgi şairlərinin seçilmiş əsərləri" kitabına şeirləri daxil edilmişdir. İlk kitabı olan "Seçilmiş əsərləri" 1934-cü ildə çıxmışdır. Bundan sonra o, Dağıstan Xalq şairi adına layiq görülmüşdür. Fəal yaradıcılığına görə şairə lenin ordeni verilmişdir. 1957-ci ildə Bakı Kinostudiyasında Rza Təhmasib və Mikayıl Mikayılovun çəkdikləri "Mahnı belə yaranır" filmi Süleyman Stalskinin həyat və yaradıcılığından, ictimai fəaliyyətindən bəhs edir. Onun "Bülbül" əsəri böyük oxucu rəğbəti qazanmışdır. Stal Süleyman 1937-ci ildə vəfat etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Süleyman_Stalski

## İncəsənət

## 1 May – Tənqidçi, teatrşünas Cabir Səfərovun 95 illiyi, (01.05.1924-1990)



Səfərov Cabir Mahmud oğlu 1924-cü il mayın 1-də Azərbaycanın Bakı şəhərində anadan olmuşdur. Cabir Səfərov Mahmud oğlu 1948-ci ildə Azərbaycan Dövlət Teatr institutunun teatrşünaslıq fakültəsinə daxil olmuş, 1953-cü ildə oranı əla qiymətlərlə başa vurmuşdu. O, Böyük Vətən müharibəsində döyüşmüş, sonra teatrın ən yaxşı tamaşalarında kütləvi səhnələrdə çıxış etmiş, hətta sonralar özünün yarı ciddi, yarı zarafatla dediyi kimi, "nizə tutan rolunu" da oynamışdı. Dövrün ən görkəmli aktyorları ilə, o cümlədən Sidqi Ruhulla, Mirzəağa Əliyev, Ağasadıq Gəraybəyli, Mərziyə Davudova, Fatma Qədri, İsmayıl Osmanlı və bir çox başqaları ilə çiyin-çiyinə işləmiş, bu böyük sənətkarların sənətindən mənfəətlənmiş, həm də teatrın tarixi, nəzəriyyəsi və tənqidi ilə maraqlanmışdı. İnstitutu bitirdikdən sonra "Ədəbiyyat və İncəsənət" qəzetində çalışmış, Azərbaycan Teatr Cəmiyyətinin sədr müavini kimi fəaliyyət göstərən Cabir Səfərov yalnız respublikamızın teatr həyatı ilə deyil, Orta Asiyada, Gürcüstanda və digər respublikalarda fəaliyyət göstərən Azərbaycan teatrlarının işi ilə yaxından maraqlanmış, böyük fədakarlıqla teatr əlaqələrinin inkişafına səy göstərmişdir. "Ədəbiyyat və İncəsənət" qəzeti readksiyasında şöbə müdiri, Azərbaycan Dövlət Teatr İnstitutunda mədəni-maarif kafedrasının müdiri, Azərbaycan Teatr Cəmiyyətinin rəyasət heyəti sədrinin birinci müavini, "Dostluq" teatrının direktoru, incəsənət institutunda baş müəllim işləmişdir. "Azərbaycan Dram teatrı" (A. Babayevlə birlikdə), "Hacıağa Abbasov", "Ağdam xalq teatrı", "Şərəfli yol" (A.Babayevlə birlikdə), "Teatr və dramaturgiya", "İbrahim İsfahanlı" kitablarının müəllifidir.

**Əsərləri:** “Azərbaycan Dövlət Dram Teatrı” (1959), “Ağdam xalq teatrı” (1961), “Teatr cəmiyyəti” (1963), “Azərbaycan xalq çalğı alətləri ansamblı” (1971), “Şərəfli yol” (1974), “Teatr və dramaturgiya” (1982), “İbrahim İsfahanlı” (1985) və s.

İnternetdə :https://az.wikipedia.org/wiki/Cabir_ Səfərov

**2 May – Xalq artisti Ramiz Zöhrabovun 80 illiyi, (1939-2017)**



Ramiz Zöhrabov 1939-cu il may ayının 2-də Bakı şəhərində anadan olmuşdur. O, 1947-1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki orta ixtisas musiqi məktəbində təhsil almış və 1958-1960-cı illərdə Konservatoriyanın ifaçılıq fakültəsinin simli alətlər şöbəsində oxumuş, 1965-ci ildə isə Konservatoriyanı musiqişünaslıq ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1965-ci ildə Gəncə şəhərindəki Qəmbər Hüseynli adına orta ixtisas musiqi məktəbində musiqi tarixi və nəzəriyyəsi üzrə müəllim kimi başlayan Ramiz Zöhrabov 1966-1968-ci illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında xalq musiqisi üzrə redaktor vəzifəsində işləmişdir. O, 1968-1969-cu illərdə Bakı şəhər 16 saylı musiqi məktəbində musiqi nəzəriyyəsindən dərslər aparmış, 1969-cu ildən etibarən indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının müəllimi, baş müəllimi, dosenti və professoru, 1989-cu ildən isə həmin kafedranın müdiri olmuşdur. 1990-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin katibi seçilən Ramiz Zöhrabov 2012-ci ilədək həmin vəzifədə çalışaraq, ölkəmizdə musiqişünaslığın inkişafına dəyərli töhfələr vermişdir. Professor Ramiz Zöhrabovun elmi fəaliyyəti Azərbaycanın zəngin musiqi irsinin tədqiqi və təbliği ilə sıx bağlıdır. Alimin Azərbaycan muğamlarına, o cümlədən təsniflərə, zərb-muğamlarına və dəsgahlara həsr etdiyi 200-dən artıq elmi əsər və kitab mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Görkəmli muğam ustadlarının ifasından çox sayda muğam və təsniflərin ilk dəfə nota alınması Ramiz Zöhrabovun səyləri nəticəsində gerçəkləşmişdir. Alimin tədqiqatları, eləcə də Azərbaycan bəstəkarlarının yaradıcılığını əhatə edir. Ramiz Zöhrabovun Azərbaycan musiqişünaslığının uğuru sayılan araşdırmaları xarici ölkələrdə nəşr olunaraq müxtəlif alimlər tərəfindən mötəbər mənbə kimi qəbul edilmişdir. O, 1990-cı ildə "Əməkdar incəsənət xadimi" və 2008-ci ildə "Xalq artisti" fəxri adlarını almış, 2009-cu ildə isə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. Ramiz Fərzulla oğlu Zöhrabov 2017-ci il aprelin 24-də ömrünün 78-ci ilində vəfat etmişdir.

**Kitabları:** "Muğam. Monoqrafiya" (1991), "Azərbaycan təsnifləri" (1991), "Musiqi ədəbiyyatı: uşaq musiqi məktəblərinin V sinfi üçün dərslik" (1992), "Hacı Xanməmmədov" (1992), "Rauf Hacıyev" (1993), "Bəstəkarlarımız haqqında söz" (1995), "Şifahi ənənəli Azərbaycan professional musiqisi: Ali məktəblər üçün vəsait" (1996), "Çahargah" muğam-dəstgahının nəzəri əsasları (2000), Tofiq Quliyevin mahnı yaradıcılığına bir baxış. "Azərbaycan milli musiqisinin tədqiqi problemləri" e/m toplusu /IV buraxılış/. (2001).

İnternetdə :https://az.wikipedia.org/wiki/Ramiz_ Zöhrabov

**8 May – Bəstəkar Soltan Hacıbəyovun 100 illiyi, (08.05.1919-1974)**



S.Hacıbəyov 1919-cu ildə Azərbaycanın ulu mədəniyyət mərkəzi sayılan Şuşada anadan olmuşdur. Gələcək bəstəkarın yetişməsində, formalaşmasında xalq musiqisinin böyük təsiri olmuşdur. 1930-cu ildə S. Hacıbəyov Bakıya köçmüş, 1936-cı ildən öz əmisi Ü.Hacıbəylinin ailəsində yaşamış və tərbiyə almışdır. Orta məktəbi bitirdikdən sonra musiqi texnikumuna daxil olan S.Hacıbəyov truba sinfində oxuyub. Eyni zamanda, o, musiqili komediya teatrında dirijor vəzifəsində çalışıb. Bəstəkarın yaradıcılıq fəaliyyəti məhz bu dövrdən başlayıb. Onun ilk əsəri xor və simfonik orkestr üçün yazılmış "Pioner kantata"sı və "Qızıl gül" musiqili komediyasıdır. "Qızıl gül" əsəri 1940-cı ildə Bakı Musiqili Komediya teatrının səhnəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulub. O, İki prelüd və fortepiano üçün sonata, İ. Zamanlının sözlərinə yazılmış "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnılarını, "Quşcuğaz", "Tənha yelkən ağarır" romanslarını, simli kvartet, simfonik variasiyalar (1943) yazıb. S. Hacıbəyovun I simfoniyası bu dövrdə yazılmış simfoniyalar arasında mühüm yer tuturdu. 1945-ci ildə Türkmənistan Opera və Balet teatrı S. Hacıbəyova "Kəminə və Qazı" operasını yazmağı sifariş etdi. Həmin əsərin simfonik parçası "Karvan" adlanırdı. 1955-ci ildən əsər yenidən nəşr olunaraq müstəqil şəkildə repertuarlara daxil olub. Əsər "Şur" muğamı üzərində bəstələnmişdir. Bəstəkarın uşaqlar üçün yazdığı əsərlərinin mövzuları müxtəlifdir. Burada həm pioner həyatı (4 pioner nəğməsi), həm də təbiət təsvirləri ("Yeni il", "Bahar" və s.) vardır. 1953-cü ildə bəstəkar 6 uşaq nəğməsi yazıb: "Oynaq topum", "Lay-lay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı", "İsgəndər və Çoban (opera)" uşaq operası Bakı pioner evinin sifarişi ilə yazılmışdır. Onun əsasını Nizaminin "İsgəndərnamə" əsərinin bir parçası təşkil edir. (Librettosu M. Seyidzadənindir). 1950-ci ildə S. Hacıbəyovun "Gülşən" baleti meydana gəlib. 1950-ci illərdə S.Hacıbəyov vokal musiqisi sahəsində çalışıb. O, 50-53-cü illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləmişdir. "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi" buna misaldır. 1950-ci illərdə bəstəkar Bolqarıstan və Çexoslovakiyaya gedib və vətənə qayıtdıqdan sonra "Bolqar süitası" və "Çex rəqsi" əsərlərini bəstələyib. 1964-cü ildə S.Hacıbəyov ən parlaq əsərini - orkestr üçün "Konsert"ini yazıb. 1947-ci ildən S. Hacıbəyov Azərbaycan Dövlət Konservatoriyasında müəllim, 1947-62-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, sonra isə direktoru vəzifəsində, 1969-1974-cü illərə qədər Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışmışdır. Soltan Hacıbəyov 1974-cü ildə vəfat etmişdir. Onun adı Sumqayıt musiqi məktəbi ilə əbədiləşdirilmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Soltan_Hacıbəyov

**15 May – Xalq artisti Rza Əfqanlının 120 illiyi, (1899-1973)**



Rza Rüstəm oğlu Cəfərzadə (Rza Əfqanlı) 1899-cu il mayın 15-də İran Azərbaycanının Sərab şəhərində doğulub. Ailəsini dolandırmaq məqsədilə 1912-ci ilin yazında Bakıya gəlib. 1916-cı ildə Pyatiqorska gedib və orada Çəkməçi şagirdi işləyib, iki il sonra rus ordusunda könüllü xidmət edib. 1920-ci ildə Bakıya dönən Rza Əfqanlı əvvəl Sabunçu qəsəbəsindəki dram dərnəyində aktyorluq edib və tezliklə Akademik teatrın aktyoru Xəlil Hüseynovun təşəbbüsü ilə Mərkəzi Dövlət Səyyar Teatrında işləməyə başlayıb. 1923-cü ildə Milli Dram Teatrının truppasına işə götürülüb və paralel olaraq 1926-cı ildə Bakı Teatr Məktəbini bitirib. 1929-cu ildə görkəmli rejissor və aktyor İbrahim İsfahanlının dəvəti ilə Tiflis Azərbaycan Dövlət Teatrında işləməyə gedib. 1933-1934-cü il teatr mövsümündə Türkmənistan respublikasının paytaxtı Aşqabaddakı "Az Millətlər Teatrı"nda ("Natsmen" Teatrı) baş rejissor olub. 1935-ci ilin əvvəllərində yenə Milli Dram Teatrının kollektivinə qayıdıb. Eyni dövrdə yaşadığı sənətkarlar kimi, Rza Əfqanlının da yaradıcılığında kino rolları ayrıca mərhələdir. O, 1963-cü ildə teatrdan haqsız olaraq uzaqlaşdırılıb. Uzun illər işsiz qalan (arada ancaq bir neçə filmə çəkilib) Rza Əfqanlı bir müddət Sumqayıt Dövlət Dram Teatrında aktyorluq edib. Rza Əfqanlının rollarında realizmdən şirələnən romantik vüsət, poetik cazibədarlıq vardı. Zəhmli baxışları, sərt və ifadəli sifət cizgiləri ürəyəyatımlı idi, aktyor onları obrazın bədii siqlətinə uyğun tərzdə istiqamətləndirirdi. Janrından asılı olmayaraq, bütün tamaşalarda obrazın fərdi xarakterini, konfliktdə daşıdığı yükü bütövlükdə tamaşanın ali məqsədinin məhvərində təcəssüm etdirirdi. Romantik zəmində formalaşan Rza Əfqanlı realist obrazları da şövqlə, əzmlə, yaradıcılıq ehtirası ilə oynayırdı və bununla da öz üslübuna yeni səpki təravəti verirdi. Aktyor 1938-ci il dekabrın 4-də Azərbaycan respublikasının əməkdar, 1943-cü il iyunun 17-də Xalq artisti fəxri adları ilə təltif edilib. 1948-ci ildə "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasındakı Fərhad roluna görə Stalin mükafatına layiq görülüb. Rza Əfqanlı 9 noyabr 1973-cü ildə Bakıda vəfat edib.

**Filmoqrafiya:** “Bakılılar” (film, 1938), “Kəndlilər” (film, 1939), “Yeni horizont” (film, 1940), “O olmasın, bu olsun” (film, 1956), “Aygün” (film, 1960), “İyirmialtılar” (film, 1966), “Dağlarda döyüş” (film, 1967), “Qanun naminə” (film, 1968), “Mən ki gözəl deyildim” (film, 1968), “Sevil” (film, 1970), “Min birinci söz” (film, 1997) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Rza_Əffqanlı

**28 May – Xalq artisti Habil Əliyevin 90 illiyi, (1929-2015)**



Habil Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində anadan olub. Yeddi yaşında ikən rayon mərkəzindəki 3 saylı yeddiillik Ağdaş musiqi məktəbinə qəbul olub. Elə həmin vaxtdan da meylini kamana salıb. Yeddinci sinifi və həm də musiqi məktəbini bitirəndən sonra pedaqoji məktəbə daxil olub. Habil Əliyev 1952-ci ildə Bakıya gəlib Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinin kamança şöbəsinə daxil olub. Görkəmli tarzən Qurban Pirimovdan və məşhur müğənni Xan Şuşinskidən muğam sənətinin sirlərini öyrənməyə başlayıb. Habil Əliyev 1953-cü ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında əvvəlcə rəqs ansamblında müşayiətçi, sonra isə trioda kamança çalan kimi fəaliyyətə başlayıb. Seyid Şuşinski, Həqiqət Rzayeva, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva kimi sənətkarların konsertlərində müşayiətçi olan Habil Əliyev həvəslə onların ölməz irsindən bəhrələnmiş, daha səylə çalışmış, saatlarla məşqdən yorulmurdu. Habil "Segah", "Bayatı-Qacar", "Bəstənigar", "Bayatı-Şiraz", "Rahab", "Bayatı-Kürd", "Cahargah", "Rast", "Zabul" muğamlarına yeni kamança həyatı vermişdir. Beləliklə, Habil Əliyev əllinci illərin sonu, altmışıncı illərin əvvəllərində mahir kamança ustası kimi formalaşıb el arasında geniş şöhrət tapdı. Habil Əliyevin virtuoz çalğısını musiqi biliciləri, tez-tez Nikkolo Paqanininin ifaçılığı ilə müqayisə edirlər. Ustad sənətkar virtuoz ifaçılığı ilə yanaşı gözəl mahnıların da müəllifidir. Onun bəstələdiyi 15-dən artıq mahnı bu gün də tanınmış musiqiçilər tərəfindən sevilə-sevilə ifa olunur. Habil Əliyev səhhətində yaranan problemlərə görə 2015-ci il avqust ayının 15-də ürək və tənəffüz çatışmazlığı diaqnozu ilə xəstəxanaya yerləşdirilmiş, səhhəti normallaşandıqdan sonra müayinəsini evdə davam etdirməsi üçün avqust ayının 22-də evə buraxılmışdır. Daha sonra yenidən komaya düşmüş və sentyabrın 8-də vəfat etmişdir. Habil Əliyev Bakıda I Fəxri Xiyabanda dəfn edilmişdir.

**Filmoqrafiya:** "Qanun naminə" (film, 1968), "Dəli Kür" (film, 1969), "Günlərin bir günü..." (film, 1976), "Nəğməkar torpaq" (film, 1981), "Habil Kaman" (film, 1984), "Sarı gəlin" (film, 1998), "Qızıl fonddan seçmələr" (film, 2001), "Kamanın naxış sehri" (film, 2003), "Muğamat var olan yerdə..." (film, 2009), "Heydər Əliyev" (film), "Kamançanamə".

İnternetdə: https://az.wikipedia.org/wiki/Habil_Əliyev

**31 May - Xalq artisti Oqtay Zülfüqarovun 90 illiyi, (1929-2016)**



Zülfüqarov Oqtay Qədir oğlu 1929-cu il mayın 31-də hakim ailəsində anadan olub. Musiqi Məktəbinin violoncel sinfini, A. Zeynallı adına Musiqi Məktəbi və Dövlət Konservatoriyasının violonçel sinfində təhsil alıb, professor Qara Qarayevin tələbəsi olub. O, uşaqlar üçün yazılan "Qız-ulduz", "Pişik və Sərçə" və "Meşə nağılı" operalarını da yazıb. "Şəngülüm, Şüngülüm və Məngülüm" adlı musiqili komediya, violoncel və fleyta üçün konsertlər, simfonik poemalar, kantatalar, dörd simfoniya, instrumental pyeslər, teatr və kino üçün musiqi yazan bəstəkarın böyük simfonik orkestr üçün yaratdığı "Şənlən, mənim xalqım" uvertürası kimi bir çox məşhur musiqi əsərlərinin müəllifidir. 2010-2012 illərdə O.Zülfüqarov "Məlik Məmməd" nağılı əsasında uşaqlar üçün "Sehrli alma" iki hissəli balet, eyni zamanda musiqi dərslikləri yazıb. Uzun illər "Tumurcuq" və "Aysel" Uşaq Mahnı Teatrı Oqtay Zülfüqarovun rəhbərliyi altında Azərbaycan Dövlət Televiziyasında verilişlər hazırlayıb. Musiqi ilə yanaşı bəstəkar həm də şeirlər yazıb və onlar "Oxuyur Aysel" adlı topluda işıq üzü görüb. 1972-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi adına, 2000-ci ildə Azərbaycan Respublikasının xalq artisti adına layiq görülüb. Prezident təqaüdçüsü olan bəstəkar uzun illər Dövlət Uşaq Filarmoniyasının bədii rəhbəri işləyib. 1957-ci ildə üçüncü kursda oxuyarkən Azərbaycan bəstəkarlarının qurultayında gənc bəstəkarın fortepiano triosu uğur qazanıb. 1958-ci ildə Qara Qarayevin sinfini uğurla başa vuran Oqtay Zülfüqarov müəlliminin məsləhəti ilə uşaqlar üçün silsilə mahnılar yaratmağa başlayıb. Eyni zamanda o, Qız-ulduz, Pişik və Sərçə və Meşə nağılı operalarını da yazıb. Şəngülüm, Şüngülüm və Məngülüm adlı musiqili komediya, violoncel və fleyta üçün konsertlər, simfonik poemalar, kantatalar, dörd simfoniya, instrumental pyeslər, teatr və kino üçün musiqi yazan bəstəkarın böyük simfonik orkestr üçün yaratdığı "Şənlən mənim xalqım" uvertürası 1962-ci ildə Moskvada laureat adına layiq görülüb. Oqtay Zülfüqarov ömrünün 60 ilindən çoxunu uşaq mahnılarının yazılmasına, Azərbaycan mədəniyyətinin inkişafına həsr etmişdir. O, Azərbaycanın ən böyük uşaq bəstəkarlarından biri kimi bu sənətə öz möhürünü vurmuşdur. Uşaqlara daim böyük sevgi və həssaslıqla yanaşan Oqtay müəllim onlar üçün şən, gözəl mahnı nümunələri yaratmış və neçə-neçə nəsil bu mahnılarla böyümüşdür. Uzun müddət Azərbaycan televiziyasında onun uşaqlarla apardığı veriliş uşaqların sevə-sevə izlədiyi proqram idi. Oqtay Zülfüqarov 31 avqust 2016-cı ildə 87 yaşında vəfat etmişdir. Əvəzolunmaz sənətkar 2-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Oqtay_Zülfüqarov

**Milli Qərəmanlar Zirvəsi**
**1 May – Azərbaycanın Milli Qəhrəmanı Cəfərov Faiq Əliqulu oğlunun 45 illiyi, (01.05.1974 - 19.08 1999)**



Faiq Cəfərov 1974-cü il may ayının 1-də Cəlilabad rayonunun Şiləvəngə kəndində doğulmuşdur. 1991-ci ildə Bakı Maşınqayırma Texnikumuna daxil olmuşdur. 1992-ci ilin sentyabr ayından Sərhəd Qoşunları Baş İdarəsinin Naxçıvan Sərhəd Dəstəsində hərbi xidmətə başlamışdır. Sərhəd Qoşunlarında xidmət etdiyi dövrdə Azərbaycanın cənub hüdudlarının mühafizəsində fərqlənmişdir. 1995-ci ilin mart ayında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı xüsusi qəhrəmanlıq nümunəsi göstərmiş, həmin döyüşlərdə ağır yaralandığı üçün Faiq Cəfərov ehtiyata buraxılıb. Bir müddət sonra öz həyatını dövlətçiliyimiz və xalqımıza xidmət etməyə bağlayan qəhrəmanımız bir ildən sonra yenidən orduya qayıtmışdır. Cəfərov Faiq Əliqulu oğlu Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda xüsusi fəallıq göstərmişdir. Faiq Cəfərov 1999-cu ildə avtomobil qəzası nəticəsində həlak olmuşdur. Ailəli idi, iki övladı var. Cəlilabad rayonunda dəfn edilmişdir.

**Azərbaycan Respublikasının Prezidentinin 27 dekabr 1995-ci il tarixli 427 saylı Fərmanı ilə gizir Cəfərov Faiq Əliqulu oğlu "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wiki/Faiq_Cəfərov

**10 May – Azərbaycanın Milli Qəhrəmanı Abdullayev Namiq Vahid oğlunun 45 illiyi, (10.05.1974-09.02.1993)**



Namiq Vahid oğlu Abdullayev 10 may 1974-cü ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olmuşdur. 1991-ci ildə Avşar kənd orta məktəbini bitirən Namiq orduya getmək istədiyini bildirib. Lakin yaşı çatmadığına görə onu cəbhəyə göndərməyiblər. Namiq 1992-ci ilin dekabr ayında cəbhəyə yola düşüb. 1993-cü il 9 fevralında erməni silahlı dəstələri Xocavənd rayonunda mövqe tutmuş döyüşçülərimizin üzərinə böyük qüvvə ilə hücuma keçirdilər, düşmənin güclü hərbi texnikası qarşısında bu kiçik dəstəmiz tab gətirə bilməzdi. Amma onlar ölümün gözünə dik baxdılar və hücumu dəf etməyə çalışdılar. N.Abdullayev bu döyüşdə xüsusilə fərqlənmişdir. Onlarla erməni quldurunu məhv edən Namiq son anda əlindəki qumbaranı sinəsinə sıxaraq özünü tankın altına atdı. Zirehli texnikanın heyəti məhv edildi və vətənimizin bu cəsur oğlu əbədiyyətə qovuşdu. Subay idi. Avşar kəndində dəfn edilib. Avşar kənd orta məktəbi onun adını daşıyır.

**Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə Abdullayev Namiq Vahid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wikiAbdullayev_ Namiq_ Vahid_ oğlu

**19 May – Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Fikrət Əli oğlunun 55 illiyi, (19.05.1964-05.05.1992)**



Hacıyev Fikrət Əli oğlu 19 may 1964-cü ildə Goranboy rayonunun Qızılhacılı kəndində doğulmuşdur. 1978-ci ildə səkkizinci sinfi bitirərək, Gəncə texniki-peşə məktəbində elektrik ixtisasına yiyələnmişdir. 1982-ci ildə Goranboy rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti Ufa şəhərində keçirmişdir. Bakı Kooperativ Texnikumunda təhsilini başa vurmuşdur. 1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə yollanıb. Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Zeyvə, Qaraçinar və digər yaşayış məntəqələrinin müdafiəsində fəal iştirak edib. Goranboy döyüşlərində 1992-ci il 5 mayda qəhrəmancasına həlak olub. Subay idi. Qızılhacılı kənd qəbiristanlığında dəfn edilmişdir. Ballıqaya 000000000000kənd orta məktəbi onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.

**Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Hacıyev Fikrət Əli oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.**

İnternetdə: https://az.wikipedia.org/wiki/Hacıyev_Fikrət_ Əli _oğlu

## İyun

### Əlamətdar və tarixi günlər

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü, (1950)
1 İyun – Ümumdünya Süd Günü, (2001)
3-4 İyun – Beynəlxalq Su Hövzələrinin Təmizlənməsi Günü, (1955)
4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü, (1982)
5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, (1972)
8 İyun – Ümumdünya Okeanlar Günü, (1992)
14 İyun – Beynəlxalq Blogger Günü, (2004)
15 İyun – Milli Qurtuluş Günü, (1993)
15 İyun – Ümumdünya Külək Günü
16 İyun – Beynəlxalq Atalar Günü, (1909)
17 İyun – Tibb İşçiləri Günü, (2001)
20 İyun – Ümumdünya Qaçqınlar Günü, (2000)
21 İyun – Dünya Yoqa Günü
23 İyun – Beynəlxalq Olimpiya Günü, (1948)
23 İyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü, (2006)
26 İyun – Silahlı Qüvvələr Günü, (1918)
26 İyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü

### Yubilyar yazıçı və şairlər

Şair, dramaturq Vaqif Səmədoğlunun 80 illiyi, (05.06.1939)
Yazıçı, ssenarist Natiq Rəsulzadənin 70 illiyi, (05.06.1949)
Tənqidçi, ədəbiyyatşünas, yazıçı Məmməd Arifin 115 illiyi, (10.06.1904-1975)
Xalq şairi Hüseyn Arifin 95 illiyi, (15.06.1924-1992)
Şair, ədəbiyyatşünas Hüseyn Kürdoğlunun 85 illiyi, (15.06.1934-2003)
Filologiya elmləri doktoru Seyfulla Əsədullayevin 95 illiyi, (19.06.1924)
Biblioqraf, ədəbiyyatşünas Nazim Axundovun 95 illiyi, (20.06.1924-1994)
Alim, şair Abbasqulu ağa Bakıxanovun 225 illiyi, (21.06.1794-1847)
Yazıçı Əhməd Rəhimovun 95 illiyi, (21.06.1924-1998)
Yazıçı Cəlal Bərgüşadın 95 illiyi, (22.06.1924-1996)
Şair, tərcüməçi Sabir Mustafanın 80 illiyi, (22.06.1939)
Şair, publisist Məmməd Əfşanın 80 illiyi, (27.06.1939)
Şair Çingiz Əlioğlunun 75 illiyi, (29.06.1944)

**Xarici ədəbiyyat**
Rus şairəsi (Qorenko) Anna Axmatovanın 130 illiyi, (23.06. 1889-05.03.1966)
**İncəsənət**
Rus bəstəkarı Mixail Qlinkanın 215 illiyi, (01.06.1804-1857)
Azərbaycan Respublikasının Əməkdar rəssamı, heykəltəraş Rzayeva Münəvvər Məcid qızının 90 illiyi, (06.06.1929-2004)
Xalq artisti Məlik Dadaşovun 95 illiyi, (07.06.1924-1996)
Rejissor Mərahim Fərzəlibəyovun 70 illiyi, (26.06.1949).
Xalq artisti Barat Şəkinskayanın 105 illiyi, (28.06.1914-1999)
**Milli Qəhrəmanlar Zirvəsi**
Azərbaycanın Milli Qəhrəmanı Ağayev Faiq Alış oğlunun 50 illiyi, (06.06.1969-23.12.1991)
Azərbaycanın Milli Qəhrəmanı Allahverdiyev Bəxtiyar Əzizulla oğlunun 45 illiyi, (10.06.1974)
Azərbaycanın Milli Qəhrəmanı Sarıyev Zaur Rəşid oğlunun 45 illiyi, (28.06.1974 – 17.03.1995)
Azərbaycanın Milli Qəhrəmanı Zülfüqarov Elxan Qaçay oğlunun 65 illiyi, (29.06.1954- 05.01.1994)

## Əlamətdar və tarixi günlər
## 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü, (1950)

***Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!***

**Ümummilli lider Heydər Əliyev**



1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününün (International Children's Day) qeyd olunması 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qərara alınıb. Həmin gün təşkil olunan Qadınların Beynəlxalq Konfransında uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bu gün dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Bu bayramla yanaşı, BMT-nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. Ümumdünya Uşaqlar Günü 1954-cü ildə BMT-nin Baş Assambleyasının № 836 (IX) saylı qətnaməsində 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə edilən bayram kimi qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalamışdır. Sərəncama görə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. 1924-cü ildə ilk dəfə olaraq Uşaqların hüquqlarını təmin edən Bəyannamə qəbul edilmişdir. Bu bəyannamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Həmin bəyannamənin qəbul edilməsi ilə bağlı ilk işlər Eglantyne Djebb tərəfindən görülmüşdür. O, bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə uşaqlara yardım göstərmiş, onların müdafiəsini təmin etmək üçün Londonda Uşaqlara Yardım Fondunun əsasını qoymuşdur.

İnternetdə: www.books.google.com

## 1 İyun – Ümumdünya Süd Günü, (2001)



Ümumdünya Süd Gününün məqsədi uşaqların müdafiəsində, sağlamlığında südün rolunun aşılanmasıdır. Süd məhsullarının faydası çoxdan təsdiq olunmuş bir faktdır. Süd məhsulları mədə şirəsinin ifraz olunmasını stimullaşdırır, bağırsaqların fəaliyyətini və maddələr mübadiləsini yaxşılaşdırır, orqanizm tərəfindən çox tez və asan mənimsənilir. Bundan əlavə, insan orqanizminə düşdükdə südturşulu bakteriyalar C, B1, B2, B12, D vitaminlərini və hətta təbii antibiotikləri istehsal edir ki, onlar xəstəlikləri törədən mikrobların (o cümlədən, mədə-bağırsaq və vərəm xəstəlikləri törədən mikrobların) inkişafını dayandırır və ya onları məhv edir. Süd məhsullarının tərkibində orqanizm üçün vacib olan çoxlu miqdarda kalsium və fosfor mikroelementləri var ki, bu da insanın dişləri və sümükləri tərkibinə daxildir. Bundan əlavə, kalsium insanın ürək əzələsinin, gözlərin, sinir sisteminin sağlamlığında böyük rol oynayır. Digər süd məhsulları ilə müqayisədə, kalsium daha çox miqdarda bərk pendirlərin tərkibində olur. Lakin süd məhsullarının, bəlkə də, ən əsas dəyəri ondan ibarətdir ki, onlar bağırsaq mikroflorasını yaxşılaşdırırlar.

Pis ekologiya, stresslər, antibiotik və s. dərmanlarının tez-tez qəbul edilməsi, düzgün olmayan qidalanma bağırsaqların mikroflorasına güclü zərbə vurur. Nəticədə, orada “yaşayan” xeyirli mikroorqanizmlərin sayı kəskin surətdə azalır və əksinə zərərli mikroorqanizmlərin sayı artır. Bu balans pozulduqda disbakterioz inkişaf edir, nəticədə isə insanın immun sistemi zəifləyir. İmmun sistemin zəiflənməsi isə orqanizmdə müxtəlif xəstəliklərin və pozğunluqların əmələ gəlməsinə səbəb olur.

Qatıq və yoqurt mədə şirəsinin ifrazını çoxaldır, mədəaltı vəzin fəaliyyətini yaxşılaşdırır. Onlar qəbizlik, kolit, qastrit, qaraciyər və öd yollarının xəstəlikləri, piylənmə, ateroskleroz, hipertoniya, qanazlığı, miokard infarktı zamanı çox xeyirlidir.

İnternetdə: www.books.google.com

## 3-4 İyun – Beynəlxalq Su Hövzələrinin Təmizlənməsi Günü, (1955)





Beynəlxalq Su hövzələrinin Təmizlənməsi Gününün (International Cleanup Day) ideya müəllifləri və təşkilatçıları dalğıclardır. Bu bayramın əsas hadisəsi kütləvi iməclikdir. Bu əlamətdar gün 1955-ci ildən dünyanın bir çox ölkələrində PADI – Dayvinq təlimatçılarının peşəkar assosiasiyasının himayəsi altında keçir. Həmin gün regional yeraltı üzgüçülük klubları yerli su hövzələrinə gedir, onların diblərini və sahillərini təmizləyirlər. Bəzi şəhərlərdə bu tədbirlər yerli hökumət orqanlarının dəstəyi ilə aparılır. Bu günə marağı artırmaq üçün çox zaman tədbirlər komandalar arasında yarış halında keçirilir.

İnternetdə: www.books.google.com

## 4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü, (1982)




1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında ES-7/8 nömrəli qətnaməsi ilə hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü (International Day of Innocent Children Victims of Aggression) kimi qeyd etməyi qərara almışdır.

Hərbi münaqişələr zonasında yaşayan uşaqlar – gələcəyi olmayan uşaqlardır. Bütün dünyada lokal münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir. Bu gün həm də BMT-nin həmin uşaqların qorunması haqqında məsələdə öhdəliklərini təsdiq edir.

İnternetdə: www.books.google.com

**5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü, (1972)**



***Başımın üstündə çətirli meşə,***
***Yuyunmuş, daranmış, ətirli meşə,***
***O yazda yaşıldı, payızda əlvan.***
***Bir ağac kəhrəba, bir ağac mərcan.***
***Bir yarpaq günəşin şöləsində zər,***
***Bir yarpaq buludun gözünü silər.***
***Dinim, ya dinməyim, dinməyim əlbət,***
***Qoy danışsın təbiət!***

***Xalq şairi Qabil***

5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün qeyd olunması 16 dekabr 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 27-ci sessiyasında elan edilib. Həmçinin Baş Assambleyanın bu sessiyasında BMT sistemində yeni təşkilat – BMT Ətraf Mühit Proqramı (UNEP) qəbul edilib. Hər il bu təşkilat tərəfindən Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü keçirilir. Belə bir günün keçirilməsinə 11 may 1971-ci ildə dünyanın 23 ölkəsinin 2200 elm və mədəniyyət xadiminin imzası ilə BMT-nin Baş katibinə ünvanlanan müraciət səbəb olub. Onlar "ya biz çirklənməni qurtarırıq, ya da çirklənmə bizi qurtarar" adlı müraciətləri ilə bəşəriyyətə ətraf mühitin çirklənməsi barədə xəbərdarlıq etmişlər. Baş Assambleya bu günün qeyd edilməsi ilə bağlı qətnaməsində BMT-yə daxil olan ölkə və təşkilatları hər il həmin gün ərəfəsində ətraf mühitin qorunması və yaxşılaşdırılmasına yönələn işlər həyata keçirməyə çağırır. Hər il Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün Avropa regionunda qeyd edilməsi üçün Avropa ölkələrindən baş şəhərlər elan edir. 2010-cu ildə İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə bərabər Azərbaycanın Bakı şəhəri də mərkəz şəhər seçilib. Bakının bu statusa layiq görülməsi Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiya sahəsində görülən işlərin, həyata keçirilən dövlət və milli proqramların uğurlu nəticəsi kimi qiymətləndirilir və beynəlxalq qurumların Cənubi Qafqaz regionunda Azərbaycana böyük əhəmiyyət verməsindən irəli gəlir.

İnternetdə: www.books.google.com

## 8 İyun – Ümumdünya Okeanlar Günü, (1992)



Ümumdünya Okeanlar Günü 8 iyun 1992-ci ildə Rio-de Janeyroda BMT-nin "Ətraf mühit və inkişaf" Konfransında elan edilib. Rəsmi olaraq 2009-cu ildən qeyd olunur. Zoopark, akvariumlar və delfinariyalar əsasən bu gündə okean heyvanlarının qorunması, mühafizəsi ilə bağlı tədbirlər keçirməklə ictimaiyyətin diqqətini cəlb edirlər. BMT bu bayramı elan etməklə, okeanların planet üçün həyatı vacibliyini xüsusi qeyd edib. Yer kürəsinin 70%-i okeanlar təşkil edir. Bu bayram bir çox Avropa ölkələrində (Belçika, Böyük Britaniya, Almaniya, Hollandiya, İrlandiya, İspaniya, İtaliya, Norveç, Portuqaliya, Fransa), Cənub-Şərqi Asiya dövlətlərində (Vyetnam, İndoneziya, Sinqapur, Filippin), Cənubi Asiyada (Hindistan, Şri-Lanka), Uzaq Şərqdə (Çin, Yaponiya), Latın Amerikası ölkələrində (Argentina, Ekvador, Kuba), Avsraliya və Afrikada (Əlcəzair, Qabon, Marokko, Mavritaniya, Keniya, Kamerun), həmçinin Şimali Amerika ölkələrində (Kanada, ABŞ, Meksika) qeyd edilir.

İnternetdə: www.books.google.com

## 14 İyun – Beynəlxalq Blogger Günü, (2004)




Bu bayramın keçirilməsi ideyası 2004-cü ildə yaranmışdır. 40-dan çox ölkədən 500 insan eyni vaxtda birləşərək qərara gəlmişlər ki, onlara – bütün dünyanın şəbəkə bloggerləri arasında dostluq münasibətlərinin simvolu kimi özlərinə aid gün lazımdır. 2007-ci il iyunun 14-də Beynəlxalq Blogger Gününün üçüncü ildönümündə ümumdünya şəbəkəsinin öz bloqu olan hər bir üzvü bütün bloggerlər arasında həmrəylik haqqında qısa bildiriş yazmışlar.

İnternetdə: www.books.google.com

## 15 İyun – Milli Qurtuluş Günü, (1993)




***Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır...***

**Ümummilli lider Heydər Əliyev**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır – Heydər Əliyev. Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

İnternetdə: www.books.google.com

## 15 İyun – Ümumdünya Külək Günü



Bu qeyri-adi bayramın keçirilməsi Avropa Külək Enerjisi Assosiasiyası və Ümumdünya Külək Enerjisi Şurası tərəfindən təklif olunmuşdur. Həmin günü keçirməkdə məqsəd dünya ictimaiyyətini maarifləndirmək, diqqətini bu məsələyə yönəltməkdir. Külək enerjisi küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Alternativ enerji (bərpa olunan) mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjilərdən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir. İnsanlar küləyin gücündən çox qədim dövrdən bəri faydalanırlar. Buna misal olaraq yelkənli gəmilər və yel dəyirmanları göstərilə bilər. Daha sonra taxıl dənüyütmə, nasosla suvurma, ağackəsmə işləri üçün də külək gücündən faydalanılmışdır. İndiki vaxtda daha çox elektrik enerjisi almaq məqsədilə istifadə edilməkdədir.

Elektrik enerjisi istehsalı üçün daha səmərəli texnologiyalardan biridir. Külək qurğularının inşasına ənənəvi elektrik stansiyalarının qurulmasına nisbətən daha az vaxt sərf olunur. Bundan başqa, külək, əslində, istənilən ölkənin malik olduğu daimi təbii enerji mənbəyidir. Külək enerjisindən istifadə olunması energetikanın daha tez inkişaf edən sahələrindən biridir. Azərbaycan ərazisində əsasən Abşeron yarımadası, Xəzər dənizi və digər ərazilər külək enerjisindən istifadə etmək üçün daha məqsədəuyğun sayılır. Azərbaycanın külək rejimi mürəkkəb xarakterə malikdir. Bu da ölkə ərazisinin 60%-nin dağlıq zonalardan ibarət olması ilə əlaqədardır.

İnternetdə: www.books.google.com

## 16 İyun – Beynəlxalq Atalar Günü, (1909)



Dünyanın bir çox ölkələrində iyunun üçüncü bazar günü Atalar Günü (Father's Day) kimi qeyd olunur. Onu ilk dəfə ABŞ-da qeyd etməyə başlamışlar. Sonora Smart Dodd 1909-cu ildə kilsədə Analar Gününə həsr olunmuş ibadət zamanı düşünmüşdür ki, anasının ölümündən sonra onu və daha beş uşağı atası böyüdüb tərbiyə etmişdir. Sonra atasının özü üçün necə xüsusi insan olduğunu, onu necə sevdiyini və qiymətləndirdiyini bilməsini istəmişdir. Bu ənənə bir çox ölkələrə yayılmışdır və hər kəs atasına öz sevgisini bildirmək üçün bu günü əlavə bir fürsət hesab edir.

İnternetdə: www.books.google.com

## 17 İyun – Tibb İşçiləri Günü, (2001)

***Yaxşı sağlamlıq ən böyük var-dövlətdən bahadır.***

***Latın atalar sözü***



İnsan üçün çox qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığı ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri durur.

Azərbaycanda tibbin inkişafı daha çox XX əsrlə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığın mühafizəsi ilə bağlı olmuşdur. Bununla əlaqədar olaraq, Nazirlər Şurasının 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olunmuşdur. İndi Azərbaycanda öz sənətinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığının keşiyində duran minlərlə səhiyyə işçisi vardır.

Ümummilli lider Heydər Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaradılmasını nəzərə alaraq, “Tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında” 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən hər il 17 iyun Tibb İşçiləri Günü kimi qeyd olunur.

İnternetdə: www.books.google.com

## 20 İyun – Ümumdünya Qaçqınlar Günü, (2000)



BMT Baş Assambleyası 4 dekabr 2000-ci ildə iyunun 20-nin Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilməsinə dair qətnamə qəbul edib. BMT-nin açıqlamasına görə hazırda dünyada 15.4 milyon insan qaçqınlıq həyatı yaşayır və onların sayı artmaqda davam edir. Beynəlxalq Qaçqınlar Günü Azərbaycanda da hər il geniş qeyd edilir. Bu isə heç də təsadüfi deyil. Belə ki, Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb, tarixi torpaqlarına təcavüz edilib, nəticədə minlərlə soydaşımız qaçqına çevrilib. Sonuncu dəfə 250 min etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub, Azərbaycana pənah gətirib, 700 minə yaxın soydaşımız isə Dağlıq Qarabağdan və Ermənistan silahlı qüvvələrinin işğal etdiyi 7 rayondan didərgin salınaraq ölkənin 67 rayonunda 1600 məntəqədə müvəqqəti məskunlaşıblar.

Bundan başqa, ölkəmizdəki qaçqınların təxminən 50 mini Fərqanə hadisələri vaxtı Orta Asiyadan gələn Ahıska türkləri, 11 minə yaxını isə sığınacaq axtaranlardır. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayandan Azərbaycanda mövcud olan 12 çadır düşərgəsinin 5-i 2003-cü ildə, 7-si isə sonrakı 4 ildə ləğv olunub. 2007-ci il dekabrın 24-ü Azərbaycan tarixinə, həm də son çadır düşərgələrinin ləğvi kimi düşüb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" nın və sonradan həmin Dövlət Proqramına 31 oktyabr 2007-ci il, 21 fevral 2011-ci il tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb. Fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev Fondu da məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına çalışıb. Dövlət proqramına uyğun olaraq, məcburi köçkünlərin "böyük qayıdışı" layihəsi də artıq hazırdır. Bu proqram müxtəlif nazirliklər, dövlət komitələri və beynəlxalq təşkilatlar tərəfindən razılaşdırıblar. Layihə işğal altında olan Azərbaycan torpaqlarının azad olandan sonra həyata keçiriləcək. Qaçqın o şəxsdir ki, vətəndaşı olduğu ölkənin himayəsindən istifadə edə bilmir. İrqi əlamətinə, milliyyətinə, müəyyən sosial qrupa mənsubluğuna, siyasi əqidəsinə və dini etiqadına görə təqiblərə məruz qalır.

İnternetdə: www.books.google.com

## 21 İyun – Dünya Yoqa Günü



Yoqa – ənənəvi Asiya sisteminə əsaslanan fiziki tapşırıqların (tətbiqlərin, məşqlərin) sırasıdır. Yoqanın ən aydın, şəffaf mənası onun etimoloji mənşəyində saxlanılır. Yoqa sözü – Sanskrit dilində yuj sözündən götürülüb. Mənası, "birlik", "ittifaq" deməkdir. "Yoqa" sözü öz mənşəyini sanskrit dilindəki "yuq" sözündən götürür ki, o da tərcümədə "birləşmə", "qovuşma", "tövhid" mənasını verir. Yoqa – altı əsas ortodoksal hind fəlsəfi sistemindən birini təşkil edir. Bu təlim ilk dəfə sistemli şəkildə qədim hind müdriki Patacalinin (e.ə. I əsr) "Yoqa sutra" əsərində təsvir edilir. Ümumi halda, yoqa sistemi – xatxa-yoqa, raca-yoqa, karma-yoqa, jnani-yoqa, bxakti-yoqa və s. kimi mərhələlərə bölünür ki, bu mərhələlərin hamısından uğurla keçənlər müasir yoqlar kimi havada uçmağı, özgələrin fikirlərini oxumağı və s. bacarırlar. Yoqa təlimi bugünkü elmə təsir etmiş ən güclü mistik cərəyandır və bugünkü alimlər mistikanı, fövqəltəbii qabiliyyətləri analiz etmək üçün ən çox hind yoqları üzərində təcrübə, müşahidə aparırlar. Demək olar ki, fövqəltəbii qüvvələrin sirrini bugünkü günə qədər yaşadan yeganə mistik təriqətdir. Yoqa səkkiz hissədən meydana gəlir. Bu hissələr Ashta-Anga olaraq adlandırılar.

- Yama – müsbət yönlərin inkişaf etdirilməsi
- Niyama – mənfi yönlərin aradan qaldırılması
- Asana – fiziki duruşlar
- Pranayama – nəfəs və enerji texnikaları
- Pratyahara – bioenerji və çakra texnikaları
- Dharana – konsentrasiya texnikaları

Yoqanın tarixi öz kökləri ilə qədim zamanlara gedib çıxır. Hind çayı boyunca tapılmış və Hind sivilizasiyasına (b.e.ə. 3300-1700 illər) aid olan bəzi əlyazmalarda meditativ və yoqa pozalarında olan fiqurlar təsvir olunmuşdur.

- Dhyana – Meditasyiya texnikaları
- Samadhi – süpermeditasiya texnikaları

İnsanlığın başlanğıcından bəri Yoqa tətbiq olunmaqdadır. İlk başlarda Ustaddan şagirdə şifahi köçürülən məlumatlar zaman içində başqa təlimlərlə qarışdırıldığı üçün günümüzdən 2000-3000 il əvvəl Ustad Patancali tərəfindən təkrar orijinal halına sadələşdirilib kitab halına gətirilmişdir. Yoqanın bu orijinal halını izah etdiyi kitab Yoqa Sutradır. Yoqa bütün dünyada populyarlaşmaqdadır. 2014-cü ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) üzv dövlətləri 21 iyunun Beynəlxalq Yoqa Günü elan olunması haqqında qətnamə qəbul ediblər. Həmin tarixdən etibarən 21 iyun Beynəlxalq Yoqa Günü dünyada milyonlarla insan tərəfindən qeyd olunur.

İnternetdə: www.books.google.com

**23 İyun – Beynəlxalq Olimpiya Günü, (1948)**



Bu gün Beynəlxalq Olimpiya Komitəsi tərəfindən təsis edilmişdir. 1947-ci ildə BOK-nin Stokholmda keçirilən 41-ci sessiyasında hər il Dünya Olimpiya Gününü keçirmək təklifi irəli sürülüb. İlk Olimpiya Günü 1948-ci il iyunun 23-də 9 ölkədə qeyd olunub. Olimpiya Gününü daha təntənəli şəkildə və bütün Milli Olimpiya Komitələrinin iştirakı ilə qeyd etmək məqsədi ilə 1987-ci ildə Olimpiya Qaçış Günü keçirilib. Azərbaycanda Beynəlxalq Olimpiya Qaçış Günü ilk dəfə 1996-cı ildə təşkil edilib. Elə həmin ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatılıb. Bu gün ölkəmizdə idman sürətlə kütləviləşir. Hər il müxtəlif beynəlxalq yarışların Azərbaycanda keçirilməsi, digər sahələrdə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırır.

Hər dörd ildən bir böyük səbrsizliklə izlədiyimiz Olimpiya Oyunlarının qədim olmaqla yanaşı, həm də keşməkeşli tarixi var. Qədim Yunanıstanda əsası qoyulan Olimpiya Oyunları, bir növ, dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslanırdı. Olimpiya Oyunlarında fiziki bacarıq mənəviyyatla, incəsənətlə vəhdət təşkil edirdi. Bu oyunların bərpası təşəbbüsü 1894-cü ildə fransız ictimai xadimi baron Pyer de Kuberten tərəfindən irəli sürülüb. Həmin konqresdə ilk Olimpiya Oyunlarının keçiriləcəyi yer də müəyyən olunub. Beləliklə, ilk Oimpiya Oyunları 1896-cı ildə Yunanıstanın paytaxtı Afina şəhərində keçirilib. Üzərində 5 halqa olan Olimpiya bayrağının ideyasına görə halqalar 5 qitəni göstərir: göy, sarı, yaşıl, qara və qırmızı. Rəngli halqaların bir-birinə keçirilməsi bu qitələr arasında dostluğu ifadə edir. Dərisinin rəngindən, sosial, siyasi, dini əqidəsindən və idmana aid olmayan digər amillərdən asılı olmayaraq, bütün qitələrin atletləri arasında vicdanlı, idman mübarizəsinin simvolu kimi qəbul edib.

1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi yaradılıb. 1997-ci ildə Milli Olimpiya Komitəsinə İlham Əliyevin sədr seçilməsi isə Azərbaycanda olimpiya hərəkatının güclənməsi üçün böyük təkan oldu.

İnternetdə: www.books.google.com

## 23 İyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü, (2006)



Bu bayram Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib. Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 1995-ci ildə qəbul olunan Konstitusiya ölkəmizdə dövlət quruluşu və idarəçilik prinsiplərini təsbit edir. Ölkəmizdə Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də qəbul edilən "Dövlət qulluğu haqqında" Qanundur. Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib. Respublikamız müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatları uğurla davam etdirir. Bu islahatlardan məqsəd çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması, bütövlükdə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirilməsindən ibarətdir. Prezident İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb, onun Əsasnaməsi təsdiq edilib. Komissiyanın əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının ixtisas hazırlığının artırılması, qanunvericilikdə nəzərdə tutulan siyasətin həyata keçirilməsini təmin etməkdir. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynayır. İndi ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirlik, komitə və digər qurumlarda 28 minə yaxın dövlət qulluqçusu çalışır. 10 min nəfərdən çox şəxs isə dövlət qulluqçusu kimi pensiya alır.

İnternetdə: www.books.google.com

## 26 İyun – Silahlı Qüvvələr Günü, (1918)



***Güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var. Azərbaycan ordusuna eşq olsun! Yaşasın Azərbaycan!***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Milli Ordumuzun yaradılması hələ Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə təsadüf edir. O vaxtlar Rusiya imperiyasının müsəlman xalqlarına həqarətli münasibəti, onların orduda xidmətdən "azad" edilməsi bu xalqların hərbi işləri yadırğamasına gətirib çıxarmışdı. 1917-1918-ci illərdə erməni təcavüzünün güclənməsi Azərbaycan türklərini fiziki cəhətdən məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Yaranmış vəziyyət təcili olaraq ordu quruculuğuna başlamağı tələb edirdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlanıldı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. İstedadlı general Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhəddini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi istedadlı generalları var idi. AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli fərmanına əsasən 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilirdi. Ancaq tədricən müharibədəki məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü batalyonlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Qismən hərbi səfərbərlik və orduya çağırış işi yoluna qoyuldu. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu.

İnternetdə: www.books.google.com

## 26 İyun – Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü




Narkomaniya "ağ ölümdür", həyatdan üz çevirməkdir. "Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar. Narkotik maddələr müxtəlif çeşidlidir. Daha çox yayılanları isə xaşxaş, tiryək, marixuana, heroin, kokain və s.-dir. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə – narkomaniyaya gətirib çıxarır.

Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisi birdən-birə azalır, ümumi zəhərlənmə baş verir. Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar çoxdur. Narkotik maddə alverçiləri heroin və kokaini yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkərli diabet tez inkişaf edir. Əgər "xalis mal", yəni heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin güclü təsirindən o saat ölmək olar. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş beyin zədələnə və bununla da yaşaya-yaşaya şikəstlik əmələ gələ bilər. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanından məhrum olur.

Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirilmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə aparılır. Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

## 5 İyun – Şair, dramaturq Vaqif Səmədoğlunun anadan olmasının 80 illiyi, (05.06.1939)



Vaqif Səmədoğlu 1939-cu il iyunun 5-də Bakı şəhərində, məşhur Azərbaycan şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur. Bülbül adına musiqi məktəbində, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında incəsənət redaksiyasının müdiri (1968-1971), "Oğuz eli" qəzetinin baş redaktoru (1992-1994) vəzifələrində çalışmışdır. Çaykovski adına Moskva Konservatoriyasında ixtisas kursu keçmişdir (1962-1963). Sonra Azərbaycan Dövlət Konservatoriyasında fortepiano üzrə ixtisas müəllimi (1963-1971), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kino-aktyor teatrının ədəbi hissə müdiri vəzifəsində (1982-1985) işləmişdir. Poeziya, teatr və dramaturgiya sahəsində də ciddi fəaliyyət göstərmişdir. "Yeddi şeir" adlı ilk mətbu əsəri 1963-cü ildə "Azərbaycan" jurnalında dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmiş, "Oğuz eli" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır (1992-1994). 2000-ci ildə Azərbaycanın Milli Məclisinə deputat seçilmişdir. Vaqif Səmədoğlu 2015-ci il yanvarın 28-i Bakıda dünyasını dəyişib. 29 yanvarda Birinci Fəxri xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Yoldan teleqram" (1968), "Günü baxtı" (1972), "Mən burdayam, ilahi" (1996), "Uzaq yaşıl ada" (1999), "Bəxt üzüyü" (1999), "Gürzəçöl yazıları" (2016).

**Dram əsərləri:** "Bəxt üzüyü", "İntizar", "Uca dağ başında", "Lotereya", "Yayda qartopu oyunu", "Yaşıl eynəkli adam", "Generalın son əmri", "Mamoy kişinin yuxuları".

**Şeirləri:** "Son gecədir bu gün yenə...", "Nəyin istisindən yananlar...", "Bir cüt ayaqqabı...", "Qağayı, axtar məni...", "Anara, Birlikdən və tənhalıqdan...", "Bu payız da başlandı...", "Eşidirsənmi?..", "Mühit içində...", "Ədalarından çaşdığım qadın...", "Ev. Özgə otağının kiri. Divarda Stalin...", "Dənizdən ayrılmış qupquru qaya...", "Əyrin-üyrün, dar küçələrin...".

**Filmoqrafiya:** "Xəzinə" (film, 1970), "Gün keçdi" (film, 1971), "Evləri köndələn yar" (film, 1982), "Cin mikrorayonda" (film, 1985), "Yaşıl eynəkli adam" (film, 1987), "Qətl günü" (film, 1990), "Bəxt üzüyü" (film, 1991), "Karvan" (film, 1995), "Beşmərtəbəli evin altıncı mərtəbəsi" (film, 1996), "Yaşıl eynəkli adam-2" (film, 1999), "Yaşıl eynəkli adam-3" (film, 2002), "Yumurta" (film, 2003), "Evləri göydələn yar" (film, 2010), "Gün keçdi" (film, 2012), "Bəxt Üzüyü-2" (film, 2018) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Vaqif_Səmədoğlu

**5 İyun – Yazıçı, ssenarist Natiq Rəsulzadənin 70 illiyi, (1949)**



Natiq Rəsulzadə 5 iyun 1949-cu ildə Bakıda anadan olub. 1975-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. 1979-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, Kinematoqrafçılar İttifaqı və Teatr Xadimləri İttifaqının üzvüdür. 40 ilə yaxındır ki, əsərləri bir çox dillərdə və dünyanın adlı-sanlı ölkələrində çap olunur. Azərbaycanda, ABŞ-da, Rusiyada, Macarıstanda, Yuqoslaviyada, Polşada və başqa yerlərdə 40-dan artıq kitabı işıq üzü görüb. Əsərləri bir çox nüfuzlu milli və beynəlxalq ədəbi mükafatlara layiq görülüb. 1984-cü ildə N. Ostrovski adına Ümumittifaq Mükafatına layiq görülüb. "İntihar edənin gündəliyi", "Gecə çaparı", "Nonsens", "Məhəbbət ili", "Yağışlı bayram", "Kabuslar arasında", "Quş çəkirəm", "Ulduz yollar", "Tələ", "Adacıq" və başqa geniş oxucu rəğbəti qazanmış əsərlərin müəllifi olan Natiq Rəsulzadənin ssenariləri əsasında "Mələklərə inanmayın", "Bayramda yağış", "Yaşa, qızıl balıq", "Vahimə", "Sifarişçi", "Gecə qatarında qətl", "Nə gözəldir bu dünya...", "Girov", "Ovsunçu", "Biz qayıdacağıq" kimi onlarla maraqlı filmlər çəkilmişdir. 2017-ci ildə yazıçının əsəri əsasında Azərbaycan Dövlət Rus Dram Teatrında "Meme" tamaşası səhnəyə qoyulub. Azərbaycanın Əməkdar incəsənət xadimi (1999) fəxri adına layiq görülüb. Respublika Dövlət mükafatı laureatıdır. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. 21 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

**Əsərləri:** "Uşaqlıq lövhələri" (1976), "İşıqlı lövhələr" (1978), "Bayramda yağan yağış" (1981), "Gecədə atlı" (1982), "Vsadnik v noçi" (1983), "Risuyu ptiçu" (1984), "Ulduzların altında yol" (1986), "Gecədə atlı" (1988), "Pəncərə: hekayə və povest" (2010) və s.

**Filmoqrafiya:** "De ki, məni sevirsən!" (film, 1977), "Sürpriz" (film, 1977), "Pərilərə inanmayın" (film, 1979), "Bayramda yağış" (film, 1985), "Yaşa, qızıl balıq" (film, 1988), "Gecə qatarında qətl" (film, 1990), "Dünən, bu gün, sabah" (film, 1992), "Vahimə" (film, 1998), "Nə gözəldir bu dünya..." (film, 1999), "Sifarişçi" (film, 2000), "Epizod" (film, 2002), "Ovsunçu" (film, 2002), "Girov" (film, 2005), "Biz qayıdacağıq" (film, 2007) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Natiq_Rəsulzadə

**10 İyun – Tənqidçi, ədəbiyyatşünas, Məmməd Arifin 115 illiyi, (1904-1975)**



Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü il iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur. Bakıdakı rus-tatar məktəbini bitirdikdən sonra Məmməd Arif 1920-1930-cu illərdə I dərəcəli 5-ci sovet məktəbində müəllim işləmişdir. Eyni zamanda o, Xalq Maarifi İnstitutunda təhsil almış və 1925-ci ildə bu institutu bitirmişdir. 1925-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin "Şərq" fakültəsində oxumuş, Universiteti bitirdikdən sonra 1930-1931-ci illərdə Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. Məmməd Arif 1932-1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, "Rus ədəbiyyatı" kafedrasının dosenti olmuşdur. Uzun illər Azərbaycan Dövlət Universitetində çalışmış, 1941-1950-ci illərdə burada "Rus ədəbiyyatı" kafedrasının müdiri olmuş, 1955-ci ildə professor elmi adını almışdır. Eyni zamanda o, 1930-1940-cı illərdə Azərbaycan Respublikası maarif nazirinin (komissarının) müavini vəzifəsini tutmuş, 1941-1947-ci illərdə "Vətən uğrunda" ("İnqilab və mədəniyyət", yəni indiki "Azərbaycan") jurnalının baş redaktoru işləmişdir. Məmməd Arif 1944-cü ildə "Azərbaycan sovet ədəbiyyatının inkişafı yolları" mövzusunda namizədlik, 1954-cü ildə isə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin ildə alim Ədəbiyyat və Dil İnstitutunda şöbə müdiri, 1939-cu ilin yanvar-sentyabr aylarında isə direktor müavini vəzifəsində işləmişdir.1939-cu il sentyabr ayının 25-də Məmməd Arif Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsinə təyin edilmiş və 1950-ci il iyulun 27-dək həmin vəzifədə çalışmışdır. Məmməd Arif 1955-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, 1958-ci ildə akademiki seçilmişdir. Görkəmli alim və bacarıqlı təşkilatçı olan M.A.Dadaşzadə 1959-cu ildə Elmlər Akademiyasının İctimai Elmlər Bölməsinin akademik-katibi təyin edilmiş, 1960-cı ildən ömrünün sonunadək isə Respublika Elmlər Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərmişdir. Məmməd Arif 1957-ci ildən etibarən Akademiyanın Rəyasət Heyəti yanında Terminologiya Komitəsinin sədri vəzifəsində çalışmış, uzun illər boyu Azərbaycan Respublikası Elmlər Akademiyasının "Xəbərləri"nin baş redaktoru, həmçinin Zaqafqaziya xalqlarının Mədəni Əlaqələri üzrə Koordinasiya Şurasının rəhbəri olmuşdur. O, eyni zamanda uzun illər Azərbaycan Yazıçılar İttifaqının İdarə heyətinin üzvü olmuş, "Tənqid" bölməsinə rəhbərlik etmişdir.

**Əsərləri:** "C.Cabbarlının yaradıcılığında xalqlar dostluğu" (1942), "Böyük rus tənqidçisi Belinski" (1948), "Şair Məmməd Rahim" (1957), "Azərbaycan xalqının ədəbiyyatı" (1958), "Ədəbi-tənqidi məqalələr" (1958), "Səməd Vurğunun dramaturgiyası" (1964), "Əsrin oğlu" (1979), "Sənətkar qocalmır" (1980) və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Məmməd_Arif

**15 İyun – Xalq şairi Hüseyn Arifin 95 illiyi (1924-1992)**



Hüseynzadə Hüseyn Camal oğlu 1924-cü il iyunun 15-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub. Bakı pedaqoji məktəbində (1937-1940), Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində (1946-1951) təhsil almışdır. Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri (1957-1959), "Azərnəşr"in Bədii Ədəbiyyat Redaksiyasında böyük redaktor (1965-1967), "Gənclik" nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri (1967-1968), Azərbaycan Aşıqlar Birliyinin sədri (1984-1992) vəzifələrində işləmişdir. 1976-cı ildə Hüseyn Arifin Oğlu (Arif Hüseynzadə) rəhmətə gedib, məhz o gündən sonra əslində Hüseyn Hüseynzadə olan Hüseyn Arif bu adı özünə təxəllüsü götürüb. Oğlunun ölümündən sonra həyatı çox dəyişdi. Hüseyn Arif Yaradıcılığının sonrakı dövrünün böyük bir qismini məhz oğluna yazdığı şeirlər tuturdu. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmişdir. 1992-ci il sentyabrın 14-də Bakıda vəfat etmiş, doğulduğu kənddə dəfn olunub. Ədəbi fəaliyyətə İkinci dünya müharibəsi illərində başlamışdır. Onun liberettosu əsasında 1957-ci ildə "Azad" tamaşası M.F.Axundov adına Opera və Balet teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. 1971-ci ildə "Dağ Kəndi" poemasına görə "Qızıl Oraq" mükafatına layiq görülmüşdür. Əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Mahnılarına musiqi bəstələnmişdir. 1976-cı ildə Yuqoslaviyada (Sarayevo) Beynəlxalq poeziya günlərinin, 1979-cu ildə Liviyada SSRİ günlərinin iştirakçısı olmuşdur. Dövrünün dəmir qayda və qanunlarına baxmayaraq azad ruhlu, təbiət vurğunu olan bu şairi Sovet imperiyası öz təsiri altına sala bilmədi. 1992-ci ildə Hüseyn Arif Ağstafa rayonunda vəfat edib.

**Əsərləri:** “Yeni həyat yollarında” (1950), “Mən sülhə səs verirəm” (1951), “Rus dili müəlliməsi” (1954), “Məhəbbət nəğmələri” (1956), “Dostluq telləri” (1960), “Yolda” (1962), “Ömür çeşməsi” (1963), “Sibir töhfələri” (1964), “Torpaq eşqi” (1964), “Diri göl əfsanəsi” (1969), “Bahar gələndə” (1969) və s.

**Məşhur şeirləri:** “Analar”, “Sən Dərsə Gəlməyəndə”, “İnsan”, “Xatırla Məni”, “Könül Deyir Yaşa Hələ”, “Şeir Deyilmi” və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.383.

**15 İyun – Şair, ədəbiyyatşünas Hüseyn Kürdoğlunun 85 illiyi, (1934-2003)**



Alışanov Hüseyn Həsən oğlu 1934-cü il iyunun 15-də Azərbaycanın Laçın rayonunun Əhmədli (Mollaməhmədi) kəndində anadan olmuşdur. Orta təhsilini Əhmədli kənd yeddiillik, Ağdam şəhər 1 saylı orta, Laçın şəhər orta və Qubadlırayonu Xanlıq kənd məktəblərində alıb ADU-nun filologiya fakültəsinə daxil olmuşdur (1953-1958). Əmək fəaliyyətinə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində ədəbi dram şöbəsinin redaktoru kimi başlamışdır. Sonra Azərbaycan EA Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmişdir (1960). “Müasir kürd şairi A.Qoranın poeziyası” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1966). Şərqşünaslıq İnstitutunun “İran ədəbiyyatı” şöbəsində böyük elmi işçi vəzifəsində çalışmışdır (1968-1993). Ömrünün sonunadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda işləmişdir (1993-cü ildən). Ədəbi yaradıcılığa erkən başlamış, ilk şeirlərini hələ orta məktəbin beşinci sinfində ikən Laçın rayonunda çıxan “Sovet Kürdüstanı”qəzetində çap etdirmişdir. Onun “Gözəldir” rədifli ilk qoşması 1950-ci ildə “Azərbaycan gəncləri” qəzetində dərc olunandan sonra dövri mətbuatda müntəzəm çıxış etməyə başlamışdır. Bədii tərcümə ilə də məşğul olmuşdur. Azərbaycanda rəsmi fəaliyyət göstərən "Ronahi" Kürd Mədəniyyət Mərkəzinin (1990) və Mərkəzin mətbu orqanı olan "Denge Kurd" ("Kürdün Səsi", 1992) qəzetinin təsisçilərindən biri olmuşdur. "Ronahi"-nin mədəni fəaliyyətində iştirak etmiş, "Denge Kurd" qəzetinin fəal əməkdaşı olmuşdur. Hüseyn Kürdoğlu 2003-cü il iyulun 12-də Bakıda vəfat etmiş, Xırdalan qəbiristanlığında dəfn edilmişdir.

**Əsərləri:** “Səhər nəğmələri” (1963), “Yurdumu gəzə-gəzə” (1968), “Qaya çiçəkləri” (1970), “Doğma diyarım” (1973), “Çiçək təbəssümü” (1975), “Ata yurdum” (1978), “Dördtelli durnam” (1979), “Toy karvanı” (1981), “Durna səsi” (1985), “Quzular dağa çıxdı” (1985), “Bu dünya bir karvan yolu” (1989) və s.
**Tərcümələri:** “Rəhim Qazi” (Peşmərçə) (1969).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.389

**19 İyun – Filologiya elmləri doktoru Seyfulla Əsədullayevin 95 illiyi, (1924)**



Əsədullayev Seyfulla Qüdrət oğlu 1924-cü il iyunun 19-da Astara rayonunun Ərçivan kəndində anadan olmuşdur. 1942-ci ildə Astara rayonunda, A.S.Puşkin adına Ərçivan orta məktəbini əla attestatla qurtarmışdır. Həmin ilin sentyabr-dekabr aylarında Şuvi kəndinin natamam orta məktəbində müəllim işləmişdir. 1942-ci ilin dekabr ayından 1945-ci ilin dekabrına qədər Böyük Vətən müharibəsi cəbhələrində döyüşmüş və yaralanmışdır. 1945-ci ilin dekabrından 1947-ci ilin sentyabrına qədər Astara rayonunda orta məktəb müəllimi, məktəb internatının müdiri işləmişdir. 1947-ci ildə M.F.Axundov adına müəllimlər institutuna daxil olub, 1949-cu ildə buranı qırmızı diplomla bitirmişdir. 1951-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutun rus dili və ədəbiyyat fakültəsini qırmızı diplomla bitirmişdir. 1951-1956-ci illərdə M.F.Axundov adına müəllimlər institutunda laborant, baş laborant və müəllim vəzifəsində çalışmışdır. 1956-1959-cu illərdə M.V. Lomonosov adına Moskva Dövlət Universitetində filologiya fakültəsinin rus sovet ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuşdur. 1959-1966-ci illərdə Azərbaycan Dillər İnstitutunda müəllim, baş müəllim, dosent, dekan müavini, fakültə dekanı vəzifələrində çalışmışdır. 1966-ci ildən bu günə qədər Bakı Dövlət Universitetində kafedra müdiri vəzifəsində işləyir. 1971-ci ildən professor adını qazanmışdır. 1966-2009-cu ilə kimi BDU “Rus ədəbiyyatı tarixi”, “XX əsr rus ədəbiyyatı və ədəbiyyat nəzəriyyəsi”, “Müasir rus ədəbiyyatı” kafedralarının müdiri işləmişdir. 500-dən çox ədəbi-nəzəri və ədəbi-tənqidi məqalələrin, 20 monoqrafiyanın müəllifidir. “Rus klassikası və SSRİ xalqları ədəbiyyatı” – 10-cilddə SSRİ Elmlər akademiyasının M.Qorki adına Dünya ədəbiyyatı institutu, Kiyev, Tiflis və Yerevan Dövlət Universitetləri ilə birgə hazırlamışdır. Redkollegiyanın üzvü və müəlliflərdən biridir. Monoqrafiyalarda və məqalələrində elmdə işlənməmiş sahələrin tədqiqi əsas yer tutur: sosialist realizmin tarixiliyi, nəzəriyyəsi, tipologiyası, Azərbaycan poeziyasında sonet janrı (tarixi və nəzəriyyəsi), H.Əliyev və ədəbi proses, müasir ədəbiyyatşünaslığın metodoloji problemləri, V.Vısoskinın poetikası, rus klassiklərinin yaradıcılığında şərq motivləri və janrları. Əməkdar elm xadimi, “Böyük Vətən müharibəsi”, “Xalqlar dostluğu”, “Şöhrət” ordenləri, 12 medal və Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət heyyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Ailəlidir. Dörd övladı var.

**Əsərləri:** “İstorizm, teoriya i tipologiya sotsialistçeskoqo realizma” (1969), “Zametki o romane” (1970), “Tarix. Sənətkar. Müasirlik” (1975), “Azərbaycan poeziyasında sonet janrı” (2002), “Oğru” (2003), “Tərs keçilər” (2005) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.779.

**20 İyun – Biblioqraf, ədəbiyyatşünas Nazim Axundovun 95 illiyi, (1924-1994)**



Nazim Fərrux oğlu Axundov 1924-cü il iyun ayının 20-də Şuşa şəhərində müəllim və həkim ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini Tərtər rayonunun Qazax kəndində almışdır. 1937-ci ildə Bakı Pedaqoji Məktəbinə daxil olan N. Axundov 1940-cı ildə oranı bitirib. N. Axundov 1940-1944-cü illərdə kənd məktəblərində müəllimlik etməklə yanaşı Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsində təhsilini davam etdirmişdir. 1945-ci ildə isə həmin institutun aspiranturasına daxil olub. 1948-ci ilin oktyabrında Azərbaycan Dövlət Universitetinin elmi şurasında N. Axundov "Molla Nəsrəddin" jurnalının nəşri tarixinə aid tədqiqlər" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmlər namizədi adını alıb. N. Axundov 1948-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1950-ci ilin mart ayından 1952-ci ilə qədər Quba Pedaqoji İnstitutunun, 1953-1956-cı illərdə isə H. Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun direktoru işləmişdir. 1953-cü ildə Elmi-Tədqiqat Pedaqogika institutunda baş elmi işçi, 1958-ci ildən isə Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsində çalışmışdır. 1961-ci ilin iyunundan N. Axundov Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dövri mətbuat və biblioqrafiya şöbəsinin müdiri işləmişdir. 1971-ci ildən N. Axundov "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. N. Axundov 1966-cı ildə "Azərbaycan satira jurnalları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. N. Axundov respublikanın görkəmli biblioqraflarındandır. Onun 100-dən artıq elmi-tənqidi və biblioqrafik məqalələri, broşüra və kitabları nəşr olunmuşdur. Onlardan "Molla Nəsrəddin" jurnalının nəşri tarixi (1959), "Azərbaycan satira jurnalları" (1968) adlı monoqrafiyaları, "M.Ə. Sabir" (1959), "Cəfər Cabbarlı" (1964), "Azərbaycan dövri mətbuatı" (1965), "Səməd Vurğun" (1965) biblioqrafiyalarını göstərmək olar. N. Axundov bir çox kitabların tərtibatçısı, şərh və biblioqrafiyalarının müəllifidir. Nazim Axundov 1994-cü il martın 10-da Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Molla Nəsrəddin" jurnalının nəşri tarixi (1959), "Azərbaycanda dövri mətbuat" (1832-1920), "Üzeyir Hacıbəyov" (1986), "Qarabağnamələr" (1991).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.653.

**21 İyun – Alim, şair Abbasqulu ağa Bakıxanovun 225 illiyi, (1794-1847)**



Abbasqulu ağa Bakıxanov 1794-cü il iyunun 21-də Bakı şəhəri yaxınlığında Əmircan (köhnə adı Xilə) kəndində Bakı xanları nəslindən olan II Mirzə Məhəmməd xanın ailəsində anadan olub. 1819-cu ildə Abbasqulu ağa general Yermolovun dəvəti ilə Tiflisə gələrək Qafqaz Baş Hərbi İdarəsində şərq dilləri tərcüməçisi vəzifəsinə təyin olunub. Azərbaycan elmi tarixində özünəməxsus yer tutan Abbasqulu ağa Bakıxanov "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" kimi əsərləri ilə böyük şöhrət qazanıb. Dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və digər elmlərə aid əsərləri onun hərtərəfli bir alim olduğunu göstərir. Həmçinin Amerikanın kəşfindən və bu qitədən bəhs edən "Kəşfül-qəraib" və dövrümüzə gəlib çatmayan "Ümumi coğrafiya" əsərlərinin müəllifidir. Bakıxanov pedaqoji məsələlərlə də məşğul olub, uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar mülahizələrini "Təhzibül-əxlaq" əsərində qələmə alıb. O, dərin əxlaqi-fəlsəfi məzmuna malik olan bu əsərində cəmiyyət haqqındakı fikirlərini bir sistem şəklində şərh edərək, gənclər arasında nəcib əxlaq normalarını təbliğ edib. Alimin ən dəyərli əsəri isə, heç şübhəsiz uzun illər boyu apardığı ciddi tədqiqatlar nəticəsində ərsəyə gəlmiş "Gülüstani-İrəm" əsəridir. Bu əsərlə o eyni zamanda Azərbaycan tarixşünaslığının əsasını qoyub. Azərbaycan və Dağıstan xalqlarının tarixindən bəhs edən "Gülüstani-İrəm" faktlarla olduqca zəngindir. Əsərin müqəddiməsində Azərbaycanın və Dağıstanın qısa coğrafi təsviri verilir, qədim yunan, ərəb və rus mənbələrinə istinad edilərək bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqqında maraqlı məlumatlar yer alır. "Gülüstani-İrəm" əsəri özündə Nuhun tufanı, Yəcuc və Məcuc, skiflər, massagetlər, xəzərlər, Sasani hökmdarlarının Azərbaycandakı hakimiyyəti, İslam dövlətinin yaranması, ərəb qoşunlarının Azərbaycana gəlməsi, həmin dövrlərdə Şirvan və Dağıstanda baş verən hadisələr, monqol istilası, hülakülərin və teymurilərin hakimiyyəti, Səfəvi dövlətinin yaranması, Şirvanşahlar sülaləsi, "Gülüstan" adlı yerdə Rusiya və İran arasında sülh müqaviləsinin bağlanmasına qədər olan geniş bir tarixi dövrü əhatə edir. Bakıxanov 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanması mərasimində tərcüməçi kimi iştirak edib. Qüdsi təxəllüsü ilə şeirlər yazıb. Görkəmli alim 1847-ci ildə Məkkədən Mədinəyə gedərkən vəba xəstəliyindən vəfat edib və Vadiyi-Fatimə adlanan yerdə dəfn olunub.

**Əsərləri:** "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" və s.

**Filmoqrafiya:** "Sonuncu orden" (film, 2002), "Əhməd Bakıxanov" (film, 2003), "Qüdsi" (film, 2007), "Daşdan tikilmiş şəhər" (film, 2008), "Sübhün səfiri" (film, 2012). İnternetdə: www.books.google.com

**21 İyun – Yazıçı Əhməd Rəhimovun 95 illiyi, (1924-1998)**



Rəhimov Əhməd Həsən oğlu 1924-cü il iyunun 21-də Azərbaycanın Şəki rayonundakı Qışlaq kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1930-cu ildə ailəliklə Bakıya köçmüşlər. M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (1946-1948), eyni zamanda Bakı siyasi maarif məktəbinin kitabxanaçılıq şöbəsində təhsil almışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir (1952). Bədii yaradıcılığa 1939-cu ildə "Azərbaycan pioneri qəzetində dərc olunan "Pilot qız" şeirilə başlamışdır. Həmin vaxtdan respublika və mərkəzi dövri mətbuatda müntəzəm çıxış edib. Moskvada kino – dramaturgiya kursunu bitirəndən sonra Bakı neftçilərinin həyatından ("Xəzərin sahilində") ssenari yazmışdır. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə edilmişdir. Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru, "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində redaktor vəzifələrində işləmişdir. Sonra ömrünün axırınadək "Maarif" nəşriyyatının Azərbaycan dili və ədəbiyyatı redaksiyasında böyük redaktor kimi çalışmışdır. Əhməd Rəhimov 1998-ci il dekabrın 24-də vəfat etmişdir.

**Əsərləri:** "Mənim ailəm" (1955), "Bir evin gəlini" (1957), "Mahur" (1959), "Doğma adamlar" (1967) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.228.

**22 İyun – Yazıçı Cəlal Bərgüşadın 95 illiyi, (1924-1996)**



Cavadov Cəlal Novruz oğlu 1924-cü il iyunun 22-də Azərbaycanın Qubadlı rayonunun Qəzyan kəndində anadan olmuşdur. Orta təhsilini Qubadlı kəndində fəhlə-gənclər məktəbində almış, II dünya müharibəsində iştirak etmiş, ağır döyüşlərin birində kontuziya olduğuna görə tərxis edilmişdir (1943). Bundan sonra Qubadlı rayon daxili işlər şöbəsində VAQ müdiri işləmişdir (1943-1946). Onun "Cənub taydan əsən meh" adlı ilk şeiri də Qubadlıda çıxan "Avanqard" qəzetində dərc edilmişdir (1946). Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir. "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi təyin olunmuşdur (1951). 1958-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor vəzifəsində işləmişdir. Onun ssenarisi əsasında "Çoban Boran", "Göy göl", "Suren Adamyan", "Torpağın ətri", "Çinar yarpağı" televiziya fılmləri çəkilmişdir. "Babək" əsəri Tehranda (1984) farsca, "Qaçaq Nəbi" İstanbulda (1979) türkcə kütləvi tirajla çap olunmuşdur. Xidmətlərinə görə birinci dərəcəli "İkinci Dünya müharibəsi" ordeni (1986) və medallarla təltif edilmişdir. Cəlal Bərgüşad 1996-cı il iyulun 9-da vəfat etmişdir.

**Əsərləri:** “Bozatın belində” (1958), “Gələcəyi yaradanlar” (1961), “Təzə gəlin” (1962), “Toydan sonra” (1964), “Dərilməmiş salxımlar” (1974), “Sıyrılmış qılınc” (1981), “Şərq çiçəyi” (1985) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.157.

**22 İyun – Şair, tərcüməçi Sabir Mustafanın 80 illiyi, (1939)**



Sabir Mustafa (Sabir Mustafayev) 1939-cu il 22 iyunda Qərbi Azərbaycanın Dərəçiçək mahalının Təkəli kəndində anadan olub. 1948-ci ildə Stalinin qərarı ilə ailəsi ilə birlikdə doğma yurd-yuvasından Saatlı rayonuna köçürülmüşdür. Ancaq orada istilərə tab gətirməyən Sabirin ailəsi Qazax rayonunun Göycəli kəndində məskunlaşmışdı. Sabir Mustafanın uşaqlıq illəri məhz saz-söz diyarı olan Qazax rayonunda keçib. Orta məktəbi də Göycəli kəndində bitirmişdir. 1959-cu ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunu bitirdikdən sonra təyinatla Zaqatala rayonunda orta məktəb müəllimi kimi 3 il işləmişdir. Daha sonra Bakıdakı orta məktəbdə müəllim kimi, “Azərnəşr”də, “Yazıçı” nəşriyyatda bədii ədəbiyyat üzrə redaktor kimi fəaliyyətini davam etdirmişdir. 1992-ci ildən bu günə qədər Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsində tədrislə məşğuldur, tələbələrinə tərcümə sənətinin incəliklərini, ingilis dilini yalnız bir dil kimi deyil, bədii ifadə vasitəsi, ədəbiyyat dili kimi öyrədir. Uzun illər tərcümə sənəti ilə məşğul olan şair V. Şekspirin ölməz faciələri - "Romeo və Cülyetta", "Otello", "Hamlet", "Kral Lir", "Maqbet" və s. ingilis dilindən azərbaycan dilinə tərcümə etmişdir. V.Şekspirin "Sonetləri" (1980, 1992), "Pyeslər"i (1989) tərcümələri də kitab halında çap olunmuşdur. Frank Baumanın "Öz ölkəsinin möcüzələri", "Uzaq ellərdən doğma nəğmələr" kitablarının tərcüməsi də S.Mustafayevə aiddir. Bundan başqa o ingilis dilinin folklorundan, şifahi, klassik ədəbiyyatından nümunələr də tərcümə etmişdir. "Daha uşaq deyiləm" (1973), "Hədiyyə" (1982), "Məhəbbət ölmür" (1986), "Mən bu elin oğluyam" (1989), "Mənim taleyim" (1991), və s. şeir kitabları işıq üzü görmüşdür. Onun bədii yaradıcılığının zirvəsi isə “Türk sonetləri”dir, bu kitaba 263 sonet daxil edilmişdir. Bu sonetlərdə Türk dünyasının keçimişindən, gələcəyindən, bu günündən söhbət açılır. Türk dünyasının əzəmətini, qüdrətini özündə əks etdirən “Arazın fəryadı”, “Vətəndən vətənə”, “Ruhlar danışır” poemalarının da müəllifidir. Onun yazdığı “Nə gözəlsən ey Vətən”, “Yeni il”, “Novruz bayramı”, “Cənnət yurdum Qarabağ” və s. kimi şeirlərinə bəstəkar Rəşid Şəfəq musiqilər bəstələmişdir. XX əsrin 60-70-ci illərindən Azərbaycanda orijinaldan birbaşa tərcümə problemləri ilə geniş məşğul olmuş, Sabir Mustafayev bir çox əcnəbi şairlərin Azərbaycan dilinə tərcüməsində böyük rol oynamış, belə tərcümənin gözəl nümunələrini yaratmışdır.

**Əsərləri:** ”Daha uşaq deyiləm” (1973),”Meh əsəndə” (1980),”Hədiyyə” (1982), ”Məhəbbət ölmür” (1986), ”Mən bu elin oğluyam” (1989), ”Mənim taleyim” (1991); Tərcümələri: ”Türk sonetləri” (2003), ”Frəng Baum. Öz ölkəsinin möcüzələri” (1980), ”Uzaq ellər” (1986), ”Vilyam Şekspir: Sonetlər” ( 1992) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.758.

**27 İyun – Şair, publisist Məmməd Əfşanın 80 illiyi, (1939)**



Məmmədov Məmməd Hüseyn oğlu 1939-cu il iyun ayının 27-də Azərbaycanda Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda fransız dili fakültəsində təhsil almışdır (1960-1965). Azərbaycan Dövlət Universitetində jurnalistika şöbəsində təhsilini davam etdirmişdir (1965-1968). Əmək fəaliyyətinə “Abşeron” qəzeti redaksiyasında məsul katib kimi başlamışdır (1968). Bakı Ali Partiya Məktəbində ali siyasi təhsil aldıqdan sonra (1975-1977) “Kirpi” satira jurnalı redaksiyasında jurnalistik fəaliyyətini davam etdirmişdir (1978-1992). Azərbaycan Dövlət Taxıl Məhsulları Şirkətində (1993- 1997) və “Dövlətxəzərmühafizə” Müfəttişliyində mətbuat xidmətinin rəhbəri olmuşdur (1997-1998). 1999-cu ildə “Gömrük xəbərləri” qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır. Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Külli miqdarda oçerk və publisistik məqalələri dövri mətbuatda dərc olunmuşdur. İlk mətbu şeirləri 1956-cı ildə Qazax şəhərində nəşr edilən “Qalibiyyət bayrağı” qəzetində dərc olunmuşdur. Sonra dövri mətbuatda şeirləri, poemaları və satirik hekayələri çap edilmişdir. Özbək dilində şeirlər toplusu çıxmışdır. “Qardaşlar”, “Buxov”, “Kötük” və “Köpük” pyesləri vardır.

**Əsərləri:** “Al bayraqlı respublikam” (1980), “Qızıl əllər” (1985), “Dostluq təranələri” (1986), “Üç qardaş” (2000), “Mən görən kişilər” (2002), “Dünya mənim dünyam deyil” (2003), “Sönməz ocağın duhası” (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.565.

**29 İyun – Şair Çingiz Əlioğlunun 75 illiyi, (1944)**



Çingiz Əlioğlu 1944-cü il iyunun 29-da Füzuli şəhərində anadan olmuşdur. Burada B.Sərdarov adına orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması və texnologiyası fakültəsində təhsil almışdır (1961-1965). Bədii yaradıcılığa "Gənc qələmlər" (1967) toplusunda çıxan "Xatirələr" şeirilə başlamışdır. Elə o vaxtdan da fəal ədəbi yaradıcılıqla məşğul olur, dövri mətbuatda şeir, hekayə, ədəbi-bədii tərcümələr və publisistik məqalələrlə müntəzəm çıxış edir. Əmək fəaliyyətinə "Gənclik" nəşriyyatında redaktor kimi başlamışdır. Orada böyük redaktor (1977-1988), redaksiya müdiri (1988-1991), Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor (1991-1992), Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində nəşriyyatlar idarəsinin rəisi vəzifəsində çalışmışdır (1992). Gənc şairlərin Ümumittifaq poeziya festivallarında (IV, V, VI) gənc yazıçıların yeddinci Ümumittifaq müşavirəsində və birinci Ümumittifaq toplanışında, Şuşenskoyedə keçirilən yazıçı və tənqidçilərin Ümmuittifaq nəzəri konfranslarında, Krasnoyarsk diyarında, İvanovo-Frankovsk vilayətlərində, Latviya SSR-də keçirilən Sovet ədəbiyyatı günlərində, bir neçə dəfə Moskvada keçirilən Azərbaycan şeiri günlərində, Riqada və Vilnüsdə keçirilən latış, Tilva tərcüməçilərinin beynəlxalq müşavirəsində iştirak etmişdir. Əsərləri keçmiş SSRİ və bir çox Avropa xalqlarının dillərinə tərcümə olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqında gənclərlə iş üzrə komissiyanın üzvüdür. Beynəlxalq "Kalevala" cəmiyyətinin üzvüdür. Ümumittifaq poeziya müsabiqəsinin üç qalibindən biri kimi "Yunost" jurnalının "Yaşıl yarpaq" mükafatına, Azərbaycan LKGİ MK-nın və Ukrayna KP İvanovo-Frankovsk vilayət komitəsinin fəxri fərmanlarına layiq görülmüşdür. Finlandiya Respublikası Maarif Nazirliyinin təqaüdçüsü (1990).

**Əsərləri:** “Nikbinlik” (1969), “Vağzallar...Yollar...” (1974), “Soraqlar sevgi məni” (1978), “Ömür ağacı” (1980), “Alnından ay doğan adam” (1983), “Günəşli dayanacaqlar” (1984), “Görüşdən ayrılığa” (1988), “Tanrını tanı” (1991), “Çərçivə” və s.

**Filmoqrafiya:** “Gün keçdi” (film, 1971)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.167.

**Xarici ədəbiyyat**
**23 İyun – Rus şairəsi Axmatova (Qorenko) Anna Andreyevnanın 130 illiyi, (1889-1966)**



Anna Axmatova 1889-cu ilin 23 iyununda Odessada, zadəgan ailəsində dünyaya göz açıb. Atası mühəndis-mexanik olub. Anna özünü ana tərəfdən Qızıl Orda xanı Əhməd xanın nəslindən hesab edirdi və məhz buna görə sonradan Axmatova təxəllüsünü götürmüşdü. Amma bunun əfsanə olduğu deyilir. "Rekviyem" adlı avtobioqrafik poeması (1935-1940-cı illərdə yazılıb, 1987-ci ildə çap olunub) 1930-cu illər repressiyalarına həsr olunmuş ilk bədii əsərlərdən hesab olunur. "Qəhrəmansız poema" əsərində isə Axmatova rus ədəbiyyatının "Gümüş dövrü"nün epoxasını yaratmağa çalışıb. 1922-ci ildən etibarən Anna Axmatovaya qarşı ciddi senzura tətbiq olunmağa başlandı. 1922-1966-ci illərdə onun bütün kitabları düzəlişlərlə çap olundu. Anna Axmatova 1900-1905-ci illərdə Sarskoye Selo Marinski Gimnaziyasında təhsil alıb. 1906-1907-ci illərdə Kiyev Fundukleyevski Gimnaziyasında təhsilini davam etdirib. 1921-ci ilin aprel ayında "Petropolis" nəşriyyatında "Bağayarpağı"' ("Podorojnik") şeirlər məcmuəsi 1000 nüsxə ilə çap olunub. 1923-1934-cü illərdə Anna Axmatovanın şeirləri çap olunmayıb. Şairə 1935-1940-cı illərdə o illərin repressiyalarını və özünün ağır həyatını əks etdirən məşhur "Rekviyem" əsərini yazıb. 1938-ci ildə N.N. Punindən ayrılıb. 1940-cı ildə "Altı kitabdan" ("İz shesti kniq") adlı altıncı şeirlər toplusu işıq üzü görüb. 1941-ci ildə Sankt-Peterburqa, sonralar isə həkimlərin tövsiyəsi ilə Moskvaya, Çistopola, oradan Kazan şəhərinə və nəhayət, Daşkəndə evakuasiya olunmuşdur. Daşkənddə onun yeni şeirlər kitabı işıq üzü gördü. 1943-cü ildə Lev Qumilyovun Norilsklagerdə həbs müddəti sona yetmiş və onu Zapolaryeya sürgün etmişlər. 1944-cu ilin sonunda o, İkinci dünya müharibəsinə gedib, Berlinə kimi döyüşlərdə iştirak edib. Müharibə bitdikdə Leninqrada dönmüş və elmi dissertasiyasını müdafiə etmişdir. 1945-ci il 15 mayda Axmatova evakuasiyadan Moskvaya döndü. Anna Axmatova 1966-cı il 5 martda Domodedovo şəhərində vəfat etmişdir. 7 mart saat təxminən 22:00-da Ümumittifaq radiosu onun vəfatını elan etmişdir. Anna Axmatova Sankt-Peterburq şəhərinin yaxınlığında Komarovo qəsəbə qəbiristanlığında dəfn edilmişdir. Anna Axmatovanın şeirləri dünyanın bir çox dillərinə tərcümə olunub.

İnternetdə: https://az.wikipedia.org/wiki/Anna_Axmatova

## İncəsənət

## 1 İyun – Rus bəstəkarı Mixail Qlinkanın 215 illiyi, (1804-1857)



Mixail İvanoviç Qlinka 1804-cü ildə Smolensk quberniyasının Novospassk kəndində anadan olmuşdur. Uşaqlıq illərini orada keçirmiş, rus təbiətini müşahidə etmiş, rus kəndlilərinin həyatı ilə yaxından tanış olmuşdur. Kiçik yaşlarından müstəqil olaraq fortepiano, skripka və fleytada çalmaq öyrənib. O, yüksək mədəniyyəti və hərtərəfli inkişafı ilə fərqlənirdi. İspan, italyan, fars və s. kimi 8 xarici dil bilirdi. 1817-ci ildə Mixail Peterburqda olan "Nəcib pansiona" daxil olub. 1823-cü ildə pansionu bitirdikdən sonra Qlinka müalicə üçün Qafqaza gəlib. Burada o, Qafqaz xalq mahnı və rəqslərini dinləmiş və öz yaradıcılığında istifadə etmişdir. Bəstəkarın sənətkar kimi formalaşmasında A. S. Puşkin, A. S. Qriboyedov (1795 – 1829), V. A. Jukovski (1783 1852) kimi görkəmli ədəbiyyat xadimləri ilə tanışlığının böyük rolu olmuşdur. 1828-1834-cü illərdə İtaliya və Almaniyada yaşamış bəstəkar bir sıra bəstəkar və müğənnilərlə tanış olaraq müasir musiqini öyrənib, vokal yaradıcılığı sahəsində təkmilləşib. İtaliyada olarkən o, fortepiano və simli alətlər üçün sekstet, "Patetik trio", "Venasiya gecəsi", "Qalib"və s. romanslarını yazmışdır. 1832-ci ildə Qlinka milli opera yaratmaq fikrinə düşmüşdür. 1834-ci ildə Rusiyaya qayıtdıqdan sonra Jukovski tərəfindən təklif olunmuş İvan Susanin mövzusu Qlinkanı maraqlandırmışdır. K.F. Rileyevin (1795 - 1826) "İvan Susanin" poeması əsasında şair və dramaturq V. R. Rozen libretto yazıb. Qlinka rus xalqının fədakarlığını, avam kəndlinin qəlbinin təmizliyini, sadiqliyini, vətən uğrunda mübarizəsini təsvir edən "İvann Susanin" operasını yazıb. Operanın ilk tamaşası 1836-cı ildə olmuşdur. Həmin gün musiqi tarixinə rus klassik operasının yaranması günü kimi düşdü. Operanı rus cəmiyyətinin qabaqcıl nümayəndələri alqışlarla qarşıladılar. Qlinka eyni zamanda "Vals fantaziya", N.V. Kukolnikin (1808-1868) "Knyaz Xolmski" faciəsinə musiqi, 12 romansdan ibarət "Peterburqla vida" məcmuəsini və s. əsərlər yazmışdır. Bəstəkar 1844-cü idə Parisə, 1845-ci ildə İspaniyaya gedib. İspaniyada olarkən xalq mahnı və rəqslərini dinləmiş və nota salmışdır. O, 1848-ci ildə "Kamarinskaya" simfonik poemasını yazıb, "Taras Bulba" simfoniyası və "İki ərli" operası üzərində işləməyə başlayıb. Lakin bəstəkar bir qədər ruhdan düşmüşdü, onun operaları demək olar ki, tamaşaya qoyulmurdu. 1856-cı ildə Qlinka Berlinə gedib. 1857-ci ilin yanvar ayında konsertdən qayıdarkən xəstələnmiş və 1857-ci il fevralın 3-də vəfat etmişdir. Onun külünü Peterburqa aparmışdılar.

**Bəstələri:** "Tərəddüd", "Qanımda arzular coşur", "Xoş bir anı xatırlayıram", "Torağay", "Venesiya gecəsi" onun məşhur romanslarındandır.

İnternetdə: https://az.wikipedia.org/wiki/Mixail_Qlinka

**6 İyun – Əməkdar rəssam, heykəltəraş Münəvvər Rzayevanın 90 illiyi, (1929-2004)**



Əslən Şuşalı olan Münəvvər Rzayeva 6 iyun 1929-cu ildə Şuşada anadan olmuşdur. Şuşada tanınmış xalça ustası Məcid kişinin ailəsində böyüyüb. 1950-ci ildə Əzim Əzimzadə adına rəssamlıq məktəbini, 1956-cı ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsini bitirmişdir. Münəvvər Rzayeva həyatı boyu yüzə qədər müxtəlif səpkili sənət əsəri yaratmış, onlar paytaxtda, ölkənin digər şəhərləri və rayon mərkəzlərində məskunlaşmışdır. 1943-cü ildən müxtəlif sərgilərin iştirakçısı olub. 1953-cü ildən Rəssamlıq İttifaqının üzvü olub. Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü, AMEA Nizami adına Ədəbiyyat muzeyində bərpaçı rəssam kimi fəaliyyət göstərmiş və bir neçə heykəlləri bərpa etmişdir. Onun əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində, AMEA Nizami adına Ədəbiyyat muzeyində, Ordubadi muzeyində, Siyəzən mədəniyyət evində, Bədii Fondda saxlanılır. M.Rzayeva özünəməxsus dəst-xəttə malik heykəltaraşdır. O, əsasən psixoloji portret ustası idi; yaratdığı obrazların daxili aləmini, psixoloji durumunu, dünyaduyumunu əks etdirmək üçün heykəlin gözlərini xüsusi incəlik və dolğunluqla işləyirdi. Əsasən sənət adamlarının (şair və yazıçıların) heykəlləri, o cümlədən dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəlləri, büstləri, barelyef və başqa bu kimi əsərlərinin hər biri nadir sənət nümunələri kimi qiymətləndirilmişdir. Yaradıcılığında ədiblərə xüsusi məhəbbətlə yanaşmışdır. Hüseyn Cavid, Sergey Yesenin, Nəriman Nərimanov, Mikayıl Müşfiq, Nazim Hikmətin büstləri onun yaradıcı ömründə ayrıca yer tuturdu. Münəvvər Rzayevanın ən son əsəri Azərbaycanın Qusar rayonunda yerləşən dağın 3763 m. hündürlüyündəki "Heydər Zirvəsi"nə bərkidilən Azərbaycanın ümumilli lideri Heydər Əliyevin tunc barelyefi (uz. 82 sm., eni 59 sm., çəkisi 42 kq.) olmuşdur. Barelyef 1998-ci ildə mayın 10-da Heydər Əliyevin 75 illik yubileyi münasibətilə alpinistlər dəstəsi tərəfindən fəth edilmiş ən uca dağ zirvəsinə bərkidilmişdir. Münəvvər Rzayeva 2004-cü il iyun ayının 6-da doğum günündə dünyasını dəyişmişdi. Onu qiyabi olaraq çoxları tanıyırdı. Bəziləri özünü görməsələr də, Münəvvər xanımı onun yaradıcı əllərindən doğmuş, ədəbiləşmiş heykəllərində görürlər. Neçə vaxtdan bəri Bakı, Gəncə, Zaqatala, Quba və digər şəhərlərin küçə və meydanlarını bəzəyən dəyərli şəxsiyyətlərin heykəl və büstlərini öz incə duyumu ilə yaratmışdı bu incə zövqlü sənətkar.

İnternetdə:https://az.wikipedia.org/wiki/Münəvvər_Rzayeva

**7 İyun – Xalq artisti Məlik Dadaşovun 95 illiyi, (1924-1996)**



Məlik Dadaşov 1924-cü il iyunun 7-də Bakıda doğulub. 1950-ci ildə Azərbaycan Teatr İnstitutunu bitirdikdən sonra M.Əzizbəyov adına Akademik Dram Teatrına işə gəlmiş və burada ilk dəfə H. Muxtarovun "Ailə namusu" pyesində oynamışdır. Məlik Dadaşovun Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri var. Məlik Dadaşov dramatik rolların mahir ifaçısı idi. Yaratdığı obrazların ifası üçün elə gözəl ifadə vasitələri tapırdı ki, hətta tarixi qəhrəmanlar belə reallığa çox yaxınlaşırdı. M. Əzizbəyov, N. Nərimanov kimi tarixi şəxsiyyətlərin obrazları dediklərimizi bir daha təsdiq edir. Məlik Dadaşov Xalq artisti idi. Tarixi şəxsiyyətlər də Məlik Dadaşovun ifasında çox real alınırdı. Kinorejissor Əjdər İbrahimov aktyoru bir neçə filmində çəkmişdi. "İyirmialtılar" və "Ulduzlar sönmür" filmlərində o, M. Əzizbəyovun və N. Nərimanovun çox real tarixi obrazlarını ekranda əbədiləşdirə bilmişdi. Xalq yazıçısı İ.Əfəndiyevin "Atayevlər ailəsi" pyesi əsasında hazırlanmış televiziya tamaşasında M.Dadaşovun yeni ampluada yaratdığı Atayev obrazı çox uğurlu ekran qəhrəmanı idi. "Axırıncı aşırım"dakı Qəmlo bütövlükdə kinomuzda yaddaqalan obrazlardandır. Bu obrazın bütün xarakterik cizgilərini ustalıqla açan aktyor filmin əsas dramatik yükünün daşıyıcısına çevrilir. Ancaq çox təəssüflə qeyd etmək lazımdır ki, kişi rolunun ən yaxşı ifasına görə keçmiş İttifaq festivalında onun adı mükafatçılar siyahısına salınmadı. O vaxt deyilirdi ki, sovetlərin düşməni (Qəmlo) "sovetin" mükafatını ala bilməz. Və bir də "Dəli Kür"dəki Molla Sadıq. Bu obrazın da Azərbaycan kinosunda öz xüsusi yeri var. M.Dadaşov teatrımızda ömrünün sonuna kimi çalışmışdı. V.Şekspirin "On ikinci gecə", L.Tolstoyun "Canlı meyit", S.Vurğunun "Fərhad və Şirin", Ş.Qurbanovun "Sənsiz", İ.Qasımovun "Nağıl başlananda" və s. tamaşalarda onun yaratdığı obrazlar bu gün də xatirələrdən silinməmişdir. Aktyor ömrünün son illərində S.Vurğun adına Rus Dram Teatrında çalışırdı. Bu teatrda direktor kimi çalışdığı dövrdə teatrın repertuarı xeyli zənginləşmiş, buraya yeni yaradıcı qüvvələr cəlb olunmuşdu. 1980-ci illərdən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs də deyirdi. Bütün yaradıcı ömrünü Azərbaycan aktyor sənətinin inkişafına həsr etmiş görkəmli teatr və kino aktyoru Məlik Dadaşov bu gün aramızda olmasa da, onun əziz xatirəsi sənətsevərlərin qəlbində əbədi olaraq yaşayacaqdır.

**Filmoqrafiya:** “Yenilməz batalyon” (film, 1965), “Uşaqlığın son gecəsi” (film, 1968), “Ulduzlar sönmür” (film, 1971), “Axırıncı aşırım” (film, 1971) “Atayevlər ailəsi” (film, 1978), “Yarımçıq qalmış mahnı” (film, 1979), “Ağlar-güləyən” (film, 1988), “Yaramaz” (film, 1988).

İnternetdə:https://az.wikipedia.org/wiki/Məlik_Dadaşov

**26 İyun - Rejissor Mərahim Fərzəlibəyovun 70 illiyi, (1949)**



Mərahim Fərzəlibəyov 26 iyun 1949-cu ildə Bakıda anadan olub. 56 saylı orta məktəbi bitirib. Səhnəyə orta məktəbdən maraq göstərib. Orta məktəbi bitirəndən sonra Azərbaycan Respublikası Jurnalistlər İttifaqının yaradıcılıq fotostudiyasında şagird-laborant, Suraxanı rayon mədəniyyət evində kinomexanik köməkçisi, 26-lar Mədəniyyət sarayında pioner "Şəfəq" dram dərnəyinin rəhbəri işləyib. Ali təhsil almaq üçün Leninqrada (indiki Sankt-Peterburq şəhəri) gedib. Burada Dövlət Teatr, Musiqi Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olub. Diplom işi kimi Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rus bölməsində dramaturq Maykl Stüartın Bəstəkar Cerri Germanın "Hello Doli" müzikl-operettasını tamaşaya hazırlayıb. Bundan sonra isə bütün yaradıcılığı boyu bir daha operetta janrına müraciət etməyib, yalnız dram teatrında tamaşalar hazırlayıb. Azərbaycan Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına rejissor təyin olunub (9 mart 1981). Burada əsasən çağdaş Azərbaycan dramaturqlarının, həmçinin dünya klassiklərinin əsərlərinə müxtəlif janrlarda səhnə quruluşları verib. Dəvətlə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nəriman Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" və "Atabəylər", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Marat Haqverdiyevin "Məhəbbət, şeytan və lambada" (8 iyun 1991) və "Ləyaqət" (19 mart 1982) pyeslərini tamaşaya hazırlayıb. 1980-ci illərin əvvəllərində Cəfər Cabbarlı adına "Azərbaycanfılm" kinostudiyasının nəzdində fəaliyyət göstərən Kino-Aktyor Teatrı truppası ilə birlikdə Məmməd Muradın "Təkan" ("Köksüz budaqlar"), Tofiq Kazımovun tərcüməsində Qarsia Lorkanın "Qanlı toy", Qeybulla Rəsulovun çevirməsində Aleksandr Nikitinin "Abşeronda bir gecə" pyeslərinin tamaşalarını oynayıb. Teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə, rejissorluqda qazandığı nailiyyətlərə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 28 oktyabr 2000-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub. 12 yanvar 2006-cı ildə, Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına baş rejissor təyin olunub. 12 may 2010-cu ildə öz xahişi ilə teatrın baş rejissoru vəzifəsindən azad edilib.

**Filmoqrafiya:** “Qəm pəncərəsi” (film, 1986), “O dünyadan salam” (film, 1991), “Mənim ağ şəhərim” (film, 1994), “Sən həmişə bizimləsən” (film, 1997), “Canavar balası” (film, 1997), “Qırmızı qar” (film, 1998), “Doğan Günəş” (film, 2002), “Bizim qəribə taleyimiz” (film, 2005).

İnternetdə:https://az.wikipedia.org/wiki/Mərahim_ Fərzəlibəyov

**28 İyun – Xalq artisti Barat Şəkinskayanın 105 illiyi, (1914-1999)**



Barat Həbib xan qızı Şəkinskaya 28 iyun 1914-cü ildə Şuşada bəyzadə ailəsində anadan olub. O, ilk təhsilini Şuşada alıb. 1923-cü ildə isə Gəncəyə köçüblər. Həmin il sentyabrın 1-də Gəncədəki 2 saylı, birinci dərəcəli qız məktəbində dərsə başlayıb. 1927-ci ildə Gəncədə pedaqoji məktəbə qəbul olunub. 1933-cü il, yanvarın 7-də Gəncə türk İşçi Teatrosunun truppasına aktrisa götürülüb. 1935-ci il, fevralın 23-də Lavrenti Beriya adına Gəncə Dövlət Dram Teatrından işdən çıxıb tibb təhsili almaq məqsədi ilə Bakıya gəlib. 1935-ci il, sentyabrın 1-də Akademik Milli Dram Teatrının aktyor truppasına aktrisa qəbul olunub. Barat Şəkinskaya 1940-cı il, mayın 4-də qazandığı sənət nailiyyətlərinə görə Azərbaycanın Əməkdar artisti fəxri adı ilə təltiflənib. 1949-cu il, iyulun 21-də Milli teatrımızın yaranmasının 75 illiyi münasibətilə aktrisaya Azərbaycan SSR-nin Xalq artisti fəxri adı verildi. Yaradıcılığının əsas dövrü 1935-ci ildən etibarən Akademik Milli Dram Teatrı ilə bağlı olub. Barat Şəkinskaya həm də Azərbaycanın ilk travisti - oğlan rolları oynayan aktrisası olub. 1960-cı il, oktyabrın 27-də Mehdi Məmmədov Akademik Teatra baş rejissor təyin edildikdən sonra teatrdan getmiş bir neçə sənətkar, o cümlədən Barat Şəkinskaya Aktrisa Moris Meterlinqin “Göy quş” (Tiltil), Şekspirin “Kral Lir” (Kardeliya), Şillerin “Məkr və məhəbbət” (Luiza), Karlo Haldoninin “Mehmanxana sahibəsi” (Mirandalina), Lope de Veqanın “Rəqs müəllimi” (Florela), Aleksandr Ostrovskinin “Günahsız müqəssirlər” (Kruçinina) pyeslərinin tamaşalarında əsas rolların ifaçısı olub. Aktrisa çoxlu sayda uşaq rolları da oynayıb. Axırıncı dəfə o, uşaq rolunu 37 yaşında oynayıb. "Azərbaycan səhnəsinin Cülyettası" deyə çağırılan Barat Şəkinskaya 1935-ci ildən Xalq artisti Mustafa Mərdanovun təşəbbüsü ilə radio verilişlərinə cəlb olunub. Barat Şəkinskaya Azərbaycanın bir sıra məşhur, dillər əzbəri olan filmlərində maraqlı obrazlar canlandırıb. "Görüş" (1955), "O olmasın, bu olsun" (1956), "Qızmar günəş altında" (1957), "Kölgələr sürünür" (1958), "Qəribə əhvalat" (1960), "Telefonçu qız" (1962), "Azəri teatrının ustaları" (1966), "Evin kişisi (1978), "Onun bəlalı sevgisi" (1980), "Üzeyir ömrü" (1981) filmlərində Barat xanımın oynadığı rollar film tariximizin qiymətli incilərindəndir. Barat Şəkinskaya 23 yaşında, 4 may 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 21 iyul 1949-cu ildə Xalq Artisti fəxri adlarına layiq görülüb. Xalq artisti Barat Şəkinskaya 14 yanvar 1999-cu ildə 84 yaşında dünyasını dəyişib. Bakıda İkinci Fəxri xiyabanda dəfn olunub.

**Filmoqrafiya:** “Görüş” (film, 1955), “O olmasın, bu olsun” (film, 1956), “Qızmar günəş altında” (film, 1957), “Kölgələr sürünür” (film, 1958), “Qəribə əhvalat” (film, 1960). İnternetdə:https://az.wikipedia.org/wiki/Barat Şəkinskaya

**Milli Qəhrəmanlar Zirvəsi**
**6 İyun – Azərbaycanın Milli Qəhrəmanı Ağayev Faiq Alış oğlunun 50 illiyi, (06.06.1969-23.12.1991)**



1969-cu il iyun ayının 6-da Ağdam rayonunun Papravənd kəndində zəhmətkeş bir ailədə doğulmuşdur. 1986-cı ildə Papravənd kənd orta məktəbini bitirmiş, keçmiş Sovet ordusu sıralarında layiqli xidmət yolu keçmişdir. 1989-cu ildə ordu sıralarından tərxis olunduqdan sonra, Yevlax şəhərində əmək fəaliyyətinə başlamışdır. Torpaqlarımız erməni qəsbkarları tərəfindən zəbt olunanda Faiq də silaha sarılaraq, Vətənin müdafiəsinə yollanıb. O, 1990-cı ilin sentyabr ayında Ağdam Rayon Polis İdarəsinin tərkibində yaranmış polis alayına yazılmışdır. Elə həmin gündən də Faiqin şərəfli ömrünün ən narahat, ən yadda qalan və ən təşvişli günləri başladı. 1991-ci il... Dekabr ayının 23-ü... Meşəli kəndi erməni yaraqlılarının hücumuna məruz qalmışdı. Düşmənin zirehli texnikası, onun arxasınca piyadalar tüstüyə bürünmüş meşədən kəndin üzərinə yeriyirdi. Güllələrdən, mərmilərdən evlər alovlanır, qocalar, qadınlar, uşaqlar həlak olurdular. Od alıb alovlanan evlərdə diri-diri yananlar da az deyildi. Özünü birtəhər bayıra atıb ölümdən can qurtarmağa cəhd edənləri erməni faşistləri xüsusi qəddarlıqla gülləbaran edirdilər. Döyüşçülərimiz dinc əhalini təhlükəsiz yerə çıxarmağa çalışırdı. Vəziyyət son dərəcə ağır idi. Uçurulmuş evlərin birini istehkama çevirmiş Faiq sərrast atəşlə erməni yaraqlılarını yerə sərir, dinc əhalinin qaçıb meşədə daldalanması üçün imkan yaradırdı. Düşmən atəşini özünə cəlb etməklə Faiq onlarla qadını, uşağı ölümdən xilas elədi. O, döyüş mövqeyini axıradək tərk etmədi, son nəfəsinə kimi vuruşdu. Qəhrəman Vətən oğlu başqalarının həyatını xilas edərkən öz həyatını qurban verdi. Subay idi.

**8 oktyabr 1992-ci ildə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin 264 saylı fərmanı ilə Faiq Alış oğlu Ağayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.**

İnternetdə:https://www.ens.az/az/agayev-faiq-alis-oglu

**10 İyun – Azərbaycanın Milli Qəhrəmanı Allahverdiyev Bəxtiyar Əzizulla oğlunun 45 illiyi, (10.06.1974)**



Bəxtiyar Allahverdiyev 10 iyun 1974-cü ildə Bakı şəhərində dünyaya göz açıb. 1991-ci ildə Bakıda 199 saylı məktəbi bitirib. 1992-ci ildə Milli Orduya çağırılıb. "N" saylı hərbi hissədə xidmətə başlayıb. Bəxtiyar tez bir zamanda özünü doğrulda bilmişdir. Silahlardan istifadə etməyi və hərbin sirlərini öyrənən Bəxtiyar 1992-ci il cəbhəyə göndərilib. Qubadlı rayonunda əsl qəhrəmanlıq səhifələri yazmışdır. Gənc əsgər olmasına baxmayaraq o, peşəkar döyüşçülərdən geri qalmırdı. Füzuli, Murovdağ əməliyyatlarında xeyli erməni quldurunu məhv edib. Sonra onu 1994-cü ildə Ağdərə, Tərtər cəbhələrinə göndəriblər. Xidməti vaxtı bitməsinə baxmayaraq o, Vətənimizi dar gündə qoymayıb. Yenidən əməliyyatlara atılıb və öz döyüşçü gücünü göstərib. Müharibədə göstərdiyi əfsanəvi qəhrəmanlığı rəhbərliyin gözündən yayınmadı. 1995-ci il Müdafiə Nazirliyi onu Türkiyə Respublikasına göndərdi. Burada hərbi kurs alan Bəxtiyar 1996-cı il Vətənə döndü. 1997-ci il gizir rütbəsi aldı və "N" saylı hərbi hissəyə taqım komandiri təyin edildi. 2000-ci ildə ordudan tərxis olundu. 2001-ci ildə işləyə-işləyə Polis Akademiyasında təhsil alıb. Hazırda İsmayıllı rayonunda sahə müvəkkili vəzifəsində çalışır. Subaydır.

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Allahverdiyev Bəxtiyar Əzizulla oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:https://az.wikipedia.org/wiki/Bəxtiyar_Allahverdiyev

**28 İyun – Azərbaycanın Milli Qəhrəmanı Sarıyev Zaur Rəşid oğlunun 45 illiyi, (28.06.1974 -17.03.1995)**



Sarıyev Zaur Rəşid oğlu 1974-cü il 28 iyun Şəmkir rayonunda anadan olmuşdur. 1981-1989-cu illərdə burada təhsil almışdır. 1993-cü il 6 iyul Zaur hərbi xidmətə çağırılıb. Zaur "N" saylı hərbi hissədə qısa vaxt ərzində təlim alaraq cəbhəyə göndərildi. Cəsur döyüşçü Füzuli, Ağdam, Kəlbəcər, Murovdağ cəbhələrində rəşadətlə vuruşaraq hər kəsi özünə heyran qoymuşdu. 1994-cü ilin sərt qışı idi. Zaur döyüşçü dostları ilə Murovdağ istiqamətində kəşfiyyat əmri aldı. Döyüşçülər bu əməliyyat zamanı mühasirəyə düşdülər, 13 gün sonra xeyli erməni yaraqlısını məhv edən əsgərlər mühasirədən çıxdılar. Zaurun əl-ayağı donmuşdu, iki ay müalicə olunan cəsur düyüşçü yenidən səngərə dönüb. Zaur çavuş rütbəsi alaraq qrup komandirliyi vəzifəsinə təyin edilib. Uzun və şərəfli döyüş yolu keçmiş Zaur ağlına belə gətirməzdi ki, qarşıda dövlətimiz, Vətənimiz üçün daha təhlükəli günlər var. 1995-ci il 13-17 mart hadisələri baş verdi. Silahlı dəstənin zərərsizləşdiriləməsində canlarından belə keçən döyüşçülərdən biridə Zaur idi. Zaur Sarıyev silahlı dəstənin zərərsizləşdirilməsi zamanı qəhrəmancasına həlak oldu. Zaur Sarıyev Azərbaycanın Milli Qəhrəmanı, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsinə ucalmışdır. Subay idi. Qəhrəmanımız Şəmkir rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Sarıyev Zaur Rəşid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə:https://az.wikipedia.org/wiki/Zaur_Sarıyev

**29 İyun – Azərbaycanın Milli Qəhrəmanı Zülfüqarov Elxan Qaçay oğlunun 65 illiyi, (29.06.1954- 05.01.1994)**



Elxan Zülfüqarov 29 iyun 1954-cü ildə Füzuli rayonunun Üçbulaq kəndində anadan olmuşdur. 1969-cu ildə Bünyad Sərdarov adına 1 saylı məktəbin səkkizinci sinfini bitirmişdir. Daha sonra Yevlax rayonunda orta təhsilini davam etdirmişdir. 1971-ci ildə texnikuma daxil olmuşdur. 1972-ci ildə hərbi xidmətə çağırılmışdır. 1974-cü ildə Ukrayna SSR-də xidmətini başa vurmuş və yarımçıq qalmış təhsilini davam etdirmişdir. 1975-ci ildə təyinatla Novosibirsk şəhərinə göndərilmişdir. Milis işçisi olaraq fəaliyyətə başlamış, baş leytenant rütbəsi almışdır. 1988-ci ildə Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edildiyini və Qarabağ hadisələrinin başlandığını bilən kimi Azərbaycana qayıtmışdır. 1992-ci ildə könüllü olaraq Milli Orduya qoşulmuşdur. Laçın, Qubadlı, Zəngilan, Füzuli rayonlarında gedən döyüşlərdə iştirak etmişdir. 40-dan çox hərbi əməliyyatda iştirak etmişdir. Qısa müddətdə ona kapitan rütbəsi verilmiş və kəşfiyyat qrupunun komandir müavini vəzifəsinə təyin olunmuşdur. Erməni, rus dillərini səlis bildiyi üçün ən mühüm məlumatlar əldə etməyi bacarırdı. 4 yanvar 1994-cü ildə kəşfiyyat zamanı əldə etdiyi məlumatlar sayəsində 19 kənd azad edilmiş, düşmənin onlarla canlı qüvvəsi məhv edildikdən sonra saysız silah-sursat, ağır hərbi texnika ələ keçirilmişdir. Elxan Zülfüqarov 5 yanvar 1994-cü ildə Şükürbəyli kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuşdur. Ailəli idi, dörd övladı qalıb.

**Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Zülfüqarov Elxan Qaçay oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:http://veten-ugrunda.az/milliqehremanlar/Zülfüqarov-elxan-qaçay-oğlu.html

**İyul**

**Əlamətdar və tarixi günlər**

2 İyul – Polis İşçiləri Günü, (1998)
4 İyul – Beynəlxalq Əsir Delfinlər Günü, ( 1960)
11 İyul – Ümumdünya Şokolad Günü, (1995)
20 İyul – Beynəlxalq Şahmat Günü, (1996)
20 İyul – Beynəlxalq Tort Günü
22 İyul – Milli Mətbuat və Jurnalistika Günü, (1875)
23 İyul – Ümumdünya Balina və Delfinlər Günü, (1986)
29 İyul – Beynəlxalq Pələng Günü, (2010)
30 İyul – Beynəlxalq Dostluq Günü, (2011)

**Bu tarixi unutmayaq**

23 İyul – Ağdam rayonunun işğalı günü, (1993)

**Yubilyar yazıçı və şairlər**

Şairə Fəridə Əliyarbəylinin 95 illiyi, (02.07.1924)
Dilçi, alim Əbdüləzəl Dəmirçizadənin 110 illiyi, (08.07.1909)
Şair Xuraman Vəfanın 60 illiyi, (09.07.1959)
Tənqidçi Əkbər Babayevin 95 illiyi, (10.07.1924-1979)
Yazıçı Şahmar Hüseynovun 80 illiyi, (31.07.1939-1988)

**Xarici ədəbiyyat**

Amerika yazıçısı Ernest Hemenqueyin 120 illiyi, (21.07.1899-1961)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Aqil Səməd oğlunun 50 illiyi, (30.07.1969-07.08.1992)

## Əlamətdar və tarixi günlər

## 2 İyul – Polis İşçiləri Günü, (1998)

***Xidmət etmək sayılır kişilikdən nişana,***
***Xalqına xidmət etmək bir şərəfdir insana.***
***Nizami Gəncəvi***



Azərbaycanın ilk polis bölüyü 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb. Polis bölüyünün yaranmasından 80 il sonra həmin gün polislərin peşə bayramı kimi qeyd olunmağa başlayıb. Belə ki, Prezident Heydər Əliyevin 24 may 1998-ci il tarixli "Azərbaycan Polisi Gününün təsis edilməsi haqqında" fərmanına əsasən iyulun 2-si Azərbaycan daxili işlər orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Azərbaycan polisinə verilən bu önəmin səbəbi ondan qaynaqlanır ki, ulu öndər ölkəmizdə daim polisin fəaliyyətinə yüksək qiymət verib. İctimai sabitliyin qorunub saxlanmasında, cinayətkarlıq hallarının qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyəti yüksək qiymətləndirilib. Azərbaycan polisi dövlətə və xalqa yüksək sadiqlik nümayiş etdirməklə, mühüm vəzifələrin öhdəsindən həmişə layiqincə gəlib. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın və təhlükəsizliyin təminində, daxili sabitliyin yaradılması sahəsində qanunla müəyyən edilən vəzifəsini layiqincə yerinə yetirir. Azərbaycan polisi Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda "Azərbaycanın Milli Qəhrəmanı" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır. Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılır.

İnternetdə: www.books.google.com

## 4 İyul – Beynəlxalq Əsir Delfinlər Günü, (1960)



Bu günün təsis olunması delfinlərin və digər dəniz məməlilərinin hərbi məqsədlərlə istifadə olunması və onların qapalı yerlərdə saxlanmasına qarşı mübarizə aparanlar tərəfindən irəli sürülmüşdür. Qeyd edək ki, dəniz heyvanlarından hərbi məqsədlərlə istifadə olunması ideyası hələ ötən əsrin əvvəllərində meydana gəlmişdir.

Düşmən gəmilərinin partladılması, minaların aşkara çıxarılması, düşmən üzgüçü-kəşfiyyatçıların zərərsizləşdirilməsi üçün xüsusi delfin dəstələrinin yaradılması təklif olunurdu. Belə layihələr 1960-cı illərdən başlayaraq SSRİ-də və ABŞ-da reallaşdırılırdı. Döyüş delfinləri amerikalılar tərəfindən Vyetnam müharibəsində və İraqda xüsusi əməliyyatların gedişində istifadə olunmuşdur. SSRİ-də isə xüsusi təlim görmüş delfin dəstələri Qara dənizdə minaları axtarırdı. SSRİ-nin süqutundan sonra Rusiyada belə fəaliyyət qadağan olunmuşdur. ABŞ-da isə bu gün də bununla məşğul olan beş mərkəz fəaliyyət göstərir. Dəniz məməlilərinin okeanarium və delfinarilərdə saxlanmasının da mənfi tərəfi var. Delfinlər təbiətdə gün ərzində 100 km-dən çox məsafə qət edirlər və 200 m-dən çox dərinliyə enə bilirlər. Heç bir delfinari əsir delfinlərə belə imkan yarada bilmir. Delfinlərin hərəkət zamanı çıxardıqları səs hovuzda təhrif və dəfələrlə əks olunduğu üçün onlara çox böyük zərər vurur. Xlorlu su onların dərisini və görmə orqanlarını zədələyir. Nəticədə bu heyvanların qapalı yerlərdə saxlanması onların yaşama müddətini 5-6 dəfə azaldır. Buna görə də belə sual yaranır: insanın bu heyvanları əsir etməyə haqqı varmı? Beynəlxalq Əsir Delfinlər Günü bu heyvanların azad və özlərinin təbii mühitlərdə yaşamaq hüquqlarını təmin etmək məqsədilə ictimaiyyətin diqqətini bu problemə cəlb etməyə xidmət edir. Delfinlərin əhliləşdirilməsinə 8 ay vaxt lazım olur. Bu ağıllı heyvan insanı çox tez başa düşmək qabiliyyətinə malikdir. Hovuzlarda bəslənən delfinlər az bir zamanda nimçədən səliqə ilə balıq götürüb yeməyi, yanan şamı söndürməyi, voleybol oynamağı öyrənirlər. Delfinlər balıqları ultrasəslə axtarıb tapır. Yarasalar kimi, delfinlər də şaqqıltılı səslər və ya ucadan qırıq-qırıq fit səsinə oxşar ultrasəslər buraxır və balıqlara toxunub qayıdan bu səsləri tutmaqla ovlarını tapırlar. Delfinlərin beyni insanlara çox oxşardır. Ekoloqlar onların qorunmasında çox israrlıdırlar. Hal-hazırda dünyada delfinlərlə birgə olan üzmə proqramları çox məşhurdur.

İnternetdə: www.books.google.com

## 11 İyul – Ümumdünya Şokolad Günü, (1995)



Şokolad Günü (World Chocolate Day) ilk dəfə 1995-ci ildə Fransada qeyd edilib. Tez bir zamanda məşhurluq qazanaraq Almaniya, İtaliya, İsveçrə və digər Avropa ölkələrində, eləcə də Avropadan kənarda keçirilməyə başlanılıb. Çox sevdiyimiz şokoladın və şokolad ağacının vətəni Mərkəzi və Cənubi Amerikadır. Əvvəllər içki kimi qəbul edilən bu şirniyyatın adı haqqında müxtəlif versiyalar var. Onlardan birinə görə, şokolad qədim astek sözü olub, "xocolatl" yəni, kakao paxlasından alınan içkinin adını bildirir. Mənası isə "acı su" kimi tərcümə olunur. Avropada "qara qızıl" adı ilə tanınması isə ispanlara məxsus olub. Şokoladın tarixi 3000 il əvvəlki dövrə aid edilən nemətlər sırasına daxildir. Təxminən bizim eradan 1500 il əvvəl Meksika körfəzi sahillərində yeni sivilizasiya meydana gəlmişdir. İrəli sürülən fikirlərə əsasən məhz "kakao" sözü ilk dəfə olaraq onlar tərəfindən dildə "kakava" kimi tələffüz edilib. Dünyada sevgi rəmzi kimi tanınan ilk şirniyyat şokoladdır. Statistikaya əsasən 20 yaşlı əksər gənclər məhz ağ şokolada üstünlük verir. Şokoladın tərkibindəki fenamin maddəsi, insanda sevgi hissi yaradır. Şokolad A, B, C, D, E, kalsium, kalium və natrium vitaminləri ilə zəngindir. Kakao və şokolad antiseptik xüsusiyyətlərə malik olub, dişi bir çox zərərdən qoruyurlar. Şokolad yeməklə qızdırma, soyuqdəymə xəstəliklərini dəf etmək olar. Dünyanın ən kalorili şokoladı südlü şokolad hesab edilir. Dünya qadınlarının 15%-i hər gün şokolad yeyir. İsveçrəlilər dünyada ən çox şokolad yeyən əhali sayılır. Belə ki, hesablamalara əsasən bu ölkədə hər sakinə il ərzində 10 kq şokolad düşür.

Müasir elm şokoladın tərkibində insanı psixoloji rahatladan elementlərin olduğunu göstərir. Tünd şokoladın növləri bədəndən endorfinin – insanda rahatlıq, xoşbəxtlik, məmnunluq və razılıq hissləri yaradan hormonu stimullaşdırır və əhvali-ruhiyyəni yüksəldir. Həmçinin ehtimal olunur ki, şokolad xərçəng əleyhinə effektə malikdir və qocalma prosesini ləngidir.

İnternetdə: www.books.google.com

**20 iyul – Beynəlxalq Şahmat Günü, (1996)**



1996-cı ildən 20 iyul dünyanın hər yerində Beynəlxalq Şahmat Günü kimi qeyd olunur. Bu bayram əsası 1924-cü ildə qoyulmuş Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qərarı ilə keçirilir. Bütün rəsmi yarışlar, o cümlədən kişi və qadınlar arasında dünya çempionatları, kişi, qadın, tələbə və yeniyetmələrin komanda birincilikləri, Avropanın komanda birinciliyi, Avropa Çempionlar kuboku, Panamerikan fərdi yarışları FİDE-nin himayəsi altında keçirilir. FİDE 1950-ci ildən kişilərə, 1976-cı ildən isə qadınlara beynəlxalq qrossmeyster adı verir.

Azərbaycanda şahmat ən populyar idman növlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-2014-cü illərdə şahmatın inkişafına dair Dövlət Proqramı təsdiq edilmişdir. Ölkəmizdə şahmat ötən ilin 70-ci illərində inkişaf etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada müasir şahmat məktəbi binaları tikilməyə başlanmış, gənclərin bu idman növünə marağı artmış, gənc və istedadlı şahmatçılar yetişmişdir.

Şahmat oyununun adı farsca “şah” və “mat” sözlərindən yaranıb. Mənası “hökmdar öldü” deməkdir. Şahmatın vətəni Hindistan hesab edilir. Şahmatın sələfi olan “Şətrənc” oyunu V əsrdə Hindistanda yaranıb. Azərbaycanda şahmatın təqribən V-VI əsrlərdə yaranması güman edilir. Şərq poeziyasının klassikləri, Xaqani və Nizaminin (XII-XIII əsrlər), habelə Füzulinin (XVI əsr) və başqa böyük mütəfəkkirlərin əsərlərində şahmatdan bəhs edilir. Böyük yazıçı və filosof Mirzə Fətəli Axundzadə 1864-cü ildə yazdığı “Şətrənc oyunu” şeirində şahmat oyununun qaydalarını poetik dildə şərh edib.

İnternetdə: www.books.google.com

**20 İyul – Beynəlxalq Tort Günü**



Hər bir ölkənin mədəniyyətinə uyğun reseptlərdən yararlanaraq tortlar bişirilir. Tortları müxtəlif mərasimlərlə əlaqədar hazırladıqlarına görə onların forma və ölçüləri də kəskin surətdə fərqlənir. Tortla əlaqədar çoxsaylı faktlar və maraqlı məlumatlar verilmişdir. Bunların çox hissəsi hətta Ginnesin rekordlar kitabına daxil edilmişdir. Bunlara misal olaraq ABŞ–ın Miçiqan ştatında hazırlanmış tortu göstərmək olar. Bu tort stoldan 13 metr hündür idi və 100 pillədən təşkil edilmişdi. Həmçinin ən ağır tort da ABŞ–da yaradılıb, lakin bu tort Alabama ştatına aid edilir. 50 tondan ibarət olan tort ağırlığına görə seçilir. Bu möhtəşəm tortun bir hissəsini dondurma təşkil edirdi, onun görkəmi isə ştatın coğrafi kartında olduğu kimdir. Dünyada ən uzun toru Peru kulinarları tərəfindən yaradılmışdır. Onun uzunluğu 46 metrdən ibarət idi. Üzəri bolluca şəkərlə qarışdırılmış meyvələrdən və kremdən olan qızılgüllərdən təşkil olunmuşdu. Daha sonra bu tortu 15 000 hissəyə bölərək, Peruda həmin ay ərzində ad günü olan bütün uşaqlarına payladılar. Bizim qonşu Rusiya da bu rekordlardan uzaqda qalmamışdır. Ən böyük formada olan tort Moskvanın tanınmış Mərkəzi Univermağının ad günündə hazırlanmışdır. Tort bol formada cem və marsipanla (badam qurəbiyyəsi; döyülmüş badamla şəkərdən hazırlanan şirniyyat) bəzədilmişdir. Onun hündürlüyü Ginnesin rekordlar kitabında mütəxəssiz kimi işləyən ekspertlər tərəfindən ölçülmüşdür. Üç metrdən və üç tondan ibarət olan bu tort seçilirdi. İlk əvvəl çoxpilləli tortlar Londonda meydana gəlmişdir. Bu kimi tortları zallara gətirərkən öz görkəmi, hündürlüyü, çəkisi ilə mərasim iştirakçılarını heyrətləndirir. Lakin bu tipli proses ilk dəfə olaraq XVIII əsrdə həyata keçirilmişdir. Müasir zamanımızda tortlar beze, marsipan, şokolad, meyvə və merenqa (çalınmış yumurta ağı, qənd və qaymaqdan hazırlanan pirojna) ilə hazırlanır. Tortun bəzədilməsi isə insanın fantaziyasından və onu sifariş verən şəxsin istəklərindən asılı olaraq dəyişir.

Vətənimizdə də çox çeşidli tortlara rast gəlmək mümkündür və hazırkı dövrdə xüsusi kulinarlar tərəfindən hazırlanan şirniyyatlar öz görkəmi, keyfiyyət ilə seçilir. Toy üçün nəzərdə tutulmuş tortların əksəriyyətinə Qədim Romada rast gəlmək olar, lakin burada tortu gəlinin başı ilə bəzəyirdilər. Xüsusən istəkdən asılı olaraq dəyişikliklər də etmək olurdu. Müasir zamanımızda isə toy üçün nəzərdə tutulan tortlar xüsusən seçilir. Əvvəllər tortların görkəmi əhəmiyyət kəsb etmirdi və onlar çox sadə hazırlanırdı. Beləliklə, xüsusi qaydada hazırlanan böyük desertlər bir neçə mərtəbədən təşkil olunur, bol qaydada meyvə və kremlə bəzədilir.

İnternetdə: www.books.google.com

## 22 İyul – Milli Mətbuat və Jurnalistika Günü, (1875)




***Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur.***

**Ümummilli lider Heydər Əliyev**

Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda Azərbaycan dilində "Əkinçi" qəzetinin çap olunmasına nail olmuş və qəzetin ilk sayı 1875-ci ilin iyulun 22-də işıq üzü görmüşdür. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmləməsində böyük rol oynamışdır. Qəzetin müttərəqqi ideyaları Rusiya hakim dairələrini narahat etmiş və iki il sonra qəzet bağlanmışdır. XIX əsrin sonlarında "Ziya", (1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890-ci illər) qəzetləri nəşrə başlamışdır. XX əsrin əvvələrində C.Məmmədquluzadə, M.Şaxtaxtiniski, S.Hüseyn, Ö.Faiq Nemanzadə, Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Həmin dövrdə "Həyat", "Açıq söz", "Azərbaycan" kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxmışdır. 1906-ci ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlanması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqanı qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başlandığı gün – 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilib. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkənin nüfuzlu beynəlxalq təşkilata – Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin martın sonunda imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və mətbuat azadlığı şəraitini yaxşılaşdırmaqdır.

İnternetdə: www.books.google.com

**23 İyul – Ümumdünya Balina və Delfinlər Günü, (1986)**

 

1986-cı ildə Beynəlxalq Balinaovlama Komissiyası (International Whaling Comission: IWC) bu heyvanların 200 illik amansız şəkildə qırılmasından sonra balina sənayesinə qadağa qoymuşdur. Bu qadağa indi də qüvvədədir və bütün dünyada balinaların ovlanması, o cümlədən balina ətinin ticarəti qadağan olunmuşdur. Lakin balina sənayesi bu heyvanlar üçün yeganə təhlükə deyil. Balinaların, delfinlərin və digər dəniz məməlilərinin yox olmasının daha bir səbəbi – onların delfinarilər, okeanariumlar və sirklər üçün tutulmasıdır. Buna görə də bu gün yalnız balinaların deyil, bütün dəniz məməlilərinin qorunması günü hesab olunur. Beynəlxalq Delfinovlama Komissiyası balinaların ovlanmasına qadağa tətbiq etdikdən sonra Yaponiya sanksiyalardan çəkinərək bu sazişə qoşulmağa məcbur olmuşdur. Lakin balinaların elmi məqsədlərlə ovlanması hüququ vardır. 2007-ci ildə balinaların ovlanma kvotası 950 balina təşkil edirdi. Həmin kvotaya görə, hər il Yaponiya ancaq üçə qədər balina ovlayırdı. Lakin həmin il yapon "Nissin-maru" balina ovlama donanmasında yanğın baş verir və "tədqiqat" üçün 508 heyvan öldürülür.

Elmi işlər başa çatdıqdan sonra heyvanların əti əsasən yapon restoranlarında istifadə olunur. Beynəlxalq Balinaovlama Komissiyasının qadağası 19 fevralda qüvvəyə minmişdir.

Hər il fevralın 19-da daha bir bayram – Beynəlxalq Balinalar Günü qeyd olunur. Bəzən müxtəlif ölkələrin ekoloji təşkilatları bu günü birlikdə məhvolma təhlükəsi qarşısında qalan hər bir növ dəniz məməlisinin müdafiəsinə həsr edirlər.

İnternetdə: www.books.google.com

## 29 İyul – Beynəlxalq Pələng Günü, (2010)



29 iyul – Beynəlxalq Pələng Günüdür. Bu gün 2010-cu ildə Sankt-Peterburqda keçirilən "Pələng sammit"ində təsis olunub.

Pələnglər pişikkimilər fəsiləsinin ən güclü və böyük üzvləridir. Faunanın bu yırtıcı nümayəndələri, əsasən, Banqladeş, Malayziya, Hindistan və Koreyada yaşayırlar. Pələnglərin sayına görə Hindistan dünyada birinci yerdədir. Dünya Vəhşi Təbiəti Müdafiə Fondunun məlumatına görə, Yer kürəsində mövcud olan 3890 pələngdən 2500-dən çoxu Hindistandadır.

Pələnglərin sayının azalmasında əsas faktor brakonyerlik, qanunsuz heyvan ticarəti kimi antropogen amillər, iqlim dəyişikliyi və onların yaşayış areallarını itirməsidir.

Beynəlxalq Pələng Günü bəşəriyyətin diqqətini bu yırtıcıların qorunmasına və onların sayının azalmasının qarşısının alınmasına çəkmək üçün bir çox ölkələrdə qeyd edilir.

İnternetdə: www.books.google.com

## 30 İyul – Beynəlxalq Dostluq Günü, (2011)



Bu gün 24 aprel 2011-ci ildə BMT-nin qərarı ilə təsis olunmuşdur. Bütün planetin marağında olan  Beynəlxalq Dostluq Günü əsasən zorakılığa qarşı olmaqla, mədəniyyətlərin dostluğunu nümayiş etdirir. BMT-nin Baş Məclisi Paraqvayın təşəbbüsü ilə iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etmişdir. Baş Məclis qurumun üzvü olan ölkələrə bu nəcib təşəbbüsü fəal təbliğ etməyi tövsiyə etmişdir. Bu münasibətlə Baş Məclis tərəfindən yekdilliklə qəbul edilmiş qətnamədə bütün dünya insanlarının ən nəcib və misilsiz hisslərinin təzahürü olan dostluğun aktuallığı və böyük əhəmiyyəti vurğulanmışdır.

Baş Məclis qurumun üzvü olan ölkələrə Beynəlxalq Dostluq Gününü öz adət-ənənələrinə uyğun qeyd etməyi məsləhət görmüşdür.

İnternetdə: www.books.google.com

## Bu tarixi unutmayaq

## 23 İyul – Ağdam rayonunun işğalı günü, (1993)

***Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.***

**Ümummilli lider Heydər Əliyev**



Ağdam rayonunun 88.395 hektar ərazisi, 1 şəhəri, 119 kənd və qəsəbəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Rayonda işğaldan əvvəl 1736 hektar dövlət meşəsi, 710 hektar kolxoz meşəsi, 560 hektar yol, su və kanal kənarı, şəhərətrafı meşə sahəsi mövcud idi. Rayonun ehtiyatı 64.863000 kubmetr olan mişar daşı, 140.464000 ton Çobandağ əhəng daşı, 44.708000 ton. Boyəhmədli və 25.197 min ton Şorbulaq gil yataqları işğal olunmuş ərazilərdə qalıb. Rayon ərazisindən keçən ən iri çay olan Xaçınçayın uzunluğu 104 km, sutoplayıcı sahəsi isə 657 kvadratmetrdir. Ağdam şəhərində yaşı 150-250 ilədək olan 14 ədəd, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı təbiət abidəsi kimi qorunurdu. İşğal olunmuş ərazilərdən yaşı 400-ə çatan Şərq çinarı növündən olan ağacların doğranaraq Ermənistana aparılması və irigövdəli ağacların qırılaraq yığıldığı müşahidə edilib. Rayonun işğal altında olan Novruzlu, Yusifcanlı, Kəngərli, Çəlik, Qaradağlı Kəngərlisi, Göytəpə, Gülçülük kəndlərində 6330 hektar otlaq sahəsi erməni hərbçiləri tərəfindən yandırılıb. Yanğın zamanı "Qırmızı kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahısına" düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv edilib. İşğal nəticəsində təhsil, səhiyyə, mədəniyyət ocaqları, yaşayış evləri, inzibati binalar dağıdılaraq yerlə-yeksan edilib. Erməni faşistləri tərəfindən aparılan bu ədalətsiz müharibə nəticəsində çoxsaylı həmvətənlərimiz qətlə yetirilmiş, itkin düşmüş, əsir götürülmüşdür.

Milli Ordumuz son illər möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında daha da güclənmiş, daha da qüdrətli olmuşdur. Xalqımız inanır ki, dövlətimiz tərəfindən aparılan ardıcıl, məqsədyönlü siyasət torpaqlarımızın işğaldan azad olmasına gətirib çıxaracaqdır.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

## 2 İyul – Şairə, dramaturq Fəridə Əliyarbəylinin 95 illiyi, (02.07.1924)



Fəridə Əliyarbəyli 1924-cü il iyulun 2-də Azərbaycanın Gəncə şəhərində anadan olmuşdur. Burada M.Qorki adına 1 saylı məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1942-1947). Ədəbi fəaliyyətə 1939-cu ildə "Kirovabad bolşeviki" qəzetində çap olunan "A dağlar" adlı ilk şeiri ilə başlamışdır. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış edir. "Xan qızı" (1972), "Qonşular" (1985), "Günahkar qız" (1994), "Özgə yeri" pyesləri C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında dəfələrlə tamaşaya qoyulmuşdur. Azərbaycan EA-nın Gəncə bazasında kiçik elmi işçi vəzifəsində çalışmışdır (1948-1950). Ailə vəziyyətinə görə iki il Bakıda yaşamışdır. Sonra Gəncəyə qayıdıb burada Azərbaycan Sovet Yazıçıları İttifaqının yerli şöbəsinə rəhbərlik etmişdir (1953-1989). Gəncə şəhər zəhmətkeş deputatları sovetinin (bütün çağırışlar üzrə) deputatı, mədəniyyət və maarif işçiləri üzrə daimi komissiyasının sədri və üzvü olmuşdur (1959-1989). Bir medalla təltif edilmişdir. Hazırda təqaüdçüdür.

**Əsərləri:** “Arzular” (1955), “Yasəmən” (1962), “Gəncəli qız” (1968), “Qayğı” (1974), “Sərv ağacı” (1982), “Payız kəpənəkləri” (1985), “Dünyaya insan gəlir” (1987), “Novruz bayramı” (1998) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S. 317.

**8 İyul – Dilçi, alim Əbdüləzəl Dəmirçizadənin 110 illiyi, (1909)**



Əbdüləzəl Dəmirçizadə Məmmədoğlu 1909-cu ildə Şəkidə anadan olmuşdur. O, ibtidai və orta təhsilini Şəkidə almış, əvvəlcə "Həqiqətül- maatif" adlanan yeni tipli məktəbdə, sonra isə "Şəki nümunə zəhmət" məktəbində oxumuşdur. Şəki Müəllimlər Seminariyasını bitirdikdən sonra 1925-ci ilin sentyabrından 2 saylı şəhər məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır. Onun ilk məqaləsi də həmin ildə "Yeni Məktəb" məcmuəsində dərc edilmişdir. Dəmirçizadə gəncliyində bədii yaradıcılığa böyük həvəs göstərmiş, bir sıra şeirlər, hekayələr və oçerklər yazmışdır. O, 1929-cu ildə Bakı şəhərinə gəlmiş və ADU pedaqoji fakültəsinə daxil olmuşdur. O, 1933-cü ildə yenidən Bakıya gəlib, APİ-nin "Dillər" kafedrasına aspirat qəbul olunmuşdur. 1936-cı ildə "Türk dili" adlı ilk kitabı, aspiranturanı qurtardıqdan sonra isə, yəni 1938-ci ildə "Azərbaycan ədəbi dili tarixinin xülasələri" adlı ikinci kitabı işıq üzü görmüşdür. 1940-cı ildə Ə.Dəmirçizadəyə filologiya elmləri namizədi alimlik dərəcəsi verilmişdir. Dil tarixi sahəsində elmi təhqiqatlarını davam etdirən təhqiqatçı 1944-cü ildə "Azərbaycan dilinin tarixi (qədim dövr)" adlı əsəri müdafiə edib. 1945-ci ildə isə professor elmi adına layiq görülmüşdür. Ə. Dəmirçizadə 1940-cı ildən 1943-cü ilə qədər ADU-da, 1943-cü ildən ömrünün sonuna qədər isə APİ-də "Azərbaycan dilçiliyi" kafedralarına rəhbərlik etmişdir. 1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir. Onun 20-dən çox kitabı, 200-dən artıq elmi və elmi-metodik məqaləsi çap olunmuşdur. Bu əsərdə yenilikçi alim kimi daha çox Azərbaycan dilçiliyinin işlənilməmiş sahələri (fonetika, orfoepiya, etimologiya, üslubiyyat, dil tarixi və s.) araşdırılmışdır. Alimin "Azərbaycan dili tarixi xülasələri" (1938), "M.F.Axundov dil haqqında və Axundovun dili" (1941), "Azərbaycan dilinin tarixi" (1948), "Azərbaycan ədəbi dilinin inkişaf yolları" (1959), "Kitabi-Dədə Qorqud" dastanının dili" (1959), "Azəri ədəbi dilinin tarixi" (1967), "Azərbaycan dilinin tarixi qrammatikası"(1967) və ölümündən sonra çap olunmuş "Azərbaycan ədəbi dilinin tarixi (II hissə)" kitabları yalnız Azərbaycan dilçiliyinin deyil, türk aləminin xəzinəsini zənginləşdirmişdir. Dəmirçizadə nəzəri dilçilik məsələləri ilə yanaşı, təbliği dilçilik problemlərini də həll etməyə çalışmış, "Azərbaycan dili orfoepiyasının əsasları" (1969) kitabını ədəbi tələffüz, onun mənbələri, pozulma səbəbləri, fonetik, qrafik və qrammatik şəraitdə təfəffüz məsələlərinə həsr etmişdir. O, etimoloji tədqiqatlar sahəsində də xeyli iş görmüş, araşdırmalarını ümumiləşdirərək 1962-ci ildə "50 söz" adlı orjinal kitab nəşr etdirmişdir. O, 50-dən çox elmlər namizədi və doktoru hazırlamışdır. Dəmirçizadə 1979-cu ildə vəfat etmişdir. Paytaxt küçələrindən biri onun adınadır.

İnternetdə:https://az.wikipedia.org/wiki / Əbdüləzəl_ Dəmirçizadə

**9 İyul – Şair Xuraman Vəfanın 60 illiyi, (09.07.1959)**



Xuraman Vəfa 1959-cu ilin iyul ayının 9-da Azərbaycanın Xaçmaz rayonunda anadan olmuşdur. 1966-1976-cı ildə Xaçmaz şəhər 3 saylı orta məktəbi bitirmişdir. 1977-ci ildən əmək fəaliyyətinə başlamışdır. Ali təhsilli iqtisadçı və hüquqşünasdır. San-Marino Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan filialının Mühəndis İqtisadiyyatı və İdarəetmə fakültəsini, Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan İqtisad Universitetinin İqtisadiyyat fakültəsində maliyyə ixtisası üzrə magistr dərəcəsi almışdır. Xuraman Vəfa 1979-1981-ci ildə ƏMX Nazirliyinin "KTB fabrikində" baş mühasib, 1981-1989-cu ildə Meliorasiya Su Təsərrüfatı Nazirliyinin 2№ CMD (PMK-12) baş mühasib vəzifəsində işləmişdir. 1989-cu ildə köçürmə yolu ilə ixtisaslı kadr kimi Respublika DYK Azəriqaz Təmir Tikinti Trestinə təftişçi təyin olunmuşdur, 1990-cı ildə DYK Azəriqaz Təmir Tikinti Trestindən köçürmə yolu ilə Layihə Mənzil Tikinti Birliyinə şöbə müdiri, 1992-ci ildə isə köçürmə yolu ilə Respublika DYK-nın Neft Məhsulları Təchizatı və Topdansatış İstehsalat Birliyinə şöbə müdiri təyin olunmuş və 1997-ci ilə qədər həmin vəzifədə çalışmışdır. Həmçinin 2003-cü ildən Azərbaycan və ingilis dillərində nəşr olunan “Vəfa” ədəbi-bədii, ictimai, elmi-publisistik beynəlxalq jurnalının təsisçisi və baş redaktorudur. Eyni zamanda 2004-cü ildən ER_SEL Sənaye Şirkətində hüquqşünas işləyir. 2005-ci ildə 55 saylı Xaçmaz Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd olmuşdur. 2008-ci ildə Azərbaycan Qadınlar Komitəsinin III qurultayına Sabunçu rayonundan nümayəndə seçilmişdir. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür. Yazıları dövri mətbuatda mütəmadi olaraq dərc olunur. 11 şeirlər kitabının və 1 nəsr əsərinin müəllifidir. Eyni zamanda yüzlərlə publisistik məqalələr, türk dilində 300-dən artıq şeir yazmışdır. Şeirləri rus, gürcü, ingilis, fars dillərinə tərcümə olunub. Sözlərinə 300-dən artıq mahnı bəstələnib.

**Şeirləri:** “Sənli, sənsiz” (1995), “Soraqlı könlüm” (1995), “Sevənlər bilər” (2000), “Bir gün dönəcəksən” (2003), “Taleyimiz, yaddaşımız” (2003), “Bir ömür azdır mənə” (2004) , “Məhəbbət gözəl şeydir”, “Acı həqiqət”, “Gözlərimi sevmişdin” və s.

**Sözlərinə yazılan mahnılar:** “Görə bilmirik”, “Qayıt” – bəstəkar Nəriman Məmmədov, “Oyan taxtım, tacım oyan” – bəstəkar Hikmət Mirməmmədli, “Sən də günahkarsan” – bəstəkar Şəfiqə Axundova, “Əlvida”, “Aşqın qanunları” bəstəkar Nailə Mirməmmədli, “İndi sənsiz”, “Sevəcəyəm”, “Yandırdı məni” – bəstəkar Xanım İsmayılqızı, “Yerin var sənin” – bəstəkar Tahir Əkbər.

İnternetdə: https://az.wikipedia.org/wiki/Xuraman_Vəfa

**10 İyul – Türkoloq, tənqidçi Əkbər Babayevin 95 illiyi, (1924-1979)**



Əkbər AğaRza oğlu Babayev 1924-cü ilin iyul ayının 10-da Gəncənin Zərrabi məhəlləsində ziyalı ailəsində anadan olmuşdur. 5 yaşında ikən artıq oxuyub-yazmağı bacaran Əkbərin təhsilində atası ilə dostluq edən və ailəsində tez-tez qonaq olan Əhməd Cavad, Səməd Vurğun və bu kimi görkəmli şəxslərin böyük rolu olub. Əkbər Babayev 15 yaşında orta məktəbi bitirib. Həmin dövrün qanunlarına görə yaşı az olduğu üçün instituta sənəd verə bilməyib. Bu səbəbdən də atası onun yaşını sənədlərdə bir il artıq qeyd etdirib. Əkbər, əvvəlcə, institutun hüquq fakültəsinə daxil olmuş, lakin çox keçmir ki, "bu peşə mənlik deyil" – deyib oradan uzaqlaşmışdır. Ədəbiyyat və incəsənətə dərin marağının olması onu ADU-nun filologiya fakültəsinə gətirib çıxartdı. Ə.Babayev 1941-ci ildə müharibə başlandıqda, hərbi-tərcüməçilik məktəbini bitirib cəbhəyə göndərilmişdir. 1942-ci ilin əvvəllərində Xarkov ətrafında gedən döyüşlərdə yaralanmışdır. Sağaldıqdan sonra Bakıya qayıdır və təhsilini davam etdirmişdir. Eyni zamanda Azərbaycan Radio Verilişləri Komitəsində çalışmış, dərin məzmunlu publisistik yazıları ilə dinləyicilərin rəğbətini qazanmışdır. 1945-1946-cı illərdə Əkbər Babayev Moskvada SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun "Türk şöbəsi" nəznindəki aspiranturaya daxil olub. Eyni zamanda Moskva Radio Verilişləri Komitəsində çalışır və bir çox türk yazıçılarının əsərlərini rus dilinə tərcümə edirdi. Görkəmli şair Nazim Hikmətlə tanışlıqdan sonra həyat sanki Əkbər Babayevin üzünə güldü. Tanınmış türk şairinin Moskvaya gəlişi onun aspiranturaya bərpa olunmasına böyük köməklik etdi. Məhz böyük türk şairinə olan hədsiz sevgisi sonralar, 1951-ci ildə Əkbər Babayevi Nazim Hikmətin yaradıcılığı mövzusunda "Nazim Hikmət-Sülh uğrunda mübarizdir" namizədlik dissertasiyasını müdafiə etməyə sövq edir və görkəmli alimlərin təklifi ilə bu sahədə tədqiqatlarını davam etdirirdi. Əkbər Babayev Moskvada yaşamasına baxmayaraq öz doğma şəhərini heç vaxt unutmazdı. Ömrünün son illərində Moskvanın müxtəlif nəşriyyatlarında Əkbər Babayevin 8 kitabı çap olunub. Ziyalımız "Azərbaycan poeziyası antologiyası" adlı kitabını Moskvada rus dilində Xalq şairi Bəxtiyar Vahabzadə ilə birgə çap etdirib. Türkoloq ömrünün sonunadək keçmiş SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda çalışmışdır. Əkbər AğaRza oğlu Babayev ağır xəstəlikdən sonra 1979-cü il sentyabrın 12-də Moskva şəhərində vəfat etmişdir.

**Əsərləri:** "Nazim Xikmet" (1957), "Oçerki sovremennoy turetskoy literaturi" (1959), "Turetskaya literatura" (1967), "Nazim Xikmet. Jizn i tvorçestvo" (1975), "Zanovo rojdaetsya poet posle smerti" və s (1981).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.235

**31 İyul – Yazıçı Şahmar Hüseynovun 80 illiyi, (1939-1988)**



Hüseynov Şahmar Həsən oğlu 1939-cu il iyulun 31-də Azərbaycanın Xanlar rayonunun Nərimanov kəndində anadan olmuşdur. Orada kənd orta məktəbini bitirib M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almışdır (1961-1966). A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında aktyorluq etmişdir (1966-1988). Həmkarlar komitəsi sədri olmuşdur (1982-ci ildən). Yəməndə (1973) və Hindistanda (1980) qastrol səfərlərində olmuşdur. Ədəbi fəaliyyətə 1976-cı ildə "Ulduz" jurnalında çap olunan "Bir balaca səhv" və "Göyərçin" adlı iki hekayəsi ilə başlamışdır. 1988-ci il yanvarın 9- da bakıda vəfat etmiş, Gəncədə dəfn olunmuşdur.

**Əsərləri:** "Elçilik" (1983) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.824.

**Xarici ədəbiyyat**
**21 İyul – Amerika yazıçısı Ernest Hemenqueyin 120 illiyi, (1899-1961)**



Ernest Heminquey (Ernest Hemingway) amerikan roman və qısa hekayələr yazıçısı, eyni zamanda jurnalistdi. 21 iyul 1899-cu ildə İllinoys ştatında anadan olmuşdu. Əsl adı Ernest Miller Heminqueydir. “Nobel” və “Pulitzer” mükafatları qazanmış yazıçıdır. İlk yazılarını məktəb qəzetinə yazmışdı. Heminquey universiteti tərk edib, müxbirliyə başlamışdı. 1917-ci ildə Amerika yavaş-yavaş Birinci dünya müharibəsinə qoşulurdu. Heminquey dərhal orduya müraciət etmiş, lakin sol gözü zəif olduğuna görə qəbul edilməmişdi. Bundan bir il sonra Qızıl Ayparaya girərək, könüllü olaraq təcili yardım maşınında sürücülüyə başlamışdı. Müharibə vaxtı yaxınlığında partlayan topdan yaralanmış, özü yaralı olduğu halda italiyalı bir əsgəri çiynində daşımış, həmin vaxt qıçlarından da yaralanmışdı. Bu hadisədən sonra İtaliyada qəhrəman elan edilmiş və "Gümüş Şərəf Medalı" almışdı. Bu hadisədən sonra Milanda müalicə olunarkən "Əlvida silah" - yazmışdı. 1921-ci ildə Parisə qayıtmış və ən çox 1925-1929-cu illərdə məşhurlaşmışdı. Yaradıcılığının zirvəsinə "Zənglər kimin üçün çalır" əsəri ilə çatan yazıçı həyatına müharibələrdə iştirak edərək davam etmişdi. Heminquey “Pulitzer” mükafatını 1953-cü ildə "Qoca və dəniz" əsərinə görə almışdı. Növbəti il isə “Nobel” mükafatına layiq görülmüşdü. “Nobel” mükafatı alma səbəbi isə belə izah edilir: “Ən son "Qoca və dəniz" əsəri ilə göstərdiyi povest janrında ustalığı və müasir üsluba təsiri üçün”. Yazıçı gözəl bir həyatın ardından atası kimi özünü ov tüfəngi ilə vuraraq öldürmüşdü. Ailədə bir çox intihar hadisələri olmuş, yazıçının bacısı və qardaşı da intihar etmişdi.

**Əsərləri:** “Hekayələr və üç şeir” (1923), “Bizim zəmanəmizdə” (1924), “Yaz selləri” (1926), “Günəş də qalxır” (1926), “Əlvida silah” (1929), “Silahlara əlvida” (1929), “Olmaq və olmamaq” (1937), “Çayın o tayında ağacların kölgəsində” (1950), “Çay içrə ağaclara sarı” (1950), “Qoca və dəniz” (1954), “Zənglər kimin üçün çalınır” (2004), “Əcəl zəngi” (2006), “Seçilmiş əsərləri” (2010)

**Filmoqrafiya:** “Qoca və dəniz” (film, 1958) / The Old Man and the Sea.

İnternetdə:https://az.wikipedia.org/wiki/Ernest_Heminquey

**Milli Qəhrəmanlar Zirvəsi**
**30 İyul – Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Aqil Səməd oğlunun 50 illiyi, (30.07.1969-07.08.1992)**



Aqil Məmmədov 30 iyul 1969-cu ildə Qubadlı rayonunda dünyaya göz açmışdır. 1984-cü ildə Qubadlı rayonunda 2 saylı orta məktəbi bitirdikdən sonra, təhsilini 126 saylı Xanlıq texniki-peşə məktəbində davam etdirmişdir. O, Füzuli şəhərində sürücülük peşəsinə də yiyələnmişdir. Əmək fəaliyyətinə Qubadlı rayon Avtomobil Nəqliyyatı İdarəsində başlamışdır. Aqil Məmmədov 1987-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 1988-ci ildə Orenburq vilayətində xidmətini yarımçıq qoyaraq doğma yurda qayıtmışdır. Aqil Məmmədov Qubadlı rayon özünümüdafiə taboruna qoşulmuşdur. Ermənistanla sərhəd kəndlərin müdafiəsində əfsanəvi qəhrəmanlıqlar göstərmiş "Qaranquş" kəşfiyyat dəstəsinin məğlubedilməz və ələkeçməz döyüşçüsü kimi tanınmışdır. Aqil Məmmədov dəfələrlə cəsur kəşfiyyatçı yoldaşları ilə birlikdə Ermənistanın Qafan və Gorus rayonlarına keçərək, çoxlu hərbi girovla geri qayıtmışdır. 1992-ci il iyun ayında dörd nəfər laçınlının girov aparılması onu hədsiz dərəcədə hiddətləndirmişdir. O, girovları geri qaytarmaq üçün öz dəstəsi ilə əməliyyata başlayıb. Bir neçə saatdan sonra bir erməni zabitini ələ keçirərək rayon mərkəzinə gətiriblər. Elə həmin gün ermənilər dörd laçınlını erməni zabiti ilə dəyişməyə məcbur oldular. O, dəfələrlə belə şücaətlər göstərmiş və hərbi hissədə ad-san qazanmışdı. 1992-ci il avqustun 7-də Laçın rayonunun Susuzdağ yüksəkliyinə hücum edilməli idi. Hər şey isə kəşfiyyatçılardan asılı idi. Aqil öz dəstəsi ilə tapşırığı müvəffəqiyyətlə yerinə yetirib geri dönərkən, gözlənilmədən mühasirəyə düşdü. O, öz dəstəsini bu çətin vəziyyətdən çıxarmaq üçün müxtəlif yollar düşünürdü. Onlar düşmənin xeyli canlı qüvvəsini məhv edərək, mühasirəni cəsarətlə yardılar. O, döyüş dostlarına qarşı tərəfin minalandığını bildirib. Amma tale onun bəxtinə gülmür. Bir qədər getdikdən sonra özü minaya düşərək ağır yaralanıb. Yoldaşları onu təhlükəli yerdən çıxarmağa çalışmışlar. Lakin çoxlu qan itirdiyinə görə onun həyatını xilas etmək mümkün olmamışdır. Qubadlı rayonu Şəhidlər Xiyabanında dəfn edilmişdir. Aqil Məmmədovun təhsil aldığı 2 saylı orta məktəb onun adını daşıyır. Hazırda bu məktəb Sumqayıt şəhərində fəaliyyət göstərir. Qubadlıda və Gəncədə adına küçələr var. Ailəli idi. 1 qız övladı yadigar qalıb.

**Aqil Məmmədov 5 fevral 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icraçısı Heydər Əliyevin 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:https://az.wikipedia.org/wiki/Aqil_Məmmədov

**Avqust**

**Əlamətdar və tarixi günlər**

1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, (2001)

2 Avqust – Azərbaycan Kinosu Günü, (1898)

3 Avqust – Ümumdünya Qarpız Günü

5 Avqust – Hərbi Donanma Günü, (1996)

5 Avqust – Beynəlxalq İşıqfor Günü, (1914)

8 Avqust – Beynəlxalq Alpinizm Günü, (1786)

12 Avqust – Beynəlxalq Gənclər Günü, (1999)

15 Avqust – "Allo" sözünün ad Günü, (1877)

18 Avqust – Sərhəd Qoşunları Günü, (2002)

26 Avqust – Beynəlxalq Azərbaycan Muğamı Günü, (2010)

**Bu tarixi unutmayaq**

23 Avqust – Cəbrayıl rayonunun işğalı günü, (1993)

23 Avqust – Füzuli rayonunun işğalı günü, (1993)

31 Avqust – Qubadlı rayonunun işğalı günü, (1993)

**Yubilyar yazıçı və şairlər**

Ədəbiyyatşünas Xeyrulla Məmmədovun 85 illiyi, (01.08.1934)

Yazıçı Oruc Qoşqarlının 110 illiyi, (04.08.1909-1989)

Şair ədəbiyyatşünas Əhməd Elburusun 75 illiyi, (07.08.1944-2006)

Yazıçı, şair Vaqif Cəfərlinin 60 illiyi, (10.08.1959)

Yazıçı Səfər Alışarlının 65 illiyi, (12.08.1954)

Yazıçı Şamil Xurşudun 85 illiyi, (14.08.1934-1986)

**Xarici ədəbiyyat**

Alman şairi İohan Hötenin 270 illiyi, (28.08.1749-1832)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycan Milli Qəhrəmanı Novruzov Ələsgər Xanlar oğlunun 70 illiyi, (01.08.1949-26.02.1992)

Azərbaycanın Milli Qəhrəmanı Həsənov Məhəmməd Ələsgər oğlunun 60 illiyi, (09.08.1959)

## Əlamətdar tarixi günlər və bayramlar

### 1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü, (2001)

***Dil hər bir xalqın mənavi sərvəti, qürur yeridir. Tarixin sınağından çıxıb cilalana-cilalana bu günümüzədək gəlib çatan Azərbaycan dili də bizim hər birimiz üçün ana laylası kimi əziz və müqəddəsdir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır...***

**Ümummilli lider Heydər Əliyev**




Ulu əcdadlarımız olan albanların 52 hərfdən ibarət əlifbası vardı. Ölkəmizdə İslam dininin yayılması ilə əlaqədar ərəb əlifbasından geniş istifadə olunmuş, yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolunu oynamışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqələrinə xidmət etmiş ərəb qrafikası dilimizin səs sistemini dolğunluğu ilə əks etdirə bilmir, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmırdı. Bu çatışmazlıqlar M. F. Axundzadə başda olmaqla, dövrün mütərəqqi maarifçi ziyalılarında əlifba islahatı keçirmək ideyaları yaratmışdı. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu komitəyə Azərbaycan (türk) dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırığı verildi. Bu, yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyəsinə əsasən 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Lakin Türkiyə Cümhuriyyətində də latın qrafikalı əlifbaya keçilməsi və bunun nəticəsində SSRİ-də və xaricdə yaşayan türk xalqları arasında mədəni əlaqələrin güclənməsi qorxusu Sovet imperiyası rəhbərliyində Azərbaycan əlifbasının yenidən dəyişdirilməsi planlarını yaratdı. 1940-cı il yanvarın 1-dən kiril qrafikalı əlifbaya keçmək haqqında qərar qəbul olundu. Sonralar kiril qrafikasının Azərbaycan dilinin fonetik səs sisteminə uyğunlaşdırılması üçün Azərbaycan kiril qrafikasında müəyyən dəyişikliklər aparıldı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Nəticədə 1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə Qanun qəbul olundu. 2001-ci ildə isə latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı. Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da fərman imzalamışdır. Bu fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan edilmişdir. İnternetdə: www.books.google.com

## 2 Avqust – Azərbaycan Kinosu Günü, (1898)



Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və 1898-ci il avqustun 2-də ilk kinosüjetlərin yaranmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən qeyd olunur. Bu il Azərbaycan kinosunun 120 yaşı tamam olur. Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlayır. Lümyer qardaşları ilk filmi nümayiş etdirdikdən sonra 1898-ci ildə fotoqraf Mişon Bakıda "Balaxanıda neft fontanı" və "Bibiheybət neft mədənində yanğın" adlı xronikal süjetləri lentə almaqla milli kinomatoqrafiyamızın əsasını qoydu. Bundan sonra onlarla film çəkildi. Onlar arasında ən yadda qalanı Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilmiş ilk milli kinokomediya oldu. 1920-ci ildən sonra isə Azərbaycanda sovet kinosu erası başladı. Həmin illərdə çəkilən "Ulduz", "Şərikli çörək", "Bizim Cəbiş müəllim" və digər filmlərin ideoloji xətti olsa da, onları bizə sevdirən milli ruhun, milli adət-ənənələrin özündə əks etdirmələridir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanda çəkilən filmlərin sayında azalma baş verdi. Ötən əsrin sonunda çəkilən filmlər sırasında ən çox yadda qalanları isə Qarabağ münaqişəsindən bəhs edən "Özgə vaxt", "Biz qayıdacağıq", "Fəryad", "Sarı gəlin", "Lal çinar", "Arxada qalmış gələcək" kimi kinolentlər oldu. Son illərdə kino sahəsinə dövlət marağının artması tarixi-vətənpərvərlik mövzularında çəkilmiş nisbətən iribüdcəli "Cavad xan" və "Hökmdarın taleyi" kimi filmlərin meydana gəlməsinə kömək olub. Bu gün Azərbaycanda filmlər dövlət sifarişi ilə yanaşı özəl şirkətlərin xəttilə də çəkilir. Belə özəl qurumlardan biri "BakıFilm" Kinostudiyasıdır. Mövcud olduğu 5 il ərzində "BakıFilm" Kinostudiyasında vətənpərvərlik və Qarabağ müharibəsindən bəhs edən "Qaydasız döyüş", "Seçilən", "Bulağıstan" bədii filmləri, "Qızlar serialı", eləcə də "Yaddaş" filmi hazırlanıb. Bundan başqa "BakıFilm" kinostudiyasının çəkdiyi "Xoca" filmi dünyanın bir çox ölkəsində, habelə kino festivallarında nümayiş olunaraq tamaşaçıların rəğbətini qazanıb. Qeyd edək ki, 2001-ci ildən prezident Heydər Əliyevin sərəncamı ilə avqustun ikisi Azərbaycan Milli Kino günü kimi rəsmiləşdirilib.

İnternetdə: www.books.google.com

## 3 Avqust – Ümumdünya Qarpız Günü



Qarpız günü ilk dəfə avqustun 3-də Amerikada qeyd olunmuşdur. Bu ölkənin, xüsusən latınamerikalı əhalisi qarpızı çox sevirlər. Orada bu şirin və dadlı meyvə yay pikniklərinin zəruri atributlarından biridir. Ümumiyyətlə, qarpızı kim sevmir ki? Bu böyük, orqanizmin susuzluğunu yatıran, təravət verən meyvə 90% sudan ibarətdir. Şirin olmasına baxmayaraq, kalorisi az olan qarpızın bayramının kim və nə zaman təyin edildiyi məlum deyil.

Qabaqkimilər fəsiləsindən olan qarpız birillik bostan bitkisidir. Qarpızın qabığı müxtəlif rəngdə ola bilər: ağ və sarı rəngdən tünd yaşıla qədər. Üzərində isə ləkə, zolaq və s. formalarda şəkilləri olur. Hazırda dünyanın 90-dan çox ölkəsində qarpızın 1200-dən çox növü becərilir. Qarpızın vətəni Cənubi Afrika hesab olunur. Hətta Qədim Misirdə aparılan qazıntılar sübut etmişdir ki, orada qarpız becərilib. Qədim Misir miflərində və papiruslar üzərindəki qədim reseptlərdə bu meyvənin adı çəkilir. Qarpız Qədim Romada da məlum idi. Qədim Çinə ticarət gəmiləri vasitəsilə aparılan qarpız orada da sevilmişdir. Bu gün də dünyada qarpızın ən çox becərildiyi yer Çindir. Qarpız Rusiya və Avropada təxminən XI-XII əsrlərdə (bəzi faktlara görə, XIII-XIV əsrlərdə), Amerikada isə XVI əsrdə peyda olmuşdur.

Qarpızı sevənlər çox olduğu üçün bu günü qeyd etmək onlara əlavə bayram əhvali-ruhiyyəsi yaşadır.

İnternetdə: www.books.google.com

## 5 Avqust – Hərbi Donanma Günü, (1996)




Azərbaycan Hərbi Donanması 1919-cu ildə Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaradılıb. Belə ki, 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil veriblər. Bu gəmilərin əsasında Azərbaycan Xəzər Hərbi Dəniz Donanması təşkil olunub. Azərbaycan hökumətinin bu tədbiri ölkənin dəniz sərhədlərinin qorunmasında mühüm addım oldu. 1919-cu ilin sonlarında general İbrahim ağa Usubovun başçılıq etdiyi Azərbaycan hərbi missiyası donanma üçün xaricdən 6 birtoplu qırıcı kater, 12 qırıcı kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, simsiz teleqraf qurğuları və s. alıb. Azərbaycan Hökuməti rus donanmasının admiralı, Şimal qütbünə ekspedisiyanın iştirakçısı, türk əsilli İslamovu milli donanmanın yaradılması işinə kömək göstərmək üçün 1919-cu ilin yayında Azərbaycana dəvət edib. "Astrabad", "Qars" və "Ərdəhan" hərb gəmilərinin komandirliyi azərbaycanlı kapitanlara tapşırılıb. Hərbi donanmanın maddi-texniki bazasının və kadr təminatının gücləndirilməsi planları aprel işğalı nəticəsində həyata keçirilməmiş qalıb. Az sonra bolşeviklərin gəlişi ilə Azərbaycan hərbi donanması ləğv olunub. SSRİ dağıldıqdan sonra Azərbaycanda da hərbi-dəniz donanmasının təşkilinə şərait yarandı.1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi-Dəniz Qüvvələri Qərargahı, mühafizə və təminat rotası yaradıldı. Xəzər Hərbi-dəniz donanmasının 25%-i və Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasının ixtiyarına verildi. 1992-ci il iyunun 26-da "Bakılı" keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olundu. Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanına əsasən hər il avqustun 5-i Azərbaycan Respublikası Hərbi Donanma Günü kimi qeyd olunur.

İnternetdə: www.books.google.com

**5 Avqust – Beynəlxalq İşıqfor Günü, (1914)**

  

Beynəlxalq İşıqfor Günü 1914-cü il avqustun 5-də baş vermiş bir hadisə ilə əlaqədar qeyd olunur. Belə ki, həmin gün ABŞ-in Klivlend şəhərində müasir işıqfor qurğularının ilk əcdadı meydana gəlmişdir. O, qırmızı və yaşıl fənərlərə malik idi və işıqlar dəyişən zaman səs siqnalı işə düşürdü. Əslində, ilk işıqforu hələ XIX əsrdə britaniyalı Cey Nayt icad etmişdir. Bu qurğu 1868-ci ildə Londonda parlament binası qarşısında quraşdırılmışdır. Üç ildən sonra onun fənəri partlamış və polis işçisini yaralamışdır. Bu hadisədən sonra işıqfor, demək olar ki, 50 il unudulmuşdur. 1910-cu ildə ilk ikirəngli fənərə malik avtomat işıqfor qurğusu hazırlanmış və patentləşdirilmişdir. Müasir işqforlara bənzər üçrəngli qurğuları ilk dəfə 1920-ci ildə Detroyt və Nyu-York sakinləri görmüşlər.

Zaman keçdikcə işıqforlar Amerikanın və Avropanın bir çox şəhərlərində populyarlıq qazanmışdır. İşıqfor – mexaniki nəqliyyat vasitələrinin, həmçinin piyada keçidlərindəki insanların və yol hərəkətinin digər iştirakçılarının hərəkətini tənzimləmək üçün nəzərdə tutulan optik siqnalizasiya qurğusudur. İşıqfor, həmçinin dəmir yollarında və gəmiçilikdə də istifadə olunur. 2010-cu ildə Rusiyanın Perm şəhərində işıqfora abidə qoyulmuşdur.

İnternetdə: http://www.calend.ru/holidays

**8 Avqust – Beynəlxalq Alpinizm Günü (Alpinist günü), (1786)**



Avqustun 8-də dünyada Beynəlxalq Alpinizm Günü və ya Alpinist Günü qeyd olunur. Bu bayram sərhəd tanımır, əsl kişiləri və ruhən möhkəm qadınları birləşdirir. Bu bayramın meydana çıxmasında iki cəsur isveçrəli – həkim Mişel-Qabriel Pakkarda və dağ bələdçisi Jak Balmaya borcluyuq. Onlar 1786-cı il avqustun 8-də bütün alpinistlər arasında ilk olaraq Alp dağlarının ən yüksək zirvəsini – Monblan zirvəsini fəth etmişlər. Bu zirvə dəniz səviyyəsindən 4810 metr yüksəklikdə yerləşir. Həmin vaxta qədər Monblan zirvəsini fəth etmək cəhdləri çox olsa da, buna ilk nail olanlar məhz həmin insanlar olmuşlar. O gündən dünya alpinistləri Alp dağlarının ən yüksək zirvəsinin fəth olunmasını öz bayramları kimi qeyd edirlər. Bu günü yalnız dağ zirvələrini fəth edənlər deyil, həm də sənaye alpinizmi ilə məşğul olanlar öz bayramları hesab edirlər. Dünyada hər il göydələnlərin, hündürmərtəbəli binaların sayı daha da artır. Belə mütəxəssislər binaların fasadlarını və pəncərələrini yuyur, rəngləyir, təmir edir, qardan və sırsıradan təmizləyir, kondisionerləri montaj edir və s. Yüksəklikləri fəth edənlər bu bayram günündə görüşlər keçirir, təcrübə mübadiləsi aparır, yeni rekordlar müəyyən edir, təsirli tamaşalar göstərirlər. Dünyanın bəzi şəhərlərində idman klubları həmin gün yarışlar, konsertlər və digər bayram tədbirləri təşkil edirlər.

İnternetdə: http://www.calend.ru/holidays

## 12 Avqust – Beynəlxalq Gənclər Günü, (1999)



1998-ci il avqustun 12-də Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilmiş beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Bu gün BMT-nin qərarı ilə gənclərə lazımı diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə 1999-cu ildə müəyyən edilib və 2000-ci ildən qeyd olunur. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Savadlı, geniş dünya görüşünə malik gənclərin yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələdir. Bu gün iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli mənəvi dəyərlərini, doğma ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadır. Hər bir xalqın tarixində onun uğurlu gələcəyini quran şəxsiyyətlər var. Azərbaycan xalqı bu günü və sabahı üçün ulu öndərimiz Heydər Əliyevə borcludur. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərimizin əlindədir. Hər bir xalqın, hər bir dövlətin gəncləri onun həm bu günü, həm də sabaha ümididir. Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin bugünkü uğurlu davamı gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Azərbaycan dövlətinin müstəqilliyi və suverenliyinin qorunub möhkəmləndirilməsi, onun inkişafı, ərazi bütövlüyünün təmin edilməsi, ölkə iqtisadiyyatının sürətlə inkişafı, əhalinin sosial problemlərinin həlli, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması yolunda görüləcək bu əzəmətli işlərin həyata keçməsinin əsas ağırlığı bugünkü gənclərin üzərinə düşür. Ölkəmizdə gənclər siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırmış, onların imkan və bacarıqlarını yüksək qiymətləndirmiş, problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermişdir. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini də öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətimizin başçısının davamlı inkişaf konsepsiyasının uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun da xidmətləri böyükdür.

İnternetdə: www.books.google.com

## 15 Avqust – “Allo” sözünün ad Günü, (1877)



Avqustun 15-i “Allo” telefon müraciətinin ad günü kimi maraqlı bayram qeyd olunur. Bu müraciətin təxminən 140 illik tarixi var. İlk dəfə 1877-ci il avqustun 15-də Tomas Edison bu salamlaşma formasından istifadə etməyi təklif etmişdir. Onun fikrincə, “Hello” telefon müraciətinin bütün variantları arasında ən yaxşısıdır. O, teleqraf şirkətinin prezidentini də buna inandırmağa çalışmışdır. Telefonu icad edən Aleksandr Bell isə “Ahoy” sözündən müraciət forması kimi istifadə etməyi təklif etmişdir. Lakin Tomas Edisonun təklifi zamanın sınağından çıxmışdır. “Hello” sözü “Allo”ya çevrilmişdir. Telefon ünsiyyətində “Bəli”, “Eşidirəm” kimi geniş yayılmış formalar da var.

Bəzi ölkələrdə telefon söhbətinin öz “vizit kartları” da mövcuddur. Belə ki, yunanlar telefon zənginə “Parakalo” – “Xahiş edirəm”, italyanlar “Pronto” – “Eşitməyə hazıram” sözləri ilə cavab verirlər. Almaniyada isə telefona cavab verərkən çox vaxt öz soyadlarını söyləyirlər.

İnternetdə*:* http://www.calend.ru/holidays

**18 Avqust – Sərhəd Qoşunları Günü, (2002)**



***“Vətən – Yurdun bütün torpaqlarını birləşdirib vahid, qüdrətli və mərkəzləşdirilmiş Azərbaycan dövləti yaradan, doğma dilimizi Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazidə – Səfəvi imperatorluğunda dövlət dilinə çevirən Şah İsmayıl Xətayinin əmanətidir bizə!”***

**Ümummilli lider Heydər Əliyev**

18 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılıb. Prezident Heydər Əliyevin 2000-ci il 16 avqust sərəncamı ilə avqustun 18-i Azərbaycanda Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunması qərara alınıb. Sovet dövründə Sərhəd Qoşunları Dövlət Təhlükəsizlik Komitəsinin strukturu kimi mövcud olub, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra da sərhəd xidməti bir müddət Milli Təhlükəsizlik Nazirliyinin tərkibində fəaliyyət göstərib. Prezident Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradılıb. Həmin fərmanla Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunlarının komandanı təyin edilib.

İnternetdə: www.books.google.com

## 26 Avqust – Beynəlxalq Azərbaycan Muğamı Günü, (2010)



Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu Üzərində Yerləşən Ölkələrin Musiqisi Günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün əziz bayramdır.

Azərbaycan muğamının müasir tarixində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

YUNESKO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsidir. Ölkəmizdə "Muğam aləmi" Beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyət Fondunun bu sahəyə göstərdiyi diqqətə bariz nümunələrdəndir.

Xalqımızın şərəfli və keşməkəşli tarixini səslərdə əbədiləşdirən muğamlarımız ən ağrılı-acılı günlərimizdə həm də təskinliyimizdir. Heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bütün hallarda – qüssəli, sevincli, anlarımızda ovqatımıza təsir edir, azadlığa və müstəqilliyə qovuşduğumuz anların fərəhini yaşadır və bizləri qələbəyə səsləyir.

İnternetdən: http://liderinfo.az/dunya

**Bu tarixi unutmayaq**

**23 Avqust – Cəbrayıl rayonunun işğalı günü, (1993)**



1993-cü il avqustun 23-dən həsrətini çəkdiyimiz rayonlardan biri də Cəbrayıldır. Ərazisi 105 min hektardır. Bu torpaq onlarla tarixi abidənin məskəninə çevrilib. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq – ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir. İşğaldan əvvəl rayonda 72 orta və natamam məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtokulub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğusu fəaliyyət göstərirdi. Zəngin eksponatları olan tarix – diyarşünaslıq muzeyi vardı. Yaşı əsrlərlə hesablanan Xan çinar bu yurdun simvoluna çevrilmişdi. Rayonda irili-xırdalı 90 kənd vardı. Çoxsaylı alimlərimizin, ziyalılarımızın şərəfli, şanlı ənənələri uğurla davam etdirilirdi. O çətin dözülməz günlərdə Cəbrayıl rayonunda kifayət qədər qüvvə yox idi. Çətinliklərə baxmayaraq sərhəddə ermənilərə qarşı müdafiə xətləri yaradılmışdı. Şaqay yüksəkliyi alınmış və orada mövqe tutulmuşdu. Yeddi ay həmin yüksəkliyin hesabına rayona nəzarət edildi. Şaqay yüksəkliyi itirildikdən sonra Cəbrayılın başı üstünü qara buludlar aldı. Rayonun işğalı həmin yüksəklik verilən gündən başladı. Cəbrayıl ərazisini o ağır günlərdə qoruyan ərənlər də az olmamışdı: Yusif Allahverdiyev, Samir Alıyev, Şükür Abdullayev, İnqilab Aslanov, Azər Bayramov, Mais Verdiyev, Mübariz Qasımov, Mehdi İsmayılov və s. Onların hər biri artıq cismən ayrı düşüblər, ruhən həmişə, hər vaxt bizimlədirlər. Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 6 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişib, 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu alıb, 6 nəfər isə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Hazırda cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var. İşğaldan sonra cəbrayıllılar ölkənin 58 bölgəsinə səpələniblər. Daha çox Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıblar.

İnternetdə: www.books.google.com

## 23 Avqust – Füzuli rayonunun işğalı günü, (1993)



Rayonun əsası 1827-ci ildə qoyulub və ilkin adı Qarabulaq olub. Rayon 8 avqust 1930-cu ildə təşkil olunub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılıb. Füzuli rayonunun ərazisi 1386 kv.km, əhalisi isə təxminən 105 min nəfərdir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğaldan azad olunub. Hazırda bu ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşıb.

İşğaldan öncə rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq yaxşı inkişaf etmişdi. Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi. İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri və zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi. Rayonda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri mövcud idi. Təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilər tərəfindən məhv edilmiş, yandırılmışdır. 1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, çoxlu sayda rayon sakini şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzuli rayonunun 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuli rayonuna erməni təcavüzü nəticəsində 36361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır.

İnternetdə: www.books.google.com

## 31 Avqust – Qubadlı rayonunun işğalı günü, (1993)



Ərazisi 80.250 hektar olan, Zəngəzur dağları ilə Dağlıq Qarabağ silsiləsi arasında yerləşən Qubadlı rayonu inzibati vahid kimi 1933-cü ildə yaradılıb. İşğala kimi rayon ərazisində müxtəlif növ ağaclardan ibarət 13.160 hektar dövlət meşə fondu mövcud idi. Rayonda 1500-1600-cı illər arasında əkilmiş nadir növlərdən ibarət olan 10-dan artıq ağac təbiət abidəsi kimi qorunurdu. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən və sahəsi 20 min hektar olan, zəngin flora və faunaya malik Qubadlı Dövlət Təbiət Yasaqlığında nəsli kəsilməkdə olan bir çox heyvan və quş növləri mühafizə olunurdu. Erməni işğalçıları rayon ərazisində geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələri, böyük ehtiyata malik yeraltı sərvətləri, mineral maddələrlə zəngin su mənbələrini istismara məruz qoyub, qeyri-adi flora və faunası ilə seçilən təbiət guşələrini dağıdıblar.

Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib. 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq musiqi məktəbi də fəaliyyət göstərib. Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolı, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13365 hektar meşə sahəsi işğal altında qalıb. Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyini də talan ediblər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır. Erməni təcavüzü zamanı Qubadlı 5 il müddətində 238 şəhid verib, 146 nəfər əlil olub.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

## 1 Avqust – Ədəbiyyatşünas Xeyrulla Məmmədovun 85 illiyi, (1934)



Xeyrulla Qulam oğlu Məmmədov 1934-cü ilin avqust ayında Lerik rayonu Zuvand mahalının Hoveri kəndində dünyaya göz açıb. 1952-ci ildə Lerik kənd (o vaxtlar kənd sayılırdı) orta məktəbini bitirib. 1957-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU-nun) filologiya fakültəsini bitirib. 1957-1960-cı illərdə Lerik qəsəbə orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyət göstərib. Eyni zamanda internat məktəbində baş tərbiyyəçi işləyib. Lerik rayonunda çıxan "Kolxoz yolu" qəzetində müntəzəm çıxış edib və bu qəzetin məsul katibi işləyib. 1960-1963-cü illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda aspiranturada oxuyub. 1963-cü ilin noyabr ayında ADPİ-da Azərbaycan ədəbiyyatı tarixi kafedrasına işə girib. 1963-1965-ci illərdə səsvermə yolu ilə həmin kafedrada müəllim işləyib. 1965-1967-ci illərdə baş müəllim, 1967-1982-ci illərdə isə dosent vəzifələrində çalışıb. 1968-1970-ci illərdə "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası müdirinin müavini vəzifəsinə təyin olunub. 1982-ci ildə elmlər doktoru elmi dərəcəsini alıb. 1991-ci ildən isə filologiya-tarix fakültəsinin qiyabi şöbəsinə dekan seçilib. X.Məmmədov ölümünə qədər müxtəlif elm ocaqlarında pedaqoji fəaliyyətlə məşğul olub. "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda maarifçi realist ədəbi hərəkat" mövzusunda yazdığı monoqrafiya onun doktorluq dissertasiyası kimi yüksək qiymətləndirildi. Xeyrulla müəllim 1982-ci ildə elmlər doktoru elmi dərəcəsini aldı. 1963-cü ilin noyabr ayında X.Məmmədov Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) Azərbaycan ədəbiyyatı tarixi kafedrasına işə girdi. 1963-1965-ci illərdə səsvermə yolu ilə həmin kafedrada müəllim, 1965-1967-ci illərdə baş müəllim, 1967-1982-ci illərdə isə dosent vəzifələrində çalışdmışdır. X.Məmmədov 1968-1970-ci illərdə "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası müdirinin müavini vəzifəsinə təyin olunub. 1991-ci ildən isə filologiya-tarix fakültəsinin qiyabi şöbəsinə dekan seçilib. Görkəmli ədəbiyyatşünas alim 2005-ci il sentyabrın 8-də qəflətən vəfat etmişdir.

**Əsərləri:** "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçi-realist ədəbiyyatı" (1978), "Sultan Məcid Qənizadə" (1983), "XIX əsr Azərbaycan uşaq ədəbiyyatı" (1992), "Azərbaycan ədəbi-tənqidi XIX-XX əsrlərin hüdudunda" (1999) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.408.

**4 Avqust – Yazıçı Oruc Qoşqarlının 110 illiyi, (1909-1989)**



Oruc Hüseyn oğlu Qoşqarlı 1909-cu il avqust ayının 4-də Gəncə şəhərində Bağbanlar məhəlləsində anadan olmuşdur. İlk təhsilini Gəncədəki 7 saylı orta məktəbdə aldıqdan sonra, Gəncə Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir. Oruc Qoşqarlı daha sonra 1930-1931-ci illərdə Tiflis Zaqafqaziya Piyada Hərbi məktəbində oxumuşdur. 1933-1936-cı illərdə isə Oruc Qoşqarlı Frunze adına Hərbi Akademiyada təhsilini artırmışdır. 1939-cu ildə Oruc Qoşqarlı hərbi xidmətə çağırılmış və bir il dəstə komandiri işləmişdir. İkinci Dünya Müharibəsinin ilk günlərindən ön cəbhədə, Krım və 4-cü Ukrayna cəbhəsində alay ştab rəisi, alay komandiri vəzifəsində olmuşdur (1941-1944). Oruc Qoşqarlı ağır döyüşlərdə iki ağır yara, bir zədə almış və müalicə olunaraq İranda hərbi xidmətini davam etdirmişdir (1944-1945). Daha sonra Ukraynanın Xarkov və Bakı şəhərlərində hərbi təlimatçı, müəllim kimi vəzifələrdə çalışmışdır (1945-ci ildən). Bir müddət sonra xəstəliyi ilə əlaqədar olaraq ordudan tərxis olunmuş və Gəncəyə qayıtmışdır. Oruc Qoşqarlı ədəbi yaradıcılığa 1931-ci ildən şeirlə başlamışdır. 1940-cı ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1945-ci ildən sonra “Kerçə yol” povestini, “Qaynar bulaq” kino ssenarisini, “General Karbışev” poemasını və sair oçerkləri qələmə almışdır. 1946-cı ildə Azərbaycan Yazıçılar İttifaqının Gəncə bölməsinin məsul katibi vəzifəsində işləmişdir. Qoşqarlı dövri mətbuatda da vaxtaşırı çıxış edirdi. Üç döyüş ordeni, 13 medalla təltif olunmuşdur. Oruc Hüseyn oğlu Qoşqarlı 1989-cu ilin noyabr ayının 25-də Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:** “Qəribə səyahət” (1978), “Ana həsrəti” (1986) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.698.

**7 Avqust – Şair ədəbiyyatşünas Əhməd Elburusun 75 illiyi, (1944-2006)**



Əhmədov Elbrus Misir oğlu 7 avqust 1944-cü ildə Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olmuşdur. Orta təhsilini burada aldıqdan sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olmuşdur. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda əyani aspirantura təhsilini alan Ə. Elbrus Fədainin "Bəxtiyarnamə" adlı əsəri əsasında dissertasiya müdafiə edərək "filologiya elmləri namizədi" alimlik dərəcəsi almışdır. 1976-1986-cı illərdə AMEA "Elm" nəşriyyatının baş redaktoru olmuşdur. Keçmiş SSRİ və Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. Onun 15 şeir kitabı, 4 monoqrafiyası və 200-dən çox elmi-publisistik məqaləsi nəşr edilmişdir. Ə.Elbrus yüzlərlə kitabın redaktoru və tərtibçisi idi. Bir neçə dillərə əsərləri tərcümə olunan şair riyazi poetikaya aid "Poetika i matematika" əsərinin müəllifi idi. Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki seçilən şair həm də "Qorqud" və "Bəstəkar" nəşriyyatlarının qurucusu və baş redaktoru idi. Əhməd Elbrus həm də riyazi poetika sahəsində qələmə alınan ilk monumental əsərin müəllifidir. Şairin min səhifəlik "İnam və İdrak" əsəri dünya teoloqları tərəfindən yüksək qiymətləndirilib. 2006-cı ildə işıq üzü görmüş "İnam və idrak poetikası" adlanan bu sanballı kitabda qədim və orta əsrlər Şərq elm və sənətində kök atan "Elm əl-Əsms", "Elm əl-Cəfr" və onların qaynağından mənşələnən "Elm əl Hürül" barədə, bu üç iqamətin nəticəsi olan hürufizm və qaynaqları ilə əlaqədar riyazi-poetikanın ən yeni nailiyyətləri səviyyəsində araşdırmalar aparılmış, nəticədə hürufizmin simvollar sisteminin strukturu, bərpa, simvol açarları və kodları təqdim edilmişdir. Əhməd Elbrus 2006-cı ilin dekabrın 11-də qəflətən vəfat etmişdir. Doğulduğu Salmanbəyli kəndində dəfn edilmişdir.

**Əsərləri:** "Uçan durnalar" (1962), "Etibarım" (1971), "Üçüncü addım" (1974), "Günəş nəğmələri" (1977), "Ömür yolu" (1979), "İnsan əfsanəsi" (1982) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.223.

**10 Avqust – Yazıçı, şair Vaqif Cəfərlinin 60 illiyi, (1959)**



Cəfərov Vaqif İsaq oğlu 1959-cu il avqustun 10-da Azərbaycanda Tovuz rayonunun Köhnəqala kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1976). İki il sovxozda fəhlə işləmişdir. Ordu sıralarında xidmət etmişdir (1978-1980). M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır (1983-1988). Bakıda nəşr olunan "Çinar", "Fəryad", "Aydınlıq" və "Azərbaycan ordusu" qəzetlərində müxbir işləmişdir. Hazırda "Hərbi bilik" jurnalında çalışır.

**Əsərləri:** "Boz qurd" (1992), "Aldada bilmirəm özümü daha" (1993), "Ömür də bir nəğmədir" (1993), "Döyüşə gedirəm, ana!" (1993), "Alın yazısı" (1993), "Vətən oğlu" (1994), "Tovuz şəhidləri" (1995), "Qırmızı yağış", "Tanrı kölgəsi" (1997), "Ömür nəğmələri" (1998), "Ümid yolları" (1998), "Kişilər yaşayıb dünya üzündə" və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.897.

**12 Avqust – Yazıçı Səfər Alışarlının 65 illiyi, (1954)**



Səfər Alışarlı 12 avqust 1954-cü ildə Naxçıvan MR Şərur rayonunun Alışar kəndində doğulub. Kənd səkkizillik məktəbini fərqlənmə ilə bitirərək Bakı Politexnik Texnikumuna (1968-1972) daxil olub. Texnik-topoqraf ixtisasına yiyələnib. 1976-1980-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda oxuyub. 1980-1985-ci illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. 1985-ci ildən etibarən Bakıda əmək fəaliyyətilə aşağıdakı müəssisələrdə məşğul olub: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında kiçik redaktor, "Gənclik" - "Molodost" jurnalında şöbə müdiri, "Səs" qəzetində baş redaktor müavini, Naxçıvan MR Dövlət Teleradio Verilişləri Komitəsində sədr, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində sədr müavini, 2008-ci ildən aylıq, ictimai-siyasi "Vətəndaş cəmiyyəti" jurnalının baş redaktoru. İlk hekayələri 1981-ci ildə "Azərbaycan" jurnalında çap olunub. O vaxtdan mütəmadi olaraq bu və digər ədəbi-bədii jurnal və qəzetlərdə öz hekayələrini çap etdirib. "Zəng" adlı ilk nəsr toplusundakı (1987) hekayələrində Azərbaycan kəndinin realistik mənzərələrini yaratmış, müasirlərinin mənəvi problemlərini qabartmağa nail olmuşdur. Topludakı hekayələrin üslubu klassik Azərbaycan nəsrinin realizm ənənələrinə söykənir. Burada təsvir olunan həyat hadisələrinin adiliyi və tipikliyi diqqətəlayiqdir. Topludakı "Zəng", "Qasım", "İnşallah, yaxşı olar", "Kasıb" və sair hekayələri yalançı mənəvi donor pafosundan uzaq, adi həyat hadisələridir. S.Alışarlı yaradıcılığına gəlməkdə olan yeni nəfəsin təravətini və sağlam ruhunu onun bu topludakı "Milad gecəsi", "Sən heç nə bilmirdin", "Dağlar bizə baxır" və başqa hekayələrindən görmək mümkündür. S.Alışarlı yaradıcılığının sonrakı mərhələsi əsasən bədii jurnallarda çap olunmuş hekayə və povestlərlə xarakterikdir. Onun müxtəlif illərdə "Azərbaycan" və "Ulduz" jurnallarında, "Ədəbiyyat" və "525-ci qəzetlərdə" çap olunmuş əsərləri – "Yaz avazı", "50 hektarlıq avqust", "Kərimin inqilabı" hekayələri, "Adam yaşamayan bölmədə", "Gavur" povestləri müasir Azərbaycan nəsrinin istedadlı nümunələrindəndir. Yazıçının "Avqust" kitabında (2004) çap edilmiş "Maestro" romanı Azərbaycan nəsrində böyük ədəbi hadisə kimi qarşılandı.

**Əsərləri:** "Zəng" (1987), "Sən heç nə bilmirdin" (1989), "Avqust" roman və povestlər toplusu (2004) və s.

**Tərcümələri:** Kurt Vonehut "Pişik beşiyi" (1993).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.786.

**14 Avqust – Yazıçı Şamil Xurşudun 85 illiyi, (1934-1986)**



Şamil Fərzəliyev (Şamil Xurşud) 1934-cü il avqustun 14-də Azərbaycan SSR-in Ucar rayonunda anadan olmuşdur. Valideynləri 1918-ci il hadisələri səbəbindən məcburiyyət qarşısında qalaraq Qərbi Azərbaycanın Sisyan rayonunun Ağudi kəndindən Ucar rayonuna köçmüşdülər. Şamil Xurşud Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində oxuyan vaxtdan bədii-publisistik məqalələr, televiziya və radio üçün səhnəciklər yazmağa başlamışdır. Onun ilk səhnə əsəri də elə o vaxtlar oynanılmışdı. Ali təhsilini uğurla başa vurandan az sonra onu Moskvanın İctimai Elmlər Akademiyasına göndərmişlər. Orada ikiillik təhsilini başa vurub vətənə qayıtdıqdan sonra Şamil Xurşud ömrünü yazıb-yaratmağa həsr etmişdir. 1972-ci ildə "Azərbaycan gəncləri" qəzetinin redaktoru vəzifəsinə təyin olunmuş, daha sonra isə 1980-ci ildə "Kirpi" satirik jurnalının baş redaktoru vəzifəsinə irəli çəkilmişdir. O, bu vəzifədə 1986-cı ilin aprelinə kimi işləmişdir. Şamil Xurşud 1986-cı ilin aprelin 24-də uzun sürən xəstəlikdən sonra Tbilisi şəhərində vəfat etmişdir. Şamil Xurşud yaradıcılığa kiçik səhnə əsərləri yazmaqla başlamışdır. Ötən əsrin altmışıncı illərindən başlayaraq oçerk, felyeton, publisistik yazıları ilə respublika mətbuatında çıxış etməyə başlamış, bir qədər sonra isə hekayələri, povest və pyesləri işıq üzü görmüşdür. Onun "Özüm və özün" ilk felyetonlar kitabı böyük marağa səbəb olmuş, daha sonra isə bir-birinin ardınca "Azarkeş nənə", "Xəstələr", "Naxırçı çörəyi", "Ağaclar kəsilmədi", "Bahar yağışları", "Sən tək deyilsən", Mirzə Şəfi Vazehin həyatından bəhs edən "Bəxtiyar deyil" kitabları nəşr olunmuşdur. Müxtəlif illərdə yazdığı səhnə əsərləri Azərbaycan Dövlət Gənc tamaşaçılar Teatrında, Lənkəran Dövlət Dram Teatrında, İrəvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Şamil Xurşud Fərzəliyevin "Səndən sonra" kitabı yazıçının ölümündən sonra "Şərq-Qərb" nəşriyyatı tərəfindən çapdan buraxılmışdır. "Qızıl qələm" mükafatı laureatı olmuş və bir sıra Fəxri Fərman və medallara layiq görülmüşdür.

**Əsərləri:** "Xəstələr" (1957), "Sizi unutmaram" (1961), "İnsan yaşayır" (1964), "Özüm və özün" (1965), "Azarkeş nənə" (1970), "Ağaclar kəsildi" (1975), "Naxırçı çörəyi" (1978), "Sakitlik olmayacaq" (1983) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.829.

**Xarici ədəbiyyat**
**28 Avqust – Alman şairi İohan Hötenin 270 illiyi, (1749-1832)**



Yohann Volfqanq fon Göte alman şair-dramaturqu, mütəfəkkir və naturalistidir. Tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısına daxil edilib. Yohann Volfqanq Göte qədim alman ticarət şəhəri olan Frankfurt-Maynda, varlı bürger Yohann Kaspar Götenin (1710-1782) ailəsində dünyaya gəlib. Atası imperiya məsləhətçisi, keçmiş vəkil, anası şəhər zadəganının qızı olub. Göte evdə yaxşı təhsil alıb. 1765-ci ildə Leypsiq Universitetində təhsilini davam etdirib. 1770-ci ildə Strasburqda dissertasiya müdafiə edərək hüquq elmləri doktoru elmi dərəcəsi alıb. Yaratdığı iki hissədən ibarət ölməz "Faust" dram-poeması dünya ədəbiyyatının ən gözəl nümunələrindən biri sayılır. Götenin digər məşhur əsərlərinə çoxsaylı şeir-poemaları - "Vilhelm Meysterin təhsil illəri", "Gənc Verterin iztirabları" adlı məktub-romanı, "Seçmə oxşarlıq" adlı qismən avtobioqrafik romanlarını misal göstərmək olar. Göte alman ədəbiyyatının və XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Almaniyada Veymar klassisizmi hərəkatının ən önəmli simalarından biri idi. Veymar hərəkatı o dövr Avropa və Almaniyada İntibah, Sentimentallıq, "Tufan və Həmlə" (Sturm und Drang) və Romantizm ədəbi-fəlsəfi cərəyanları ilə eyni dövrdə baş vermişdir. “Faust” və “Rənglərin Nəzəriyyəsi” əsərlərində Göte bitkilərin morfologiyasına dair elmi fikirləri ilə Darvinə ciddi təsir göstərmişdir. Göte yaradıcılığı sonralar ümumilikdə Avropa musiqisi, dramaturgiyası, poeziya və fəlsəfəsinin əsas ilhamverici qüvvəsinə çevrilir. Yohann Volfqanq Göte 22 mart 1832-ci il (82 yaşında) infarkt (deyilənlərə görə) nəticəsində həyatını itirmişdir. Göte Şərq mövzusundakı əsərlərində qəzəl formasından istifadə etmişdir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Yohann_Volfqanq_Höte

**Milli Qəhrəmanlar Zirvəsi**

**1 Avqust – Azərbaycan Milli Qəhrəmanı Novruzov Ələsgər Xanlar oğlunun 70 illiyi, (01.08.1949-26.02.1992)**



Novruzov Ələsgər Xanlar oğlu 1 avqust 1949-cu ildə Laçın rayonunun Kürdhacı kəndində anadan olmuşdur. 1966-cı ildə Kürdhacı kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1971-ci ildə Şuşa Pedaqoji Texnikumuna daxil olmuş və 1973-cü ildə oranı bitirərək bədən tərbiyəsi müəllimi ixtisasını almışdır. 1979-cu ildə Xocalıya gəlmiş, 1 saylı məktəbdə ixtisası üzrə müəllimlik fəaliyyətini davam etdirmişdir. 1990-cı ildən şəhid olana qədər Xocalı RTŞ-nin təsərrüfat bürosunun müdiri işləmişdir. 1988-ci il sentyabrın 18-də Xankəndidən minlərlə erməni quldurу Xocalıya hücüm edərkən onlara qarşı silahlı müqavimət göstərən 30-40 nəfər igid Xocalı oğlanlarından biri də Ə.Novruzov oldu. 1990-cı ildə İrəvandan Xankəndinə uçan təyyarələrin qarşısını almaq üçün Ə.Novruzov döyüş yoldaşlarından R.Həsənovla birlikdə uçuş zolağını parıldadıb xeyli müddət təyyarələrin enməsinin qarşısını almışdır. 1991-ci ildə keçirilən əməliyyatların əsas iştirakçılarından biri olmuş Ə.Novruzov dəmir yolunu dağıdılıb Xankəndinə gedən yolun bağlanmasında Xankəndi-Norağuğ yolunda 2 maşın 20-yə qədər erməninin məhv edilməsində yaxından iştirak etmiş, misilsiz qəhrəmanlıq göstərmişdir. 25 fevral 1992-ci il tarixində Ə.Novruzov öz rəhbərlik etdiyi dəstəyə bildirdi ki, döyüş ağır olacaq, ona görə də patrona qənaət etmək lazımdır, havayı güllə atıb mövqeyimizi bildirməmək lazımdır. Təxminən gecə saat 11-ə qalmış başlanan döyüşdə Ə.Novruzovun dəstəsi misilsiz qəhrəmanlıqlar göstərdi. Ə.Novruzov sərrast atıcı olduğundan 20-yə qədər erməni quldurunu məhv etdi. Səhər saat 5-ə qədər öz mövqelərindən çəkilməyən döyüşçülər artıq ermənilərin cinahından çəkilməyə məcbur oldular. Xocalıda olan yeganə beşmərtəbə binaya tərəf döyüşə-döyüşə çəkilərkən Ə.Novruzov ağır güllə yarası almışdır. O son gülləsinə qədər döyüşmüş sonra huşsuz qalmışdır. Ermənilər onu huşsuz halda işgəncələr verərək qətlə yetirmişlər (Bu haqda Respublika Prokurorluğunun istintaq qrupunda izahat və məlumatlar vardır). Ailəli idi, üç övladı yadigar qalıb. Ölümündən sonra "General Məhəmməd Əsədov" mükafatına layiq görülmüşdür.

**Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli, 533 saylı fərmanı ilə Novruzov Ələsgər Xanlar oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

İnternetdə:https://az.wikipedia.org/wiki/Ələsgər_Novruzov

**9 Avqust – Azərbaycanın Milli Qəhrəmanı Həsənov Məhəmməd Ələsgər oğlunun 60 illiyi, (09.08.1959)**



9 avqust 1959-cu ildə Goranboy rayonunun Qarasüleymanlı kəndində doğulmuşdur. 1966-1976-cı illərdə buradakı 3 saylı məktəbdə təhsil almışdır. 1977-1979-cu illərdə hərbi xidmətdə olmuşdur. Sonra isə Kiyev şəhərinə gedib. 1980-ci ildə Kiyev Radioelektronika Texnikumuna daxil olub. 1984-cü ildə buradakı "Kommunist" zavoduna işə qəbul edilib. 1987-ci ildə Vətənə qayıtmış və təhsil aldığı 3 saylı məktəbdə hərbidən dərs demişdir. Ermənilər torpaqlarımıza hücum edəndə o, könüllülərdən ibarət dəstəyə komandir təyin olunmuşdur. Məhəmmədin döyüş yolu Mənəşli, Erkəç, Qaraçinar, Talış kəndlərindən keçib. Ermənilər ağır itkilər verərək geri çəkildilər. Məhəmməd xeyli erməni quldurunu şəxsən özü məhv etdi. 1992-ci il könüllü batalyonlar ləğv edildikdən sonra "N" saylı hərbi hissədə xidmətini davam etdirib. 1993-cü ildə Bakı Ali Komandirlər Məktəbini bitirmişdir. O, polkovnik-leytenant rütbəsinəcən yüksəlmişdi. 2002-ci ildən Goranboy rayonunun Veyisli kənd orta məktəbində işləmiş və hal-hazırda təhsil aldığı 3 saylı tam orta məktəbdə direktor vəzifəsində çalışır. Ailəlidir, dörd övladı var.

**Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə Həsənov Məhəmməd Ələsgər oğlu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə://az.wikipedia.org/wiki/Məhəmməd_Həsənov

## Sentyabr

## Əlamətdar və tarixi günlər

7 Sentyabr – “Google” Şirkətinin Təsis Olunduğu Gün, (1998)
8 Sentyabr – Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü, (1958)
8 Sentyabr – Beynəlxalq Savadlılıq Günü, (1966)
9 Sentyabr – Ümumdünya Gözəllik Günü, (1995)
9 Sentyabr – “Smaylik”lərin Ad Günü, (1982)
12 Sentyabr – Respublika Uşaq Kitabxanasına ədəbiyyatşünas Firidun bəy Köçərlinin adının verildiyi gün, (1967)
15 Sentyabr – Bilik Günü, (2004)
15 Sentyabr – Beynəlxalq Nöqtə Günü, (2009)
16 Sentyabr – Beynəlxalq Ozon Qatının Qorunması Günü, (1994)
18 Sentyabr – Milli Musiqi Günü, (1995)
19 Sentyabr – Beynəlxalq Piratlar Günü, (1995)
20 Sentyabr – Neftçilər Günü, (1994)
20 Sentyabr – Ümumdünya Düyü Günü, (2004)
20-21 Sentyabr – Beynəlxalq Yarasalar Gecəsi
21 Sentyabr – Beynəlxalq Sülh Günü, (1981)
22 Sentyabr – Filləri Ümumdünya Müdafiə Günü
23 Sentyabr – Saqqız Günü, (1848)
24 Sentyabr – Beynəlxalq Lal-Kar Günü, (1951)
27 Sentyabr – Beynəlxalq Dovşanlar Günü
27 Sentyabr – Ümumdünya Turizm Günü, (1980)
29 Sentyabr – Ümumdünya Dəniz Günü, (1978)
29 Sentyabr – Dünya Ürək Günü, (2000)
30 Sentyabr – Beynəlxalq Tərcüməçilər Günü, (1991)

**Yubilyar yazıçı və şairlər**

Şair, tərcüməçi Fəxrəddin Əliizinin 85 illiyi, (01.09.1934-2002)
Yazıçı Rza Şahvələdin 110 illiyi, (02.09.1909-1984)
Yazıçı Əli Əsgərovun 105 illiyi, (03.09.1914-1954)
Şair, dramaturq Hidayətin 75 illiyi, (05.09.1944)
Şair, tərcüməçi Mənsur Vəkilovun 80 illiyi, (07.09.1939)
Teatrşünas, tənqidçi Cəfər Cəfərovun 105 illiyi, (07.09.1914-1973)
Teatrşünas, tənqidçi İlham Rəhimlinin 70 illiyi, (08.09.1949)
Yazıçı, dramaturq Aslan Qəhrəmanlının 80 illiyi, (14.09.1939)
Şair Əhəd Muradxanlının 80 illiyi, (20.09.1939)
Ədəbiyyatşünas, tənqidçi, dilçi Nizami Cəfərovun 60 illiyi, (21.09.1959)
Yazıçı Əfqan Əsgərovun 90 illiyi, (23.09.1929)
Şair Murad Baykalın 70 illiyi (27.09.1949)

**Xarici ədəbiyyat**

Amerika yazıçısı Ceyms Kuperin 230 illiyi, (15.09.1789-1851)

**İncəsənət**

Musiqiçi, tarzən Əhsən Dadaşovun 95 illiyi, (04.09.1924-1976)
Kinorejissor Səməd Mərdanovun 110 illiyi, (22.09.1909-1939)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Natiq İlyas oğlunun 50 illiyi, (01.09.1969-26.09.1991)

## Əlamətdar və tarixi günlər

## 7 Sentyabr – “Google” Şirkətinin Təsis Olunduğu Gün, (1998)

Google (azərb. Qugl) dünyanın ən böyük axtarış sistemləri, eləcə də reklam sahəsində ixtisaslaşmış transmilli şirkətidir və ABŞ-da yerləşir. "Google" internetdə yerləşən bir çox xidmət və məhsullara sahiblik etməklə yanaşı onları inkişaf etdirir.

1. İnternetdə axtarış, buludlu hesablamalar (CLOUD COMPUTING) və reklam texnologiyaları sahələrinə investisiya qoyan transmilli şirkət. Mənzil-qərargahı Mountain View şəhərində (Kaliforniya, ABŞ) yerləşir. 1998-ci ildə Stenford Universitetinin məzunları Larri Peyc (Larry Page) və Sergey Brin tərəfindən yaradılıb. Sistem və uyğun şirkət öz adını qiyməti 10100 olan "quqol” (googol) riyazi kəmiyyətindən alıb; bu termin ötən əsrin 30-cu illərində amerikalı riyaziyyatçı Edvard Kasner tərəfindən daxil edilib. Şirkət, əsasən, özünün nəhəng Google axtarış sistemi ilə məşhurlaşıb. Şirkətin Gmail poçt xidməti, "Google+" və "Google Buzz" sosial alətlər kimi onlayn məhsulları da vardır. Bundan başqa, "Google" özünün "Google Chrome" brauzeri, fotoqrafiyalarla işləmək üçün "Picasa" proqramı və "Hangouts" ani məlumat mübadiləsi proqramı ilə tanınır. Smartfonlarda istifadə olunan "Android" mobil əməliyyat sistemi də "Google" şirkətinin məhsuludur.

2. İnternetdə ən populyar nəhəng axtarış sistemi. "Google Inc" şirkətinə məxsusdur. 1996-cı ildə Stenford Universitetinin tələbələri Larri Peyc (Larry Page) və Sergey Brin tərəfindən tədris layihəsi kimi yaradılıb. "BackRub" adlanan bu layihənin əsasında onlar 1998-ci ildə yeni "Google" axtarış sistemini yaratmışlar. "Google PDF", "RTF", "PostScript", "Microsoft Word", "Microsoft Excel", "Microsoft PowerPoint" və başqa formatlı sənədlərdə axtarışı dəstəkləyir. Axtarış sisteminin belə populyar olması ingilis dilində yeni sözün yaranmasına səbəb olub: "to google”, yaxud "to Google” – "quqllamaq”. Bu feil İnternetdə "Google" sisteminin köməyi ilə axtarış aparmağı bildirmək üçün istifadə olunur.

İnternetdə: http://anaveusaq.az/tarixde-bu-gun

## 8 Sentyabr – Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü, (1958)

***Azərbaycan Prezidenti kimi mən mətbuat azadlığının təminatçısıyam. Hesab edirəm ki, Azərbaycanda söz azadlığı, mətbuat azadlığı tam təmin olunubdur.***

**Ümummilli lider Heydər Əliyev**



Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü 1958-ci ilin mayından qeyd edilir. Həmin il Buxarestdə keçirilən Beynəlxalq Jurnalistlər Təşkilatının IV konqresində bununla bağlı qərara gəlinib. Dünya mediası üçün əlamətdar sayılan bu gün 1943-cü ilin sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çex jurnalisti Yulius Fuçikin xatirəsinə təsis olunub.

Bu gün Azərbaycan dövləti siyasi mövqeyindən asılı olmayaraq, bütün Kütləvi İnformasiya Vasitələrinin (KİV-in) inkişafında maraqlıdır. Bunun üçün ölkədə KİV-ə dəstək konsepsiyası hazırlanıb və KİVDF (Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu) yaradılıb. KİVDF jurnalistlərin peşəkarlığının artırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün müxtəlif layihələr həyata keçirir. Bu qurumun layihələrində iştirak edən qəzetlərin maddi-texniki bazası yaxşılaşıb, avadanlıqlar yeniləri ilə əvəz edilib.

İnternetdə: www.books.google.com

**8 Sentyabr – Beynəlxalq Savadlılıq Günü, (1966)**



Beynəlxalq Savadlılıq Günü (İnternational Literasy Day) Beynəlxalq Millətlər Təşkilatı sistemində qeyd olunan bayramlardandır. O, 1965-ci ilin sentyabrında Tehranda keçirilmiş Təhsil nazirlərinin savadsızlığın ləğv edilməsi üzrə ümumdünya konfransının tövsiyələri ilə YUNESKO tərəfindən 1966-cı ildə təsis olunmuşdur. Sentyabrın 8-i bu konfransın təntənəli açılışı günüdür.

Bu günün əsas məqsədi YUNESKO-nun fəaliyyətinin əsas sahələrindən biri olan, ayrı-ayrı şəxslərin, icmaların, birliklərin hüquq və imkanlarının genişləndirilməsi aləti kimi savadlılığın yayılması sahəsində beynəlxalq birliyin səylərini fəallaşdırmaqdır.

Savadlılıq bəşəriyyət üçün həqiqətən bayramıdır. Çünki bu sahədə nəhəng uğurlar qazanılmış, Yer kürəsində savadlı insanların sayı 4 milyarda çatmışdır. Lakin bir çox ölkələrin bu sahədəki böyük uğurlarına baxmayaraq, dünyada 860 milyon yaşlı insan hələ də savadsızdır, 100 milyon uşaq isə məktəbə getmir. Saysız-hesabsız uşaq, gənc və böyük isə müasir dövrün tələblərinə cavab verən səviyyədə savada malik deyillər, bu da onları savadlı hesab etməyə imkan vermir.

Bu əlamətdar günün qeyd olunmasında hökumətlər, çoxtərəfli, ikitərəfli və qeyri-hökumət təşkilatları, özəl sektor, birliklər, cəmiyyətlər, həmçinin müəllimlər, bu sahənin mütəxəssisləri, tələbələr iştirak edirlər.

Qeyd etmək lazımdır ki, hər il Savadlılıq Günü müəyyən mövzuya həsr olunur. Belə ki, o, müxtəlif illərdə aşağıdakı devizlər altında keçirilmişdir: “Qadınlar üçün savadın əhəmiyyəti”, “Savadlılıq şəxsi imkanları genişləndirir”, “Savadlılıq və sağlamlıq”, “Savadlılıq sabit inkişafı təmin edir”, “Keçmişi oxuyaraq, gələcəyi yazırıq” və s.

İnternetdə: www.books.google.com

**9 Sentyabr – Ümumdünya Gözəllik Günü, (1995)**



XX əsrdə kosmetologiya sahəsində əsl inqilab baş vermişdir. Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi (SİDESKO) Beynəlxalq Gözəllik Gününün (İnternational Beauty Day) yaradılması təşəbbüsü ilə çıxış etmişdir və bu gün hər il sentyabrın 9-da qeyd olunur.

Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi dünyada əsas beynəlxalq gözəllik terapiyası assosiasiyası hesab olunur və 1946-cı ildə Brüsseldə yaradılmışdır. Bir çox ölkələrdə 33 şöbəsi olan komitə bütün dünyada minlərlə həkimi birləşdirir. 1995-ci ildən başlayaraq hər ilin 9 sentyabr günü bütün gözəl olan, estetik və mənəvi həzz bəxş edən hər şey alqışlanır, təqdir olunur.

Dünyada ilk gözəllik yarışması 1888-ci ilin sentyabrında Belçikada, ilk “Dünya gözəli” müsabiqəsi isə 1951-ci ildə Londonda keçirilmişdir.

Kosmetoloqlar, kosmetik vasitələrin istelsalçıları və satıcıları, plastik cərrahlar, model biznesinin nümayəndələri bu günü peşəkar bayramları kimi qeyd edirlər.

İnternetdə: www.books.google.com

**9 Sentyabr – “Smaylik”lərin Ad Günü, (1982)**



9 sentyabr 1982-ci ildə Karnegi Mellon Universitetinin professoru Skott Falman öz kolleqalarına elektron məlumat göndərir və simvoldan istifadə edir ":-)" Alim belə hesab edir ki, bu işarə gülümsər üzə bənzəyir. Həmin vaxtdan da Smayliklər Günü bütün dünyada qeyd olunmağa başlayır. “Emoji” sözü Yaponcada "şəkilli xarakter" mənasını verir və "e" (şəkil) və "moji" (xarakter) sözlərinin birləşməsindən meydana gəlir. Açıqlama vermək lazım olsa, smayllar müxtəlif duyğu və düşüncələrimizi, ümumiyyətlə, sarı sifətli insan bənzəri ikonlar vasitəçiliyi ilə ifadə edən, mesajlaşmadan istifadə etdiyimiz kiçik şəkillərdir. Bu hörmətcil və şirin insanlar, illər əvvəl smayllardan istifadə etməyə başlayıblar. Hətta bu gün də Yapon bir dostunuz olsa, rahatlıqla smayla olan sevgilərini görə bilərsiniz.

İnternetdə: www.books.google.com

**12 Sentyabr – Respublika Uşaq Kitabxanasına ədəbiyyatşünas, pedaqoq Firidun bəy Köçərlinin adının verildiyi gün, (1967)**



F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kütləvi kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır. F.Köçərlinin 1912-ci ildə çap etdirdiyi "Balalara hədiyyə" kitabına onun balalarımıza miras qoyduğu folklor nümunələri – xalqın sahib olduğu qədim tarixi-mədəni irs bu gün də qorunub saxlanılaraq yenidən öz orijinallığında olduğu kimi təkrar nəşr edilərək, oxucuların istifadəsinə verilmişdir. Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Əhmədağa oğlu Köçərlinin 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 14 fevral 2013-cü ildə Sərəncam vermişdir. F.Köçərlinin "Balalara hədiyyə" kitabı Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının sifarişi ilə nəfis tərtibatla "Şərq-Qərb" nəşriyyatında təkrar nəşr olunaraq, oxucuların istifadəsinə verildi. Kitabdakı illüstrasiyalar Azərbaycan Xalq rəssamı Arif Hüseynova məxsusdur.

Görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi formalaşmışdır. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratmışdır. Kitabxana 1999-cu ildən Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin 2012-ci ildən isə mötəbər bir təşkilatın – Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası 2013-cü ildən "Uşaq ədəbiyyatı xəzinəsindən" seriyası ilə "Firidun bəy Köçərli. Biblioqrafiya", "İlyas Tapdıq", "Abdulla Şaiq" kimi biblioqrafik göstəriciləri hazırlamış və nəşr etdirmişdir.

İnternetdə: www.clb.az

## 15 Sentyabr – Bilik Günü, (2004)

*Təhsil xəzinədir, əmək onun açarı.*

**Seyid Əzim Şirvani**



Sentyabrın 15-i Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı, Bilik Günüdür. Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ötən əsrin 70-ci illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb. O vaxtdan başlayan qlobal miqyaslı təhsil quruculuğu sonrakı inkişaf üçün güclü təməl olub. 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatıb. Heydər Əliyevin imzaladığı "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməyə keçmək haqqında" qərarı da onun xalqına böyük töhfəsi idi. Ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb isə ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayıb. Ümummilli liderin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə elmin, təhsilin inkişafında böyük işlər görülüb. 1993-2003-cü illərdə 6 yeni akademiya təsis edilib, özəl ali məktəblər yaradılıb. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir: ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə Dövlət proqramları uğurla həyata keçirilir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. 2003-cü ildən indiyədək ölkəmizdə iki mindən çox yeni məktəb binası tikilib. Prezident İlham Əliyevin sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir. Gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Təhsilin inkişafında Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən 400-ə yaxın məktəb tikilib və yenidən qurulub, həmçinin 40-a yaxın uşaq evi və internat məktəbi əsaslı təmir və bərpa olunub, lazımi avadanlıqla təchiz edilib. Fondun dəstəyi ilə əyani tədris vəsaitləri çap edilib. Beləliklə, sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Ümumilikdə isə, hər yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə həm də uğurların başlanğıcı deməkdir. İnternetdə: www.books.google.com

**15 Sentyabr – Beynəlxalq Nöqtə Günü, (2009)**




Bu bayramı, əsasən, Uşaq Yaradıcılıq Mərkəzlərində, uşaq kitabxanalarında keçirirlər. Beynəlxalq Nöqtə Gününün tarixi ingilis rəssamı Piter Q.Reynoldsun 2003-cü ildə yazdığı "Nöqtə" kitabı ilə bağlıdır. Bu kitabda şəkil çəkməyi bacarmayan balaca qız haqqında danışılır. Daha doğrusu, qıza elə gəlir ki, o, şəkil çəkə bilmir. Rəsm dərsində Vaşti sadəcə kağızı nöqtələyirdi. Lakin müəllimə ondan şəkilin altında imzasını qoymağı xahiş edir və nöqtəni gözəl çərçivəyə salıb divardan asır. "Mən daha yaxşı çəkə bilərəm", – deyə Vaşti qərara gəlir və məlum olur ki, bu, həqiqətən belədir. Bu kitab çoxlu mükafatlar alır, Çikaqo kitabxanasının versiyası üzrə "İlin kitabı" seçilir və bir çox dillərə tərcümə olunur. 2009-cu ildə müəllim Terri Şey ilk dəfə Nöqtə Gününü qeyd edir. O gündən bəri Beynəlxalq Nöqtə Günü hər il qeyd olunur. Nöqtə günündə iştirak etmək üçün təsviri sənət studiyasında olmaq məcburi deyil. Kitabı satın almaq olar. Layihənin saytında qeydiyyatdan keçdikdən sonra isə metodiki vəsaiti və hətta proyektor üçün "Nöqtə"ləri yükləmək olar.

Öz nöqtənizdən başlayın! Ən yaradıcı fikirlərinizi və layihələrinizi həyata keçirin!

İnternetdə: www.books.google.com

**16 Sentyabr – Beynəlxalq Ozon Qatının Qorunması Günü, (1994)**




1994-cü ildə BMT-nin Baş Assambleyası özünün qətnaməsi ilə (A/RES/49/114) sentyabrın 16-nı Beynəlxalq Ozon Qatının Qorunması Günü (International Day for the Preservation of the Ozone Layer) elan etmişdir. Ozon Qatının Qorunması Günü ozon qatını dağıdan maddələr üzrə Monreal protokolunun imzalandığı günlə bağlıdır və 1995-ci ildən qeyd olunur.

1987-ci il sentyabrın 16-da 36 ölkənin imzaladığı və bu sənədə görə iştirakçı ölkələr ozon qatını dağıdan maddələrin istehsalını məhdudlaşdırmalı və tam dayandırmalıdırlar. Həmin gün Monreal protokolu və ona əlavələrdə qeyd olunan vəzifələr və məqsədlərə uyğun təbliğatın aparılması dövlətlərə tövsiyə olunur.

Ozon qatı nazik qaz qalxanı şəklində Yeri Günəş radiasiyasının dağıdıcı təsirindən qoruyur. O, yer üzərində nəhəng örtük kimi sərilmişdir. Əgər bu qat çox zəifləyərsə, bu bütün biosfer və canlı aləm üçün fəlakət olar. Ultrabənövşəyi şüaların insan üzərinə düşməsi nəticəsində dəri xərçəngi, görmənin itirilməsi və başqa xəstəliklər yarana bilər. XX əsrin 80-ci illərində alimlər Antarktidada ozonun ümumi tərkibinin iki dəfə azaldığını aşkara çıxardılar. Məhz o vaxtdan "ozon dəlikləri" ifadəsi yarandı. Ozon qatının nazikləşməsinə sənaye müəssisələrinin, zavodların məhsulu olan xlor oksidi təsir göstərir. Biz ozon dəliklərinin yaranmasının qarşısını almaq iqtidarında deyilik. Lakin məişət səviyyəsində əlimizdən gələni edə bilərik.

**İnternetdə: www.books.google.com**

## 18 Sentyabr – Milli Musiqi Günü, (1995)

***Azərbaycan musiqi sənətinin parlaq inkişaf perspektivləri vardır. Lakin cəsarətli olmaq, yaxşı oxumaq və məhsuldar işləmək lazımdır. Xalqın mənəviyyatını duymaq, onun ümid və arzularının ifadəçisi olmaq, nikbinliyini, əhvali-ruhiyyəsini musiqi vasitəsilə əks etdirmək lazımdır.***



**Ümummilli lider Heydər Əliyev**

Sentyabrın 18-i Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəyovun doğum günüdür. Üzeyir bəyin doğum gününün musiqi tariximizin ən əlamətdar hadisəsi kimi anılması tez bir zamanda ənənə halını almışdır. 1995-ci ildə isə Prezident Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd edilməsi qərara alınmışdır. Həmin gün təkcə musiqisevərlərin deyil, həm də xalqımızın bayramıdır. Çünki elə bir azərbaycanlı tapmaq olmaz ki, onun qəlbində Üzeyir bəyə məhəbbət, onun ölməz sənətinə hörmət hissi olmasın. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur.

Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda H. Z. Tağıyevin teatrında hazırlanan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Ü. Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun" , "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. Ü.Hacıbəyov milli musiqi xəzinəsinə yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan "Koroğlu" operasını, həm də yeni Azərbaycan Respublikasının Dövlət Himnlərinin musiqisinin müəllifidir. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü. Hacıbəyovun anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur. Milli musiqimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.

İnternetdə: www.books.google.com

**19 Sentyabr – Beynəlxalq Piratlar Günü, (1995)**






19 sentyabr qeyri-rəsmi olaraq Beynəlxalq Piratlar Günü və ya Piratları Təqlid Günü (International Talk Like A Pirate Day) kimi qeyd olunur. Bu gün "Piratlar kimi danış" da adlandırılır. Çox şən keçən bu bayram dünyanın 40-dan çox ölkəsində qeyd olunur. Həmin gün insanlar piratların danışıqlarını təqlid edir, onların məşhur sözlərini işlədir, bəzən hətta onlar kimi geyinirlər. Bayramın vətəni Amerikanın Oreqon ştatının Olbani şəhəridir. Belə ki, 1995-ci il iyunun 6-da Con Baur və Mark Sammers adlı iki dost zarafat üçün piratların işlətdikləri ifadələrdən istifadə edərək söhbət ediblər. Bu bayramın konsepsiyası da belə yaranıb. 2002-ci ilə qədər bu bayram haqqında məlumat geniş yayılmamışdı. Lakin Deyv Berri adlı jurnalistin məqaləsindən sonra bu haqda məlumat yayılır və bayramın çoxlu pərəstişkarları yaranır. Bu qeyri-adi günü qeyd etmək ənənəsi tədricən Avstraliya, Kanada və İngiltərəyə, daha sonra başqa ölkələrə də yayılıb.

İnternetdə: www.books.google.com

## 20 Sentyabr – Neftçilər Günü, (1994)




Azərbaycan Prezidentinin 16 avqust 2001-ci il tarixli fərmanı ilə 20 sentyabr hər il ölkəmizdə Neftçilərin peşə bayramı günü kimi qeyd edilir.

Qeyd olunan tarix Azərbaycanda 1999-cu və 2004-cü ildə, yəni "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci və onuncu ildönümü rəsmi səviyyədə bayram kimi qeyd edilib. Neftçilər Günündə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

20 sentyabr 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakıda, "Respublika" sarayında "Əsrin müqaviləsi"nin imzalanmasının birinci ildönümü münasibətilə neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilib. Hər il 20 sentyabrda Azərbaycan Prezidentinin neft-qaz sənayesi kollektivləri ilə görüşləri mütəmadi xarakter alır.

İnternetdə: www.books.google.com

**20 Sentyabr – Ümumdünya Düyü Günü, (2004)**



20 Sentyabr – Ümumdünya Düyü Günü BMT-nın Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı FAO-nun təşəbbüsü ilə yaranmışdır. Əslində bu əlamətdar gün 1950-ci ildə düşünülsə də, bayram 2004-cü ildə BMT-nın Baş Assambleyası tərəfindən təsis olunmuşdur. Düyü bir çox ölkələrdə populyar olsa da, Şərqi və Cənub-Şərqi Asiya ölkələridə əsas qida hesab olunur və əkilib becərilir.

Arxeoloji qazıntıların nəticələrinə görə, düyü 7000 il əvvəl Çində məlum idi. O daha sonra Hindistana, Koreyaya, Yaponiyaya və s. ölkələrə yayılmışdır. Düyü Orta Asiyada e.ə. təxminən 500-cü ildə məlum olmuş, oradan isə Cənubi Qafqaza gəlib çıxmışdır. Bu gün düyü dadmayan insan təsəvvür etmək çətindir. Demək olar ki, bütün xalqlar düyüdən yeməklər hazırlayırar. Yalnız Uzaq Şimalda yaşayan xalqlar istisna təşkil edirlər.

İnternetdə: www.books.google.com

## 20-21 Sentyabr – Beynəlxalq Yarasalar Gecəsi



Yarasa obrazı insanların çoxunda hələ də qorxu yaradır. Bu kiçik gecə heyvanlarının vampir olması haqqında əfsanələr, filmlər insanların onları müxtəlif yollarla məhv etməsinə, nəticədə yarasaların saylarının azalmasına gətirib çıxarmışdır. Bu da, öz növbəsində, təbiətdə tarazlığın pozulmasına səbəb olur. İnsanlara zərər vuran gecə həşəratlarını məhv edən və bir çox bitkilərin tozlanmasında iştirak edən yarasalara xüsusi bir gecə həsr olunmuşdur.

Dünyada hər il sentyabrın 20-dən 21-ə keçən gecə Beynəlxalq Yarasa Gecəsi qeyd olunur. Bu tarix təsadüfən seçilməmişdir. Məhz həmin vaxt uçan siçanların qış məskənlərinə miqrasiyası başlayır. Bayramın məqsədi onların insanlara zərərliliyi haqqında mifləri dağıtmaq, qorunmağa ehtiyaclarının olduğuna diqqəti cəlb etməkdir.

İnternetdə: calend.ru/holidays

## 21 Sentyabr – Beynəlxalq Sülh Günü, (1981)



***Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur yer üzünü.***
**Hüseyn Cavid**

BMT bu günü 1981-ci ildə təsis edib. İlk Sülh Günü də 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-2002-ci ildə BMT Sülh Günü üçün 21 sentyabr gününü müəyyənləşdirib və bu tarixi Ümumdünya Atəşkəs Günü elan edib. Sülh bizim missiyamızdır, gündəlik axtarışlarımızın mövzusudur. Sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, ən sülhsevər xalqlardan biri olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz vətənlərində didərginə dönüblər, uzun illər ərzində qurduqları ev-eşiklərindən, topladıqları sərvətlərindən məhrum olublar. Bu illərdə Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdandan sonra hər şeydən əvvəl, böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını alıb, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzaladıb, müharibəni dayandırmaqla, ölkədə sabitliyə nail olub. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi. Ermənistan isə hələ də BMT Təhlükəsizlik Şurasının münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrin heç birinə əməl etmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır. Bu gün qüdrətli və güclü orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev də xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusu tarix boyu bəşəriyyəti düşündürüb.

İnternetdə: www.books.google.com

**22 Sentyabr – Filləri Ümumdünya Müdafiə Günü**



22 sentyabr bir çox ölkələrdə ekoloji bayramlardan biri olan Ümumdünya Filləri Müdafiə Günü (World Day of Elephants) kimi qeyd olunur. Bu bayram, planetimizdəki quruda yaşayan məməlilərin ən böyüyü olan fillərin sayının azalmasından narahat olan təbiəti mühafizə təşkilatları, ekoloqların təşəbbüsü ilə yaranmışdır. Fillər qədim xortumluların yeganə nümayəndəsi kimi günümüzədək gəlib çıxmışlar. Hal-hazırda onlar təbiətdə Cənub-Şərqi Asiyanın və Afrikanın tropik meşələrində və savannalarında yaşayırlar.

Qədim zamanlardan fillərə dünyanın bir çox xalqları tərəfindən sitayiş olunub, onlar hakimiyyət və hökmdarların əzəmətinin, xeyirxahlıq və sakitliyin, müdrikliyin simvolu olmuşlar. Hindistan, Tailand və s. kimi Asiya ölkələrində fillər bayramlarda mütləq yer alırlar. Lakin fillərin ən böyük düşmənləri də məhz insanlardır. Bu heyvanların sayının azalmasının əsas səbəbi dişlərinə və ətinə görə ovlanması, onların yaşayış sahələrinin daralması, meşələrin qırılması və ümumiyyətlə ekologiyanın pisləşməsidir. Bu gün Afrika filləri yoxolma təhlükəsi qarşısındadır. Hal-hazırda fillərin iki növü – Hind və Afrika filləri mühafizə olunur. Hind fillərinin hündürlüyü 2,5 metr, çəkiləri 3-5 ton, Afrika fillərinin hündürlüyü 4 metrədək, çəkiləri isə 5-7 tondur. 1989-cu ildə BMT öz qərarı ilə fil dişinin ticarətini tam qadağan etmişdir. Bu günün qeyd olunmasının da məqsədi məhz fillərin qorunmasına diqqəti cəlb etməkdir. Bayram rəsmi statusa malik olmasa da, ekoloji, təbiəti mühafizə təşkilatları, könüllülər tərfindən geniş qeyd olunur, maarifləndirici tədbirlər həyata keçirilir.

Fillər bədii əsərlərin də qəhrəmanı olurlar. Qriqori Osterin kitabındakı fil balası, Mauqli haqqında kitablardakı müdrik Xatxa və dünyada çox məşhur olan, ingilis yazıçısı və rəssamı Devid Makkinin yaratdığı Elmer adlı rəngbərəng, dama-dama fil buna misal ola bilər.

İnternetdə: www.books.google.com

## 23 Sentyabr – Saqqız Günü, (1848)



1848-ci il sentyabrın 23-ü saqqızın yaranma günü hesab olunur. Belə ki, məhz həmin gün amerikalı Con Kurtis öz evində ilk saqqızı istehsal etmişdir. Saqqız yeməli olmayan elastik əsasdan, müxtəlif dad və aromatverici əlavələrdən ibarət konfet növüdür.

İlk saqqızın tarixi e.ə VII-II əsrlər hesab olunur. O, Şimali Avropada qazıntılar zamanı tapılmışdır və üzərində insan dişinin izləri olan qatrandan ibarətdir. Qədim yunanlar saqqız ağacının qatranını çeynəyirdilər. Mayya hinduları isə dişlərini və nəfəslərini təmizləmək üçün sapodilla ağacının donmuş şirəsindən istifadə edirdilər.

1848-ci ildə Con Kurtis şam ağacının qatranından sənaye üsulu ilə saqqız istehsal etmək fikrinə düşür. Sonradan o, öz məmulatına parafin aromatizatorları əlavə edir. Onların istehsalı getdikcə genişlənir, lakin qatranı qatışıqlardan təmizləmək çətin olduğu üçün saqqız satışı aşağı idi.

1869-cu ildə saqqızın yeni həyatı başlayır. Artıq onu qatran deyil, kauçuk əsasda hazırlayırlar. Bu cür saqqızı Tomas Adams icad etmişdir. Yeni saqqız insanların xoşuna gəlir və artıq 1871-ci ildə Adams onun avtomatik istehsalı üçün maşın da icad edir və patentləşdirir. Daha sonra o, saqqızın dadını yaxşılaşdırmaq üçün ona biyan ekstraktı da əlavə edir.

Bu gün saqqızdan əsasən nəfəsi təravətləndirmək, yeməkdən sonra dişlərin təmizliyi üçün geniş istifadə olunur. Lakin saqqızın insan orqanizminə hər hansı faydası haqqında ümumi bir fikir yoxdur.

İnternetdə: www.books.google.com

## 24 Sentyabr – Beynəlxalq Lal-Kar Günü, (1951)



Bu gün 1951-ci ildə Beynəlxalq Lal-karlar Federasiyasının yaranması şərəfinə təsis olunub. Statistikaya əsasən, dünyada hər doqquz nəfərdən biri eşitmə qabiliyyətindən məhrumdur. Onlar bu qabiliyyəti travma, xəstəlik və ya anadangəlmə itirirlər. Yer kürəsində 2500 dil var. Lakin bir dil – jestlər dili də mövcuddur. Karlar Federasiyası ötən əsrin əllinci illərində karların beynəlxalq tədbirlərinə xidmət etmək üçün jestlər sistemini də yaradıb. Qeyd edək ki, eşitmə və görmə qabiliyyətini itirmiş insanların içərisində də çox tanınmış, görkəmli şəxslər olub.

İnternetdə: www.books.google.com

## 27 Sentyabr – Beynəlxalq Dovşanlar Günü



Beynəlxalq Dovşanlar Günü xeyriyyə təşkilatları tərəfindən ictimaiyyətin diqqətini bu heyvanların problemlərinə cəlb etmək məqsədi ilə yaradılmışdır. Heyvanları müdafiə edənlər, dovşan xəzindən kürklərin hazırlanması və dovşan ətindən restoranlarda istifadə olunmasının ən azı azaldılmasına səy göstərirlər. Beynəlxalq Dovşanlar Günündə həm evdə, həm də təbiətdə yaşayan dovşanlara qarşı daha humanist davranılmasına, onların rahat və sağlam yaşamasına yardım edilməsinə çağırılır. Həmin günün sentyabrın sonuncu şənbəsi keçirilməsi tövsiyə olunur.

İnternetdə: www.books.google.com

## 27 Sentyabr – Ümumdünya Turizm Günü, (1980)

***Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur. Çünki Azərbaycan xalqı yüksək mədəniyyətə malikdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək.***

**Ümummilli lider Heydər Əliyev**



Beynəlxalq turizm hər bir ölkə üçün sosial-iqtisadi münasibətləri əks etdirir. Bununla da beynəlxalq münasibətlərin tərkib hissəsi kimi fəaliyyət göstərir. Bu prosesin tənzimlənməsi üçün də müəyyən norma və standart nizamlar işləyib hazırlayan beynəlxalq institutlar fəaliyyət göstərir. Bunlardan Ümumdünya Turizm Təşkilatı ən üzdə olan təşkilatlardan biridir. 1979-cu ildə Baş Qərargahı Madrid şəhərində yerləşən Təşkilat 27 sentyabr – Ümumdünya Turizm Gününü təsis edib. Qeyd edək ki, dünyada ilk turizm agentliyi 1841-ci ildə Tomas Kuk tərəfindən açılmışdır. Ümumdünya Turizm Günü 1980-ci ildən bəri BMT-nin Beynəlxalq Turizm Təşkilatı (BMBTT) tərəfindən hər il 27 sentyabr tarixində qeyd olunur. Bu günün məqsədi beynəlxalq aləmdə turizm haqqında məlumatlanmanı artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Ölkəmizdə Ümumdünya Turizm Günü 2001-ci ildən, Azərbaycanın Beynəlxalq Turizm Təşkilatına üzv olduğu vaxtdan qeyd olunur. Dünya ölkələrində qeyd olunduğu kimi, hər il Azərbaycanda da 27 sentyabr - Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün Ümumrespublika Daxili Turizm Konfransları da keçirilir. Azərbaycanda ilk dəfə olaraq 2003-cü ildə 26 sentyabr tarixində 1-ci Turizm Filmləri Festivalı keçirilmişdir. 2005-ci ildən başlayaraq məşhur xarici televiziya kanallarında respublikanın turizm potensialını əks etdirən reklam çarxları yayımlanır. 2002-ci ildən başlayaraq Bakıda hər il Beynəlxalq Turizm və Ümumrespublika Daxili Turizm Sərgiləri keçirilir. Son illər ölkəmizdə turizm sektoru sürətlə inkişaf edir. Qeyd edək ki, Azərbaycanın zəngin təbiətə malik olması ölkəmizdə bu sahənin inkişafı üçün əlverişli imkanlar yaradıb.

İnternetdə: www.books.google.com

## 29 Sentyabr – Ümumdünya Dəniz Günü, (1978)



***Mən çoxdan vurğunam sənə***
***Böyük arzum budur yenə:***
***dönüb bir göy göyərçinə***
***sahilinə qonam, dəniz.***

**Rəsul Rza**

Hökumətlərarası Dəniz Təşkilatı Assambleyasının 1977-ci ilin noyabrında keçirilmiş 10-cu sessiyasında qərara alınmış Ümumdünya Dəniz Günü 1978-ci ildən qeyd olunur. 1980-ci ilə kimi bu gün 17 martda qeyd olunurdu. Hazırki dövrdə isə bu gün sentyabrın axırıncı həftəsi qeyd olunur. Bütün dünyada bu bayramın keçirilməsinin məqsədi ictimaiyyətin, hökumət və özəl strukturların diqqətini dənizlərin və onların bioresurslarının qorunmasına cəlb etməkdir. Ənənəvi olaraq Dəniz Günü dənizlərin və okeanların insanlar üçün əhəmiyyətindən, sualtı dünyanın sərvətlərindən, həmçinin hər bir Yer planeti sakininin onun qorunması üçün nə edə biləcəyindən bəhs edən müsabiqə, festival formasında keçirilir. Adətən ictimai təşkilatlar bu bayramı dənizlərin qorunması, çimərliklərin təmizlənməsi üçün mitinqlərin və yürüşlərin keçirilməsi ilə qeyd edirlər.

Ümumdünya Dəniz Gününün tarixi hər dövlət üçün həmin ölkənin Beynəlxalq Dəniz Təşkilatının üzvləri tərəfindən təyin olunur. Azərbaycanda bu tarix 29 sentyabra təsadüf edir.

İnternetdə: www.books.google.com

**29 Sentyabr – Dünya Ürək Günü, (2000)**



Dünya Ürək Federasiyası dünyanın 100-dən çox ölkəsində ürək cəmiyyətləri və ürək fondlarının birgə səyi sayəsində 200 üzv təşkilatın birləşmiş icması vasitəsi ilə bütün dünyada ürək xəstəliklərinə qarşı mübarizə aparır. Dünya Ürək Federasiyasının təşəbbüsü və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və BMT-nin Uşaq Fondunun (UNİCEF) dəstəyi ilə hər il 29 sentyabr "Dünya Ürək Günü" kimi qeyd olunur. Bu gün ilk dəfə 2000-ci ildə keçirilib. 2011-ci ilə kimi "Dünya Ürək Günü" sentyabrın sonuncu bazar günü qeyd edilsə də, sonradan bu günün hər il sentyabrın 29-da keçirilməsi qərarına gəlinib. "Dünya Ürək Günü"nün keçirilməsində məqsəd əhalini ürək-damar xəstəliklərinin təhlükəliliyi barədə məlumatlandırmaq, bu xəstəliklərin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin uğurla aparılmasına nail olmaqdır. Dünya Ürək Federasiyası "Dünya Ürək Günü"nü hər il fərqli şüarla qeyd edir. "Həyat üçün ürək" "Dünya Ürək Günü"nün bu ilki şüarıdır. Hər il milyonlarla insan ürək-damar xəstəliklərindən dünyasını dəyişir. Vaxtından tez baş verən ölüm hallarının qarşısı tütün və spirtli içkilərdən imtina etmək, arterial təzyiqin və qanda şəkərin miqdarını normal saxlamaq, ürək-damar sisteminin fəaliyyətini möhkəmləndirən, arterial təzyiqi normallaşdıran və s. qoruyucu dərman preparatlarından istifadə etmək, düzgün qidalanmaq, çəkiyə diqqət etmək və fiziki aktiv olmaqla alına bilər. Belə vəziyyətdə Dünya Ürək Federasiyası dövlət qurumlarını, peşəkar tibb işçilərini, sahibkarları və digər fərdi şəxsləri bu yükün azaldılmasına çağırır. "Dünya Ürək Günü"nü keçirməklə, Dünya Ürək Federasiyası və digər ölkələrin partnyor təşkilatları insanlara ürək-damar xəstəliklərinin profilaktikası ilə məşğul olmağın nə qədər vacib olduğu fikrini aşılayır. Dünya Ürək Federasiyası üzv və partnyor təşkilatlarla birgə bu gün üçün xüsusi tədbirlər planı hazırlayır və bu plana uyğun olaraq, insanları ürək xəstəliklərindən qorunmaq üçün diqqətli olmağa çağırır. Sağlam həyat tərzinin təbliği ilə məşğul olan təşkilatlar tərəfindən "Dünya Ürək Günü"ndə müxtəlif idman yarışları, konsertlər və xeyriyyə tədbirləri həyata keçirilir, əhalinin kütləvi sağlamlıq müayinəsi aparılır, elmi forumlar, sərgilər, festivallar təşkil edilir, filmlər göstərilir, maarifləndirici bukletlər paylanılır. "Dünya Ürək Günü" ölkəmizdə də geniş şəkildə qeyd olunur. Dünya Ürək Günü ilə bağlı Bakıda və ölkənin ayrı-ayrı regionlarında bu qəbildən silsilə tədbirlər, beynəlxalq konfranslar və aksiyalar keçirilir.

İnternetdə: www.books.google.com

**30 Sentyabr – Beynəlxalq Tərcüməçilər Günü, (1991)**



Hər il sentyabrın 30-da şifahi və yazılı tərcümə ilə məşğul olanların peşə bayramı – Beynəlxalq Tərcüməçilər Günü (International Translation Day) qeyd olunur. Böyük rus şairi A.S.Puşkin tərcüməçiləri "tərəqqinin poçt atları" adlandırırdı. Babil qülləsinin dağılmasından bəri bütün bəşəriyyətin həyatında tərcüməçilərin rolu hiss olunmasa belə, çox böyük və əhəmiyyətlidir. Axı tərcüməçilər olmasaydı, ədəbiyyatın və kino sənətinin bütün əsərləri, elm və texnikanın nailiyyətləri əlçatmaz olardı, dünyanın müxtəlif ölkələrindən olan insanlar öz aralarında ünsiyyət qura bilməzdilər.

1991-ci ildə tərcüməçilərin də peşə bayramı yaranmışdır. Beynəlxalq Tərcüməçilər Federasiyası (FİT) 30 sentyabrı Beynəlxalq Tərcüməçilər Günü elan etmişdir. FİT 1953-cü ildə Parisdə yaradılmışdır və dünyanın 60-dan çox ölkəsindən 100-dən artıq tərcüməçilər assosiasiyasını birləşdirir. Təşkilatın yaradılmasında məqsəd tərcüməçilər arasında təcrübələrin bölüşülməsi və əlaqələrin möhkəmləndirilməsidir. Bayramın tarixi təsadüfən seçilməmişdir. 420-ci il sentyabrın 30-da Bibliyanı latın dilinə tərcümə edən tərcüməçi, tarixçi, yazıçı Müqəddəs İeronim Stridonski vəfat etmişdir.

Beynəlxalq Tərcüməçilər Günü münasibətilə hər il keçirilən konqreslər, konfranslar, seminarlar, "dəyirmi masa"lar və s. müəyyən bir mövzuya həsr olunur.

İnternetdə: www.books.google.com

## Yubilyar yazıçı və şairlər

## 1 Sentyabr – Şair, tərcüməçi Fəxrəddin Əliizinin 85 illiyi, (1934-2002)



Əliyev Fəxrəddin Hüseyn oğlu 1934-cü il sentyabrın 1-də Azərbaycanın Şəmkir rayonunun Təzəkənd kəndində fəhlə ailəsində anadan olmuşdur. Əmək fəaliyyətinə Şəmkir rayon sığorta idarəsində sahə müvəkkili kimi başlamışdır. Türkmənistan Politexnik İnstitutunun qiyabi şöbəsində təhsilini davam etdirməklə yanaşı, Aşqabadda "Baş Qaraqum" tikinti idarəsində baş mütəxəssis işləmişdir. Sonra orada Dövlət Tikinti Komitəsi İnşaat Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur (1973). Azərbaycan Su Təsərrüfatı və Meliorasiya Nazirliyi Elmi-Tədqiqat Axtarış-Layihə bürosunda şöbə müdiri (1977-1978), SSRİ Ədəbiyyat fondu Azərbaycan şöbəsinin direktoru (1978-1982), Türkmənistan Mərkəzi Tikinti idarəsinin sahə rəisi (1986-1988), Bakıda Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədr müavini (1989-1990) işləmişdir. "Əliizi" Yaradıcılıq – İstehsalat Mərkəzini yaratmış, onun direktoru (1990), Azərbaycan-Türkmənistan əlaqələr cəmiyyətinin prezidenti və idarə heyətinin sədri seçilmişdir (1994-cü ildən). Ədəbi fəaliyyətə 1955-ci ildən başlamışdır. Yaradıcılığında türkmən ədəbiyyatından etdiyi tərcümələr başlıca yer tutur. Türkmən dilində şeir kitabları da çıxmışdır. Onun "Səməd Vurğun və Qara Seyitliyev", "Yaqub Nəsirli və Azərbaycan", "Dostluq poeziyası" elmi məqalələri Azərbaycan – türkmən ədəbi əlaqələrinin öyrənilməsinə kömək edir. Şeirlərinə mahnılar bəstələnmişdir. Məmməd Araz ali ədəbi mükafatın laureatıdır (1993). Fəxrəddin Əliizi 2002 ci il iyunun 10-da Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Məni görmək istəsən" (1980), "Saflıq" (1982), "Nağıllardan uzaqlarda" (1984), "Bulaq var küçələrdə" (1992), "Dalğalanır altı bayraq" (1996).

**Tərcümələri:** (türkmən və özbək dilindən)

Aşır Nəzərov. "Murqab ulduzu", Qurbandurdu Qurbansəhətov. "Ağılsız şah" (1980), "Klassik türkmən şeirləri" (1983), Qılıc Quliyev. "Əmirin elçisi" (1988), "Türkmən xalq nağılları" (1989), "Türkmən nəğmələri" (19890), "Dost əlini uzatsa" (1990) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.313.

**2 Sentyabr – Yazıçı Rza Şahvələdin 110 illiyi, (1909-1984)**



Rza Nəbi oğlu Şahvələd 1909-cu ildə Tiflisdə anadan olub. Bakıda iki illik seminariyanı bitirdikdən sonra 1929-1935-ci ilədək məktəb müdiri, 1935-1937-ci ilədək Qarayazı və Adıgün rayonlarında maarif şöbə müdiri vəzifəsində çalışıb, sonra "Sovet Gürcüstanı" qəzetində şöbə müdiri, 1941-1944-cü ilə qədər Gürcüstan Yazıçılar İttifaqı Azərbaycan bölməsinin sədri vəzifəsində işləyib. Rza Şahvələd müxtəlif vəzifələrdə çalışmaqla bərabər, ali təhsil almağı da unutmayıb. 1944-cü ildən Bakıya köçən R. Şahvələd əvvəlcə "Kommunist" qəzetində şöbə müdiri, sonra "Elm və Həyat" jurnalının baş redaktoru (1959-1965) işləyib. Rza Şahvələd hekayələri və pyesləri ilə də oxuculara yaxşı tanışdır. Onun "Başmaq" (1939), "Hekayələr" (1950), "Könüldə bahar" (1962), "Qonşu qardaşlar" (1984) nəsr topluları, o vaxtlar Tiflis Azərbaycan Dövlət Dram Teatrının səhnəsində oynanılan tamaşaları maraqla qarşılanıb. Rza Şahvələd tərcümə sahəsi ilə də ciddi məşğul olub. Onun ən çox tərcümə etdiyi Akaki Seretelinin əsərlərindən nümunələr olub. Rza Şahvələd 1984-cü ildə Bakıda vəfat edib.

**Əsərləri:** "Ana dili" (1933), "Başmaq", "Yeni kəndin adamları" (1955), "Hekayələr", "Könüldə bahar" (1962), "Solmaz" (1962), "Qonşu qardaşlar" (1984) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.750.

## 3 Sentyabr – Yazıçı Əli Əsgərovun 105 illiyi, (1914-1954)



Əsgərov Əli Cənnət oğlu 1914-cü il sentyabrın 3-də Bakı yaxınlığında Bülbülə kəndində yoxsul ailədə doğulmuşdur. Əmirhacıyan kənd orta məktəbini bitirib (1933) kinomexanik (1934-1937), Azərbaycan Dövlət Kukla Teatrında bədii şöbənin müdiri (1937-1939), radio komitəsində uşaq ədəbiyyatı verlişləri şöbəsində ədəbi işçi (1939-1943) vəzifələrində işləmişdir. 1943-cü ildə hərbi hazırlıq keçmişdir. "Kommunist" qəzetində ədəbi işçi, sonra respublika xalq yaradıcılığı evində folklor şöbəsinin müdiri (1944-1945), radio komitəsində bədii şöbənin ədəbi işçisi (1945-1949), sonra "Ədəbiyyat qəzeti"ndə işçi olmuşdur. Ədəbi yaradıcılığa 40-cı illərdən başlamışdır. İlk hekayəsi "Tay başmaq" 1945-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur. Dövri mətbuatda oçerk və hekayələri müntəzəm çıxmışdır. "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif edilmişdir. Əli Əsgərov 1954-cü il noyabrın 6-da vəfat etmişdir.

**Əsərləri:** "Döyüşən ada" (1952), "Dostlar" (1955), "Əsərləri" (1960), "Pozulmaz naxışlar" (1968) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.248.

**5 Sentyabr – Şair, dramaturq Hidayətin 75 illiyi, (1944)**




Hidayət Orucov 5 sentyabr 1944-cü ildə Zəngəzurun Muğru bölgəsinin Maralzəmi kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. Bir müddət kənddə müəllim, "Sovet Ermənistanı" qəzetində ədəbi işçi işləmiş, 1968-ci ilin iyul ayında C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin olunmuş, fasiləsiz olaraq on altı il Azərbaycanın bu qədim sənət ocağına başçılıq etmişdir. Ədəbi mühitdə Hidayət adı ilə tanınan yazıçı, eyni zamanda, Ermənistan Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etmiş, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX-XX əsr Azərbaycan ədəbiyyatından dərs demişdir. 1984-cü ildə Bakıya köçərək "Gənclik" nəşriyyatının baş redaktor müavini (mart 1984 - mart 1986), sonra da baş redaktoru (1986-1992-ci illər) vəzifələrində işləmişdir. Bu illərdə "Gənclik" nəşriyyatında böyüməkdə olan nəsillər üçün dəyərli kitablar, o cümlədən Azərbaycan klassik ədəbi irsi, flokloru, tarixi keçmişi sistemli şəkildə nəşr edilib yayılmışdır. "Gənclik" nəşriyyatında onun baş redaktor olduğu müddətdə 50 cildlik "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası"nın nəşri Azərbaycanın kitab mədəniyyəti tarixində mühüm bir hadisədir. Hidayətin təşəbbüsü və rəhbərliyi ilə 15 cildlik "Azərbaycan folkloru", 25 cildlik "Macəra və fantastika", 17 cildlik "SSRİ Xalqları Ədəbiyyatı" kitabxanalarının, bir sıra mühüm seriyaların nəşrinə də həmin illərdə başlanmışdır. Onun "Heydər Əliyev və Azərbaycanda milli siyasət" monoqrafiyası rus, ingilis, gürcü dillərində də nəşr olunmuşdur. Pyesləri hal-hazırda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında və başqa teatrlarda uğurla oynanılır. 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri olmuş, 1993-2005-ci illərdə Azərbaycan Respublikası milli siyasət məsələləri üzrə Dövlət Müşaviri işləmişdir. 2005-2006-cı illərdə Azərbaycan Respublikası Milli azlıqlarla və Dini Qurumlarla İş üzrə Dövlət müşaviri işləmişdir. 25 iyul 2006-cı ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. Ona 27 dekabr 2012-ci ildə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilmişdir. Elə həmin gün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

**Əsərləri:** “Məni səsləyəndə” (1970), “Məhəbbət qocalmır” (1977), “Bir az gözləyin məni” (1977), “Dənizi harayladım” (1978), “Eviniz analı olsun” (1981), “Zirvə cığırı” (1982), “Hərdən xatırla məni” (1998), “Sözün vaxtı” (1999) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.377.

**7 Sentyabr – Şair, tərcüməçi Mənsur Vəkilovun 80 illiyi, (1939)**



Vəkilov Mənsur Fəxri oğlu 1939-cu ildə Bakıda ziyalı ailəsində ailəsində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Литературный Азербайджан" jurnalında çalışmış, ədəbi işçidən baş redaktora kimi böyük bir yol keçmişdir. Azərbaycan ədəbiyyatının rus dilində təbliği kimi mühüm işin başında duranlardan biri, Azərbaycan yazıçılar birliyinin katibi olmuşdur. Onun qələmindən çıxan nəzm nümunələri Ukrayna, gürcü, latış və digər xalqların dillərinə tərcümə olunmuşdur. Onun şeirlərini rus dilindən doğma dilimizə S.Məmmədzadə, N.Həsənzadə, F.Qoca, Ə.Muxtar, Ç.Əlioğlu tərcümə etmişlər. Mənsur Vəkilov böyük tərcüməçilik fəaliyyətilə məşğul olmuş Səməd Vurğun, Hüseyn Arif, Vaqif Səmədoğlu, Əbülhəsən, Bəxtiyar Vahabzadə, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədov, Vaqif Musa, Çingiz Əlioğlunun bir sıra şeir və əsərlərini rus dilində səsləndirmişdi. Mənsur Vəkilov öz vətənində geniş oxucu kütləsi üçün müəyyən dərəcədə yad dildə – rusca yazıb, yaratsa da, öz dədə-baba yurdunun mənəvi örnəklərinə qırılmaz tellərlə bağlı, varislik duyğusunun çox güclü olduğu bir sənətkardır. Onun yaradıcılığı barədə ədəbi tənqidin fikri belədir : O, sözün, sənətin qədrini bilən, şairlik adını uca tutan bir şəxsdir. Yazdıqları hay-küydən uzaq, təmkinli, həyalı poetik nümunədir. Mənsur Vəkilov 2009-cu ildə Bakıda vəfat etmişdir. "Şərəf nişanı" ordeni və "Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

**Əsərləri:** “Stixi” (1965), “Plesk vesla” (1970), “Poslednee priznanie” (1977), “Payız uçuşu” (1983), “Vstreçniy vistrel” (1980), “Lirika” (2001) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.582.

**7 Sentyabr – Teatrşünas, tənqidçi Cəfər Cəfərovun 105 illiyi, (1914-1973)**



Cəfər Cəfərov 1914-cü il sentyabrın 7-də Bakıda doğulub. İlk təhsilini də burada alıb. 1937-ci ildə Moskvada A.Bubnov adına Pedaqoji İnstitutu bitirib. Bakıya qayıdaraq Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri (1937-1938), Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin müdiri (1938-1939), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1939), Mədəniyyət nazirinin müavini işləyib. Hökumətdə müxtəlif məsul vəzifələr tutub. 1959-cu ildən ömrünün sonunadək Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu Teatr və kino şöbəsinin müdiri olub. Burada bir sıra teatrşünas alimlərin yetişdirilməsinə, kino və teatr sənətinə aid tədqiqatlar aparılmasına rəhbərlik edib. Cəfər Cəfərov tənqidi fəaliyyətə 1930-cu ildən başlayıb. O, Hüseyn Ərəblinskinin, İsmayıl Hidayətzadənin, Həqiqət Rzayevanın, Mehdi Məmmədovun, Tofiq Kazımovun, Abbasmirzə Şərifzadənin, Rza Təhmasibin yaradıcılıqları barədə elmi məqalələr, monoqrafiyalar yazıb. Akademik Milli Dram Teatrının tarixini fundamental şəkildə araşdırıb və həmin mövzuda bir neçə kitab çap elətdirib. Azərbaycan və bir sıra rus teatrlarının ən maraqlı tamaşalarına resenziyalar yazıb. Cəfər Cəfərov "Rejissor sənəti", iki cilddə Azərbaycan və iki cildə rus dillərində "Seçilmiş əsərləri", "Azərbaycan Dram Teatrı" kitablarını, "Cavid və teatr", "Mirzə Fətəli Axundzadənin dramaturgiyası", "Mirzə Fətəli Axundzadə və teatr", "Vilyam Şekspirin dramaturgiyası" elmi əsərlərini yazıb. Cəfər Cəfərov 1973-cü il sentyabrın 19-u Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

**Əsərləri:** "Cəbhə qeydləri" (1943), "Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının 75 illiyi" (1949), "M. F. Axundovun dramaturgiyası" (1953), "Azərbaycan dram teatrı" (1959), "Vilyam Şekspir" (1964), "Azərbaycanda estetik fikir tarixindən" (1964), "Əsərləri (iki cilddə, 1968), "Azərbaycan teatrı" (1873-1973), "N.N. Dobrolyubov" (1954), "Həqiqət Rzayeva" (1957), "Xalq artisti İsmayıl Hidayətzadə" (1956), "Abbas Mirzə Şərifzadə" (1963) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.153.

**8 Sentyabr – Teatrşünas, tənqidçi İlham Rəhimlinin 70 illiyi, (1949)**



İlham Rəhimli 1949-cu il sentyabrın 8-də Yevlax rayonunun Malbinəsi kəndində doğulub. Yevlaxdakı 1 saylı orta məktəbin on birinci sinifini 1966-cı ildə bitirib. 1967-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinə daxil olub. Bu ali məktəbi fərqlənmə diplomu ilə bitirib (1972). Hərbi xidmətdən sonra (may 1973 - may 1974) yenə redaksiyaya qayıdıb. Müxtəlif illərdə ədəbi işçi, baş müxbir, felyeton və publisistika, mədəniyyət şöbələrinin müdiri işləyib. "Azərbaycan" qəzetinin baş redaktoru, prezident aparatının humanitar siyasət şöbəsinin məsul işçisi işləyib (1991 - 1993). Həmçinin 1993-cü ildən 2003-cü ilə kimi Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri olub. Teatra aid ilk yazısı dövri mətbuatda 1969-cu ildə "Azərbaycan gəncləri" qəzetində çap olunan İlham Rəhimli səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor peşəsinə, mədəniyyətin müxtəlif problemlərinə aid minə yaxın məqalənin müəllifidir. İlham Rəhimli 1975-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr tarixi kafedrasında dərs deyir. 2007-ci ilin aprel ayından Azərbaycan Televiziya və Radio Qapalı Səhmdar Cəmiyyətinin "Maarifçilik" redaksiyasında baş redaktor vəzifəsində çalışıb. 2011-ci il aprel ayının 14-dən Mədəniyyət kanalının direktor müavinidir. Azərbaycan Televiziyasında "Ekran. Kino. Yeniliklər", "Teatr", "Yeni tamaşalar", "Aktyorlar və rollar", "Sərbəst söhbət" verilişlərinin müəllif-aparıcısıdır. Azərbaycan Jurnalistlər İttifaqının, Rəssamlar İttifaqının, Azərbaycan Teatr Xadimləri İttifaqının, Yazıçılar Birliylnin üzvüdür. Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" (5 may, 1977), Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" (10 mart 1992), "Humay" mükafatlarıı laureatıdır. 1989-cu il sentyabrın 1-də ona Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı verilib. Sənətşünaslıq doktoru və professorudur.

**Əsərləri:** “Sənət vurğunu”(SSRİ xalq artisti İsmayıl Dağıstanlı” (1978), “Ağasadıq Gəraybəyli” (1979), “Səhnə. Ekran. Müasirlik” (1980), “Dramaturgiya və teatr” (1984), “Habil Kaman” (1987), “Sənət yolu, sənətkar ömrü” (1988), “Səyavuş Aslan” (1989), “Hafiz Zeynalov” (1989), “Səttar dünyası” (1990), “Segah yanğısı” (1991), “Sənətdə keçən ömürlər” (1992), “Füzuli meydanında sənət məbədi” (1996), “Aktyor taleyinin dolayları” (1998), “Aktyora oxşamayan adam” (2000), “Xalq oyun tamaşaları” (2002), “Azərbaycan milli teatrının poetikası” (2002), “Səhnəmizin fədailəri” (2002), “Azərbaycan Dövlət Kukla Teatrı” (2002), “Aşqabad Dövlət Azərbaycan Teatrı” (2003), “Üç əsrin yüz otuz ili” (2003).

**Filmoqrafiya:**"Səhnə üçün doğulmuşlar", "Sənət adamları", "Bir ünvan, milyon mənzil" və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/İlham_Rəhimli

**14 Sentyabr – Yazıçı, dramaturq Aslan Qəhrəmanlının 80 illiyi, (1939)**



Aslan Qəhrəmanlı 1939-cu il sentyabr ayının 14-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1961-ci ildə Elmlər Akademiyasının Hesablama Mərkəzində başlamış, həmin mərkəzin bazası əsasında kibernetika institutu yaradılandan sonra orada müxtəlif vəzifələrdə elmi tədqiqatla məşğul olmuşdur. 1975-1977-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Tətbiqi riyaziyyat kafedrasında baş müəllim işləmişdir. Bir müddət Rostov Dəmiryol Mühəndisləri İnstitutunun Bakı filialında baş müəllim işlədikdən sonra yenidən indiki Azərbaycan Dövlət Neft Akademiyasına dəyişilmişdir. 1980-ci ildən 2007-ci ilə qədər həmin Akademiyada əvvəlcə baş müəllim, sonra dosent vəzifəsində işləmişdir. 2007-ci ilin sentyabrından Azərbaycan Universitetinə keçmiş, bu universitetin Riyaziyyat və informatika kafedrasının dosenti, 2011-ci ilin fevralından 2012-ci ilin iyununa qədər rektoru olmuşdur. Aslan Qəhrəmanlı bir sıra elmi əsərlərin müəllifi, iqtisadiyyatda modelləşdirməyə dair dərsliyin və vergilərə dair dərsliklərin həmmüəllifidir. 2003-cü ildən nəşrə başlamış "Azərbaycanın Vergi Xəbərləri" jurnalının həmin ildən 2010-cu ilə qədər baş redaktoru olmuşdur. Yazıçı kimi özünü 1967-ci ildə "Gənclik" nəşriyyatında çıxan "Gənc qələmlər" almanaxında dərc olunmuş "Dağların mahnısı" adlı ilk hekayəsi ilə sınamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Spektr", "Döngə", "Burulğan", "Səni axtarıram", "Bağışla" və sair telepyesləri Azərbaycan televiziyasında dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan televiziyasının "Müasirlərimiz" devizi ilə 1986-cı ildə keçirdiyi ən yaxşı televiziya pyesləri müsabiqəsində "Ürək" pyesi 2-ci mükafata layiq görülmüşdür). Azərbaycan televiziyası səhnəsində ilk çoxhissəli tamaşaya çevrilmiş "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" adlı üçhissəli telepyeslərin müəllifidir. Onun radio üçün yazdığı "Daşa dönmüşlər şəhəri", "Şeytan", "Ceyran əfsanəsi", "Tutuquşu" və sair kimi 13 nağıl-pyesi Azərbaycan radiosu ilə səsləndirilmişdir. Aslan Qəhrəmanlı 2010-cu ildə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)" yubiley medalı ilə təltif edilmişdir. Aslan Qəhrəmanlı 19 yanvar 2014-cü ildə vəfat etmişdir. Mərhum anadan olduğu Ağstafa rayonunda dəfn edilmişdir.

**Əsərləri:** “Meteor yağışı” (1971), “Gültən” (1979), “Bir payız axşamı” (1981), “Müsabiqə” (1984), “Qızıl zəncirli açar” (1990), “Səni axtarıram” (1998) Filmoqrafiya: “Səni axtarıram” (film, 1981), “Bağışla” (film, 1983), “Səndən xəbərsiz” (film, 1985).

İnternetdə: https://az.wikipedia.org/wiki/Aslan_Qəhrəmanlı

**20 Sentyabr – Şair Əhəd Muradxanlının 80 illiyi, (1939)**



Əhəd Muradxanlı 1939-cu il sentyabrın 20-də Azərbaycanda Dəvəçi rayonunun Zöhrəmi kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İncəsənət İnstitutunun kino və aktyorluq fakültəsində təhsil almışdır (1956-1960). Əmək fəaliyyətinə Azərbaycan Respublikası Televiziya və Radio Verlişləri Komitəsində rejissor köməkçisi kimi başlamışdır (1960-1965). Bu dövrdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Azərbaycan Dövlət Xarici Dillər İnstitutu nəzdində olan ikiillik ingilis dili kursunu bitirmişdir (1968-1970). Azərbaycan Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətində referent (1965-1977), sonra orada "Sovet Azərbaycanı" məcmuəsinin redaktoru (1977-1987) olmuşdur. Bədii yaradıcılığa erkən başlasa da, ilk şeiri 1953-cü ilin noyabr ayının 6-da "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda şeir, poema və tərcümələri vaxtaşırı çapdan çıxmışdır. Əsərləri Ukrayna və rus dillərində çıxan almanax və jurnallarda işıq üzü görmüşdür.
**Əsərləri:** "Məhək daşı" (1968), "Dəniz nəğməsi" (1972), "Mən işığı düşünürəm" (1976), "Yasəmən çiçəkləri" (1982), "Gül" (1996 ) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.218.

**21 Sentyabr – Ədəbiyyatşünas, tənqidçi, dilçi Nizami Cəfərovun 60 illiyi, (1959)**



Nizami Qulu oğlu Cəfərov 1959-cu 21 sentyabrda Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1987-ci ildən "Ədəbiyyat və incəsənət" qəzetinin şöbə müdiri, 1991-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müəllimi, professoru, Filologiya fakültəsinin dekanı vəzifələrində çalışmışdır. 2000-ci ildən Bakı Dövlət Universitetinin kafedra müdiridir. Nizami Cəfərov Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası “Azərbaycan dili və ədəbiyyatı” bölməsinin üzvü kimi orta ümumtəhsil məktəbləri üçün Azərbaycan dili proqramlarının, dərsliklərinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. 1997-ci ildə isə AAK Dilçilik üzrə ixtisaslaşmış Doktorluq Şurasının üzvü olmuşdur. Elə bu il Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası “Azərbaycan dili və ədəbiyyatı” bölməsinin sədri təyin olunmuşdur. 1998-ci ildə AAK Dilçilik üzrə ixtisaslaşmış Doktorluq Şurasının sədri seçilmişdir. Nizami Cəfərov 1999-cu ildə Filologiya fakültəsində “Dədə Qorqud” elmi-tədqiqat laborotoriyasını yaradaraq onun müdiri təyin olumuşdur. 2003-cü ildə AAK-ın filologiya elmləri üzrə Ekspert Şurasının sədri təyin edilmişdir. 2004-cü ildə Azərbaycan “Bilik” Maarifçilik Cəmiyyətinin qərarı ilə “Yusif Məmmədəliyev adına medal”la təltif edilmişdir. Cəfərov Nizami Qulu oğlu elmi nəticələrinə və təhsil quruculuğuna görə 11 fevral 2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Yeni Azərbaycan Partiyasının üzvüdür. Azərbaycan Respublikası (II (2000-ci il), III (2005-ci il) və IV çağırış (2010-cu il) və V çağırış (2015-ci il) Milli Məclisinin deputatıdır. Parlamentin Mədəniyyət Komitəsinin sədridir. Sayı 500-dən çox olan elmi əsərlərin, o cümlədən monoqrafiyanın müəllifidir. Rus, ingilis və fars dillərini bilir.

**Əsərləri:** “Füzulidən Vaqifə qədər” (1991), “Cənubi Azərbaycanda ədəbi dil: normalar, üslublar” (1990), “Dolan kəfkirim, dolan (Manaf Süleymanovun ömür dastanı” (1993), “Azərbaycan türkcəsinin milliləşməsi tarixi” (1995), “Bəxtiyar Vahabzadə” (1996), “Türk dünyası xaos və kosmos” (1998), “Genezisdən tipologiyaya” (1998), “Eposdan kitaba” (1999), “Azərbaycan mədəniyyəti məsələləri” (2000), “Azərbaycanşünaslıq məsələləri” (2001), “Azərbaycan : dil, ədəbiyyat və mədəniyyət” (2001), “Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi – ideoloji üfüqləri” (2001), “Azərbaycanşunaslığa giriş” (2001), “Heydər Əliyev” (2002), “Ədəbiyyatdan siyasətə” (2003), “Qədim türk ədəbiyyatı” (2004), “Anar” (2004), “Klassiklərdən müasirlərə” (2004), “İlham Əliyev” (2004). İnternet:https://az.wikipedia.org/wiki/Nizami_Cəfərov_(akademik)

**23 Sentyabr – Yazıçı Əfqan Əsgərovun 90 illiyi, (1929)**



Əfqan Hacıağa oğlu Əsgərov 23 sentyabr 1929-cu ildə Şirvanın Qarabağlılar kəndində anadan olub. Uşaqlıqdan şeir yazmağa böyük həvəsi olan Əfqan Əsgərov Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub, lakin rektor Abdulla Qarayevin köməyi ilə jurnalistika şöbəsində oxuyub. 1953-cü ildə universiteti bitirəndən mətbuatda çalışan Ə.Əsgərov jurnalist kimi ilk dəfə "Azərbaycan gəncləri" qəzetində fəaliyyətə başlayıb. Qəzetin səhifələrində bir-birinin ardınca maraqlı publisistik yazıları, oçerkləri, felyeton və hekayələri, hətta "Poçtalyon" kino-ssenarisi çap edilən Əfqan çox gənc yaşlarından oxucuların məhəbbətini qazana bilib. Bundan sonra o, daha bir səhnə əsəri yazıb. Yaradıcılığa hekayələrlə başlayan Əfqan bu ilk səhnə əsərləri ilə şöhrət qazanıb və bir-birinin ardınca yazıçının "Gecikmisən" (1961), "Gözəllik sorağında" (1962), "Sən belə deyilsən" (1963), "Sarı əlcək" (1965) və başqa hekayə topluları nəşr edilib. 1991-ci ildə Ali Sovetin orqanı olan "Həyat" qəzetinin baş redaktoru işləyib. Əfqan Əsgərov istedadlı yazıçı və dramaturq kimi də məşhur olub. Onun qələmindən çıxan "Gülyanaq", "Katib", "Həsrət də bir vüsaldır", "Qartal əfsanəsi" romanları, "Dədə Bəhmən" trilogiyası, "Qozbel", "Məhəbbət ətirli qərənfilim", "Dünya gözəlliyindir", "O, daş deyildir" və başqa povestləri ədəbi nəsrimizin inkişafında mühüm əhəmiyyət kəsb edən əsərlərdən sayılır. Dramaturgiya sahəsində də qələmini sınayan Əfqanın "Sarı əlcək", "O mənim oğlumdur", "Dağ seli", "Gülməyən adam" adlı pyesləri respublikamızın müxtəlif teatrlarında tamaşaya qoyulub. Tamaşaçılar tərəfindən xüsusi rəğbətlə qarşılanan "Qız atası" komediyası Əfqanın ən yaxşı pyeslərindən sayılır. Əfqan Əsgərov müharibə mövzusunu da nəsrə gətirən yazıçılardan olub. Onun "Qız atası", "Tamah dişi", "Cənnət alması" və başqa səhnə əsərləri yüksək tamaşaçı zövqünə cavab ən yaxşı ədəbi nümunələrdir. Onun qələmə aldığı səhnə əsərlərində bunu görmək olur.

**Əsərləri:** "Gecikmisən" (1962), "Gözəllik sorağında" (1964), "Sən tək deyilsən" (1963), "Sarı əlcək" (1968), "Qartal əfsanəsi" (1974), "Gülyanaq" (1977), "Katib.Məhəbbət ətirli qərənfilim" (1981), "Həsrət də bir vüsaldır" (1984), "Dünya gözəlliyindir" (1986), "Bəy İnal" (1989); **Romanlar:**"Bəy İnal"(1989), "Qartal əfsanəsi", "Gülyanaq", "Katib", "Həsrət də bir vüsaldır"; **Povestlər:** "Dədə Bəhmən", "Qozbel", "Məhəbbət ətirli qərənfilim", "Dünya gözəlliyindir", "O, daş deyildir"; **Hekayə topluları:** "Gecikmisən" (1961), "Gözəllik sorağında" (1962), "Sən belə deyilsən" (1963), "Sarı əlcək" (1965); **Pyeslər:** "Sarı əlcək", "O mənim oğlumdur", "Qız atası", "Gülməyən adam", "Dağ seli", "Tamah dişi", "Cənnət alması" və s. **Filmoqrafiya: "**Bizim Gülbala" (film, 1961), "Pambığın mexanikləşdirilmiş yığımı" (film, 1961) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Əfqan_Cəfərov

**27 Sentyabr – Şair  Murad Baykalın 70 illiyi, (1949)**



Abdulov Murad Ələkbər oğlu 1949-cu il sentyabrın 27-də Azərbaycanın Zaqatala şəhərində anadan olmuşdur. Burada 1 saylı şəhər orta məktəbini bitirmişdir. Azərbaycan Dövlət Politexnik İnstitutunun inşaat fakültəsində təhsil almışdır (1966-1971). Əmək fəaliyyətinə 1964-cü ildən fəhləliklə başlamışdır. Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətinin sədri vəzifəsində işləmişdir. Ədəbi fəaliyyətə 1966-cı ildən başlamışdır. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri "Məmməd Murad"imzası ilə nəşr olunmuşdur. Respublikanın müxtəlif teatrlarında, mavi ekranda dram əsərləri tamaşaya qoyulmuşdur. Azərbaycan televiziyasında dəfələrlə nümayiş etdirilən "Təkan" pyesi və "İşığın sınma qanunu" poeması rəğbətlə qaşılanmışdır (1987). Respublikada fəaliyyət göstərən "Cəmiyyət və siyasət" assosiasiyasının sədri, "Arı südü" hərəkatının lideridir (1993-1998). Hazırda fərdi yaradıcılıqla məşğuldur.

**Əsərləri:** "Təkan" pyesi (1987), "İşığın sınma qanunu" (1987), "Yerin görünür" (1973), "Gəncliyin ulduzları" (1974), "Köç tonqalı" (1983), "Gülü bənövşə dağlar" (1986), "Ürək niyə soldadır" ( 1989), "Çin Sakit okeanının sirridir"  (2000), "İnsan insana mələkdən yaxındır" (2001), "Hər xalqın öz qüdrəti" (2003), "Yerusəlım – həqiqətin ay işığıdır" (2004), "Avraziyanı nizamlayan"  (2004)  və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.624.

**Xarici ədəbiyyat**

**15 Sentyabr – Amerika yazıçısı Ceyms Fenimor Kuperin 230 illiyi, (1789-1851)**



Ceyms Fenimor Kuper 1789-cu il sentyabrın 15-də Amerikanın Nyu-Cersi ştatının Berlinqton şəhərində, varlı ailədə anadan olmuşdur. Ceyms ilk təhsilini "Akdemiya" adlanan kütləvi kənd məktəbində almışdır. Təhsilini davam etdirmək üçün valideynləri onu Nyu-York ştatının mərkəzi olan Olbani şəhərinə göndərmişlər. 1803-cü ildə Ceyms Yel kollecinə daxil olmuşdur. Atasından kifayət qədər miras qaldığından C.F.Kuper dənizçilik peşəsindən imtina etmiş və bundan sonrakı dövrdə kənddə yaşayaraq təsərüffatla məşğul olmaq qərarına gəlmişdir. İlk vaxtlar onlar Süzana miras qalmış və Nyu-York yaxınlığında yerləşən Mamorenek adlı bir kənddə yaşayıblar, sonra isə tezliklə Kuperstauna köçmək haqqında fikirləşiblər. Kuper Osteqo gölünün qərb sahilində bir torpaq sahəsi alıb, bir müddət burada özünə daşdan böyük bir ev tikib və kənd təsərüffatı işləri ilə məşğul olub. Milli Amerika ədəbiyyatının ilk qiymətli nümunələrini yaradan Kuper məhsuldar yazıçılardan olmuşdur. Macəra romanlarının və ovçu Natti (Nataniel) Bamponun sərgüzəştləri haqqında çoxsaylı əsərlərin müəllifidir. Həmin seriyadan olan "Sonuncu mogikan" əsəri onun yaradıcılığının zirvəsi hesab olunur. Tədqiqatçılar onun yaradıcılığını üç dövrə bölürlər: Birinci dövrdə (1821-1826) "Casus", "Losman", "Pionerlər", "Sonuncu Mogikan"; İkinci dövrdə (1826-1833) "İgid", "Heydenmauer", "Cəllad"; Üçüncü dövrdə (1833-1850) "Evə", "Evdə", "Mogikanlar", "Ləpirçi", "Vəhşi heyvan ovçusu" əsərləri yaranmışdır. "Casus" romanının uğurlarından sonra Kuper daha böyük həvəslə milli Amerika romanları yazmaq qərarına gəlmiş və "Pionerlər" adlı əsəri üzərində işləmişdir. İlk dəfə olaraq bu romanın səhifələrində sonradan “Dəri Corab”, “Vəhşi heyvan ovçusu”, “Şahingöz”, “Uzun Karabin” və “Ləpirçi” ləqəbləri ilə tanınacaq "ağ adam" Nataniel (Natti) Bamponun və onun "qırmızı dərili" hindu dostları Çinqaçkuk, onun oğlu Unkas göründü. Kuperin bədii yaradıcılığında əsas yeri Dəri Corab haqqında romanlar silsiləsi təşkil edir. Kuper sanki ona görə dünyaya gəlmişdi ki, hindi mövzusunu böyük ədəbiyyata gətirsin. “Dəri Corab” haqqında romanlar silsiləsinə beş əsər ("Pionerlər", "Sonuncu Mogikan", "Ləpirçi", "Preriya", "Vəhşi heyvan ovçusu") daxildir. Bunlar dünya ədəbiyyatı xəzinəsində "Pentalogiya" adı ilə tanınır. C.F.Kuper "Casus" romanı ilə dünyaya əsl Amerikanı tanıtdı.

**Əsərləri:** “Casus”, “Losman”, “Pionerlər”, “Sonuncu Mogikan”, “İgid”, “Cəllad”, “Ləpirçi”, “Vəhşi heyvan ovçusu” və s.

İnternetdə: https://az.wikipedia.org/wiki/Ceyms_Fenimor_Kuper

**İncəsənət**

**4 Sentyabr – Musiqiçi, tarzən Əhsən Dadaşovun 95 illiyi,  (1924-1976)**



Əhsən Dadaşov 1924-cü il sentyabrın 4-də Bakı şəhərində dünyaya göz açmışdır. Bakıdakı 22 saylı orta məktəbdə təhsil alıb. 1938-ci ildə 1 saylı Azərbaycan Dövlət musiqi texnikumunun (indiki Bakı Musiqi Kolleci) tar sinfinə qəbul olub. Burada Səid Rüstəmov, Mənsur Mənsurov, Ənvər Mənsurovdan dərs alıb. Atası Əliabbas Dadaşov 1937-ci ildə repressiya qurbanı olub. 1940-cı ildə S.Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinə qəbul edilib. Əhsən Dadaşov tar ifaçılığı sənətində muğam üzrə müəllimləri olmuş Mirzə Mənsur Mənsurov, Ənvər Mənsurovdan klassik muğam ifaçılıqlarının xüsusiyyətlərini dərindən mənimsəyərək onu inkişaf etdirmişdir. Onun lentə yazdırdığı "Rast", "Orta Mahur", "Şur", "Zabul-Segah", "Hümayun", "Vilayəti - Dilkeş", "Çahargah", "Bayatı - Şiraz" və s. muğamları Azərbaycan radio verilişləri şirkətinin qızıl fondunu təşkil edir. AzTRV QSC nəznində 1960-cı ildə xalq çalğı alətləri ansamblı yaratmış və ömrünün sonuna kimi bu ansamblın bədii rəhbəri olmuşdur. Hazırda "Xatirə" xalq çalğı alətləri ansamblı (bədii rəhbəri Adil Bağırov) Əhsən Dadaşovun adını daşıyır. Əhsən Dadaşov bir çox tarzənlərin sənət müəllimi olmuşdur.

**Filmoqrafiya:** "Əhsən Dadaşov" (film, 2005)

İnternetdə: https://az.wikipedia.org/wiki/Əhsən_Dadaşov

**22 Sentyabr – Kinorejissor Səməd Mərdanovun 110 illiyi, (1909-1939)**



Səməd Mərdanov 1935-ci ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitirmişdir. Məşhur sovet kino rejissoru Sergey Eyzenşteynin tələbəsi və professional təhsil almış ilk Azərbaycan kinematoqrafçılarından biri olan Mərdanovun yaradıcılığı milli kino sənətinin inkişafına təsir göstərmişdir. Mərdanov ilk sovet kinokomediyalarından olan "Mavi dənizin sahilində" (quruluşçu rejissor Boris Barnet; "Azərfilm" və "Mejrabpomfilm" (Moskva) kinostudiyalarının birgə istehsalı) filminin rejissorudur. Mərdanovun 1939-cu ildə çəkdiyi "Kəndlilər" (1940 ildə ekrana buraxılmışdır) tarixi-inqilabi bədii filmi Azərbaycan kinosunun qızıl fonduna daxildir. Aktyor Mustafa Mərdanovun qardaşıdır.

**Filmoqrafiya:** “Köçərilər” (film, 1933), “Mavi dənizin sahilində” (film, 1936), “Kəndlilər” (film, 1939)

İnternetdə:https://az.wikipedia.org/wiki/Səməd_Mərdanov

**Milli Qəhrəmanlar Zirvəsi**
**1 Sentyabr – Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Natiq İlyas oğlunun 50 illiyi, (01.09.1969-26.09.1991)**



Əhmədov Natiq İlyas oğlu 1 sentyabr 1969-cu ildə Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur. Ağdamın Novruzlu kəndində orta məktəbi oxumuş, Kalininqrad şəhərinin artilleriya hissəsində hərbbi xidmətdə olmuşdur. Natiq Əhmədov 1988-ci ildə ordudan tərxis olunub. Bir müddət Kalininqradda qalıb işləyib. Vətən çağırır onu. Natiq Əhmədov boy-buxunda, fiziki möhkəmlikdə yoldaşlarından seçilirdi. Rayonda keçirilən müxtəlif idman yarışlarında oxuduğu məktəbin şərəfini həmişə ləyaqətlə qoruyurdu. Hələ orta məktəbi bitirərkən onu Ağdamın futbol komandasına dəvət etmişdilər. Sonralar isə o, Riqada Şərq əlbəyaxa döyüşü sənətini-karateni öyrənmişdi. O, ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklərin saya gəlmədiyi bir vaxtda Xocalı Rayon Daxili İşlər Şöbəsində yol-patrul xidməti müfəttişi vəzifəsinə qəbul edilib. Həmin dövrdə Qarabağın dağlıq hissəsində yerləşən kəndlərə, eləcə də Şuşaya gediş-gəliş son dərəcə çətinləşmişdi. Ermənilər yol boyunca pusqular qurur, ardı-arası kəsilməyən terror əməlləri törədirdilər. Natiq Əhmədov Ağdam-Şuşa marşrutu ilə hərəkət edən sərnişin avtobuslarının təhlükəsizliyini təmin etmək üçün dəfələrlə ölümlə üzbəüz gəlmişdi. 26 sentyabr 1991-ci ildə Əsgərandan Xocalıya işə gedərkən ermənilər tərəfindən pusquya düşmüş avtobusu gördü. Avtobusdakı mülki şəxsləri xilas etmək üçün iş yoldaşı ilə birgə son damla qanına qədər döyüşdü. Həmin döyüşdə Natiq qəhrəmancasına həlak oldu. Subay idi. Ağdam rayonunun Novruzlu kəndində dəfn edilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Əhmədov Natiq İlyas oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə: https://az.wikipedia.org/wiki/Natiq_Əhmədov

## Oktyabr

## Əlamətdar və tarixi günlər

1 Oktyabr – Beynəlxalq Ahıllar Günü, (1992)
1 Oktyabr – Prokurorluq İşçiləri Günü, (1998)
1 Oktyabr – Beynəlxalq Musiqi Günü, (1975)
2 Oktyabr – Elektron Məktubun Yaranması Günü, (1971)
3 Oktyabr – Ümumdünya Memarlıq Günü, (1996)
4 Oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü, (1931)
5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü**, (**1966)
9 Oktyabr – Ümumdünya Poçt Günü, (1874)
10 Oktyabr – Yanğınsöndürənlər Günü, (2002)
11 Oktyabr – Dünya Qız Uşaqları Günü, (2011)
12 Oktyabr – Ümumdünya Yumurta Günü, (1996)
16 Oktyabr – "Uolt Disney" Şirkətinin Təsis Edildiyi Gün, (1923)
16 Oktyabr – Mütaliə bayramı, (1989)
16 Oktyabr – Ümumdünya Çörək Günü, (2006)
17 Oktyabr – Ümumdünya Yoxsulluqla Mübarizə Günü, (1992)
18 Oktyabr – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü, (1991)
20 Oktyabr – Beynəlxalq Kulinariya Günü, (2007)
20 Oktyabr – Energetiklər Günü, (2004)
22 Oktyabr – Beynəlxalq Məktəb Kitabxanaları Günü, (1999)
24 Oktyabr – Birləşmiş Millətlər Təşkilatı Günü, (1945)
28 Oktyabr – Beynəlxalq Animasiya Günü, (2002)
30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü, (1974)

## Bu tarixi unutmayaq

2 Oktyabr – Xocavənd rayonunun işğalı günü, (1992)
29 Oktyabr – Zəngilan rayonunun işğalı günü, (1993)

**Yubilyar yazıçı və şairlər**

Şair Adil Cəmilin anadan olmasının 65 illiyi, (08.10.1954)

Ədəbiyyatşünas, tənqidçi Aida İmamquliyevanın 80 illiyi, (10.10.1939-1993)

Şair Xeyrulla Camalın 90 illiyi, (13.10.1929)

Şair, dramaturq Əliyar Yusiflinin 90 illiyi, (15.10.1929-1993)

Ədəbiyyatşünas İsa Həbibbəylinin 70 illiyi, (16.10.1949)

Şair Hüseyn Razinin 95 illiyi, (16.10.1924-1998)

Şair Balasadığın 90 illiyi, (21.10.1929-2003)

Yazıçı, Həbibə Zeynalovanın 100 illiyi, (26.10.1919-1984)

Yazıçı, publisist, ictimai xadim Ramiz Mirzənin 65 illiyi, (27.10.1954-2007)

**Xarici ədəbiyyat**

Rus şairi Mixail Lermontovun 205 illiyi, (15.10.1814-1841)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Kazım Ərşad oğlunun 50 illiyi, (01.10.1969-15.11.1991)

## Əlamətdar və tarixi günlər

## 1 Oktyabr – Beynəlxalq Ahıllar Günü, (1992)



Yaşadığımız cəmiyyət hamı üçündür. Gənclər, orta nəslin nümayəndələri, hətta ahıllar da cəmiyyətdə gedən inkişaf proseslərində iştirak edirlər. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Cəmiyyətdə yaşayıb ondan kənarda qalmaq olmaz. Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. BMT-nin İnkişaf Proqramında son illər ərzində ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin Ahıllar üzrə II Ümumdünya Məclisində belə bir fikir səslənmişdir ki, yaşlılar da cəmiyyətin bərabər hüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir. Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən, hörmətə layiqdirlər. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür. Ümummilli liderimiz Heydər Əliyev kimi yaşa dolmuş görkəmli siyasətçi və dövlət xadimi öz ölkəsini müvəffəqiyyətlə idarə etmişdir. Bu fakt bir daha sübut edir ki, yaşlı, ahıl insanların təcrübəsi əvəzolunmazdır. BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar İli elan olunmuşdur. Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir. 2001-ci il iyunun 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. 1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Beynəlxalq Ahıllar Günü ərəfəsində respublikamızın şəhər və rayonlarında icra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək, onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

**İnternetdə: www.books.google.com**

## 1 Oktyabr – Prokurorluq İşçiləri Günü, (1998)



Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər.

Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə” 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır. Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Filip tərəfindən qoyulmuşdur. Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25 mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir örnək kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir. 1918-ci il noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən “Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə” təsdiq edilmişdir. F.Xoyski, X.Xasməmmədov, A.Səfikürdski, T.Makinski AXC-nin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. AXC-nin süqutundan sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv olundu. Sovetləşmənin ilk illərində bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması zəruriliyini nəzərə alaraq, Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu. 1936-cı ilin iyulunda Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq, birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə, ayrıca qurum kimi fəaliyyətə başlamışdır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilməklə, sivil və demokratik inkişaf yoluna qədəm qoymuşdur.

**İnternetdə: www.books.google.com**

**1 Oktyabr – Beynəlxalq Musiqi Günü, (1975)**

***Bəstəkarlar öz əsərlərini yaradarkən, unutmamalıdırlar ki, bizim yaradıcılığımızı xalq qiymətləndirir. Çünki xalq yalnız yaradıcı, yalnız bəstəkar deyildir, xalq eyni zamanda misilsiz tənqidçi və musiqi əsərlərinin ən yaxşı "istehlakçısıdır", xalq musiqi əsərlərinə diqqətlə yanaşır, yaxşını pisdən seçir.***

***İlk gözəl nağmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nağmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır.***

**Üzeyir Hacıbəyli,**
*bəstəkar*



Bəşəriyyətin musiqi ilə tanışlığı çox qədim dövrlərdən başlayıb. Musiqi intəhasız, heç bir ölçüyə sığışmayan gücə malikdir...

Bir çox məşhur bəstəkarlar daxili dünyalarını, duyğularını, istək və arzularını ifadə etmək üçün musiqidən istifadə ediblər. Onların adı məhz musiqinin qüdrəti sayəsində tarixə və gələcək nəsillərin yaddaşına yazılıb. Musiqi heç vaxt qocalmır. İnsanlara bəxş edilən bu ilahi nemət bəşəriyyət var olduqca yaşayacaq. Beynəlxalq Musiqi Günü YUNESKO-nun qərarı ilə 1975-ci il oktyabrın 1-də təsis edilmişdir. Bu bayram hər il bütün dünyada ən yaxşı musiqiçilərin və incəsənət kollektivlərinin iştirak etdikləri möhtəşəm konsert proqramları ilə qeyd olunur. Həmin gün dünya musiqi xəzinəsinin qeyri-adi, bənzərsiz inciləri ifa edilir.

2000-ci ildə Çin arxeoloqları 2 min illik tarixi olan musiqi alətləri muzeyini aşkara çıxarmışlar. Azərbaycanda da musiqinin tarixi çox qədimlərə gedib çıxır. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olunmuşdur. Bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğu vurğulanmışdır. Görünür, Azərbaycan dilinin musiqi dili olması da buradan qaynaqlanır.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

## 2 Oktyabr – Elektron Məktubun Yaranması Günü, (1971)



Elektron poçt – (Electronic Mail və ya E-Mail) hazırkı dövrdə insanlar arasında ən çox yayılmış ünsiyyət növüdür. Bu ünvan bir neçə saniyə ərzində İnternet şəbəkəsinin yerləşdiyi istənilən yerə nəinki mətn, veb-səhifə, hətta məktub halında olan istənilən faylı göndərməyə imkan verir. ABŞ və Avropadan başlayaraq bu rabitənin adı "e-mail" və ya "email" formasında yazılır. Elektron poçt – ünvan sahibinin asudə vaxtlarda açıb və oxuduğu rəqəmli poçt qutusuna göndərilən elektron poçt, mətn göndərişləri. İlk elektron poçt da bir çox texnoloji yeniliklərin başlanğıcı kimi əsgəri işlərdən ötəri çıxmışdır. 1960-cı illərin sonlarında hərbi sistem üçün sistemlər inkişaf etdirməyə çalışan Rels Tomlinson ilk olaraq 1971-ci il oktyabr ayında iki kompüter arasında fayl mübadiləsini həyata keçirmişdir. Tomlinson "The Times" qəzetinə müsahibəsində deyirdi: “İlk e-mailimdə nə yazdığımı mən də xatırlamıram. Yalnız aralarında bir metr məsafə olan iki kompüter arasında həyata keçirilən fayl transferi idi. Mesajlaşma üçün kiçik bir addım, insanoğlu üçün isə böyük bir sıçrama idi”. E-mail 1990-cı illərə qədər çox inkişaf etdi. İnternetin 90-cı illərdə yayılmasıyla birlikdə e-mail çox əhəmiyyətli bir vasitəyə çevrildi. Belə ki, Amerikanın Kaliforniya Universiteti, Berkeleyin 2001-ci ildə açıqladığı statistik rəqəmlər bizə emailin nüfuzunu göstərdi. Araşdırmaya görə 2001-ci ildə gündə ortalama 31 milyard email göndərilirdi. 2008-ci ildə isə bu rəqəm 170 milyarda qədər çatdı. 2011-ci ildə isə bu rəqəmlər biraz daha artaraq 294 milyarda çatdı. Elektron ünvanla işləyərkən SMTP və POP3 protokollarından istifadə edilir. SMTP protokolu məktubun göndərilməsinə, POP3 protokolu isə məktubun çatdırılmasına cavabdehdir. Göndəriləcək poçt "elektron poçt qutusuna" yazılır. Bu poçt serverin daimi yaddaşında yerləşən kataloqdur və ona yalnız həmin poçt qutusunun abonenti daxil ola bilər. Abonent serverə müraciət edərkən poçtu oradan çıxarır, poçt qutusundan çıxarılan məktub serverdə saxlanılmır. Elektron məktubların ünvanı DNS sistemlərində qəbul olunmuş ünvanlardan fərqlənir. Abonent @ ünvan – @ ("ət" və ya "doq") işarəsi kompüterə məktubun göndərildiyi server ünvanı ilə abonentin adını ayırmağa kömək edir. Abonentin adını istifadəçi özü seçir. Sonra o poçt ünvanının qeydiyyatını keçirir və proqram təminatını nizamlayır. Müasir dövrdə ən geniş yayılmış poçt hostinq serverləri kimi Gmail.com, Yahoo!, Hotmail tanınır. MDB məkanında isə Yandex, Mail.ru, Rambler kimi poçt servisləri məşhurdur. **İnternetdə: www.books.google.com**

## 3 Oktyabr – Ümumdünya Memarlıq Günü, (1996)






Dünya memarlarının və memarlıq incilərini sevən və dəyərləndirənlərin bayramı hər il oktyabrın ilk bazar ertəsində qeyd olunur. Ümumdünya Memarlıq Günü (World Architecture Day) Beynəlxalq Memarlar Birliyi (BMB) tərəfindən təsis olunmuşdur. BMB-nin 1985-ci ildə keçirilən yığıncağında bu bayramın 1 iyulda qeyd olunması qərara alınıb. Lakin 1996-cı ildə, BMB özünün Barselonada düzənlənən Baş Assambleyasında bayramın hər il oktyabrın ilk bazar ertəsi keçirilməsi haqqında qərar qəbul edib.

Beynəlxalq Memarlar Birliyi II Dünya müharibəsindən dərhal sonra, müharibə nəticəsində dağıdılmış şəhərlərin, yaşayış məskənlərinin və sənaye müəssisələrinin bərpası problemlərini həll etmək məqsədi ilə yaradılıb.

Hər il bayrama həsr olunmuş müxtəlif tədbirlər memarlıq üzrə müəyyən mövzuya həsr olunur.

**İnternetdə: www.books.google.com**

**4 Oktyabr – Ümumdünya Heyvanları Müdafiə Günü, (1931)**



Yaşadığımız dünya bizimlə eyni planetdə həyat sürən heyvanların da evidir. Lakin insan fəaliyyəti nəticəsində onların yaşaması, artması üçün bir çox çətinliklər ortaya çıxır. Müəyyən olunmuşdur ki, hər milyon il bütün bioloji növlərin 9 faizi məhv olur. Başqa sözlə desək, hər il canlı varlıqların 1-dən 5-ə qədər növü yox olur. Yer kürəsinin bütün tarixi boyu yoxolma sürəti beş dəfə artmışdır. Sonuncu dəfə tam kütləvi məhvolma 65 milyon il əvvəl, bütün dinozavrların nəsli kəsilərkən baş vermişdir.

Biz insanlar heyvanların dostu və qonşusu kimi onları qorumağa borcluyuq. İlk dəfə Ümumdünya Heyvanları Müdafiə Gününü 1931-ci ildə nəsli kəsilməkdə olan növlərin acınacaqlı vəziyyətinə diqqəti cəlb etmək məqsədi ilə qeyd etməyə başlamışlar. Həmin vaxtdan başlayaraq, milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, hər kəs tərəfindən oktyabrın 4-ü dünyada yaşayan heyvanların günü kimi qeyd olunur. Bu gün hər hansı insan, təşkilat və ya aksiya ilə bağlı deyil. Bu gün – planetdə yan-yana yaşayan bütün insanların və heyvanların günüdür. Bu gün, heyvanların mövcud problemləri haqqında insanların məlumatlandırılması, onların qorunması üçün maarifləndirilməsi və səylərinin birləşdirilməsi üçün çox önəmli bir gündür. Heyvanların qorunması işində hər bir insan iştirak etməlidir.

**İnternetdə: www.books.google.com**

**5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü, (1966)**

***Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir!***

**Ümummilli lider Heydər Əliyev**



Hər il oktyabrın 5-i Beynəlxalq Müəllim Günü kimi qeyd olunur. 5 oktyabr 1966-cı ildə YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən "Müəllimlərin statusu haqqında" adlı ilk sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Beynəlxalq Müəllim Günü kimi təsis edilmişdir. Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Hal-hazırda "Müəllimlər Günü" dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə keçirilir. Məsələn, müxtəlif əlamətdar hadisələr əsasında Müəllimlər Günü Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə isə 24 noyabr tarixlərində qeyd olunur. Müstəqil Azərbaycanda isə bu tarix 1993-cü il oktyabrın 5-də rəsmiləşdirilib. Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" – deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikri artıq realllığa çevrilib. Ən şərəfli sənət müəllim sənətidir. Çünki bu günümüzün həkimini, polisini, vəkilini, kompüter mühəndisini, memarını hətta müəllimini belə müəllim yetişdirir. Əgər müəllim olmasa bu sadalananların heç biri olmaz. Günlər keçir, illər illərə calanır, insan çox şeyi unudur. Lakin heç zaman ilk müəllim yaddan çıxmır, xatirədən silinmir. Axı insana elm qapısının açarını ilk müəllim təqdim edir, onu əsrarəngiz bir dünya ilə müəllim qovuşdurur.

**İnternetdə: www.books.google.com**

## 9 Oktyabr – Ümumdünya Poçt Günü, (1874)






Oktyabr ayının 9-da bütün dünyada poçt sahəsi işçilərinin peşə bayramı – Ümumdünya Poçt Günüdür. Ümumdünya Poçt İttifaqının (ÜPİ) XIV konqresinin qərarı ilə Ümumdünya Poçt Günü 1974-cü ildə ittifaqın yaranması günü qeyd olunur. 9 oktyabr 1974-cü ildə İsveçrədə 22 ölkənin nümayəndəliyi ilə Baş Poçt Birliyinin əsasını qoyan “Bern sazişi” imzalanıb. Bu gün ÜPİ-yə üzv olan 191 ölkənin hamısında qeyd olunur. 1978-ci ildə birliyin adı dəyişdirilərək Ümumdünya Poçt İttifaqı adlandırılıb. Ümumdünya Poçt Günü hər il 9 oktyabr tarixindən etibarən bir həftə ərzində – “Beynəlxalq məktub həftəsi” adı altında keçirilir. Azərbaycan ÜPİ üzvlüyünə 1993-cü ilin aprelində qəbul olunub. Bu hadisə respublikanın poçt sahəsi üzrə fəaliyyətinin genişlənməsinə böyük imkanlar yaradıb. Ölkəmizdə poçt sahəsini “Azərpoçt” Birgə Müəssisəsi təmsil edir. XX əsrin sonunda SSRİ-nin dağılması və respublikamızın müstəqillik əldə etməsi ilə poçt rabitəsinin inkişafında da yeni mərhələyə start verilib. Respublikada poçt və elektrik rabitəsinin təşkili və xidmətlərin göstərilməsi "Azərpoçt" İstehsalat Birliyi tərəfindən həyata keçirilməyə başlayıb. ÜPİ-nın məlumatına görə, beynəlxalq poçt öz müştərilərininin 6800 dilində danışır və dünyada ən böyük ölçüyə malik fiziki poçtdaşıma şəbəkəsidir.

Ümumdünya Poçt Günü çərçivəsində hər il keçirilən tədbirlər (nadir marka və açıqcaların tematik sərgisi, poçt markalarının şəkillərinin müsabiqəsi, müxtəlif maarifləndirici aksiyalar və s.) müəyyən mövzuya həsr olunur.

**İnternetdə:** **www.books.google.com**

## 10 Oktyabr – Yanğınsöndürənlər Günü, (2002)



2002-ci il oktyabr ayının 5-də ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 10-nun ölkəmizdə yanğınsöndürənlərin peşə bayramı günü kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır.

Həmin tarixdən etibarən hər il oktyabrın 10-u Yanğınsöndürənlər günü kimi qeyd olunur. XX əsrin əvvəllərində yaradılan Azərbaycan Yanğından Mühafizə Xidmətinin əsas inkişaf dövrü ötən əsrin 70-ci illərinə təsadüf edir. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yanğın təhlükəsizliyi sahəsi daha sistemli şəkildə inkişaf etməyə başladı. Yanğından Mühafizə Xidmətinin maddi-texniki və normativ-hüquqi bazası möhkəmləndirildi, kadr ehtiyatının yaradılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi diqqət yetirildi. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı dövrlərdə də Azərbaycanın yanğın təhlükəsizliyi xidməti inkişafda olmuş, yanğından mühafizə sistemləri təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır.

Azərbaycanda Yanğından Mühafizə Xidməti 1918-ci ildə yaradılıb. Böyük tarixi yol keçmiş Azərbaycan yanğınsöndürmə xidmətinin fəaliyyəti indi bütün ölkəni əhatə edir. Qarabağ müharibəsində 24 yanğınsöndürən şəhid olub, onlardan 2-si Milli Qəhrəmandır.

**İnternetdə: www.books.google.com**

## 11 Oktyabr – Dünya Qız Uşaqları Günü, (2011)

***Uşaqlarınız arasında fərq qoymayın, fərqli davranacaq olsanız belə, qızlarınızı üstün tutun.***

**Məhəmməd peyğəmbər**



Dünya Qız Uşaqları Günü 2011-ci ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş və hər il oktyabr ayının 11-dən qeyd olunmağa başlanmışdır. Əvvəlcə, Türkiyə, Kanada Peru tərəfindən qəbul edilən bu gün getdikcə digər dünya ölkələri tərəfindən də qeyd edilməkdədir. Dünya Qız Uşaqları Gününün məqsədi qız və oğlan uşaqları arasında davam edən ayrı-seçkiliyə diqqət cəlb etmək və bunun qarşısını almağa təşviq etməkdir. 2012-ci ildə başlanılan bu hərəkatın ilk devizi "uşaq nikahları" olmuşdur. 2013-cü ilin əsas mövzusu isə BMT tərəfindən "təhsil" kimi müəyyənləşdirilmişdir. BMT ən nüfuzlu beynəlxalq missiya kimi uşaqlara qarşı ayrı-seçkiliyin bariz şəkildə müşahidə edildiyi təhsil, qidalanma, səhiyyə, şiddət və s. bu kimi sahələrdə müvafiq qurumlar və qeyri-hökumət təşkilatlarının səylərini istiqamətləndirərək qız uşaqlarının həyatı üçün fərqlilik yaratmağa təşviq edir. Qız uşaqlarının həyatı üçün ən böyük ağırlaşdırıcı hallardan biri də erkən evliliklərdir. Qlobal miqyasda 20-24 yaş qrupunda qadınların təxminən üçdə biri, yəni təxminən 70 milyon qadın 18 yaşa qədər ailə qurur. Bu problem, təəssüf ki, bu gün də belədir. 15-19 yaş arası hər 4 qızdan biri şiddət görür. Qız uşaqlarını qorumağın ən yaxşı yolu isə təhsildən keçir. Qız uşaqları təhsil almadıqda cəmiyyətlər çox istiqamətli erroziyaya məruz qalır. Bu vəziyyət ictimai ədalət və bərabərliyin pozulması, cəmiyyətlərin sağlam bir şəkildə gələcəyə köçməməsi, iqtisadiyyatın pozulması, sülh və rifah şəraitinin azalmasına səbəb olur. Bu səbəblərlə, qız uşaqlarımızın təhsil almalarının önündəki bütün maneələr aradan qaldırmalıdır. Çox böyük təəssüf hissi ilə bildirməliyik ki, dünyada üç qız uşağından birinin təhsil haqqı zorakılıq, yoxsulluq və irqçilik səbəbindən pozulur.

Qız uşaqlarının daha yaxşı təhsil almaları və həyat şəraitlərinin yaxşılaşdırılması isə hər ölkənin prioriteti olmalıdır. Dünyada və ölkəmizdə sülhü, firavanlığı, tərəqqini və rifahı ədalətli və bərabər olaraq böyütmək istəyiriksə, əvvəla qız uşaqlarımızın daha çox təhsil almalarına imkan verməli, onları gələcəyin innovativ qız uşaqları olmaları üçün elm və texnologiyalarla daha çox təmin etməliyik. Çünki həyatımızın sağlam və dayanıqlı olması bugünkü qızlarımızın sağlamlıq və təhsil səviyyələri ilə sıx şəkildə bağlıdır. **İnternetdə: www.books.google.com**

**12 Oktyabr – Ümumdünya Yumurta Günü, (1996)**



Dünyanın bir çox ölkələrində oktyabrın ikinci cümə günü Ümumdünya Yumurta Günü (World Egg Day), deməli, bütün yumurtadan olan yeməkləri, omletləri və s. sevənlərin bayramı qeyd olunur. Yumurta ən universal qida məhsuludur, o bütün ölkələrin və mədəniyyətlərin kulinariyasında istifadə olunur. Kulinariyada yumurtadan ən müxtəlif formalarda istifadə etmək mümkündür.

Bayramın yaranma tarixi belədir: 1996-cı ildə Beynəlxalq Yumurta Komissiyası Vyanada keçirilən konfransında yumurtaya həsr olunmuş günün oktyabrın ikinci cümə günündə keçiriləcəyini elan etmişdir. Bu günlə bağlı yumurta mövzusunda müxtəlif tədbirlər keçirilir: ən yaxşı resept, ən yaxşı şəkil, mühazirələr, aksiyalar, flaşmoblar və s.

Son zamanlar yumurtanın orqanizmə təsiri haqqında müxtəlif fikirlər səslənsə də, yeni tədqiqatlar sübut etmişdir ki, yumurtadan imtina etmək olmaz. Yumurtada yüksəkdəyərli, tez həzm olunan zülal vardır. Dünyada ən çox yumurta Yaponiyada istifadə olunur. Yaponlar gündə ən azı bir yumurta yeyirlər. Amerikalılar isə ildə bir dəfə Nəhəng Omlet Günü keçirirlər.

Bu məhsulun faydası, gərəkliliyi heç kəsə sirr deyil. Yumurta insan qidasının ən universal məhsuludur və onda bir çox zəruri maddələr var. Gündə 1 yumurta nəinki zərərdir, hətta xeyirdir. Toyuq yumurtasından istifadə geniş yayılsa da, tovuzquşu, qırqovul, ördək, qaz yumurtaları da məişətdə istifadə olunur. Amma bu cür quşlar yalnız yay fəslində yumurta verirlər. Bunların içərsində ən böyük yumurta dəvəquşu yumurtasıdır ki, o da qışda olur.  İki yumurta 100 qram ətə bərabərdir. Amma bu yumurtalardan həddən artıq deyil, lazımı miqdarda və düzgün qaydada istifadə edilməsi əsas şərtdir.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**16 Oktyabr – "Uolt Disney" Şirkətinin Təsis Edildiyi Gün, (1923)**



Uolt Disney müasir Avropa kinematoqrafiyasında hakimlik edən çoxsaylı nağıl və multiplikasiyanın əsl ustadı idi. Ömrünü elə də xoş keçirməyən Uolt Disney 1918-ci ildə hərbi xidmətə getmək istəyir, ancaq yaşının azlığı ona bu istəyini reallaşdırmağa imkan vermir. Belə olan halda o, tibb sahəsinə yönəlir və xaricə göndərilərək, bir il sanitar maşınında sürücü işləyir. Kanzas–Sitiyə qayıtdıqda Uolt kommersiya studiyalarının birində bədii direktor kimi işləməyə başlayır. Burada o, gənc rəssam Ayverksomla tanış olur və onlar bir yerdə studiya açırlar. Qısa zaman ərzində işlənmiş kamera əldə edərək, xronometrajı 2 dəqiqə olan reklam çarxları çəkirlər. Az sonra onlar Hollivud kino sənayesinə yaxın olmaq üçün studiyalarını Los-Ancelesə köçürürlər. Amma Uolt multiplikasiyaya olan həvəsini boğa bilmir. Bir gün o, cibində 40 dollarla şəhərdən çıxıb getmək istədikdə qardaşı Royla rastlaşır. Onlar olan-qalan bütün pullarını toplayıb 500 dollar da borc pul götürür və əmilərinin qarajında Disney Brothers studiyasını açırlar. Və burada "Alisa möcüzələr ölkəsində" ilk multipikasiya filmlərini yaradırlar. 1923-cü il oktyabrın 16-da qardaşlar New York distributoru Marqaritlə filmin çəkilişi üçün müqavilə bağlayır və studiyanın adını Uolt Disney company kimi dəyişirlər. 1948-ci ildə Uolt Disney multiplikasiya ilə yanaşı, özünün məşhur rəngli təbiət filmlərinin istehsalına başlayır. Bununla paralel olaraq o, uşaq filmləri üzərində də işləyir. 1955-ci ildə Disney Kaliforniyada "Attraksionlar parkı" adlı ilk Disneylandi açır. Ötən əsrin 60-cı illərində Disney Amerikada şəhər həyatını yaxşılaşdırmaq məqsədilə bir neçə layihə həyata keçirir. O, Manhettendən iki dəfə böyük ərazi olan istifadəsiz torpaq sahəsi alır. Burada əyləncə mərkəzləri, kurortlar, mehmanxanalar, motellər sənaye kompleksi, gələcəyin aeroportunu yerləşdirərək yeni Disney dünyası yaratmağı planlaşdırır. Ancaq şəhərciyin açılışı Uolt Disneyin ölümündən çox sonra, 1971-ci ildə baş tutur. Kaliforniya İncəsənət İnstitutu da elə onun adı ilə bağlıdır. Daha bir universitet şəhərciyi isə Los-Ancelesin şimal-şərqində, Valensia şəhərində yaradılıb. Sözügedən şəhərcikdə musiqi və təsviri sənətlə yanaşı, kinematoqrafiya, teatr, heykəltaraşlıq və moda tədris olunur. Uolt Disney hər şeydən əvvəl multiplikatordur. Onun filmlərini elə indi də, həm böyüklər, həm də uşaqlar sevə-sevə izləyirlər. Disney 1966-cı ildə dünyasını dəyişib. O, təltif olunduğu Oscarların sayına görə çempion hesab olunur. Uolt 59 dəfə namizədi olduğu bu mükafatın 26-sını əldə etməyi bacarıb.

**İnternetdə: http://mid.az/maraq/10973-uolt-disney-shirketinin-tarixi.html**

## 16 Oktyabr – Mütaliə Bayramı, (1989)



Fransızlar kitabı çox sevirlər, hətta onlar üçün əvəzolunmaz olan kinodan da. Buna görə də məhz Fransada Mütaliə Bayramı yaranmışdır və bu bayram demək olar ki, birnəfəsə keçir. Hər yerdə həm klassik, həm də müasir ədəbiyyata həsr olunmuş konfranslar, görüşlər, seminarlar, mühazirələr keçirilir. İlk dəfə belə ənənə 1989-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilmişdir. Mütaliə edən insanlara təqdim olunan tədbir elə böyük şövqlə qarşılanmışdır ki, heç kəsdə Fransada yeni bayramın yarandığına şübhə qalmamışdır.

Mütaliə Bayramında məşhur yazıçılar öz oxucuları ilə görüşür, onlara özləri, yazdıqları və yazmaq niyyətində olduqları əsərləri haqqında danışır, ümumiyyətlə, ədəbiyyatla bağlı söhbətlər edirlər. Fransa televiziyası isə müxtəlif ədəbi cərəyanlara və onun inkişafında rol oynayan görkəmli şəxsiyyətlərə həsr olunmuş verilişlərə hədsiz geniş efir vaxtı ayırır. Fransada Mütaliə Bayramında çoxlu kitab yarmarkaları keçirilir.

**İnternetdə: www.books.google.com**

## 16 Oktyabr – Ümumdünya Çörək Günü, (2006)



Ümumdünya Çörək Günü Beynəlxalq çörək sexlərinin təşəbbüsü ilə 2006-cı ildə keçirilmişdir. Bu gündə 1945-ci il oktyabrın 16-da Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı yaranmışdır**.** Tanrı sovqatı olan çörək, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanlar üçün müqəddəs nemətdir. Azərbaycanlılar çörəyi hər şeydən üstün tutur, onu duz ilə birlikdə süfrəyə birinci gətirir və süfrədən də axırda aparırlar. Çörək xalqın və bütövlükdə ölkənin sərvəti olmaqla yanaşı, həm də qüdrətidir. Əsl çörək bişirənlər qədim misirlilər sayılır. Sonralar çörəkbişirmə peşəsi qədim yunanlara da keçib. Onlar çörəyi gildən düzəldilmiş formalarda bişirirdilər. Həmin formalara "klibanos" deyirdilər. Qədim qotların çörəyə verdikləri "xlayfs", qədim alman dilində "xlayb", rusların "xleb", ukraynalıların "xlib", estonların "leyb" adları "klibanos" adından törənmiş sözlərdir. Dünyanın bir çox ölkələrinin arxeoloqları sübuta yetirmişlər ki, ilk çörək bitkisi müasir çovdar və buğda yox, şam olub. Misir ehramlarında aparılan axtarışlar zamanı tapılmış heykəlciklər və digər əşyalar göstərir ki, qədim misirlilər dəni üyüdüb un almaqla bərabər, undan çörək bişirməyi də bacarırdılar. Bişmiş çörəyin dadı tərkibindəki üzvi turşuların qədərindən asılıdır. İnsan həyatı boyu digər qida məhsulları ilə birlikdə təqribən 15 ton çörək yeyir. İnsanın sağlamlığı üçün çörək ancaq su ilə müqayisə edilə bilər. Bəlkə də, çoxları çörəyin gənclik vitamini sayılan E vitamininin, habelə PP və B qrupu vitaminlərinin mənbəyi olduğunu bilmirlər. Həmin vitaminlər insan beynini aktivləşdirir, onun yorulmasına və fəaliyyətsizliyinə imkan vermir. Çörəkdə həzm prosesini yaxşılaşdıran və orqanizmin təmizlənməsinə kömək edən sellüloz var. Çörək insan orqanizminin sulu karbonlara sutkalıq tələbatını təmin edir. Çovdar çörəyi çox faydalıdır. Çovdar çörəyi qanda xolesterinin miqdarını azaldır, maddələr mübadiləsini yaxşılaşdırır, orqanizmdən şlakları təmizləyir, onlarca xəstəliyin, o cümlədən onkoloji xəstəliklərin qarşısını almağa kömək edir. Çovdar çörəyi aşağı energetik dəyərə malik olduğu üçün bəzi ölkələrdə pəhriz ərzağı kimi istifadə olunur. Parisdə, Sankt-Peterburqda, Lvovda və sair yerlərdə çörək tarixi muzeyləri yaradılmışdır. Həmin muzeylərdə böyük sayda eksponatlar – qədim avadanlıqlar, müəssisə veteranlarının və onların qohumlarının muzeyə hədiyyə etdikləri sənədlər, şəxsi əşyalar, həbsxana kameralarında məhbusların çörəkdən hazırladıqları əşyalar, arxiv sənədlərinin surətləri, çörəyə aid nadir fotomateriallar saxlanır. **İnternetdə: www.books.google.com**

## 17 Oktyabr – Ümumdünya Yoxsulluqla Mübarizə Günü, (1992)



Bu günün tarixi 1987-ci ildən başlayır. 23 il əvvəl oktyabr ayının 17-də yüz minə yaxın insan 1948-ci ildə İnsan Haqları Haqqında Ümumi Deklarasiyanın imzalandığı Parisin Trokadero meydanına toplaşmışdı. Məqsəd bütün dünyadakı yoxsullara, aclıqdan əziyyət çəkən insanlara diqqət çəkməkdən ibarət idi. 1992-ci il 22 dekabr tarixində isə Birləşmiş Millətlər Təşkilatının 17 oktyabr tarixini Yoxsulluqla Mübarizə Günü kimi elan etdi. Hal-hazırda bütün dünyada milyonlarla insan yoxsulluqdan, aclıqdan əziyyət çəkir. Dünyada bu qədər aclıq, yoxsulluq olmasının əsas səbəblərindən biri israfın qlobal səviyyədə artmasıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına görə, dünyada istehlak üçün istehsal edilən hər 3 qidadan biri yeyilmədən zibilliyə atılır. Dünya səviyyəsində israf edilən qida miqdarı isə ildə 1.3 milyard tondur. Dünya Bankının hesabatlarına görə, inkişaf etmiş ölkələrin zibilliklərinə atılan qidalar dünyada acından ölən insanların 15 mislini doyuracaq səviyyədədir. Yəni, dünyada aclıq və ya qıtlıq problemi yox, sevgisizlik və laqeydlik problemi var. Yəni uşaqlar əslində acından ölmür, dəhşətli sistemin qorxunc nəticəsi olaraq həyatını itirir. Yaxşı planlama ilə israfın qarşısı alına bilər. Dünyadakı zənginliklər balanslı şəkildə bölüşdürülərək aclıq probleminin həll etmək mümkün olduğu halda, bu gün aclıq “dünyanın ən böyük 10 sağlamlıq riski”siyahısında hələ də birinci yerdədir. Bu mövzuda Fransa hököməti başqa dövlətlərə də nümumə olacaq bir addım atıb. Parlamentdə qəbul edilən qanuna görə, topdan satışla məşğul olanlar əllərində qalan ərzaq məhsullarını artıq zibilliyə atmayacaq. Satılmamış qidanın istehlak edilə bilməyəcək səviyyəyə gətirilməsi də qadağan edilir. Satılmayıb əldə qalan qida bağışlanmalı, heyvan yemi olaraq və ya gübrə kimi əkinçilikdə istifadə edilməlidir. Fransanın atdığı bu addım, başda inkişaf etmiş ölkələr olmaqla, hər ölkənin həyata keçirməli olduğu vacib siyasətdir. Təəssüf ki, dünyadakı olduqca böyük kütlə öz varlığını hər şeydən önəmli görür. Bunun adı isə eqoizmdir. İsraf bəlasının yer üzündən silinməsi, ancaq insanların eqoizm və acgözlüklərini tərk etmələri ilə mümkün olar. Buna nail olmağın isə bir yolu var: sevgi. Sevgini bilməyən bir insana şəfqəti, qoruyuculuğu, paylaşmağı və paylaşmanın verdiyi xoşbəxtliyi öyrətməyin yolu yoxdur. Dolayısı ilə dünyanın üz-üzə qaldığı bu aclıq və qıtlıq faciəsinə diqqət çəkmək istəyənlər ilk öncə insanlara sevgini öyrətməklə işə başlamalıdırlar. Dünyada aclıqla mübarizə aparan qurumlar ilk öncə şəfqətin gözəlliyini insanlara tanıtmalı, sonra onlara yol göstərməlidirlər.

**İnternetdə:** [www.books.google.com](http://www.books.google.com)

## 18 Oktyabr – Azərbaycan  Respublikasının Dövlət Müstəqilliyi Günü, (1991)

***Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir.***

**Ümummilli lider Heydər Əliyev**



XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etmişdir. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – “Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı” qəbul edilib. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılıb və əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verib. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edilib. Tarix sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də, təxminən, 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi  şəraitdə fəaliyyət göstərməyə başladı. Azərbaycan müstəqilliyini ilk olaraq qardaş Türkiyə Respublikası (1991-ci il noyabrın 9-da) tanıdı. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən  əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

Azərbaycan Milli Ensiklopediyası:25 cilddə.C.1-2.-Bakı, 2009-2010

## 20 Oktyabr – Beynəlxalq  Kulinariya Günü, (2007)



Ümumdünya Kulinariya Təşkilatları Birliyi 2004-cü ildə İrlandiyanın Dublin şəhərində keçirdiyi beynəlxalq konfransda hər il oktyabrın 20-i Beynəlxalq Kulinariya Günü kimi elan edilməsi haqda qərar qəbul edib. Beynəlxalq Kulinariya Günü Azərbaycanda 20 oktyabr 2007-ci ildən etibarən təntənəli şəkildə qeyd olunur. Beynəlxalq Kulinariya Gününün bayram kimi keçirilməsi ona görə əhəmiyyətlidir ki, gənc nəsil Azərbaycanın milli kulinariyasının sirlərinə bələd olur, gələcəkdə ölkənin hüdudlarından kənarda xalqı layiqincə təmsil etmək imkanı qazanır. Hər xalqın özünəməxsus tarixi, ədəbiyyatı, folkloru, milli adət-ənənəsi olduğu kimi, özünəməxsus mətbəxi də mövcuddur. Xalqımızın milli mətbəx mədəniyyətinin öyrənilməsi və təbliği ilə məşğul olan Azərbaycan Milli Kulinariya Mərkəzi (AMKM) isə 1991-ci ildə yaradılıb. Bu təşkilat 1992-ci ildən Ümumdünya Kulinariya Təşkilatları Birliyinin üzvüdür. Ölkəmiz keçmiş SSRİ ərazisindən və Türk dünyasından bu quruma qəbul edilən ilk dövlət olub. 1993-cü ildə Azərbaycan komandası ilk dəfə Maltada keçirilən Dünya kulinariya çempionatına qoşulub və qızıl medalla vətənə dönüb. Çünki Milli Kulinariya Mərkəzi yarandığı gündən aparıcı kulinarları, səliqə-sahmanı və bu sahədə yaradıcılıq fantaziyası olan mütəxəssisləri ətrafında birləşdirib. Qatıldığı bütün yarışlarda birinciliyi əldən verməyən milli kulinariya ustalarımız dünyanın bir neçə ölkəsində xalqımıza məxsus zəngin mətbəx mədəniyyəti nümayiş etdiriblər. Hətta Malta Prezidenti Qvide de Marko, İngiltərə şahzadəsi Anna azərbaycanlı kulinarların əl qabiliyyətinə heyran qalmış, onları qəbul etmiş, mükafatlandırmışlar. Kulinariya özü də bir yaradıcılıqdır. Ölkəmiz 1998-ci ildən YUNESKO-nun Xalq Yaradıcılığı Təşkilatının da üzvüdür. Azərbaycanın mətbəx tarixinə, mədəniyyətinə də qısqanclıqla yanaşan bədnam qonşularımız bir neçə beynəlxalq yarışlarda xalqımıza məxsus xörəkləri, şirniyyatları və süfrəbəzəmə ənənələrini öz adlarına çıxaraq erməni mətbəxi kimi dünyaya tanıtmaq istəmişlər. Lakin həmin yarışlara qatılan, bəzən də həmin tədbirlərdə münsif kimi çıxış edən AMKM mütəxəssisləri isə tezliklə bunun qarşısını almışlar. Nəticədə erməni jurnalistləri və bu sahənin alim və mütəxəssisləri bəzi dünya yarışlarından təcrid edilmişlər.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**20 Oktyabr – Energetiklər Günü, (2004)**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə hər il oktyabrın 20-si ölkəmizdə energetiklərin peşə bayramı kimi qeyd edilir. Məqsədyönlü enerji siyasəti dövlətin milli təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafında çox mühüm əhəmiyyətə malikdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir. Bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektrik enerjisi üzrə proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də böyük nailiyyətlərin əldə olunmasına geniş imkanlar yaratmışdır. Bu ordenli-titullu mütəxəssislər gələcəkdə estafeti gənclərə vermək üçün sabahın daha müasir elektrik avadanlıqlarını bacarıqla idarə edə biləcək gənc energetiklər nəslinin yetişdirilməsinə də xüsusi diqqət və qayğı göstərirlər.

**İnternetdə: www.books.google.com**

## 22 Oktyabr – Beynəlxalq Məktəb Kitabxanaları Günü, (1999)



Beynəlxalq Məktəb Kitabxanaları Günü YUNESKO-nun təşəbbüsü ilə 1999-cu ildən etibarən qeyd olunur. İlk dəfə bu günün qeyd olunmasını Beynəlxalq Məktəb Kitabxanaları Birliyinin prezidenti Blanş Vullz elan edib. 2005-ci ildə bu bayramın rəsmi statusunu birliyin yeni prezidenti Piter Cenko təsdiqləyib.

2008-ci ildən bu günün qeyd olunması aylığa çevrilib (22 oktyabr – 22 noyabr). Bu isə hər bir məktəb kitabxanasına ay ərzində ən münasib tarixi seçərək bayramı qeyd etməyə imkan verir.

Kitabı uşaqlara ən yaxşı tanıdan kitabxanalardır. Burada ayrı-ayrı fənlərə aid əlavə materialları, tarixə, ədəbiyyata dair müxtəlif kitabları, ensiklopediyaları, bir sözlə, axtarılan sualların əksəriyyətinə cavab verəcək mənbələri tapmaq mümkündür.

**İnternetdə: www.books.google.com**

**24 Oktyabr – Birləşmiş Millətlər Təşkilatı Günü, (1945)**



Millətlər Cəmiyyəti 1927-ci ildə arbitraj və təhlükəsizlik üzrə xüsusi komissiya yaratdı. Həmin dövrdə Millətlər Cəmiyyətinin üzvü olan bütün ölkələr yeni müharibənin alovlanmasına yol verməmək üçün təntənəli şəkildə and içdilər. Ancaq andın mətni son dərəcə qeyri-müəyyən idi: dünyada heç bir ölkə başqa ölkəyə hücum edib müharibəyə başlaya bilməz. Tələb belə idi: bütün müharibələr müdafiə xarakteri daşımalıdır. Buna baxmayaraq, 1939-cu ildə Almaniya Çexoslovakiya və Polşaya soxuldu. Bununla da İkinci Dünya müharibəsi başlandı. Bu, Millətlər Cəmiyyətinin dağılması demək idi. İkinci Dünya müharibəsi (1939-1945) başa çatanda dünya xalqları bir daha qətiyyətlə dedilər: "Müharibə olmasın!" Çünki bu dəfə müharibə 60 milyon insanın həyatına son qoymuşdu. Əbədi sülhü bərqərar edib, möhkəmləndirən yeni beynəlxalq birliyin yaradılması zərurəti meydana çıxdı. Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər arasında dinc əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə müstəqil dövlətlərin könüllü birləşməsi nəticəsində yaranan beynəlxalq təşkilat oldu. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin ilin 24 oktyabrında qüvvəyə minmişdir. Odur ki, 24 oktyabr beynəlxalq aləmdə BMT Günü kimi qeyd olunur. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə düşür. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Məclis, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT Baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-nin iqamətgahı Nyu-Yorkda yerləşir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdır. BMT yarandığı vaxtdan bəri onun yeddi baş katibi olmuşdur: Treqvi Li (Norveç), Daq Hammarskold (İsveç), U Tan (Birma), Kurt Valdhaym (Avstriya), Havyer Peres de Kuel (Peru), Butros-Butros Qali (Misir), Kofi Annan (Qana). BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir. BMT-nin münaqişə zonalarında yerləşdirmək üçün müxtəlif ölkələrin hərbiçilərindən təşkil olunmuş və "mavi dəbilqəlilər" adlanan sülhməramlı qoşun kontingenti də vardır. Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 №-li qətnamələr qəbul edilmişdir.

**İnternetdə:www.books.google.com**

**28 Oktyabr – Beynəlxalq Animasiya Günü, (2002)**



Beynəlxalq Animasiya Günü (International Animation Day) 2002-ci ildən etibarən qeyd edilir. Beynəlxalq Animasiya Filmləri Assosiasiyasının Fransa bölməsinin təşəbbüsü ilə, 1892-ci ilin 28 oktyabrında fransız rəssam və ixtiraçı Emil Reynonun icad etdiyi praksinoskopun ilk nümayişinin 110 illik yubileyi münasibətilə təsis olunub. Bu günün 125 illik tarixi var.

İxtiraçı "optik teatr" adlanan bu cihaz vasitəsilə əllə çəkilmiş rəsmləri hərəkətə gətirib. Animasiya sənəti bu gün elə bir dövrünü yaşayır ki, ona nəinki uşaqlar, böyüklər də həvəslə baxırlar. Baxmayaraq ki, Hollivud maraqlı animasiya məhsulu ilə bizi tez-tez sevindirir, lakin milli cizgi filmlərimizin yaddaşımızda öz yeri var.

Azərbaycanda 1969-cu ildən bu günə qədər 92, son 10 ildə isə təxminən 20-yə yaxın cizgi və animasiya filmi istehsal edilib. Filmlərin nümayişinə gəlincə F.Əhmədov bildirdi ki, kinoteatra ən azı 1 saatlıq film verilməlidir. Bizim filmlərin böyük əksəriyyəti 10 dəqiqəlikdir. Səbəb isə animasiyanın böyük vaxt və zəhmət tələb etməsidir. Ona görə də tammetrajlı animasiya filminin istehsalı nəzərdə tutulub və onun prokatı təşkil olunacaq.

**İnternetdə:**[www.books.google.com](http://www.books.google.com)

**30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü, (1974)**



Bu günün tarixi 1974-cü il 30 oktyabr tarixində keçmiş SSRİ-də məhkum olunmuş siyasi məhbus Kronid Lyubarski tərəfindən Mordovia və Perm düşərgələrinin digər məhbusları Beynəlxalq Siyasi Məhbuslar Gününü həbsxanada aclıq edərək, siyasi repressiya qurbanlarının xatirəsinə şam yandırmaqla qeyd etməyə başlayıblar. Elə həmin gün Sergey Kavalyov Andrey Saxarovun evində mətbuat konfransı təşkil edərək həbsxanada keçirilmiş bu aksiya barədə məlumat verib, həbsxana düşərgəsindən bəzi sənədləri ictimailəşdirib və siyasi məhbusların sözlərini ictimaiyyətə çatdırıb. Bir neçə aydan sonra bu mətbuat konfransının təşkili Kavalyovun ittihamnaməsinin tərkib hissələrindən birinə çevrilib. Bu hadisədən sonra oktyabrın 30-u Beynəlxalq Siyasi Məhbuslar Günü və Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü kimi  qeyd olunur.

**İnternetdə: www.books.google.com**

**Bu tarixi unutmayaq**
**2 Oktyabr – Xocavənd rayonunun işğalı günü, (1992)**

***Düşmən Azərbaycana məqsədli şəkildə vurduğu bu ziyanın əvəzini mütləq alacaq, Qarabağ torpağı düşmən tapdağı altında qalmayacaq!***

**Ümummilli lider Heydər Əliyev**




Xocavənd rayonu 1991-ci ildə Martuni və Hadrut rayonlarının bazasında yaradılıb. Ərazisi 1458 kvadratkilometr olan rayonda 1 şəhər, 2 qəsəbə, 81 kənd olub. Xocavəndin azərbaycanlılar yaşayan Tuğ və Salakətin kəndləri 1991-ci il oktyabrın 30-da, Xocavənd kəndi noyabrın 19-da, Naxullu kəndi isə 1992-ci il yanvarın 9-da işğal edilib. 1992-ci il fevralın 17-də isə ermənilər rayonun Qaradağlı kəndinin dinc sakinlərinə qarşı əsl soyqırım aktı həyata keçiriblər. Hər tərəfdən əlaqəsi kəsilən Qaradağlıya hücum edən ermənilər kəndi yandıraraq, dinc sakinlərə amansızlıqla divan tutublar. 800 nəfərdən çox sakini olan kənddə işğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladları öldürülənləri və yaralıları bir yerdə təsərrüfat quyusuna tökərək üstünü torpaqlayıblar. Ümumilikdə əsir götürülənlərdən 68 nəfər öldürülüb, 50 nəfər böyük çətinliklərlə əsirlikdən azad edilib. Kənddə 200 ev, bir mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılıb. 1992-ci il oktyabrın 2-də rayonun Əmirallar, Muğanlı və Kuropatkin kəndləri, 1993-cü il iyulun 23-də Günəşli, avqustun 20-də Xətai kəndləri ermənilər tərəfindən işğal edilib və yandırılıb. Düşmənə qarşı mərdliklə vuruşan xocavəndlilərin 145 nəfəri şəhid olub. Zəngin təbii sərvətləri, abidələri olan qədim yaşayış məskənlərindən sayılan Xocavənd son 20 ildə ermənilər tərəfindən talanıb, abidələr dağıdılıb, zəngin təbii meşələr qırılaraq məhv edilib, nadir bitki və ağac növlərinin kökü kəsilib.

Prezident İlham Əliyevin tapşırığı ilə Qaradağlı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində son illər xeyli iş görülüb. 2008-ci il oktyabrın 4-də Beyləqan rayonunda xocavəndlilər üçün salınan qəsəbənin açılışında iştirak edən Prezident İlham Əliyev demişdir ki, bu faciə haqqında hamı bilməlidir. Artıq Qaradağlı faciəsindən bəhs edən "Soyqırım – Qaradağlı" adlı film çəkilib, bu istiqamətdə tədbirlər indi də davam etdirilir. Xocavəndlilər inanırlar ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, qətiyyəti sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunacaq, işğal altında olan bütün ərazilərimiz azad ediləcək, qətlə yetirilən günahsız insanların qanı yerdə qalmayacaq.

**İnternetdə: www.books.google.com**

## 29 Oktyabr – Zəngilan rayonunun işğalı günü, (1993)



*Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var. Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş vermişdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə həm o torpaq üzərində insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.*

**Ümummilli lider Heydər Əliyev**

Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bu ərazidə mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir. Zəngilan rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Rayonun sahəsi 707 kvadratkilometr, əhalisi isə 35.351 nəfər olmuşdur. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir. XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazıldı. Təqvimimizdə daha bir qara günün sayı artdı – 29 oktyabr (1993-cü il) Zəngilan müharibə alovunun qasırğasını 1990-cı ildən daha tez-tez hiss etməyə başladı. Ermənilər dəmir yolunu bağlayır, qatarları saxlayır, adamları girov götürürdülər. Xronoloji ardıcıllığa qısa nəzər yetirək: 1992-ci ilin yanvar ayının sonunda ermənilərin Zəngilana mütəşəkkil hücumları başlayır. Fevralın 1-də Günqışlaq, Qazançı, Dərəli və Vejnəli kəndlərinə basqın edirlər və bu kəndlər düşmənin nəzarəti altına düşür. 2 həftə sonra Qazançı və Dərəli kəndləri azad edilsə də, Seyidlər kəndi mühasirədə qalır. İyulun 6-da düşmən rayon mərkəzini atəşə tutur. Oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalayır. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçir. Bununla da rayonun işğalının əsası qoyulur...

Zəngilanda nəyimiz qaldı? Zəngilan boyda Vətən! Dünyada ikinci, Avropada birinci nadir çinar meşələri, torpaq üzərində olan bütün var-dövlət, 67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmir yol stansiyası, 2 şərab zavodu, konserv zavodu, dəmir yol deposu... Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

**İnternetdə: www.books.google.com**

**Yubilyar yazıçı və şairlər**

**8 Oktyabr – Şair Adil Cəmilin anadan olmasının 65 illiyi, (1954)**



Adil Cəmil 1954-cü il oktyabrın 8-də Azərbaycanın Kəlbəcər rayonunun Kilsəli kəndində anadan olmuşdur. Burada ibtidai məktəbi, Mingəçevir şəhərində isə 9 saylı orta məktəbi bitirmişdir. ADU-nun Jurnalistika fakültəsində təhsil almışdır (1972-1977). Təyinatla "Yazıçı" nəşriyyatının sərəncamına göndərilmişdir. Burada poeziya redaksiyasının redaktoru olmuşdur (1977-1990). "Həqiqət" qəzetində baş redaktor, "Bakı" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdiri, "Boz qurd" qəzetində redaktor (1990-1993), Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi nəzdində olan mətbəədə nəşriyyat şöbəsinin rəisi (1993-1994), "Binəqədi" rayon qəzetinin redaktoru (1994-2001) işləmişdir. Hazırda "Ədəbiyyat qəzeti"nin şöbə müdiri vəzifəsində çalışır (2002-ci ildən). Hələ orta məktəb illərindən bədii yaradıcılığa başlasa da, ilk mətbu şeiri – "Bahar" 1970-ci il martın 22-də "Mingəçevir işıqları" qəzetində dərc olunmuşdur. Bədii tərcümə ilə də məşğul olur. Rus, belorus, özbək, Latın Amerikası poeziyasından etdiyi tərcümələr qəzet, jurnal və toplularda dərc olunmuşdur. Onun mənzum tərcümə etdiyi "Manas" qırğız xalq qəhrəmanlıq dastanından müəyyən hissələr Azərbaycan mətbuatında dərc olunmuşdur. "Manas" eposu və türk dastançılıq ənənəsi" mövzusunda elmi tədqiqatını başa çatdırıb müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür (2004). Həmçinin iyirmiyə yaxın bədii filmi – "Məhəbbətin son mahnısı" (Türkiyə), "Samraat" (Hindistan), "13-cü nəvə" (Qırğızıstan), "Qayıtmağı unut" (Moldaviya) və s. doğma dilimizə çevirmişdir. Şeirləri qardaş sovet xalqlarının dillərinə tərcümə olunmuşdur. Mingəçevirdə yaşayıb-yaradan şairlərin poeziya-baxış müsabiqəsinin qalibi kimi (1976) respublika kitabsevərlər cəmiyyətinin və "Mingəçevir işıqları" qəzetinin Fəxri fərmanlarını almışdır. Kutaisidə keçirilən "Mayakovski poeziya günləri"nin (1985), Qırğızıstanda keçirilən "Manas" eposunun min illik yubileyinin (1995) iştirakçısı olmuşdur. 30 dekabr 2015-ci ildə Azərbaycanın Əməkdar jurnalisti fəxri adına layiq görülmüşdür. "Qızıl qələm" mükafatı laureatı (1998), Azərbaycanın Əməkdar jurnalisti (2015).

**Əsərləri:** "İşıqlar, pərvanələr" (1980), "Gündoğandan günbatana" (1983), "Aylı gecə nağılı" (1984), "Sözümün canı var" (1987), "Yuxusunda gülən qız" (1989), "Ürəyimdə bir haray var" (1992), "El üçün ağlayan gözüm" (1997), "Manas" eposu və türk dastançılıq ənənəsi" (2002) və s.

**Tərcümələri:** "Manas" (eposdan parça). Bakı: Səda, 1995, 32 səh.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.31.

**10 Oktyabr – Ədəbiyyatşünas Aida İmamquliyevanın 80 illiyi, (1939-1993)**



Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Burada 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsində təhsil almışdır. Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirib (1966), Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, sonra baş elmi işçi (1966-1976), ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991), həmin institutda direktor vəzifəsində çalışmışdır (1991-ci ildən). "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında (1964, N 12) dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən ruscaya çevirib "Vostoçnı almanax"da (Moskva, 1979, VU buraxılış) çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda – toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru olmuşdur (1971-1973-1979-1981). "Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında" (1970), "Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi" (1977), "Sovet Azərbaycanı və xarici Şərq" (1980), "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü (1987) və cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur (1983-cü ildən). Moskva, Bakı, Düşənbə, Hamburq (ADR) şəhərlərində keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. 1992-ci il sentyabrın 19-da Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Assosiasiya pera" i Mixail Nüayme (1975), "Cübran Xəlil Cübran" (1975), "Korifei novoarabskoy literaturı" (1991), "Qələmlər birliyi" və "Mixail Nüaymə" (2003), "Yeni ərəb ədəbiyyatının korifeyləri" (2003).

**Tərcümələri:** (ərəbcədən) "İnsan və quş" (1974), "Ağ günlərin sorağında"(1983).

İnternetdə: https://az.wikipedia.org/wiki/Aida_İmanquliyeva

**13 Oktyabr – Şair Xeyrulla Camalın 90 illiyi, (1929)**



Abdullayev Xeyrulla Camal oğlu 1929-cu il oktyabrın 13-də Azərbaycanın Salyan rayonunun Xolqarabucaq kəndində kolxozçu ailəsində anadan olmuşdur. Burada kənd yeddiillik məktəbini bitirdikdən sonra ikiillik tibb məktəbində təhsil almışdır (1945-1947). Əmək fəaliyyətinə Göyçay rayon xəstəxanasında feldşer kimi başlamışdır. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır (1959-1964). Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində redaktor işləmişdir (1966-1990). Bədii yaradıcılığa 1960-cı ildən başlamışdır. Həmin vaxtdan dövri mətbuatda, efirdə və mavi ekranda şeirləri ilə çıxış etmişdir. Onun ssenarisi əsasında "Badamlı" sənədli televiziya filmi çəkilmişdir. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.
**Əsərləri:** "İlk addımlar" (1968), "Bir ürək işıq" (1978), "Torpaq şirindir" (1983), "Məhəbbət işığında" (1988), "Günəş tonqalıyam" (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.407.

**15 Oktyabr – Şair, dramaturq Əliyar Yusiflinin 90 illiyi, (1929-1993)**



Əliyev Əliyar Yusif oğlu 1929-cu il oktyabrın 15-də Şərur rayonunun Püsyan kəndində anadan olmuşdur. Ordubad Pedaqoji Texnikumunu (1950), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki APU) dil və ədəbiyyat fakültəsini (1956), Moskvada M. Qorki ad. Ədəbiyyat İnstitutu nəzdində ikiillik ali ədəbiyyat kurslarını (1969) bitirmişdir. Pedaqoji fəaliyyət göstərmiş, mətbuatda çalışmışdır. 1970-ci ildən Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Baş redaktoru olmuşdur. "Dağlar yaraşığı" (1964), "Səni xatırlayıram" (1967), "Səni tapacağam" (1979), "Bənövşə ətri" (1985) və s. şeir topluları nəşr edilmişdir. "Vicdan əzabı" (1961), "Ürək sevərsə" (1962), "Səadət naminə" (1970), "Gözüm yollarda qaldı" (1975), "Siz xoşbəxt yaşayın" (1981), "Əlincədən uçan qartal" (1989) pyesləri tamaşaya qoyulmuşdur.

**Əsərləri:** "Dağlar yaraşığı" (1964), "Səni xatırlayıram" (1967), "İllər ömürdən gedir" (1974), "Səni tapacağam" (1979), "Bənövşə ətri" (1983) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.278.

**16 Oktyabr – Ədəbiyyatşünas İsa Həbibbəylinin 70 illiyi, (1949)**



Həbibov İsa Əkbər oğlu 1949-cu il, oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında "Ədəbiyyat nəzəriyyəsi" ixtisası üzrə təhsil almışdır (1974-1978). "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik (57.15.01 - Ədəbiyyat nəzəriyyəsi) (1980), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" (57.16.01 - Azərbaycan ədəbiyyatı tarixi;) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1996). Filologiya elmləri doktoru, professordur (1997). Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvüdür. Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Əməkdar elm xadimidir. 1971-ci ildən Şərur rayonunda kənd orta məktəbində müəllim işləmişdir. 1975-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, dosent, elmi işlər üzrə prorektor, 1996-cı ildən 2013-cü ilə qədər isə Naxçıvan Dövlət Universitetinin rektoru vəzifələrində çalışmışdır. 2013-cü ilin aprel ayından Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Yeni Azərbaycan Partiyasının üzvüdür. Birinci və ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur. III çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur (2005-2010). Hal-hazırda IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür. Azərbaycan-Belçika, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan-Pakistan, Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür. İsa Həbibbəyli 1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

**Əsərləri:** "Romantik lirikanın imkanları" (1984), "Tələbələrin elmi-tədqiqat işlərinin təşkili yolları, Naxçıvan" (1984), "Ədəbiyyat nəzəriyyəsi" (1985), "Ədəbi yüksəliş" (1985), "C. Məmmədquluzadənin həyat və yaradıcılığının əsas tarixləri" (1987), "C. Məmmədquluzadə və ədəbi mühiti" ( 1990), "XX əsr Azərbaycan yazıçıları" (1992), "Azərbaycan yazıçılarının bioqrafiləri", "Naxçıvan universiteti, Ərzurum" (1992), "Əsrin dörddə biri" (1992), "Məmməd Araz. Qayalara yazılan səs" (1994), "Azərbaycan tarixində Naxçıvan" (1996), "Ustad Məhəmmədhüseyn Şəhriyar" (1999), "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2002), "Müasirləri Abbas Zamanov haqqında" (2003) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.439.

## 17 Oktyabr – Şair, dramaturq Hüseyn Razinin 95 illiyi, (1924-1998)



Rzayev Hüseyn Məmməd oğlu (Hüseyn Razi) 1924-cü il oktyabrın 17-də Naxçıvan MR Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. Ordubad Pedaqoji Məktəbini bitirdikdən sonra Culfa rayonunun Ərəzin kəndində orta məktəbdə müəllim işləmişdir (1941-1943). İkinci dünya müharibəsində Sovet ordusu sıralarında Oryol, Kursk, Bryansk istiqamətində gedən döyüşlərdə iştirak etmiş, yaralanmış, sağaldıqdan sonra kiçik təyyarə mütəxəssisləri məktəbini bitirmiş, ikinci Pribaltika cəbhəsində əlahiddə uzaq kəşfiyyat alayında xidmət etmiş, ordudan tərxis olunmuşdur (1943-1945). Ordubadda səkkizillik məktəbdə müəllim, Dəstə kənd klubunda müdir, Naxçıvan Radio Verilişləri Redaksiyasında redaktor, "Şərq qapısı" qəzetində ədəbi işçi, Azərbaycan Teleqraf Agentliyinin Naxçıvan MR üzrə xüsusi müxbiri vəzifəsində çalışmışdır. "Şərq qapısı" qəzetində Ədəbiyyat və İncəsənət şöbəsinin müdiri olmuş (1962-1989), sonra təqaüdə çıxmışdır (1989). S.M.Kirov adına ADU-nun filologiya fakültəsini bitirmişdir (1959). 1947-ci ildə ilk şeirləri "Şərq qapısı" qəzeti və "İnqilab və mədəniyyət" jurnalında çap olunmuş, bundan sonra dövri mətbuatda müntəzəm olaraq çıxış etmişdir. O, poetik yaradıcılıqla bərabər tərcümə ilə də məşğul olmuşdur. M.İsakovski, L.Martınov, S.Mixalkov, S.Şipaçev, O.Şestinski, R.Həmzatov, R.Babacan, A.Bartonun şeirlərini dilimizə tərcümə etmişdir. Şeirləri türk, tatar, fars, fransız və rus dillərinə tərcümə olunmuşdur. Dramaturq kimi onun "Odlu diyar" (1963), "Tarla gözəli" (1964), "Günəş" (1968), "Arxalı dağlar" (1974), "Haray səsi" (1978), "Şirinliyin acısı" (1981) pyesləri teatrlarda tamaşaya qoyulmuşdur. "Buludlar arasında", "Həyəcanlı gecə" nəsr əsərlərinin, yüzlərlə publisistik məqalə və oçerklərin, teatr resenziyalarının, "İrəvan ədəbi mühiti" adlı irihəcmli tədqiqat işinin müəllifidir. Çexiya, Macarıstan, Slovakiya, Polşa, İran, İraq və başqa xarici ölkələrə səfər etmişdir. Xidmətlərinə görə bir neçə medalla, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin və Naxçıvan MR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanlarına layiq görülmüşdür. Hüseyn Razi 1998-ci ildə fevral ayının 27-də vəfat etmiş və doğulduğu Dəstə kəndində dəfn edilmişdir.

**Əsərləri:** "Kəndimizin səhəri" (1958), "Ana məhəbbəti" (1960), "Buludlar arasında" (1961), "Tarla gözəli" (1963), "Ömür yolları" (1964), "Həyəcanlı gecə" (1966), "Səslənən dağlar" (1970), "Həmişə bahar" (1974), "Araz sahilində" (1974), "Canlı tonqal" (1977), "Ayrılmaram" (1981), "Sahil həsrəti" (1985), "Gözün aydın" (1996 ) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.392.

**21 Oktyabr – Şair Balasadığın 90 illiyi, (1929-2003)**



Aslanov Balasadıq Sadıq oğlu 1929-cu il oktyabrın 21-də Bakının Mərdəkan qəsəbəsində kolxozçu ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirmişdir (1936-1946). Ailə vəziyyətinə görə təhsilini davam etdirə bilməmişdir. Əmək fəaliyyətinə Əzizbəyov neftdə çilingər kimi başlamış (1946-1952), sonra Bakı Radio zavodunda elektrik qaynaqçısı (1952-1969), "Azərbaycanfilm" kinostudiyasında aktyor şöbəsinin rəisi (1969-1988), həmin studiyanın dublyaj qrupunda rejissor assistenti-redaktor, "Oğuz eli" qəzeti redaksiyasında poeziya və nəsr şöbəsinin müdiri vəzifələrində işləmişdir (1990-2003). Azərbaycan klassik və müasir ədəbiyyatını, eləcə də dünya xalqları əbədiyyatını mütaliə yolu ilə dərindən öyrənmişdir. Ədəbi aləmə 1963-cü ildən dövri mətbuatda çap etdirdiyi şeirlərlə gəlmişdir. İlk mətbu şeirləri – "Yaylağa payız düşür", "Nəğmələr dinən zaman" "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur (1963). "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri" qəzetlərində müntəzəm çıxış etmişdir. "Atəşgahda möcüzə" (1997) kitabı kütləvi tirajla buraxılmışdır. "Karvan yolu" pyesi tamaşaya qoyulmuşdur. SSRİ Xalq artisti Zeynəb Xanlarovaya həsr edilmiş tammetrajlı bədii filmin ("Gün doğandan gələn səs") ssenarisinin şərikli müəllifidir. Aslanov Balasadıq 2003-cü il mayın 23-də Bakıda vəfat etmişdir.

**Əsərləri:** “Nəğmə istəyir anam” (1968), “Mənim tale ulduzum” (1989), “Meyxanalar” (1993), “Şeirlər” (1993) və s.

**Filmoqrafiya:** “Atası yandı” (film, 1986).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.113.

**26 Oktyabr – Yazıçı, Həbibə Zeynalovanın 100 illiyi, (1919-1984)**



Zeynalova Həbibə Məmməd qızı 1919-cu il oktyabrın 26-da Bakıda fəhlə ailəsində doğulmuşdur. Orta məktəbin yeddinci sinfini bitirib Azərbaycan Dövlət nəşriyyatında oxucu vəzifəsində işləmiş, əczaçılıq texnikumunda təhsilini davam etdirmişdir. “Azərbaycan qadını” jurnalında məsul katib (1939-1940) olmuşdur. Bu dövrdə ədəbi fəaliyyətə başlamış, “Təsadüf” adlı ilk hekayəsi 1938-ci ildə “Ədəbiyyat qəzeti”ndə dərc edilmişdir. Gənc yazıçıların Moskvada keçirilən konfransında iştirak etmişdir (1938). Onun hekayələri “Gənc işçi”, “Müəllim”, “Ədəbiyyat qəzeti”ndə və “İnqilab və mədəniyyət”, “Azərbaycan qadını” jurnallarında dərc olunmuşdur. ADU-nun filologiya fakültəsində təhsil almış (1940-1945), eyni zamanda Azərbaycan uşaqları bədii tərbiyə evində şöbə müdiri, direktor vəzifələrində işləmişdir. Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat muzeyində elmi işçi, şöbə müdiri olmuş (1945-1952), “Göyərçin” jurnalında ədəbi işçi, nəşr şöbəsinin müdiri işləmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və medallarla təltif olunmuşdur. Həbibə Zeynalova 1984-cü il noyabrın 16-da vəfat etmişdir.

**Əsərləri:** “Kiçik hekayələr” (1953), “Dilarə bağa gedir” (1959), “Xoruzun neçə rəngi var?” (1960), “Ayrıla bilmədim” (1962), “Sünbül kukla” (1964), “Ağaclar çiçəklənəndə” (1965), “Xəzri həmişə əsmir” (1969), “Günəş məndən göyçəkdir” (1970) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.357.

**27 Oktyabr – Yazıçı, publisist Ramiz Mirzənin 65 illiyi, (1954-2007)**



Ramiz Mirzəyev Ramiz Şəmşəd oğlu 1954-cü il oktyabrın 27-də Azərbaycan Respublikasının Tovuz şəhərində anadan olub. 1972-ci ildə Tovuz şəhər orta məktəbini bitirib və həmin il Azərbaycan Politexnik İnstitutunun "Radiotexnika və radiorabitə" fakültəsinin əyani şöbəsinə daxil olub. 1977-ci ildə institutu bitirərək radio rabitəsi və radio verilişi üzrə mühəndis ixtisası alıb. 1997-ci ilin iyun ayına qədər Azərbaycan Dövlət Qazlaşdırma Komitəsi, 2 yanvar 1989-cu il tarixindən Azərbaycan SSR Dövlət Yanacaq Komitəsi, 3 sentyabr 1992-ci il tarixindən "Azəriqaz" Dövlət Şirkəti maye qazın istehsalı və ixracı üzrə istehsalat birliyində rəis müavini, rəis, 5 may 1995-ci il tarixindən isə maye qaz üzrə istehsalat birliyinin baş direktoru vəzifələrində işləyib.

1997-ci ilin iyun ayından etibarən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azərneftyağ" istehsalat birliyinin baş direktoru, 31 mart 2003-cü il tarixindən 26 avqust 2006-cı il tarixinə qədər "Azərneftyağ" neft emalı zavodunun direktoru vəzifəsində işləyib. 2006-cı ilin avqust ayından etibarən Azərbaycan Respublikası Sənaye və Energetika Nazirinin müavini vəzifəsində çalışırdı.

29 dekabr 2003-cü ildə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti seçilib. 1993-cü il fevralın 23-dən Yeni Azərbaycan Partiyasının üzvü olub. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya komissiyasının 30 iyun 2006-cı il tarixli qərarı ilə texnika elmləri doktoru alimlik dərəcəsini alıb. 50-dən artıq elmi əsərin müəllifidir. Ramiz Mirzəyev 30 oktyabr 2007-ci ildə xərçəng xəstəliyindən vəfat edib.

**Əsərləri:** “Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası”, “Doğan günəş” (1990) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.722.

## Xarici ədəbiyyat

## 15 Oktyabr – Rus şairi Mixail Yuryeviç Lermontovun 205 illiyi, (1814-1841)



Görkəmli rus şairi, yazıçı, dramaturq Mixail Yuryeviç Lermontov 15 oktyabr 1814-cü ildə Moskva şəhərində anadan olub. Dahi rus yazıçısı və şairi M.Lermontov uşaqlıqdan şeirlər yazmağa başlamışdır. 1837-ci ildə yazdığı "Şairin ölümü" şeiri ona məşhurluq gətirmişdir. O, hərbçi qismində uzun müddət Qafqazın müxtəlif şəhərlərində qulluq etmiş, Tiflisdə Mirzə Fətəli Axundovdan Azərbaycan dilini öyrənmişdir. Yazıçının Qafqaz təəssüratlarına əsaslanan "Zəmanəmizin qəhrəmanı" romanı 1840-cı ildə çap olunmuşdur. Əsərin baş qəhrəmanı Peçorin öz dövrünün insanlarını tam olaraq əks etdirən bir obrazdır. Azərbaycanda olmuş, "Aşıq Qərib" dastanını qələmə almışdır. Mixail Yuryeviç Lermontov Rus, Alman, Fransız, Azərbaycan, Gürcü dillərini öyrənmişdir. Mirzə Fətəli Axundov Lermontova Azərbaycan dilini öyrətmişdir. Mixail Yuryeviç Lermontov 1841-ci ildə Pyatiqorskda dueldə öldürülmüşdür.

**Əsərləri:** "Maskarad" (1835), "Borodino" (1837), "Xəncər"(1838), "Düşüncə" (1839), "Bela" (1839), "Üç ovuc" (1839), "Mələk" (1840), "Əsrimizin qəhrəmanı" (1840) və s.

İnternetdə: http://wikipedia. Mixail_Lermontov

**Milli Qəhrəmanlar Zirvəsi**

**1 Oktyabr – Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Kazım Ərşad oğlunun 50 illiyi, (01.10.1969-15.11.1991)**



1969-cu il 1 oktyabr Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. 1976-1986-cı illərdə burada məktəbdə oxumuşdur. 1988-ci ildə ordu sıralarına çağırılmışdır. 1990-cı ildə Çelyabinsk şəhərində xidmətini başa vurub Gəncəyə dönmüşdür. Ermənilərin torpağlarımıza hücumu onu narahat edirdi. 1991-ci ildə Cəbrayıl rayonu Daxili İşlər Şöbəsində polis nəfəri kimi işə daxil olub, bununla da onun cəbhə həyatı başlayıb. Kazım bir neçə döyüşdə şücaətlə vuruşmuşdu. 1991-ci il 15 noyabr erməni qəsbkarları Xocavənd rayonunun Dərəkənd kəndinə hücum etmişdi. Kazım boş evlərdən birini özünə mövqe seçərək erməni faşistlərinin xeyli canlı qüvvəsini məhv etdi, azğınlaşmış ermənilər binaya od vurdular, kiçik çavuş Məmmədov Kazım qəhrəmancasına həlak oldu. Subay idi. Böyük Mərcanlı kəndində dəfn edilib. Oxuduğu 1 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır. Kazım Məmmədovun adına üç mükafat təsis edilib.

**Azərbaycan Respublikası Prezidenti Əbülfəz Elçibəyin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Məmmədov Kazım Ərşad oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.**

**İnternetdə: https://az.wikipedia.org/wiki/Kazım _Məmmədov**

**Noyabr**

**Əlamətdar və tarixi günlər**

6 Noyabr – Televiziya və Radio Günü, (1926)
8 Noyabr – Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü, (1932)
9 Noyabr – Dövlət Bayrağı Günü, (2009)
10 Noyabr – Ümumdünya Gənclər Günü, (1945)
12 Noyabr – Azərbaycan Respublikasının Konstitusiya Günü, (1995)
13 Noyabr – Ümumdünya Gözdən Əlillər Günü, (1745)
14 Noyabr – Ümumdünya Diabet Günü, (1991)
16 Noyabr – YUNESKO-nun Yaranması Günü, (1946)
16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü, (1995)
17 Noyabr – Milli Dirçəliş Günü, (1988)
19 Noyabr – Ümumdünya Fəlsəfə Günü, (2002)
20 Noyabr – Ümumdünya Uşaqlar Günü, (1956)
20 Noyabr – Azərbaycan Fotoqraflar Birliyinin (AFB) Yaradılması Günü, (1998)
21 Noyabr – Ümumdünya  Televiziya Günü, (1999)
21 Noyabr – Ümumdünya Salamlaşma Günü, (1973)
22 Noyabr – Ədliyyə İşçiləri Günü, (2000)
24 Noyabr – Morj Günü, (2008)
26 Noyabr – Azərbaycan Kəlağayısı Günü, (2014)
26 Noyabr – Ümumdünya İnformasiya Günü, (1994)
30 Noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi  Günü, (1988)
30 Noyabr – Ümumdünya Ev Heyvanları Günü, (1931)

**Bu tarixi unutmayaq**

20 Noyabr – Qarakənd faciəsi, (1991)

**Yubilyar yazıçı və şairlər**

Şair Məmməd İsmayılın 80 illiyi, (01.11.1939)
Şair Oqtay Rzanın 85 illiyi, (02.11.1934)
Yazıçı Gəray Fəzlinin 95 illiyi, (14.11.1924-1995)
Şair Abbasağanın 85 illiyi, (24.11.1934-1998)

**Xarici ədəbiyyat**
Tacik-fars şairi Əbdürrəhman Caminin 600 illiyi, (07.11.1419-1492)
Türk yazıçısı Rəşad Nuri Güntəkinin 130 illiyi, (25.11.1889-1956)

**İncəsənət**
Əməkdar artist Oqtay Ağayevin 85 illiyi, (07.11.1934-2006)
Rəssam Vəcihə Səmədovanın 95 illiyi, (24.11.1924-1965)

**Milli Qəhrəmanlar Zirvəsi**
Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlunun 45 illiyi, (03.11.1974-05.10.1994)
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Əsgər Ələkbər oğlunun 45 illiyi, (08.11.1974-17.03.1995)

## Əlamətdar və tarixi günlər

## 6 Noyabr – Televiziya və Radio Günü, (1926)

***Qarabağ müharibəsi dövründə Azərbaycan həqiqətlərini beynəlxalq arenaya çıxarılmasında dövlət televiziyasının müstəsna xidməti olmuşdur.***

**Ümummilli lider Heydər Əliyev**



Azərbaycanda hər il 6 noyabr – Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur. 1926-cı il noyabrın 6-da Azərbaycan radiosu fəaliyyətə başlayıb və o gündən sözügedən tarix radio işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Azərbaycan Televiziyası yaranandan sonra bu tarix təkcə radionun deyil, həm də teleradionun yaranma günü kimi qeyd olunmağa başlayıb. Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı ilin 14 fevralında efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və çıxışına "Göstərir Bakı" kəlməsilə başlayıb. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi göstərilib. 60 il əvvəl Zaqafqaziya ölkələri arasında ilk dəfə Bakıda ağ-qara rəngdə göstərən televiziya fəaliyyətə başlayıb. 1956-cı il fevralın 14-də Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti, yəni AzTV yayıma başlayıb. Yenicə yayıma başlayan televiziya ilk vaxtlar yalnız Bakı və Sumqayıtda göstərib. Təxminən 1 il sonra isə əhatə dairəsi genişlənib, Salyan, Quba, Kürdəmir və başqa rayonlarda da TV-ni seyr etmək mümkün olub. Bütün rayonlara yayımın gecikməsi isə həmin vaxt teleqüllənin istifadəyə verilməməsi ilə bağlı idi. Sonralar istifadəyə verilən teleqüllə cəmiyyət üçün yenilik oldu və Azərbaycanda televiziyanın simvoluna çevrildi. Hündürlüyü 180 metr olan teleqüllə artıq yoxdur. Yeni televiziya qülləsi inşa edildikdən sonra köhnəsi hissə-hissə söküldü. Dövlət televiziyası Azərbaycan teleməkanına texniki uğurlarla yanaşı, yaradıcılıq və telejurnalistikanın inkişafı baxımından da yeniliklər gətirib. Sovet dövründə dövlət televiziyası Azərbaycan dilinin təbiliğində əvəzsiz rol oynayıb. Azərbaycanın ilk elektron mətbu orqanı müstəqillik illərində də ciddi işlər görüb. **İnternetdə: www.books.google.com**

**8 Noyabr – Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü, (1932)**



Noyabrın 8-i Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Hələ 1932-ci ildə Bakı şəhərinin inkişafının Baş planının ilkin variantlarında yerüstü nəqliyyatın işini yüngülləşdirmək və şəhərin darısqal küçələrini tramvay, trolleybus və avtobus nəqliyyatından təmizləmək üçün ən sürətli və rahat nəqliyyat növünün – metropolitenin tikintisi qərara alınmışdı. Lakin bir qədər sonra başlanan 1941-1945-ci illər müharibəsi həmin niyyətin həyata keçməsinə mane oldu. Yalnız 1947-ci ildə, dağıdıcı müharibədən 2 il sonra hökumət layihə-axtarış işlərinin aparılmasının başlanması barədə qərar qəbul etdi. 1949-cu ildə metropolitenin tikinti bazasının yaradılmasına, 1954-ci ildə isə birinci xəttin texniki layihəsi təsdiq olunur və metropolitenin 12,1 kilometrlik xəttinin inşasına başlanır. Baş yolun xətləri dəniz sahilindən 500-700 metr aralı keçərək buxtaya paralel surətdə uzanıb gedirdi. 1953-cü ildə tikinti işləri müvəqqəti dayandırılır və yalnız 1960-cı ildə bərpa olunur. Bu da Bakı Metropoliteninin istismara verilməsini xeyli gecikdirir. 1966-cı ildə Bakı Metropoliteni İdarəsi yaradılır. 1967-ci il noyabrın 6-da Bakı şəhərində metropolitenin 5 stansiyası fəaliyyət göstərirdi. 1967-ci il noyabrın 25-dən metropolitenin daimi istismarı və qatarların müntəzəm hərəkəti başlanır. Hazırda Bakı Metropoliteninin 23 stansiyası var – “Həzi Aslanov”, “Əhmədli”, “Xalqlar dostluğu”, “Neftçilər”, “Qara Qarayev”, “Koroğlu”, “Ulduz”, “Bakmil”, “N.Nərimanov”, “Gənclik”, “C.Cabbarlı”, “Xətai”, “28 may”, “Nizami”, “Emlər Akademiyası”, “İnşaatçılar”, “20 Yanvar”, “Memar Əcəmi”, “Sahil”, “İçərişəhər”, “Nəsimi”, “Azadlıq prospekti” və “Dərnəgül”. Bu stansityalardan 14-ü ulu öndər Heydər Əliyevin Bakı metrosuna böyük diqqət və qayğısı sayəsində tikilərək istifadəyə verilmişdir. Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də Metropolitenə daim diqqət və qayğı ilə yanaşır. Məhz dövlətimizin başçısının beş il öncə imzaladığı sərəncam əsasında 8 noyabr Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü kimi təsdiq olunmuşdur.

**İnternetdə:** [www.books.google.com](www.books.google.com)

## 9 Noyabr – Dövlət Bayrağı Günü, (2009)

***Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli - mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*




Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət bayrağımız – milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmişdir. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət bayrağı eni və uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət, düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

2009-cu ilin noyabr ayında Dövlət Bayrağı Günü ilə bağlı Əmək Məcəlləsinin 105-ci maddəsinə salınan əlavəyə əsasən, 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü elan olunub.

**İnternetdə: www.books.google.com**

## 10 Noyabr – Ümumdünya Gənclər Günü, (1945)

***Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir. Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.***

**Ümummilli lider Heydər Əliyev**



Bu günün qeyd olunması barədə qərar Ümumdünya Demokratik Gənclər Federasiyası tərəfindən 1945-ci ilin 29 oktyabr Londonda keçirilən konfransda qəbul edilib. Gənclər təşkilatlarının beynəlxalq birliyi özündə siyasi, milli mənsubiyyətindən asılı olmayaraq bir çox müxtəlif gənclər təşkilatını birləşdirir. Federasiya bütün dünyada sülh, gənclərin hüquqları, xalqların müstəqilliyi, qabaqcıl gənclərin beynəlmiləl həmrəyliyi uğrunda mübarizə aparır. Bununla belə, müasir dövrdə gənclər bir sıra problemlərlə üzləşirlər. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda keçirilib. 1996-cı ildən sonra isə bu günü bütün MDB-də geniş şəkildə qeyd edirlər. Dünyadakı əmək qüvvəsinin dörddə birini gənclərin təşkil etdiyi müasir dövrdə işsizlərin yarısı məhz onların payına düşür. Əmək bazarları gənclərin yaxşı perspektivli işlərlə təmin etməkdə böyük çətinlik çəkir. Hazırda dünyada 25 yaşa qədər olan 3 milyard insan var. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ilin 9 aprelində qəbul edilən “Gənclər siyasəti haqqında” qanundur. Bu qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, Azərbaycan gəncləri “Sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir”. İnanırıq ki, bu gənclik böyük azərbaycanlı Heydər Əliyevin ideyalarını ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirəcək, inkişaf etdirəcək və daha işıqlı gələcəyə aparacaq.

**İnternetdə: www.books.google.com**

## 12 Noyabr – Azərbaycan Respublikasının Konstitusiya Günü, (1995)

***Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.***

**Ümummilli lider Heydər Əliyev**




Hazırkı Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmişdir. Bu, Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra ilk Konstitusiyası idi. Konstitusiya (lat. constitutio – "quruluş") – ölkənin əsas sənədi, dövlətin ali hüquqi qüvvəyə malik hüquqi-normativ aktıdır, dövlətin siyasi, hüquqi və iqtisadi əsaslarını və vətəndaşın hüquqi statusunu müəyyən edir. Azərbaycanın dövlətinin birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-nin 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası SSRİ Konstitusiyasına uyğunlaşdırılmış olsa da müəyyən özünəməxsusluğa malik idi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. 1994-cü ildə Prezident Heydər Əliyev sədrliyi ilə Konstitusiya komissiyası fəaliyyətə başladı və layihə 1995-ci ildə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycanın Respublikasının ilk Konstitusiyası qəbul olundu. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib. 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin sərəncamı ilə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiya Günü elan edilmişdir.

**İnternetdə: www.books.google.com**

**13 Noyabr – Ümumdünya Gözdən Əlillər Günü, (1745)**



13 noyabr 1745-ci ildə anadan olmuş görkəmli fransız pedaqoqu Valentin Hayuinin şərəfinə bir çox Avropa ölkələri 13 noyabr tarixini Beynəlxalq Korlar Günü kimi qeyd etməklə, mövcud ictimayyətin, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin diqqətini görmə qüsurlu insanların problemlərinə və onların inteqrasiya məsələlərinə cəlb etmişlər. Birləşmiş Millətlər Təşkilatı və Dünya Səhiyyə Təşkilatının tövsiyəsi ilə 13 noyabr Ümumdünya Gözdən Əlillər Günü kimi qeyd edilir. Ümumdünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə əsasən dünya əhalisinin 160 milyonu gözdən əlildir. Azərbaycanda da, beynəlxalq təcrübədə olduğu kimi, aidiyyatı dövlət orqanları tərəfindən gözdən əlil insanların sosial müdafiəsinə, onların təhsil, səhiyyə, idman, məşğulluq, sosial adaptasiya, istirahət və bu kimi problemlərinə daha çox diqqət yetirilir. 5 dekabr 2014-cü ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bilavasitə maliyyə və texniki dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı çərçivəsində görmə qabilliyyəti zəif və məhdud uşaqlar üçün Dil kursları və İnformasiya Mərkəzi açılmışdır. Son illər ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daha çox diqqət artırılıb. Ölkə başçısının imzaladığı sərəncamlar bu təbəqədən olan insanların həyat şəraitinin yaxşılaşmasında və onların cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynayır. Həmçinin bu insanları öz sıralarında birləşdirən, onların problemlərini işıqlandırıb, həllinə çalışan ictimai təşkilatların da fəaliyyətləri üçün geniş imkan yaranıb.

**İnternetdə: www.books.google.com**

## 14 Noyabr – Ümumdünya Diabet Günü, (1991)

Bəşəriyyətin diqqətini şəkərli diabetlə bağlı problemlərə yönəltmək məqsədi ilə 1991-ci ildən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST-ın) və Beynəlxalq Diabet Federasiyasının (BDF-nın) tövsiyələrinə görə bu tarix Ümumdünya Diabet Günü kimi qeyd edilir. 2007-ci ildən isə 14 noyabr BMT günü elan edilərək bütün üzv dövlətlərdə xüsusi qeyd edilir. Dünya Diabet Gününün (DDG) emblemi olan mavi dairə şəkərli diabet ətrafında hamının birləşməsini simvolizə edir. Hər il müxtəlif şüar altında keçirilən ÜDG-nün dəyişilməz amalı belə səslənir: “Güc birlikdədir!”. Qeyd etmək lazımdır ki, şəkərli diabet xəstəliyini təhlükəli və problemli edən onun müxtəlif yaş həddini əhatə etməsi, əhali arasında geniş yayılması, ağır fəsadların meydana gəlməsi, böyük maddi vəsait tələb etməsidir. Xəstəliyin xoş gedişatı üçün, yəni onun həyat tərzinə çevrilməsi üçün düzgün tibbi xidmətə, sosial-iqtisadi qayğıya, normal psixoloji duruma və bütün bunları tənzimləyə biləcək hüquqi bazaya ehtiyac var. Hazırda dünyada 371 milyon insanda şəkərli diabet diaqnozu qeyd olunur. Güman olunur ki, 50 %-i öz xəstəliyi haqqında məlumatsızdır. Azərbaycanda da bu xəstəlikdən əziyyət çəkənlərin sayı 182 min nəfərdən çoxdur. Bu xəstəliyin yayılma tempinə görə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ŞD xəstəliyini qeyri-infeksion epidemiya kimi dəyərləndirir.

Azərbaycan dövləti bu xəstəlikdən əziyyət çəkən insanlara xüsusi diqqət ayırır. Belə ki, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli Fərmanına uyğun olaraq, Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli qərarı ilə “2005-2009-cu illər üzrə “Şəkərli diabet üzrə Dövlət proqramı” təsdiq edilmişdir. Növbəti illər üzrə Nazirlər Kabinetinin 2010-ci il 26 noyabr tarixli 222 nömrəli qərarı ilə “2011-2015-ci illər üçün Şəkərli Diabet üzrə Tədbirlər Proqramı” təsdiq edilmişdir. Bu proqram çərçivəsində respublikada ilk dəfə olaraq bütün xəstələrə özünənəzarət vasitələri – qlükometrlər və test sistemlər pulsuz olaraq paylanmış və onların dərman təchizatı ilə bağlı uzun illər davam edən problem aradan qaldırılmışdır. Həmçinin görülən işlərin nəticəsi kimi şəkərli diabetdən ölüm göstəricisi hər 100 min nəfərə 21,7-dən 7,5-ə enmişdir.

**İnternetdə: www.books.google.com**

**16 Noyabr – YUNESKO-nun Yaranması Günü, (1946)**



16 noyabr BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatı olan YUNESKO-nun təsis edildiyi gündür. Bu qurumun yaranması haqqında Nizamnamə 1945-ci il noyabrın 16-da Londonda imzalanmış, bir il sonra 1946-cı il noyabrın 4-də isə 20 üzv dövlətdən ibarət təşkilat rəsmi fəaliyyətə başlamışdır. Hazırda 195 dövlət YUNESKO-nun üzvüdür. YUNESKO-Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addım ümummilli lider Heydər Əliyevin 1993-cü ilin dekabrında Fransaya ilk rəsmi səfəri zamanı qurumun Parisdə yerləşən mənzil-qərargahında baş direktor Federiko Mayorla görüşü zamanı atılmışdır. Ulu öndər Heydər Əliyevin 21 fevral 1994-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyası yaradılmışdır. 2005-ci il sentyabrın 15-də isə Prezident İlham Əliyev Milli Komissiya ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Azərbaycanla YUNESKO arasında hazırda sıx əlaqələr mövcuddur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Azərbaycan-YUNESKO münasibətlərinin inkişafında və möhkəmlənməsində məxsusi xidmətləri vardır. Mehriban xanım Əliyevanın ciddi səyləri nəticəsində Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan edilmiş, Qobustan Dövlət Tarixi Bədii Qoruğu ümumdünya irs siyahısına salınmış, İçərişəhər Qoruğu YUNESKO-nun təhlükədə olan ümumdünya irs siyahısından çıxarılmışdır. Aşıq sənəti və Novruz bayramı da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısında özünə yer almışdır. Təsadüfi deyil ki, 2004-cü ilin sentyabrında Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın xoşməramlı səfiri adına layiq görülmüşdür. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilərək istifadəyə verilmişdir. 2009-cu ilin martında Azərbaycanda I Beynəlxalq Muğam Festivalı keçirilmişdir. YUNESKO-nun baş direktoru Koişiro Matsura bu münasibətlə ölkəmizə səfər etmişdir. Dünyada savadlılığın dəstəklənməsi üzrə YUNESKO-nun regoinal konfransları silsiləsindən 2008-ci ilin mayında baş tutan "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tədbiqinə dəstək" və digər tədbirlər bu məramа xidmət edir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin YUNESKO çərçivəsində qeyd edilməsi də bu qurumla əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisi sayıla bilər. **İnternetdə: www.books.google.com**

## 16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü, (1995)

***Azərbaycan Qafqazın işıq saçan mayakıdır, tolerant ölkədir və onun nuru dünyanın hər bir tərəfinə yayılır, insanlığa yol göstərir.***

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*



Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan prezidenti bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Bu bir məziyyət, mənəvi keyfiyyətdir, lakin, hər şeydən əvvəl, tolerantlıq bir əməldir – başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir. Bəli, tolerantlıq insanlar arasında körpülər salmaqla və ünsiyyət üçün yollar açmaqla bu çətinliklərin bir qisminə cavab verir. Tolerantlıq Birləşmiş Millətlər Təşkilatının məğzini təşkil edir. Tolerantlıq öz-özünə meydana gəlmir. O, öyrədilməli, yetişdirilməli və başqalarına ötürülməlidir. Vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**17 Noyabr – Milli Dirçəliş Günü, (1988)**

***Dirçəliş oyanışdı, yenidən yaranmaq, dünyaya təzədən gəlməkdi. Sözün hər mənasında dirçəliş mübarizə aparmaq və özünü təsdiq etməkdi. Elə bizim xalqın da Milli Dirçəliş günü onun özünü təsdiqi idi. XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır!***

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*



1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. SSRİ-nin o vaxtkı rəhbərliyinin buna biganə münasibətini görən ermənilər planlı şəkildə Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Elə həmin ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlarda bunu sübut edirdi. 1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin uzunmüddətli mitinqi başlandı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı.

Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənizmin istiqlaliyyət qazanmasında əsas amil sayılır. "Milli dirçəliş" deyəndə buna yalnız siyasi aspektdən yanaşmaq olmaz, çünki milli dirçəliş yalnız ictimai baxımdan yox, həm də mədəni-mənəvi əxlaqi dəyərlərin xalqın özünün təməl prinsipləri üzərində inkişaf edən ənənələrinin təcəssümüdür, onun yaşadılmasıdır və onun yaşaması məhz Milli dirçəlişin təməlidir.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**19 Noyabr – Ümumdünya Fəlsəfə Günü, (2002)**



Ümumdünya Fəlsəfə Günü YUNESKO-nun qərarına əsasən 2002-ci ildən başlayaraq noyabr ayının 3-cü cümə axşamı günü qeyd olunur. Ümumdünya Fəlsəfə Gününün yaranmasının əsas ideyası dünyada baş verən qlobal ictimai-mədəni dəyişiklikləri müzakirə etmək üçün platforma tapmaq, insanları fəlsəfi irsə yaxınlaşdırmaq, məişət təfəkkürünün aləmini yeni ideyalar üçün açmaq və bu gün cəmiyyət qarşısında duran çağırışlarla bağlı olan ictimai müzakirələri stimullaşdırmaqdan ibarətdir. Mütəfəkkirlərin çoxu qeyd edirdilər ki, fəlsəfənin məğzi təəccüblənməkdədir. Doğurdan da, fəlsəfə insan varlıqlarının özləri və yaşadıqları dünya ilə maraqlanmağa olan təbii istəkdən doğulur. Müdrikliyə olan sevgi qismində çıxış edərək, fəlsəfə bizi düşüncələr haqqında düşünmək, müxtəlif fundmental həqiqətləri dərindən öyrənmək və şəxsi nəticələr çıxarmağı öyrədir. Əsrlər ərzində fəlsəfə müxtəlif konsepsiyalar və ideyalar əmələ gətirmiş və kritik, müstəqil və yaradıcı düşünməyin təməlini qoymuşdur.

Fəlsəfə Günü YUNESKO-nun 70-dən çox ölkəsində qeyd olunur. Hər il fərqli mövzulara həsr olunan bu gündə mütəfəkkirlərin, alimlərin, müəllimlərin, tələbə və şagirdlərin, mədəniyyət və təhsil nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilir: fəlsəfi diskussiyalar, “dəyirmi masalar”, konfranslar, seminarlar, sərgilər, təqdimatlar və s.

**İnternetdə: www.books.google.com**

## 20 Noyabr – Ümumdünya Uşaqlar Günü, (1956)

***Uşaqlar – bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir.***

**M. Qorki,**

*rus yazıçısı*



Ümumdünya Uşaqlar Günü (Ümumdünya Uşaq Hüquqları Günü ) (ing. Universal Children's Day) – 1954-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən (№836, (IX) saylı qətnamə) 1956-cı ildən bütün dövlətlərə uşaqlar şərəfinə keçirilməsi tövsiyə olunan bayramdır.

Baş Assambleya öz qətnaməsində qeyd edirdi ki, Ümumdünya Uşaqlar Gününün ümumi bayram kimi qeyd edilməsi millətlər arasında həmrəyliyin və əməkdaşlığın bərkidilməsinə xidmət edəcək. BMT tərəfindən 1959-cu ilin 20 noyabrında "Uşaq Hüquqları Bəyannaməsi", 1989-cu ildə isə "Uşaq Hüquqları Konvensiyası" qəbul etmişdir. Uşaq Hüquqları Konvensiyası (UHK) uşaqların insan hüquqlarını təsdiq edən ilk icbari hüquqa malik beynəlxalq konvensiyadır. 1989-cu ildən bu günədək BMT-yə və ya Cenevrə Konvensiyasına üzv olan ölkələrin sayını üstələyən 193 ölkə tərəfindən ratifikasiya edilmiş UHK, demək olar ki, bütün dünyada qəbul edilib.

1924-cü ildə ilk dəfə olaraq uşaqların hüquqlarını təmin edən bəyannamə qəbul edilmişdir. Bu bəyannamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyannamənin qəbulu ilə bağlı ilk işlər Eglantyne Djebb tərəfindən görülmüşdür. Birinci Dünya müharibəsinin dəhşətlərinin şahidi olan Eglantyne Djebb müharibənin dəhşətlərindən sarsılaraq uşaqların xüsusi müdafiəyə ehtiyac duyduqlarını anlayıb. O, bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə uşaqlara yardım, kömək göstərib, onların müdafiəsini təmin etmək üçün Londonda "Uşaqlara Yardım Fondu"nun əsasını qoyub.

**İnternetdə: www.books.google.com**

## 20 Noyabr – Azərbaycan Fotoqraflar Birliyi (AFB) yaradılmışdır, (1998)

Azərbaycan Fotoqraflar Birliyi həvəskar və professional fotoqrafları bir araya gətirən, Azərbaycan Respublikasında fotoqrafiya sənətinin inkişafından, əldə edilən nailiyyətlərin qorunub saxlanması və ölkə daxilində və xaricdə təbliğindən ibarətdir.

Azərbaycan Fotoqraflar Birliyi (AFB) ictimai, yaradıcılıq, qeyri-kommersiya təşkilatı olub açıq cəmiyyət, könüllülük və özünüidarə prinsiplərinə əsaslanır. Birlik AR-nin konstitusiyasına və təşkilatın Nizamnaməsinə uyğun fəaliyyət göstərir. AFB 1998-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 1073 nömrəli şəhadətnamə ilə qeydə alınmışdır. 1990-cı ilin əvvəlində SSRİ-nin dağıldığı vaxt işlək strukturlar fəaliyyətdən düşdü və tamamilə aydın bir zərurət yarandı ki, təcrübəli, həvəskar, peşəkar, bir sözlə, fotoqrafiyanı sevən hər kəsi birləşdirmək iqtidarında olan bir təşkilat qurmaq lazımdır. O zamanlar təşkilatlanmaqda Fransanın Nant şəhərində "Azərbaycan fotoqrafları" sərgisinin nümayişi bizim üçün ciddi və səfərbəredici amil rolunu oynadı. Sərgi 1995-ci ilin noyabrında baş tutdu, 24 fotoqrafın 105 əsəri göstərildi. Nümayişin uğuru gözlənildiyindən də artıq oldu, fotoqraflarımız yaradıcıqlarına, özlərinə qarşı böyük maraq hiss etdilər, ictimai rəy, bu gözəl peşəyə münasibət də kökündən dəyişdi. Fransa fotosərgisindən sonra düz 3 il mübahisə-müzakirələr oldu, nizamnamə yazıldı, müxtəlif maneələr dəf edildi, təşəbbüs qrupu yaradıldı ki, o da işi məntiqi sonluğa çatdıra bildi: birlik 1994-cü ildən faktiki olaraq işləsə də, hüquqi statusa malik deyildi, amma indi o rəsmi qeydiyyata alındı.

AFB-nin əsas məqsəd və vəzifəsi milli foto sənətini inkişaf etdirmək, ölkədə və xaricdə onun nailiyyətlərini yaymaq, foto irsimizdən yaradıcılıqla bəhrələnib onu qorumaqdır. AFB foto sənətimizin təbliği və inkişafı məqsədilə sərgilər, müsabiqələr, festivallar, ustad dərsləri və yaradıcılıq seminarları keçirir, Azərbaycan və xarici fotoqrafların iştirakı ilə konfranslar, simpoziumlar təşkil edir, həmçinin həvəskar fotoqraflar hərəkatlarına hər cür dəstək verir.

Bu gün AFB inkişafının yeni mərhələsinə qədəm qoyur. Həm təşkilati, həm də birliyin simasını formalaşdırmaq baxımından hələ çox işlər görülməlidir. Bütün maraqlı tərəflərdə münasibətlər qurulmalı, birlik üzvlərinin yaradıcılıq fəaliyyətləri üçün maddi zəmin və şərait yaradılmalıdır.

AFB-nin yaranmasından 10 il keçir. Yaradıcılıq birliyinin üzvləri bu zaman kəsiyində 100-dən artıq sərginin hazırlanması işində iştirak etmişlər. Sərgilərdən 30-u xaricdə baş tutmuşdur (AFB, Böyük Britaniya, Fransa, Türkiyə, Almaniya, Belçika, Ukrayna, Yunanıstan, Rusiya, Monqolustan, Özbəkistan, Qazaxıstan, Gürcüstan və s.). AFB-nin idarə heyətinin sədri Mirnaib Həsənoğludur.

**İnternetdə: www.books.google.com**

**21 Noyabr – Ümumdünya Televiziya Günü, (1999)**




1999-cu ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qərara əsasən 21 noyabr Dünya Televiziya Günü kimi qeyd olunur. İstər dünyada, istərsə də ölkəmizdə aparılan araşdırmalar göstərir ki, uşaqların şəxsiyyətinin formalaşmasında, qazanılan uğurlarda televiziyanın rolu böyükdür. Bəli, televiziya xəbər, əyləncə və düşüncələri ifadə etmək üçün ən gözəl vasitədir. **İnternetdə: www.books.google.com**

**21 Noyabr – Ümumdünya Salamlaşma Günü, (1973)**





Ümumdünya Salamlaşma Günü (World Hello Day) hər il noyabrın 21-də keçirilir. Onun əsas məqsədi sülhün qorunması üçün şəxsi ünsiyyətin vacibliyini geniş ictimaiyyətin diqqətinə çatdırmaqdır. Çünki yalnız xeyirxah ünsiyyət vasitəsilə və güc tətbiq etmədən bütün münaqişələri həll etmək olar. Salamlaşma bayramını 1973-cü ildə, soyuq müharibənin ən qızğın dövründə, Misir və İsrail arasındakı münaqişəyə cavab olaraq iki amerikalı qardaş – Maykl və Brayen Makkomak düşünmüşlər. Salamlaşma günü beynəlxalq gərginliyin güclənməsinə etiraz kimi çox zəruri aksiyadır. “Sadə, lakin təsirli addım atmaq lazımdır” deyə düşünən qardaşlar dünyanın hər yerinə səmimi, mehriban salamlaşma məktubları göndərmişlər. Onlar dünyada sülhün qorunması və gərginliyin azaldılması üçün öz ideyalarını heç kimə məcburi qəbul etdirmirdilər. Makkomak qardaşları məktub ünvanladıqları şəxsdən, sadəcə, daha kimlərisə, heç olmasa on nəfəri salamlamağı xahiş edirdilər. Bu ideya 180-dən çox ölkədə dəstəklənmişdir. Həmin vaxtdan Ümumdünya Salamlaşma Gününü həm müxtəlif yaşlı insanlar, həm də ayrı-ayrı peşə sahibləri, siyasi liderlər, sənaye maqnatları, məşhur kino və televiziya ulduzları qeyd edirlər. Müxtəlif xalqların müxtəlif salamlaşma ənənələri fərqli olsa da, xüsusən beynəlxalq görüşlərdə millətlərarası etiket mahiyyətcə eynidir: görüş zamanı ənənəvi olaraq insanlar bir-birinə xeyir və sağlamlıq, rifah və uğur arzu edirlər. **İnternetdə: www.books.google.com**

**22 Noyabr – Ədliyyə İşçiləri Günü, (2000)**



22 noyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsi təsis edilib. Prezident Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib. Ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdi. Hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdi. ADR-in süqutundan sonra Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdı. Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və dövlət qeydiyyatını aparır; qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, o cümlədən qanun layihələri hazırlayır və normativ sənədlərin layihələri üzrə rəylər verir, hüquqi maarifləndirmə işi aparır; hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini, mətbu nəşrlərin reyestrini aparır; notariat fəaliyyətinə rəhbərlik edir; vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirir; dövlətlərarası övladlığa götürmə məsələlərini və sənədlərin leqallaşdırılmasını həyata keçirir; məhkəmə qərarlarının icrasının təmin olunmasını təşkil edir; məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə statistikasının aparılmasını təmin edir; qeyri-kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin (qərarlarının) qeydiyyatının aparılmasını həyata keçirir. Bunlarla yanaşı, Azərbaycanda aparılan bütün növ məhkəmə (qeyri-tibb) ekspertizaları Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat mərkəzi olan İnstitut tərəfindən həyata keçirilir. Azərbaycanda müşahidə olunan inkişaf meyilləri ədliyyə orqanlarının fəaliyyətində də öz əksini tapmışdır. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən dinamik inkişaf, genişmiqyaslı quruculuq işləri, xarici siyasətdə əldə olunan uğurlar Azərbaycanı regionda lider dövlətə çevirmişdir. Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və qeydiyyatını aparır. Bununla yanaşı, qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, o cümlədən qanun layihələri hazırlayır və normativ sənədlərə dair rəylər verir, hüquqi maarifləndirmə işi aparır. Ədliyyə Nazirliyinin genişmiqyaslı işi sayəsində ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası təmin olunmuş, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, hüquq ədəbiyyatı kitabxanası yaradılmışdır. **İnternetdə: www.books.google.com**

**24 Noyabr – Morj Günü, (2008)**



2008-ci ildə Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) və Dəniz Məməliləri üzrə Şuranın təşəbbüsü ilə Morj Günü təsis olunmuşdur. Bu heyvanlar – planetimizin şimal yarımkürəsində məskunlaşmış nəhəng kürəkayaqlılardır. Bu bayram təsadüfən noyabrın 24-ə salınmamışdır. Morjlar payızın son günlərində Çukot dənizinin arktik sahillərini tərk edirlər və qışlamaq üçün Berinq boğazına gedirlər. Bu yerdəyişmə zamanı onlar xüsusilə zəif və müdafiəyə möhtac olurlar. Təbiəti qoruyanlar bu bayramı elan etməklə ictimaiyyətin diqqətini morjların problemlərinə cəlb etməyə çalışmışlar. Ən əsas problem ekoloji problemdir. İqlimin istiləşməyə doğru dəyişməsi Yer kürəsində buz örtüyünün azalmasına gətirib çıxarmışdır. Nəticədə morjlar buzdan quruya keçməyə və burada özlərinə yeni yataqlar yaratmağa məcbur olurlar. Bu heyvanların belə yataqlarda kütləvi toplanması gənc morjların tələf olmasına səbəb olur. Morjların ikinci problemi insanların onların ərazilərinə nüfuz etmələridir. Şimal Buzlu okeanının şelfindəki qiymətli karbohidrogen yataqlarının insanlar tərəfindən mənimsənilməsi, gəmilərin hərəkəti morjların məhvinə səbəb olur. Ümumdünya Vəhşi Təbiət Fondunun nümayəndələri insanları okeanın sakinlərinə qayğı ilə yanaşmağa, onların problemlərinə biganə qalmamağa çağırır.

**İnternetdə: www.books.google.com**

## 26 Noyabr – Azərbaycan Kəlağayısı Günü, (2014)



26 noyabr Azərbaycan kəlağayısı Günü bütün dünyada beynəlxalq səviyyədə qeyd olunur. 2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin keçirilən iclasında "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilmişdir.

Kəlağayı faylını birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi hazırayıb. Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin UNESCO yanında Daimi Nümayəndəliyi, UNESCO üzrə Milli Komissiyanın birgə həyata keçirdiyi çoxşaxəli fəaliyyət nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq etmiş olub.

Hazırda Kəlağayıdan başqa, Muğam ifaçılıq sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısında yer alır.

**İnternetdə: www.books.google.com**

**26 Noyabr – Ümumdünya İnformasiya Günü, (1994)**



Hər il 26 noyabr tarixinin məhz bu ad altında qeyd edilməsi təşəbbüsü Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan Beynəlxalq İnformasiyalaşdırma Akademiyası və Ümumdünya İnformasioloji Parlamenti tərəfindən irəli sürülüb. Əlamətdar günün beynəlxalq təqvimə salınması ilə bağlı qərar 26 noyabr 1992-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə keçirilən I Beynəlxalq İnformasiyalaşdırma Forumunda verilib.

Ümumdünya İnformasiya Gününün 26 noyabr tarixində qeyd olunmasına dair qərar isə rəsmi olaraq YUNESKO tərəfindən 1994-cü ildə qeydiyyata alınıb.
Ümumdünya İnformasiya Gününün əsas məqsədi bu sahədə olan başlıca problemlərə və məsələlərə mütəxəssislərin diqqətini yönəltməkdir.

**İnternetdə: www.books.google.com**

**30 Noyabr – Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü, (1988)**



Beynəlxalq İnformasiya Təhlükəsizliyi Gününün qeyd olunmasının məqsədi kompüterdə saxlanılan informasiyanın təhlükəsizliyinin təmini, bu sahədə mövcud olan müxtəlif problemlərin həllinin önəmliyini istifadəçilərin, proqram vasitələri istehsalçılarının, o cümlədən ictimaiyyətin diqqətinə çatdırmaqdır. 1988-ci il noyabr ayının 30-da "Morris soxulcanı" adlanan ilk kompüter virusu elmi-tədqiqat institutları, hərbi idarələr, hətta Pentaqon da daxil olmaqla, ARPANET-in minlərlə qovşağının fəaliyyətini iflic vəziyyətinə saldı. İlk kompüter virusunun vurduğu ziyan isə təxminən 100 milyon dollar dəyərində qiymətləndirilirdi. Bu hadisə bəşəriyyətin kompüter təhlükəsizliyi haqqında təsəvvürlərini dəyişdi. Məhz həmin vaxtda mütəxəssislər informasiya təhlükəsizliyinin təmini məsələlərinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladılar. Müəllifinin adı ilə adlandırılan bu virusun yaradıcısı – Robert Morris proqramın kodunun məxfi saxlanılmasına nail olduğu üçün onun bu işdə əli olduğunu çətin ki, kimsə sübut edə bilərdi. Onun məqsədi isə sırf tədqiqat xarakteri daşıyırdı. Onun atası Milli Təhlükəsizlik Agentliyinin kompüter üzrə eksperti isə hesab edirdi ki, oğlu tutduğu əməlini etiraf etməlidir. R.Morrisi 5 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyirdi. Lakin məhkəmə Kornell Universitetinin "Hesablama texnikası" fakültəsinin aspirantına güzəşt edərək, "alim"ə üç il şərti cəza kəsdi. Həmin ildə Kompüter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabr tarixini Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (Computer Security Day) elan etmişdir.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

### 30 Noyabr – Ümumdünya Ev Heyvanları Günü, (1931)




Hər il noyabrın 30-u bir çox ölkələrdə Ümumdünya Ev Heyvanları Günü (World Day Pets) qeyd olunur. Bu günün təsis olunması ideyası Təbiətin qorunması hərəkatı tərəfdarlarının 1931-ci ildə Florensiyada (İtaliya) keçirilən Beynəlxalq konqresində səslənmişdir. Həmin vaxtdan bu bayram dünyanın bir çox ölkələrində qeyd olunur və insanlar tərəfindən ev heyvanlarına çevrilən "balaca dostlarımıza" görə bütün bəşəriyyətin cavabdeh olduğunu xatırladır. Təsadüfi deyil ki, bu günün devizi Antuan de Sent Ekzüperinin məşhur əsərinin qəhrəmanı Balaca Şahzadənin bütün insanlara ünvanlanmış sözləridir: "Sən əhliləşdirdiklərin üçün hər zaman cavabdehsən".

Bu günlə əlaqədar keçirilən tədbirlər çox rəngarəng və müxtəlifdir və hər bir ölkədə fərqli şəkildə düzənlənir. Bu günün hansı şəkildə qeyd edilməsindən asılı olmayaraq, əsas məqsəd insanları ev heyvanlarının problemlərinə biganə qalmamağa çağırmaqdır.

**İnternetdə: www.books.google.com**

**Bu tarixi unutmayaq**

**20 Noyabr – Qarakənd faciəsi, (1991)**



Qarakənd faciəsi və ya 20 noyabr faciəsi Xocavənd rayonunun Qarakənd yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni həbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsidir. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 helikopteri 1991-ci il noyabrın 20-də, saat 14:42 dəqiqədə vurulub. Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri, jurnalist Osman Mirzəyev, Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdur.

**İnternetdə: www.books.google.com**

## Yubilyar yazıçı və şairlər

## 1 Noyabr – Şair Məmməd İsmayılın 80 illiyi, (1939)



Məmməd İsmayıl 1939-cu ildə Azərbaycan Respublikasının Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində dünyaya gəlmişdir. 1964-cü ildə Azərbaycan Dövlət Universitetini, 1975-ci ildə Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdindəki ikiillik Ali Ədəbiyyat kursunu bitirmişdir. 1998-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. 1975-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetində müxbir, 1976-1980-ci illərdə "C.Cabbarlı adına Azərbaycanfilm" studiyasının Elmi-kütləvi sənədli filmlər birliyində baş redaktor, 1980-1983-cü illərdə "Yazıçı" nəşriyyatında şöbə müdiri və baş redaktorun müavini, 1983-1987-ci illərdə "İşıq" nəşriyyatının direktoru, 1988-1992-ci illərdə Azərbaycanda demokratik düşüncənin inkişaf etməsində öncül rol oynayan, xalqı milli azadlıq mübarizəsinə səsləyən Azərbaycan və Rus dillərində çap olunan, tirajı 300 minə çatan "Gənclik-Molodost" jurnallarının yaradıcısı ve baş redaktoru olmuşdur. 1996-cı ilin may ayından Türkiyənin Çanaqqala Universitetində professor kimi fəaliyyət göstərməkdədir. Əsərləri 50-dən çox dünya xalqlarının dilinə tərcümə edilən şair, müxtəlif ölkələrin sənətkarlarının bir çox əsərini tərcümə edərək Azərbaycan və Türk dilində çap etdirmişdir. Bir çox xarici ölkənin ədəbiyyat ensiklopediyalarında həyatı və ədəbi fəaliyyəti ilə bağlı məqalələr nəşr edilmiş, həyat və yaradıcılığı haqqında (Azərbaycanda və Türkiyədə) yüksək lisans və doktorluq dissertasiyası yazılmışdır. Türk və Azərbaycan ədəbiyyatlarını layiqincə təmsil etmişdir. İtalyada və Rumınyada işıq üzü görən "Dünya Şeir Antologiyası"nda Azərbaycan şeiri onun əsərləri ilə təmsil olunmuşdur (2015-2017). Şairin "Adım", "Apar məni", "Burda bir şəhər yatır", "Yatan mənalar", "Döyüş, Qələbə", "Yaşıldı gözümdə dünyanın əksi" şeirlərinin yer aldığı silsilə şairin tərcüməçisi və dostu Rus şairi Mixail Sinelnikovun ön sözü ilə başlayır. İndiyədək Azərbaycan, Türk, Fransız, Yapon, Alban, Rumın, Rus, Qazax və başqa dillərdə 40-dan çox bədii və elmi kitabı, 300-dən artıq məqaləsi çap olunmuş, 50-dən çox şeirinə mahnı bəstələnmişdir.

**Əsərləri:** “Ana əlləri” (1966), “Dünyaya baxıram” (1969), “Axşamlar, səhərlər” (1972), “Naftalan” (1973), “Söz vaxtına çəkər” (1976), “Qoymayın dünyanı adiləşməyə” (1978), “Bəxtimə düşən gün” (1980), “Hələ yaşamağa dəyər” (1981), “Döyüş, qələbə” (1983), “Dünya bizim evimizdir” (1984), “Aman təklik əlindən” (1987), “Seçilmiş əsərləri” (1993) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Məmməd_İsmayıl

**2 Noyabr – Şair Oqtay Rzanın 85 illiyi, (1934)**



Oqtay Rza 1934-cü il noyabrın 2-də Azərbaycanın Salyan rayonunun Qalalı kəndində anadan olmuşdur. Arbatan kənd yeddiillik məktəbini bitirib Salyan şəhərindəki Nizami adına orta məktəbdə təhsilini davam etdirmişdir (1948-1951). Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib geoloq ixtisası almışdır. Əmək fəaliyyətinə Bayıldakı Neft və Qazçıxarma İdarəsinin 5 saylı mədənində başlamışdır: operator, baş operator, neftçıxarma ustası olmuşdur (1956-1961). Elmi-tədqiqat işi müdafiə edib geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Azərbaycan KP MK yanında ikiillik marksizm-leninizm universitetini fərqlənmə diplomu ilə bitirmişdir (1980). N.Tusi adına APİ-nin ümumi coğrafıya kafedrasında müəllim, baş müəllim (1966-1969), hazırda isə dosent işləyir (1971-cı ildən). Bakı Sovetinin deputatı seçilmişdir (1959-1960). 1961-ci ilin noyabr-dekabr aylarında Ümumdünya Həmkarlar İttifaqları Təşkilatının Moskvada keçirilən 5-ci konqresində sovet nümayəndə heyətinin tərkibində iştirak etmişdir."Bir may" adlı ilk şeirini yeddiillik məktəbdə oxuyarkən yazıb "Sosializm yolu" rayon qəzetində dərc etdirmişdir. Həmin vaxtdan poetik yaradıcılıqla müntəzəm məşğul olur, bədii tərcümələr də edir. Dünya xalqlarının ədəbiyyatından tərcümələri dövri mətbuatda müntəzəm çap olunur. Əsərləri xarici mətbuatda dərc edilmişdir. "Kamennıy Svetilnik" şeirlər toplusu 1987-ci ildə Moskvada kütləvi tirajla buraxılmışdır.

**Əsərləri:** “Torpağı dinləyirəm” (1970), “Ürəyimi oxuyun” (1975), “Hara gedirəmsə” (1980), “Yasəmən çiçəkləyəndə” (1981), “Dağ çırağın işığında” (1983), “Fəsil dəyişəndə” (1986), “Günəşin adından” (1991), “Vətən, yas saxlama” (1993), “Adlı, ünvanlı misralar” (1999), “Seçilmiş sətirlərim” (2001), “Dördlüklər” (2004) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.694.

**14 Noyabr – Yazıçı Gəray Fəzlinin 95 illiyi, (1924-1995)**



1925-ci il noyabrın 14-də Dağıstanın Rutul rayonunda anadan olmuşdur. Azərbaycanın Qax rayonunda boya-başa çatmışdı. Dünyaya payızda göz açsa da, ad gününü baharda, mayın 9-da qeyd edərdi. Səbəbi isə o idi ki, II Dünya Savaşında dəfələrcə ağır yaralansa da sağ qala bilmişdi. Müharibənin sonuna yaxın sağ qolundan və boğazından ağır yaralanıb, və bununla məktəb illərində məlahətli səsi ilə ürəkləri fəth edən gəncin təkcə bədəni yox, səsi də güllləbaran edilib. Müharibədən sonra Azərbaycan Pedaqoji İnstitutuna daxil olub. Soyadı Alimov olan kənd müəllimi, atası Fəzli kişinin adını özünə təxəllüs götürüb. 1956-cı ildə Azərbaycan Dövlət Nəşriyyatı cəbhəçi-şairin "Mənim səsim" şeirlər kitabını çap etdi. Çox keçməyir ki, sözügedən kitabdakı "Mənim səsim" şeiri şairin ömür payının ən ağrılı məqamları haqqında ballada kimi dillərə düşür. Sonralar Xalq şairi Nəriman Həsənzadə Gəray Fəzli haqqında "İtirilmiş səs" adlı poema da yazır. 1950-ci illərinin sonunda Azərbaycan Radio və Televiziya Komitəsinə işə dəvət edirlər. O, burada 40 ilə yaxın, yəni ömrünün sonuna kimi müxtəlif vəzifələrdə işləyib.

**Əsərləri:** "Ölkə" (1954), "Mənim səsim" (1956), "Təzə ünvan" (1961), "Yeni Suvagildə" (1961), "İldırımlı dağlar" (1972), "Kəhraba işığında" (1974), "Səadətin ünvanı" (1976), "Yeddi ulduzlu səma" (1978), "Gecə günəşi" (1981), "Bir qəlbin asimanı" (1983), "Xatirəli dünyam" (1988) və s.

**Nəsr əsərləri:** "İldırımlı dağlar" romanı (1972) - rus dilində, "Kəhrəba işığında"(1974), "Yeddi ulduzlu səma"(1978), "Gecə günəşi" (1981), "Bir qəlbin asimanı" (1983)

**Şeirləri:** "Mənim səsim" kitabı (1956)

**Şeirlərinə yazılmış mahnılar:** Hüseynağa Hadıyev - "Sən olmuşam" mahnısı - musiqisi Emin Sabitoğlunundur; "Kür boyunda" - musiqisi Telman Hacıyevindir, Bariton və xor üçün "Dünya xalqları sülhün keşiyində" adlı vokal-simfonik poema – musiqisi Əfrasiyab Bədəlbəylinindir, "Xatirə" – musiqisi Süleyman Ələsgərovundur, "Ana kəndim" – musiqisi Adil Gərayındır, "Bağçada gül" – musiqisi Musa Mirzəyevindir və s.

**Filmoqrafiya:** "Qırmızı qələm" (film, 1971), "Ağ qızıl" ustası (film, 1972)

İnternetdə:https://az.wikipedia.org/wiki/Gəray_Fəzli

**24 Noyabr – Şair Abbasağanın 85 illiyi, (1934-1998)**



Abbasağa Azərtürk 1934-cü il noyabr ayının 24-də Cəlilabad şəhərində anadan olmuşdur. Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. İlk mətbu şeiri 1964-cü ildə çapdan çıxmışdır. İlk kitabı "Atlılar" 1964-cü ildə işıq üzü görmüşdür. "Mənim qismətim", "Od oğlu", "Anama minnətdaram", "Cəlilabad dastanı", "Qaraçı nəğmələri" və "Qaya sükutu" kimi kitabların müəllifidir. Bu kitablarda toplanan şeir və poemalardan odlu-alovlu bir şairin vətəndaşlıq, azadlıq, insan və gözəllik haqqında bədii təsvir vasitələri ilə zəngin ürək sözləri toplanmışdır. Abbasağa Azərtürk fəhləlikdən şeirə gələn şairlərdəndir. "Qaradağneft" mədənində operator köməkçisi, əsaslı təmir, geoloji-kəşfiyyat, baş tikinti idarələrində, şin və gəmi təmiri zavodlarında fəhlə işləmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil və ədəbiyyat fakültəsini bitirmişdi, 1968-ci ildən ömrünün sonunadək Cəlilabad şəhərindəki 7 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi olmuşdur. Abbasağa Azərtürk həm klassik, həm də müasir janrlarda özünəməxsus, orijinal şeirlər yazırdı. Abbasağa Azərtürk 8 avqust 1998-ci ildə Cəlilabad şəhərində vəfat etmişdir.

**Əsərləri:** “Atlılar” (1960), “Mənim qismətim” (1970), “Od oğlu” (1978), “Anama minnətdaram” (1978), “Cəlilabad dastanı” (1988), “Qaraçı nəğmələri” (1993) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.21.

**Xarici ədəbiyyat**

**7 Noyabr – Tacik-fars şairi Əbdürrəhman Caminin 600 illiyi, (1419-1492)**



Böyük tacik şairi, musiqişünası, filosof və alimi Əbdürrəhman Nurəddin ibn Əhməd hicri qəməri ilə 817-ci il şəban ayının 8-də, miladi ilə 1414-cü il noyabrın 7-də Cam şəhərində (Xorasan) anadan olmuşdur. Cami çox kiçik yaşlarından oxumağa başlamış, ilk təhsilini atasından almış, sonra isə Herat şəhərinin Xuş bazarında olan Dilgəş mədrəsəsində oxumuşdur. 1492-ci il noyabr ayının əvvəllərində Cami özünü pis hiss etməyə başlamış, xəstəliyi get-gedə şiddətlənmiş və vəfat etmişdir. Bəzilərinin fikrincə, Cami noyabrın 9-da ölmüşdür. Sovet ədəbiyyatında hər iki tarixi göstərənlər var. Dəfn mərasimi Nəvainin yaxından iştirakı ilə təşkil edilib. Cami özündən sonra böyük bir miras qoyub getmişdir. M.A. Salyenin dediyinə görə, alimlər Caminin əsərlərinin sayını 50 qəbul edirlər ki, bunlardan da 34-ü nəsr, 16-sı şeirlə yazılmışdır. Nəsr əsərləri içərisində bədii əhəmiyyəti olan yalnız "Baharistan"dır. Caminin ən məşhur əsərləri üç divan, "həft-övrəng", sufi şeyxlərin həyat və tərcümeyi-halına həsr edilmiş "Həfəhatülüns" və "Baharistan"dır. Cami Əlişir Nəvainin məsləhəti ilə birinci divanı "Fətihətəş-şəbab" – 1479-cu il, yəni "Gəncliyin başlanğıcı", ikinci divanı "Vəsitətül-İqd" – 1489-cu il, yəni "Həmayılın ortası", üçüncü divanı "Xatimətül-həyat" – 1491-ci il, yəni "Həyatın sonu" adlandırmışdır. Cami divanlarını Nəvainin təklifinə görə belə adlandırdığını müqəddimədə özü qeyd edib. Caminin "Həfəhatül-üns" və "həzəratül-Qüds", yəni "Müqəddəs yerlərdən əsən dostluq nəsimi" əsəri özündən əvvəl yaşamış sufilərin, həməsri olan sufi şair və alimlərin həyatına həsr edilmişdir. Başqa əsərlərində olduğu kimi, "Baharistan"da da həmin fikrin bədii ifadəsinə tez-tez təsadüf edirik. "Yusif və Züleyxa" romanı onu dünyaya tanıtdıran əsəridir. "Baharıstan" isə Caminin bədii əhəmiyyəti ilə seçilənidir.

**Divanları:** "Fətihətəş-şəbab" yəni ("Gəncliyin başlanğıcı") – 1479-cu il, "Vəsitətül-İqd" yəni ("Həmayılın ortası") – 1489-cu il, "Xatimətül-həyat" yəni ("Həyatın sonu") – 1491-ci il; **Əsərləri:** "Müəmma haqqında risalə" (Əbdülqasim Baburə ithaf) – 1452-ci il (856-cı il), "Baharistan", 1487-ci il, "Həfəhatül-üns" və "həzəratül-Qüds", yəni ("Müqəddəs yerlərdən əsən dostluq nəsimi"), "Baharistan", Vyana-1846-cı il (alman dilində), "Baharistan", 1887-ci il (Beneras), (ingilis dilində), "Baharistan", 1899-cu il (Bombey) (ingilis dilində), "Baharistan", 1925-ci il (Anri Mase) (fransız dilində), "Baharistan", 1935-ci il (K.Çaykin) (rus dilində), “Baharistan”(1964) "Seçilmiş əsərləri" (2004) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/ Əbdürrəhman _Cami

**25 Noyabr – Türk yazıçısı Rəşad Nuri Güntəkinin 130 illiyi, (1889-1956)**



1889-cu ildə İstanbulda ordu zabiti Nuri bəy ilə Ərzurum valisi Yavər Paşanın qızı Lütfiyyə xanımın ailəsində anadan olmuşdur. İlk təhsilini Çanaqqala orta məktəbində alan Güntəkin daha sonra təhsilini İzmirdəki Frerler məktəbində davam etdirib. 1912-ci ildə isə İstanbul Universitetinin Ədəbiyat fakültəsini bitirib. Güntəkin 1927-ci ilə qədər Sultanisi, İstanbul Beşiktaş İttihad və Tərəqqi Məktəbi, Fatih Vəqfi Kəbir Məktəbi, Ağşəmsəddin Məktəbi, Fənəryolu Muradı Hamis Məktəbi, Osman Qazi Paşa Məktəbi, Vəfa Sultanisi, İstanbul oğlanlar litseyi, Çamlıca qızlar litseyi, Kabataş oğlanlar litseyi, Qalatasaray Litseyi və Ərənköy qızlar litseyində fransız və türk dillərindən dərs deyirdi. 1927-ci ildə maarif müfəttişi vəzifəsinə təyin olunub və bu arada Dil Heyəti ilə birgə bəzi çalışmalarda iştirak edib. 1939-cu ildə Çanaqqaladan Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilib. 1946-cı ilə qədər millət vəkili olmuşdur. 1947-ci ildə Cümhuriyyət Xalq Partiyasının Ankarada çap olunan "Ulus" qəzetinin İstanbul qolu olan "Məmləkət" qəzetini nəşr etdirdi. Sonra yenidən müfəttiş kimi çalışıb və 1950-ci ildə UNESCO-nun Türkiyə təmsilçisi və tələbə müfəttişi olaraq Parisə gedib. 1954-cü ildə isə yaşı səbəbindən bu vəzifədən istefa verməli olmuşdur. Bundan sonra bir müddət İstanbul Şəhər Teatrlarının ədəbi şurasında fəaliyyət göstərdi. Ağciyər xərçəngi diaqnozu qoyulduqdan sonra yazıçı müalicə olunmaq üçün Londona yollanıb və orada vəfat etmişdir. R.N.Güntəkin 1956-cı il dekabr ayının 13-də Qaracamaat qəbiristanlığında dəfn edildi. Yazıçılığı və maarif müfəttişi vəzifəsi Güntəkinə doğma Anadolusunu qarış-qarış gəzmək imkanı verdiyindən ədib Anadolu insanına yaxından bələd ola bilmişdir. Əsərlərində Anadoluda ki yaşayışı və sosial problemləri ələ almış insanı, insan-ətraf aləmlə əlaqəsini əks etdirmişdir. Romanlarında istifadə etdiyi dil olduqca aydın, dialoqları isə canlıdır. Yazdığı, tərcümdə etdiyi, kitab halına sala bildiyi və ya jurnal, qəzet səhifələrində, teatr repertuarlarında olan əsərlərinin sayı yüzə çatır.

**Əsərləri:** “Çalı quşu” (1923), “Gizli əl” (1924), “Damğa” (1924), “Dodaqdan qəlbə” (1924), “Axşam günəşi” (1926), “Bir qadın düşməni” (1927), “Yarpaq dökümü” (1939), “Dəyirman” (1944), “Kavak yelləri” (1961), “Son sığınacaq” (1961) və s.

İnternetdə:https://az.wikipedia.org/wiki/Rəşad_Nuri_Güntəkin

**İncəsənət**
**7 Noyabr – Əməkdar artist Oqtay Ağayevin 85 illiyi, (07.11.1934-2006)**



Oqtay Ağayev 1934-cü ildə Bakıda dünyaya gəlib. Oktay Ağayevin uşaqlıq illəri müharibə dövrünə təsadüf etdiyi üçün çox çətin keçib. Sənətkar musiqini uşaqlıqdan sevib. 1953-cü ildə Asəf Zeynallı adına Musiqi texnikumuna daxil olub. Müəllimi Sofya İvanovna Xalfen olub. Təxminən 78 yaşlı bu qadın özü də müğənnilik edib. O, Oqtaya vokalın sirlərini öyrədib, onun vokalist kimi inkişafında böyük zəhmət çəkib. Əsgərlikdən qayıdandan sonra Oktay Ağayev Firudin Mehdiyevin sinfində təhsilini davam etdirib. Firudin Mehdiyev konservatoriyada ölməz Bülbülün sinfini bitirmişdi və texnikumda dərs deməyə başlamışdı. Oktay Ağayev Azərbaycanda olan iki böyük estrada orkestrinin hər ikisində solist kimi fəaliyyət göstərib. 1970-ci ilə qədər Rauf Hacıyevin, 1984-cü ilədək isə Tofiq Əhmədovun rəhbərliyi ilə Radio və Televiziya Estrada Orkestrinin solisti olub. O, Ağayev dünyanın bir sıra xarici ölkələrində (Əlcəzair, Mərakeş, Polşa, Çexoslovakiya, Bolqarıstan, Rumıniya və s.), keçmiş SSRİ-nin bütün respublikalarında qastrol səfərlərində olub, Kreml Sarayında 11 konsert verib. Oktay Ağayev kino sənətində də fəaliyyət göstərib. Vaqif Mustafayevin "Yapon" və yaponiyalı" filmində milis rəisi rolunda çəkilib. "O qızı tapın", "Dağlarda döyüş" və başqa filmlərdə mahnılar ifa edib. Oxuduğu mahnıların 200-dən çoxu lentə yazılıb. Ürək-damar xəstəliyindən əziyyət çəkən Xalq artisti Oqtay Ağayev 2006-cı il, noyabrın 14-də vəfat edib. Rəşid Behbudov adına Dövlət Mahnı teatrında vida mərasimi keçiriləndən sonra Yasamal qəbiristanlığında torpağa tapşırılıb.

**Filmoqrafiya:** “Dağlarda döyüş” (film, 1967), “Şərikli çörək” (film, 1969), “Abşeron ritmləri” (film, 1970), “Toyda görüş” (film, 1970), “O qızı tapın” (film, 1970), “Xatirələr sahili” (film, 1972), “Mahnı qanadlarında” (film, 1973), “Oqtay Ağayev. Ötən günlər” (film, 2004), “Bakı bağları. Buzovna” (film, 2007), “Yapon və yaponiyalı” (film, 1990)

İnternetdə: https://az.wikipedia.org/wiki/Oqtay_Ağayev

**24 Noyabr – Rəssam Vəcihə Səmədovanın 95 illiyi, (1924-1965)**



Vəcihə Səmədova 1924-cü ildə Bakıda anadan olmuşdur. 1939-1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alan Vəcihə xanım, sonradan V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun rəngkarlıq fakültəsinə – tanınmış rus rəssamı Pavel Korinin emalatxanasına daxil olub. O, 1951-ci ildə "Üzeyir Hacıbəyov tələbələri arasında" adlı diplom işini müvəffəqiyyətlə müdafiə edir. Müəllimlərinin təkidi ilə təhsilini daha üç il aspiranturada davam etdirib. Sonradan oxuduğu institutda dərs demək təklifi alan Vəcihə Səmədova vətənə qayıtmağı üstün tutaraq, müstəqil yaradıcılığa başlayıb. O, Azərbaycanın ilk peşəkar qadın rəngkarı olmuşdur. Vəcihə Səmədova həmkarı və həyat yoldaşı Lətif Feyzullayevlə birgə yaradıcılıq ezamiyyətlərinə çıxaraq Azərbaycanı qarış-qarış gəzib. Bunun bəhrəsi olaraq "Kür qırağında", "Mahnı", "İntizarda", "Toya hazırlıq" tematik tabloları, "Qoşqar yaylağında", "Göy göl", "Kəpəz", "Kür sahillərində" silsilə mənzərələri, "Aktrisa Leyla Bədirbəylinin portreti", "Pambıqçı", "Şamama Həsənovanın portreti", "Geoloq Minirə Məmmədbəylinin portreti" kimi əsərlər yaradıbn. Vəcihə Səmədova eyni zamanda əvvəllər təhsil aldığı rəssamlıq texnikumunda da pedaqoji fəaliyyət göstərmişdir. İstedadlı gənclərə sənətin sirlərini öyrətmişdir. 1962-ci ildə rəssamın Bolqarıstana yaradıcılıq ezamiyyətinin nəticəsi kimi Bakıda onun fərdi sərgisi açıldı. O, "Sofiyada bazar", "Türk qızı", "Tırnovo", "Bayram" və böyük ustalıqla işlənmiş digər tablolarla tamaşaçıların rəğbətini qazanıb. Qısa ömür yolu keçən, fitri istedada malik olan Vəcihə xanım Səmədovanın fərdi sərgiləri dəfələrlə Bakıda, Moskvada, Sofiyada uğurla nümayiş etdirilib. Onun tablolarındakı rəng çalarları, milli kolorit, böyük ustalıq bu əsərlərin dünya muzeylərində layiqli yer tutmasına səbəb olub. 14 iyul 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Fransanın Kann şəhərində baş tutan "Azərbaycan mədəniyyəti günləri" çərçivəsində Festivallar və Konqreslər Sarayında Lətif Feyzullayev və Vəcihə Səmədovanın əsərlərindən ibarət "Məhəbbət tandemi" sərgisi keçirilib. Bakının mərkəzindəki Azərbaycan Rəssamlar İttifaqının yaraşıqlı sərgi salonu 1965-ci ildən Azərbaycanın Əməkdar İncəsənət Xadimi Vəcihə Səmədovanın adını daşıyır. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Vəcihə Səmədovanın yaradıcılığına həsr olunmuş "Azərbaycan rəngkarlığının kraliçası" sənədli filmi çəkilib.

İnternetdə:https://az.wikipedia.org/wiki/Vəcihə_Səmədova

**Milli Qəhrəmanlar Zirvəsi**
**3 Noyabr – Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlunun 45 illiyi, (03.11.1974-05.10.1994)**



Musayev Aqil Hüseyn oğlu 3 noyabr 1973-cü ildə Azərbaycanın Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. Qarabağ müharibəsinin iştirakçısıdır. 5 oktyabr 1994-cü ildə Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edərkən, qəhrəmancasına həlak oldu. Aqil Musayev 5 oktyabr 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin cənab Heydər Əliyevin 215 saylı fərmanı ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Aqil Musayev 3 noyabr 1973-cü ildə Azərbaycanın Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1981-ci ildə birinci sinfə getmiş, 1991-ci ildə onuncu sinfi bitirmişdir. Sonra təhsilini Qazax şəhərindəki 117 saylı texniki-peşə məktəbində davam etdirmişdir. Sürücü peşəsinə yiyələnmişdir. 1993-cü il mayın 18-də Qazax rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. Bir müddət təlim-məşq toplanışlarında iştirak etmişdir. Az müddətdə əsgər və zabit heyətinin hörmətini qazanmışdır. O, 777 saylı hərbi hissənin tərkibində cəbhəyə getmişdir. İlk döyüşü Ağdam bölgəsində olmuşdur. Aqil hər dəfə döyüşə yollananda, ürəyindən bir arzu keçirdi – torpaqlarımızı tezliklə erməni tapdağından təmizləmək arzusu! Döyüşlərdə ölümün gözünə dik baxır, rəşadətlə vuruşurdu. Aqil Musayev Füzuli və Tərtər bölgələrində də erməni işğalçılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak etmişdir. Füzuli istiqamətində gedən döyüşdə yaralanmışdır. Bir müddət müalicə olunduqdan sonra yenidən səngərə qayıtmışdır. O böyük arzularla yaşayırdı. Lakin arzuları yarımçıq qaldı. Aqil Musayev 5 oktyabr 1994-cü ildə Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edərkən, qəhrəmancasına həlak oldu. Subay idi. Qazax rayonu Əzizbəyli kəndi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

**Aqil Musayev 5 oktyabr 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin cənab Heydər Əliyevin 215 saylı fərmanı ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.**

İnternetdə:https://www.google.ru/Musayev+Aqil+Hüseyn+oğlu

**8 Noyabr – Azərbaycanın Milli Qəhrəmanı Əliyev Əsgər Ələkbər oğlunun 45 illiyi, (08.11.1974-17.03.1995)**



Əliyev Əsgər Ələkbər oğlu 8 noyabr 1974-cü ildə Lənkəran rayonunun Ləj kəndində anadan olmuşdur. 1982-1992-ci illərdə orta təhsil almışdır. Sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank–artilleriya fakültəsinin tələbəsi olub. 1995-ci ildə 17 mart tarixində Mart hadisələri baş verərkən Əsgər Əliyev Milli Ordunun əsgəri idi. Hadisə zamanı Əsgər Əliyev yaralandı, lakin 4 yaralını xilas edərkən ikinci güllə onun ömrünə son qoydu. Subay idi. Ləj kənd qəbiristanlığında dəfn edilmişdir. Lənkəran rayonunda adına park var. Büstü qoyulmuş, xatirə lövhəsi vurulmuşdur. Haftoni qəsəbə orta məktəbində "Xatirə guşəsi" yaradılmışdır.

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Əliyev Əsgər Ələkbər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:https://az.wikipedia.org/wiki

**Dekabr**

**Əlamətdar və tarixi günlər**

1 Dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Günü, (1988)
3 Dekabr – Beynəlxalq Əlillər Günü, (1992)
6 Dekabr – Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçiləri Günü, (2006)
7 Dekabr – Beynəlxalq Mülki Aviasiya Günü, (1996)
10 Dekabr – Ümumdünya Futbol Günü
10 Dekabr – Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Günü, (1950)
11 Dekabr – Uşaqların Beynəlxalq Televiziya və Radio Verlişləri Günü, (1994)
11 Dekabr – Beynəlxalq Dağlar Günü, (2003)
15 Dekabr – Beynəlxalq Çay Günü, (2004-2005)
25 Dekabr – "Qızıl qələmlər" Ədəbi Cəmiyyətinin Yarandığı Gün, (1925)
28 Dekabr – Beynəlxalq Kino Günü, (1895)
31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü, (1991)

**Bu tarixi unutmayaq**

12 Dekabr – Ümummilli lider Heydər Əliyevin Anım Günü, (2003)
26 Dekabr – Xankəndinin işğalı günü, (1991)

**Azərbaycanın görkəmli şəxsiyyətləri**

Tarixçi Püstəxanım Əzizbəyovanın 90 illiyi, (29.12.1929-1998)
Coğrafiyaşünas Qasım Gülün 110 illiyi, (31.12.1909-1972)

**Yubilyar yazıçılar**

Xalq şairi Nəbi Xəzrinin 95 illiyi (10.12.1924-2007)
Şairə Qəmər Quliyevanın 80 illiyi, (10.12.1939)
Şair Fətəli Sahibin 95 illiyi, (12.12.1924-2003)
Ədəbiyyatşünas Dilarə Əliyevanın 90 illiyi, (14.12.1929-1991)
Şair Tofiq Bayramın 85 illiyi, (16.12.1934-1991)
Yazıçı Cahangir Gözəlovun 110 illiyi, (16.12.1909-1999)
Şair, publisist Teyyub Qurbanın 85 illiyi, (18.12.1934-21.02.2018)
Şair Məmməd Aslanın 80 illiyi, (24.12.1939-2015)
Yazıçı, tənqidçi, ədəbiyyatşünas Tofiq Əkbərovun 80 illiyi, (22.12.1939-1985)
Şair Famil Mehdinin 85 illiyi, (25.12.1934-2003)
Şair Ağalar Mirzənin 65 illiyi, (25.12.1954-2008)
Yazıçı Sara Nəzirovanın 75 illiyi, (29.12.1944)

**İncəsənət**

Xalq rəssamı Səttar Bəhlulzadənin 110 illiyi, (15.12.1909-1974)
Xalq artisti, rəqqasə Əminə Dilbazinin 100 illiyi, (26.12.1919)

**Milli Qəhrəmanlar Zirvəsi**

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yusif Əliyusif oğlunun 50 illiyi, (02.12.1969-14.09.1991)

## 1 Dekabr – QİÇS-lə Mübarizə Günü, (1988)




Bu gün 1988-ci ildə təsis edilmişdir. HİV – infeksiyası pandemiyası dünya səhiyyəsinin infeksion xəstəliklər sahəsində ən ciddi problemidir. BMT-nin HİV/AİDS üzrə Birləşmiş proqramının və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada hər gün 6800-dən artıq insan HİV-ə yoluxur, 5700-dən artıq insan isə AİDS səbəbindən vəfat edir. 2007-ci ilin sonuna yer kürəsində HİV-lə yaşayan insanların sayı 33,2 milyon təşkil etmişdir ki, onlardan da 15,4 milyonu qadın, 2,5 milyonu uşaqdır.

Azərbaycanda da HİV/AİDS problemi ən aktual problem olaraq daim Səhiyyə Nazirliyinin nəzarətindədir. Respublikamızda HİV-ə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasına daxildir və burada epidemiya əsasən yüksək riskli qrupa aid olan inyeksion narkotik istifadəçiləri arasında yayılmışdır. Belə ki, Azərbaycan vətəndaşları arasında təkcə 2009-cu ilin 11 ayı ərzində aşkar olunan HİV-ə yoluxma hallarının 63,3%-i, ümumilikdə isə 1992-01.12.2009-cu il tarixinə olan dövrdə yoluxma hallarının 64,4%-i inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Azərbaycanda ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək Respublika QİÇS-lə Mübarizə Mərkəzində HİV infeksiyası təsdiq olunmuş 2224 nəfər rəsmi qeydiyyata götürülmüşdür. Onlardan 2138 nəfəri (96,1%) Azərbaycan vətəndaşı, 86 nəfəri (3,9%) isə əcnəbidir. HİV-ə yoluxmuş Azərbaycan vətəndaşlarından 1799-u (84,1%) kişi, 339-u (15,9%) qadındır. AİDS mərhələsində olan Azərbaycan vətəndaşlarının sayı 448 nəfər, AİDS-dən dünyasını dəyişmiş vətəndaşların sayı 274 nəfər olmuşdur. Azərbaycan vətəndaşında ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1992-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək 2138 HİV-ə yoluxmuş insandan 634-ü (29,7%) Bakı şəhəri və Abşeron rayonunda, 1465-i (68,5%) respublikanın digər 54 inzibati ərazisində qeydiyyatda olan şəxslərdir, 39 nəfərin (1,8%) yaşayış yeri naməlumdur.1992-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək Azərbaycanda 780 ailədə HİV-ə yoluxma faktı qeydə alınmışdır. Səhiyyə Nazirliyi tərəfindən HİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsinin təmin edilməsi işi Respublika QİÇS-lə Mübarizə Mərkəzində davam etdirilir.

**İnternetdə: [www.books.google.com](http://www.books.google.com)**

**3 Dekabr – Beynəlxalq Əlillər Günü, (1992)**



Ümumdünya Səhiyyə Təşkilatnın məlumatına görə, dünya üzrə fiziki qüsurlu insanların faiz göstəricisi 10%-dir. Bu göstərici Azərbaycan üzrə 4,4% təşkil edir ki, bu da MDB məkanında ən aşağı göstərici hesab edilir. Respublikamızda dörd yüz mindən artıq əlil insan var. Onların bir hissəsi II Dünya müharibəsi, bir hissəsi erməni təcavüzü nəticəsində əmək qabiliyyətlərini itirən şəxslərdir. Əlillərin sosial müdafiəsinin gücləndirilməsi haqqında dövlət proqramına uyğun olaraq, onların xaricdə müalicəsi təşkil edilir. Bu yöndə işlər davam etdirilir.

Əlil insan dedikdə hər kəsin ağlına müəyyən orqanlarını itirmiş insanlar gəlir. Unudulmamalıdır ki, bu onların işləməyinə, həyat fəaliyyətlərinə və ya insani keyfiyyətlərinə əngəl deyil və olmamalıdır. Fiziki deyil, mənəvi cəhətdən qüsurlu olmamaq gərəkdir. İnsanların hamısı eyni olmur. Fiziki cəhətdən sağlam olanlarla yanaşı, əlillər və şikəstlər də vardır. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik vardır. Əlillik eyib sayılmamalıdır. Çünki bu insanlar fiziki cəhətdən tam olmasalar da, onlarda da nəcib ürək, saf insani keyfiyyətlər, yüksək bilik, bacarıq və intellektual qabiliyyətlər vardır. Bu insanlar hətta maddi cəhətdən təmin olunsalar belə, isti münasibət, doğmalardan və yadlardan qayğı, mərhəmət və diqqət umurlar.

Ölkəmizdə əlillərin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilmişdir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər.

Beynəlxalq aləm də əlillərə qayğı və diqqəti artırıb. Onların hüquqlarının qorunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. Onlardan ən mühümü BMT tərəfindən 1983-1992-ci illərdə həyata keçirilmiş Əlillər Onilliyidir. 1992-ci il oktyabrın 14-də Onilliyin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü Beynəlxalq Əlillər Günü kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

**İnternetdə: www.books.google.com**

**6 Dekabr – Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçiləri Günü, (2006)**



Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsis olunub. O vaxtdan bütün respublikada rabitəçilər və informasiya texnologiyaları sahəsinin işçiləri öz peşə bayramlarını qeyd edirlər. Peşə bayramının məhz bu gündə qeyd olunması Azərbaycanda ilk telefon xəttinin yaradılması ilə bağlıdır. Belə ki, 1881-ci il dekabrın 6-da Bakıda "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir. Azərbaycanda rabitə sahəsi ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində xüsusilə inkişaf etməyə başlayıb. Rabitə sisteminin əsas inkişaf dövrü 70-80-ci illərə təsadüf edir. 1976-cı ildə təkcə Bakı telefon şəbəkəsinin gücü 1927-ci illə müqayisədə, 20 dəfədən çox artmış, telefon Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsinə çevrilmişdir. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı sahələri də diqqətəlayiq inkişaf yolu keçmişdir. 1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən Bakıda – köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik yeni teleqüllənin layihəsi təsdiq edilmiş və 1981-ci ildə obyektin tikintisinə başlanmışdır. Həmçinin 90-cı illərdə Azərbaycanda informasiya kommunikasiya texnologiyaları sektoru da inkişaf etməyə başlamış, ölkədə bu yeni sektorun inkişafı prosesi sürətlənmiş, Azərbaycanın internet seqmenti genişlənmişdir.

Respublikamızda rabitə və informasiya-kommunikasiya texnologiyaları sektorunun hazırkı sürətli inkişafı ümummilli liderin kursunu davam etdirən ölkə Prezidenti İlham Əliyevin şəxsi diqqəti və qayğısı nəticəsində əldə olunmuşdur. 2012-ci il ərzində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının və Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında sənədlər imzalanmışdır. Həmin ilin noyabrında illik "Bakutel" sərgi-konfransı ilə yanaşı, Bakıda dünya əhəmiyyətli İnternet İdarəçilik Forumu (IGF 2012) da keçirilmişdir. Bütün bunlar hökumət tərəfindən İKT sektoruna böyük diqqətin yetirilməsini bir daha sübut edir.

**İnternetdə: www.books.google.com**

**7 Dekabr – Beynəlxalq Mülki Aviasiya Günü, (1996)**



1944-cü il dekabrın 7-də Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiya imzalanmışdır. 6 dekabr 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən 7 dekabr Beynəlxalq Mülki Aviasiya Günü elan olunmuşdur. Azərbaycanda ilk mülki hava reysi 1921-ci ildə poçt-sərnişin təyyarəsində həyata keçirilmişdir. Lakin hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündən başlayaraq aviasiya sahəsində bir sıra işlər görülmüşdür. Azərbaycan mülki aviasiyasında ilk dəfə 1923-cü il avqustun 8-də "Yunkers" təyyarəsi ilə sərnişin daşınmaları həyata keçirilmişdir. Ölkəmizdə ilk hava limanı 1931-ci ildə Binə qəsəbəsinin yaxınlığında tikilmiş və 2 ildən sonra istifadəyə verilmişdir. 1938-ci ildə Azərbaycanda ilk aviasiya qrupu yaradılıb ki, bu tarix 2006-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Mülki Aviasiya Günü kimi elan edilib. Sergey Utoçkinin idarə etdiyi uşaqsayağı yöndəmsiz və möhkəm olmayan "Farman-4" sistemli fransız biplanı heyrətdən yerində donmuş tamaşaçıların başı üzərində bir neçə dairə vuraraq, alqışlar altında yerə enib. Azərbaycanın aviasiya ilə ilk tanışlığından sonra hava nəqliyyatının yeni növünün regionda rəsmi status alması üçün on beş il ötüb. 1923-cü ildə "ZAKAVİA" – Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyəti yaradılıb. Artıq 1923-cü ilin aprel ayında "Yunkers" təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilib. İki il sonra isə Keşlədə aerodrom tikilib və mülki "Hava stansiyası" yaradılıb. Bu, aviaparkı müasir "Boeing-757" təyyarələri ilə təkmilləşdirməyə, uçuşları idarəetmə vasitələrini yeniləməyə, iyirmiyədək ixtisas üzrə kadrların hazırlanması sistemini yaratmağa və bu gün altmışdan yuxarı aviaşirkətin təyyarələrini qəbul edən beynəlxalq təyyarə vağzalının 1999-cu ildə Bakı şəhərində açılmasına imkan verib. Növbəti illərdə "Naxçıvan" beynəlxalq hava limanı, "Gəncə" beynəlxalq hava limanı və "Zabrat" hava limanında yeni təyyarə vağzalının binası istismara verilib.

2008-ci ildə "Lənkəran" və "Zaqatala" beynəlxalq hava limanları açılıb. Bakı-Zaqatala və Bakı-Lənkəran marşrutları üzrə aviareyslər, müvafiq olaraq 2008-ci ilin sentyabr və oktyabr aylarında açılıb. Qeyd edək ki, hazırda AZAL ölkə daxilində Bakı-Naxçıvan, Bakı-Gəncə və Gəncə-Naxçıvan və Bakı-Qəbələ marşrutları üzrə uçuşlar yerinə yetirir."Azərbaycan Hava Yolları" QSC Avropa, MDB, Yaxın Şərq və Asiya ölkələrinə sərnişin daşımaları həyata keçirir. İndi "Azərbaycan Hava Yolları" QSC Azərbaycanın Milli Daşıyıcısı kimi Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasında (İATA) layiqli yer və MDB ölkələrinin aviaşirkətləri arasında lider mövqe tutur. **İnternetdə: www.books.google.com**

## 10 Dekabr – Ümumdünya Futbol Günü



10 dekabr – Ümumdünya Futbol Günü Birləşmiş Millətlər Təşkilatının qərarı ilə qeyd olunur. Beynəlxalq ictimaiyyət bu idman növünə qiymət verərkən bildirir ki, bu, milyonlarla insan üçün sadəcə oyun deyil, həm də həyat tərzidir. Futbol – "ayaqla top oyunu" haqqında ilk xatırlatmalara bizim eradan əvvəl ikinci minillikdə Çin mənbələrində rast gəlinib. O, çsu-çyu adlandırılıb, mənası "ayaqla itələmək" deməkdir. Bu oyunun ilk dəfə nə vaxt başlanması haqqında dəqiq məlumat yoxdur. Bəziləri iddia edir ki, futbolun ilk sələfləri VIII əsrdə İngiltərədə yaşayan saksonlar olub. Onlar döyüş meydanında vuruşmadan sonra düşmənlərin kəsilmiş başlarını təpikləyirdilər. Futbolu Qədim Yunanıstanda və Romada təxminən 2500 il bundan əvvəl oynayıblar. Yunanıstanda bu oyun "top uğrunda mübarizə" adlandırılıb.

Qeyd edək ki, futbol bütün dünyada ən populyar idman növü sayılır. Futbol Günü idmançıları və idmanın bu növünün sadiq azarkeşlərini birləşdirən bayramdır. Azərbaycanda futbolun əsası 1911-ci ildə qoyulub, ilk çempion isə Bakının "Cənub inşaatçısı" komandası olub.

**İnternetdə: arxiv.az**

## 10 Dekabr – Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Günü, (1950)

***Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.***

**Ümummilli lider Heydər Əliyev**




1948-ci ilin 10 dekabrında BMT-nin Baş Məclisi tərəfindən "İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul edilmişdir. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-u bütün dünyada Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur. İnsan hüquqları, insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir. İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar eyni hüquqlara malik olmalıdırlar və bu hüquqlar hər hansı bir izaha ehtiyac olmadan hər kəsə bərabər şəkildə aid edilməlidir. Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli Avropa İnsan Hüquqları Konvensiyası mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu sənədə əsaslanan və eyni zamanda real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir. İnsan haqqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə edilir: "Hər bir insan onun malik olduğu irqdən, cinsdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin edilmiş insan hüquqlarına malikdir".

**İnternetdə: www.books.google.com**

## 11 Dekabr – Uşaqların Beynəlxalq Televiziya və Radio Verlişləri Günü, (1994)

***Uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət-ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır.***

**Ümummilli lider Heydər Əliyev**




Ötən əsrin sonlarından BMT tərəfindən hər il dekabrın 11-i Uşaqların Beynəlxalq Televiziya və Radio Günü kimi qeyd olunur. BMT Uşaq Fondunun (YUNİSEF) təşəbbüsü ilə 1994-cü ilin aprelində Kann şəhərində təsis olunmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il mayın 19-da imzalanmış "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində deyilir: "Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir". Uşaqlara göstərilən qayğının daha bir bariz nümunəsi 22 iyun 1999-cu il tarixdə qüvvəyə minmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşuqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Ulu öndərimiz Heydər Əliyev həmişə uşaqların bu əlamətdar günündə onlarla bir yerdə olmağı çox sevirdi. Heydər Əliyev Uşaqların Beynəlxalq Televiziya və Radio Günü ilə əlaqədar onların hazırladığı mərasimdə iştirak etməkdən böyük zövq alırdı. Fərəhlə demək olar ki, uşaq və gənclərə göstərilən diqqətin, qayğının daha da artırılmasında ölkə Prezidenti İlham Əliyevin xidməti çoxdur.

Təbii ki, uşaqların diqqətini çəkən, onların maraq dairəsinə daxil olan vərdişlərdən biri də televiziyadır. Buna görə də respublikamızda bir telekanalın uşaqlar üçün ayrıca redaksiyası fəaliyyət göstərir. Bu sarıdan Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin ənənələrə söykənərək uşaqlar üçün proqramlar hazırlanması diqqət çəkir. İstər AzTV-də, istərsə də onun "Mədəniyyət" kanalında uşaq və gənclərə həsr olunan verilişlərin təkcə adlarına fikir verək: "Təmas nöqtəsi", "Tələbə dünyası", "Mən də uşaq olmuşam", "Çoxbilmişlərdənsinizmi?", "Mən azərbaycanlıyam", "Müasir Azərbaycan gəncliyi", "Biləyən", "Bəbək", "Ana dili" və s. əlbəttə, bu verilişlərin hər biri haqqında ayrıca danışmaq da olar.

**İnternetdə: www.azerbaijan-news.az**

**11 Dekabr – Beynəlxalq Dağlar Günü, (2003)**



BMT-nin 2003-cü ilin yanvarında keçirilmiş 57-ci Baş Assambleyasının qərarı ilə hər il dekabrın 11-də Beynəlxalq Dağlar Günü (International Mountain Day) qeyd olunur.

BMT-nin Baş Assambleyası planetin dağlıq regionlarının inkişaf problemlərinə və onların əhalisinə yardımın zəruriliyinə diqqəti cəlb etmək məqsədi ilə beynəlxalq birliyi həmin gün müxtəlif tədbirlər keçirməyə çağırmışdır. Bu günlə bağlı adətən tematik kitab yarmarkaları, simpoziumlar, mühazirələr, seminarlar, məktəblərdə məşğələlər keçirilir.

Dağlar Yer kürəsinin quru səthinin dörddə birini təşkil edir, dünyanın daimi iqtisadi inkişafında mühüm rol oynayır və əhalinin demək olar ki, 10%-nin daimi yaşayış məskənidir. Dağlar yalnız dağlıq rayonlarda yaşayan 720 milyon insan üçün mövcudluq və rifah mənbəyi deyil, həm də dağətəyində yaşayan milyardlarla insanın yaşayış tərzinə müsbət təsir göstərir. Dağlar həm də bir çox nadir bitki və heyvan növlərinin qoruğu, Yerin bütün əsas çaylarının su mənbəyidir. Dağlar eyni zamanda populyar turizm və istirahət məskənləridir. Lakin ətraf mühitin vəziyyətinin pisləşməsi dağlarda quraqlığa, sürüşmələrə və digər təbii fəlakətlərə, dağlıq rayonlarda siyasi vəziyyətin kəskinləşməsi isə yerli münaqişələrə, terrorçuluğun, qaçqınların artmasına, aclığa və xəstəliklərə səbəb olur. Bütün bunlar isə dağlıq regionların nadir təbiət və insan potensialının itirilməsinə gətirib çıxarır.

Hər il Beynəlxalq Dağlar Günü üçün mövzu müəyyən olunur. Həmin mövzu çərçivəsində informasiya materialları işlənib hazırlanır və tədbirlər keçirilir.

**İnternetdə:** http://www.calend.ru/holiday/

## 15 Dekabr – Beynəlxalq Çay Günü, (2004-2005)



Hər il dekabrın 15-də aparıcı dünya çay istehsalçısı statusuna malik bütün ölkələrdə Beynəlxalq Çay Günü (International Tea Day) qeyd olunur. Bu günün qeyd olunmasının məqsədi – hökumətlərin və insanların diqqətini  çay satışı problemlərinə, çay istehsalı sahəsində işləyən işçilərin, kiçik istehsalçıların və istehlakçıların vəziyyətinə cəlb etməkdir. Bayramın bir məqsədi də bu içkinin populyarlaşdırılmasıdır. 15 dekabrda Çay sənayesi işçilərinin hüquqlarının dünya bəyannaməsi elan olunmuşdur. Beynəlxalq Çay Gününün məhz dekabrın 15-də qeyd edilməsi qərarı 2004-cü ildə Mumbayda (Hindistan) və 2005-ci ildə Porte Alleqredə (Braziliya) keçirilmiş Ümumdünya ictimai forumunun gedişi zamanı beynəlxalq təşkilatlarda və həmkarlar ittifaqlarında müzakirələrdən sonra qəbul edilmişdir. Bu günü, əsasən, iqtisadiyyatında çay istehsalının önəmli yer tutduğu ölkələr – Hindistan, Şri-Lanka, Banqladeş, Nepal, Çin və s. qeyd edirlər.

Çayın bir içki kimi ilk dəfə Çin imperatoru Şen Nunq tərəfindən təxminən e.ə 2737-ci ildə aşkar olunduğu hesab olunur. Belə ki, imperator çay yarpağını qaynar su olan fincana salmış və beləcə çay içkisi yaranmışdır. Eramızın 400-600-cü illərində Çində çaya maraq artır və bunun nəticəsində çay bitkisinin kultivasiyası prosesləri inkişaf edir. Rusiya və Avropada çay XVII əsrin birinci yarısında məlum olur. Çay tarixində ən məşhur hadisələrdən biri isə 1773-cü il dekabrın 16-da baş verən “Boston çayiçməsi” olmuşdur. Həmin vaxt Amerika müstəmləkəçiləri Böyük Britaniya tərəfindən çaya tətbiq olunan vergiyə etiraz işarəsi kimi Boston sahilinə çay yeşikləri atmışlar.

Bir çox ölkələr özlərinin çayiçmə ənənələrinə malikdirlər. Bəzi xalqlar çayı süddə dəmləyirlər. Bəzi yerlərdə isə çaya xüsusi ədviyyatlar qatılır. Amma bir fakt danılmazdır ki, çay dünyada ən çox sevilən içki olaraq qalır. Bu bayram da hələ ki, rəsmi olmasa da, çaysevərlər tərəfindən getdikcə daha çox qeyd olunur. Çay günündə müxtəlif sərgilər, reklam aksiyaları və s. keçirilir.

**İnternetdə: http://www.calend.ru/holidays**

## 25 Dekabr – "Qızıl qələmlər" Ədəbi Cəmiyyətinin Yarandığı Gün, (1925)



Azərbaycan Yazıçılar İttifaqı 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan Yazıçılarının I qurultayında yaradılmışdır. O vaxta qədər Azərbaycan yazıçıları ayrı-ayrı ədəbi birləşmələrin tərkibində fəaliyyət göstərirdilər. 1923-cü ildə Azərbaycan yazıçılarını bir təşkilatda birləşdirmək zərurəti meydana çıxarkən bir neçə yazıçı çap etdirdikləri müraciətdə Türk Ədib və Şairlər İttifaqı Dərnəyi təsis etdiklərini bildirdilər. Həmin ədəbi birlik "İldırım" adlanırdı. "Qızıl qələmlər" ədəbi cəmiyyəti də təxminən bu dövrlərdə formalaşmış, öz ətrafına gənc ədəbi qüvvələri toplamışdı. Bu cəmiyyət əsaslı və ədəbi təşkilat kimi 1925-ci il dekabrın 25-də Bakıda yaradıldı, ədəbi dərnəkləri öz ətrafında birləşdirdi. "Qızıl qələmlər" cəmiyyəti tez-tez müşavirələr, ədəbi gecələr, görüşlər, məruzələr təşkil edir, tədbirlər həyata keçirirdi. "Maarif və mədəniyyət" jurnalında, "Kommunist" və "Gənc işçi" qəzetlərində müntəzəm verilən ədəbi materiallar, "Qızıl qələmlər", "Oktyabr alovları" almanaxları və ayrı-ayrı məcmuələr ədəbiyyatın təbliğinə, kütləvi surətdə yayılmasına xidmət edirdi. 1927-ci il iyul ayının əvvəllərində Azərbaycan yazıçılarının birinci ümumi yığıncağında bütün ədəbi qüvvələri bir təşkilat ətrafında birləşdirmək qərara alındı. Beləliklə, Azərbaycan Yazıçılar Cəmiyyətinin müvəqqəti İdarə Heyəti yarandı. 13 yanvar 1928-ci ildə Bakıda Ümumazərbaycan yazıçılarının birinci və 20 oktyabr 1929-cu ildə ikinci qurultayı çağrıldı. Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında 1932-ci il 23 aprel tarixli qərarından sonra Azərbaycan Yazıçılar Cəmiyyətinin yenidən qurulması haqqında təşkilatı tədbirlər görüldü və Azərbaycan Yazıçılar İttifaqı yaradıldı.

**İnternetdə: www.azyb.net**

**28 Dekabr – Beynəlxalq Kino Günü, (1895)**




XX əsrin 30-cu illərində kinematoqrafiya inkişaf etməyə başladı. Belçikada Cozef Plato və Avstriyada Simon fon Ştampfer demək olar ki, eyni anda "fenakistoskop" adlı, hərəkət edən rəsm effekti verən fırlanan iki çarxlı cihaz kəşf edirlər. İlk kinematoqrafiya sistemini Tomas Edison və Uilyam Dikson hazırlayıb. 1890-cı ildə ilk dəfə olaraq kinokamera ixtira edilib. 1891-ci ildə ilk çəkilən lenti nümayiş etdirmək üçün kineskop kəşf olunur. Dekabrın 28-də dünyada Beynəlxalq Kino günü qeyd olunur. 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil etmişlər. Filmlərin arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də var idi. Lümyer qardaşları hesab edirdilər ki, kino həyat səhnələrinin nümayişindən başqa bir şey deyil və olmayacaqdır. Ona maraq tezliklə sönəcəkdir. Lakin bəşəriyyət xroniki sinematoqraf xəstəliyinə tutuldu. Kino körpə uşaq kimi, əvvəlcə danışa bilmirdi. Tamaşaçıları aktyorların hərəkətləri, üz-gözünü büzməsi ilə əyləndirirdi. 1896-cı ildə ilk dəfə montajdan istifadə edərək, fransız rejissoru Jorj Meles "Çaydan xilas" filmini lentə alır. Meles həm də kinoda bir neçə yeniliklərin banisi sayılır. XX əsrin əvvəllərində filmlərin vaxtı uzadılaraq 15-20 dəqiqəyə çatır. Bütün dünyada kino zalları açılmağa başlayır.

Azərbaycan kino sənətinin tarixi isə 1898-ci il iyunun 21-dən başlayır. İlk filmlər fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmiş xronika süjetləri ("Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və s.) və bir bədii kinosüjetdən ("İlişdin") ibarət olub. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri (ticarət evləri) tərəfindən Bakı, Tiflis, İrəvan şəhərlərində prokat kontorları yaradılıb. 1915-ci ildə adı çəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyni adlı ilk Azərbaycan bədii filminin çəkilişinə başlayıb. 1916-cı ildə Bakıda Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə "Təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi.

**İnternetdə: www.books.google.com**

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, (1991)

***Bizim hamımızın bir vətəni var. Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.***

**Ümummilli lider Heydər Əliyev**



31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü – Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram edilir.

**İnternetdə: [www.books.google.com](www.books.google.com)**

**Bu tarixi unutmayaq**

**12 Dekabr – Ümummilli lider Heydər Əliyevin Aım Günü, (2003)**



Dekabrın 12-si xalqımızın ümummilli lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış ulu öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin özünəməxsus yeri vardır.

Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Heydər Əliyev irsinin araşdırılması ilə məşğul olan bir çox müəlliflər ulu öndəri XX əsrin siyasət nəhəngləri, mənsub olduqları xalqlar üçün əvəzsiz xidmətlər göstərmiş Şarl de Qoll, Corc Vaşinqton, Uinston Çörçill, Konrad Adenauer və digərləri ilə bir sıraya qoyurlar. Amma bu şəxsiyyətlərin hər birinə böyük hörmət hissi ilə qeyd etməliyik ki, onlar yaşadıqları bir ictimai-siyasi formasiyanın verdiyi imkanlardan məxsus olduqları xalq üçün maksimum istifadə etməyə çalışmış və buna nail olmuşlar. Heydər Əliyev isə həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün böyük əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda özünün adını əbədi olaraq tarixə yazmışdır. Heydər Əliyevin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Bu parlaq şəxsiyyətin həmin illərdəki fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və hörmət ilə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. Heydər Əliyevin dövlətçilik səriştəsi, dərin zəkası, fenomenal yaddaşı, insanları idarə etmək bacarığı

həmin vaxt SSRİ-nin tərkibində olan bütün xalqlar tərəfindən yüksək qiymətləndirilmişdir. Ümummilli liderimiz böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu diplomatiyada ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendi yaxşı duyurdu. Dünyanın söz sahibi olan ölkələrinin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi.

Ulu öndərin neft strategiyasının yeni bir mərhələsi Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri BTC 2006-cı ildə işə salınanda bp şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq deyirdi: "BTC-nin fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın enerji xəritəsini dəyişən BTC yox, onun yaradıcısı, Azərbaycanın dahi oğlu Heydər Əliyev oldu. Ümummilli lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzuolunan nəticələr verməyəcəyini bilirdi. Postsovet məkanında ilk dəfə Azərbaycanda Heydər Əliyevin göstərişi ilə torpaq islahatına başlandı. Kolxoz və sovxozların şəxsi və fermer təsərrüfatlarına çevrilməsi kənd təsərrüfatının inkişafında yeni üfüqlər açdı.

Ulu öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa, iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.

Ulu öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu uğurların əsasını qoymuş ulu öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

**İnternetdə: www.books.google.com Mənbə: AzərTAc**

**26 Dekabr – Xankəndinin işğalı günü, (1991)**



Xankəndi Azərbaycan Respublikasının ən gənc şəhərlərindən biridir. Arxiv sənədlərində məlumat var ki, şəhər XVIII əsrin sonunda hökmdarların – Qarabağ xanlığının xanları üçün istirahət yeri kimi salınmışdır. Yaşayış yeri Pənahabaddan (Şuşa şəhərindən) 10 km məsafədə, yalnız bir məqsədlə – Qarabağ xanlarının fəaliyyəti üçün maksimum rahatlığın təmin edilməsi məqsədilə nisbətən yamac yerdə ucaldılmışdır. Şəhərin yeri müəyyən edilərkən onun digər strateji cəhətdən vacib şəhərlərə – Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana və digərlərinə yaxınlığı nəzərə alınmışdır. Digərlərində olduğu kimi, bu gənc yaşayış məntəqəsində də azərbaycanlılar məskunlaşmışdır. Şəhərin yaranmasının ilk illərində şəhərdə yalnız Xan öz ailəsi ilə və dəstəsi yaşayırdı. Xankəndi adı da burdan götürülmüşdür – "Xanın kəndi". Sonradan qəsəbə rəsmi olaraq Xankəndi adını almışdır. Xankəndi respublikanın inkişaf etmiş sənaye mərkəzi idi. Yüngül və yeyinti sənayeləri inkişaf etmişdi. Elektrotexnika, avtotəmir və asfalt-beton zavodları, mebel fabrikləri, tikinti materialları, istehsalat və maariflәndirici istehsalat kombinatları fəaliyyət göstərirdi. Xankəndi şəhəri 1991-ci il dekabrın 25-dən 26-na keçən gecə Ermənistanın Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Sahəsi 8 $km^2$-dir. Paytaxt Bakıdan 329 km aralıda yerləşir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi olmuşdur. Hazırda şəhər erməni silahlı qüvvələrinin nəzarəti altındadır. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başladılar. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olundu. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırdılar. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb oldu. Bundan sonra Sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərdi. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlandı. İlk olaraq ermənilər 1988-ci ilin 18 sentyabrında Xocalıya hücum etdilər. Güclü müqavimətlə rastlaşdıqdan sonra onlar Xankəndində olan azərbaycanlıların evlərinə basqınlar təşkil etdilər. 26 dekabr 1991-ci ildən rayon erməni işğalı altındadır. **İnternetdə: www.books.google.com**

**Azərbaycanın tanınmış şəxsiyyətləri**

**29 Dekabr – Tarixçi Püstəxanım Əzizbəyovanın 90 illiyi, (1929-1998)**



Görkəmli alim, Azərbaycanın, Qafqazın və müsəlman şərqinin ilk akademik qadınlarından biri olan Püstə Əzizbəyova 1929-cu il dekabr ayının 29-da Bakı şəhərində general-mayor Əzizağa Əzizbəyovun ailəsində anadan olmuşdur. Məktəb təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetinə daxil olmuş, buranı bitirdikdən sonra Azərbaycan SSR-də bir neçə mühüm vəzifə tutmuşdur, bunlardan başlıcası Azərbaycan Tarixi Muzeyinin Sovet tarixi şöbəsinin müdiri (1955-1961) və sonralar həmin muzeyin direktoru olması idi. Əzizbəyova, həmçinin Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Püstəxanım Əzizbəyova (29 dekabr 1929 – 8 yanvar 1998) – Sovet tarixçisi, alim, akademik, tarix elmləri doktoru (1961), kino məsləhətçisi və Azərbaycan Tarix Muzeyinin keçmiş direktoru olub. O, maarif adamı, mühəndis və peşəkar solçu, inqilabçı Məşədi Əzizbəyovun nəvəsidir və babası haqqında bir neçə əsər də yazmışdır. Əzizbəyovanın tarixçi kimi fəaliyyətinin əsasını Azərbaycan Kommunist Partiyası və Azərbaycan Sovet Sosialist Respublikasının tarixi tutmuşdur. O bu mövzuların ən əsas tədqiqatçılarından birinə çevrilmiş, Azərbaycan tarixinin sosyalist inqilabçıları, o cümlədən də babası Məşədi Əzizbəyov haqqında əsərlər yazmışdır. Daha sonralar Sovet Qadınları Komitəsinin (1968) və Amerika Muzeyləri Assosiyasının (1964) üzvlərindən birinə çevrilmiş, "Şərəf Nişanı" ordeni ilə tərtif olunmuş, o cümlədən bir sıra əsəri SSRİ XTNS-nin qızıl və gümüş medallarına layiq görülmüşdür. O, 1998-ci ildə vəfat etmiş və Birinci Fəxri Xiyabanda dəfn olunub. Əzizbəyova bir neçə kino filmində kino məsləhətçisi və ya ssenarist kimi çıxış etmişdir.

**Filmoqrafiya:** "Bakı Komissarı Məşədi Əzizbəyov" (film, 1975), "Qızıl uçurum" (film, 1980), "İlk hücum" (film, 1985) və s.kinofilimlərin baş məsləhətçisi olmuşdur.

İnternetdə:https://az.wikipedia.org/wiki/Püstəxanım_Əzizbəyova

**31 Dekabr – Coğrafiyaşünas Qasım Gülün 110 illiyi, (1909-1972)**



Qasım Gül 31 dekabr 1909-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Tam adı Ağaqasım Kazım oğlu Güləhmədovdur və ata tərəfindən şəcərəsi Şirvan hakimi olmuş (1792-1820) Mustafa xana gedib çıxır. 1918-ci ildə ermənilər tərəfindən xarabaya çevirmiş Şamaxıdan qaçqın düşən Güləhmədovlar ailəsi 1919-cu ildə Bakıya gəlib və balaca Ağaqasım Xəzər dənizçiliyinin yunqa məktəbində təhsil alıb. 1924-cü ildə Ağaqasım Güləhmədov Bakı dəniz texnikumuna daxil oldu. Gəmi sürücülüyü üzrə mühəndis-pedaqoq əla diplomu ilə geri dönmüş və 24 yaşında Bakı dəniz texnikumuna (indiki Azərbaycan Dövlət Dəniz Akademiyası) ilk azərbaycanlı (o zamanlar türk) rəis təyin edildi. Doğma dildə dərs vəsaitlərinin olmadığı üçün o, rus dilindən “Naviqasiya”, “Dəniz praktikası”, “Dəniz astronomiyası” və s. kitabları tərcümə edərək əlyazması şəklində tələbələrə çatdırırdı. 1936-cı ildə aspiranturaya daxil olan Q.K.Gül Azərbaycan Dövlət Universitetinin coğrafiya kafedrasında dərs deyib, həm də tədris və elmi hissə üzrə prorektor köməkçisi (1938-1941) vəzifələrində çalışıb. Müharibə illərində o, SSRİ Xalq Müdafiə Komitəsinin rabitə kurslarının siyasi rəhbəri olub (1941-1942), yerli sənayeyə rəhbərlik edib, Azərbaycan SSR Balıq sənayesi xalq komitəsinin flaq-şturmanı təyin edilib (1942-1946). O, 1947-ci ildə namizədlik, 1951-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, professor adına layiq görülmüş, fiziki coğrafiya kafedrasının müdiri (1952-1958) vəzifəsinə seçilmiş, elmi işlər üzrə prorektor (1954-1957) vəzifəsində işləmişdir. 1957-ci ildən elmi-tədqiqat işlərinə üstünlük verən Q. Gül Azərbaycan EA-nın Coğrafiya İnstitutunun direktoru (1957-1962), Xəzər dənizi Problemləri Sektorunun rəhbəri (1957-1972) kimi fəaliyyət göstərib. Qasım Kazım oğlu Gül – görkəmli coğrafiyaşünas, Azərbaycanda okeanologiya məktəbinin banisi, coğrafiya elmləri doktoru, professor, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, həm də şturman, kapitan, pedaqoq, elm və təhsil təşkilatçısı, ictimai xadim idi. 50-dən artıq kitab, monoqrafiyanın müəllifi və həmmüəllifi və yüzlərlə jurnal, qəzet məqaləsinin müəllifi olan Qasım Gül Xəzər dənizinin ekologiyası və balıq ehtiyatlarının müdafiəçisi kimi də xüsusi nüfuz qazanıb. SSRİ EA-nın Okeanaqrafiya şöbəsinin Aral-Xəzər bölməsinin və Azərb.EA-nın Xəzər komissiyasının (1953-cü ildən ömrünün sonunadək), eləcə də Azərb. SSR Coğrafiya Cəmiyyətinin (1958-1970) sədri olmuşdur. "Şərəf nişanı" ordeni ilə təltif olunmuş və çoxlu sayda diplom, fəxri adlara layiq görülmüşdür. Onun şərəfinə adlandırılmış “Professor Gül” bərəsi 1986-cı ildən Xəzər dənizində işləyir.

İnternetdə: https://az.wikipedia.org/wiki/Qasım Gül

## Yubilyar yazıçılar

**10 Dekabr – Xalq şairi Nəbi Xəzrinin anadan olmasının 95 illiyi, (1924-2007)**



Babayev Nəbi Ələkbər oğlu 1924-cü il dekabrın 10-da Bakı şəhəri yaxınlığındakı Xırdalan kəndində tacir ailəsində anadan olmuşdur. "Çiçəklənən arzular" adlı ilk şeirlər kitabı 1950-ci ildə çap olunmuşdur. O, 1945-1947-ci illərdə Azərbaycan Dövlət Universitetində, 1947-1949-cu illərdə Leninqrad Dövlət Universitetində, 1949-1952-ci illərdə Maksim Qorki adına Ədəbiyyat İnstitutunda ali təhsil almışdır. Dənizi hədsiz sevdiyindən, xəzri küləyinin də insanlara dəniz ətrini bəxş etdiyinə görə 1958-ci ildə "Xəzri" təxəllüsü götürmüşdür. 1952-ci ildə təhsilini başa vuran Nəbi Xəzri 1957-ci ilədək Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1957-1958-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi olmuşdur. O, 1958-1965-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1965-1971-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədri, 1971-1974-cü illərdə isə Azərbaycan mədəniyyət nazirinin müavini vəzifələrində işləmişdir. 1974-cü ildən etibarən Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin rəyasət heyətinə sədrlik edən Nəbi Xəzri 1992-ci ildən "Azərbaycan Dünyası" Beynəlxalq Əlaqələr Mərkəzi adı altında fəaliyyət göstərən həmin təşkilatın prezidenti olmuşdur. Nəbi Xəzri 2007-ci ilin yanvar ayının 15-də vəfat etmiş, 1-ci Fəxri Xiyabanda dəfn edilmişdir. Nəbi Xəzrinin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallara, o cümlədən Azərbaycan Respublikasının ali dövlət təltiflərinə — "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülmüşdür. "İllər və sahillər" (1969), "Ulduz karvanı" (1979), "Nəsillər-əsrlər" (1985), "Ağ şimşəklər" (1986), "Torpaq sənə and içirəm" (1989), "Ömür çinarından yarpaqlar" (1995), "Əsrin qanlı laləsi" (1996) və s. kitabların müəllifidir.

**Əsərləri:** “Çiçəklənən arzular” (1950), “Sülh əsgəri” (1951), “Bakının səhəri” (1954), “Salxım söyüdlər” (1957), “Vətən və qürbət” (1958), “Qızımın nəğmələri” (1959), “Kim məni xatırlasa” (1960), “Şeirlər və poemalar” (1962), “Sumqayıt səhifələri” (1963), “Dəniz, göy, məhəbbət” (1965), “Xatirələr cığırıyla” (1966), “Arzu” (1967), “İllər və sahillər” (1969), “Dərələr” (1970), “Ulduz karvanı” (1979), “İnam” (1982), “Heykəlsiz abidə” (1982), “Nəsillər- əsrlər” (1985), “Ağ şimşəklər” (1986), “Sərhədlərin o tayında” (1987), “Şeir mənim üçün bir kainatdır” (1988), “Torpaq sənə and içirəm” (1989), “Qəm dəftəri” (1991), “Salatın” (1991), “Peyğəmbər” (1992), “Səndən eldə bir nişanə qalar söz” (1994), “Ömür çinarında yarpaqlar” (1995), “Səma uca, torpaq dərin,” (1995), “Əsrin qanlı laləsi” (1996) və s. İnternetdə:https://az.wikipedia.org/wiki/Nəbi_Xəzri

**10 Dekabr – Şairə Qəmər Quliyevanın 80 illiyi, (1939)**



Quliyeva Qəmər Məhərrəm qızı 1939-cu il dekabrın 10-da Qərbi Azərbaycanın Vedi rayonunda Qaraxaç kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndində almışdır (1947-1950). Ermənistana köçürüldükdən sonra ailəlikcə Salyanda, sonra da Xanlarda yaşamışlar. Yeddiillik təhsili Salyan rayonunun Parça-Xalaç kənd məktəbində, orta təhsili isə Xanlarda 3 saylı şəhər orta məktəbində almışdır (1957). ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmişdir (1964). Azərbaycan Dövlət Televiziyasında kiçik redaktor (1965-1966), Xanlar rayon qəzetində zəhmətkeş məktubları şöbəsinin müdiri (1966-1970) işləmişdir. Hazırda Xanlar rayonu "Göy-göl" qəzetinin redaktor – müavini vəzifəsində çalışmışdır (1970-ildən). 60-cı illərdən dövri mətbuatda müntəzəm çıxış etmişdir. Xanlar şəhər zəhmətkeş deputatları sovetinin deputatı seçilmişdir (1990-cı ildən). "Rəşadətli əməyə görə" medalı və bir sıra başqa medallarla təltif olunmuşdur.
**Əsərləri:** "Ömrün səhifələri" (1971), "Getmə"(1983), "Aman ovçu, vurma məni" (1991)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. S.492

**12 Dekabr – Şair Fətəli Sahibin 95 illiyi, (1924-2003)**



Bayramov Fətulla Manaf oğlu 1924-cü il dekabrın 12-də Azərbaycanın Ucar rayonunun Qaziyan kəndində anadan olmuşdur. Kiçik yaşlarında ikən repressiya tufanları ailəlikcə onları Qazaxıstanın sərt çöllərinə aparıb çıxarmışdı. Burada atası, dörd qardaşı şəraitə dözməyib həlak olmuş, anası ilə doğma vətənə pənah gətirmişdir. Burada orta məktəbi bitirəndən sonra İkinci Dünya müharibəsi başlandığına görə könüllü cəbhəyə getmiş, 416-cı Taqanroq diviziyasının tərkibində döyüşlərdə düşmənə qarşı vuruşmuş, ağır yaralanıb bir müddət hərbi xəstəxanalarda müalicə edilmişdir. ADU-nun filologiya fakültəsində təhsil almışdır (1954-1959). Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin xarici verlişlər redaksiyasında müxbir kimi başlamışdır. Sonra Azərbaycan Dövlət Nəşriyyatında incəsənət şöbəsinin redaktoru "Gənclik" nəşriyyatında uşaq ədəbiyyatı redaksiyasının redaktoru, "Maarif və İşıq" nəşriyyatında direktor müavini, "Yazıçı" nəşriyyatında redaktor işləmişdir (1983-1990). Müharibə və əmək veteranıdır. Bədii yaradıcılığa ilk gənclik dövründən başlamışdır. Ucar rayon qəzetində və cəbhə qəzetlərində ilk şeirləri dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış edirdi. Əsərləri xarici mətbuatda dərc olunmuşdur. İlk dəfə "I dərəcəli İkinci Dünya müharibəsi" ordeni, iki dəfə "Qırmızı ulduz" ordeni və 18 döyüş medalları ilə təltif olunmuşdur. Prezident təqaüdünə layiq görülmüşdür.
**Əsərləri:** "Gənc maşinist" (1962), "Şirvan nəğmələri" (1970), "Mənim xallı balıqlarım" (1970), "Kələk baş tutmadı" (1970), "İkinci görüş" (1971), "Vəfalı Toplan" (1973), "Onu bir də gördüm" (1976), "Anam mənə həyan idi" (1978), "Ay şən bala" (1982), "Bu gün üçün vuruşduq" (1985), "Ömrün payızında açılan güllər" (1988), "Günayın şərgüzəştləri" (1991), "İtirib kələfin ucunu dünya" (1997) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.321.

**14 Dekabr – Ədəbiyyatşünas Dilarə Əliyevanın 90 illiyi, (1929-1991)**



Dilarə Əliyeva 1929-cu il dekabrın 14-də Tbilisi şəhərində dəmirçi ailəsində anadan olub. Tbilisidəki azərbaycandilli 97 nömrəli orta məktəbi bitirdikdən sonra ADU-nun Şərqşünaslıq fakültəsində təhsil almışdır. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olandan sonra Gürcüstan EA-nın Şota Rustaveli adına Ədəbiyyat İnstitutuna ezam edilmişdir. Burada "Azərbaycan-gürcü ədəbi əlaqələrinin XIX əsr ədəbiyyatında inikası" mövzusunda namizədlik dissertasiyasını işləmiş, 1954-cü ildə müdafiə etmişdir. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, Nizami adına Ədəbiyyat Muzeyində baş elmi işçi, muzeyin qədim və orta əsrlər ədəbiyyatı şöbəsində müdir, sonra Nizami adına Ədəbiyyat İnstitutunun ədəbi əlaqələr şöbəsində böyük elmi işçi, nizamişünaslıq şöbəsində böyük elmi işçi, institutun ədəbi əlaqələr şöbəsində aparıcı elmi işçi olmuş, eyni zamanda bölmə müdiri kimi çalışmışdır. "Nizami və gürcü ədəbiyyatı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Əliyeva Dilarə Ələkbər qızı – ədəbiyyatşünas, tərcüməçi, 1960-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Gürcüstanın əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, 1988-ci il Azərbaycan Xalq Hərəkatının fəal iştirakçısı, Azərbaycan SSR Ali Sovetinin deputatıdır (1990). Dilarə Əliyeva Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin qurucularından və rəhbərlərindən biri olmuşdur. Hazırda qadın hüquqlarının müdafiəsi ilə məşğul olan ictimai birlik və Bakıda bir küçə onun adını daşıyır. 1991-ci il aprelin 19-da müəmmalı avtomobil qəzasında faciəli şəkildə həlak olmuşdur. Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

**Tərcümələri** (gürcü dilindən) “Qardaşlar” (1972), “Bir gecənin sevinci” (1977), Şota Rustaveli. Pələng dərisi geymiş pəhləvan. Bakı: Elm, 1978, Arçil Sulakauri. Aşağı-yuxarı (povest və hekayələr). Bakı: 1978, Mixail Cavaxişvili. Torpaq çəkir. Bakı: Yazıçı, 1980, İlya Çavçavadze. Dilənçinin hekayəti. Bakı: Yazıçı, 1987, Kür Xəzərə qovuşur (gürcü ədəbiyyatından seçmələr). Bakı: Yazıçı, 1988, 383 səh. (şərikli).

**Əsərləri:** “Azərbaycan-gürcü ədəbi əlaqələri tarixindən” (1958), “Ürək bir, dilək bir” (1981).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.175.

**16 Dekabr – Şair Tofiq Bayramın 85 illiyi, (1934-1991)**



Bayramov Tofiq Qulam oğlu 1934-cü il dekabrın 16-da Bakı şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra APİ-nin tarix fakültəsində təhsil almışdır (1954-1959). Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri kimi başlamışdır (1959-1960). Sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi (1960-1961), M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında ədəbi hissə müdiri (1961 – 1964), "Ulduz" jurnalı redaksiyasında (1964-1968), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri (1968-1978), "Yazıçı" nəşriyyatında baş redaktor müavini (1978) işləmişdir. Sonra yaradıcılıqla məşğul olmuşdur. Lope de Veqanın "Hiyləgər məşuqə" pyesini tərcümə etmişdir. A.T. Tvardovskinin "Yaddaşın hökmü" poemasının tərcüməsinə görə M.Qorki adına Azərbaycan Dövlət mükafatı laureatı fəxri adına layiq görülmüşdür (1988). Tofiq Bayram 1991-ci il aprelin 19-də vəfat etmiş, Bakının Əmircan kəndində dəfn olunmuşdur. Tofiq Bayram Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimidir.

**Əsərləri:** “Ana təbəssümü” (1961), “Mənim şair xalqım” (1963), “Sizi düşünürəm” (1964), “Azərbaycan dünya gəzir” (1965), “İnamım, əqidəm” (1969), “Gərək elə yanım” (1971), “Azərbaycan deyəndə” (1974), “Səninlə görüşəndə” (1977), “Əsrin oyunu” (1979), “Könlümdə yaşayanlar” (1980), “Məsləkim-silahım” (1984), “Ay gecikən məhəbbətim” (1987) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.876.

**16 Dekabr – Yazıçı Cahangir Gözəlovun 110 illiyi, (1909-1999)**



Cahangir Rəcəb oğlu Gözəlov 1909-cu il, dekabrın 16-da Yelizavetpol quberniyasının Şuşa uyezdinin (indiki Ağdam rayonu) Şıxbabalı kəndində anadan olmuşdur. İbtidai təhsilini kənddə aldıqdan sonra Bakıda Müəllimlər Seminariyasını bitirmişdir. Azərbaycan Tibb Universitetini III kursadək oxumuş, ancaq səhhətinə görə təhsilini davam etdirə bilməmişdir. Baş mətbuat idarəsində bir müddət müvəkkil işləmiş, yeni pedaqoji sahədə fəaliyyət göstərmişdir. Azərbaycan Dövlət Nəşriyyatının bədii ədəbiyyat şöbəsində redaktor (1935), Culfa beynəlmiləl dəmiryol orta məktəbində direktor (1936-1937), Ağcabədi rayon maarif şöbə müdiri (1938-1939), İsmayıllıda Diyallı kənd orta məktəbində direktor (1939-40), "Pioner" jurnalında məsul katib (1941), Ağdam 5 saylı beynəlmiləl orta məktəbində dərs hissə müdiri (1941-42) işləmişdir. 1942-ci ildən təqaüdə çıxanadək (1972) fasiləsiz olaraq "Kommunist" qəzetində çalışmışdır. 1934-cü ildə "Gənc işçi" və "Ədəbiyyat" qəzetlərində ilk dəfə hekayələri çap olunmuşdur. Bundan sonra müntəzəm olaraq dövri mətbuatda hekayələrlə çıxış etmişdir. 1939-cu ildə "Güllünün çayı" kitabçası müsabiqəsində mükafata layiq görülmişdür. Felyeton, satirik hekayə ustası olmuşdur. Əsərləri "Kirpi", "Krokodil", "Ədəbiyyat və İncəsənət", "Bakı", "Azərbaycan gəncləri" qəzetlərində vaxtaşırı dərc edilmişdir. Cahangir Gözəlov 1999-cu il sentyabrın 7-də Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Qurd və keçi" (1934), "Küsən dişlər" (1935), "Seylan" (1938), "Mollanın kələyi" (1938), "Tülkü və dələ" (1938), "Güllünün çayı" (1940), "Günahkar müqəssirlər" (1958), "Müxtəlif əhvalatlar" (1962), "Cəncəl adamlar" (1964), "Gecə quşu" (1971), "Bibim, qaqaşım ququş və Xortdan" (1971), "Felyetonlar" (1977), "Qara cücə" (1979), "Yarasa" (1979), "Süleyman" (1989), "Xallı" (1990) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.143.

## 18 Dekabr – Şair, publisist Teyyub Qurbanın 85 illiyi, (1934-2018)



Teyyub Qurban 1934-cü ilin dekabr ayının 18-də Bakının Bülbülə qəsəbəsində neftçi ailəsində anadan olmuşdur. 1954-cü ildə burada 208 saylı orta məktəbi bitirəndən sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1954-1959). Hələ universiteti bitirməmişdən onu ADU-nun komsomol komitəsinin birinci katibi seçmişlər (1958-1961). Bakı Pioner və Məktəblilər Sarayının ədəbi yaradıcılıq dərnəyinin rəhbəri olmuş (1958-1976), yaxşı işinə görə ÜİLKGİ-nin Fəxri fərmanı ilə təltif edilmişdir. ADU-nun jurnalistika kafedrasının aspirantı olmuş (1961-1963), Azərbaycan Xalq Nəzarəti Komitəsində tərcüməçilik etmiş (1963-1976), orada komitə təşkilat şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkilmişdir (1976-cı ildən), həm də ictimai əsaslarla metodika kabinetinə rəhbərlik etmişdir (1976-1992). Azərbaycan Yazıçılar Birliyi "Oğuz eli" assosiasiyasının işlər müdiri (1992), Suraxanı rayon icra hakimiyyəti başçısının birinci müavini (1992-1993), Bakı və Kəndlər Birliyi Mətbuat xidmətinin rəhbəri olmuşdur (1994-1996). Hazırda fərdi yaradıcılıqla məşğuldur (1996-cı ildən). Ədəbi fəaliyyətə 50-ci illərdən başlamışdır. Onun "Koreyalı döyüşçüyə" adlı ilk şeiri 1950-ci ildə "Pioner" jurnalının 12-ci sayında çıxmışdır. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Şeirləri ayrı-ayrı xalqların dilində çap olunmuşdur. T.Qurban "Mənim gəncliyim", "Dostluğun gücü", "Unudulmayan", "Yanğı", "El yolu", "Gözəllik yarışı", "Ömrün gənclik yazı", "Dönməzlik", "Sara", "Məcra", "Düşmənlərindən güclü şəxsiyyət", "Müqəddəs məkanda Qüdsümüz vardır" və s. kitablarının müəllifidir**.** Onun Hacı Zeynalabdin Tağıyevə həsr etdiyi "Yaşayan ömür" pyesi Azərbaycan Dövlət Gənclər Teatrında tamaşaya qoyulmuşdur (1993). M.Ə.Rəsulzadənin həyatından bəhs edən "Dönməzlik" povesti "Bakının səsi" qəzetinin 1994-cü il may-sentyabr saylarında dərc olunmuşdur. "Yaşıl rəngin işığı" (2002) kitabını tərtib etmişdir. Medalla təltif edilmişdir. 21 fevral 2018-ci il tarixində vəfat etmişdir. Bülbülə kənd qəbiristanlığında dəfn edilmişdir. Teyyub Qurban Müsavat partiyasının üzvi idi.

**Əsərləri:** "Mənim gəncliyim" (1963), "Dostluğun gücü" (1966), "Unudulmayan" (1966), "Yanğı" (1972), "Dostluq və qəhrəmanlıq səhifələri" (1975), "El yolu" (1978), "Gözəllik yarışı" (1985), "Ömrün gecikən yazı" (1992), "Dönməzlik" (1997), "Sara" (2002) və s.

**Filmoqrafiya**: "Ağa, cəddinə qurban" (film, 1993).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.869.

**24 Dekabr – Şair Məmməd Aslanın 80 illiyi, (1939-2015)**



Aslanov Məmməd Muxtar oğlu 1939-cu il dekabrın 24-də Azərbaycanın Kəlbəcər rayonunun Laçın kəndində ziyalı ailəsində anadan olmuşdur. Klassik ədəbiyyata dərin bələd olan atasının gözəl şeir demək təbi olsa da, onları çap etdirməmişdir. Lakin bunlar kiçik yaşlı oğlunda şeirə-sənətə tükənməz həvəs oyatmışdır. Kəlbəcər qəsəbəsində (indi şəhərdir) orta məktəbi bitirdikdən sonra APİ-nin filologiya fakültəsində təhsil almışdır (1957-1962). Əmək fəaliyyətinə Kəlbəcər rayonundakı Yanşaq, İstisu kənd məktəblərində müəllim kimi başlamışdır. O, Kəlbəcər qəsəbəsində bir müddət müəllimlik etdikdən sonra rayonda nəşr olunan çoxtirajlı "Yenilik" qəzeti redaksiyasında məsul katib işləmişdir. 1970-ci ilin axırlarında Bakıya köçmüş, burada "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyalarında çalışmış, "Yazıçı" nəşriyyatında böyük redaktor olmuşdur. Azərbaycan Dövlət Teleşirkətinin, "Ekran-Efir" qəzetinin baş redaktoru olmuşdur. Bədii yaradıcılığa 1960-cı ildə "Azərbaycan müəllimi" qəzetində çıxan ilk şeirilə başlamışdır. Dövri mətbuatda müntəzəm çıxış etmişdir. Keçmiş SSRİ xalqları ədəbiyyatından tərcümələrə xüsusi qayğı ilə yanaşır. Zülfiyyənin "Torpağa səcdə", Qazax şairi Qədir Murzalıyevin "Bu bağda bülbüllər ötər" (1980) şeirlər məcmuələrini şərikli tərcümə etmişdir. Bir sıra beynəlxalq və respublika mükafatları laureatıdır. "Şöhrət" ordeni ilə təltif edilmişdir (2000). Məmməd Aslan 23 sentyabr 2015-ci ildə Zaqatalada vəfat etmişdir. Masazır qəbiristanlığında dəfn olunmuşdur.

**Əsərləri:** “Dağ ürəyi” (1969), “Böyürtkən böyrü tikan” (1972), “Səhəri kim açır” (1972), “Səsimə səs ver” (1978), “Bizdən sonra nə qalır” (1979), “Ürək möhlət verəydi” (1980), “Durnalar lələk salır” (1982), “Dəvə niyə gövşəyir” (1980), “Ərzurum gədiyinə varanda” (1985), “Ömrün yarı yaşında” (1986), “Saxla izimi dünya” (1989), “Nur içində nur” (1997), “Allahın rəsulu” (2001), “Bir sultan yaşardı Sultantəpədə” (2003) və s.

**Tərcümələri** (türkcədən): “Türk xalqlar şeirlərindən seçmələr” (1980), “Yunus İmrə, Aşıq Veysəl, iki zirvə” (1982).

**Filmoqrafiya:** “Bu torpağın nemətləri” (film, 1979), “Məmməd Aslan” (film, 2003), “Soyuq münasibət” (film, 1985), “Şirvan qoruğu” (film, 1977), “Böyük ömrün 7 anı” (film, 2007).

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.562.

**22 Dekabr – Yazıçı, ədəbiyyatşünas Tofiq Əkbərovun 80 illiyi, (1939-1985)**



Əkbərov Tofiq Süleyman oğlu 1939-cü il dekabrın 22-də Qərbi Azərbaycanın Vedi rayonunun Goravan kəndində müəllim ailəsində anadan olmuşdur. Goravan kənd yeddiillik məktəbini bitirdikdən sonra Xanlar şəhərindəki 3 saylı məktəbdə oxumuşdur. H.Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1953-1957). Əmək fəaliyyətinə Xanlar şəhər orta məktəbində müəllim kimi başlamışdır. Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunun estetika üzrə aspiranturasında təhsilini davam etdirmişdir. Burada vaxtından əvvəl "Azərbaycan sovet poeziyası və gözəllik problemi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bundan sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun fəlsəfə kafedrasında baş müəllim "Azərbaycan folklorunun estetik prinsipləri" monumental tədqiqi başa çatdırmış, dosent işləmişdir.

**Əsərləri:** "Təbiət, insan, gözəllik" (1966), "Texnika estetika haqqında bəzi qeydlər" (1971), "Yaradıcı əməyin estetikası" (1976), "Estetika və təbiət" (1977)

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.877.

**25 Dekabr – Şair Famil Mehdinin anadan olmasının 85 illiyi, (1934-2003)**



Mehdiyev Famil Ağalar oğlu 1934-cü il dekabrın 25-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Əhmədvar kənd yeddiillik məktəbini bitirib Ağdam pedaqoji məktəbində təhsil almışdır. Sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir (1953-1958). Əmək fəaliyyətinə "Bakı" axşam qəzetində ədəbi işçi kimi başlamışdır (1958). ADU-nun filologiya fakültəsində aspirant (1961-1964), müəllim, baş müəllim olmuş, jurnalistika fakültəsində jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri vəzifəsində işləmişdir (1973-cü ildən). "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının və bəzi xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. Fəal pedaqoji, elmi və ictimai işlə məşğul olmuşdur. "Jurnalistika məsələləri" adlı ali məktəb tələbələri üçün dərsliyin müəlliflərindən biridir. "Alovlu publisist Səməd Vurğun", "Azərbaycan bədii publisistikasının sənətkarlıq problemləri", "Mətbuatda publisistika", "Bədii publisistika" kimi monoqrafik kitablar və dərs vəsaitləri onun qələminin məhsuludur. Bakı şəhər Oktyabr rayonu Xalq Deputatları Sovetinin (XVII, XVIII, XIX çağırış) deputatı olmuşdur. "Oqonyok" jurnalının laureatı adına layiq görülmüşdür. SSRİ "Bilik" cəmiyyətinin ən yaxşı elmi-kütləvi əsərlərə görə diplomunu almışdır. Famil Mehdi 2003-cü il sentyabrın 29-da Bakıda vəfat etmişdir. Qarabağ müharibəsinin ilk günlərindən "Nicat" cəmiyyətini yaratmış və Vətənin müdafiəsinə qalxan könüllülər arasında stimul yaratmaq məqsədilə cəmiyyət adından "General Məhəmməd Əsədov" mükafatı təsis etmişdir.

**Əsərləri:** “Sevəndən bəri” (1961), “Sadə sətirlər” (1963), “Mənim ulduzlarım” (1964), “Ünvanım dəyişir” (1966), “Ömürdən səhifələr” (1970), “Qarabağ şikəstəsi” (1970), “İllər və talelər” (1974), “İnsan unudulmur” (1976), “Səni gözləyirəm” (1978), “Anam elə bilir” (1979), “Təbriz xalısı” (1981), “Ömür keçir, gün keçir” (1983), “Borc” (1984), “Əyilmə, dünyam” (1985), “Qarabağ faciəsi” (1995) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.326.

**25 Dekabr – Şair Ağalar Mirzənin 65 illiyi, (1954-2008)**



Ağalar Mirzə 1954-cü il dekabrın 25-də Dəvəçi (indiki Şabran) şəhərində fəhlə ailəsində anadan olmuşdur. Burada orta təhsil almışdır. Əmək fəaliyyətinə Dəvəçi şəhər 1 saylı səkkizillik məktəbində pioner baş dəstə rəhbəri kimi başlamışdır (1971-1972). Sonra Pirəmsən kənd orta məktəbində pioner baş dəstə rəhbəri olmuşdur (1972-1974). ADU-nun jurnalistika fakültəsində təhsilini davam etdirmişdir (1974-1979). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radionun incəsənət və radio teatrı şöbəsində ("Bulaq" verilişi üzrə) kiçik redaktor, redaktor (1980-1986), televiziyanın ədəbiyyat və xalq yaradıcılığı redaksiyasında redaktor, böyük redaktor, şöbə müdiri (1986-1994), ədəbi dram verilişləri Baş redaksiyasının baş redaktorunun müavini (1994-1999), xalq yaradıcılığı redaksiyasının baş redaktoru vəzifələrində çalışmışdır. O, şifahi xalq yaradıcılığına dair müxtəlif televiziya verilişlərinin, o cümlədən "Ustadnamə", "Dastan" proqramlarının müəllifi olmuşdur. Ağalar Mirzə bədii yaradıcılığa keçən əsrin 70-ci illərindən başlamışdır. Gənc şairlərin respublika ədəbi birliyinin fəal üzvü olmuşdur. Birliyin "Çinar pöhrələri", "Gənc istedadlar", "Qudyalçay nəğmələri" və s. almanaxlarında şeirləri çap olunmuşdur. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Elmi tədqiqatla da ardıcıl məşğul olmuşdur. "Xaltanlı Tağının yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə etmişdir (2002). Filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Ağalar Mirzə 5 mart 2008-ci ildə Bakıda vəfat edib.

**Əsərləri:** “Bayramlar, adətlər, ənənələr” (1983), “Bulaq” (1984), “Ömrün bənövşə fəsli” (1985), “Ovcunu tut yağışa” (1987), “Novruz töhfələri” (1989), “Mən baxdığım pəncərə” (1990), “Dünənə məktub” (1994) və s.

Ədəbiyyat: Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : Ensiklopedik məlumat kitabı. – Bakı : Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011.S.41.

**29 Dekabr – Yazıçı Sara Nəzirovanın 75 illiyi, (1944-2014)**



Nəzirova Sara Mollaçı qızı 1944-cü il 29 dekabrda Oğuz rayonunda anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda estetika üzrə aspiranturanı bitirmişdir. 2002-ci ildə Fransanın Lill şəhərində Avropa Beynəlxalq Jurnalist Məktəbini müvəffəqiyyətlə başa vurmuşdur. 1984-cü ildə SSRİ Rəssamlar İttifaqına, 1988-ci ildə isə SSRİ Yazıçılar İttifaqına qəbul olunmuşdu. S.Nəzirova 1966-cı ildən 1988-ci ilədək Azərbaycan Dövlət İncəsənət Muzeyində işləmişdir. Təsviri incəsənət haqqında məqalələri və nəsr əsərləri "Ədəbiyyat və incəsənət", "Odlar yurdu", "525-ci qəzet", "Vışka", "Bakinskiy raboçiy", "Azerbaydjanskie izvestiə", "Mir literaturı", "Denğ" qəzetlərində, "Qobustan", "Yurd", "Avropa-Asiya", "Gənclik", "Literaturnıy Azerbaydjan", "Pioner", "Kontakt", "Ulduz" jurnallarında, habelə Çexoslovakiyada "Umeni a remesla", Türkmənistanda "Aşxabad", Qazaxıstanda "Prostor" jurnallarında dərc olunmuşdur. S.Nəzirova 1994-cü ildə Amerika Birləşmiş Ştatlarında "İkarus" jurnalında onun povesti Azərbaycanı təmsil etmişdi. 1996-cı ildə YUNESKO-nun "The World Literature to Day" toplusunun payız sayında "Kəpənək ömrü" povesti dərc olunmuşdu. O, 2010-cu ildə ən yaxşı hekayə üçün Beynəlxalq müsabiqənin qalibi olmuşdu. S.Nəzirovanın 1983-cü ildə "Yazıçı" nəşriyyatında "Terrakota", 1986-cı ildə "Qədir ağacı", 1992-ci ildə yenə həmin nəşriyyatda "Tale damğası", 1990-cı ildə "Gənclik" nəşriyyatında "Nağıl nabatı", 1996-cı ildə "Şərq-Qərb" nəşriyyatında "Beton evdən yazılar", 2007-ci ildə "Ziya" nəşriyyatında "Əşrəf Muradoğlu", AME nəşriyyatında ingilis dilində "Selected Works" kitabları çap edilmişdir. Onun yaradıcılığı haqqında 2003-cü ildə "Elm" nəşriyyatında Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Şurasının qərarı ilə "Oğuz gözəlləməsi" kitabı nəşr olunmuşdu. "Azərbaycanfilm" kinostudiyasında "Batmış şəhərin incəsənəti", "Nar nağılı", "Qəsd", "İçərişəhərin hamamları", "Dost dosta tən gərək", "Üfüqü ötənlər" filmləri onun ssenariləri əsasında çəkilmişdir. Sara Nəzirovanın "Nağılını göstər", "Mərd körpüsü", "Qayıt", "Sözün sehri" pyesləri Azərbaycan Dövlət Teatrlarında tamaşaya qoyulmuşdur. Əsərləri rus, ukrayna, ingilis, ispan, çin və s. dillərdə nəşr olunub. Sara Nəzirova 9 may 2012-ci il tarixdə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Sara Oğuz Nəzirova 22 iyun 2014-cü ildə vəfat etmişdir.

**Əsərləri:** "Terraqota" (1983), "Qədir ağacı" (1986), "Nağıl nabatı" (1990), "Tale damğası" (1992), "Beton evdən yazılar" (1994) və s. **Filmoqrafiya:** "Nar ağacının nağılı" (film, 1989), "Qəsd" (film, 1990), "Söhbətül-əsmar" (film, 1994), "Qədim hamamlar" (film, 2001), "Siçan və pişik" (film, 2008), "Üfüqü ötənlər" (film, 2011).

İnternetdə:https://az.wikipedia.org/wiki/Sara_Nəzirova

## İncəsənət

### 15 Dekabr – Xalq rəssamı Səttar Bəhlulzadənin 110 illiyi, (1909-1974)



Settar Bəhlulzadə 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində anadan olub. Səttar Bəhlulzadə 1927-ci ildə rəssamlıq məktəbinə, 1931-ci ildə Azərbaycan Rəssamlıq Məktəbinə, 1933-cü ildə isə Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olub. 1941-ci ildə V. İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirib. Məşhur rəssamlar V. A. Favorskinin və Q.M. Şaqalın tələbəsi olub.

Yaradıcılığa "Kommunist" qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlayıb. 1931-1933-cü illərdə o dövrə uyğun məzmunlu ilk karikaturaları çap edilib. Səttar Bəhlulzadə iki "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur. Əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində və Azərbaycan Dövlət Şəkil Qalereyasında, eləcə də Moskva və s. şəhərlərin muzeylərində saxlanılır. Səttar Bəhlulzadə 14 oktyabr 1974-cü ildə Moskvada vəfat etmişdir. Əmircan kəndində dəfn olunmuş, qəbri üstündə ona abidə ucaldılmışdır. Moskvadan qayıtdıqdan sonra Bəhlulzadənin yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin təsviri "Babək üsyanı", "Fətəli xan", "Xəttat Mir Əli" və s. əsas yer tutmuşdu. Müharibədən sonrakı illərdə Bəhlulzadə Abşeronun neft mədənlərini, bağ və kəndlərini təsvir edən rəsmlər yaratmışdır. Bəhlulzadənin yaradıcılığında təbiət təsvirlərinə meyil getdikcə güclənmiş, o, mənzərə janrında daha bitkin əsərlər yaratmağa başlamışdır. 1946-1947-ci illərdə Respublika bədii sərgilərində Bəhlulzadənin Abşeron etüdləri ("Buzovna neft mədənləri", "Əmircan" və s.) nümayiş etdirilmişdir. Bəhlulzadənin gərgin yaradıcılıq axtarışlarının məhsulu olan "Xəzər üzərində axşam", "Xəzər gözəli", "Əbədi məşəllər", "Kəpəzin göz yaşları", "Vətənimin baharı", "Azərbaycan nağılı", "Suraxanı atəşgahı", "Əfsanəvi torpaq", "Şahnabat", "Naxçıvan. Axşamçağı Ordubad bağlarında", "Vətənimin baharı", "Bakıda atəşfəşanlıq", "Qudyalçay vadisi", "Qızılbənövşəyə gedən yol", "Əmircan", "Neft daşları", "Şamaxı üzümlükləri" və s. əsərləri əsas yer tutur. Onun mənzərə-peyzajlarında, intim-lirik natürmortlarında, incə xalça ornamentlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığı motivləri hiss edilir. Bəhlulzadənin fərdi sərgiləri Əlcəzair, Misir, Livan, Suriya Tunis, Norveç, ADR, Çexoslovakiya, Bolqarıstan, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və dünyanın bir sıra başqa ölkələrində nümayiş etdirilmişdir. Dünyanın onlarla muzeylərində Səttar Bəhlulzadənin əsərləri daimi eksponatlar sırasındadır.

İnternetdə:https://az.wikipedia.org/wiki/Səttar_Bəhlulzadə

**26 Dekabr – Xalq artisti, rəqqasə Əminə Dilbazinin 100 illiyi (1919)**



Əminə Dilbazi 26 dekabr 1919-ci ildə Qazaxda anadan olub. 1935-ci ildə ilk dəfə səhnəyə çıxaraq Üzeyir Hacıbəyovun bəstələdiyi "Kolxoz çölləri" mahnısını ifa edib. Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Dövlət Rəqs ansamblının solisti (1936-1939), sonralar isə rəqs qrupunun rəhbəri olub. 1959-cu ildə Azərbaycan Tibb İnstitutunun yaratdığı "Çinar" tələbə rəqs kollektivinə rəhbərlik edib. 1967-ci ildə "Sevinc" qızlar ansamblını yaradıb. 1949-cu ildən Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərib. 1957-ci ildə Moskvada tələbə və gənclərin 6-cı ümumdünya festivalında qızıl medala layiq görülüb. 1954-cü ildə Azərbaycan SSR Əməkdar artisti, 1959-cu ildə isə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 1999-cu ildə "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Əminə Dilbazi bir çox filmlərdə rəqslərə quruluş verib. Onun oynadığı "İnnabı", "Tərəkəmə", "Vağzalı", "Turacı", "Naz eləmə" rəqsləri xüsusilə məşhurdur. Repertuarına rus rəqsləri, ukrayna rəqsləri, özbək rəqsləri, ərəb rəqsləri də daxil olan Əminə Dilbazi "Leyli və Məcnun" operasında, "Arşın Mal Alan" və "O olmasın bu olsun" komediyaları və sair əsərlərdə də rəqslərə quruluş verib. Əminə Dilbazi 2010-cu il aprelin 30-da Bakı şəhərində vəfat edib.

**Filmoqrafiya:** "O olmasın, bu olsun" (film, 1956), "Əminə Dilbazinin rəqsləri" (film, 1961), "Payız konserti" (film, 1962), "Ulduz" (film, 1964), "Arşın mal alan" (film, 1965), "Sevinc" (film, 1968), "Mən mahnı qoşuram" (film, 1979), "Əzablı yollar" (film, 1982), "Qəzəlxan" (film, 1991), "Tənha bülbülün rəqsi" (2003), "Zəlimxan dastanı" (film, 2007).

İnternetdə:https://news.milli.az/culture/9607.html

**Milli Qəhrəmanlar Zirvəsi**

**2 Dekabr – Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yusif Əliyusif oğlunun 50 illiyi, (02.12.1969-14.09.1991)**



Əliyev Yusif Əliyusif oğlu 2 dekabr 1969-cu ildə Bakının Qobustan qəsəbəsində anadan olmuşdur. Qəsəbədəki 223 saylı orta məktəbi bitirmişdir. 1988-ci ildə ordu sıralarına çağırılmış, hərbi xidmətini Sverdlovsk şəhər piyada qoşun hissəsində çəkmişdir. Yusif Əliyev 1991-ci ilin fevralında Goranboyda ilk döyüş sınağından çıxmışdır. Silahlı erməni quldurları Buzluq, Mənəşli, Erkəç kəndləri tərəfdən basqınlar edirdilər. Lakin 24 fevralda Mənəşli kəndinə hücum edildikdə ermənilər pərən-pərən düşdülər. 1991-ci il 14 sentyabrda düşmən Buzluq kəndinə hücum etdikdə əsgərlərimizə sursat çatdırmaq Yusifin ölümü bahasına başa gəldi. Ailəli idi. Yusif Əliyev Ağsu rayonunun Rəhimli kəndində dəfn edilmişdir. Qobustan qəsəbəsindəki 195 saylı tam orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur. Yusif Əliyev haqqında “Yaddaş” studiyasında “Vətənə bağışlanan həyat” adlı sənədli film çəkilmişdir. 2015-ci ildə Qobustan qəsəbəsindəki Aşıq Rza adına Mədəniyyət evində filmin təqdimatı olmuşdur.

**Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Əliyev Yusif Əliyusif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

İnternetdə:https://az.wikipedia.org/wiki/Yusif_Əliyev_(milli_qəhrəman)

**Bu il həmçinin qeyd olunacaq**
Şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi, (1369-1417)
Şair Məhəmməd Füzulinin anadan olmasının 525 illiyi, (1494-1556)
Şair, aşıq Xəstə Qasımın anadan olmasının 335 illiyi, (1684-1760)
Şair Molla Vəli Vidadinin anadan olmasının 310 illiyi, (1709-1809)
Şair Mirzə Şəfi Vazehin anadan olmasının 225 illiyi, (1794-1852)
Xalq qəhrəmanı Qaçaq Nəbinin anadan olmasının 165 illiyi, (1854-1896)
Ədəbiyyatşünas, publisist Əhməd bəy Ağaoğlunun 150 illiyi, (1869-1939)
Xalq xanəndəsi Keçəçi Məhəmmədin anadan olmasının 155 illiyi, (1864-1940)
Görkəmli mollanəsrəddinçi, şair Bayraməli Abbaszadənin 150 illiyi, (1869-1926)
Şair Səməd Mənsurun anadan olmasının 140 illiyi, (1879-1927)
Şair Məhəmməd Hadinin anadan olmasının 140 illiyi, (1879-1920)
Yazıçı Qantəmirin anadan olmasının 130 illiyi, (1889-1944)
Yazıçı Tağı Şahbazi Simurğun anadan olmasının 130 illiyi, (1889-1938)
Azərbaycanın ilk hərbi təyyarəçisi Fərruxağa Qayıbovun 130 illiyi, (1889-1916)
Yazıçı Əbülhəsənin anadan olmasının 115 illiyi, (1904-1986)
Yazıçı, publisist Səməd Ağaoğlunun anadan olmasının 110 illiyi, (1909-1982)
Yazıçı Məhərrəm Əlizadənin anadan olmasının 110 illiyi, (1909-1942)
Aşıq Kamandarın anadan olmasının 90 illiyi, (1929)
Şair Sərdar Əsədin anadan olmasının 90 illiyi, (1929-1975)
Şair, ədəbiyyatşünas Şamil Dəlidağın anadan olmasının 90 illiyi, (1929)
Cənubi Azərbaycan yazıçısı Səməd Behrənginin 80 illiyi, (1939-1968)
Ramazan bayramı
Qurban bayramı

## YUBİLYAR KİTABLAR

125 il Nəcəf bəy Vəzirov "**Dad yarımçıq əlindən**" (1894)
125 il Nəriman Nərimanov "**Nadanlıq" (**1894**)**
120 il Nəriman Nərimanov "**Nadir şah**" (1899)
110 il Üzeyir Hacıbəyov "**Şeyx Sənan**" operası (1909)
110 il Əliabbas Müznib **"Uşaqlara ibrət**" (1909)
105 il M. S. Ordubadi "**Bədbəxt milyonçu, yaxud Rzaquluxan – firəngiməab"** (1914)
95 il Abdulla Şaiq "**Türk dili"** (1924)
90 il C. Məmmədquluzadə "**Ölülər" (**1929)
90 il Əbdülbaqi Fövzi "**Üfüqlər qızaranda**" (1929)
90 il Mehdi Seyidzadə "**Keçəl Səməd**" (1929)
90 il Mikayıl Rəfili "**Pəncərə**" (1929)
90 il M. S. Ordubadi "**Mollanın yuxusu**" (1929)
90 M. S. Ordubadi "**Kənd alverçisi**" (1929)
90 il Sabit Rəhman "**Son faciə**" (1929)
90 il Şəhriyar "**Divane küçək**" **(**1929)
90 il Vəli Xuluflu "**Koroğlu**" **(**1929)
85 il Abdulla Şaiq "**Oyunçu bağalar**" (1934)
85 il Cahangir Gözəlov "**Qurd və keçi**" (1934)
85 il Ənvər Məmmədxanlı "**Burulğan"** (1934)
85 il Hüseyn Cavid "**Səyavuş" (** 1934)
85 il Mehdi Seyidzadə "**Pinti Həsən**" (1934)
85 il Mikayıl Müşfiq "**Şəngül, Şüngül, Məngül**" (1934)
85 il Mikayıl Rəfili "**Durna**" (1934)
85 il Mirvarid Dilbazi "**Bizim səsimiz**" (1934)
85 il Mirzə İbrahimov "**Həyat üçün**" (1934)
85 il Osman Sarıvəlli "**Dəmir sətirlərim**" (1934)
85 il Rəsul Rza "**Pionerin məktubu**" (1934)
85 il Seyid Hüseyn "**İki həyat arasında**" (1934)
85 il Səməd Vurğun "**Könül dəftəri**" (1934)
85 il Süleyman Rüstəm "**Şairin səsi**" (1934)
85 il Süleyman Rüstəm "**Ulduzlar**" (1934)
85 il Yusif Vəzir Çəmənzəminli "**Qızlar bulağı**" (1934)
80 il Cəfər Cabbarlı "**Firuzə**" **(**1939)
80 il Həmid Araslı "**Füzuli**" (1939)
80 il İlyas Əfəndiyev "**Kənddən məktublar**" (1939)
80 il Məmməd Rahim "**İldırımın kitabı"** (1939)
80 il Mir Cəlal "**Gözün aydın**" (1939)

80 il Rəsul Rza “**Çinar**” (1939)
80 il Sabit Rəhman “**Hədiyyə**” (1939)
80 il Səməd Vurğun “**Muğan**” (1939)
80 il Süleyman Vəliyev “**Şor cüllütü**” (1939)
80 il Süleyman Vəliyev “**Molla Məmiş və sandıq**” (1939)
80 il Şəmsəddin Abbasov “**Günəşli ölkədə**” (1939)
75 il Cəfər Xəndan “**İlk ayrılıq**” **(**1944)
75 il Əhməd Cəmil “**Böyük qardaşımız**” (1944)
75 il Ənvər Məmmədxanlı “**Dirilik çeşməsi**” (1944)
75 il Qantəmir “**Şarlatanlar**” (1944)
75 il Rəsul Rza “**Ölməz qəhrəmanlar**” (1944)
75 il Süleyman Rəhimov “**Saçlı**” (1944)
70 il Əbdürrəhim bəy Haqverdiyev “**Qoca Tarzən**” (1949)
70 il Hökumə Billuri **“Mənim Arzum” (**1949)
70 il İlyas Əfəndiyev “**Şamama**” (1949)
70 il İsmayıl Şıxlı “**Yetər Aslanova**” (1949)
70 il Mikayıl Rzaquluzadə “**İstək**” (1949)
70 il Mirzə İbrahimov “**Azad**” (1949)
70 il Nurəddin Babayev “**Bacılar**” (1949)
65 il Abdulla Şaiq “**Araz”** (1954)
65 il Balaş Azəroğlu “**Çiçəkli tarlalar**” (1954)
65 il Cəmil Əlibəyli “**İlk addımlar**” ( 1954)
65 il Davud Ordubadlı “**Böhtan**” (1954)
65 il Emin Mahmudov “**Muğanda qütb parıltısı**” **(**1954)
65 il Əlfi Qasımov “**Əriməzin ətəklərində**” (1954)
65 il Əli Tudə “**Arazın o tayında**” (1954)
65 il Əliağa Kürçaylı “**Salam gələcək illər**” (1954)
65 il Gəray Fəzli “**Ölkə**” (1954)
65 il Hökumə Billuri “**Mübarizə illərində**” (1954)
65 il Hökumə Billuri “**Şeirlər**” (1954)
65 il Hüseyn Abbaszadə “**Silah yoldaşları**” (1954)
65 il Hüseyn Arif “**Rus dili müəlliməsi**” (1954)
65 il İmran Qasımov, Həsən Seyidbəyli “**Uzaq sahillərdə**” (1954)
65 il İsmayıl Soltan “**Xatirələr**” ( 1954)
65 il İslam Səfərli “**Bahar nəğməsi**” (1954)
65 il Qabil “**Bol məhsullu tarlada**” (1954)
65 il Qılman İlkin “**Sahil küçəsində**” ( 1954)
65 il Mehdi Seyidzadə “**Yeni il hədiyyəsi**” (1954)
65 il Məmməd Rahim “**Sevgi**” (1954)
65 il Məmmədəli Əsgərov “**Cəlil Məmmədquluzadənin tədrisi**” (1954)

65 il Məsud Əlioğlu "**Cəlil Məmmədquluzadənin dramaturgiyası**" (1954)
65 il Mirəli Seyidov "**Sayat Nova**" (1954)
65 il Nağı Nağıyev "**Yer altında**" (1954)
65 il Nəbi Xəzri "**Bakının səhəri**" (1954)
65 il Novruz Gəncəli "**Könüllər açılanda**" (1954)
65 il Rauf İsmayılov "**Böyük ailə**" (1954)
65 il Rəsul Rza "**Könül səsləri**" (1954)
65 il Sabit Rəhman "**Komediyalar"** (1954)
65 il Səməd Vurğun "**Zamanın bayraqdarı**" (1954)
65 il Süleyman Rəhimov "**Ağbulaq dağlarında**" (1954)
65 il Süleyman Rüstəm "**İki sahil**" (1954)
65 il Şəmsəddin Abbasov "**Doğma vətən torpağında**" (1954)
65 il Şəmsəddin Abbasov "**Usta Kamal**" (1954)
65 il Tələt Əyyubov "**Arzu**" **(**1954)
65 il Vidadi Babanlı "**Gəlin**" (1954)
65 il Yusif Əzimzadə "**Üç bayram**" (1954)
65 il Zeynal Cabbarzadə "**Bahar gəlir**" (1954)
60 il Cabir Novruz "**Mənim muğamatım**"( 1959)
60 il C. Cabbarlı **"Sevil"** (1959)
60 il Çingiz Hüseynov "**Novruzgülü**" (1959)
60 il Çingiz Hüseynov **"Çətin yoxuş**" (1959)
60 il Davud Nəsib "**Dağlar danışsaydı**" (1959)
60 il Həsən Mehdiyev "**Naxçıvan**" (1959)
60 il Həsən Seyidbəyli "**Vəfalı it və oğru pişiyin nağılı**" (1959)
60 il Hikmət Ziya **"Bahar gözəldir, ya qış?" (**1959)
60 il Həbibə "**Dilarə bağa gedir**" ( 1959)
60 il Kamal Talıbzadə "**Qorki və Azərbaycan**" ( 1959)
60 il Kərim Faiq "**Kiçik dostlarıma**" (1959)
60 il İlyas Tapdıq "**Gözlər**" (1959)
60 il Qabil "**Mənim mavi Xəzərim"** (1959)
60 il Qeybulla Rəsulov "**Rəhmə gəl, mələyim"** (1959)
60 il Qılman İlkin "**Qalada üsyan"** (1959)
60 il Xəlil Rza "**Sevən gözlər**" (1959)
60 il İsa Hümmətov "**Ətirli çiçəklər**" (1959)
60 il Məmməd Araz "**Sevgi nəğməsi**" (1959)
60 il Mehdi Seyidzadə "**Ürək sözləri"** (1959)
60 il Mədinə Gülgün "**Günlər və xatirələr**" (1959)
60 il Məmməd Cəfər "**Füzuli düşünür**" (1959)
60 il Məmmədrza Afiyət Mərəndi "**Alov" (**1959)
60 il Nazim Axundov "**Molla Nəsrəddin" jurnalının nəşri tarixi"** (1959)

60 il Nəbi Xəzri "**Qızımın nəğmələri**" (1959)
60 il Nəriman Həsənzadə "**Hardasan**" (1959)
60 il Nurəddin Babayev "**Bahar övladları**" (1959)
60 il Nurəddin Babayev "**Təzə dostlar**" (1959)
60 il Salam Qədirzadə "**Yarpaqlar pıçıldaşır**" (1959)
60 il Söhrab Tahir Azər "**Bulaq" (**1959)
60 il Süleyman Rəhimov "**Pəri çınqılı"** (1959)
60 il Şıxəli Qurbanov "**A. S. Puşkin və Azərbaycan**" (1959)
60 il Teymur Elçin "**Bip- Bip" (**1959)
60 il Tofiq Mahmud "**Yola çıxıram**" (1959)
60 il Zaman Qarayev "**Kürən" (** 1959)
60 il Zeynal Babayev "**Bir cinayətin izi ilə"** (1959)
55 il Abdulla Şaiq "**Bənövşə**" (1964)
55 il Aqşin Babayev "**Cazibəli üfüqlər**" ( 1964)
55 il Allahverdi Tağızadə "**Sənin əllərin**" (1964)
55 il Arif Abdullayev "**Arzular**" ( 1964)
55 il Ayaz Vəfalı "**İllər və nəsillər**" (1964)
55 il Azad Şərifov "**Nuxa**" (1964)
55 il Cahangir Gözəlov "**Əbədi heykəl**" ( 1964)
55 il Cəlal Bərgüşad **"Toydan sonra" (** 1964)
55 il Çingiz Ələkbərzadə "**Yarpaq töküləndə**" (1964)
55 il Çingiz Hüseynov **"Əriyən heykəl**" (1964)
55 il Davud Ordubadlı "**Qayğı" (**1964)
55 il Eynulla Ağayev "**Şişpapaq**" (1964)
55 il Əfqan Əsgərov "**Gözəllik sorağında" (** 1964)
55 il Ələviyyə Babayeva "**Kölgə**" (1964)
55 il Əlfi Qasımov "**Adilənin taleyi**" (1964)
55 il Əli Vəliyev "**Əziz nəvələrimə"** (1964)
55 il Əliağa Kürçaylı "**Əsmər və Zəfər"** (1964)
55 il Əlisa Nicat "**Yay axşamı**" (1964)
55 il Əzizə Cəfərzadə "**Qızımın hekayələri**" (1964)
55 il Gülhüseyn Hüseynoğlu "**Mənsur şeirlər**" (1964)
55 il Hacı Kərim Sanılı "**Turut qaçaqları**" (1964)
55 il Həbibə "**Sünbül kukla**" (1964)
55 il Hikmət Ziya "**Ulduzların söhbəti"** (1964)
55 il Hüseyn Abbaszadə "**Ləpədöyəndə" (**1964)
55 il Hüseyn Arif "**Sibir töhfələri**" (1964)
55 il Hüseyn İbrahimov "**Göyərçinin məhəbbəti**" (1964)
55 il Hüseyn Razi "**Ömür yolları**" (1964)
55 il Xalidə Hasilova **"Ləpələr"** (1964)

55 il İlyas Əfəndiyev “**Seçilmiş əsərləri”** (1964)
55 il İnqilab Kərimov “**Azərbaycan və gürcü səhnə ustalarının dostluğu**” (1964)
55 il İsa Hümmətov “**Nənə, əlini mənə ver**” (1964)
55 il İsi Məlikzadə “**Həsrətin sonu**” (1964)
55 il İslam Səfərli “**Qağayılar yorulanda”** (1964)
55 il İslam Cəfərpur “**İllər və kölgələr”** (1964)
55 il İsmayıl Qarayev “**O və mənim anam**” (1964)
55 il Qabil “**Fəxrəddin səyahəti” (**1964)
55 il Qabil “**Küləkli havalarda**” (1964)
55 il Qasım Qasımzadə “**Bənövşə yarpağı**” (1964)
55 il Mehdi Hüseyn “**Bir ay, bir gün**” (1964)
55 il Məcid Şamxalov “**Qaynana”** (komediya) (1964)
55 il Məhərrəm Əlizadə **“Artıq tikə**” (1964)
55 il Məmməd Araz “**Araz axır”** (1964)
55 il Məmməd Arif “**Səməd Vurğunun dramaturgiyası**” (1964)
55 il Məmməd Dadaşzadə “**Dan yeri söküləndə**” (1964)
55 il Məskur Əkbər “**Qaynar bulaqlar**” (1964)
55 il Mir Cəlal “**Bir gəncin manifesti**” (1964)
55 il Mirvarid Dilbazi “**Xatirələr olan yerdə**” (1964)
55 il Mirzə İbrahimov “**Murov dağın ətəyində**” (1964)
55 il Mirzə Muştaq “**O mənim dostumdur**” (1964)
55 il Nəriman Həsənzadə “**Könlüm şeir istəyir**” (1964)
55 il Nəriman Nərimanov “**Bahadır və Sona**” (1964)
55 il Nigar Rəfibəyli “**Dənizin səsi gəlir**” (1964)
55 il Osman Sarıvəlli “**Ömrün keçən günləri**” (1964)
55 il Pənah Xəlilov “**Sovet ədəbiyyatının son nailiyyətləri” (**1964)
55 il Pənahi Makulu “**Gizli zindan**” (1964)
55 il Rafiq Zəka Xəndan “**Meşədə**” (1964)
55 il Rəsul Rza “**Duyğular, düşüncələr**” (1964)
55 il Sabir Əhmədli “**Pillələr**” (1964)
55 il Sabir Məmmədzadə “**İtmiş açar**” (1964)
55 il Sabir Süleymanov “**Çay qırağında**” (1964)
55 il Seyfəddin Dağlı “**Göyçək oğlan**”(1964)
55 il Süleyman Rüstəm “**Bahar düşüncələri**” (1964)
55 il Süleyman Vəliyev “**Məhəbbət buzu əridir**”(1964)
55 il Şamil Dəlidağ “**Dağ üstə dağ**” (1964)
55 il Şamil Xurşid “**İnsan yaşayır**” (1964)
55 il Şamo Arif “**Göz dağı**” (1964)
55 il Şəhriyar “**Heydərbabaya salam**” (1964)
55 il Şəkər Aslan “**Bahar yağışı**” (1964)

55 il Şıxəli Qurbanov "**Əcəb işə düşdük**" (1964)
55 il Tahir Hüseynov "**Səadətimi axtarıram**" (1964)
55 il Teymur Elçin "**Din- dan**" **(**1964)
55 il Tələt Əyyubov "**Hökumə Qurbanova**" (1964)
55 il Tofiq bayram "**Sizi düşünürəm**" (1964)
55 il Tofiq Mahmud "**Utancaq oğlan**" (1964)
55 il Vaqif Nəsib "**Görüş"** (1964)
55 il Vasif Nəsiboğlu "**Etiraf" (**1964)
55 il Vidadi Babanlı "**Həyat bizi sınayır**" (1964)
55 il Yusif Əzimzadə "**Xatırlayacaqsan**" (1964)
55 il Yusif Şirvan "**Buludlar dağılır" (**1964)
55 il Zəkiyyə Qiyasbəyli "**Səmayəni əmək ucaltdı**" (1964)
50 il Elçin "**Açıq pəncərə**" (1969)
50 il Elçin **"SOS"** (1969)
50 il Ələviyyə Babayeva "**Mən tək deyiləm**" (1969)
50 il Əli Saləddin **"Sabir və folklor" (**1969)
50 il Əli Səmədli "**Məktəb səhnəsi**" (1969)
45 il Adil Qasımov **"Biz görüşəndə**" (1974)
35 il Afaq Məsud **"Şənbə gecəsi**" (1984)
35 il Ağalar Mirzə "**Bulaq**" (1984)
35 il Anar "**Sizi deyib gəlmişəm** " (1984)

**Beynəlxalq onilliklər 2016-2025-ci illər**
Birləşmiş Millətlər Təşkilatının bəslənmə ilə bağlı onillik fəaliyyəti
2015-2024-cü illər
Afrika mənşəli xalqların beynəlxalq onilliyi
2014-2024-cü illər
Hər kəs üçün davamlı enerjinin fəaliyyəti
2013-2022-ci illər
Mədəniyyətlərarası əlaqələrin beynəlxalq onilliyi
2011-2020-ci illər
Müstəmləkəçiliyin aradan qaldırılmasının üçüncü beynəlxalq onilliyi
Birləşmiş Millətlər Təşkilatının bioloji müxtəlifliyin beynəlxalq onilliyi
Yol hərəkət qaydalarının təhlükəsizliyinin beynəlxalq onilliyi
2010-2020-ci illər
Birləşmiş Millətlər Təşkilatının səhra və səhralaşma ilə mübarizəyə həsr etdiyi onillik
Beynəlxalq illər
2018-ci il: Avropanın mədəni irs ili elan edilməsi
2018-ci il : Avropanın mədəniyyət paytaxtı elan edildi – Leuvarden (Hollandiya) və Valetta (Malta)
2018-ci il: Kitabın dünya paytaxtı – Afina (Yunanıstan)
2018-ci il: Rusiya və Yaponiyanın çarpaz ili

**Beynəlxalq həftələr**

1-7 fevral – Dünya beynəlxalq  konfessional əlaqələr həftəsi
21-27 mart – İrqçilik və irqçi ayrı-seçkiliyə qarşı mübarizə aparan xalqlar ilə həmrəylik həftəsi
19-23 aprel – Qlobal torpaq həftəsi
23-29 aprel – Birləşmiş Millətlər Təşkilatının yol hərəkət qaydalarının təhlükəsizliyi həftəsi
24-30 aprel – Dünya immunizasiya həftəsi
25-31 may – Qeyri-özünü idarə edən ərazilərin xalqları ilə həmrəylik həftəsi
4-10 oktyabr – Dünya kosmos həftəsi
22-30 oktyabr – Silahsızlaşma həftəsi
6-12 noyabr – Beynəlxalq elm və sülh həftəsi

**Bu tarixi unutmayaq!**

19-20 yanvar – Qanlı yanvar faciəsi, (1990)

26 dekabr – Xankəndinin işğalı günü, (1991)

26 fevral – Xocalı faciəsi, (1992)

2 oktyabr – Xocavənd rayonunun işğalı günü, (1992)

8 may – Şuşanın işğalı, (1992)

17-18 may – Laçın rayonunun işğalı günü, (1992)

3-4 aprel – Kəlbəcər rayonunun işğalı günü, (1993)

7 iyul – Ağdərə rayonunun işğalı günü, (1993)

23 iyul – Ağdam rayonunun işğalı günü, (1993)

23 avqust – Cəbrayıl rayonunun işğalı günü, (1993)

23 avqust – Füzuli rayonunun işğalı günü, (1993)

31 avqust – Qubadlı rayonunun işğalı günü, (1993)

29 oktyabr – Zəngilan rayonunun işğalı günü, (1993)

**Ədəbiyyat siyahısı:**


Azərbaycan Milli Ensiklopediyası : 25 cilddə: Azərbaycan cildi. – Bakı : 2007.- 884s.

Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə) : ensiklopedik məlumat kitabı. – Bakı : 2011. - 1056 s.- şəkilli.

Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi. - Bakı : BS Polygraphic, 2010. - 252s.

İnternet resursları.

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Tərtib edən:** **Məmmədli Ruhiyyə**

**Redaktor:** **Ağazadə Könül**